Azərbaycan folkloru külliyyatı

6

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

VI cild

NAĞILLAR

VI kitab

BAKI - 2007

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

REDAKSİYA HEYƏTİ

Hüseyn İsmayılov, filologiya elmləri doktoru **(sədr);**
İsrafil Abbaslı, filologiya elmləri doktoru, professor;
Teymur Bünyadov, akademik;
Məhərrəm Cəfərli, filologiya elmləri doktoru, professor;
Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü;
Paşa Əfəndiyev, filologiya elmləri doktoru, professor;
Oruc Əliyev, filologiya elmləri namizədi;
Qara Namazov, filologiya elmləri doktoru, professor;
Azad Nəbiyev, AMEA-nın müxbir üzvü;
Seyfəddin Rzasoy, filologiya elmləri namizədi **(məsul katib);**
Kamal Talıbzadə, akademik.

TƏRTİB EDƏNLƏR: f.e.d. Hüseyn İSMAYILOV
f.e.n. Oruc ƏLİYEV

NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

Azərbaycan folkloru külliyyatı, VI cild, Nağıllar (VI kitab), Bakı, "Nurlan" nəşriyyatı, 2007, 400 səh.

4603000000
A ---------- Qrifli nəşr
N – 098 – 2007

©Folklor İnstitutu, 2007

QƏŞƏM ŞAHIN NAĞILI

Biri vardı, biri yoxdu, keçmiş zamanda bir şah vardı. Şahın adı yadımdan çıxıb. Bu şah elə bir şah olub, adı-sanı aləmi tutub. O vaxtlar şahlar gəzməyə çıxardılar. Bir aylığa, üç aylığa.

Bu şah vəzirlə gəzməyə çıxdı. Dağları, daşları gəzdi, gəldi öz torpağında ağsaqqallar deyən bir yer var idi. Dedi, gedim oranı görüm. Bura bir bulaq başı idi ki, orada məleykələr çimirdi. Məleykələrin köynəyi ismi-əzəm idi. Onların gücü də köynəklərində idi. Köynəyə bəni-adəm əli dəyəndə, o, sehrini itirirdi.

Şah gəlib bulağın başına çıxdı. Gördü ki, məleykələr çimirlər. Əlini atdı, birinin paltarını götürdü. Məleykələr burdan çıxıb köynəklərini geyib uçdular. Hansı məleykənin ki, köynəyinə şahın əli dəymişdi, bu qaldı burada.

Dedi:

– Ey bəni-adəm, mən qaldım burada. Əyər kamil bilsən, mən sənlə gedərəm.

Şah baxdı bu elə bir qızdı ki, gözəlliyi nə dillə deyiləsidi, nə də kitaba yazılasıdı. Şahın bir gülündən min gül açıldı, bu qızı da götürüb şahlığa gəldi. taleyinə, qisəmtinə min şükür elədi.

Vaxt gəldi, bunun məleykədən bir cüt oğlu oldu. Böyüyünün ağlı bir az kəm oldu, kiçiyinin adı Qəşəm idi, sahibikamal bir oğlan idi. Şah əhd elədi ki, xudavəndi-aləm, mənə bir ömür ver ki, qırx otaq tikim. Oğluma toy eləyəndə adamların biri qabaq gələcək, biri axırda gələcək, biri deyəcək, yemək artıq-urtuqdu, gəl qırx otaq tik, hamını da birdən çağır. Şah necə əhd eləmişdi, elə də elədi, qırx otaq tikdi. Qırxıncı otağa məleykənin əlində olan Bilqeyis Yəmənin şəklini vurdurdu.

---

*Qaylənqorçu – şah divanında qoluzorlu, diribaş adam.

Qəşəmlə qardaşı oynayırdılar. Böyük qardaş qayıtdı ki, ay qardaş, bu nədi, dədəmiz tikdirib bizə də göstərmir.

Dedi:

– Get dədəmdən otaqların açarını al gətir, baxaq görək otaqlarda nə var.

Qəşəm qardaşını orada qoyub, getdi anasının yanına. Özünü yetirdi şahlığa. Şah, vəzir, vəkil, qaylənqorçu* oturub bir yerdə söhbət eləyirdilər. Qəşəm qapıdan girdi dedi:

– Ata, o otaqların açarını ver, tamaşa eləyək.

Belə deyəndə şah dərin fikrə getdi, dedi:

– A bala, neynirsən? O otaqları tikdirmişəm bir niyyət üçün.

Qəşəm dedi, yox, ata, açarları ver baxaq. Şahın əlacı kəsildi, çıxarıb açarları verdi. Ancaq qırxıncı otağın açarını vermədi. Qəşəm sevincək qardaşının yanına gəldi. Birinci otağı açdılar, heç nə yox idi. İkincidə də heç nə yox idi. Beləcə, otuz doqquz qapını açdılar, gördülər otaqlarda heç nə yoxdu. Axırıncı qapıya çatanda baxdılar ki, açar qurtardı.

Böyük qardaş dedi:

– Qardaş, hər nə əməl varsa da, bu otaqdadı. Bunun da açarını atam sana verməyib.

Qəşəm dedi:

– Burada dur, bu saat gedib açarı alaram.

Bəli, Qəşəm bir də qayıtdı şahın yanına. İçəri girib atasına dedi:

– Ata, necə oldu otuz doqquz otağın açarını bizə qıydın, o bircə otağın açarını qıymadın?

Şah dedi:

– A bala, neynirsən, o da o biri otaqlar kimi boşdu.

Dedi:

– Yox, gərək verəsən.

Şah çox dedi, bu az eşitdi, axırda məcbur olub açarı verdi. Qəşəm qayıdıb gəldi, qapını açanda şəkili gördü, tir-tab yerə döşəndi. Bildirmi ölübsən, bu ilmi – qıy düşdü şahlığa ki,

Qəşəm öldü. Gəlib Qəşəmi apardılar, ayılanda şəkil deyib durdu. Nə qədər dedilər öyüd-nəsihət elədilər, olmadı. Axırda şah dedi:

– Ay uşaqlar, bunu götürüb aparın ova, qoy könlü açılsın.

Yoldaşları bunu götürüb gətirdilər çölə. Can yanmasa, gözdən nə yaş çıxacaq?! Hərə bir tərəfə dağıldı. Bu qaldı tək. Dedi, mənə nə düşüb, gedib bir az gəzim. Bəli, bu meşənin cığırı ilə gəlib bir fısıllığa düşdü. Bu elə bir fısıllıq idi ki, Qəşəm özü də qorxdu. Əmma geri qayıtmağı da özünə ar bildi. Fısıllığnan bir xeyli yol gedib, çıxdı bir dəryanın qırağına.

Bu dəryanın qırağına çıxsın, sana kimnən xəbər verim, bu cinlər padşahı ilə balıqlar padşahının oğlundan. Bunlar bir-biri ilə siğə qardaş idilər. Bu cinlər padşahının oğlu gəldi balıqlar padşahının oğlunun yanına. Bir az ordan-burdan söhbət elədilər, cinlər padşahının oğlu dedi:

– Qardaş, gedək bir az gəzək.

Balıqlar padşahının oğlu dedi:

– Qardaş, atam icazə verməsə, gedə bilmərəm. Ha indi get mənə icazə al.

Cinlər padşahının oğlu gəldi balıqlar padşahının yanına. Balıqlar padşahı dedi:

– Oğul, bizə görə nə qulluq?

Dedi:

– Əmi, qul sahibi olasan, qardaşıma icazə ver, gedək bir az gəzək.

Balıqlar padşahı bunun sözünü yerə sala bilmədi.

Dedi:

– Bala, gedin bir az gəzin, qayıdın.

Bunlar çölə çıxan kimi oxuyub üfürdülər, oldular balıq. Girdilər dəryaya. Bunlar dəryaya girməkdə, torçu tor atmaqda. Hər ikisi düşdü tora. Cinlər padşahının oğlu oxudu-üfürdü, tordan çıxdı, balıqlar padşahının oğlu qaldı torda. Cinlər padşahının oğlu çıxdı dəryanın qırağına, qondu bir qayanın başına. Dedi, görüm buna kim zəfər yetirəcək.

Torçu arxası bəri toru çəkirdi ki, Qəşəm özünü yetirdi. Baxdı gördü ki, şahın oğlu Qəşəm gəlir. Dedi, xudavəndi-aləm, bu toru atmışam, burdan elə bir şey çıxsın ki, Qəşəmə peşkəş verim. Günlərin bir günündə şah eşidər, əvəzini çıxar. Torçu toru çəkdi, gördü tora elə bir balıq düşüb ki, iki göz istəyir, tamaşa eləsin. Balığı Qəşəmə verəndə, Qəşəm baxdı ki, adam iki gözünə qıyar, ancaq bu balığa qıymaz.

Dedi:

– Balıqçı, sən mənə bunu peşkəş verdin, mən də bunu dəryaya edirəm verirəm, – belə deyib balığı dəryaya atdı, özü də dəryanın qırağı ilə getməyə başladı.

Cinlər padşahının oğlu Qəşəmi səslədi:

– Ay Qəşəm, ay Qəşəm.

Qəşəm baxdı ki, qayanın başında bir şey oturub, ancaq adama oxşamır. Gəl, gəl, dedi. Qəşəm cinlər padşahının oğluna yaxınlaşanda gördü dörd nəfərdilər. Cinlər padşahının oğlu üzünü atasına tutub dedi:

– Ay ata, mənim qardaşımı xilas eləyən bu adamdı.

Cinlər padşahı dedi:

– Ay oğul, indi ki, belə oldu, eşit, mən cinlər padşahıyam, bu da balıqlar padşahıdı, bunlarda bizim oğlanlarımızdı. Gün batanla gün doğan arasında quruda ürəyin nə istəyir, məndən istə, dəryada da ürəyin nə istəyir, bu kişidən istə.

Qəşəm dedi, Vallah, mənə heç nə lazım deyil. Bunlar nə illah etdilər, dedi, yox ki, yox. Cinlər padşahı dedi:

– İndi ki, belə oldu, onda nə vaxt dara düşsən, gələrsən buraya.

Burada sağollaşıb bir-birindən ayrıldılar. Qəşəm qayıtda geri. Gəlib çıxdı yoldaşlarının yanına. Qayıtdılar şəhərə. Aradan bir neçə gün keçmişdi, yenə bunu eşqi cövlan elədi. Genə şah dedi:

– Götürün bunu aparın ova.

Genə kimi sağa, kimi sola getdi. Qəşəm tək qaldı. Dedi,

mənə nə olub, gedim görüm nə var, nə yox. Durdu getdi bir cığırla. Gəlib çıxdı yenə bir fısıllığa. Gördü bir kişi arxası buna sarı ağacın dibində oturub, əlində bir şey deyir:

– Bilqeyis Yəmən baxışı yüz tümən, Bilqeyis Yəmən baxışı yüz tümən.

Qəşəm buna çatanda kişi tez əlindəkini qoynunda gizlətdi.

Dedi:

– Əmi, o nədi?

Dedi:

– A bala, heç nə.

Dedi:

– Əmi, bilmirəm, hər nəsə çıxart göstər.

Dedi:

– A bala, Allaha bax, Tanrıya bax çıx yolunnan get.

Qəşəm dedi:

– Yox ki, yox. Gərək göstərəsən. – kişi əlini atıb qoltuq cibindən bir şəkil çıxartdı. Qəşəm baxdı ki, qırxıncı otaqdakı şəkildi.

Dedi:

– Əmi, bu nədi?

Dedi:

– Bala, bu Bilqeyis Yəmənin şəkilidi. Bilqeyis Yəmən də yer üzünün gözəlidi, o da Kağal döyün əlindədi. Kağal döyün də səksən qolu, qırx başı var, o da yaşar altıncı göydə. Kağal döyün Yəmən şəhərində bir qalaçası var. Qalaçanın kökü yerdən, başı ala buluddan nəm çəkir. Üç ayda bir Bilqeyis Yəməni gətirib qoyur qalaçanın başına, millət yığılır ora. Adlı-sanlı pəhlivanlar orada neçə ildi yatır. Bir dəfə baxmaqnan hər adamnan yüz tümən alır. Sora qızı götürüb qoyur qalaçanın içinə. Deyir, kim Bilqeyis Yəmənin həsrətini çəkir, kim Bilqeyis Yəməni xilas etmək istəyir, məni öldürsün, qızı aparsın. O canından bezənlərdən biri çıxır qalaya, döy də qalxır havaya, hər qolundan bir dəyirman daşı, dəyirman

daşının birini əlindən salır, o adam da daşın altında qalır əzilir. Kağal da öldürdüyü adamların bədənindən qalaya hasar çəkir. Ondan sora genə də qızı götürüb, uçub gedir.

Qəşəm, kişini də götürüb, gəldi yoldaşlarının yanına. Oradan da gəldi düz şahlığa. Kişini də götürüb getdi atasının yanına.

Dedi:

– Atayı-mehriban, bax bu kişini çöldən tapıb gətirmişəm. İndi mən gedəsiyəm, gəl sən mənə icazə ver. Atası çox dedi, bu az eşitdi. Axırda əlacı olmadı.

Dedi:

– A bala, indi ki, belə oldu, ağırdan-yüngüldən nə var götür, sənə yaxşı yol.

Qəşəm, kişiynən düşdü yola.

Dedi:

– Əmi, Yəmən şəhərinə buradan nə qədər yoldu?

Dedi:

– Bala, üç aylıq yoldu.

Yolda fikirləşdi ki, gedib cinlər padşahı ilə sağollaşıb görüşüm.

Dedi:

– Əmi, burada dur, mən indi gəlirəm.

Kişini burada qoyub, gəldi cinlər padşahının oğlu ilə görüşdüyü yerə. Cinlər padşahının oğlu o saat hazır oldu. Qəşəm dedi, atanı da, qardaşlığını da çağır, görüşüm, mən uzaq səfərə gedirəm. Ağzınnan söz çıxan kimi hamısı hazır oldu.

Dedilər:

– Nə var, nə olub?

Dedi:

– Mən gedirəm. Bilqeyis Yəməni dardan qurtarmağa.

Cinlər padşahı dedi:

– Bala, bu çox çətin işdi. Günbatanla gündoğan arasında nəyə desən, mənim iynəm sap tutardı, əmma Kağal döyün məskəni altıncı göydədi. Ora mənim gücüm çatmaz. Bə indi

sən Kağal döyün üstünə nə ilə gedirsən? Qılıncdan, qalxandan, atdan bir şeyin varmı? – Qəşəm çıxartdı qılıncını verdi. Cinlər padşahı elə qılıncı daşa vuranda qılınc parça-parça oldu.

Dedi:

– A bala, bəs sən bununlamı Kağal döyün qarşısına gedirsən? Bə Kağal döy dəyirman daşını əldən qoyanda, sən nə edəcəksən?

Qəşəm dedi:

– Nə edim, olan budu.

Cinlər padşahı üzünü oğluna tutub dedi:

– Oğul, gedərsən Becan qılıncını gətirərsən.

Ağzından söz çıxan kimi, qılınc hazır oldu. Qılıncla qayaya vuranda qaya pendir kimi doğrandı.

Dedi:

– A bala, adam belə şeylə çölə çıxar. – Dedi, – bəs sənin qalxanın hanı?

Qəşəm dedi, budaha. Bir belə daşı götürdü yuxarı atdı, qalxanın altına tutanda, qalxan yastılandı. Dedi, a bədbəxt, adam belə qalxanlamı çölə çıxar? Genə də üzünü oğluna çevirib dedi:

– Gedirsən, Gəyumərd qalxanını* gətirirsən. – O saat Gəyumərd qalxanı hazır oldu. Dedi, a bala, bu elə qalxandı ki, Kağal döy dəyirman daşını əlindən qoyanda, bu o qədər yığılacaq ki, az qalacaq yerə dəysin. Ondan sonra daşı buraxacaq, elə bil ki, yayın ağzından ox çıxır. Ancaq bir az fərasətli ol. – Dedi, – bəs sənin atın?

Qəşəm dedi, budaha.

– A bala, Kağal döyün gəlməyinə üç gün vaxt qalır. Bə sən bu atla iki-üç ay yol gedərsən. – Genə üzünü oğluna çevirib dedi. – Gedərsən tilsimbənd atı gətirərsən. – Bu da hazır oldu.

---

*Gəyumərd qalxanı – İran şahı Gəyumərdin adı ilə bağlı əfsanəvi qalxan.

Qəşəm baxdı ki, bir tülkü, büzüşük atdı.

Dedi:

– Oğul, bu at tilsimbənd atdı, bu göynən uçacaq, gedəcək, harda tilsim oldu, ayaqlarını qoşa uzadacaq. Öldürsəndə bir addım atmaz. Bil ki, qabaqda tilsim var, – bə sənin xərcliyin varmı?

Qəşəm xurcunun gözünə qızıldan-gümüşdən tullamışdı, gətdi qoydu cinlər padşahının qabağına. Bu dəfə cinlər padşahı üzünü çevirdi balıqlar padşahına. Dedi, xərcliyini də sən ver. Balıqlar padşahı da oğlunu göndərdi. O da getdi dəryadan iki dənə dəryayi-nur gətirdi.

Dedi:

– Bala, bu sənin xərcliyin.

Öpüşdülər, halal-hümmət elədilər.

Qəşəm atı da silahları da götürüb gəldi kişinin yanına.

Dedi:

– Əmi, bilirsən nə var?

Dedi:

– Yox.

Dedi:

– Əmi, indi bu atları buraxaq. Bu köpüklü atla gedək. – Dedi, – əmi, Kağal döyün gəlməyinə nə qalıb?

Dedi:

– A bala, Kağal döyün sabah yox, birisi gün gələcək. Biz də bu dəfəyə çatmarıq. Ancaq gələn dəfəyə çatarıq.

Dedi, onda bu köpüklü atla gedək.

Hər ikisi ata suvar oldu. Kişi baxdı ki, atın ayaqları yerdən üzüldü, göynən gedir. Çox çəkmədi ki, kişi gördü Yəmən şəhərinə yetişdilər. Kişi məəttəl qaldı. Dedi, oğul, bax bu, Yəmən şəhəridi.

Atdan düşdülər, gəldilər şəhərin ortasına. Kağal döyün qalaçası düz şəhərin ortasındaydı. Gəldilər çatdılar qalaçaya. Gördülər ki, qalaçanın kökü yerdədi, başı isə ala buluddan nəm çəkir. Adamın sayı-sanbalı yoxdu. Qoyun-quzu kimi yatışıblar.

Salam, bəli, salam. Qəşəm yanındakından soruşdu, qardaş, havaxdan burdasan? Dedi, mən yenicə gəlmişəm, on il olar. O birinə yaxınlaşdı, bəs sən havaxt gəlmisən, dedi, otuz ildi burdayam. O birisi dedi, qırx ildi burdayam. Da əskik gələn beş il idi.

Qəşəm dedi:

– Əmi, bilirsən nə var?

Dedi:

– Nə var?

Dedi:

– Əlli il də otursaq, bir şeydi, bir gün də otursaq, bir şeydi. Sənnən bircə xahişim var. Kağal döy gələndə atı sana verəjəm. Qışqıran kimi atı mənə çatdır, da ayrı şey lazım döyül.

Kişi dedi, o da mənim gözüm üstə.

Kağal döy altıncı göydən qalxanda, tıqqıldı, titrətmə aləmi bürüdü. Baxdılar ki, Kağal döy gəldi. Gəldi nəriltiynən, gurultuynan endi. Elə bil ki, bir dağı dağın belinə qoydular. Gəlib düşdü qalaçaya. Bu Qəşəm də lap qabaqda oturmuşdu. Belə baxanda Kağal döy onu gördü.

Dedi:

– Çoban, deyəsən sən nabələdsən.

Dedi:

– Hə, nabələdəm.

Dedi:

– O yerin qiymətini bilirsənmi ki, orada oturmusan?

Dedi:

– Bilirəm.

Həmən bu dəryayi-nurun bir dənəsini atdı Kağal döyə. Kağal belə baxanda gördü ki, neçə il yığışdırdığı, bundan belə yığışdıra, buna xırda yoxdu.

Dedi:

– Ə çoban, mən buna xırdanı hardan tapım?

Dedi:

– Ay lənətləmə, burada oturan adamın hamısının haqqını al, sən qızı çıxart.

Bu qızı çıxardıb qalaçanın başına qoyanda, millət elə bil suya döndü. Gördülər ki, doğrudan da Xudavəndi-aləm bunu yox yerdən yaradıb. Baxdılar ki, doğrudan da dillə deyiləsi gözəl döyül.

Kağal döy dedi:

– Ay camaat, kim Bilqeyis Yəmənin həsrətini çəkir, kim Bilqeyis Yəməni bu dardan qurtarmaq istəyir, məni öldürsün, qızı aparsın.

O saat qızı götürüb qoydu qalaçanın dalına. Bir dənəsi otuz-qırx il burada gözləyən pəhləvan dedi, mən. Çıxdı meydana, döydə qalxdı havaya. Bunun başının üstünə daşı buraxanda pəhləvan qaldı daşın altında. Götürdü qoydu hasarın boş yerinə. Bu dəfə Qəşəm özünü atdı içəri.

Kağal döy dedi:

– Çoban, sənin pəhləvanlığın da var?

Belə deyib döy bir az da yuxarı qalxdı. Oradan dəyirman daşını buraxdı bunun üstünə. Qəşəm qalxanı tutdu başının üstünə. Qalxan az qaldı yerə dəyə. Nə təhər daşı atdısa, göydə Kağal döyün sinəsini alışdırdı. Kağal döy özünü itirdi. Göydən yerə gəldi. Onacan Qəşəm qılıncı siyirib bunun iyirmi qolunu vurub saldı. Döy gördü ki, bu xına o xınadan döyül. Tez özünü qıza yetirib onu götürdü. Qəşəm qışqırdı:

– Ay mənim atım, – at özünü yetirincə, Kağal döy qızı götürüb qalxdı göyə.

Döy də getdi, Qəşəm də getdi. Bura yığılan adamlar elə bil ki, bu sirrə məəttəl qalmışdılar. Gətirib döyün qollarını çayın üstündən körpü qayırdılar, əlli il də olsa, burda qalıb o adamnan soraq çıxınca onu gözləyəcəyik.

Döy də yaralı-yaralı qızı qaldırdı altıncı göyə, öz məkanına.

Sana hardan xəbər verim, Qəşəmdən. Qəşəm birinci göyə çatanda at qabaq ayaqlarını uzatdı. Qəşəm baxdı ki,

qabaqda tilsim var. Getməyə imkan yoxdu. Qaldı belə. Dedi, ay Allah mən nə edim? Əlac qaldı gözə. Başladı ağlamağa. Az ağlamışdı, çox ağlamışdı, nurani sifət bir qoca peyda oldu.

Dedi:

– A bala, niyə ağlayırsan?

Dedi:

– Ay əmi, burada qalmışam, gedə bilmirəm. Gedirəm döyün məskəninə, Bilqeyis Yəməni qurtarmağa.

Dedi:

– Ay oğul, sən ora gedə bilməzsən. Gəl sən bu yoldan qayıt. – Buna nə qədər dedisə, əmələ gəlmədi.

Qəşəm dedi, əmi, bu yolda ölsəm də qayıtmayacağam. Əgər bilirsən, mənə yol göstər, bilmirsənsə çıx get.

Dedi:

– A bala, indi ki, belə oldu, onda eşit. Bu at ki, səni qaldırıb göyə, sən buz bağlayıbsan, əndərqat-əndərqat*. Bu tərəfdə sola baxacaqsan, görəcəksən bir dənə xoruz ağacın başında yönü qibləyə yatır. Əgər, – dedi, yay oxla birinci dəfə xoruzu saldın, tilsim sındı, canın qutardı, yox, salmadın, onda daş olacaqsan. – Dedi, – a bala, bu kimdi?

Qəşəm belə baxanda, gördü qoca yox oldu.

Belə dönəndə sol tərəfdə bir ağacdı, başında da bir qan qırmızı xoruz gördü. Yay-oxunu hərlədi. Allah, Məhəmməd, Ya Əli deyib, oxu atdı. Xoruz düşdü. Xoruz düşəndə elə bir nərilti, gurultu gəldi ki, az qaldı bunun beyni partlaya. Nərilti, gurultu gəlib düz atın qabağında dayandı.

At bunu qaldırdı ikinci göyə. İkinci göyə çatanda genə at əllərini uzatdı. Qəşəm bildi ki, qabaqda tilsim var. Genə başladı ağlamağa. Bir az ağlamışdı gördü həmin qoca özünü çatdırdı.

Dedi:

---

*Əndərqat-əndərqat – parça-parça, dəstə-dəstə.

– A bala, sən atnan, mən piyada, gəl bu yoldan qayıt. Allaha bax, özünü də, məni də çətinə salma. Sən gedə bilməyəcəksən. Yaxşısı budu, indidən qayıt.

Dedi əmi:

– Olmaz ki, olmaz. Ölsəm də bu yoldan dönməyəcəm.

Dedi:

– A bala, bax bu təpənin başına çıxanda, görəcəksən ki, bir əjdaha sana tərəf gəlir. Bu elə bir əjdahadır ki, insanlar elə bil şəhərdə onun içində gəzirlər. Əjdaha sana tərəf gələndə səni horxuna çəkəcək. Ağzından yaşıl alov çıxacaq. Olmaya bilməyə dalını çöyürsən, bu qılıncı da əlində tutarsan. O səni yığışdırdıqca, qılıncı onu doğram-doğram edəcək. Bir də belə baxacaqsan ki, əjdaha iki parça olub düşdü yerə. Ondan sonra qayıdıb ata suvar ola bilərsən. Yoxsa olmaya-bilməyə, dalını çöyürsən, qaçmaq istəyəsən, bax, məhv olarsan ha.

Dedi, bala, bu kimdi, Qəşəm belə baxanda, gördü qoca yoxdu. Qayıtdı təpənin üstünə çıxdı. Gördü ki, ədjaha buna tərəf gəlir. Əjdaha, nə əjdaha. Bu qorxdu, istədi qoyub qaça, qocanın sözləri yadına düşdü. Qorxa-qorxa qılıncı tutdu.

Əjdaha bunu yığışdırdıqca qılınc bunu doğradı. Bu iki düşdü. Hamının Xudavəndi-aləm dardan qutarsın, bu da dardan qutardı.

Qəşəm ata suvar oldu. At bunu qaldırdı üçüncü göyə. Üçüncü göyə çatanda, at yenə əllərini qabağa verdi. Bu yenə də ağlamağa başladı. Qoca hazır oldu.

Dedi:

– A bala, gəl sən bu yoldan qayıt, mənim sözümə qulaq as. Bura qədər sındıqların tilsim idi, bundan belə məleykələrdi. Sən də bəni-adəmsən. Burdan belə getməyə mümkün yoxdu.

Dedi:

– Əmi, öldü var, döndü yoxdu.

Dedi:

– A bala, indi ki, dönmək yoxdu, onda burdan gedərsən

süd kimi dümağ bir bulaq görəcəksən. Çatan kimi heç zada baxma. O saat əl-üzünü yuyarsan. Ordan sana həm gözəllik gələcək, həm də ağlın artacaq. O suda tilsim var, qırx qız məleykə səni görüb əli qılınclı üstünə gələcəklər onda gözünü yumub cumarsan onların üstünə. Birinin üzündən öpərsən, belə-belə qırxının da üzündən öpərsən. Onlarda səni öldürməyib aparacaqlar öz xanımlarının yanına. Onda xanım deyəcək: – Ay Qəşəm, bəni-adəm doğurdan da, ağılsız olur. Gör sən kimlərin üzündən öpürsən. Onlar mənim qaravaşlarımdı. Onda deyərsən, xanım, bə mən nə bilim, üzünü bəri tut, sənin də üzündən öpüm.

O çalışacaq ki, birinci sənin üzündən öpsün. Əgər sən onun üzündən birinci öpsən, o bir limçə qızıl olub sənin ayağının altına tökülləcək. Əgər o öpsə, sən bir limçə qızıl olub onun ayağının altına tökülləcəksən. Əgər o öpsə, sən bir limçə qızıl olub onun ayağının altına tökülləcəksən. Onda o qızlar da azad olacaq, sən də.

Qoca dedi, Ay Qəşəm, o kimdi bizi güdür. Qəşəm belə dönüb baxanda gördü qoca yoxdu. Qoca necə ki, demişdi, bu elə də elədi.

Genə atına suvar olub qalxdı dördüncü göyə. At genə ayaqlarını uzatdı. Bu başladı ağlamağa. Qoca da özünü yetirdi.

Dedi:

– A bala, mən çox dedim, sən az eşitdin bu gündən belə Allah uğur versin, da bu qədər əziyyət çəkirsən, indi getməyinə mən də tərəfdaram.

İndi sana hardan xəbər verim, Qəşəm evdən çıxan gündən başına nə gəlmişdi, hamısını yazmışdı. Kişi dedi, burda dördüncü göydə Gülüqahqah olur. Bu o gülüqahqahdı ki, oturub öz imarətində, güləndə ağzından gül tökülür qızıl teştə. Onu da su aparıb gedir çarhovuza. Onun gözəlliyinə hər bəni-adəm tab gətirə bilməz, o halda ki, sən olasan. Sən buradan gedərsən onun anasının darvazasının yanına. Anasının üç yüz altmış beş yaşı var. Darvazanı döyərsən, onda onun anası gəlib

darvazanı açacaq. Onda deyərsən, ay nənə, məni bu gecəyə qonaq elə. Olmaya ayrı söz deyəsən ha. Da sən içəri girəndə gözünü açıb heç nəyə baxa bilməyəcəksən, danışa bilməyəksən. Bu behiştin qoxusundan, onun gözəlliyindən sən ət kimi düşəcəksən. Onda cibindən dəftəri çıxararsan, o oxuyacaq. O sənin əhvalatını bilib, sana yazığı gələcək. İstəyəcək ki, səni qızından keçirtsin, qalxasan beşinci göyə. Ona görə də gedib qızına sənin əhvalatını danışacaq. Guya ki, nağıl danışır. Sənin də evdə olduğunu deməyəcək. Onda Gülüqahqah deyəcək ki, nə olaydı, Allahın altında bu oğlanı görəydim. Onda anası ona and verəcək ki, sana zəfər toxundurmasın. O vaxt səni aparacaq Gülüqahqahın yanına. Gülüqahqahın anası deyəcək ki, səni and verirəm südümə, ona dəyməyəsən. O da deyəcək, ana, gərək onda o, mənim üzümə baxa. Anası deyəcək, a bala, o sənin üzünə baxa bilməz. Səni and verirəm südümə, üzünü açma. Deyəcək, ana, ondan soruşacağam mən gözələm, yoxsa Bilqeyis Yəmən? Əgər desə ki, Bilqeyis Yəmən gözəldi, gedirəm onu qurtarmağa, onda özümdə ona kömək eləyəcəyəm. Yox desə ki, sən ondan gözəlsən, səni alıb burda qalıram, onda onu öldürəcəyəm. O Bilqeyis Yəmənin qədrini bilməyəndə, mənim qədrimi nə bilər? Bu dediklərimi yadında saxla, oğlum. Əgər dediklərimə əməl edə bilsən, onda sağ qalıb, beşinci göyə qalxa bilərsən.

Dedi, ə, bu kimdi məndən əl çəkmir? Qəşəm çönüb baxanda qoca yox oldu.

Qoca necə demişdi, Qəşəm elə də elədi. Darvazanı döydü. Arvad gəlib açdı. Arvadın gözəlliyi bunun nə təhər çaşdırdısa, dedi:

– Ay bacı, məni bir gecəliyə qonaq elə.

Dedi:

– Ey bəni-adəm, mənim üç yüz altmış beş yaşım var. Sən nə danışırsan?

Gədə qurudu. Da ayrı söz deyə bilmədi. Arvad belə baxdı-baxdı, dedi, eybi yox, bəni-adəmdi, görüm nə məqsədlə

gəlib. Götürüb Qəşəmi, gəldi evə. Qəşəm gördü ki, dili tutulub danışa bilmir. Çıxardıb dəftəri verdi arvada. Arvad dəftəri alıb oxudu, məsələdən halı oldu, Qəşəmə yazığı gəldi. Sabah durub getdi qızının yanına. Necə ki, mən sizə nəql eləmişdim, eləcə də arvad qızına danışdı. Dedi, ana, hər şey aydındı. Gətir ondan soruşum görüm Bilqeyis Yəmən gözəldi, yoxsa mən. Arvad Qəşəmi gətirdi qızının yanına. Gülqahqah soruşdu:

– Hara gedirsən?

Qəşəm dedi:

– Gedirəm Bilqeyis Yəməni qurtarmağa. – Dedi, – indi bax, görüm mən gözələm, ya Bilqeyis Yəmən. Dedi, yox, Bilqeyis Yəmən səndən gözəldi. İkinci dəfə soruşdu. Dedi, Bilqeyis Yəmən gözəldi. Üçüncü dəfə Gülqahqah ürbəndi üzündən bir az aşağı çəkdi. Qəşəm bunun üzünü görən kimi tir-tab dəydi yerə. Bu ilmi ölübsən, bildirmi. Elə bu vaxt arvad girdi içəri. O saat bildi ki, Gülüqahqah ürbəndi üzündən açıb. Bir nəni-vaynan* bunu özünə gətirdilər. Gülüqahqah dedi, ana, çox heyrətli oğlandı, yola salmaq lazımdır.

Ondan sonra Qəşəm ata suvar oldu, qalxdı beşinci göyə. Qoca yenə hazır oldu. Dedi, qorxma, oğul, da gəlib çatıbsan. Dedi, bə mən sənə demədim ki, Gülüqahqahın anasına nənə de, bə niyə bacı dedin?

Dedi:

– Əmi, onun gözəlliyini görəndə çaşdım.

Dedi:

– Bu, beşinci göydəki məleykələr padşahıdı. İndi gör bu necə gözəldi. Bu məleykələr padşahının on barmağının hər birində bir üzük var. Hər üzüyünün qaşında on min qoşun yatır. Həmən Kağal döyün də açarı ondadır. Kağal döy də altıncı göydə mağarada yatır. Ondan açar alınmasa heç bir çarə yoxdu. Tilsimin hamısı ona tabedi. Gedərsən düz onun bağına.

---

*Nəni-vay – güclə, zorla.

Bir gül kolunun dibində gizlənib yanıqlı-yanıqlı bayatı çəkərsən. O çıxacaq, baxacaq, səni görməyəcək. Onda deyəcək nə ins-cinnisən, üzə çıx. Onda de ki, and iç ki, sana dəyməyəcəyəm, ondan sonra çıxım. Elə ki, and içdi, onda çıxarsan. Sən çıxannan sora baxacaqsan ki, gedə bilmirsən. Onda o özü gəlib səni aparacaq otağa. Orada bir həftədən sora özünə gələcəksən. Onda soruşacaq ki, niyə gəlmisən. Deyərsən ki, gəlmişəm Bilqeyis Yəməni dardan qurtarmağa, açarı ver.

Dedi, ayə, bunlar kimdi? Qəşəm belə baxanda gördü ki, qoca yoxdu.

Qoca necə demişdi, Qəşəm elə də elədi. Bir həftədən sora məleykələr padşahı soruşdu ki, ay Qəşəm, niyə gəlmisən? Dedi, gərək açarı verəsən, Bilqeyis Yəməni qurtaram. Dedi, sən nə danışırsan, bu taxtda mən oturmuşam, əgər açarı versəm, onda tilsim açılar, mən də öz hökmümü itirərəm. Qəşəm dedi, bilmirəm, gərək açarı verəsən. Belə deyəndə qızın acığı tutdu. Götürüb Qəşəmi gətirdi bağa. Oxuyub-üfürüb elədi daş. Tulladı bağa. Geri qayıdanda, qoca hazır oldu.

Dedi:

– Ey, o nədi, o nə daşdı elə?

Məleykələr padşahı dedi:

– Sən kimsən, sənin nəyinə lazımdı?

Qoca dedi:

– Qayıt o daşı dilinnən yala. Apar otağa, elə adam, nə deyirsə, onu da yerinə yetir. Eşitdinmi?

Qız dedi, Xudavəndi-aləm, bədxahsan, bu qocada bu güc olmasaydı, mənim bağıma gəlib belə deyə bilməzdi. Qayıdıb daşı götürdü, üfürdü elədi həmin oğlan. Qəşəm ağzını açan kimi dedi, açarı ver. Dedi, ay Qəşəm, açarı versəm, gərək onda mən də sənnən gedəm. Qız çıxarıb açarı verdi. Tilsim sındı. Nə qədər ki, bu üzüyün qaşında qoşun vardı, hamısını buraxdı.

Özü də Qəşəmnən qalxdı altıncı göyə Kağal döyün məskəninə.

Qız dedi:

– Ay Qəşəm, burada yeddi min döy var. Qapını açan kimi birinci Bilqeyis Yəməni götürərsən. Mən o saat darvazanı bağlayacağam.

Darvazadan içəri girəndə Qəşəm gördü ki, bəni-adəmdən olan döynən döydən olan döy aşıq oynayırlar. Qəşəmi görən kimi döydən olan qışqırdı ki, babamın qolunu qıran gəldi. Belə deyib yüyürdü içəri, onacan qız qışqırdı ki, özünü itirmə, Bilqeyis Yəməni götür. Qəşəm cəld Bilqeyis Yəməni götürdü, darvazadan çıxdı. Döylər özünə gəlincə məleykələr padşahı darvazanı bağladı.

Bilqeyis Yəməni endirdilər məleykələr padşahının imarətinə. Məleykələr padşahı dedi:

– Ay Qəşəm, da mən burada qala bilmərəm. – Belə deyib özü-öz kəbinini kəsdi Qəşəmə.

Qəşəm Bilqeyis Yəməni də, məleykələr padşahını da endirdi Gülüqahqahın imarətinə. Gülüqahqah baxdı ki, Bilqeyis Yəməni də, məleykələr padşahı da gəldi.

Dedi:

– Ay ana, o vaxtdan sınaqdan keçirmişəm, qeyrətli oğlandı, – bu da öz kəbinini kəsdi Qəşəmə.

Nağıl yüyürək olar. Qəşəm üçünü də endirdi Yəmən şəhərinə. O məxluq onu gözləyirdi orada. dedilər, Qəşəm gəlir. Qoşun bunun pişvazına çıxdı. Buna gəcavə düzəldib, gətirdilər düz atasının şəhərinə. Atasına xəbər verdilər ki, Qəşəm gəlir, Bilqeyis Yəməni də, məleykələr padşahını da, Gülüqahqahı da gətirir. Da nə olajaq. Bu nə dilnən deyiləsidi, nə kitaba yazılasıdı. Burda bir toy oldu ki, gəl görəsən. Mənim kimi kasıb-kusub yesin, içsin, desin ki, qurtaracaq. Onlar orada şad oldular, bunlar da burada.

SƏLİMİN NAĞILI

Biri varıymış, biri yoxuymuş. Hasan addı qoja bir kişi varıymış. Bu kişinin varı-yoxu bir arvadı və bir oğlu varıymış. Bu oğlanın adını atası Səlim qoymuşdu. Səlim on dörd yaşına çatanda atası vəfat elədi. Atasının vəfatınnan sonra bütün oluf qalannarı əllərinnən getdi. Ana-bala çox əzab-əziyyətnən ömür sürür, günnərini bir təhər yola verirdilər. Günnər gəlif keşdikcə oğlan böyüyüf həddi-buluğa çatdı. O, kənddərində onun-bunun qapısında nökərçiliknən bir tikə çörək qazanırdı. Səlimin əmisinin bir gözəl qızı varıydı. İndiyə qədər nə qədər elçilər gəlmişdi, heş birinə "hə" deməmişdi. Buna səbəb əmisi oğluydu. O, Səlimi, Səlim də onu oddu məhəbbətnən sevirdi. Ancax kasıf olduğu üçün əmisi qızını Səlimə verməyə razı olmurdu. Axırda bu dərd onu yorğan-döşəyə saldı. Uzun müddət xəstə qaldı, heş bir iş görə bilmədi.

Səlim burda yatmaxda olsun, sizə kimnən danışım, həmin ölkənin padşahınnan.

Yəmən padşahı bu ölkəyə düşmən kəsilmişdi. O, tez-tez bura hücum eliyir, şəhərrəri, kənddəri yernən yeksan edir, əhalini qırıf silahdan keçirirdi. Çox adam öz yurdunnan, yuvasınnan didərgin düşmüşdü. Yaqub şahın ölkəsi dağılmış, düşmən qavağına çıxa biləjək bir pəhləvanı da qalmamışdı. Şah ələşsiz qalıf öz oğlunu düşmənnərin qavağına göndərməyə məjbur oldu. Şahın oğlu pəhləvan livasını geyinif ata süvar oldu. Ata-anasınnan halallaşıf, görüşüf meydana girdi. Yaqub şahın oğlu Yəmən padşahının pəhləvanınnan üz-üzə gəldi. Bu döyüşə baxmağa şahın özü də gəlmişdi. Döyüş təbili vurulanda şah yerinnən qalxmax istədi, ancax dizdəri əsif yerinə oturdu. Döyüşdə gah Yəmən şahın pəhləvanı üstün gəlirdi, gah da şahın oğlu. Axırda Yəmən pəhləvanı şahın oğlunu möhkəm yordu. Bunu hiss eliyən pəhləvan var güjünnən qılıncı şahın oğlunun başına endirdi. Şah bunu görüf yerində qıvrıldı. Ancax şahın oğlu tez qalxanı başına qaldırdı. Qalxana

dəyən qılınşdan od parıldadı. Güjdən düşmüş şah oğlu meydanı tərk etmək istiyirdi ki, ikinci dəfə Yəmən pəhləvanının qılıncı havada parıldadı.

İndi sizə xəvər verim Səlimdən. Səlim qızın dərdinnən yatağa düşüf gejə-gündüz xəstə yatırdı. Bir gün o, yatdığı yerdə bir nurani qoja onu oyadıf dedi:

– Dur, tez geyin! Yəmən şahının pəhləvanı xalqı qırıf qılınşdan keçirdi. Xalqın qanını yerdə qoyma.

Səlim gözünü açarax göy atın üstündəki nurani ağanı görüf yazıx-yazıx inildədi:

– Axı, mən xəstəyəm, qalxmağa güjüm yoxdu, mən nejə döyüşə gedim?

Nurani ağa əlini Səlimin kürəyinə vuran kimi bütün ağrıları yox oluf getdi. O, yataxdan qalxıf geyindi. Pəncərədən baxıf həyətdə atdan və silahdan başqa heş kimi görmədi. Səlim geyinif silahlandı, ata minif döyüş meydanına yollandı. O, dərələrdən, təpələrdən yel kimi süzüf, meşələri keçif özünü döyüş meydanına saldı. Onun əynindəki paltar bu neçə gündə parça-parça olmuşdu. Səlim özünü o zaman yetirdi ki, Yəmən pəhləvanı qılıncla şahın oğlunu iki yerə bölmüşdü. Səlim ölmüş şah oğlunun qılıncını götürüf çılpax halda Yəmən pəhləvanının üstünə şığıdı. Şah oğlunun ölümünə alışıf yanırdı. Elə bu dəmdə oğlunun qanını alan çılpax pəhləvanı görəndə ürəyində sevindi. Səlim çatan kimi Yəmən pəhləvanını qanına qəltan elədi. Bunu görən ordu bir-birinə dəydi. Səlim sağdan vuruf, soldan çıxdı, soldan vuruf, sağdan çıxdı. Az müddət ərzində düşmən qoşununu qırıf darmadağın elədi. Ölən öldü, sağ qalannar da qaçıf cannarını zornan qurtardılar. Döyüşdən geri qayıdan Səlimi şah bağrına basıf öpdü. Yanında qalıf pəhlivannıx etməsini təklif etdi. Bütün var dövlətini ona vəd elədi. Ancax Səlim heş birinə razı olmadı. O dedi:

– Mən əmim qızını sevmişəm. Öz əhdimə çatmasam, dünyada yaşamax mana lazım deyil. Belə olanda şah ona bir otax ayırdı ki, heş olmasa, bir-neçə gün burada qal, yaxşı-yaxşı

dincəl. Səlim bir neçə gün burada yeyif-işdi, dincəldi. Vədə çatan kimi şahın yanına getdi. Ədəfnən salam verif şahdan getməyə rüsxət istədi. Səlim şahnan görüşüf yola düşdü. Səlim çox fikirri olduğunnan yolu azıf başqa səmtə düşdü. Nə qədər çölləri gəzdi, düzdəri, dağları dolandı, amma yolu tapa bilmədi. O, meşənin ətəyinnən keçəndə gördü kü, bir kəlləgöz div qavağında bir sürü qoyun-keçi aparır, içində də dörd-beş adam. O, böyük bir palıdı kökünnən çıxarıf çiyninə götürmüşdü. Div Səlimi görən kimi tutuf onu da qoyunnarın içinə qatdı, aparıf öz mağarasına saldı. Div hər gün Səlimi əlləşdirir, hələ çox arıxsan, səni bir qədər kökəldif sonra yeyərəm, – deyirdi. Hər gün Səlimin yoldaşdarınnan birini şişə taxıf yeyirdi. Səlim mağaradan çıxmağa çox yollar axtardı. Bir nəticə hasil olmadı. Nəhayət, divin gözünü çıxartmağı qərara aldı. Səlim şişi ojağa qoyuf pul kimi qızartdı. Gejə div yatan zaman qızarmış şişi onun tək gözünə soxdu. Div bağırıf yerinnən qalxdı. Nə qədər axtardısa, Səlimi tapa bilmədi. Axırı yoruluf əldən düşdü. O, hər səhər tezdən sürünü çölə çıxardanda Heyiz addı davarı səsdiyif sürünün qavağına salırdı. Bunu bilən Səlim gejə Heyizi kəsif onun dərisinə girdi. Div səhər-səhər mağaranın ağzındakı daşı götürüf ¨Heyiz¨ deyə səsdədi. Səlim tez özünü mağaranın ağzına yetirdi. Div əlini keçinin ayaxlarına atanda Səlim sıçrıyıf mağaradan çölə atıldı. Div Səlimi çöldə nə qədər axtardısa, tuta bilmədi. Səlim uca bir qayaya dırmaşıf oradan iri qaya parçalarını divin başına atmağa başdadı. Div qaya parçalarına tav gətirməyif kəllə-mayallaq dərəyə yuvarranarax cəhənnəmə vasil oldu. Səlim aşağı enif yoldaşdarını axtardı, ancax onnardan heş birini tapa bilmədi. Çünki onnar çölə çıxan kimi qorxularınnan qaçıf oradan uzaxlaşmışdılar. O, divin qoyunlarınnan birini kəsif qovurdu, yola azuqə hazırradı. Səlim nə qədər dolandı, vurnuxdu, nə qədər yol getdisə, heş bir şenniyə gəlif çıxa bilmədi. Götürdüyü azuqə tamam qurtardı. Ajınnan əldən laf düşmüşdü. Bir az da oranı-buranı dolanannan sonra meşənin kənarında bir

qoja kişiyə rast gəldi. Səlim qojuya yaxınlaşıf salam verdi:

– Baba, qurvan olum, ajınnan ölürəm, mənə bir az çörək ver.

Qoja mülayim səsnən ona yanaşıf dedi:

– Bala, evim uzaxdadı, meşənin o biri başındadı. Mən bu yerişnən axşama qədər ora ancax gedif çıxaram. Yaxşısı budu gəl məni dalına al apar sana yemək verim.

Səlim qocanı dalına almağa məjbur oldu. Qoja Səlimin dalına minən kimi ayaxlarını keçirdi onun ortasına, civindən bir biz çıxarıf qulağının divinə vurmağa başdadı. Səlim nə qədər əlləşdisə, bu qayışbaldır qojanı dalınnan sala bilmədi. Oğlan nə tafsa, qoja həmin əlindəki biznən oğlanın qulağının divinə vuruf əlinnən alırdı. Qayışbaldır gejə-gündüz oğlanın dalınnan düşmürdü. Hara lazım olsa, ora sürüf aparırdı. Bu minvalnan Səlim lap arıxlıyıf adam sifətinnən düşmüşdü. Beli yara bağlamışdı. Elə hey fikirrəşirdi ki, nejə eliyim ki, bu qayışbaldırın əlinnən çıxa bilim. Nəhayət, Səlim qayışbaldırın dalında yatdığını hiss edif, həyətə gəldi. Orada bir qavağın baş hissəsini kəsif içini çıxartdı. Onun içərisinə qarpız və üzümün suyunu töküf günün qavağına qoydu. Bir neçə günnən sonra Səlim gördü kü, həmin qoyduğu üzüm suyu təmiz qıjqırıf qalxıf. O, həyətə enib qavıxdakı üzüm şərabını başına çəkmək istədi. Elə bu zaman qayışbaldır əlindəki biznən Səlimin qulağının divinə vuruf onu əlinnən aldı və işməyə başdadı. Səlim nə qədər yalvardısa, qayışbaldır ona bir qurtum da saxlamadı. Bir azdan sonra qayışbaldır məst oluf başdadı bizi yazıq Səlimin harası gəldi sancmağa. Səlim ağrıdan qıvrılır, bilmirdi ki, nə etsin. Nəhayət, qayışbaldır yavaş-yavaş məst oluf yoruldu və ayaxları boşalmağa başdadı. Tamam sürüşüf məst halda Səlimin dalınnan yerə düşdü. Bunu görən Səlim qayışbaldıra aman verməyif, başını bədəninnən ayırdı. Duruf bütün qayışbaldırın məskənini gəzməyə başdadı. Buralarda üst-üstə çoxlu insan cəsəddəri yığılmışdı. Bunnarın hamısı qayışbaldırın öldürdükləri adamlarıydı. Səlim qayışbaldırın

meyidini də sürüyüf onnarın yanına apardı. Başına gələnnər onu qorxuduf lap dəli eləmişdi. İndi düşdüyü hadisədən qorxuf tez davanına tüpürüf bu yerrərdən uzaxlaşmağa başladı. Meşələr keşdi, dağları aşdı. Gejələr qurd-quş dəyməsin deyə ağajdarın başında yatırdı. Səlim xeyli yol getdikdən sonra qalın bir meşiyə rast gəldi. Bu meşədə çoxlu meymun yaşıyırdı. Səlim bura gəlif çatanda meymunnarın şahı təzəcə ölmüşdü. Meymunnar meşənin kənarınnan odun yığıf aparırdılar ki, şahlarına ehsan versinlər. Bu zaman Səlimə rast gəldilər. Meymunlar meşəyə səs salıf bütün meymunnarı çağırıf ora yığdılar. Meymunnar zornan Səlimi gətirif ölmüş şahlarının taxtında oturtdular. Səlim oldu meymunnar şahı. Ölmüş şahın arvadının kəvinini ona kəsdilər.

Səlimin vətən üçün, sevgilisi üçün burnunun ucu göynüyürdü.

O nə qədər qaşmağa yol axtarsa da, bir şey çıxmadı. Meymunnar onu hər yerdə güdür, heş yana çıxmağa aman vermirdilər. Səlimin buradan qopmağa heş bir ümidi qalmamışdı. O elə hey fikirrəşir, canını qurtarmağa çarə axtarırdı. Bunun halına yanan qoja bir meymun bir gün ona dedi:

– Bilirəm, öz vətənin üçün çox darıxırsan. Ancax burdan çıxmax çox çətindi. Mənim sana yazığım gəlir. İsdiyirəm sana kömək eliyim. Ancax mənim dediklərimi gərək heş kimə demiyəsən. Bütün bu meymunnar səhərə yaxın şirin yuxuya gedillər. Bu zaman saraydan elə çıxmalısan kı, səni heş kim görməsin. Xilas olmaq üçün o görünən çayı keşməlisən. Çayın o tərəfinə keçə bilsən, sana heş bir zaval yoxdu. Çünki çaydan o tərəfə keçməyə icazəmiz yoxdu. Oradan başqa hansı səmtə qaşsan meymunnar səni tutuf gətirəjəklər.

Səlim qoja meymuna öz razılığını bildirif yatmağa getdi. O, yerinin içində qıvrılır, meymunnarın yatmasını səvirsizdiknən gözdüyürdü. Yanındakı meymun yuxuya gedən kimi yavaşca sivişif yataxdan düşdü. Keşikçilərin arasınnan keçif qoja Meymunun dediyi çaya doğru üz tutdu. Səlim savah

açılana qədər çayı keşməliydi. Odur ki, bir nəfəsə qaçarax gəlif çaya çatdı. Bu zaman savah açıldı, meymunnara xəvər düşdü. Səlim bir sürü meymunun ona tərəf gəldiyini görüf, özünü çaya atarax üzə-üzə o taya keşdi. Səlim o tayda oturuf dincini almağa başdamışdı kı, meymunnar çaya çatıf dayandılar. Səlimin arvadı olan meymun bir qədər suya girif Səlimi geri çağırmağa başladı. Nə qədər bağırdısa, Səlim geri dönmədi. Gördü kü, Səlim geri dönmür, ondan olan uşaxlarının ikisini də parçalıyıf çaya atdı. Səlim bu mənzərəni gördükdən sonra daha orada dayanmıyıf, asta qaçana göy imam qənim deyif, tüpürdü davanına. Ağzı hara düşdüsə fikir verməyif qaçmağa başdadı. Xeyli getdikdən sonra gedif bir meşəyə çıxdı. Bir az merdən-meyvədən yığıf toqqasının altını bərkitdi. Sonra bir uca ağaş tapıf onun başına çıxdı. Kəmərinnən özünü budaxlara bağlıyıf bir xeyli yatıf dincəldi. Sübh tezdən yenidən yoluna davam elədi. Ancax nə qədər getdisə, meşədən bir yana çıxa bilmədi. Gejələmək üçün bir ağacın başına çıxdı. Elə yatmax isdiyirdi ki, bir də gördü kü, bədheybət bir div gəlif onun yatdığı ağacın divində oturdu. Balaja bir çırax böyüklükdə parıldayan bir daş-qaşı ağacın divinə qoydu. Onun işığı altında ağaşdardan meyvə dərif yeməyə başladı. Səlim qərara aldı ki, nejə olur-olsun gərək qiymətdi daşı əlimə keçirəm. Savah o ağaca çıxanda özünnən bir qədər də palçıx götürdü. Div gejə yenə gəlif əlindəki daş-qaşnan meşəni işıqlandırıf meyvələrdən yeməyə başdadı. Bu zaman Səlim ağacın başınnan palçığı daş-qaşın üstünə atdı. Hər tərəf qarannıxlaşdı. Div elə bir nə'rə qopartdı kı, bütün meşə səsdəndi. O qarannıxda özünü səs gələn tərəfə elə atdı kı, az qaldı Səlim çıxan ağaş yerinnən qopsun. Səhər açılanda Səlim ağaşdan düşüf divin ağaca dəyif öldüyünü gördü. O tez daş-qaşı da götürüf ordan uzaxlaşdı. Meşəni dolanıf gəzdi. Bu zaman meşənin kənarında bir adama rast gəldi. Səlim çox sevindi ona yaxınnaşıf salamlaşdı. Həmin adamnan gəlif çıxdığı yeri öyrəndi. Baxıf gördü kü, bu öz yaşadığı ölkəyə çox yaxındı.

Səlim şəhərə girmək istədi. Ancax üstündəki daş-qaş hər tərəfə işıx saçırdı. Bu vəziyyətdə o şəhərə girməkdən ehtiyat edif həmin daş-qaşı budunu yarıf gizdətdi. Evə əliboş getmək istəmədiyinnən özünə bir iş tapmax qərarına gəldi. O, bazara gəlif bir qədər fırrandı. Bir də gördü kü, bir tacir bazarda xar çəkif özünə nökər axtarır. Səlim tacirnən sevdalaşdı. Bir günə tacir ona yüz tümən verəcəyini bildirdi. Tacir onu gejə bir qayanın divinə gətirif çıxartdı. O, Səlimə dedi:

– Bala, sən bu gejə at leşinin içərisində yatajaxsan, nə yuxu görsən, sabah mana söylüyərsən. Tacir at leşinin ayaxlarını və başını kəsif bir qədər yüngülləşdirdi. Oğlanı atın qarnının içinə qoyuf qavırğaları ağız-ağıza bağladı. Səlim gejə burada bir az qalannan sonra onu yuxu apardı. Bu zaman quzğunnar at leşini qaldırıf uca bir qayanın başına çıxartdılar. Başladılar at leşini didif parçalamağa. Səlim leşin arasınnan çıxıf ətrafa baxdı. Gördü ki, burada o qədər parıldayan daşlar var ki, sayı-hesabı yoxdur, yavaş-yavaş savah açıldı. Tacir qəflə-qatırnan qayanın divinə yaxınlaşdı. O, Səlimi görüf şirin dillə soruşdu:

– Oğul, orada olan daşlardan bura at, sonra da səni salım, baravar gedək.

Səlim parıldayan daşdardan o ku var aşağı tulladı. Tacir qəflə-qatırrarı yüklüyüf yola düşəndə Səlim tacirə yalvardı kı, onun da düşməsinə kömək eləsin. Tacir qayanın o biri tərəfini göstərif dedi:

– Orda yol var, ordan düşərsən.

Səlim gəzə-gəzə gedif bir mağaraya çıxdı. Nə görsə yaxşıdı. Mağara ağzına qədər insan cəsədiynən dolmuşdu. Səlim burda qalıf yazıx-yazıx ağladı. Sonra mağaranın içinə girif gəzməyə başdadı. Çox gəzə bilmədi. Ajınnan huşunu itirif meyiddərin yanına yıxıldı. Səlim burada çox qaldı, az qaldı bilmirəm, gejənin bir vaxtı gördü kü, bir goreşən gəlif can üstündə olan bir adamı sürüyə-sürüyə mağaranın içinə girdi. Həmin goreşən mağaranın dalınnan özü girəsi bir deşik

açmışdı. O, meyidi sürüyüf buradan çölə çıxartdı. Səlim də həmin deşikdən çölə çıxıf ətrafa baxdı. Gördü kü, göydə ulduzdar parıldıyır. O, bu bəladan da qurtardığına çox sevinirdi. Kaftarın getdiyi cığırnan enif şəhərə gəldi, paltarını dəyişif yenə bazarda gəzməyə başdadı. Bir də gördü kü, həmin tacir bazarda nökər axtarır. Səlim tacirə yaxınnaşıf ona nökər oldu. Tacir həmişəki kimi nökəri uca bir qayanın divinə gətirif və təzədən həmin işdəri onun başına açdı. Savah tezdən tacir qəflə-qatırnan gəlif qayanın divində dayanıf əvvəlki kimi nökəri səsdiyif dedi:

– Bala, orada olan parıltılı daşdardan at bura, sonra da səni düşürüm, birrikdə gedək.

Səlim daşdardan aşağı atdı və axırda yekə daş parçasını götürüf tacirə qışqırdı kı, bu çox parıltılıdı, yaxın dur, yerə düşəndə qoyma dağıla.

Tacir bir az irəli gələndə Səlim əlindəki daş parçasını tacirin başına saldı. Tacir yerdə bir az çavalıyıf xırıldaya-xırıldaya öldü. Səlim bir qədər də parıldayan daşdardan götürüf goreşənin həmin yolnan şəhərə gəldi. Həmin daşdarı bazarda satıf xeyli pul qazandı. Ev üçün bir qədər paltar-palaz alıf yola düzəldi.

Səlim evlərinə gəlif gördü kü, anasının ağlamaxdan gözdəri kor oluf. O, oğlunu səsinnən tanıyıf boynuna sarıldı. Uzun ayrılıxdan sonra ana-bala bir-birinə sarılıf ağlaşdılar. Bunnar burada qalsın, sizə bu ölkənin şahından xəvər verək. Bu şah çoxdan idi ki, xəstə yatırdı. Onun xəstəliyinə heş kim əlac eliyə bilmirdi. Münəccimlər fikirrəşif dedilər ki, bizim ölkəmizdə Səlimnən çox yer gəzif, bilən yoxdu. Onu çağırın bəlkə şahın dərdinə o bir əlac tapa. Şah əmr etdi ki, Səlimi tez tapıf onun yanına gətirsinnər. Səlimi tapıf şahın hüzuruna gətirdilər. Şah öz xəstəliyini söyləyif onnan kömək istədi. Səlim dedi:

– Şah sağ olsun. Mən sana kömək eliyirəm. Amma əvvəlcə gərək sən başına gələn işdəri mana olduğu kimi

söylüyəsən.

Şah canının qorxusunnan nə olmuşdusa, hamısını Səlimə danışmağa başdadı.

Mən sapsağlamıydım, heş bir xəstəliyim yoxuydu, hamı hörmətimi saxlıyır, mənnən qorxuf çəkinirdi. Bir gün qapıma dərviş livasında bir seyid gəlif ayaxlarıma yıxıldı və ağlıyıf, yalvarmağa başdadı:

O dedi:

– Şah sağ olsun, mən sizin ədalətdi və xeyirxah olduğunuzu eşidif bura gəlmişəm. İcazə versəniz elə sizin ölkənizdə yaşayıf günümü keçirərəm. Mənim seyidə yazığım gəldi və onu öz sarayımda saxlıyıf xırda-para işdərimə baxdırırdım. Seyid o qədər xeyirxah və dindarıydı ki, baxan deyirdi elə bil peyğəmbər övladıdı. Buna ailəlikcə inandıx. Mən bir gün hazırlaşıb haca getmək istiyirdim. Arvadım əl çəkmədi ki, mən də gedəjəm. Dedi:

– Bəs qızımızı neyniyək, kimə tafşırax. Arvad dedi:

– Elə evimizdə yaşıyan seyiddən yaxşı adam yoxdu. Ona tapşırıf gedək. Biz razılaşıf evi-eşiyi və qızı seyidə tafşırıf haja getdik. Bir neçə vaxtdan sonra qayıdıf gələndə nə görsək yaxşıdı. Həmin seyid qızımızın namusuna toxunuf evdə olannarı da götürüf qaçıf. Mən bərk hirsdəndim. Əmr etdim ki, bütün seyid və mollaları çağırın hüzuruma gəlsin. Bunu eşidən seyid, molla ən'am almax üçün hüzuruma gəldilər. Əmr etdim ki, bunnarın hamısını qılınşdan keçirif, başdarını kəssinlər. Qan su yerinə axdı, günahlı-günahsız hamısını qırdırdım. İndi o vaxtdan nə gülə bilirəm, nə də yata.

Səlim gördü kü, şah çox ədalətsiz və insafsız iş görmüşdü. Odu ku, şaha yazığı gəlif öz başına gələnnəri şaha danışmağa başdadı. Səlim danışdıxca şah gah ağlayır, gah da gülürdü.

Səlim meşədə rast gəldiyi divdən və daş-qaşdan danışmağa başdadı. Daş-qaşın adını çəkən kimi acgöz şah dedi:

– Bu saat o daş-qaşı gərək mana verəsən.

Səlim nə qədər o yan, bu yan elədi gördü şah əl çəkən döyül. Odu ku, bıçaxnan budunu yarıf daş-qaşı çıxarıf şaha verdi. Şah daş-qaşa baxan kimi gözdəri tutuluf, yerindəcə qapqara qaralıf kösövə döndü. El yığılıf şahı dəfn elədi. Sonra yığılıf Səlimi özlərinə şah seçdilər. Səlim yeddi gün, yeddi gejə toy eləyif əmisi qızını da aldı. Anasının gözdərini müalicə etdirif açdırdı. Onnar şad, xoşbəxt ömür sürüf, gün keçirdilər.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıla qulax asanın.

MƏHƏMMƏDİN NAĞILI

Hamam hamam içində, xəlvir saman içində, başını açasan süddü aşın tasına, əriştiyi qarışdırıf gedəsən yasına, yağı məlhəm eliyif tökəsən arasına. O yerdə qurvan eliyəsən ortasına.

Zaman o zamanıydı, pişiklər pəhlivan idi. Qarışqaynan dəvənin zarafatı gəldi. Qarışqa şıllağ atdı, dəvənin bir budu getdi.

Varıydı, yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir padşah varıydı. Bu padşahın üç oğlu varıydı. Böyük oğlunun adı Əhməd, ortancılınınkı Hümmət, kiçiyinin adı Məhəmmədiydi. Günnərin birində padşah bərk xəstələnif yorğan-döşəyə düşdü. Ölümün çatdığını hiss eliyif oğlannarını yanına çağırdı. Üzünü onnara tutuf dedi:

– Mənim əziz balalarım, artıq əjəl gəlif yetişif. Əzrayıl başımın üstünü kəsdirif. Mənim sözdərimə qulaq asın.Vəsiyyətimi yaxşı-yaxşı dinniyin. Mənim padşahlığım böyük oğlum Əhmədə çatajax. Var-dövlətimin hamısını ortancıl oğlum Hümmətə vəsiyyət edirəm. Otağımdakı sandığı da kiçik oğluma verərsiniz.

Padşah vəsiyyətini elədikdən sonra canını oğlannarına tapşırdı. Kişinin oğlannarı onu böyük cəh-cəlalnan kəfi-dəfn eləyif, üçünü, yeddisini, qırxını verdilər. Taxta sahiv olmax vaxtı gəlif çatdı. Atasının vəsiyyət elədiyi kimi böyük qardaş keçif padşahlıx taxtına əyləşdi. Ortancıl qardaş da var-dövlətə yiyələndi.

Bunnar burda qalsın, görək kiçik qardaşın başına nə iş gəldi. Kiçik oğul da açarı götürüf getdi sandığın yanına kı, görsün atası ona nə qoyuf gedif. Sandığın qapağını qaldıranda gözdərinə inanmadı. Sandıqda bir tütək, bir araxçın və bir kisədən başqa heç bir şey yoxuydu. Kiçik qardaş çox bikeflədi. Ürəyində bir az atasının qarasınca söyləndikdən sonra ajıx eləyif evdən baş götürüf getdi. Dərələrdən sel kimi,

təpələrdən yel kimi, badeyi-sərsər kimi az getdi, üz getdi, iynə yarım yol getdi, gəlif bir məkana çatdı. Pay-piyada, aj-susuz yol getməyi Məhəmmədi əldən salmışdı. Evdən getməyinə lap peşman olmuşdu. Oturuf öz-özünə fikirrəşməyə başdadı. Xeyli çək-çevirdən sonra öz-özünə dedi:

– Ay dadi-bidad, atam məni qardaşdarımdan az istəmirdi. Ola bilməz ki, məni onnardan seşsin. Mən tez səflik eliyif çöllü-biyavana düşdüm. Keçənə güzəşt deyəllər.

Ajdıx Məhəmmədin taqətini tamam əlinnən almışdı. Buna baxmıyarax yoluna davam eliyirdi. Bir xeyli getmişdi, gördü kü, uzaxdan evlər görünür. Birdən qara bulud göyün üzünü alıf xarıltıynan-gurultuynan bir yağış tökdü kü, gəl görəsən. Məhəmməd çantasınnan papağını çıxardıf başına qoydu. Axırda gəlif bir şəhərə çıxdı. Bir az gedənnən sonra bir dükanın qavağına çıxdı. Baxıf gördü kı, dünyanın bütün naz-nemətləri buraya düzülüf. Baxdıqca ağzının suyu axıb döşünü isdatdı. Neynəsin, civində beş qəpik pulu da yoxuydu ku, bir şey alıf yeyəydi. Çox çalışdı kı, tamahını saxlasın. Amma ajdığın üzü qara olsun. Nəfsini boğa bilmədi. Əlini uzadıf piştaxtanın üstünnən bir qoğal götürüf tələsik ağzına qoydu. Baxıf gördü kü, heş dillənif-eliyən olmadı. Əlini qorxa-qorxa bir də uzatdı. Gördü kü, yox əşşi, buradakılar heş bunnux deyil. Bir az da cürətə gəldi. Yeməklərdən götürüf tıx yeyənə kimi döşədi. Gözü işığa gələnnən sonra öz-özünə fikirrəşdi. Deyəsən, burdakılar məni görmür. Çox götür-qoydan sonra öz-özünə dedi:

– Nə sirr varsa, bu papaxdadı. Bir bunu başımnan götürüm, görüm nə olur?

Məhəmməd papağı başınnan çıxarıf irəli yeridi ki, bir qoğal götürsün. Dükançı o saat ərşini bunun əlinin üstünə vurdu.

Məhəmməd dedi:

– Aha, indi hər şey mənə aydın oldu. Nə iş varsa, bu papaxdadı.

Təzədən papağı başına qoyuf piştaxtanın dalına keçdi. Torvasını ağzına kimi pul-paraynan dolduruf çıxdı. Özünü verdi şəhərin ortasına. Car çəkdi ki, kim güləşsə, ona ənam verəjəm. Hamı dəydi bir-birinə. Camahat düşdü bir-birinin canına. Yıxılan beş tümən, yıxan on tümən. Kim belə qazanşdan qaçardı. Xülasə, bütün şəhər axışdı meydana. Bir vur-çatdasın başdadıkı, gəl görəsən.

Elə bu handa padşahın qızının qaravaşı da gəlif buraya çıxdı. Başı qarışdı burdakı həngaməyə. Bir də başını qaldıranda gördü kü, şər qarışıf. Tələsik evə qaşdı. Onu görən kimi şahzadə ajıqlanıf dedi:

– Ay çəpəl, bu vaxta kimi harda veyillənirsən? Harda itif-batıfsan, ay qız? Mən səni sübh tezdən şəhərə yollamışam. Sən indi gəlif çıxırsan?

Qaravaş dedi:

– Xanım, evin yıxılmasın şəhərdə bir oğlan var. O, şəhərə bir çaxnaşma salıf, bir vur-çatdasın qoparıf kı, gəl görəsən. Yıxılana beş tümən, yıxana on tümən verir. Bir görənək şeydi.

Qaravaş Məhəmmədi o qədər təriflədi xanımın ağzının suyu axdı. Qaravaşı davanının üstə bir də meydana yolladı kı, get o oğlanı tap gəti bura. Denən, xanım səni görmək istiyir.

Qaravaş bayax davanına tüpürüf meydana sarı qaşdı. Fürsətdiyif oğlanı bir tərəfə çəkdi. Xanımın ismarıcını ona çatdırdı.

Məhəmməd dedi:

– Mən razı, xanıma de ki, axşam onun qonağıyam.

Qaravaş gəlif xanımın dediklərini ona çatdırdı. Xülasə, qarannıx qovuşannan sonra Məhəmməd soraxlaşa-soraxlaşa gəlif xanımın evini tapdı.

İndi sizə xanımnan deyim. Xanım tülküdən bir az qavax yaranmışdı. Hiyləgərrikdə şeytana papış tikirdi. Oğlan evin darvazasınnan içəri kirən kimi özü duruf qaşdı bunun qavağına. Bir dil tökdü, bir xoş gəldin elədi ki, Məhəmmədin

matı-mutu qurudu.

Süfrələr açıldı, min naz-nemət töküldü ortalığa. Xülasə, doyunca yeyif-içənnən sonra xanım yağlı dilini işə salıf soruşdu:

– Məhəmməd, mən bildiyin kimi şah qızıyam. Amma indiyə qədər heş bir adamda nə bu qədər pul, nə də belə səxavət görməmişəm. Soruşmax ayıf olmasın, bu var-dövlət səndə hardandı.

Məhəmməd bir az ağıldan yüngülüydü. Çək-çevirə salmadan birbaşa mətləvə keçif dedi:

– Xanım, burda elə bir sirr yoxdu. Mənim nəyim varsa, bu papaxdadı. Başına qoyan kimi gözəgörünməz olursan. Gözə görünməyənnən sonra şəhərdə nə qədər pul, var-dövlət var hamısı sənindi.

Xanım dedi:

– Məhəmməd, olarmı o papağa bir baxım?

Məhəmməd dinməz-söyləməz papağı torvasınnan çıxarıf xanıma verdi.

Xanım papağı başına qoyuf dedi:

– A qızdar, məni görürsünüzmü?

Qızdar bir ağızdan qışqırdılar:

– Ay allah, xanım niyə birdən-birə qeyvə çəkildi.

Bunu eşidən kimi xanım papağı çıxarıf yanına qoydu. Qızdara əmr elədi:

– Atın oğlanı eşiyə.

Qızdar bayax ha hop eliyif oğlanı gejənin gejə gözü atdılar eşiyə. Məhəmməd bütün gejəni orda-burda veyilləndi. Bir əli oldu, bir də başı. Fikir onu götürdü. İndi bu qürbət eldə mən neyliyəjəm. Kim mənə bir tikə çörək verəjəh.

Qəmini dağıtmax üçün bir daşın üstündə oturuf tütəyini torvadan çıxartdı kı, çalsın. Tütəyi çalan kimi dönüf oldu padşah. Nökər-nayıf, qul-qaravaş ləbbeyk deyif hüzurunda əl-əl üstündə münəzzir dayandılar. Məhəmməd əmr elədi ki, xəzinədən bir kisə qızıl gətirin. Qızılı götürənnən sonra

tütəyin o biri tərəfini üflədi. Hər şey bir anda qeyvə çəkildi. Məhəmməd qızılı götürüf özünü meydana verdi. Yenə dünənki mərəkə başdadı, nə başdadı. Yıxılan on manat, yıxan iyirmi manat. Kim belə qazanjdan qalardı. Hamı dəydi bir-birinə. Şəhərdə uşaxdan böyüyə hamı döndü pəhlivana.

Xanım baxıf gördü kı, şəhərdə dünənkindən də böyük qalmaqal qopuf. Bildi ki, bu həngaməni də həmin oğlan qoparmış olajax. Qaravaşı yanına çağırıf dedi:

– Get gör, bir təhər Məhəmmədi gejə buraya gətirə bilərsənmi?

Qaravaş dedi:

– Xanım sağ olsun, mənim gözdərim üstə. Sənin ismarıcını bu saat yerinə yetirərəm.

Qaravaş meydana yollandı. Məhəmmədi tapıf yüz fitnə-felnən onu yenidən xanımın yanına getməyə razı saldı. Qaravaş qayıdıf xanıma dedi:

– Xanım, Məhəmmədi bir təhər yola gətirmişəm. Axşam yenə hüzurunda müntəzirdi.

Xülasə, şər qarışdı. Bir də gördülər ki, budu Məhəmməd yellənə-yellənə gəlir. Xanım fürsəti fövtə verməyif cumdu onun qavağına. Bir haray-həşir qopardı kı, elə bil doğma qardaşı əzrayılın cəngindən qopuf gəlif.

– Əmim oğlu gəlif, dayım oğlu gəlif. Əlinə su gətirin. Altına döşək salın, çay verin, çörək gətirin – deyə xanım bir haray-həşir saldı kı, Məhəmmədin yadınnan dünənki əhvalatdar büsbütün çıxdı. Yaxşı yeyif-içənnən sonra xanım ordan-burdan söhbət salıf axırda keçdi mətləbə.

– Ay Məhəmməd, niyə özün-özünə qəsd eliyirsən. Oluf-qalanını niyə töküf dağıdırsan. Bu qədər xərcə heç padşah da tav gətiməz. Mən razı olmaram kı, sən var-yoxunu dağıdasan.

Nə başınızı ağrıdım, xanım Məhəmmədi o qədər dannadı, özünü ona o qədər yaxın göstərdi ki, Məhəmməd bu sirri də açası oldu.

Xanım, heş fikir-zad eləmə. Mənim bir tütəyim var. Onu

çalanda mən padşah oluram. Var-dövlətim aşıf-daşır. Dədənə baxma, mənim xəzinəm bitif-tükənən deyil.

Xanım dedi:

– Bu ağ yalan oldu. Elə şey ola bilməz.

Məhəmməd əsəbiləşif dedi:

– İndi ki, inanmırsan, onda gözünnən gör-deyif tütəyi çıxarıf çaldı. Tütək çalan kimi Məhəmməd dönüf oldu şah. Məhəmməd oturduğu taxt ləl-cavahirdən düzəldilmişdi. Qavağında da əmrə müntəzir nökər-naivlər. Məhəmməd tütəyi tərsinə çalan kimi yenə hər şey qeyvə çəkildi.

Məhəmməd gülə-gülə dedi:

– İndi mənim kəramətimə inandınmı, xanım?

Xanım dedi:

– İnandım da sözdü. İndi sən oldun mənim lap gözümün işığı. Tütəyin nə gözəldi, ver bir yaxınnan ona tamaşa eliyim.

Məhəmməd tütəyi əlinnən verən kimi xanım qışqırdı.

– Atın bu gədiyi eşiyə.

Qulluxçular Məhəmmədi qol-bud eliyif atdılar çölə.

Məhəmməd baş-gözünə döyə-döyə qaldı küçələrdə. Savah açıldı. Məhəmməd genə küçələrdə aj-yalavaj veyil-veyil dolanmağa başdadı. Birdən küçədən bir qara qəpik tafdı. Civi cırıx olduğunnan bunu qoymağa yer tapmadı. Çantasını açanda dədəsindən qalan kisiyi gördü. Kisiyi torvadan çıxarıf qəpiyi onun içinə atdı. Bir xeyli veyillənənnən sonra bir dükana getdi. Həmin qara qəpiyi çıxarıf dükançıya uzadıv dedi:

– Buna çatası mana çörək ver.

Dükançı dedi:

– Ay evi yıxılmış bu qədər çörəyi neyliyəjəksən? Məni dolama. De görüm, nə qədər çörək istiyirsən...

Məhəmməd məəttəl qaldı. Dili dolaşa-dolaşa dedi:

– Zəhmət olmasa iki kilo çörək ver, qalanını qaytar.

Dükançı Məhəmmədə iki kilo çörək verdi, bir xeyli də pul qaytardı.

Məhəmməd işi başa düşmüşdü. Kisəni ağzına qədər qara pulnan doldurdu. Çıxarıf baxanda gördü kü, hamısı dönüf oluf qızıl.

Özünü yenə verdi meydana. Yıxana otuz tümən, yıxılana iyirmi tümən deyən kimi camaat axışdı meydana. Burada bir həngamə qofdu ki, ruzigarın gözü belə şey görməmişdi. Şəhərin məmə deyəninnən, pəpə deyəninə kimi hamısı meydana gəlmişdi.

Xanım bir də baxıf gördü kü, əvvəlki günnər yalan oluf. Meydan dağılır. Bütün şəhər əhli bir-birini didir. Elə bil ərəsət-məhşər ayağıdı.

Tez qaravaşı çağırıf dedi:

– Məhəmməd genə dünyanı dağıdır. Gör bir neyliyirsən. Aldadıf buraya gətirə bilərsənmi?

Qaravaş tüpürüf davanına üz qoydu meydana. Çatıf bir təhər Məhəmmədi tafdı. Yüz dil töküf, onun saqqızını oğurradı. Genə də onu xanımın imarətinə getməyə razı saldı.

Xülasə, Məhəmməd şər qarışında xanımın imarətinə getdi. Xanım onu görən kimi qavağına qaşdı. Qolunu boynuna salıf min naz-qəmzəynən otağına gətirdi. Məhəmmədi düz süfrənin başına keçirtdi. Özü də qulluğunda durdu. Məhəmmədi öz işvə-qəmzələrynən elə məst elədi ki, o hər şeyi unutdu. Gözü qaldı xanımın al yanağında, büllur buxağında. Yeyif-içənnən sonra xanım ordan-burdan söhbət salıf axırda gəldi mətləv üstünə.

– Məhəmməd, bəs niyə demirsən bu günkü pullar səndə hardandı, yoxsa qorxursan əlinnən alam? Axı papaxnan tütəyi səni sınamax üçün əlinnən almışam. Bu günkü sirri desən, onnar da sənindi, üstəlik mən də səninəm.

Məhəmmədin gözünə indi xanımnan başqa heş nə görünmürdü. Lap hayıl-mayıl olmuşdu. Odu ku, dedi:

– Xanım, qorxmax nədi? Sən olan yerdə dünya malı nədi ki, mən onnan ötrü qorxam. Sənə mənim bu canım da qurvandı. Mənim bir kisəm var. İçinə nə salsan, dönüf olur

qızıl. Bu günkü mərəkə onun bərəkətinnəndi.

Xanım kisiyi alıf içinə bir qara qəpik atdı. Çıxaranda gördü kü, doğrudan da, dönüf oldu qızıl. Tez qaravaşdara əmr elədi:

– Atın bu gədiyi eşiyə.

Qızdar bəyax Məhəmmədi sürüyüf saldılar bayıra.

Məhəmməd gejiyi səhərə qədər küçədə var-gəl elədi. Çox görür-qoydan sonra dedi:

– Ey dili-qafil, dədəmnən qalan nə vardısa hamısını ağlımın ujunnan itirdim. Bunnan sonra mənim yaşamağımın nə mənası var?!

Daha nə olajaxdı. Məhəmməd başını götürüf şəhərdən çıxdı. Bir qədər gedənnən sonra bir meşəliyə çıxdı. Oranı-buranı bir az gəzənnən sonra baxdı kı, möhkəm ajıf. Meyvədən-zaddan axtardı kı, bir az yeyif toqqanın altını bərkitsin. Bu fikirnən meşəni dolaşanda gözü bir talada bitən bir-neçə ağaca sataşdı. Baxıf gördü kü, bunnarın başı yetişmiş meyvələrnən doludu. Əlini uzadıf ağaşdarın birinnən bir-neçə meyvə qoparıf acgözdüknən yeməyə başdadı. Elə bir meyvəni yenicə udmuşdu ku, gördü başında qollu-budaxlı buynuzdar yarandı. Buynuz nə buynuz. Hərəsi qollu-budaxlı bir ağac. Yerinnən tərpənmək istədisə də mümkün olmadı. Buynuzdar ağaşdara ilişif onu tərpənməyə qoymurdu. Bir təhər bir az ora-bura sürünənnən sonra bir də gördü kü, burda başında iri qara meyvəsi olan bir ağaş da var. Əvvəlcə onnan yeməyə ürəy eləmədi. Bu da başıma bir iş gətirər, evim lap yıxılar – deyə fikirrəşdi. İstədi ki, bu ağacdan uzaxlaşıf getsin, amma ayaxları yerimirdi. Bir az da götür-qoydan sonra öz-özünə dedi:

– İsdanmışın yağışdan nə qorxusu. Onsuz da mənə olan oluf. Belə yaşamaxdansa, ölmək min kərə yaxşıdı. Yeyim, bəlkə bu canımı ala, bir dəfəlik dünya əzavlarından qurtulam. Bu fikirnən də meyvələrdən qoparıf yeməyə başdadı. Elə təzəcə çeyniyirdi, baxdı kı, buynuzdar qopuf töküldü. Oldu anadangəlmə sapsağ. Bu işdən Məhəmməd çox sevindi və öz-

özünə dedi:

– Aha, allah mənimkini yetirdi. İndi mən xanımın dədəsinə elə bil od vurum ku, əri evinə kimi sızıltısınnan gözünə yuxu getməsin.

Tez hər iki meyvədən bir xeyli yığıf sıxdı və onu su işmək üçün götürdüyü qavlara dolduruf çantasına qoydu. Meşədən çıxıf üz tutdu şəhərə tərəf. Gəlif bir qoja qarının evində gejəliyəsi oldu. Bir az rahatdanıf, çaydan-çörəkdən yeyənnən sonra Məhəmməd qarıya dedi:

– Qarı nənə, əgər bu meyvələri aparıf bir fəndnən padşaha və onun qızına yedirə bilsən, səni dünya malınnan qəni eliyəjəm.

Qarı əvvəlcə bir az çəm-xəm elədi. Məhəmməd axır kı, bir təhərnən qarıyı dilə tutuf razı saldı.

Qarı tumanının balağını əlinə dəstəliyif səhərin gözü açılan kimi özünü verdi şahın qızı yaşayan imarətin qavağına. Bir az ordan-burdan söhbət salannan sonra özünün təbibliyinnən, hər dərdə əlac eliyə bilməyinnən söhbət aşdı.

Noolajaxdı, dünyada dərdsiz insanmı olar? Qız başdadı kı, nə bilim, başım belə ağrıyır, gözüm belə qaralır. Daha, nə bilim nələr, nələr...

Qarı dedi:

– Xanım, sənin dərdinin çarəsi məndə. Gəlmişkən bəlkə evinizdə genə ağrıyıf eliyən olar. De, onnara da bir çarə eləyim.

Qız dedi:

– Qarı nənə, dədəmin neçə illərdi ki, yuxusu ərşə çəkilif. Canını heş sağ görmür. Təbib-davanın da bir köməyi olmur. Bəlkə ona da bir əlac eliyəsən.

Qarı boxçasının ağzını açıf dedi:

– Bala, bu meyvələrdən nahar vaxtı bir az göndər atan yesin, qalanını da özün yeyərsən. Bu meyvənin sağaltmadığı dərd-bəla yoxdu.

Qız çox sevinif qarıya ənamnan-zaddan verif onu

hörmətnən yola saldı.

Meyvələrdən bir neçəsini atasına göndərif dedi ki, nahar vaxtı yesin. Qalanını da özü üçün saxladı. Xülasə, nahar vaxtını səvirsizdiknən gözdüyən padşah düşdü meyvələrin canına. Qız da bu tərəfdə başdadı meyvələrdən yeməyə.

Padşah meyvəni yeyən kimi baxdı kı, başında qollu-budaxlı böyük bir buynuz peyda oldu. Qız da o tərəfdə meyvəni yeyən kimi baxıf gördü kü, başında böyük bir buynuz əmələ gəldi. Dədə qıza, qız dədəyə tələsik xəvər yolladı kı, mən yedim başıma da bu iş gəldi, barı sən yemə. Amma iş işdən keçmişdi. Qız da, padşah da elə bir dərdə düçar olmuşdu, daha nə deyim? Bütün bilicilər, aqillər, təbiblər yığılsa da bir nəticə hasil olmadı. Axırda usta çağırıf buynuzdarı kəsdirdilər. Bu daha pis nəticə verdi. Buynuzlar kəsilən kimi yerinnən daha böyükləri pöhrələnif qalxdı.

Xülasə, padşah da, qızı da qaldılar dizdərinə döyə-döyə. İndi sizə xəvəri Məhəmməddən verim. Qarı qayıdıf əhvalatı Məhəmmədə söyləyən kimi o buynuzdarı tökən meyvənin suyunnan şüşəyə dolduruf yollandı şahın sarayına. Yolnan getdikcə öz-özünə oxuyurdu:

– Mən təbibəm, mən loğmanam, təbibəm mən, loğmanam mən.

Şahın adamları bunu eşidən kimi dedilər:

– Əyə, bu yaman loğmannan danışır. Durmayın gedin onu da çağırın, bəlkə bu şahın dərdinə bir əlac eliyə. Bunnan da bir şey çıxmasa, şah dədəmizə od vurajax.

Xülasə, Məhəmmədi apardılar şahın hüzuruna. Məhəmməd kəmali-ədəbnən salam verif baş əyənnən sonra dedi:

– Qibleyi-aləm sağ olsun, mən sənin də, qızının da dərdinə əlac eliyə bilərəm. Amma bir şərtim var.

Şah dedi:

– Oğul, bizi bu bəladan qurtarsan, nə desən onu yerinə yetirəjəm.

Məhəmməd dedi:

– Sənin qızın zornan mənim sehirli papağımı, tütək və kisəmi əlimnən alıf. Əmr elə, onnarı qaytarsın, sizi sağaldım.

Şah tez adam göndərif qızını çağırtdırdı. Qız bir az çəmxəm elədi. İstədi ki, tamam boynunnan atsın.

Məhəmməd şaha dedi:

– Özünüz bilin, dünyada sizin dərdinizin əlacını təkcə mən bilirəm. Əgər dediyimi eləməsəniz, heş kim sizi bu dərddən qurtara bilməyijək.

Şah əlacsız qalıf qızına əmr elədi ki, Məhəmmədin istədiklərini gətirif versin.

Qız adam göndərif papağı, tütəyi və kisəni gətirif Məhəmmədə verdi.

Məhəmməd də şüşədəki meyvə suyunnan hərəsinə bir istəkan verdi. İçən kimi ikisinin də buynuzu qopuf düşdü.

Məhəmməd papağı, tütəyi, kisini götürüf çantasına qoydu və atasının məmləkətinə yola düşdü. Günə bir mənzil, teyyi-mənazil, dağlar-təpələr aşıf, dərələr keçif, gejəni gündüzə qatıf, gündüzü gecəyə qatıf axır kı, gəlif öz evlərinə çatdı. Anasınnan, qardaşdarıynan görüşüf-öpüşüf başına gələnnəri onnara danışdı. Qardaşdarı Məhəmmədin sağ-salamat qayıtması münasibətinən böyük bir şadyanalıx düzəltdilər. Əzrayıl gələnə qədər şad-xürrəm ömür sürüf, gün keçirtdilər.

Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın. Siz sağ, mən salamat. Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu sizin olsun, mən aza da qayılam.

KOR DƏVƏ

Biri var idi, biri yox idi. Bir dəvə vardı. Bu dəvə bir gün yamyaşıl çəmənə rast gəlir. Otdaya-otdaya gedəndə görür ki, qırqovul otların arasında yuva qurub, mışıl-mışıl yatır. Dəvə diyir:

– Buy, başıma xeyir, bu quşdarda abır-həya qalmayıb ki, çəmənin ortasında halalca otuma yiyə duruf.

Qırqovul ayılıb dəvəni gördü, qorxuf öz yuvasından uçdu.

Dəvə başını bulaya-bulaya ayağının altına baxmadan qırqovulun yumurtalarını əzif ordan keçdi. Evi dağılmış, balaları qırılmış qırqovulun çarəsi kəsildi. Ağlaya-ağlaya meşəyə doğru uçdu. Bu vaxt qabağına bir qarğa çıxdı. Qarğa soruşdu:

– Qırqovul bacı, niyə ağlayırsan?

Qırqovul dərinnən köks ötürdü. Göz yaşlarını sel kimi axıda-axıda dedi:

– Ağlamayım neyliyim, a qarğa qardaş? Dəvə gəldi, yumurtalarımı əzdi. Mən yenə bala üzünə həsrət qaldım.

Qarğa dilləndi:

– Qəm yemə, qırqovul bacı, sənin qisasını hunnan alaram.

– Eh, – deyə qırqovul təzədən köks ötürdü,– keçənə güzəşt diyiblər.

Zalım dəvə əzdi, getdi.
Çölü, düzü gəzdi, getdi.
Məni balasız qoyuf,
Yaman qərəzdi getdi.

Qarğa diyir:

– Hayıfını hunda qoymaq istəyirsən? Zalım heyvandı, nə bilirsən, büyün etdiyini sabah təkrarlamayicitdi?

– A qarğa, sən o boyda dəvəyə nə edə bilərsən?

Qarğa:

– Bu daa sənnih dölü. Özüm bilərəm, neynərəm.

Qarğa qırqovulu ağlaya-ağlaya meşədə buraxıb çəmənniyə gəldi. Gördü ki, dəvə uzanıb özünü günə verir. Qarğa dəvəyə yaxınlaşdı. Əvvəl hiyləyə əl atıb dedi:

– Dəvə qardaş, istiyirsən beloo qaşıyım. Sən də rahat-rahat yat.

Dəvənin elə arzusu bu idi, bir malbaş axtarırdı ki, xamnıyıf qoturlarını qaşıtsın. Dedi:

– Qarğa, əgər belə iş görsən savab iş tutarsan. Saa minnatdar ollam.

Qarğa kələyinin baş tutduğunu görüb, dəvənin bədənini qaşımağa başladı. Dəvə xumarlanıb yuxladı. Qarğa fürsəti fövtə vermədi. Atılıb dəvənin sağ gözündən bir dimdik götürdü. Dəvə gözlənilməz zərbədən inildədi. Başını sağa-sola çevirdi. Qarğanın hirsi soyumadı. Cumub dəvənin sol gözünü də çıxartdı. Dəvənin üzü al-qana boyandı.

Bir müddət keçdi. Dəvənin gözlərinin yarası sağaldı. Amma kor qaldı.

Kor dəvə ¨Ah, uf¨" edə-edə bir kolun qırağında oturmuşdu. Bu vaxt bir qurbağa sudan çıxıb, ona yaxınlaşdı. Dəvədən soruşdu:

– Dəvə qardaş, nolutdu? Niyə belə qəmgin oturmusan? Dərdin-sərin nədi?

Dəvə başını səs gələn tərəfə çevirdi. Qurbağaya belə cavab verdi:

– Ay qurbağa, hunnan da böyük dərd olar? Qarğa vuruf gözdərimi çıxardıtdı, hayındı kor qalmışam. Nə yimax yiyə bilirəm, nə də gəzə.

Qurbağa dəvəni bir az da yandırıb tökmək istədi:

– Dəvə qardaş, sən hara, qarğa hara? Ho boyda cəmdəyin var, kiçih bi quşa gücün çatmadı?

– Eh, qıraxdan baxana hasand gəlir, qarğanın hiyləsini bilmirsooz axı? Əvvəl məən ələ alıtdı, belimi qaşıyıf yuxuya

veritdi, sora da gözdərimi çıxardıtdı.

Qurbağa ürəyində didi: "Mən səni qarğadan da betər günə salıcam, honda görərsən ki, özünnən kiçihləri incitmax o qədər də hasan dölü¨."

Qurbağa da hiyləyə keçib kor dəvəyə bildirdi:

– Dəvə qardaş, mən saa köməh edə bilərəm. Sən həm yiyərsən, həm də gəzərsən.

Dəvə qurbağaya sarı çönüb köksünü ötürdü:

– Sən maa nicə köməh eliyə bilərsən axı?

Qurbağa dedi:

– Hayındı hoppana-hoppana gedicəm. Əgər quruldasam, onda bil ki, otdüğ yerdiyəm. Sən də rahat gəlif yiyərsən.

Dəvə razı oldu. Bir müddət qurbağa dəvəni belə dolandırdı. Qurbağa gördü ki, məqam çatıtdı. Ona görə ki, bir-neçə addım aralıda dərin bir quyu tapmışdı. Quyunun başına gəlif quruldadı. Dəvə elə bildi ki, qurbağa onu otduğa çağırır. Sevincəh qabağa yüyürüf guppultuyla quyuya düşdü. Dəvə quyunun divində bir xeyli nərildədi. İmdad dilədi.

Bir azdan dəvənin nəriltisi kəsidli. Qurbağa meşəyə gəlib qarğa ilə qırqovulu gördü. Əhvalatı onlara danışdı. Onların hər ikisi şaddandılar. Qurbağaya ¨əhsən¨" didilər. Qırqovul o qədər fərəhləndi, o qədər fərəhləndi ki, gözdərinnən iki damla yaş axıtdı. Axı bundan sora o balasız qalmiyicihdi.

NAXIRÇI İLƏ PADŞAH QIZI

Biri variymiş, biri yoxiymiş. Allahdan başqa heş kəc yoxiymiş, bir naxırçı variymiş. Bu naxırçının bir arvadı bir də üç inəyi variydi. Bir gün naxırçı naxırı örüşə aparırdı. Bulağın başında gördü ki, bir atdı bir uşağı döyür. Uşaq bərk qışqırır. Naxırçının uşağa yazığı gəlitdi. Atdıya yaxınlaşıb soruşdu:

– Ay kişi, bu uşağı niyə döyürsən?

Atdı cavab verdi:

– Uşağa yazığın gəlir bir inək ver döymiyim.

Naxırçı naəlac qalıb inəyin birini atdıya verdi. Səhəri gün o, naxırı götürüb örüşə getdi. O, gənə gördü ki, həmin atdı uşağı döyə-döyə gəlir. Naxırçı gənə dözmiyif soruşdu:

– Ay kişi, niyə bu uşağı döyürsən? Dünən də döyürdün, büyün də.

Atdı didi:

– Yazığın gəlir bir inək ver döymiyim.

Naxırçı ikinci inəyi də atdıya verdi. Atdı uşağı da, inəyi də götürüb çıxıb getdi. Axşam naxırçı malları yığıb kəndə gəldi. Arvadı coruşdu:

– A kişi, inəyin biri hanı? Dünən də biri, büyün də biri gəlmədi.

Naxırçı didi:

– Arvad, dünənkini verdim yüz qoyuna, büyünkünü də verdim yüz qoyuna, gətiriciyhlər.

Naxırçının arvadı didi:

– Əyər belə olsa, o birini də ver, qoy üç yüz qoyun gətirsinnər.

Səhər naxırçı malı yığıb həmin yerə getdi. Gördü ki, həmin atdı uyşağı gənə döyür. Naxırçı məcbur olub üçüncü inəyi də atdıya verdi. Axşam malları kəndə gətirdi, lakin öyə getmədi, çünki arvadınnan qorxdu. Naxırçı baş götürüb getdi. Yolda o bir-biri ilə vuruşan üç divə rast gəldi. Divlər didilər:

– Bəni-adəm gəldi, o bizim üçün bölər.

Naxırçı coruşdu:

– Niyə dava eliyirsiniz?

Divlər dedilər:

– Bizim üç əşyamız var, ony bizim aramızda böl! Biri xalça, biri araxçın, biri süfrə. Minərsən xalçanın üctünə, Süleyman peyğəmbər eşqinə hara disən aparar. Araxçını qoyarsan başına heş kəs səni görməz. Süfrənin açıb Süleyman peyğəmbərin eşqinə xörək disən hasil olar.

Naxırçı didi:

– Siz qaçın dəryanın, qara süyün üsdünə, hansooz tez gəlsaaz xalça onun.

Divlər yola düzəldilər.

Naxırçı araxçını başına qoyub, süfrəni də götürüb oturdu xalçanın ücdündə. Sonra didi:

– Süleyman peyğəmbər eşqinə məni İsfahana yetir¨”. Naxırçı göyə qalxıb, tezliklə İsfahana çatdı. Xalçanı qatdiyif vurub qoltuğuna gəldi Çümə meçidinə. Bir az oturmuşdu ki, gördü padşahın qızı qırx incə bel qızla meçidə gəldi. Naxırçı girib minbərin altında yeşindi. Bir az keşdi gördü ki, bir oğlan gəldi. Byny görən qızlar tezliklə meçidi tərk elədilər. Padşahın qıziynən oğlan görüşdü. Padşahın qızı didi:

– Əmioğlu, sən yatma, mən at gətirim burdan gedax.

Bir az keşdi qız təzədən meçidə qayıtdı. O, əmisi oğlunu neçə dəfə səslədi, lakin ondan səs çıxmadı. Bir də çağırdı. Gənə də hay verən olmadı. Üçüncü dəfə naxırçı minbərin altından çıxıb didi:

– Can əmiqızı, gəldim.

Hərəsi bir ata minib yola düşdülər. Bir qədər yol getdikdən conra qız baxıb gördü ki, gələn adam onyn əmisi oğlu döyül.

Qız didi:

– Sən mənim əmim oğlu döyülsən! Bəsc bu necə ola bilər? Meçiddə nə danışdıx. Allaha təvəkkül.

Gəlib səhərə yaxın bir göy çəmənniyhdə düşdülər.

– Qız didi:

– Əmioğlu, məəm yuxum gəər, mən yatmaq istiyirəm.

Oğlan yerə oturdu, qız başını onun dizdəri üctünə qoyub yatdı. Naxırçı baxıb gördü ki, bir yerdə sy qayniyir. Getdi ki, su götürsün, amma götürə bilmədi. Soyunub düşdü nohurun içinə, çimdi. Gəlib gənə qızın başını götürüb qoydu dizinin üstünə. Qız yuxudan ayıldı.

Baxıb kişiyə didi:

– Cən məəm əmim oğlu döyülsən. Bəyaxdan qociydin, indi cavansan.

Naxırçı didi:

– Əmi qızı, nə var o sudadı. O suda çimənnən sonra belə oldum.

Qız da coyunuf cuda çimdi. Qız da gözəlləşdi. Ordan qalxıb şəhərə yola düşdülər. Şəhərə çatan kimi onlar otaq tutmaq isdədilər. Lakin onlara layiq heç kəs otaq verə bilmədi. Onlara məsləhət vəzirin otağını gördülər. Gedib vəzirin otağını tutdular. Orda qaldılar. Bir gün vəzir öz-özünə dedi ki, gedim görüm oğlanla qız nağarır. Bu vaxt onlar oturub çay içirdilər. Vəzir onlara xeyli tamaşa elədi. Conra icə padşahın yanına getdi. Padşah qəzəblənib vəzirin üstünə qışqırdı:

– Hardasan bu vaxta qədər?

Bəzir didi:

– Qibleyi-aləm, mən görəni sən görsəydin hələ də gəlməzdin.

Padşah coruşdu:

– Nə üçün?

Bəzir didi:

– Qibleyi-aləm, mənim evimdə bir oğlannan bir qız var. Onlar bir-birinnən gözəldirlər.

Padşah qızla oğlanı görmək isdədi. Padşah vəzirlə birlikdə onun evinə gəldi. Bu iki gənci görüb onların gözəlliklərinə heyran oldu, didi:

– Vay sancıdan öldüm, götürün məni.

Padşahı tez öz sarayına gətirdilər. Padşah vəziri çağırıb didi:

– Vəzir, bir tədbir tök, oğlan ölsün qızı mən alım.

Vəzir didi:

– Qibleyi-aləm, səən bağında bir əjdaha var, qoy oğlan getsin onu öldürmağa. Əjdaha onu öldürər. Onda sən də qızı alarsan.

Padşah vəzirin öyündə olan oğlanı çağırmağı əmr elədi. Gedib oğlanı padşahın hüzuruna gətirdilər. Padşah əhvalatı oğlana söylədi.

Məlikməmməd didi:

– Əmiqızı razı olsa, gedərəm.

Oğlan əmisi qızının yanına getdi, didi:

– Əmiqızı, məni padşah bağında olan əjdahanı öldürmağa göndərir.

Qız didi:

– Əmioğlu, məni sənnən aliciyhlər.

Məlikməmməd didi:

– Mən gərəyh öləm, sonra səni mənnən alsınnar.

Məlikməmməd çomağını götürüb gəlib bağa çıxdı. Gördü bağın içi ilə əjdahanın ləpiri gedir. Gedib gördü ki, əjdaha yatıb. O, çomağı ilə vurub əjdahanı öldürdü. Əjdahanın cəsədini çomağın üsdünə qoyub gətirdi. Padşah bunu görən kimi vəzirə didi:

– Vəzir, bir tədbir tök.

Vəzir didi:

– Padşah sağ olsun, mən heç bir məsləhət verə bilmərəm.

Vəzir didi:

– Qibleyi-aləm, onu pərilər padşahının qızını gətirmağa göndər. Ora gedən daşa dönər. Sonra isə qıza sahib ol.

Məlikməmmədi şahın hüzuruna çağırdılar. Padşah didi:

– Məlikməmməd, gərək gedib pərilər padşahının qızını gətirəsən.

O didi:
– Əmiqızı razı olsa, gedərəm.
Padşah didi:
– Sənə qırx gün möhlət verirəm.
Məlikməmməd gedib əmisi qızına didi:
– Əmiqızı, padşah məni pərilər padşahının qızını gətirmağa göndərir.
– Qız didi:
– Əmioğlu, məni sənnən aliciyhlər.
Məlikməmməd çomağını götürüb yola düşdü. Bir az yol gedənnən sonra meşənin kənarına çatdı. Bir ağacın divində başını qoyub yatdı. Xeyli keşdıxdan sonra gördü ki, ağacdan çığır-bağır səsi gəlir. Gözdərini açıb gördü ki, bir əjdaha ağaca dırmaşır. Ağacda Zümrüd quşunun balaları çığır-bağır salmışdılar. Məlikməmməd əjdahanı öldürdü. Əjdahanın ətini doğriyif Zümrüd quşunun balalarının qavağına tökdü. Balalarınnan biri ağzında əjdahanın ətinnən saxladı. Zümrüd quşu gəlib gördü ki, ağacın divində bir bəni-adam oturub. Gedib bir daş götürüb gəldi ki, onun üsdünə atsın. Balaları qışqırıb didilər:
– Ana, o bizi ölümnən qurtartdı.
Zümrüd quşu daşı başqa yerə atdı. Qənədini açıb Məlikməmmədin ücdünə kölgə saldı.
Zümrüd quşu didi:
– Məlikməmməd, hardan gəlib, hara gedirsən?
Məlikməmməd didi:
– Ay quş, çıx get.
Zümrüd qyşy didi:
– Nə dərdin var maa di, çekinmə! Mən saa kömək eliyərəm.
Məlikməmməd didi:
– Mən gedirəm pərilər padşahının qızını gətirmağa.
Zümrüd quşu didi:
– Məlikməmməd, mənnən gedax. Məəm böyüyh

qardaşım var.. O, nə məslaat eləsə, onu da eliyərox.
Zümrüd quşu Məlikməmmədi öz qanadları üsdünə alıb, havaya qalxdı. Onlar Zümrüd qyşynyn böyük qardaşının yanına çatdılar. Böyük qardaş didi:
– Ay bacı, xoş gəlmisən şişdiyim yoxuydu. Yaxşı gətiribsən.
Zümrüd quşu didi:
– Kəs səso, məəm balalarımı əjdahadan bu qurtarıb.
Bu sözdərdən sonra div Məlikməmmədə çox hörmət elədi.
Div coruşdu:
– Məlikməmməd, hardan gəlib, hara gedirsən?
Məlikməmməd didi:
– Pərilər padşahının qızı üçün gedirəm.
Div didi:
– Gəl sən ora getmə. Ora gedən daşa dönər. Bir dənə qız asmışam saçınnan, onu özünnən apararsan.
Məlikməmməd didi:
– Gedax baxax.
Onlar qıza baxmağa getdilər. Məlikməmməd gördü ki, bu qız birinci qızdan da qəşəngdi.
Məlikməmməd didi:
– Mən gedəndə bunu da özümlə aparıcam.
Div didi:
– İndi ki, gedirsən gedək mənnən böyük qardaşımın yanına.
Onlar yola düşdülər. Gedib üçüncü div olan yerə çatdılar. Div onları görüb didi:
– Ay bacı, ay qardaşlar, xoş gəlmisooz. Həmişə siz gələsooz. Şişdiyim yoxdu. Bəlkə maa şişdiy gətirmisooz.
Onlar hamısı bir ağızdan didilər:
– Kəs səsoo, bu bəni-adam bacının balalarını əjdahanın ağzınnan qurtarıtdı.
Üçüncü div coruşdu:

– Məlikməmməd, hardan gəlib, hara gedirsən?

Məlikməmməd didi:

– Mən Pərilər padşahının qızını gətirmağa gedirəm.

Div didi:

– Məlikməmməd, ora gedən daşa dönər. Bir qız asmışam saçınnan, verrəm onu özünnən apararsan.

Məlikmədd didi:

– Gedax baxax.

Onlar hamıcı birlikdə qıza baxmağa getdilər. Məlikməmməd gördü ki, bu qız iki qızdan da qəşəngdi. Didi:

– Mən Pərilər padşahının qızının dalınca getməliyəm. Ancaq gedəndə bunu da özümnən aparıcam.

Div didi:

– Gedax saa yolu gösdərim.

Məlikməmməd Zümrüd quşunun dalına minib göyə qalxdı. Məlikməmmədi gətirib tilsim olan yerə qoydular.

Div didi:

– Bax, o qəfəsi görürsən? O, qəfəsə gəlib bir quş qonacaq. Hər havadan bir hava çalaciyhdi. Bax bu qədər daşlar hamısı adamdı. O quş gəlib qəfəsdə oxuyanda vursan, onda bu daşlar da insan oliciyh. Əyər vura bilməsən, sən də birinci dəfə dizəcən, ikinci dəfə qurşağacan, üçüncü dəfə bütöv daş oliciyhcən.

Divlər tüklərinnən çıxardıb Məlikməmmədə verdilər. Böyük div didi:

– Məlikməmməd, əgər sən quşu vurcan səni qonax eliyiciyhlər. Yeddi tiyan aş, yeddi camış südünnən. Onda məəm tükümnən yandırarsan, mən gələrəm.

İkinci div didi:

– Səni qonax eliciyhlər, bir xəzinə qızıl, bir xəzinə gümüşə. Onları əlinlə un kimi ovub bir-birinə qatıciyhcən. Məəm tükümnən yandıran kimi hazır olaram.

Üçüncü div didi:

– Məlikməmməd, üçüncü gün səni yeddi tiyan süyə

qonax eliyiciyhlər. Məəm tükümü yandırarcan, o dəyqə hazır olaram.

Onlar Məlikməmmədi burda qoyuf çıxıf getdilər. Məlikməmməd qəfəsin yanına çatdı. Günbatan çağı gördü ki, bir quş gəldi. Məlikməmməd oxu kamana çəkib atdı. Ox yan keşdi. Quş isə uçuf getdi. Məlikməmməd dizinəcən daşa döndü. O günü bir təhər gün keşdi. O biri axşam quş gənə qəfəsə gəldi. Məlikməmməd oxu kamana çəkif atdı. Gənə də ox qəfəsin şüşəsinə dəydi, quş uçuf getdi. Məlikməmməd qurşağacan daşa döndü. O günü də bir təhər keçirdi. Savağı gün gənə quş həmin qəfəsə gəldi. Məlikməmməd oxu kamana çəkif atan kimi quşun gözünnən dəydi. Məlikməmmədi götürdülər, gözünü açanda özünü Pərilər padşahının qızının yanında gördü. Ona didilər:

– Məlikməmməd, bu qədər adamlar ki, var, hamısı daşa dönür. Hindi isə onlar adam olutdular. Onlar da qız üçün gəlmşdilər. Gör icazə verirlərmi, saa qızı aparmağa.

Məlikməmməd bayıra çıxıf didi:

– Ay camaat, siz razısınızmı, mən qızı aparım?

Didilər:

– Biz daşiydox, sən bizi adam elədin. Diməli, qız da saa çatır, götürüf apara bilərsən.

Axşam oldu, bir nəfər gəlib Məlikməmmədi savağa qonax çağırdı. Məlikməmməd razılıxverdi. Cəhər həmin adam gəlif didi:

– Məlikməmməd, gedax qonaxlıx hazırdı.

Onlar yola düşdülər. Məlikməmməd gördü ki, yeddi tiyan aş, üsdündə də yeddi gomuş. Məlikməmməd didi:

– Sən get mən yiyəcəm.

Məlikməmməd böyük divin tükünü yandırdı. O dəyqə div hazır oldu. Div didi:

– Acınnan öldüm.

Məlikməmməd didi:

– Bu aş, bu da gomuş. Nə qədər yiyircən yi.

Div hər tiyanı bir dəfiyə yidi. Gomuşları yiyənnən sonra coruşdu:

– Məlikməmməd, daa yoxdu?

Məlikməmməd didi:

– Yox.

Div çıxıf getdi. O gedənnən sonra qonax eliyən adam gəldi. Gördü ki, Məlikməmməd aşı da, gomuşları yiyif qurtarıtdı.

– Məlikməmməd, qız səəndi, götürüf apara bilərsən.

Başqa bir nəfər də Məlikməmmədi qonax apardı. Gördü ki, bir xəzinə qızıl, bir xəzinə gümüş! O didi:

– Məlikməmməd, bunnarı bir-birinə qarışdırıb ovarsan un kimi.

Məlikməmməd didi:

– Sən get.

O gedənnən sonra ortancıl divin tükünü yandırdı. Div hazır oldu.

Məlikməmməd didi:

– Bu qızıl, bu gümüş. İndi ovginən.

Div bir ondan, bir bundan ovub, qarışdırdı bir-birinə qurtardı.

Məlikməmməd didi:

– Daha yoxdu.

Səhərisi gün başqa bir adam Məlikməmmədi qonax apardı. Məlikməmməd gördü ki, yeddi tiyan isti su var, didi:

– Sən get, mən özüm içərəm.

Sonra üçüncü divin tükünü yandırdı. Div hazır oldu. Məlikməmməd didi:

– Budur, tiyannar hazırdı!

Div hər tiyanı bir qurtuma işdi, soruşdu:

– Daha yoxdur?

Məlikməmməd didi:

– Gəl gidax.

Qız didi:

– Camaata di, gör icazə versələr, gidax.

Məlikməmməd didi:

– Ay camaat, icazə verirsoozsa mən qızı özümnən aparım.

Camaat didi:

– Məlikməmməd, biz səən qulunox. Sən ki, bizi insan elədin, qız cənin ixdiyarındadı. Onu apara bilərsən.

Məlikməmməd divlərin, Zümrüd quşunun tüklərini yandırdı. Üç div və Zümrüd quşu hazır oldu. Məlikməmmədgil Zümrüd quşunun qanadlarına minib havaya qalxdılar. Onlar gəlib böyük divin öyünə çatdılar. Bir gecə qaldılar. Oradan qızı götürüb ortancıl divin öyünə gəldilər, oradakı qızı götürüb gəldilər kiçik divin öyünə, oradan da qızı götürüb gəldilər padşahın şəhərinə. Şəhərin kənarında yerə düşdülər. Məlikməmməd divlərə əmr elədi:

– Padşahı dəryanın ortasına atın.

Divlər padşahı dəryaya atdılar. Sonra gəlib Məlikməmmədi, qızları götürüb padşahın sarayına gəldilər. Padşahın tacını onun başına qoydular.

Məlikməmməd gözəl qızlarnan öylənif xoşbaxd ömürgün keçirmağa başdadı.

VƏFALI DOSTLAR

Biri variymiş, biri yoxiymiş, qədim zamannarda bi padşah variymiş.

Bu padşahın var-döyləti başınnan aşıf-daşırdı. Ancax onun uşağı olmurdu. Öylad dərdi onun belini əyirdi.

Günnərin bir günü padşah başının adamnarı ilə birlikdə ova çıxmışdı. Gənə də birdən-birə padşahın əhvalı pozuldu, tez-tələsik ovdan dala qayıtmağa başdadı. By vaxt padşahın qabağında bir dərviş peyda oldu. Padşah çox fikirri idi. Dərvişi heş görmədi. Dərviş gördü ki, padşah çox fikirridi, didi:

– Ey padşah, niyə belə fikirrisən?

Padşah didi:

– Baba dərviş, məəm saş-saqqalım ağarıf, ancax indiyə kimi heş uşağım olmiyif, fikir eləmiyim nağarım? Bilmirəm mən ölənnən sonra yerimdə kim qalacax, çırağımı kim yandıracax? Bütün var-döylətim kimə qismət olicax?

Dərviş bir alma çıxardıf padşaha verib, didi:

– Bu almanı iki yerə bölərsən. Bir parçasını sən öz arvadınnan yiyərsən, bir parçasını da verərsən bağbanına, öz arvadiynən yiyər. Bunnan sonra səən uşağın olar.

Bəli, dərviş bu sözdəri deyif qurtardı. Padşah başını qaldırdı ki, dərvişə xələt versin, razılıx eləsin. Bir də gördü ki, dərviş yoxa çıxıtdı. O saat bildi ki, bu dərviş adi dərvişdərdən döyül.

Padşah dərvişin didiyi kimi almanın yarısını arvadı ilə özü yidi, yarısını da bağbanına verib arvadı ilə yimağı tapşırdı. Aradan doqquz ay, doqquz gün, doqquz saat keşdi, padşahın da, bağbanın da hərəsinin bir oğlu oldu.

Padşah çox söyündü, muştuluq gətirənnərə çoxlu hədiyyə bağışladı. Uşağın adını Şahin qoydu, bağban oğlunun isə adını Əhməd.

Günnər, aylar keşdi. Uşaxlar böyümağa başdadılar. Onlar böyüməyində olsun, sizə kimnən diyim, bu padşahdan. Bir

vaxt bu padşah uzax məmləkətdə olan bir padşahın qızına aşiq olubmuş. Ancaq o qızı ala bilməyibmiş. Padşah qızı almaq fikrinnən əl çəkib sarayındakı qırxıncı otağa həmin qızın şəklini vurdurmuşdu.

Şahinlə Əhməd gəlib on yeddi yaşına çatdı. Padşah həmişə arvadına tapşırırdı ki, heş vaxt qırxıncı otağın haçarını oğluna verməsin. Yoxsa, qırxıncı otaqdakı şəkili görüb həmin qıza vurular. Bir gün necə oldusa padşahın arvadı haçarları oğluna verdi. Şahin haçarları götürüf otaxları bir-bir aşmağa başladı. Gəlib qırxıncı otağa çıxdı, nə gördü-güllərin, çiçəklərin içində bir qız heykəli. Elə bil ki, qız diridi, görən diyir yimiyim, işmiyim ona tamaşa eliyim. Şahin qızın şəklini görüb bihuş olub yıxıldı yerə. Anası bitəhər onu öz otağına gətirdi. O günnən Şahin başdadı saralıf solmağa.

Padşah bildi ki, oğlu şəkilini gördüyü qıza vurulub. Odu ki, heş bir söz dimədi.

Aradan bir xeyli vaxt keçdi. Bir gün Şahin atasının yanına gəlib didi:

– Ata, maa icazə ver səfərə çıxım.

Padşah didi:

– Oğul, xeyir olsun, di görüm, səfərin haradı?

Oğlan dinmədi. Padşah oğluna nə qədər nəsihət elədisə, gördü oğluna söz kar eləmir, axırda əlacı kəsildi, oğlunun səfərə çıxmağına izin verdi, özü də Şahinə beş yüz atlı qoşdu, amma onlara xəlvətcə tapşırdı ki, bir az gedənnən sonra hərəsi bi mahniynən aradan çıxarsın, axırda oğlum baxıb görər ki, tək qalıb, əlacı kəsilər, o da qayıdıb gələr.

Şahin yola hazırlıq görüf elə atdanmax istiyirdi ki, Əhməd gəlif didi:

– Mən də səənlə geyirəm.

Şahin razı oldu. Onlar hələ uşaqlıxdan dosdux eliyirdilər, and içib dimişdilər: “Kim dosduxda xəyanət eləsə, qoy o, daşa dönsün”.

Onlar başdadılar getmağa. Az getdilər, üz getdilər, dərə,

təpə düz getdilər, dağlar aşdılar, çaylar keşdilər, yeddi gün, yeddi gecə yol getdilər. Şahin bi də baxıb gördü ki, gəlif bir şəhərin kənarına çatıtdılar, amma yanında Əhməddən başqa heş kim yoxdu.

Əhməd didi:

– Gəl biz də qayıdax, qoşunsuz nə öliyə bilərox.

Şahin didi:

– Göörəm, sən də qayıtmaq istiyirsən, qayıt, mən tək gedərəm.

Əhməd didi:

– O qızı tapsam, tək mən taparam, odu ki, səənlə gedirəm.

Şahin didi:

– Yaxşı, gedax.

Dostlar şəhərə getdilər, gördülər ki, bu şəhər böyük bazarları, karvansaraları, öyləri ilə adamı heyran qoyur. Onnar qarşılarına çıxan birinci öyün qapısını döydülər. Qapını bir qoca qarı aşdı:

– Sizə nə lazımdı, buraya nəyə gəlmisooz?

Əhməd didi:

– Nənə, biz azmışox, təsədüfən gəlif buriyə çıxmışox, gecələmağa bizə yer ver.

Qarı didi:

– Keçin içəri, öydə nə varsa, sizindi.

Qarı Şahinlə Əhmədə yer verdi, olannan-qalannan yimax gətirdi. Sonra onnara didi:

– Oğlanlarım, gecə küçəyə çıxmayın, padşahın adamları hər gecə küçələri gəzirlər. Kimi tutsalar, onu ölüm gözdiyir.

Qarı bu sözləri deyib o biri otağa keçdi. Şahin çox yorulmuşdu, dərhal yuxuya getdi. Əhməd isə gecə yariyə kimi o tərəf, bu tərəfə çörüldü, amma gözünə yuxu getmədi. Axırda o durub eşiyə çıxdı, başdadı şəhərə baxmağa. Küçələrdə heş kəs yox idi. O, padşahın sarayına doğru addımladı, hər tərəfi gəzdi, gözdən keçirdi, “Bəlkə də həmin pəri burda yaşıyır”, -

diyə fikirləşdi.

Savağı gün Əhməd qariyə didi:

– Qarı nənə, bizi padşahın adamları ilə qorxudursunuz? Gecə mən bütün şəhəri gəzdim və bir adama da rasd gəlmədim. Sarayda kim yaşiyir.

Qarı gülüb didi:

– Ay çox bilmiş oğlan, sarayda kim yaşiyər? Padşah, onun yeganə qızı və padşahın caray adamnarı. Padşahın qızı gözəldi. Kim onu görsə rahatlığını itirir, o, gecə şəhərə çıxsa, hər tərəf işığa qərq olur.

Şahin didi:

– Qarı nənə, sən buları hardan bilirsən?

Qarı didi:

– Nicə hardan bilirəm, mən padşah qızının qulluxçisiyəm.

Şahin didi:

– Qarı nənə, büyün saraya gediciyhsən?

Qarı didi:

– Hə.

Şahin didi:

– Padşahın qızına diyərsən ki, başqa şəhərdən iki oğlan gəlib.

Qarı saraya getdi. İsdədi qıza bir söz diməsin, amma özünü saxliyə bilmədi, didi:

– Xanım, şəhərimizə, başqa bir şəhərdən iki oğlan gəlib.

Xanım qariyə bi parça kömür verib didi:

– Bunu aparıb verərsən həmin oğlanlara, ancax heş nə dimiyəsən.

Qarı xanımın verdiyi kömürü gətirib qonaxlarına verdi, didi:

– Bunu xanım sizə göndərib.

Şahin didi:

– Pəri bizə gülür, bu bir parça kömür nəyimizə gərəkdi.

Əhməd isə xeyli fikrləşdi, fikirləşdi, axırda barmağını

dişdiyif didi:

– Dosdum, qız bununla bizə dimax isdiyir ki, onun yanına gündüz yox, gecə gedax.

Gecə oldu. Dostlar saraya yaxınlaşdılar. Şahin dedi:

– Əhməd, sən keşik çək, mən qızın yanına bağçiyə gedim.

Şahin iki gecə qızın yanına getdi, Əhməd isə keşik çəkdi. Üçüncü gecə Əhməd didi:

– Dosdum, gərək biz tez öyə qayıdax. Qızın atası xəvər tutub bizi cəzalandırar.

Şahin acıxlanıb didi:

– Sən məəm işimə qarışma, heş dalımca da gəlmə. Maa sən heş lazım döyülsən.

Şahin gənə qızın yanına getdi. Elə bir az söhbət eləmişdilər ki, keşikçilər Şahini və qızı tutdular.

Padşahın əmri ilə onları zindana saldılar. Gecənin bir aləmində Əhməd zindana gəlib çıxdı. Şahin onu görüb başını aşağı saldı.

Əhməd tez qıza çadra verdi, qız çıxıb getdi, Əhməd isə onun yerində qaldı.

Səhər padşah qızını və yad gənci onun yanına gətirmağı əmr etdi. Gözətçilər meydanda xanımın əvəzinə cavan bir oğlanı görüb təəccübləndilər, onu Şahinlə birlikdə padşahın hüzuruna gətirdilər. Padşah onları görüb didi:

– Bəs qızım hanı?

Şahin didi:

– Padşah sağ olsun, məəm yanımda dosdumnan başqa heş kim olmiyitdi, mən heş bir qız görməmişəm.

Padşah didi:

– Ey oğlan, siz kimsooz? Nə cəsarətlə məəm bağıma gəlmisooz?

Əhməd tez didi:

– Padşah sağ olsun, biz ovdan qayıdıf öyümüzə gedirdox. Qayıdanda təsadüfən bura gəlmişox. Elə istiyirdox ki, bir az

dincəlax, burda bizi yaxaliyif zindana saldılar.

Padşah onları azad elədi.

Didi:

– Nə qədər istiyirsooz bu şəhərdə qalın.

Dostlar yiyif-içif yaşamağa başladılar. Günlərin bir günü qarı saraydan gəlib didi:

– Xanımı başqa bir padşahın oğluna verirlər.

Şahin qarının sözlərini eşidib qəmləndi. Əhməd didi:

– Qardaş, qəm yimə, biz gərək gecələrin birində qızı da götürüb qaçax.

Əhməd bir gecə xəlvətcə qızın yanına gedib əhvalatı ona danışdı, qız onlarla getmağa razı oldu. Onlar atlara minib qaşmağa başladılar.

Pəri ilə dosdar qaşmaxda olsun, sizə xəvər verim Şahinin atasınnan.

Padşah elə bildi ki, qoşun qayıdannan sonra oğlu da məcbur olub geri qayıdar. Amma günnər, həftələr keşdi Şahin gəlib çıxmadı. Padşah narahat olmağa başladı. Padşahın adamnarı Şahini axtarıb tapmax üçün hər tərəfi ələk-vələk elədilər. Bir də gördülər ki, Şahin gözəl bir qızla və dosdu Əhmədlə gəlir.

Padşah özü də oğlunu qarşılamağa çıxdı. Qızı görən kimi padşahın halı dəyişdi, amma heş bir söz dimədi.

Hamı saraya daxil oldu. Padşah sarayda cadugər bir qarı saxlayırdı, onu çağırıb tədbir tökməyi, oğlunu hiylə ilə öldürməyi əmr etdi. Qız o saat bunu duyuf didi:

– Gəl dala qayıdax. Atan səən öldürmax, məən almax istiyir.

Əhməd didi:

– Xanım, bunu mən də bilirəm, qorxma.

Hamı qonax otağına toplaşdı. Yimax-içmax məclisi açıldı. Xidmətçilər cadugər qarının işarəsilə pilov çəkib Şahinin qabağına qoymax isdədilər. Padşah didi:

– Oğlum, səən qayıtmağın məən nicə də söyündürdü.

Bu vaxt xidmətçi istədi ki, plovu Şahinin qavağına qoysun, Əhməd buludu götürəndə qəsdən yerə salıb dağıtdı. Bu vaxt pişik qaçıb gəldi, ployu yiyif o saat öldü.

Padşah hiyləsinin baş tutmadığını görüb çox qəmgin oldu. Öz-özünə fikirləşdi ki, yaxşı, Əhməd, sənnən də intiqam almaq maa borc olsun.

Gecə Şahin yataq otağına getmax istiyəndə Əhməd onnan əvvəl içəri girdi. Yorğan-döşəyin üstünə salınmış örtüyə qılıncla zərbələr vurmağa başladı. Dostunun bu hərəkəti Şahini qəzəbləndirdi, amma yatağın içinnən çıxan ilanları görəndə onu dəhşət bürüdü. Əhməd ilanları doğriyif öldürdü.

Səhər Şahinlə qız bağa gəzmağa çıxdı. Bağın gözəlliyi, quşların şən səsi, səhər mehi onlara zövq verirdi. Onlar hər şeyi unutmuşdular. Bu vaxt birdən bir əjdaha onlara tərəf sürünmağa başladı. Əjdahanı görən kimi hər ikisi huşunu itirib yerə yıxıldılar.

Əjdaha az qaldı ki, onları çəkib udsun. Bu vaxt Əhməd bunu gördü, dərhal qılıncını siyirib əjdahanın üstünə atıldı. Bir qədər keçəndən sonra əjdahanın başını vurub yerə saldı. Hər tərəfi qan bürüdü. Əjdahanın qanından hara düşdüsə, yanıb külə dönürdü. Birdən bir damcı qan qızın üzünə sıçradı. Əhməd tez yüyürüb əli ilə qızın üzündən qan ləkəsini sildi. Elə bu vaxt Şahin ayılıb gördü ki, Əhməd qızın boynunnan tutub üzünü silir. Şahin şübhəyə düşdü. Didi:

– Bu nədi, niyə belə eliyirsən?

Əhməd bir söz dimiyif başını aşağı saldı. Şahin onun üstünə düşüb qızın boynunu qucaqlamasının səbəbini təkidlə soruşmağa başladı. Əhməd didi:

– Əgər mən bunu söyləsəm, daşa döncəm.

Qız da didi:

– Dostun saa nə qədər yaxşılıq eliyif, sən isə ona böhtan atırsan. O səən sədaqətli dostundu.

Şahin isə inadla didi:

– Yox, onun başında başqa fikir var.

Əhməd gördü ki, dostu ona inanmır, didi:

– İndi ki, inanmırsan. Onda qoy hər şeyi diyim. Əjdahanın qanınnan bir damcı qızın üzünə düşmüşdü, əgər mən o qan ləkəsini tez silməsiydim, qız gözəlliyini tamam itirib əcayib bir şəklə düşərdi, heş vaxt da tilsimnən qurtara bilməzdi.

Elə bu sözləri dimişdi ki, Əhməd başdan-əyağa daşa döndü.

Pəri göz yaşları tökmağa başladı, Şahin isə tutduğu işdən çox peşiman oldu, amma artıq gec idi. Şahin qıza didi:

– Mən dostumu xilas etmiyincə, rahat yaşiyə bilmərəm.

Qız didi:

– Ey şahzadə, filan şəhərdə bir qoca var, dostuna çarə eləsə o eliyə bilər.

Şahin altdan giyinif üstdən qıfıllandı, üstdən giyinif altdan qıfıllandı, düzəldi yola. Az getdi, üz getdi, dərə, təpə, düz getdi dağlar aşdı, dərələr keçdi, gəlib qızın didiyi şəhərə çatdı. Axtarıb həmin qocanı tapdı. Qoca didi:

– Oğlum, mən dostumun dərmanını diyə bilmərəm, amma mənnən böyük bir qardaşım var, bəlkə o bilə.

Şahin qocadan ayrılıb gənə yolunu əlinə aldı. Gəlib bir başqa şəhərə çıxdı. Axtarıb həmin qocanı tapdı. Gördü ki, bu, qardaşınnan da qocadır. Başına gələnnəri bu qociyə danışdı. Qoca didi:

– Oğlum, doğrudur mən əvvəl gördüyün qardaşımnan yüz yaş böyüyəm, amma səən dostoo dərmanını mən də bilmirəm. Yeddinci dağın o tayında məəm bir böyük qardaşım var, bəlkə o bilə.

Şahin bu qoca ilə də salamatlaşıb yola düzəldi. Az getdi, çox getdi, həmin qocanı tapdı. Gördü ki, bu qoca o qədər qocalıb ki, pambığın içində dəyanıb. Saçı-saqqalı da qar kimi dümağdı. Qoca Şahinə qulaq asıb didi:

– Oğlum, yeddinci dağın başında bir qaya var, həmin

qayanın divində bir bulaq qayniyir. Əgər sən gedib o sudan götürə bilsən, dostunu həyata qaytara bilərsən. Amma həmin bulağın başında bir əjdaha peyda olub. O, bulağa gecə-gündüz keşiy çəkir. Həmin əjdaha tilsimlidi, təkcə onun gözlərinnən oxla vura bilsən, əjdahanı öldürüb sudan götürə bilərsən.

Qoca Şahinə bir yay və ox da verib yola saldı. Şahin az getdi, üz getdi, dərə-təpə düz getdi, yeddi gün yeddi gecə yol getdi qocanın didiyi dağa çatdı. Gördü dağın düz başında bir qaya var. Başladı ora tərəf dırmaşmağa. Elə az qalmışdı ki, bulağa çata. Bir də gördü ki, bir nərilti, gurultu gəlir ki, qulaq tutulur. Hər tərəfi çən-duman basdı, istidən nəfəsi tutulamağa başladı. Gördü ki, bir böyük əjdaha yavaş-yavaş onu özünə tərəf gəlir. Bütün bədəni titrəmağa başladı, zorla oxu ona tərəf tuşladı, amma nişan ala bilmirdi. Çünki əjdaha onu hər dəfə özünə tərəf çəkdikcə, Şahin gah o daşa, gah da bu daşa dəyirdi. Bir təhər dizini yerə qoyub nişan aldı, ha tuşladı, gördü yox, əjdahanın gözünü nişan ala bilmir. "Ya Allah" diyif bir ox atdı, gedib dəydi əjdahanın belinə. Şahzadə dizə kimi daş oldu. İkinci oxu tuşladı, atdı. Bu da gedib dəydi ajdahanın quyruğuna. Şahin oldu qurşağacan daş. Üçüncü oxu atdı, o da əjdahaya dəyməyib boşa çıxdı. Şahin başdan-ayağa daşa döndü.

Şahin burada daşa dönüb qalmağında olsun, görax Əhmədlə Pərinin başına nə gəldi?

Şahin gedənnən sonra Pəri daşa dönmüş Əhmədi qucaqliyif ağlamağa başladı. Onun gözlərinnən yağış kimi tökülən yaş damcıları Əhmədin daşa dönmüş bədəninə töküldü. Hara göz yaşları tökülürdü, daş cana gəlirdi. Pəri soyuq daşı qucaqladı və birdən onun nicə cana gəldiyini hiss elədi. Əhməd daşdan silkələnib əyağa durdu, didi:

– Mən çoxlu yatmışam, Şahin hardadı?

Qız bütün əhvalatı ona danışdı. Sonra didi:

– Əhməd, Şahin hardadısa, başında bir qəza-qədər var. Get filan şəhərdə dünyagörmüş bir qoca var, onun yanına, həmin qoca dostunun harada olduğunu söyliyər.

Əhməd axtara-axtara birinci, ikinci, axırda üçüncü qocanı tapdı. Qoca didi:

– Oğlum, səən dostun əjdahanı öldürə bilmiyif daşa dönüb. Mən ona sehrli yay-ox vermişdim, bu da ona kömək eləmiyif, çünki o səənlə bağladığı əhd-peymanı pozmuşdu. O, səənlə hələ uşaqlıxda əhd-peyman eləmişdi ki, dostluqda kim üz döndərsə daşa dönsün. Oğlum, hindi sən onu xilas elamax üçün gərək gedəsən Pərinin bir əmisi qızı var, divin əlində əsirdi, onu tapasan, o qız divin sehrli çubuğunun yerini bilir, o çubuğu ələ keçirsən, həmin çubuğun köməyi ilə dostunu həyata qaytara bilərsən.

Əhməd hazırlaşıb yola düşdü, az getdi, üz getdi, dərə təpə düz getdi, gəlib bir düzənniyə çatdı. Burda üç yol ayrıcı gördü.

Yol ayrıcındakı iri bir daşın üstündə yazılmışdı: birinci yolla gedən, gedər tez gələr, ikinci yolla gedən gedər, gec gələr, üçüncü yolla gedən gedər, gəlməz. Əhməd üçüncü yolla getdi.

Bir qədər getmişdi, qarşıda bir qoşun ağ atlı gördü, özözünə dilləndi ki, hindi məəm ölümüm çatıf. O, qoşuna tərəf irəlilədi. Gördü ki, qoşun daşa dönüb. Buradan aralanıb yoluna davam elədi.

Xeyli getmişdi, hindi də qara atlı qoşuna rast gəldi. Gənə canına-qorxu düşdü. Yaxınnaşanda baxıb gördü ki, bu atlılar da daşa dönüb. Gənə yoluna davam elədi.

Əhməd bir az da getmişdi, gördü uzaqda qırmızı atlı qoşun dəyanıf. Gəlib onlara çatdı, bu qoşun da tamam daşa dönmüşdü.

Əhməd gənə düzəldi yola, az getdi, çox getdi, gəlib bir qaliyə çatdı. Bu qala o qədər hündüriydi ki, başı buluddan, dibi dəryadan nəm çəkirdi. Əhməd bir təər içəri girdi. Gördü otaqların birində bir qız saçınnan asılıf. Qız onu görən kimi didi:

– Oğlan, div üç günlük səfərə çıxıb, savax harda olsa,

gəlib çıxarar, yazıxsan, burda durma, çıx get, yoxsa gəlib səən öldürər.

Əhməd qızın saçlarını açıb aşağı saldı, didi:

– Ey qız, sən kimsən, gəlib bura nicə çıxıbsan?

Qız didi:

– Ey oğlan, bil və agah ol, mən bir padşah qıziyəm. Bir gün qızdarnan bağa gəzmağa çıxmışdım. Div maa aşiq olubmuş, bağdan məni götürüb qaşdı. Div maa çox əziyyət verdi, ancaq istəyinə çatmadı. Axırda əlacsız qalıb didim ki, istiyirsən məəm vüsalıma çatasan, üç il gözdəməlisən. Sabah üç il tamamdı, div harda olsa gəlif çıxar.

Qız sözünə davam eliyif didi:

– Atam üç dəfə məəm divin əlinnən qurtarmaq üçün qoşun göndərdi. Əvvəlcə böyük qardaşım, sonra ortancıl qardaşım, axırda da kiçik qardaşım qoşun götürüb gəldi ki, məən divin əlinnən xilas eləsin, amma div oları daşa döndərdi.

Əhməd didi:

– Ey gözəl, heş qorxma, mən səən onun əlinnən qurtararam.

Qız didi:

– Oğlan, sən divi öldürə bilməzsən, o tilsimlidi, amma mən saa bir sirr açıcam. Divin gücü, ağlı, canı qırxıncı otaqdakı şüşədəki quşlardadı. Həmin quşları öldürsən, div ölər.

Əhməd qırxıncı otağa gedib yuxarıdan asılmış şüşələri götürüb gəldi, şüşəni sındırıb əvvəlcə güc quşun, sonra ağıl quşun başını üzdü, can quşunu isə öldirmiyif saxladı.

Bu vaxt div gəlib çıxdı, ancaq divin artıq gücü qalmamışdı, div özünü güc-bəla ilə qaliyə çatdırdı. Haldan düşüb yerə yıxıldı.

Əhməd gəlib divin üstünə qışqırdı.

– Di görüm, daşa döndərdiyin adamnarı nicə diriltmax olar? Yoxsa, üçüncü quşun da başını üzüb səən öldürərəm.

Div didi:

– Ey pəhlivan, məən öldürmə. Yuxarı çıx, üçüncü otaqda

üç çubux var, ağ, qırmızı, qara. Ağ çubuxla ağ qoşunu, qırmızı çubuxla qırmızı qoşunu, qara çubuxla qara qoşunu vurarsan. Onların hamısı diriləcək.

Oğlan divin canı olan quşu da öldürüb, divi cəhənnəmə vasil elədi. Yeddinci otağa girib üç çubuğu götürdü, divin otaqlarınnan saysız-hesabsız mirvari, qızıl yığdı, onları da götürüb gözəl qızla birlikdə yola düzəldi.

Yolda ağ çubuxla ağ qoşunu, qırmızı çubuxla qırmızı qoşunu, qara çubuxla qara qoşunu diriltdi. Daşdan qurtaranların hamısı Əhmədə alqış eliyib söyünə-söyünə qayıdıb öylərinə getdilər.

Əhmədlə qız az getdilər, üz getdilər, yeddi gün, yeddi gecə yol gedib əjdahanın yanındakı dağın başındakı qaliyə çatdılar. Əhməd sehrli çubuxları götürüb qavağa yeridi. Əjdaha sürünüb onu udmaq istiyəndə Əhməd cəld çubuxla əjdahanı vurdu, əjdaha daşa döndü. Sonra Əhməd çubuxla vurub dostunu diriltdi. Dostlar görüşüb söyünə-söyünə öz ölkələrinə yola düzəldilər.

Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, dağlar aşdılar, çaylar keşdilər, yeddi gün, yeddi gecə yol gedib öz məmləkətlərinə çatdılar.

Pəri onları görüb çox söyündü, bu vaxt padşah da gəldi ki, oğlu ilə, Əhmədlə görüşsün, Əhməd sehrli çubuxla vurub onu daşa döndərdi, cadugər qarı istədi ki, aradan çıxsın, Əhməd onu da daşa döndərdi.

Qırx gün, qırx gecə toy çalındı, şadlıx oldu, Pəri xanım Şahinlə, divin əlinnən xilas olan gözəl isə Əhmədlə murad hasil elədilər, yidilər, işdilər, istəklərinə yetdilər.

Göydən üç alma düşdü, biri məəm, biri özümün, biri də bacadan baxıb yimirəm diyənin.

GÜLHÜSEYN PƏHLİVAN

Biri var idi, biri yox idi. Gülhüseyn adlı bir oğlan var idi. O, çox qüvvətli bir oğlan idi. Bu oğlanın Heydər adlı bir əmisi var idi. O, əmisinin heyvanlarını otarırdı. Hüseyn bir gün meşədə qoyun otararkən gördü meşədən bir atlı keçdi. Atlı yaxınlaşıb Gülhüseyndən soruşdu:

– A bala, bəlkə yeməyə bir tikə çörəyin ola.

Gülhüseyn dedi:

– Niyə olmur, olar.

Gülhüseyn hövkəsindən bir parça çörək çıxarıb yeddi tikə elədi, taxta kasasına da qoyun südü tökdü qoydu atlının qabağına.

Atlı doyunca yeyib Gülhüseynə "çox sağ" ol dedi.

Gülhüseyn dedi:

– Sən nə yedin, bu ki, uşaq yeməyidi.

Atlı təəcüblə Gülhüseynə baxdı. Ondan soruşdu ki, oğul, sən nəçisən?

O, dedi:

– Əmi, mən yetim oğlanam, heç kəsim yoxdu. Bircə Heydər adlı bir əmim var, o məni saxlayır, mən də onun qoyunlarını otarıram.

Atlı dedi:

– Oğul, sən mənimlə gedərsənmi?

Gülhüseyn dedi:

– Niyə getmirəm, gedərəm. Qoy sürünü aparıb təhvil verim sonra gedərəm.

Gülhüseyn sürünü aparıb əmisinə verib dedi:

– Əmi, mən getdim.

Əmisi soruşdu:

– Hara gedirsən?

Gülhüseyn dedi:

– Gələrəm danışaram, indi tələsirəm.

Bir qədər getdikdən sonra atlının evinə çatdılar. Oturub

yeyib-içdikdən sonra atlı Gülhüseynə dedi:

– Mənə oğulluq edərsənmi?

Gülhüseyn dedi:

– Niyə etmirəm, edərəm.

Onlar bir neçə müddət ata-oğul kimi dolandılar. Bir gecə yatmışdılar, gecənin yarısı Gülhüseyn yuxudan ayılıb gördü ki, hardansa toy səsi gəlir. O, durub oynamağa başladı, bu zaman ev silkələnməyə başladı, kişi yuxudan ayılıb gördü ki, Gülhüseyn bir sındırır ki, gəl görəsən, ev ayağının altında tərpənir.

– Ay oğul, sən neyləyirsən?

Gülhüseyn dedi:

– Görmürsən oynayıram.

Kişi:

– Ehmal oyna, evi uçurarsan.

Gülhüseyn soruşdu:

– Ata, bu kimin toyudu?

Kişi dedi:

– Bəs bu toy padşahın oğlunun toyudu.

Gülhüseyn dedi:

– Mən gedirəm o toya.

Kişi dedi:

– Getmə.

Kişinin sözü ağzında qaldı.

Gülhüseyn geynib toya getdi. Gəlib gördü ki, burda tamam başqa dəm-dəsgah var. Tez özünü yemək bişirən aşbazın yanına verib, xəbər aldı.

– Bu nə dəm-dəsgahdı.

Aşbaz dedi:

– Bu padşahın oğlunun toyudu, amma Firəng padşahı bu padşah üzərinə qoşun göndərib.

Gülhüseyn dedi:

– Mənə yemək verin.

Aşbaz buna yemək verdi, o, bir qazan yeməyi yeyib

doymadı, ikincisini istədi, onu da yedi, sonra isə su istədi. Aşbaz gördü ki, buna su çatdıra bilməz, ona dedi ki, padşaha deyin ki, qoşunun qabağına mən çıxacam. Bunu eşidən padşah əmr etdi ki, onu içəri gətirsinlər. Gülhüseyn içəri girəndə gördü ki, içəridə qırx dənə pəhləvan oturub. O, salam verdi. Heç kim onun salamını almadı. O, pəhləvanın birinə yaxınlaşıb qulağını qopardı, o birinin burnunu çıxardı, hamısını şil-küt etdi. Padşah bunu görüb dedi ki, kim məni istəyir buna xələt versin. Gülhüseyn dedi ki, padşah sağ olsun, mənə heç nə lazım deyil, mənim bir Heydər əmim var, onu bura gətizdir.

Onu gətirirlər. Padşah Heydər əmiyə bir kənd bağışlayır.

Padşahın üstünə gələn qırx pəhləvan geri qayıdıb Firəng padşahının üstünə gedir, əhvalatı ona danışırlar. Firəng padşahı yenidən bu padşahın üstünə qoşun göndərir. Gülhüseyn qoşunu yenə darmadağın edir. Bunu görən padşah öz padşahlıq tacını, qızını verir Gülhüseynə. Onlara qırx gün, qırx gecə toy edir, şad, firavan yaşayırlar.

GÜLLÜ İLƏ SƏLİMİN NAĞILI

Biri var imiş, biri yox imiş, bir ölkədə iki qardaş var imiş. Qardaşların birinin bir qızı, o biri qardaşın isə bir oğlu var imiş. Qardaşlar uşaqlarına elm öyrədirlər. Əmioğlu ilə əmiqızı lazımı qədər bilik, savad qazanırlar. Hələ üstəlik o dövrdə çox məşhur olan sehr oxumaq sirlərini də öyrənirlər. Onlar uşaqlıqdan bir-birlərini sevirlər. Ancaq cəsarətləri çatıb sevgilərini bir-birlərinə deyə bilmirlər. Valideynlər bunu bilən kimi yeddi gün, yeddi gecə toy edib Səlimlə Güllünü evləndirirlər. Onlar bir müddət çox şad, xürrəm yaşayırlar. Bir-birlərinə can deyib, can eşidirlər.

İş elə gətirir ki, ara vuran, güpə girən qarı bu gənc ailənin səmimiyyəti, bir-birilərinə can deyib, can eşitməsinə dözə bilmir. Yalandan bir şaiyə düzəldib gəlinlə oğlanın arasına nifaq salır. Güllünü başa salır ki, sənin sevgilin Səlim səndən də gözəl bir qıza aşiq olub, gec-tez sənin üstünə günü gətirəcək. Bunu eşidəndə elə bil bütün aləm Güllünün başına fırlanır. Necə olursa-olsun əmisi oğlundan intiqam almaq fikrinə düşür. Əmisi oğlu Səlim axşam işdən evə gələndə tez bir sehr oxuyur, onu eşşək cildində çöllərə salır. Ancaq kənardan diqqətlə baxanda eşşəyin gözlərinin insanın gözlərinə oxşaması hamının diqqətini cəlb edirmiş. Bir gün eşşək otlaya-otlaya bir həyətə girir. Həyətdə nadinc bir oğlan uşağı var imiş. Eşşəyin yazıqlığı oğlana xoş gəlir. Onun gözlərinə baxanda təəccüb edir. Tez nənəsinin yanına qaçır.

Nənəsinə deyir:

– Nənəcan, bizim həyətə çox qəribə bir eşşək gəlib. Gözləri adam gözlərinə oxşayır. Gəl hələ bax.

Nənə nəvəsi ilə eşşəyin yanına gəlir. Eşşəyin yazıq görkəmdə qarı ilə nəvəsinə həsədlə baxmağı qarının nəzərindən qaçmır. Qarı bilir ki, bu eşşək adi eşşək deyil. Bu eşşək sehr gücü ilə eşşəyə çevrilən adamdı. Odu ki, dərindən bir ah çəkib “yazıq heyvan” - deyir. Dəcəl oğlanı nənəsinin

eşşəyə baxıb, ah çəkib yazıq deməsi lap çaşdırır. Nənəsinə deyir ki, nənə, sən niyə ah çəkdin? Nənəsi deyir ki, bala, bu heyvan adi eşşək deyil. Bu insandı. Bunu sehr gücü ilə eşşək ediblər. Elə uşaq bunu eşidən kimi elə ağlayır-elə ağlayır ki, elə bil ətini kəsirlər. Nənəsi soruşur ki, ay bala, sənə nə oldu, bəs sən niyə ağlayırsan? Uşaq cavab verir ki, əgər sən həmin eşşəyi adam eləməsən, səsimi kəsməyəcəyəm. Qarı dediyinə peşman olur. Ancaq iş-işdən keçmişdi. Artıq söz ağızdan çıxmışdı. Nə qədər uşağı dilə tutub başını aldatmaq istəyirsə mümkün olmur. Uşaq elə ağlayır ki, tez ol eşşəyi adama döndər, yoxsa ağlayıb özümü öldürəcəyəm. Məəttəl qalan qarı təzədən gedib köhnə kitablara baxır. Sehrin qayda-qanunlarını oxuyub əzbərləyir, həmin eşşəyi adama döndərir.

Eşşək cildindən azad olan oğlan sevincək qarı ilə uşağın əl-ayağına düşür. Onlara olmazın təşəkkür edir. Sevincək çıxıb getmək istəyəndə dünyagörmüş qarı oğlanı saxlayır. Deyir ki, oğlan, heç adını da demədin? Oğlan deyir ki, adım Səlimdi. Qarı soruşur ki, bəs səni niyə eşşək ediblər. Oğlan başına gələn əhvalatı olduğu kimi qarıya, onun dəcəl nəvəsinə danışır. Qarı onu başa salır ki, ay oğul, elə isə təzədən sənin əmin qızı Güllü ilə ər-arvadlığın düz gətirməz. Aradan pərdə götürülüb. Get ayrı bir ölkədə başını dolandır. Səlim cavabında deyir ki, qarı nənə, sən nə deyirsən? Mən bu hayıfı Güllüdə qoymaram. O, məni eşşək cildinə salıb diyarbadiyar gəzdirdi. Mən hər cür mərhumiyyətlər görmüşəm. Mən Güllünün mənə verdiyi əzab-əziyyət qədər də cəza vermərəm. Ancaq bu hayıfı da onda qoymaram. Mən də onu bir quş cildinə salıb ömürlük ev dustağı edəcəyəm.

Nəhayət, Səlim qarı, onun nəvəsi ilə halallaşıb-hümbətləşib yola düşür. Evə çatan kimi elə qışqırır ki, əmisi qızı Güllü çaşır. Əmisi oğlu Səlimi adam cildində görəndə məəttəl qalır. Onu yenidən sehr oxuyub tilsimləmək istəyəndə əmisi oğlu Səlim bu dəfə cəld tərpənib Güllünü bir göyərçin edir. Özü də gözəl-göyçək bir gəlinlə evlənir. Göyərçinin

ayağına bir ip bağlayıb çarpayının dəmirinə dolayır.

Günlərin bir günü əri evində şadlıqdan xumarlanan gəlin əri Səlimdən soruşur ki, bu göyərçini sən niyə buraxmırsan çıxıb gedə? Səlim deyir ki, arvad, gəl sən bunun üstünü vurma, bu qəmli bir dastandı. Qoy bu elə sirr olaraq qalsın. Gəlin iki ayağını bir başmağa dirəyib deyir ki, bu əhvalatı danışmalısan, yoxsa çıxıb gedəcəyəm. Oğlanın əlacı kəsilir, əhvalatı danışmağa başlayır. Elə ki, gəlin bilir ki, çarpayının dəmirinə bağlanan göyərçin Səlimin əmisi qızı Güllüdü, təzədən xahiş edir ki, Güllünü adam cildinə salsın. Səlim deyir ki, gəl sən bu işlərə qarışma, axırı pis olar. Mənim əmim qızı Güllü görürsən sən gələndən paxıllıqdan heç qabağına tökülən dəni də ürəkdən yemir. Ölməmək üçün gündə bir-iki dən yeyir. Əgər onu biz insan cildinə salsaq, o yenə məndən hayıf alacaq.

Səlimin təzə arvadı Nargilə ağlayıb-sızıldayıb bir təhər onu yola gətirir. Səlim əmisi qızı Güllünü sehr oxuyub quş cildindən adam cildinə salan kimi Güllü tez bir sehr oxuyub Səlimi it cildinə salır. Özü də evdən qovur. Bu səhnənin heyrətindən Nargilənin başına hava gəlir. Onun yaxşılığının müqabilində Güllünün tutduğu iş Nargiləni dəli edir.

Elə o gündən gözləri insan gözlərinə oxşayan it hələ də bütün ölkələri gəzib dolaşır.

Burada nağıl bitdi. Göydən üç alma düşdü. Biri nağıl deyənin, biri qulaq asanın, biri də əhvalatı yazıb gələcək nəslə çatdıranların.

PEYĞƏMBƏRİN NƏSİHƏTİ

Biri varmış, biri yox imiş. Kasıb bir kişi var imiş. O, günlərin bir günü Musa peyğəmbərin yanına gəlib, ədəb-ərkanla ona salam verir, peyğəmbərin əlinnən öpüb deyir:

– Ya peyğəmbər, canım sənə fəda olsun, yanına bir müşkül işimə çarə almaq üçün gəlmişəm.

Musa peyğəmbərə qabaqcadan bu kasıbın dərdi agah idi. Ona görə deyir:

– Bilirəm, kasıbçılığın daşını atmaq üçün məndən məsləhət almağa gəlmisən.

– Bəli, başına dönüm, ya peyğəmbər, necə buyurursan elədi.

Musa peyğəmbər kasıba deyir:

– Sənə üç tövsiyəm var, onları gözlə. Bundan sonra Allah kərimdi, bəlkə sənə də ruzi qismət elədi.

– O nədi, ya peyğəmbər? O üç şərt nədi?

Musa peyğəmbər deyir:

– Birincisi, hər gün namazını vaxtında qıl. İkincisi, hər nə iş görsən ədalətlə gör, insafsızlıq eləmə. Üçüncüsü, yalan danışma.

Bəli, bu sözdən sonra kasıb peyğəmbərə dua oxuyub gedir.

Günlərin bir günü həmin kasıb padşahın xəzinəsini yarmağa gedir. Gecənin qaranlığında xəzinənin anbarını külünglə yarır. Özü keçə biləcək bir yer açır. Görür ki, xəzinədə qızılın, gümüşün sayı-hesabı yoxdu. Kasıb peyğəmbərin ona verdiyi nəsihəti yadına salır, qızılı üç hissəyə bölür. İki hissəsini şahın xəzinəsində qoyur, bir hissəsini öz heybəsinə doldurub padşahın dərgahından azca uzaqlaşır ki, sübh namazının vaxtı çatır. Kasıb qızıl torbasını yanına qoyub namaz qılmağa başlayır. Elə bu zaman padşahın fərraşları kasıbı yaxalayırlar. Onu tutub padşahın yanına aparırlar. Əhvalatdan hali olan padşah təəccüblə kişidən soruşur:

– Namaz qılan, dua oxuyan adam oğurluq edərmi?

Kasıb deyir:

– Ya padşahım, mən külfətimi dolandıra bilmirəm. Musa peyğəmbərin yanına getdim. O, mənə bir faydalı məsləhət verib dedi ki, hər gün namazını qıl, ədalətini, insafını unutma, yalan danışma. Canım sənə fəda olsun, böyük hökmdar, namazımı qılıram. Dolanışığımı düzəltmək üçün bir xəta eləyib xəzinəni yarmaq fikrinə düşdüm. Gəldim xəzinəni yardım. Oradakı qızılları üç yerə böldüm. Onun iki hissəsini xəzinədə qoydum, bir hissəsini də özüm götürdüm. İndi boynum qıldı, qıldanda nazikdi. Buyuruq sizinkidi.

Padşah mat-məəttəl qalır, bilmir nə etsin. Nəhayət, vəzirin məsləhəti ilə deyir:

– Doğru danışdığın üçün səni bağışlayıram.

Sonra kişinin götürdüyü qızılları üç yerə bölür. Onun iki hissəsini yalan danışmadığına, ədalətli olduğuna, namazını keçirmədiyinə görə ona, bir hissəsini isə fərraşlara bağışlayır.

VARDAN SƏXAVƏT YAXŞIDI

Bir gün şah oğlu şah Abbas vəziri Allahverdi xannan soruşdu:

– Vəzir, var yaxşıdı, yoxsa səxavət?

Vəzir dedi:

– Şah sağ olsun, var olmasa səxavət olmaz. Əlbət ki, var yaxşıdı.

Bir gün şah Abbas dərviş libas olub məmləkəti gəzməyə çıxır. Dilənçi libasında öz qapısına gəlib pay istəyir. Xəzinədarlar ona pay verib qapıdan qovurlar.

Şah Abbas ölkəni dolana-dolana çöllü-biyabanda şahın sürüsünü saxlayan bir çobanın qapısına gəlir.

Şah hələ çöldən çoban gəlməmiş onun anasından sığınacaq istəyir. Qarı deyir:

– Oğlum, o nə sözdü? Allaha da qurban olum, onun qonağına da.

Qarı balaca çul parçasını qonağın altına qoyur. Qonaq oturur. Qarı içəri girib çölə çıxır. Nəhayət, oğlu gəlib çıxır. Hal-əhval tutanda anası deyir:

– Oğlum, Allah-taala bizə qonaq göndərib. Amma yeməyə bir şey olmadığı üçün ona bir qismət verə bilmə-mişəm.

Oğlan qonağa xoş gəlmisən deyib, öz qoyunlarından birini kəsib ondan soruşur:

– Qonaq, ürəyin necə istəyir elə bişirtdirim. Şalappar, kabab, qovurma, yoxsa nə?

Qonaq deyir:

– Paho, niyə zəhmət çəkmisən? Mən ət yemirəm. Yesəm də böyrək yeyirəm. Onun da on dörd dənəsi olsa.

Çoban anası ilə məsləhətləşib qonağa on dörd böyrək hazırlayır. Çobanın bu işi səhər işıqlaşana çəkir. Çoban böyrəkləri bir qaba yığıb qonağın yanına gətirir.

Qonaq deyir:

– Niyə zəhmət çəkirdin. İndi ki, zəhmət çəkmisən, apar qoyunların cəmdəyini qəssaba ver, pulun al.

Qonaq tanışı olan bir qəssəbə bir kağız yazır. Yazır ki, bu adam ora qoyun cəmdəyi gətirən kimi tutub şahın sarayına gətirin.

Qonaq gedir. Çobanla anası onun dediyi kimi edirlər.

Şah Abbas səfərdən qayıdıb gəlir, vəziri Allahverdi xana deyir ki, yaxşı məclis qurdursun.

Vəzir gözəl bir məclis qurdurur, yeddi löyün ləziz yeməklər düzdürür süfrəyə. Buraya əyanlar, münəccimlər, ruhanilər, sərkərdələr, vəzirlər, vəkillər toplanır. Şah əmr edir ki, divara bir kağız yazıb yapışdırmışam, onu gətirsinlər. Şahın əmri ilə kağızı gətirirlər.

Bu zaman fərraşlar çobanı, onun kəsib gətirdiyi yeddi qoyun cəmdəyini gətirirlər.

Şah kağızı vəzirə oxutdurur. Vəzir oxuyur: “Vəzir, dilənçi libasında qapına dilənməyə gəldim. Bir qapıdan mənə cüzi pay verdilər. O biri qapıdan pay istədim məni qovdular”.

Şah yeddi qoyun cəmdəyi gətirən çobanı danışdırdı. Çoban əhvalatı olduğu kimi oturanlara danışdı.

Şah dedi:

– İndi deyin görək var yaxşıdı, yoxsa səxavət?

Hamısı bir ağızdan dedi:

– Səxavət. Çoban vəzirdən səxavətli olub.

Şah Abbas üzünü oturan əyanlara tutub dedi:

– Məni istəyən çobana ənam versin.

Hamı çobana ənam verdi. Bunnan sonra çoban hamının gözündə ucaldı.

PADŞAHIN DƏDƏSİNNƏN XƏBƏR

Biri var imiş, biri yox imiş. Bir padşah var imiş. Günlərin bir günü bu padşah vəfat edir. Yerini oğlu tutur. O vəziri yanına çağırıb deyir ki, mən bilməliyəm ki, atam cənnətə gedəcək, yoxsa cəhənnəmə. Vəzir deyir ki, padşah sağ olsun, sənin dədən yaxşı adamdı, hər halda cənnətdik olar. Padşah təkidlə tələb edir ki, vəzir onun atasının cənnət və ya cəhənnəmə getməsini öyrənsin.

Vəzir məsləhət bilir ki, padşahın atasının qəbrinin yanında bir qəbir də qazılsın və ora canlı adam girsin, gecə "inkir-minkirlərin" mərhum padşah haqqında qərarına qulaq asıb, səhər gəlib xəbər versin.

Padşah razılaşır. Bir yoxsul və kimsəsiz qoca tapırlar, o, bu işə razılıx verir. Gecənin bir vaxdı "inkir-minkirlər" qəbirlərə girir. Biri o birinnən soruşur:

– Diridən başdiyax, yoxsa ölüdən?

– Diridən başdiyax, – onsuz da ölü bizim öz malımızdır, diri isə qaça bilər – deyə o biri cavab verir.

Sorğu-sual başlayır:

– Kişi, nə sənətin sahibisən?

– Ağa yanında nökər olmuşam.

– Nə almısan, nə satmısan?

– Heç nə satmamışam, bir uzunqulax almışam, ağzında da noxtası.

– Necə almısan?

– Ağaya işlədim, muzdumnan artırdım aldım.

– Bəs uzunqulağın üsdündəki palan?

Kişi onu nə vaxtsa oğurlamışdı. İstədi ki, "inkir-minkiri" aldatsın, bacarmadı. "İnkir-minkirlər" bir oğurlux palandan ötrü kişini o qədər döydülər ki, heç bilmədi ki, "inkir-minkirlər" onnan nə vaxt əl çəkdilər, padşahla nə söhbət etdilər, onu cənnətdik etdilər, yoxsa cəhənnəmlik.

Səhər padşahın adamları kişini qəbirdən çıxarıb təzə padşahın yanına gətirdilər. Kişi başına gələnləri Padşaha danışdı. Padşah dedi ki, məni sən yox, dədəm maraqlandırır, ondan danış.

Kişi baxdı-baxdı, axırda dilləndi:

– Padşah sağ olsun, görürəm sən də dədən kimi uzunqulaqsan, mən danışıram ki, bir palannan ötrü məni bu günə salıblar. Sənin atan 50 il padşahlıq edib və 50 min cür də haqsızlıq. Özün hak elə gör indi atanın yeri cənnətdir, yoxsa cəhənnəm.

KÖMBƏ

Biri var idi, biri yox idi. Xəsis bir kişi, onun da çoxbilmiş bir qonşusu var idi. Bir gün xəsis kişi arvadına deyir ki, könlümə yaman kömbə düşüb, gəl bir yaxşı kömbə bişir yiyax, amma elə et ki, bunu qonşu bilməsin, yoxsa payımıza ortax olar. Bəli, xəsis kişinin xəsis arvadı kömbə bişirmək üçün hazırlıq görür, xəmir hazırlayır, ocax yandırır və başqa işləri görür, qapı-bacanı bərkitmək də yaddan çıxmır. Elə ki, kömbə bişir, hazır olur, onun külünü təmizləyib soyumasını gözləyir ki, yisinlər.

Sizə kimdən diyim, kimdən danışım çoxbilmiş kişi ilə onun çoxbilmiş arvadınnan. Çoxbilmiş arvad qonşunun həyət qapısının bağlı olmasınnan, özlərinin isə öydə olmalarınnan şübhələnmişdi. Ona görə də qonşunun öyü tərəfə gəlib onlara göz qoymağa başlayır. Onların öyündən kömbə iyi gəldiyini hiss edir. Tez çoxbilmiş ərinin yanına qaçır və əhvalatı ona danışır. Çoxbilmiş ər deyir:

– Arvad, ağzın şirin olsun, bu axşam kömbə yiyərox.

Arvad deyir ki, a kişi, sən qonşunun necə xəsis olduğunu bilmirsən bəyəm, onlar bizə kömbə verdilər, biz də yidox ha...

Çoxbilmiş kişi deyir ki, arvad, bir kələk fikirləşmişəm, sən mənə kömək etsən, kömbəni yiyərox. Bax, indicə mən səni söyəcəm və döyəcəm, sən qışqıra-qışqıra düz onlara tərəf qaçacaqsan, elə ki, mən səni onların yanında döyəcəm, onda səni məndən qorumaq üçün öyə salacaqlar, sonrasını özün bilirsən.

Kömbə yemək həvəsi çoxbilmiş arvadı elə götürmüşdü ki, o, o saat razılıx verdi, ancax kişidən xahiş etdi ki, onu çox da bərk vurmasın. Kişi də öz növbəsində dedi ki, sən də çox çığır-bağır sal, qolunun və qabırğanın sındığını söylə!

Bəli, çoxbilmiş ər-arvad kömbə yemək üçün qurduxları kələyi həyata keçirməyə başladılar. Xəsis ər və arvad gördülər ki, budur, qonşu ər öz arvadını söyür və əlindəki ağacla onu

döyür.

Arvad isə:

– "Ay qolum, ay qabırğam sındı, kömək edin" deyə-deyə onlara tərəf qaçır, kişi isə onu öldürəcəyi ilə hədələyir və arvadın dalınca qaçır. Xəsis qonşular tez həyət qapısını açıb arvadı buraxırlar içəri, onun arxasınca əri də həyətə daxil olur və arvadını "döyməkdə" davam edir. Bu vaxt qonşu onu tutur və arvadına tapşırır ki, mən kişini tutub saxlayacam, sən isə yazıx arvadı apar öyə sal və qapını möhkəm bağla. Belə də edirlər. Çoxbilmiş kişi qapını döyəcləyir, pəncərədən özünü atmax istəyir, ancax qoymurlar. Öydə özünü arxayın hiss edən çoxbilmiş arvad ora baxır, bura baxır, kömbəni tapa bilmir, ona görə də öyün içərisindən ərinə qışqırır: heç tapılmaz köpəkoğlu (yəni kömbəni tapa bilmirəm). Əri onu başa düşür və qapını döyəcləyərək arvadına belə deyir:

– Paltar, palaz, yorğan döşək köpək qızı (yəni paltar, palazın, yorğan-döşəyin arasına bax!).

Çoxbilmiş arvad mətləbi başa düşür və axtarışı davam etdirir. Yükün arasınnan süfrəyə bükülmüş kömbəni tapır. Kömbə çox iri olduğu üçün onu heç cürə gizlədə bilmir. Ona görə içəridən qışqırır:

– Heç yerə sığmaz köpəkoğlu!

Çoxbilmiş ər məsələnin nə yerdə olduğunu başa düşür və arvadına hədə-qorxu gəlirmiş kimi deyir:

– "Para-pultuq, qoyun-qoltuq köpək qızı" (Yəni, kömbəni parçala, qoyun-qoltuğuna doldur!). İşi başa düşən çoxbilmiş arvad, ərinin dediyi kimi də edir, öz işini qurtardıxdan sonra ərinin getməsinə belə işarə ilə deyir:

– Çıx həyətdən get köpəkoğlu!

Çoxbilmiş ər gedir. Qonşular daha arvad üçün heç bir təhlükə olmadığını yəqin edərək, qapını açıb onu buraxırlar. Əri öydə onu gözləyirdi. Onlar kələklərinin baş tutmasından gülə-gülə danışır və ləzzətlə kömbə yeyirdilər.

O biri evdə isə xəsis ər-arvad kömbə axtarırdılar.

ZÜLHƏCCƏ İLƏ İLAN

Biri varmış, biri yoxmuş, bir kişi və onun Zülhəccə adında arvadı varmış. Arvad çox bədxasiyyət idi, kişiyə gün verirdi, işıx yox. Kişi arvadı başdan eləmək üçün çox tədbir tökdü, axırda dərin bir quyu qazaraq gecə ikən Zülhəccəni aparıb quyuya saldı. Zülhəccə bir neçə gün quyuda ağlaya-ağlaya, nalə çəkə-çəkə qaldı. Bir gün quyunun yanınnan keçən bir kişi arvadın səsini eşidir, gedib uzun bir kəndir taparaq onu çıxarır. Zülhəccənin dalınca quyudan bir ilan da çıxır. Kişi ilannnan bərk qorxur, qaçmax isdəyərkən ilan onu səsləyir ki, dayan, qorxma, sənə sözüm var. İlan kişiyə deyir ki, sən məni ölümnən xilas etdin, Zülhəccə quyuda mənim üsdümdə oturmuşdu və mən az qala öləcəkdim. İndi mən sənə bu yaxşılığın əvəzinə yaxşılıx etməliyəm. Mən varrı adamların övladlarının boğazına sarılacam və yalnız sənin razılığından sonra açılıb gedəcəm. Sənə isə mükafat olaraq qızıl, xələt verəcəklər. Bu yolla varlanarsan. İlan belə də edir. O varrı adamların, o cümlədən padşahın qızının boğazına sarınır, yalnız bu kişinin işarəsi ilə çıxıb gedir. İlan bu dəfə kişiyə deyir ki, daha bəsdir, xeyli var-dövlət yığdın, yanıma gəlməyəsən. Əgər gəlsən, səni zəhərləyib öldürəcəyəm.

İlan bu dəfə vəzirin qızının boğazına sarılır. İlanı açmaq üçün kişini gəlib aparırlar, ona xeyli qızıl vəd edirlər. Kişi ilanın dediklərini yadına salıb, qəti imtina edir. İşə padşah qarışmalı olur. O, kişiyə deyir ki, sən ilanı mənim qızımın boğazınnan açdın, indi də vəzirin qızını xilas etməlisən. Kişi məcburiyyət qarşısında ilanın yanına gedir. İlan onu görən kimi qəzəblə soruşur ki, niyə gəlmisən, indi səni zəhərləyəcəyəm. Kişi ilana bildirir ki, Zülhəccə gəlir. İlan bu sözləri eşidən kimi ildırım sürətilə qızın boğazınnan açılıb, gözdən itir. Vəzirin qızı da xilas olur.

HÜDÇÜ MUSA

Biri var imiş, biri yox imiş. Bir ağıldankəm kişi var imiş. O, heş camaatla yola gedən deyildi. Ona bir gün mal novatı çatanda o mala getmədi. Kəndlilər də onun inəyini aparmayıb gedərlər. Bu inək təkbaşına qaldıxda buna bir canavar rasd gəldikdə inək qaçıb yiyəsinin damına girər. Yiyəsi canavarla birlikdə inəyi də öldürür. Aparıb dərisini soyub uşaqlara paltar alar. Bunu görən yekəpapax kəndlilər avamlıqdan bunlar da malları səllim buraxallar. Bunların malına bir dəsdə canavar rast gəlib parçalayarlar. Bu kəndlilər gəlib həmən adamı öldürmək isdəyirlər. Həmən adamın adı Hüdçü Musa idi. Hüdçü Musa onlara xahiş elədi ki, bir mənim nənəmi öldürməyin. Bu millət dedi ki, bu özünnən çox nənəsini istəyir. Bu yekəpapax kəndlilər bunun nənəsini öldürürlər. Bu Hüdçü Musa ölü nənəni eşşəyə bağlayıb aparıb gedir. Bu, eşşəyi xırmandakı buğda tayasına buraxır. Bu xırmançılar bir-iki çuvuq vurduqda eşşək ülkür, nənə eşşəkdən yerə düşdükdə Hüdçü Musa kolun divinnən çıxıb ağlaya-ağlaya getdi ki, nənəm öldü. O, yalannan çırpındı. Xırmançılar buna dedi ki, qardaş, sən bizi bədbəxt eləmə, sənin nənəni biz burda basdırax, əlavə sənə bir eşşək yükü buğda verax apar, balaların yisin. Hüdçü Musa axşam çağında bir eşşək yükü buğda ilə gəldi. Bunu görən yekəpapax kəndlilərin bir neçəsi gedib nənələrini öldürüb eşşəyə yükləyib apardılar satmağa, heş kəs bunu almır. Bunlar gənə də hirslənib gəlirlər ki, Hüdçü Musanı öldürək. Hüdçü Musa qaşdıqda bunun öyünü yandırıllar. Bu, gənə də ağlaya-ağlaya gəlib öyün kömüründən iki xərəl yığır, aparıb bir xeyirxah padşaha bu kömürü bağışlayır və deyir ki, bu kömür öyümin yanmasınnan qalıtdı. Bu xeyirxah padşah Hüdçü Musaya çoxlu pul verər, həm də əlavə kömək verər ki, öy tiksin. Hüdçü Musa bu axşam çağında gənə çoxlu pul ilə gəldikdə yekə papaq kəndlilər bunu görüb köhnə öylərini yandırallar ki, padşah bunlara da kömək eləsin. Padşah bunlara

töhmət edib qaytarar ki, kişinin öyünü yandırmısınız, hələ bir xəcalət də çəkmirsiniz. Bunlar padşahın sözünün üstə söz qoymullar. Qorxularından o kişinin əhvalatını ona söyləmirlər. Onlar padşahın Hüdçü Musa ilə dostluq elədiyini bilirdilər. O, öyün kömürünü padşaha vermişdi, o isə buna öy tikdirmişdi. Yekəpapax kəndlilər yenə də bunu öldürmək istədilər. Hüdçü Musa qaşdı, camaat da bunu qovur. Hüdçü Musaya çoxlu qoyun otaran bir çoban rast gəldi. Çobana dedi:

– Çoban qardaş, o daldan gələn qoşunu görürsənmi? Məni padşah seçmək istəyirlər və padşahın qızını da mənə məsləhət bilirlər. Mənim özümə münasib çoxlu balalarım var və küllü miqdarda pulum da var, əgər xoşun varsa gəl paltarları dəyişək, mən qoyunların yanında durum, sən qabağa get, denən mən istəyirəm.

Çoban razılaşır. Bu hirsli yekəpapax kəndlilər çobanı tanımadan alıb dəryaya tulladılar. Axşam çağı Hüdçü Musa bir böyük dəstə qoyunla gəlib kəndə daxil oldu. Yekəpapax kəndlilər bunu gördükdə buna çox yalvardılar ki, bu hardan oldu, sən bizə çox zülüm eləmisən, bunun yerini bizə öyrət, gedək biz də gətirək. Hüdçü Musa qayıdır ki, siz məni dəryaya tullamağınıza baxmıyın, gördüm dərya dolu qoyundu, özümə yetdıx gətirib gəldim. Yekəpapax kəndlilər yalvardı ki, bizi də ora apar.

Bu dedi:

– Səhər tezdən qoyun örüşə çıxan vaxtı toplanın gedək. Bunları dənizin qırağına cərgəyə düzüb dedi:

– Mən bir, iki, üç deyəndə tullanın.

Çox tamahkar adamlar tələsirdilər ki, Hüdçü Musa "üç" deyən kimi özlərini suya atdılar. Onların ayaxları yerə çatmadan əlləri göydə boğuldular.

Hüdçü Musa kəndə tək sahib qaldı.

ÇOXBİLMİŞ NƏVƏ

Biri var idi, biri yox idi. Nənə və nəvə var idi. Onların torpaxdan iki göz evləri var idi. Qış vaxtı idi. Nəvə evin bir gözünə üç yalaq qarpız əkdi. Yaz gəlmədən nəvənin qarpızı gəlib yetişdi. Nəvə qarpızlardan birini xurcuna salıb padşaha apardı. Padşahı çağırdıqda bir vəzir gəldi. Nəvə qarpızı vəzirə verib dedi ki, bu qarpızı padşaha ver və ona de ki, bu qarpız ağırlıqda mənə qızıl versin. Vəzir təəccüb edərək soruşdu ki, qızılı qarpıza dəyişmək olarmı? Vəzir qarpızı Padşaha verdikdə nəvənin dediklərini də ona çatdırdı. Padşah nəvəni yanına çağırdı, ona qarpız ağırlıqda qızıl verdi. Nəvə qızılı götürüb yola düşdü. Vəzir bu əhvalatdan çox narazı qaldı, padşaha dedi ki, sən mənə bir dənə də olsun qızıl verməmisən, lakin qarpıza o qədər qızıl dəyişdin. Cavabında padşah bildirdi ki, nəvə ilə söz güləşdirmək olmaz, onu mən tanıyıram. O, vaxtilə Həsənpaşanın yanında nökər idi. Mən Həsənpaşaya bir qızıl əlməz apardım. O, nəvəni çağırtdırıb dedi:

– Bu nə cür əlməzdir?

Nəvə suala cavab olaraq deyər ki, bu yarı qızıl, yarı torpaqdı. Nəvə düz deyirdi. Onlar toplaşıb baxdılar ki, həqiqətən içindən torpaq tökülür. Mən Həsənpaşanın yanında xəcalətli qaldım. Xeyli vaxtdan sonra Həsənpaşa başqa bir padşaha bir at pay verir. Padşahlar yenə nəvəni çağırıb ondan soruşurlar ki, bu at necə atdı? Nəvə cavab verib deyir ki, bu ən adi atdı, suya girəndə yatır. Padşahlar atı çaya apararaq suya salıb yoxlayırlar. At suya girən kimi yatdı. Padşahlar təəccüblə dönüb nəvəyə baxdılar və soruşdular ki, sən nədən bildin ki, bu at suda yatır. Nəvə dedi ki, bu at anadan olanda anası ölüb, ona camış südü əmdiriblər, ona görə də camış kimi suda yatır.

Nəvəyə qarpız ağırlıqda qızıl verən padşah bu əhvalatları vəzirə danışdıqdan sonra ona dedi ki, indi sən bacarırsansa mən nəvəyə verdiyim qızılları ondan al, sənin olsun.

Vəzir ata minərək eşşəklə gedən nəvənin dalınca yola

düşür. Xeyli vaxtdan sonra ona çataraq deyir:

– Saxla eşşəyi, ver qızılları.

Nəvə qayıdır ki, mən qızılı sənnən yox, padşahdan almışam. Vəzir nəvəyə deyir ki, sənə üç sual verəcəyəm, cavabını bilsən, qızıl sənindi. Deyər, göydə nə qədər ulduz var, deyər bu eşşəyimin tükü sayda, inanmırsan say. Vəzir müc oldu qaldı. Vəzir ikinci soruşdu ki, dünyanın ortası hardadır? Nəvə qayıdır ki, dünyanın ortası bu eşşək dayanan yerdi, inanmırsan yoxla. Yenə vəzir müc oldu. Vəzir üçüncü sualında soruşdu ki, dünyada arvad çoxdu, yoxsa kişi. Nəvə dedi ki, mən bu suala cavab verməzdən əvvəl gərək paltarlarımızı və miniklərimizi dəyişək. Belə də edirlər. Vəzir nəvənin, nəvə isə vəzirin paltarını geyir. Vəzir eşşəyə, nəvə isə ata minir. Nəvə atın üstünnən:

– Dünyada arvad çoxdur, atdan düşüb eşşəyə minən arvaddır – deyərək atını dördnala çapıb aradan çıxır.

QARAXAN VƏ DURAXAN

Biri varımış, biri yoxumuş, keşmiş zamannarda Hind əyalətdərində bir paccah varımış. Paccahın adı Zalımxan imiş. Zalımxan çox zülmkar bir paccahımış. Hətta deyillərmiş ki, onun adı əvvəl başqaymış. Çox zülmkar olduğu üçün camahat onu Zalımxan adlandırıbbış. Bunun üstündə çox başdar kəsilmiş, ancax paccah da Zalımxan olarax qalmışdı. Zalımxan nə qədər varrı olsa da, həmişə qəm-qüssə içində olarmış. Bunun da səbəbi onun övladının olmamağıymış.

Günnərin bir günündə yenə qəm-qüssə içində oturduğu vax həyətə bir dilənçi girir. Zalımxan o qədər fikrə getmişdi ki, nə dilənçinin görmüşdü, nə də onun duasını eşidirdi. Dilənçi paccahın çox fikirri olduğunu görüb soruşdu:

– Ey paccah, sənə nə olub belə fikrə gedibsən? Pul desəh səndə, var desəh səndə. Dünyanın bütün pəccahları sənin adın gələndə tir-tir əsir.

Bu zaman paccah başını yuxarı qaldırıb, dilənçini görür və deyir:

– Ey allah bəndəsi, sən mənim dərdimi bilmirsən. Bilsən, deməzsən. Bu qədər var-dövlətimin qarşısında bir övladım yoxdu ku, ölündən sonra var-dövlətə sahib olsun. Budur artıq saçlarıma dən düşür. Artıq bir ayağım gordadı.

Dilənçi deyir:

– Ey paccah, indi mən sənə bir söz deyəcəm. Ancax söz ver ki, axıra kimi dinniyəcəhsən. Çünkü sən məsləhət üçtündə çox başdar vurdurmusan. Sənin bədbəxdiyinin səbəbinin birincisi elə büdü. İkincisi isə sənin xalqa verdiyin zülmdü. Əgər sən öz zülmünnən əl çəhsən, öz arzuna çatarsan. Bünnan başqa bədbəxdiyinin başlıca səbəbi Hətəmə verdiyin yangıdı. Sən elə etməlisən ki, Hətəm səni bağışdasın. Sən o zaman öz arzuna çatarsan və sənin iki oğlun olar. Oğlannarının adını Qaraxan və Duraxan qoyarsan.

Bunu deyib dilənçi gözdən itdi. Paccah nə qədər göz

gəzdirsə də, qaraçını görmür. Bu zaman başa düşür kü, bu nurani bir şəxs imiş. Bunu burda qoyax, indi sizə xəbər verim Hətəmdən. Hətəm kimdi, paccah ona neynəmişdi.

Hətəm qoca bir kişiymiş. Onun Mahmud addı bir oğlu, Humay addı bir qızı varmış. Mahmud olduxca qoca, Humay isə olduxca gözəl bir qızıymış. Qız qonşularındakı bir çobana nişannıymış. Bir gün paccah həmin bu qızı görür və isdiyir ki, bunu da özünə arvad eləsin. Paccah özü kimi zülmkar vəzirini qocanın yanına göndərir. Vəzir gəlib qocüya pəccahın sözünü yetirir. Qoca paccahı rədd eliyir. Bunu eşidən paccah qəzəblənir. Qocuya hücum eliyir. Oğlunun başını kəsir, evinə od vurur. Qızını isə hərəmxanasına gətirir. Bunu görən camahat paccaha xahişə gəlir. Heş olmazsa qızın qaytarılmasını xahiş ediyillər. Paccah hamısının boynunu vurdurur. Hətəm isə paccaha deyir:

– Səni övlad üzünə həsrət qalasan. Necə ki, məni yandırdın, sən də övlad üzünə həsrət qalacaxsan, ürəyin həmişə övlad həsrətinnən yanacax.

Paccah qocanı döydürüb qovur. Qız isə paccahi öz yanına buraxmır. Paccah heş cürə qızın otağına girə bilmir. Qız özünü öldürəcəyəni söylüyür.

Qaraçının sözdərini eşidən paccah olmuş işləri, xalqa etdiyi zülmü gözdəri qabağına gətirir. Hətəmin ona etdiyi qarğış yadına düşür, öz bədbəxdiyinin səbəbinin özü olduğunu başa düşür. O günnən paccah zülmdən əl çəkir. Bütün hərəmxanasını boşaldır. Yalnız Hətəmin qızını saxlıyır. Çünkü əvvəlki hərəmnərinin heş birinnən övladı olmur. O günnən başdyıib acdarı doydurur, çılpaxları geydirir, evsizdərə ev tihdirir, ehsannar verir. Hətəm kişini axtarıb tapır. Onun oğlunun qəbri üstündə ehsan verir, qocanı saraya gətirtdirir. Əvvəlki vəzirinin boynunu vurdurur. Hətəmi vəzir eliyir. Ona gözəl bir imarət tihdirir.

Hətəm paccaha deyir:

– Ey paccah, axır kı, mən deyənə gəldin. Sən məni

yandırdın. Övlad həsrəti səni zülmnən əl çəhdirdi. Sən mənim ürəyimə dağ çəksən də, səni bağışdıyıram. Ancax bir şərtnən. Məni qızımın yanına apar. Sora şərtim sənə aydın olar.

Paccah qocuya qızın otağını nişan verib qayıdır. Bir az keşmiş qoca qayıdıb deyir:

– Artıx mən səni bağışdıyıram. Əgər sən mənim qızımın bağına girmiş olsaydın, həmişəlih övlad üzünə həsrət qalacaxdın.

Paccah buna çox sevinir. Qızı çoban oğlana verməh isdiyir. Qoca deyir:

– Mən qızımı sənə verirəm.

Paccah qızı doğurdan sevdiyi üçün çoban oğlana verməh istəmirdi. Ancax həmin dilənçiyə söz vermişdi. Lakin qocanın qızını razılığınan verdiyini gördühdə buna çox şad olur. Qırx gün-qırx gecə toy eliyib qızı alır. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə keçənnən sora oğlu olur. Oğlanın adını Qaraxan qoyur.

Paccah o günnən sarayda heş bir nökər-nayib saxlamır. Öz əlinin zəhmətinən xoş bir həyat sürüllər. Bir gün vəzir, Humay və paccah Qaraxanı da götürüb bağa gəzməyə çıxmışdılar. Yenicə bağa çatmışdılar ki, həyətə bir dilənçi girdi və pay istədi. Paccah gördü kü, bu həmin özünə məsləhət verən dilənçidi. Dilənçi cibinnən bir alma çıxarıb paccaha verir və deyir:

– Bu almanın yarısını özünüz yeyin, yarısını yerə basdırın. Üç aydan sora qəşəng bir oğlun olacax. İgiddih və gözəllihdə onun tayı-barabarı olmuyacax. Ancax başına çox bəlalar gələcəh. Axırı xoşbəxdiynən qurtaracax. İndi isə almanı götür. Oğlunun adını Duraxan qoydum.

Paccax dilənçiyə pay verməh üçün evə getməh isdiyirdi ki, dilənçi gözdən itir. Paccax dilənçi dayandığı yeri öpərəh bir ovuş torpax götürüb cibinə qoyur. Bir qədər gəzdihdən sora evə qayıdıllar. Paccah dilənçinin dedihlərinə əməl eliyir və işin axırını gözdüyür. Necə ki dilənçi demişdi, doqquz ay

keçənnən sora Humay xanımnan qəşənh bir oğlu olur. Adını Duraxan qoyullar. Paccah bir dəyqə nə Durxanı, nə də Qaraxanı gözünnən qoymur, onnarın tərbiyəsiynən məşğul olur. Qaraxan və Duraxan böyüyür. İgiddihdə onnarın tayı-barabarı olmur. Paccah onnar üçün bir imarət tihdirir, hərəsinə seşmə bir ay, qılınc, qalxan verir, üzünnən öpüb yola salır. Qardaşdar imarətə gəlillər. Görüllər ki, bu elə bir imarətdi ki, atasının imarəti bunun qabağanda bir daxmıya oxşuyur. Bir neçə gün keşdihdən sora qardaşdar ova çıxır. Oxşamalar isə evlərinə dönüllər. Bir gün Duraxan yuxuda ikən qoca bir kişi yuxusuna girib deyir:

– Ey Duraxan, sabah sən ova axşam get. Özün də köhnə qəbiristannığa doğru get. Orda səni həm qorxulu, həm də xoşbəx hadisə gözdüyür. Sən heş nədən qorxma. Axırın xoşbəxlihdi.

Səhər qardaşdar yuxudan oyandıxda Duraxan deyir:

– Ey böyüh qardaş, mən bu gün gecə ova çıxacam. Çünkü ikimiz də birdən çıxdıxda yorğun olurux. Xörəh hazırrıyanımız, ev-eşih silənimiz yoxdu.

Böyüh qardaş kiçih qardaşı çox sevdiyi üçün onun sözünü yerə salmır. Özü ova təh gedir. Duraxan ev işdərini görür, qardaşı gəlincə xörəh bişirir. Axşam qardaşı evə gəlir. Duraxan qardaşına böyüh hörmət edib, yuxuya verdihdən sora yaraxlanıb, yasaxlanıb evdən çıxır. Atını köhnə qəbiristannığa sürür. Bir qədər gəzdihdən sora bir də görür kü, bir qəbirin dalında bir at peyda oldu. Atın gözdərinnən od tökülür. Üstündə də kimsə oturubdu. Amma kim olduğunu bilməh olmur. Duraxan bunu görən kimi qorxudan yerə mixlanır. Lakin elə bir anda qocanın sözdəri yadına düşür. Bu vax atdı atını onun üstünə sürüb, qılıncını onun başına endirməh istityir. Duraxan tez qılıncını rəqibinin qılıncının qabağına endirir, və öz qılıncı ilə hücuma keçir. Qılıncı ilə atlının üzündəki örəyi qalıdırır. Duraxan az qalır kı, özünnən getsin. Onun qarşısında dünyada tayı-barabarı olmuyan gözəl bir qız

durmuşdu. Bu zaman həmin qız dilə gəlib deyir:

– Ey igid oğlan, indiyə kimi mən çox atdıların başını vurmuşam. Peşəm isə onnarı basdırmax olub. Nəticədə gördüyün bu qəbirstannıx yaranıb. Yalnız sən məni təslim etdin. Mən artıx səninəm. Nə edirsən et.

Duraxan baxıb görür kü, at da dəyişilib, artıx gözdərirnnən od yox, mehribannıx yağır. Sanki at da öz sahibinin təslim olduğunu bilirdi. Həm də bilirdi ki, bu igidi sahibi çoxdan gözdüyürmüş. Ona görə də at Duraxana öz sahibi kimi mehribannıx edirdi. Duraxan qızı atının tərkinə mindirir, atını isə qabağına qatıb evə gətiririr. Atı tövlüyə, qızı isə bir otağa salıb qapısını bağlıyır. Gündə ata və qıza baş çəkir. Duraxan qızı dərin bir məhəbbətnən sevir. Ancax bu haqda qardaşına heş nə demir. Günnərin bir günü Qaraxan xəstələnir. Duraxan tez xəbərə atasının imarətinə gedir. Atası bütün təbibləri yığıb oğlunun yanına gedir. Qaraxan sağalır. Duraxan qardaşını ova getməyə qoymur. Özü təh ova gedir. Yolda yadına düşür kü, at və qız olan otaxların açarrarrını evdə qoyub. Öz-özünə deyir:

– Eybi yox. Qardaşım əvvəl-axır bilməlidi. Elə yaxşı olar, qıznan atı özü görər və özü daha doğru bilər.

İndi sizə kimnən deyim, Qaraxannan. Qaraxan evi silib təmizdədihdə iki açar tapır. Açarrar heş bir otağın qapısına düşmür. Birdən yadına axırıncı iki otax düşür. Tez ora gedir, birinci qapını açdıxda görür kü, bura at bağlanıb, heş atasının ilxısında belə at görmüyüb. Ancax atın qabağındakı suyu qutarıb. Tez gətirib ata su verir. At isə suya heş yaxın durmur. Otağı bağlıyıb ikinci otağı açır. Görür kü, burda taxtda bir qız uzanıb kı, yemə-işmə onun xətti-xalina, gül camalına tamaşa elə. Lakin qız çılpax yatıb. Qaraxan qızın üstünü örtüb çıxmax istiyirdi ki, qız oyanır və soruşur:

– Ey oğlan, sən kimsən, nəçisən, bura nə üçün girmisən? Bura yalnız igiddər igidi Duraxan girə bilər.

Qaraxan özünü nişan verir, qız da başına gələn əhvalatı Qaraxana danışır. Qaraxan otaxdan çıxır. Axşam düşür.

Duraxan qayıdır. Artıx hər şeyi başa düşür, lakin üzə vurmur. Sözü Qaraxan açır və qardaşına məsləhət görür kü, tezdiynən toya başdasın. Duraxan deyir:

– Ey böyük qardaşım, atamızın ilki sənsən. Mən bu haxda Nardan xanımla da danışmışam. Nardan xanımın Qönçə addı bir bacısı var. Əyər bəyənsən onu da sənin üçün gətirərdim.

Bu haxda atalarına da xəbər verillər. Paccah 40 gün, 40 gecə toy edib, Nardan xanımı Duraxana, Qönçə xanımı Qaraxana alır.

Nardan xanım Duraxana deyir:

– Qaraxan bacıma əl vuran kimi daşa dönəcəh. Qönçə xanımı tilsimə salıblar. Onu yalnız tilsimnən ilk uşağımız qutara bilər. Sən gərəh həmin daşın üstündə öz oğlunun başını kəsəsən.

Səhər açılanda görür kü, Qaraxan daşa dönüb. Qönçə onun üstündə göz yaşı tökür. Elə ki, göz yaşı Qaraxanın üstünə düşür Qaraxan insana çevrilir. Qönçə xanıma əl dəyən kimi yenidən daşa dönür.

Bütün xalq bu xəbəri eşitcəh qara geyinir. Aradan 3 ay keçir. Duraxanın bir oğlu olur. Nardan xanım sözünü Duraxanın yadına salır. Duraxan oğlunu götürür və həmin daşın üstündə başını kəsir, həmin dəyqə Qaraxan ayağa qalxır, Qönçə tilsimnən qutarır. Hadisədən xəbər tutan Qaraxan məyus olur. Bu zaman Qönçə xanım bərhdən gülür. Onun ağzınnan iki tabax gül düşür. Gülləri əzir və deyir:

– Suyunu uşağın başına sürtən kimi baş bədənə yapışacax.

Elə də eliyillər. Uşaq sağalır. Qardaşdar təzədən qucaxlaşır, sevinillər. Xəbər paccaha da çatır. Paccah yenidən 40 gün, 40 gecə hər iki oğlu üçün toy eliyir. Ehsannar verir, xalqı sevindirir. Onnar yeyillər, içillər murada yetişillər. Siz də yeyin, için muradınıza çatın. Bir-biriniznən mehriban olun.

ŞEYTANIN NAĞILI

Biri varımış, biri yoxumuş, bir bacı, bir də qardaş varımış. Bunnar dağın döşündə yaşıyıllarmış. Qardaş həmişə gedər qoyun otarar, bacı isə evdə qalarmış. Qardaş qoyun otarmağa gedənnən sora bu bacı şeytannan əlaqə saxlıyırmış. Qardaşının da xəbəri yox. Vax gəlir ki, qızın bir oğlu olur. Arvad şeytana deyir ki, bəs bu uşağı neyniyəciyih? Qardaşım bilsə, məni tikə-tikə doğruyar. Şeytan deyir:

– Qorxma, ona çarə tapbışam. Sən uşağı apar qoy bulağın başına. Qardaşın qoyun otarmaxdan gələndə uşağı götürüb gələcəh. Deyəcəh ki, uşax tapbışam. Sən də alıb saxlıyarsan. Həm sənə yaxcı olar, həm də qardaşına.

Aparıb uşağı bulağın başına qoyullar. Axşam qızın qardaşı qoyun otarmaxdan gələndə bulağın başında bir uşağın ağladığını görür. Götürüb evə gətirir. Bacısına deyir ki, bəs bulağın başınnan bir uşax tapbışam. Allaha xoş gedər, al bu uşağı saxla.

Qız uşağı alır. Sevinir. Axı bu öz uşağı idi. Bir neçə müddət bu uşağı saxlıyıllar. Uşax kişiyə “dayı”, qıza isə “ana” deyir.

Bir gün bu uşağın atası gəlir. Arvadın yanına, qızın da qardaşı evdə yoxudu, getmişdi qoyun otarmağa. Kişi qıza deyir ki, gə, bu qardaşın başını əkəh. Qız soruşur:

– Necə eliyəh ki, onu aradan götürəh.

Kişi deyir:

– Qardaşın evə gələndə mən qapının dalında ilan donunda olacam. O evə girəndə mən onu çalacağam. Onnan sora o öləcəh.

Uşax bu sözdəri eşidir. Axşam dayısı evə gələndə gedib yolda dayanır, ağlıyır kı, bəs sən qapıdan içəri girəndə mənim dalıma min. Dayısı uşağı nə qədər ovutmax istiyirsə, uşax razı olmur. Axır kı, həmin gün uşax dayısını ölümnən belə qutarır.

Səhər uşağın atası yenə də tədbir tökür. Deyir ki, bu dəfə

ilan donunda qapının başında gizdənəcəm, gələndə onu çalacam. O da öləcəh. Bunnan da hər şey bitəcəh. Biz də bunnan sora xoşbəx yaşıyarıx.

Uşax bu dəfə də bu söhbəti eşidir və bu dəfə də dayısını xilas edir. İşi belə görən şeytan başqa tədbir tökür. Qıza deyir ki, oğlanın yeməyinin içinə zəhər tökərsən, yeyər, bunnnan da məhv olub gedər.

Uşax bu tədbiri də eşidir. Axşam dayısı evə gəlir. Uşağın anası süfrə açır, yeməh gətirir, zəhərri yeməyi qardaşının qabağına qoyur. Uşağın anası gedir ki, qaşıx gətirə, uşax anasının yeməyiynən dayısının yeməyini dəyişdirir. Anası gəlib oturur. Bilmir axı, yeməyi dəyişdiriblər. Yeyir, arvad şişir ölür. Bunnan sora uşax bütün əhvalatı açıb dayısına danışır.

Kişi uşağı da götürüb başqa yerə gedir bir paccahın məmləkətinə, orda kişiyə paccah deyir ki, əgər sən mənim yerimdə əkinçi olarax işdiyərsənsə əvvəlcə bir şərtim var, onu et, sora.

Kişi deyir:

– O, nə şərtdi?

Paccah kişiyə bir para, bir bütöv çörəh verir. Bir gün də qatıx verib deyir:

– Apar, parıya dəymə, bütünü kəsmə, qatığın ağzını aşma, doğra, doyunca ye. Əgər sən bunu etsən, mən öz paccahlığımın bütün dövründə səni öz yanımda saxlıyacam. Əgər etməsən, boynunu vurduracam.

Yazıx kişi o gün ac-susuz axşama qədər işdiyir. Axşam qayıdanda paccah soruşur:

– Hə, necoldu?

Kişi deyir:

– Ay allahsız oğlu, bu gün acınnan öldüm.

Paccah deyir:

– Sözümüz sözdü, indi sənin boynun vurulacax.

Paccah bu yazıx, günahsız kişinin boynunu vurdurur. Bu

kişinin bacısı oğlu da şeytannan əmələ gəlibbiş demə. Elə ona görə şeytanıydı da, hər şeyi bilirdi. Şeytan eşidir ki, dayısının boynunu vurublar. Gəlir həmən o şahın yanına. Deyir ki, işdəməh istiyirəm.

Şah buna da deyir:

– Paraya dəymə, bütövü kəsmə, küpənin ağzını aşma, doğra, doyunca ye.

Şeytan gedir. İşdiyir. Yorulanda gəlir yeməyə. Parıya dəymir, bütöv çörəyin ortasını kəsir, qatıx küpünün də ağzını aşmır. Böyrünnən bir deşih açır, başdıyır çörəyi də yeyir, qatığı da içir. Axşam geri qayıdır. Şah soruşur:

– Hə, necəsən? Acsan, toxsan?

Şeytan tox olduğunu, onun dediyi kimi elədiyini deyir. Paccahın gözü kəlləsinə çıxır kı, bunun bir balaca boyu var, ancax hər şeyi bilir. Oğlannan şərt kəsir ki, şanapipih oxuyana qədər işdiyəcəhsən. Şeytanın da ürəyində kin varıydı. Dayısının intiqamını almax isdiyirdi. Şeytan qalıb burada işdiyir. Günnərin bir günü şahın arvadı qohumlarıgilə gəzməyə gedir. Bunnarın iki qızı varımiş. Arvad gedəndə ocağa su qoyub getmişmiş ki, gələndə qızdarın başını yusun. Şeytan qızdarın anası gedənnən sora bir–bir qızdarı çağırır yanına. Onnarın başını soxur qaynar suyun içinə, çıxarır. Gətirib ikisini də söyküyür divara. Qızdarın anası evə dönəndə şeytan deyir:

– Qızdarın başını yumuşam.

Arvad baxır kı, qızdarın dişdəri ağarır, deyir:

– Niyə gülürsən, ay qız?

İrəli yeriyib görür kü, bu qızdarın ikisi də ölüb. Başınagözünə döyür, ta nə eliyə bilər.

Qaynanasına deyir:

– Ay arvad, sən çıx ağaca, şanapipih kimi oxu, mən deyəcəm ki, ta şanapipih gəlir, sən çıx get.

Qoca arvad çıxır ağaca başdıyır şanapipih kimi oxumağa. Qızdarın anası şeytana deyir:

– Görürsənmi, şanapipih oxuyur, sən getməlisən

Şeytan məsələni başa düşür, bilir ki, oxuyan arvadın qaynanasıdı, deyir:

– Hə, yaxcı, bu sahat mən onu yaxcı oxudaram.

Şeytan tez qaçır evə, yay-oxu götürüb qayıdır. Tuşduyur ağaca tərəf, arvadı vurur. Gəlin bir başına döyür, bir də dizinə. Gəlir ərinin yanına, əhvalatı danışır. Kişi deyir:

– Arvad, yır-yığış elə, çıxax gedəh.

Arvad farmaşdarı yığışdırır. Şeytan bunnarı eşidir. Tez bir şüşə su götürüb girir farmaşın içinə. Axşam ərnən arvad eşşəyin başınnan tutub, yola düşüllər. Yolda eşşəh palçığa batır. O tərəfə, bu tərəfə eşələnir. Bu vax şeytanın götürdüyü su tökülür. Bunu görən ərnən arvad qışqırıllar:

– Vay, yağımız töküldü?

Çörəhlərini tutub həmin suya yeyillər. Bunu görən şeytan gülüb deyir:

– O yağ deyildi, su idi.

Eşşəyi çıxarıb yola düzəlirlər. Kişi arvadına deyir:

– Yenə bu ölmüş hardan gəlib çıxdı. Qabaxda arx var. Biz axşam ora çatacıyıx. Şeytana arxın lap qırağında yer salarsan, sora özünə, sora da mənə yer salarsan. Şeytan yuxuya gedəndə mən sənə deyəcəm ki, bir az o yana yat, sən də onda şeytanı itəliyirsən, düşər arxa. Ölər canımız dincələr.

Axşam olur, yatıllar. Şeytan da hər şeyi bilir. Arvad yuxuya gedəndə şeytan onu götürür qoyur öz yerinə, özü də yatır arvadın yerində. Gecənin bir vaxtı kişi elə bilir yanında yatan arvadıdı, deyir:

– Bir az o yana yat.

Şeytan bir az o tərəfə yatır. Kişi bir də deyir. Bu dəfə şeytan arvadı itələyib arxa salır. Kişi deyir:

– Ay arvad, indi rahat ola bilərih.

Şeytan deyir:

– Arxa düşən ki, sənin arvadındı.

Kişi cumur şeytana. Dalaşıllar. Şeytan kişini öldürür.

Meyiti götürüb sarıyır eşşəyin üstünə, əlində də yekə bir dürməh. Şeytan eşşəyi qatır qabağına, düzəlir yola. Gəlir bir bostanın yanına çatır. Eşşəyi buraxır bostana, özü də oturur çəpərin kənarında baxır. Birdən bostançı görür kü, bostanına bir eşşəh girib, üstündə də bir adam, əlində dürməh. Bostançı yetirir, eşşəyin üstündəki meyiti o ki var döyür. Şeytan bunu görür. Ağlıya–ağlıya gəlir bostançının yanına. Deyir:

– Mən gedib indi şikayət ediəcəm. Sən mənim dədəmi niyə öldürdün. Bostançı şeytana yalvarır:

– Qurban olum sənə, nə istiyirsən verim, gedib şikayət eləmə. Axı mən nə bilirdim o, sənin atandı.

Bostançı şeytana bir kisə qızıl verir.

Şeytan bostançıya deyir:

– Məni həmişə öz yanında saxla, heç kimə şikayət etmiyəcəm.

Bostançı məcbur olub şeytanı öz yanında saxlıyır. Şeytan öz dayısının intiqamını bax belə alır.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl danışanın.

Siz yüz yaşayın, mən də iki yüz əlli.

TÜLKÜNÜN OĞURLUĞU

Biri varıdı, biri yoxudu, bir tülkü varıdı. Bu tülkü bir gün gedir qaz oğurruğuna. Yolda buna bir xoruz ras gəlir. Deyir:

– Hara gedirsən?

Tülkü deyir:

– Qaz oğurruğuna.

Deyir:

– Məni də yoldaş edərsənmi?

Deyir:

– Yoldaşım dəyilsən, qardaşımsan, di gedəh.

Gedillər. Bir azdan çuvaldız gəlir, deyir, ay qardaş, hara gedirsən? Deyir qaz oğurruğuna. Deyir, məni də yoldaş elə. Deyir, yoldaşım dəyilsən, qardaşımsan, gə gedəh.

Bir toxmax onnara ras gəlir, deyir hara belə gedirsiniz? Tülkü deyir, qaz oğurruğuna. Deyir, məni də yoldaş edərsənmi? Deyir, yoldaşım dəyilsən, qardaşımsan, di gedəh. Gedillər.

Bir dana onnara ras gəlir. Bu da bunnarnan gedəsi olur. Az gedillər, çox gedillər, bir öyə çatıllar. Toxmax qapının başında durur. Dana bacıya çıxır. Xoruznan çuvaldız da ocağın başında durullar. Tülkü qazdarı çuvalına dolduranda arvad yuxudan ayılır. Bu ev arvadnan kişininiymiş. Arvad kişini qaldırır kı a kişi, gör bir nə səsdi. Kişi qalxır, eşiyə çıxmax istiyəndə görür başına nəsə dəydi.

Başına vuran toxmax olur. Geri qayıdıp bacanın altına gəlir ki, qalxıb bacadan çıxsın, dana bacadan başını batırır. Səs-küyə yuxudan ayılan arvad tələsih külliyə yaxınnaşır. Xoruz qənədinnən külü yelliyib arvadın gözünə doldurur. Arvad geri oturup gözünü ovuşduranda çuvaldız ona batır. Buların başı burada qarışanda tülkü çuvalı doldurup aradan çıxır. Sora o biriləri də gəlib çıxıllar.

Tülkü danıya bir qaz verip, kəndə yolluyur. Xoruza da bir qaz verir. Sora da toxmağınan qazdarı qırıp yeyir.

Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri də nağıl danışanın.

TÜLKÜYNƏN XORUZ

Günnərin birində tülkü bərh acır. Hara gedirsə, əlinə bir şey keçirə bilmir. Belə qərara gəlir ki, onu tutub, dərisinə saman təpsələr də, özünü yaxınnıxdakı kəndə salıb özünə bir gün ağlamalıdı.

Şər qarışır. Tülkü ehtiyatnan kəndə girir və baxıb görür kü, bir evin üstündə qırmızı bir xoruz döşünü qabağa verib gəzişir. Tülkünün ağzının suyu axır. O, həmin evə yanaşıb qəflətən xoruzu qamarrıyıb tutur və daban alır qaşmağa. Xoruz nə qədər yalvarırsa, tülkü onu buraxmır. Beləliynən, onnar xeyli getdihdən sora bir qəbirsannığa çatıllar. Xoruz bu vax ağlıya-ağlıya tülküyə deyir:

– Görürsənmi o balaca arxı? Ordan axan su göz yaşıdı. Burda, yaxcı adamnar – bizim babalarımız yatır. Bir gün biz özümüz də burda yatacıyıx. Gəlsənə bir fatə verəh, yoxsa allahın qəzəbinə gələrih.

Tülkü, xoruzun sözdərinə diqqətnən qulax asannan sora öz-özünə fikirrəşir ki, doğurdan da fatə verməsə, Allaha xoş getməz.

Tülkü ağzını açıb fatə verməh isdiyəndə xoruz tülkünün ağzınnan çıxıb, qanad açır və uçub yaxınnıxdakı ağaca qonur.

Tülkü baxır kı, o allanıb, şikarı əlinnən çıxıb, üzünü qəbirsannığa tutub deyir:

Nə yaman ləfz idi gəldi dişimə.
Kül abid olub fatə verən başıma.

Tülkü, indi get acınnan öl, gör sana fatə verən tapılacaxmı?

Xoruz gecəni ağaşda qalır. Sabah cütcülərə qoşulub kəndə qayıdır.

TACİR OĞLU İLƏ SƏMƏRQƏNDİN NAĞILI

Biri vardı, biri yoxdu. Qədim zamanlarda bir tacir vardı. Onun gözünün ağı-qarası bir oğlundan başqa övladı yox idi. O, tez-tez səfərlərə çıxır, başqa ölkələrdən mal gətirib satarmış.

Bir gün tacir görür ki, artıq qocalmışdır. Səfərlərə çıxmağa taqəti qalmamışdır. Ona görə də bu dəfə səfərə çıxanda oğlunu da özü ilə aparır ki, o da bu peşəyə yiyələnsin. Onlar gəlib Bağdada çatırlar. Bazarda mallara baxarkən tacir oğlu görür ki, şahın adamları gəlir. O, yaxınlıqdakı adamlardan soruşur ki, bəs o gəcavədə gələn kimdir? Onlar bildirirlər ki, gələn şahın qızı Səmərqənddir. Tacir oğlu Səmərqəndin gözəlliyini eşitmişdi. Buna görə də qızı görmək üçün ürəyində bir arzu baş qaldırır. Qız isə hər tərəfi tüllə örtülmüş gəcavədə oturmuşdu. Tacir oğlu qızı görmək üçün bir fürsət axtarmağa başladı. Belə bir qənaətə gəlir ki, aşıq paltarı geyinib qızın yanına getsin. O belə də edir. Səhər tezdən aşıq paltarı geyinib gedir qızın yanına. Görür ki, qız nə qız! İki göz lazımdır ki, qıza tamaşa etsin. O dəqiqə də qıza bir könüldən min könülə aşiq olur. Demə, qız da oğlana vurulubmuş. Tacir oğlu axşam atasının yanına gəlir. Atası görür ki, oğlu çox fikirlidir. Heç özündə-sözündə deyil. Səbəbini soruşursa da, oğlu heç bir şey demir. O gündən oğlan oturub qızın fikrini çəkməyə başlayır. Atsı vəziyyəti belə görüb fikirləşir ki, yəqin oğlu xəstələnib. Ona görə də o tez mallarını yığıb geri qayıdır.

Bir müddət keçir. Tacir oğlu heç cür qızı unuda bilmir. O, belə bir nəticəyə gəlir ki, Bağdada getsin və necə olursa-olsun, qızı gətirsin. Atasına bildirir ki, gedim Bağdaddan mal gətirim. Atası bu xəbərdən sevinir və oğluna razılıq verir. Tacir oğlu yığışıb Bağdada yola düşür. Gəlib axşam çatır və bir qarının evində gecələməli olur. Fürsətdən istifadə edib Səmərqənd barəsində bir neçə söz soruşur. Qarı ona bildirir ki, bəs Səmərqənd bir aşığa aşiq olmuşdur. Aşığın dərdindən günü-gündən saralıb solur. Tacir oğlu hər şeyi başa düşür və qarıya

deyir ki, həmin aşıq mənəm... Səhəri get Səmərqəndə de ki, aşıq səni aparmağa gəlmişdir. Səhər tezdən qarı qızın yanına gedir. Oğlanın dediklərinin hamsını ona çatdırır. Qız ona deyir ki, bəs sabah qırx incəbelli qızla bağa gəzməyə gələcəyəm. Orda məni gözləsin. Qarı hər şeyi oğlana danışır. Tacir oğlu bağa gedib gizlənir və qızı gözləməyə başlayır. Səmərqənd qırx incəbelli qızla gəlir. O, qızların hərəsini bir iş dalınca göndərir. Tacir oğlu gizləndiyi yerdən çıxır və qızı götürüb qaçır. Bunlar qaçmaqda olsunlar, sizə kimdən deyim, Bağdad şahından. Şaha xəbər çatır ki, bəs Səmərqənd yoxdur. Nə qədər axtarırlarsa da qızı tapmırlar. Şah bildirir ki, kim mənim qızımın yerini desə, qızı həmin adama ərə verəcəyəm. Bu xəbər gedir çatır tacir oğluna. Səmərqənd ona bildirir ki, atam bizi belə rahat buraxmayacaq. Yaxşısı budur ki, get atama yerimi de. Bəlkə elə sən məni ala biləsən. Tacir oğlu belə də edir. O, şahın yanına gəlib deyir ki, mən Səmərqəndin yerini bilirəm. Ancaq bir şərtlə deyərəm ki, qızı mənə verəsən. Şah çarəsiz qalıb razılaşır. Tacir oğlu Səmərqəndi gətirir. Ata qızını görüb çox sevinir. Şah qızı tacir oğluna verib qırx gün-qırx gecə toy edir. Toydan sonra tacir oğlu Səmərqəndi və aldığı malları götürüb öz yurduna qayıdır.

BAXT

Varıydı, yoxuydu. Bir çirkin gəlin varıydı. Onun dedihcə gözəl, boylu-puxunnu, üstəlih axıllı əri varıydı. Gəlin həmmişə öz çirkinliyinnən xəcalət çəkirdi. Hər dəfə ərinin gözəl suvatını görəndə özünə, öz çirkinliyinə acığı tuturdu:

– Doğrudan da, gözəldən gözəllih, çirkinnən dərd əhsih olmaz. İndi mən neyniyim.

Gəlin çox tüşündü-daşındı. Axırda belə qərara gəldi. Bir gün ara xəlvət olanda özünü öldürsün. Qərəz, belə vaxt yetişən kimi fursatı qənimət bilif yola tüşdü. Gəlhagəl gəlif bir dərəlih yerə çıxdı. Dərəliyin bir tərəfi qayalıxıydı, qayalığın altı divi görünməyən uçurumuydu. Həyə, gəlin elə axtardığını tapbışdı. Odu ku vaxt itirmiyif qayalığa tərəf addımladı. Birdən əyax səsdəri eşidif geri döndü. Gələn boylu–puxunnu, gözəl-göyçəh, gülərüz bir gəliniydi. Uzun hörühləri, ala gözdəri çirkin gəlinin axlını başından aldı. Gümüş kəməri, qırmızı donu, başında dingəsi... Belə də gözəl gəlin olardımı, Allah? Çirkin gəlin özünü itirdi. Bir xeylax gəlinlər bir-birrərinə baxdılar. Çirkin gəlin ürəyində öz-özünə dedi: Ay dadı-bidad, ərim mənsiz necə yaşıyacax? Elə bu gəlinə deyim, ərimə getsin. Görən buna razı olarmı? Razı olsaydı mən özümü rahatca bu uçurumnan atıf ölərdim. İsdədiyimi gəlinə deyimmi, demiyimmi? Çirkin gəlin birtəhər özünü ələ alıf dedi:

– Ay göycəh bacı, sənnən bir şey soruşsam, cavab verərsənmi?

– Birini yox, laf ikisini xəbər al.

– Sənin ərin var?

– Yox.

– Gəl sana bir söz deyim. Bilmirəm xoşuna gələrmi?

– De, de görüm.

– Mənim ərim səni kimi boylu-puxunnu, göycəh adamdı. Elə sana layıxdı. İndi deyirəm sən gəl belə elə...

– Nə eliyim, nə deyirsən?

– Mən özümü öldürəcəm. Sən mənim ərimə arvad ol, bir-birinizə çox yaraşırsınız. Mənim kimi çirkin elə kişiyə yaraşmır, bacı.

Bu sözdəri eşidəndə göyçək gəlin əllərini bir-birinə vuruf elə qəhqəhə çəkdi ki, çirkin gəlinin qulaxları cingillədi.

– A gəlin, gözdərini aş, üz-gözümə yaxşı bax. Gör məni tanıyırsanmı?

– Vallah, billah, a bacı, səni tanımıram. Bir də neynirsən tanımağımı? Sən gəl tanrıyı göydə gör, mən deyənə əməl elə, mən də...

– A gəlin, bir mana yaxşı bax, bəlkə tanıdın.

– Vallah tanımıram.

– Tanıyırsan?

– Necə?

Göyçəh gəlin laf yaxına gəlidi. Çirkin gəlinnən üz-üzə göz-gözə dayandı. Əlini mehribannıxnan onun çiyninə qoydu:

– Eşitginən, bilginən. Mən sənin baxtınam. Sən çirkinniyinnən bir də şikayət eləmə. Get evinə. Nə qədər mən varam sən xoşbəxt olacaxsan. Məni kimi baxdı olana göyçəhlik lazım dəyil. Həmməşə sənin əvəzinə mən ərinin gözünə görünürəm.

Çirkin gəlin isdədi göyçəh gəlinin əllərinnən öpsün. Gördü gəlin nə gəzir? Necə getmişdi, eləcə də əvə qayıtdı gəlin. Bir də nə çirkinniyinnən şikayət elədi, nə də qəlbini qaraladı. Əriynən deyə–gülə ömür keçirdi. Allah sizdəri xoşbaxt, baxtdı eləsin.

EVİ KİM TİKƏR?

Biri varmış, biri yoxmuş, bir padşah varmış. Bu padşahın isə yeganə bir qızı varmış. Bir gün padşah nahar etdikdən sonra arvadından soruşur ki, ay arvad, evi kim tikər? Anasından qabaq qız cavab verir ki, ata, evi arvad tikər.

Padşah buna çox qəzəblənir. İkinci gün yenə də nahardan sonra sual verir ki, arvad, evi kim tikər, yenə də qız cavab verir ki, ata, evi arvad tikər. Padşah qəzəblənərək vəzirə, vəkilə əmr edir ki, bu qızı aparıb bir uzaq yerdə öldürüb qanlı paltarını mənə gətirərsiniz.

Bunlar qızı götürüb uzaq bir meşəyə yollanırlar. Meşəyə çatdıqda görürlər ki, burada iki nəfər paltarsız adam gəzir. Vəzir bunları çağırıb qızı bunlara tapşırır, özləri isə bir quş vurub qızın paltarını qana bulayıb geriyə qayıdırlar.

Bunlar getdikdən sonra qız oğlana bir tük verir. Deyir ki, get meşənin kənarında bunu yandır, o dəqiqə bir nəfər adam yanında hazır olacaqdır. Ondan iki dəst libas al gətir. Oğlan belə edir, libası gətirib qıza verir.

Səhərisi gün qız oğlana deyir ki, indi sən get mənə iki şahı gətir. Oğlan yola düşür gedir. Səhərdən axşamadək dilənir, iki şahı ilə yenidən meşəyə qayıdır.

Səhərisi gün yenə də Pəri xanım buna deyir ki, bu gün üç şahı gətirməlisən. Oğlan yenə də gedir. Diləndiyi zaman bir nəfər ona deyir ki, burada dilənməkdənsə, gedək mənim bir az yerim var, onu bellə, mən sənə bir manat verim. Oğlan onun sözünə razı olur. Gedib işi görür, axşam bir manatını alıb, yenidən meşəyə qayıdır.

Qız görür ki, bu oğlan yavaş-yavaş çox pul qazanmağa başlayır. Bir gün meşənin kənarı ilə bir karvan getdiyini görürlər. Karvanbaşı oğlanı görüb onun onlar ilə başqa vilayətə qazanca getməyini təklif edir. Oğlan karvanbaşını Pəri xanımın yanına aparır onunla razılaşmağı təklif edir. Pəri xanım

karvanbaşı ilə şərt kəsir ki, mən İsrafilin sənlə getməyinə razıyam, ancaq altı aydan sonra qazancın üçdə bir hissəsini İsrafilə verəcəksən. Karvanbaşı çox xəsis eyni zamanda qəddar adam olur. O, buna razı olur, ancaq ürəyində fikirləşir ki, bunu alver edib qayıdandan sonra yolda bir bəhanə ilə ya öldürər, ya bir təhər edər. Ona görə də Pəri xanımla razılaşıb İsrafili də götürüb yola düşürlər. Karvan yola düşüb iki gündən sonra bir şəhərə çatır. Bu şəhərdə alver edib yenidən başqa bir vilayətə səfər edirlər. Birinci şəhərdə bunların alveri yaxşı gedir. Karvanbaşı yol gedərkən İsrafili hansı yolla məhv edəcəyi haqqında düşünür.

O, bu fikirdə ikən karvan susuz bir səhradan keçirmiş. Həmin səhrada da bir quyu varmış ki, həmin quyudan karvanın qəflə-qatırı su içərmiş. Suyu isə quyudan böyük bir qab ilə bir adam çıxartmalı imiş.

Karvan quyunun başına yetişdiyi zaman karvanbaşı əmr edir ki, suyu quyudan İsrafil çıxartsın.

Onu həmin böyük qabın içinə qoyub quyuya sallayırlar. İsrafil qabı su ilə doldurur, yuxarıdan çəkirlər. Beləliklə, bütün karvanın adamları həm də qəflə-qatır su içdikdən sonra İsrafili çəkib yarı yolda ipini kəsirlər. O, bir müddət quyunun dibində otürüb gözləyir. O, başa düşür ki, onu xəyanətlə bura atmışlar.

İsrafil durub quyunun su gələn tərəfinə gedir. Xeyli getdikdən sonra bu quyunun tilsimli bir quyu olduğunu başa düşür. O, görür ki, burada bir əcayib adam oturub. Adam İsrafili görən kimi onu yanına çağırıb deyir: “Səndən bir söz soruşacam, əgər mənə düzgün cavab verməsən, səni öldürəcəyəm”. İsrafil çox ağıllı olduğu üçün onun sözü ilə razılaşır.

Həmin əcayib adam İsrafildən soruşur ki, sən mənə de görüm dünyada nə gözəldir? İsrafil cavab verir ki, könül sevəndən gözəl heç nə yoxdur.

Əcayib adam bu cavabdan çox xoşlanır, ona iki nar verib deyir ki, bu narları aparıb evdə kəsərsən. Onu öyrədir ki, gedib

oturarsan həmin quyunun ağzında, İki gündən sonra oradan bir karvan keçəcək. Onlar həmin quyudan su götürəndə sən quyuya düşən adamdan əvvəl həmin su qabına gir. Səni yuxarı çəkərlər.

İsrafil quyunun ağzına yollanır. İki gün gözlədikdən sonra quyunun ağzında səs-küy gəldiyini eşidib sevinir. Aşağı düşən adam quyuya çatanda İsrafili görüb çox qorxur. İsrafil isə başına gələn əhvalatı buna danışır, onun quyudan çıxarılmasını xahiş edir.

Onlar qəflə-qatırı suladıqdan sonra birinci olaraq su qabına İsrafil girir, onu yuxarı çəkirlər. O, başına gələn əhvalatı karvan adamlarına danışır.

Sonra quyudakı adamı da çəkirlər. İsrafil həmin karvana qoşulub bir neçə aydan sonra gəlib Pəri xanımın yanına çatır. O, başına gələnləri söylədikdən sonra narları ona verir. Pəri xanım narların sehirli olduğunu o dəqiqə bilir, narın birin kəsir. Görürlər ki, narın içərisi nar dənəsi yox, ən qiymətli ləlcəvahiratla doludur. Bunnan sonra Pəri xanım İsrafili şəhərə yollayıb ən məşhur ustaları çağırmasını tapşırır.

İsrafil gedib şəhərdən ən məhşur ustaları yığıb meşəyə gətirir. Burada böyük bir imarət tikməyə başladılar.

İmarəti tikilib qurtardıqdan sonra onun içərisini gözəl bəzəyirlər. Bir neçə müddətdən sonra padşaha xəbər çatır ki, onun vilayətində padşahın sarayından da böyük, gözəl bir imarət tikilib. Odur ki, bunu eşidən padşah vəzir, vəkilə əmr edir ki, qoşun hazır olsun, gedək görək bu necə işdir ki, mənim sarayım onun yanında balaca bir dama oxşayır.

Onlar yola düşüb xeyli getdikdən sonra Pəri xanımın tikdirdiyi imarətə yetişirlər. Nökərlər padşahı saraya aparırlar. Padşah saraya daxil olur, görür ki, doğrudan da burada böyük bir cah-cəlal vardır.

Pəri xanım padşahın adamları üçün böyük bir məclis düzəltdirir. O, İsrafilə padşaha layiq bir libas geyindirib məclisin başında əyləşdirir. Pəri xanım isə bir pərdə dalında əyləşib padşaha tamaşa edirdi. Məclis qurtardıqdan sonra Pəri xanım pərdənin dalından padşaha sual verir ki, qibleyi-aləm sağ olsun, sənə mənim bir sualım var. De görüm, evi kim tikər? Padşah bu sualı eşidən kimi bu sual üstündə əziz bir balasını məhv etdiyini yadına salıb dərin fikrə gedir, sualı cavabsız qoyur. Bu zaman Pəri xanım pərdənin dalından çıxıb həmin suala cavab verib deyir ki, qibleyi-aləm, indi gördün ki, evi arvad tikər. Padşah Pəri xanımın sağ qalmasını görüb çox sevinir. Məclis yenidən qurulur. Yeddi gün, yeddi gecə toy edib Pəri xanımı İsrafilə verirlər.

TACİRLƏ DƏRVİŞ

Biri varıymış, biri yoxuymuş. Gülcahan şəhərində bir tacir varıymış. Tacirin arvadı özünü tacirə o qədər inandırmışdı ki, tacir deyirdi ki, varsa da, yoxsa da Gülcahan şəhərində mömün, müqəddəs mənim arvadımdır. Amma tacir bilmirdi ki, arvadın aşnası da var. Bir günləri arvad aşnasına dedi ki, gəl bu kişini uzaq bir səfərə göndərək, biz də bir rahat oturaq, söhbət edək. Arvad ikinci günü aşağıda oturub fikirləşdi: "Mən nətəri ölçü götürüm ki, kişinin gəlməyi bir ay çəksin". Arvad qərara gəlib qayçı ilə çuxasının bir qırağından kəsib qırağa qoydu. Kişi günorta nahara gələn zamanda gördü ki, arvad namaz qılır. Amma çuxasının bir parçası yoxdu. Kişi bunu görən kimi çox təşvişə düşdü. Arvad namazını qurtarandan sonra soruşdu:

– Çuxanın qırağına nə oldu?

Arvad söylədi:

–Günaşıda oturan zamanında bir erkək pişik mundarladı. Ona görə də kəsdim.

Kişi soruşdu:

–Bəyəm arvad, erkək pişik mundardı?

–A kişi, sən nə danışırsan?! Mənim, üçün erkək sərçə də mundardır.

Kişi soruşdu:

–Arvad, mən neynim onda?

–Heç bir şey lazım döyül.

– Yox–yox, nə danışırsan, mən səni çuxasız qoymaram. El baxıb nə deyər mana? Bu mömün, müqəddəs arvadı kişi gör nə libasla saxlayır?

Kişi:

– Arvad, mana sovqat qayır, mən gedəcəm Təbrizə, sana çuxa alacam.

–Yox-yox kişi, nə zəhmət çəkirsən!

Guya arvad buna razı olmadı. Sonra sovqat hazırlayıb

kişini yola saldı. Kişi ala toran Təbrizə yetişib gördü ki, bəzzazın tükəni açıqdı. Bəzzaz olduğundan o parçadan olmadığını dedi:

– Kişi, bu parçadan məndə yoxdu.

İkinci bəzzazı gözətdədi. Dükan açılan kimi kişi bəzzaza yaxınlaşıb:

– Sizdən xahiş edirəm, bəlkə bu parçadan ola? Bəzzaz cavab verdi:

– Neçə top lazımdı? – deyə ona bənzər parçalar göstərdi.

Kişi dinmədi.

Bəzzaz:

– Parçamız xoşuna gəlmədi?

Tacir cavab verdi:

– Yox, bu parça boyda lazımdı – deyə evdən gətirdiyi parçanı göstərdi. Bu bəzzaz balaca parça olduğundan o saat tacirdən soruşdu:

–Neynirsən bu boyda?

Tacir cavab verdi:

– Bizim arvad eyvanda oturduğu zaman «erkək pişik» mundarlamış, ona görə də arvad çuxasının bir qırağını kəsmişdi. Dübarə bu sözü eşidən bəzzaz taciri şəhərdə məhşur olan başqa bir bəzzazın yanına göndərdi. Bəzzazın yanına çatan kimi bəzzaz tacirdən soruşdu:

– Xeyr ola, nə var?

Tacir əhvalatı söyləyəndən sonra bəzzaz bildi ki, bunun arvadının aşnası var. Bəzzaz dedi:

– A kişi nə danışırsan? Bu parçadan məndə beş tonuydu, bunu dünən İsfahanlı Murtuzalı adlı tacirə verdim, apardı. Kişi bikef öyünə qayıtdı. Arvad soruşdu:

– Kişi nə oldu?

Kişi cavab verdi:

– Arvad, getdim bəzzazı tapdım, dedi ki, bu parçadan varıydı, İsfahanda Murtuzalı adlı bir tacir var, o apardı. İndi mən İsfahana gedirəm. Arvad özünü naza çəkdi, kişini daha da

inandırdı.

Kişi əl çəkmədi, arvadın isə Allahından idi. Arvad kişiyə sovqat qayırmaqda olsun, sizə kimdən danışım, arvadın aşnasından. Həmin gün aşna gəlib dedi:

– Nətəri elədin?

– Hey, kişiyə bir iş düzəltmişəm ki, heç bir aya da qayıtmaz. Aşna dedi ki, kişin günorta gələndə denən ki, eşikdən ğir rəzə qayırarsan, gedəndə eşikdən qapını qıfıl ilə bağlarsan, gələndə isə qapını döyər, açarsan.

İndi sizə kimdən deyim, tacirdən. Tacir evə gələndə arvadı aşnasının sözlərini kişiyə söylədi. Kişi isə səhər dəmirçidən bir rəzə, bir qıfıl aldı, bir dülgər gətirib onu düzəltdirdi. Bundan sonra aşnası rahat gəlif–gedərdi.

Aşna dedi ki, kişini yola salanda qoy itini də aparsın. Mən gələn zaman səs-küy edir. Arvad isə sovqatı kişi ilə itə qayırdı, kişini həm də iti yola saldı. Kişi İsfahana yola düşdü. Bir neçə gün yoluna davam edəndən sonra dörd yolun ayrıcına çıxdı. Nolasıdı, bir neçə gün yol getdiyindən yornux halda dörd yolun ayrıcında oturub, huşa getdi. Bu zaman it çox bərk hürdü. İtin səsinə kişi ayıldı, gördü bir atlı gəlir, öz-özünə dedi:

– Gör arvad məni nə qədər istəyir ki, bu iti mənim yanıma saldı, yoxsa bu attı məni öldürəcəkdi.

Attı kişiyə yaxınlaşıb soruşdu:

– A kişi haraya gedirsən?

– İsfahana.

– Nə var, xeyir olsun! Bu iti nə gəzdirirsən?

Arvadım dedi ki, yollar qorxuludur, yanınca apar.

– Nə məcbur edib?

– Heç, sağlığına bu parçadan bir az alacam.

– A kişi, bu parçadan Təbrizdə, Tehranda tapılmır ki, sən İsfahana gedirsən?

– Nə bilim, bəzzazdan soruşdum, dedi ki, bir neçə top var idi, İsfahana göndərdim.

– A kişi, dur iti də burax gedək.

Kişi dünyagörmüş bir dərviş idi. Dərviş başa düşdü ki, bu tacirin arvadının aşnası var. Dərviş tacirə dedi ki, arvadının aşnası var. Tacir dedi:

– Yox-yox, mənim arvadım mömin, müqəddəs arvaddır. Dərviş əl çəkmədi.

Taciri də ata mindirdi, yola düşdülər, şəhərə çatdılar. Dərviş atı satıb, kişiyi də yanına aldı.

Deyirlər rəvayətə görə keçmiş zamanda dərviş cinsi hansı qapıya həsasını asarsa, o gecə orada qalmalı idi. Gəlib tacirin kəndinə çatdılar. Dərviş dedi:

– Sənin qapını mana görkəz, hasamı asım. Tacir qapını görkəzdi.

– Tacir, indi mən sənin gözünü bağlayacağam ki, səni tanımasınlar. Qapını döyüb hasanı asdı. Bir qədər evdən aralandılar. Tacirin arvadı gəldi qapıya, gördü ki, dərviş hasasını asıfdı. Tez qayıdıf aşnasına dedi ki, nolucax, dərviş hasasını asıfdı, pişirdiyimiz burnumuzdan gələcəhdi. Nə bilir ki, aşnamsan, ərimsənmi?

Arvad pilo-çilo hazırladı. Bəli, dərviş ilə tacir evə daxil oldular. Arvad tez bunların hərəsinə bir stəkan çay qoydu. Aşnası isə qabağında bir stəkan çay, qəlyanını fısqırda-fısqırda yastığa söykənmişdi. Arvad isə qırğı kimi aşnanın qabağında çay qoymaqda, xörək çəkməkdə idi. Xörək çəkildi. Xörəyə "Bismillah" deyən zaman dərviş aşnanı elə vurdu ki, heç yerindən qalxa bilmədi, tacir isə arvadıyla aşnanı öldürdü.

–Kişi, indi inandınmı?

Kişi mətbəxdə yeri qazıb iki küpə qızıl çıxartdı. Qardaş, biri sənin, biri mənim, hara getsən gedək bir yerdə.

Dəvriş dedi:

–Məndən sənə qardaş olmaz. Gətdim, görkəzdim, indi ki, gördün mömin, müqəddəs arvadının axırı nətəridir?!

Nə isə, dərviş bir yana, tacir qızılı götürüb üz tutdu başqa bir padşahın torpağına. Getdi, neçə vaxtı başını bir təhər

hərrədi. Sonra getdi çıxdı başqa bir padşahın şəhərinə. Bir neçə gün burda yaşadı. Günlərin bir günündə bir pinəçi ilə tanış oldu. Onun yanında söhbət eliyirdi. Pinəçi deyirdi:

– Qardaş, bilmirəm nə olan işdisə, şəhərdə var-dövlət qalmadı, hamısını quldurlar oğurladı, ancaq tapa bilmirlər.

Tacir isə nə olurdusa hamısını ürəyində saxlayırdı, heç kimə bir söz demirdi. Pinəçinin bir damı var idi, tacir orada qalırdı.

Bir gecə padşahın xəzinəsini apardılar. Pinəçinin evindən tutmuş hamının evini axtardılar. Ancaq Abidin evinə dəymirdilər. Abid isə özünü elə aparırdı ki, padşah elə bilirdi ki, varsa da Abiddi, yoxsa da. Ancaq bilmirdi ki, quldurlar Abidin evində yerləşir. Yenə də padşah hər yerə car çəkdi, xəzinə tapılmadı.

Pinəçinin işlədiyi yer elə bir görkəmli yerdə idi ki, hara gediləsi olsaydı, gərək oradan keçəydilər. Bir də gördü ki, o tərəfdən bir dəstə adam gəlir. Tacir təsbih çöyürə-çöyürə fikri bunlardaydı. Bir nəfər yolu süpürür, bir şəxs isə başına ağ salıb, sağ-solunda mömün adamlar bura gəlir. Tacir ürəyində dedi ki, burada iş var. Tacir dedi:

– Pinəçi qardaş, bu nə işdi?

– Şəhərin Abididir.

Tacir soruşdu:

– Yolu niyə süpürürlər, onun başına niyə ağ salıflar?

– O yolu süpürürlər ki, ayağının altında qarışqa qalmasın, günahdır. Başına da ağ salıfdı ki, naməhrəm adam görməsin.

Tacir ürəyində dedi ki, vallah, bu da elə mənim arvadım kimi mömün, müqəddəsdi. İndi mən buna tədbir tökərəm. Axşam oldu. Pinəçi ilə tacir daxil oldular evə, çörək yeyib, çay içdikdən sonra tacir dedi:

– Pinəçi qardaş, sabah mən padşahın hüzuruna gedəcəm. Xəzinə aparanı tapacam.

Pinəçi dedi:

– Səni and verirəm öz canına, mənim öyümü dağıtma,

get harada qalırsansa qal, mənim evimi dağıtma. Mənim balalarımı düzdə qoyma, padşah eşitsə mənim evimi yıxacax. Tacir dedi:

– Yaxşı getmərəm.

Sabah pinəçini yola salannan sonra yol başladı padşahın hüzuruna. Tacir qapını döyüb, dedi:

– Məni padşahın yanına buraxın, deyin bir nəfər gəlib.

Padşah dedi ki, buraxın gəlsin. Padşah soruşdu:

– Kişi, xeyir olsun, nəyə gəlmisən?

– Padşah sağ olsun, sənnən xüsusi söhbətim var.

Padşah yanındakıları çölə çıxardıb, tacirnən söhbətə başladı. Tacir dedi:

– Padşah sağ olsun, sənin şəhərində olan oğurluqları, sənin xəzinəni aparanları mən taparam.

A kişi, nə danışırsan, səni dünya malından qane edərəm.

Padşah sağ olsun, mana bir şey lazım döyül, ancaq mən nə desəm, onu sən yerinə yetirərsən, Padşah dedi:

– Sənin əmrinə tabeyəm, nə qədər qoşun desən taparam. Tacir dedi:

– Sənin şəhərinin abidinin evini mühasirəyə alarsan, abidi tutub buraya gətirərsən.

Padşah Abidi dustax şəklində bura gətirdi.

Abid məsələni başa düşən kimi:

–Padşah, nə danışırsan, göydən daş tökülər, sən mənim evimi yıxarsan.

Padşah Abidin sözünə baxmayıb tacirin sözünə əməl etdi. Abidin evi axtarılan zaman qırx nəfər haramı çıxdı. Bundan sonra şəhərdə nə qədər oğurluq var idisə hamısı Abidin evindən çıxdı, bir də padşahın xəzinəsi çıxdı. Padşah tacirə dedi ki, indi səni özümə vəzir saxlayacağam. Tacir dedi: “Padşah sağ olsun, mənə heç bir şey lazım döyül. Sənin də Abidin mənim arvadım kimi Abid idi”.

Padşah nə qədər dedisə, Tacir vəzirlikdə qalmadı, üz tutdu başqa şəhərin padşahının məmləkətinə.

PADŞAHLA VƏZİRİN SƏYAHƏTİ

Biri var idi, biri yox idi. Keçmiş zamanlarda bir padşah var idi. Padşah öz vəziri ilə bir gün səyahətə çıxırlar. Bunlar qəbirstanlıqdan keçirdilər, gördülər ki, burda üç adam oturub. Padşah bunlardan soruşdu:

– Siz nəçisiniz?

Bunlar padşaha cavab verdilər ki, biz oğruyuq. Oğrular da qayıdıb bunlardan soruşdular:

– Bəs siz nəçisiniz?

Padşah da bunlara belə cavab verdi ki, biz də oğruyuq.

Sonra bunlar fikirləşdilər ki, hansı tərəfə oğurluğa gedək. Oğrular cavab verdi ki, biz gedirik padşahın xəzinəsini yarmağa.

Bu padşah soruşdu ki, siz nə sənətin sahibisiniz? Bunlardan birisi dedi ki, mən hara oğurluğa getsəm bütün xəzinənin qapıları mənim üzümə açıq olur. O birisindən soruşdu:

– Bəs sən nə işlə məşğulsan?

O, cavab verdi ki, mən qaranlıq gecədə kimi görsəm, onu gündüz tanıyıram. O, birisindən soruşdu:

– Bəs sən nə sənətin sahibisən?

O da dedi ki, mən oğurluğa gedəndə it hürsə bilirəm ki, it nə deyir.

Bunlar padşahdan soruşdular ki, bəs siz nə sənətin sahibisiniz? Padşah cavab verdi ki, mən qıçımın sol tərəfini tərpətsəm, şəhərlə kəndin bir tərəfini xaraba qoyaram. Qıçımın sağ tərəfini tərpətsəm isə camaata, rəhm eyləyib, vergidən, istismardan azad edərəm. Bu üç oğru gedib padşahın xəzinəsinin qapısının ağzına çatanda xəzinəsinin qapısı açılır. Bu qapı açılanda balaca bir it hürür. Böyük it qalxıb, bunu boğub deyir:

"Gələnin özü görmürmü? Sən niyə hürürsən?"

Bunlar padşahın xəzinəsini yarır, oğurlayıb aparırlar həmin qəbirstanlığa. Orada qızılı dörd yerə bölürlər. Üç pay

oğruların özlərinə, bir pay isə padşaha götürürlər. Oğrular qəbirstanlıqda qalır. Padşah gedib öz taxtına çıxır. Padşaha xəbər verirlər ki, bu gecə xəzinəni dağıdıblar. Padşah qırmızı geyib taxta çıxaraq deyir:

– Filan qəbirstanlıqda üç oğru var. Onları gətirin buraya.

O saat gəlib onları padşahın hüzuruna aparırlar. Padşah soruşur ki, bu gecə padşahın xəzinəsini dağıdıbsınız, sizi asdıracağam. Oğrulardan o dəqiqə biri deyir: "Padşah sağ olsun, ayağının sağ tərəfini tərpəd, bizi azad eylə". Padşah görür ki, gecə bunlara dediyi sözdür. İndi onu şaha deyir.

Gecə gördüyü oğrunun biri padşahı tanımışdı. Padşah onları azad eyləyib deyir: "Gedin qızılları gətirin. Xəzinəyə təhvil verin!" Padşah da hərəsinə bir neçə qızıl verir.

Günlərin bir günü padşah yenə öz vəziri ilə səyahətə çıxır. Bir neçə kəndi, şəhəri gəzdikdən sonra yol ilə gedirlər. Görürlər ki, yolun kənarında bir kişi yemiş satır. Padşah vəzirlə yemiş satan kişiyə yaxınlaşıb deyir:

– Kişi, bu yemişlər neçəyədir?

Kişi deyir:

– Biri beş manatdır.

Padşah vəzirə deyir:

– Ay vəzir, bu çox bahadır. Buna bizim gücümüz çatmaz.

Baxdılar, gördülər ki, bir keçəl gəlir.O da kişidən soruşdu:

– A kişi, bu yemişi neçəyə verirsən?

Kişi cavab verdi ki, biri beş manatdır. Keçəl pulu çıxardıb verir, yemişi götürür, yemişi kəsib yeyir. Padşah qayıdıb vəzirə deyir ki, vəzir, bu dünyanın zövqi–səfasını gədə sürür. Keçəl onlardan xahiş edir ki, bu kəlməni bir kağıza yazın, mənə verin. Kağızı padşahdan aldıqdan sonra Keçəl gedib, özgə padşahın şəhərinə çıxır, həmin şəhərdə bundan soruşurlar ki, sən kimsən? O isə deyir ki, şah Abbasın oğluyam. Şaha xəbər verirlər ki, bizim şəhərə qonaq gəlib.

Padşah bunu yanına çağırtdırıb buna bir neçə otaq bağışlayır. Padaşahın evində gözəl bir qızı olur. Padşah keçələ deyir ki, gərək mənim qızımı alasan. Keçəl razı olur. Padşah öz qızını qırx gün, qırx gecə toy edib keçələ verir, bir neçə şəhəri də keçələ bağışlayır. Sonra bir il burada yaşayırlar. Sonra padşah şah Abbasa xəbər verir ki, oğlunuz bizə qonaq gəldi, qızımı verdim ona, qırx gün, qırx gecə toy elədim, bir neçə şəhər də bağışladım. İndi sizə qonaxlığa gəlirlər. Şah Abbas deyir:

"Keçəl adlı mənim oğlum yoxdur. Gəlirlər gəlsinlər".

Bunlar şah Abbasın evinə gəlirlər. Şah Abbas da qırx gün, qırx gecə toy vurdurur. Bunlar burada şən həyat qurmağa, ailə həyatı sürməyə başlayırlar.

MƏHƏMMƏDİN KƏLƏYİ

Sizə xəbər verim, Təbriz şəhərindən. Bu şəhərdə Məhəmməd adlı bir kasıb oğlan yaşayırdı. Onun qohum-əqrabasından yalnız bir anası, dayısından başqa heç kəsi yox idi. Ancaq dayısı başqa şəhərdə yaşadığından Məhəmməd onu tanımırdı, kim olduğunu bilmirdi. Günlərin bir günündə Məhəmməd anasından soruşur ki, ana, bə bizim heç bir qohumumuz yoxdur? Anası bir qədərdən sonra deyir ki, bala sənin İsfahan şəhərində bircə dayın var, ondan başqa bizim heç kimimiz yoxdur. Məhəmməd anasından izn alıb dayısının yanına gedir.

Çox əziyyətlər çəkdikdən sonra Məhəmməd dayısını tapır. Anasının göndərdiyi kağızı dayısına verir. Məhəmməd baxıb görür ki, dayısının həddindən artıq cəh–cəlalı, var–dövləti var. Bir müddət qalandan sonra baxır ki, dayısı heç bir işlə məşğul deyil. Məhəmmədi bu iş çox maraqlandırır. Odur ki, dayısından xəbər alır ki, dayı, sən işləmirsən, eləmirsən bə bu qədər mal-dövləti haradan alıbsan? Məhəmmədin dayısı istədi Məhəmməddən dansın, ancaq bir qədər fikirləşdikdən sonra deyir ki, mən oğurluq etməklə bu qədər dövlətlənmişəm. Sən var–dövlətdən götür, get ananın yanına, o təkdir.

Məhəmməd deyir:

– Mənə heç bir şey lazım deyil. Mən də qalıb sənlə oğurluq edəcəyəm. Dayısı Məhəmmədi sınamaq üçün deyir ki, əgər sən də mənim kimi olmaq istəyirsənsə, mənim qapımda bir çinar ağacı var, ağacın budağında bir quş yuvası var, quşun yuvasında da balası var. Sən ora çıxıb quşun balasını elə gətir ki, quşun xəbəri olmasın. Yenə qaytar apar yerinə qoy.

Məhəmməd dayısının hiyləsini başa düşüb deyir:

– Dayı qabaqca özün çıx, baxım görüm necə çıxırsan? Sonra da mən çıxaram. Məhəmmədin dayısı ağaca çıxan kimi Məhəmməd tez dayısının ayağından ayaqqabısın çıxardır,

ancaq dayısı bunu bilmir, çünki Məhəmməd çox bacarıqla ayaqqabını çıxardır. Dayısı başa düşür ki, Məhəmməd ondan üstün oğru olacaq.

Məhəmmədin dayısı deyir ki, indi ki sən oğurluqda məndən üstün oldun, sabahkı səfərimiz şahın xəzinəsinə oğurluqdu. Gecə dayı, bacı oğlu gedib şahın xəzinəsini yarıb gətirirlər. Bundan heç kəsin xəbəri olmur. Gündüz paltarlarını dəyişib şəhər çıxırlar ki, görək kim nə danışır. İsfahan şəhərində oğurluq həddən ziyadə idi. İsfahan şəhərinin əhalisi götürüb Türkiyə şahına xəbərdarlıq edir ki, bizim şəhərdə oğurluq həddən artıqdır. İsfahan şah bunun öhdəsindən gələ bilmir. O idi ki, Türkiyə şahı götürür belə bir namə yazır, əgər oğrunu tapa bilmirsənsə mənə tabe ol. Gəlim mən oğrunu tapım. İsvahan şahı vəziri, vəkili çağırır ki, gəlin bir məsləhət görək, bütün şahlar məni tənqid eləyir. Belə bir məsləhətə gəlirlər ki, xəzinənin dörd tərəfini xəndək düzəldib qırla içərisini dolduraq. Həmin gecə elə də edirlər. Ancaq bu işdən Məhəmmədin dayısının xəbəri olmur. Elə həmin gecə yenə xəzinəni oğurluğa gəlirlər. Bu zaman dayısı qıra batır. Məhəmməd görür ki, dayısı qıra batıb. Nəalac qalıb dayısına deyir:

– Dayı icazə ver, mən sənin çiynindən keçim xəzinəni oğurlayım, sənin başını kəsib evimizə aparım, çünki sənin başın burada qalsa, səni üzdən tanıyarlar, şah bizim nəslimizi qırdırar. Məhəmməd xəzinəni yarıb dayısının başını kəsib evə gətirir. Səhərisi şah görür ki, həm xəzinəni, həm də xəzinəni oğurlayanın başını üzüb aparıblar. Şah heç bir şey başa düşə bilmir ki, bu nə sirdir. Məhəmməd evlərinə gedib dayısının arvadına bərk-bərk tapşırır ki, olmaya bu sirri bir adama deyəsən, küçədə ağlayasan. Şah eşidib hamımızı qırar. Qorxma dayımın meyitini də oğurlayıb gətirəcəm. Bunlar burada qalsın görək şah nə edir. Şah nə qədər axtarırsa meyitin yiyəsini tapmır. Əmr edir ki, bu meyit hər kimindir gəlsin aparsın. Məhəmməd çox çətinliklə də olsa dayısının meyitini şahın sarayından oğurlayıb gətirir. Şah belə sərancam verir ki, kim

mənim xəzinəmi, oğrunu aparıb üzə çıxsa qızımı ona ərə verərəm. Məhəmməd şahın hüzuruna gəlib deyir:

– Şah sağ olsun, bu işləri mən etmişəm. Ancaq mən sənin qızını bir şərtlə alıram. Şah dedi, o şərtin nədi, Məhəmməd dedi:

– Şah sağ olsun, mən sənin qızını ona görə hələ almıram ki, Türkiyə şahı çox töhmətli məktublarla səni hədələyir. İzn ver, gedim Türkiyə padşahını sənin sarayına oğurlayıb gətirim. Sonra sənin qızını alım.

Məhəmməd çox əziyyətdən sonra əzrail sifətində türk şahının sarayında gözünə görsənir. Türk şahı qorxusundan özündən gedir. Bu vaxt Məhəmməd şahın əl–ayağını sarıyıb ata mindirir. Gətirib şaha təqdim edir. İsfahan şahı baxır ki, doğrudan da şahlığa layiq bir oğlandır. Öz qızını qırx gün qırx gecə toy edib Məhəmmədə verir. Məhəmmədi öz yerində şah qoyur, onlar şad–firavan həyat sürürlər.

ŞİRZADIN NAĞILI

Biri var idi, biri yox idi, İsvahan şəhərində bir padşah var idi. Bu padşah övlad üzünə həsrət idi. Günlərin bir günündə padşahın arvadı hamilə olur. Doqquz ay, doqquz gün, doqquz saat tamam olandan sonra padşahın arvadının bir oğlu olur. Ancaq padşahın adamlarının buna paxıllığı tutur. Odur ki, bir it küçüyünü həmin oğlanın yerinə qoyurlar, oğlanı isə bir kolun dibinə atırlar ki, padşahın xəbəri olmasın. Sizə hardan xəbər verim, çöldə yaşayan vəhşi bir şirdən. Şir çölü gəzə-gəzə gəlib uşaq olan kolun yanına çatanda qulağına bir səs gəldi. O tərəf-bu tərəfi iylədi. Gördü ki, kolun dibində bir uşaq var. Şirin də təzəcə balası öldüyündən döşləri südlə dolu idi. Odurki uşaq şiri əmməyə başladı.

Bunlar burada qalmaqda olsun, sizə kimdən xəbər verim, həmin padşahın qardaşı Məhəmməddən. Məhəmməd on beş min qoşunla ova çıxmışdı. Onlar gəzə-gəzə gəlib bir düzənliyə çatdılar, bu vaxt şiri gördülər. Başladılar şiri oxlamağa. Şir tez durub qaçdı. Məhəmmədlə adamları həmin şir olan yerə gəlib gördülər ki, şirin altındakı bir oğlan uşağıdır. Onlar uşağı danışdırmaq istədilər. Ancaq uşaq danışa bilmirdi. Elə hey adamların üzünə tamaşa edirdi. Məhəmməd uşağın adını Şirzad qoyur. Günlər, aylar keçdi, Şirzad Məhəmmədin yanında qalmaqda olsun, sizə kimdən xəbər verim, həmin şəhərdə Məhəmmədin Qara vəzir adlı bir düşməni vardı. Qara vəzir gördü kü Məhəmmədin yanında pəhlivan gövdəli bir oğlan olur. O öz-özünə dedi:

– Aslan bir idi, indi oldu iki. Bunların başları bir gündə əzilməlidir”. Qara vəzir İsvahan şəhərində on beş ağaclıq o tərəfə çarhovuzlu bir bina tikdirib qızı Gülgəzi orada saxladı. Qara vəzir qoşunlarını meşəlikdə gizlətdirib gözləməyə başladı. Bu vaxt Şirzad əmisindən izn alıb, ova çıxmışdı. Şirzad çox gəzdi, çox dolandı. Çox susamışdı, su axtara-axtara gəlib Gülgəz xanım olan imarətin qabağına çıxdı. Elə Gülgəz

xanıma bu lazım idi. Atası Qara vəzir Şirzadı tutmaq üçün qoşunu meşədə gizlətmiş, özü isə Gülgəz xanıma tapşırmışdı ki, Şirzad adlı oğlan bura gəlsə, dilə tutub evə gətir, dalısınca sənin işin yoxdur. Gülgəz xanım baxdı ki, qapıda bir pəhlivan gövdəli gözəl bir oğlan durur. Ondan soruşdu ki, oğlan nə axtarırsan burada? Şirzad axtardığını qıza bildirdi. Qız oğlanın adını soruşub onun Şirzad olduğunu biləndə çox sevindi, oğlanı dilə tutub evə gətirdi. Şirzadı evdə qoyub qapını daldan bağladı, atasına xəbərə qaçdı ki, day nə durmusan, Şirzad öz ayağı ilə bizə gəlib, durma gəl. Qara vəzirə də bu lazım idi. Oradan qoşuna əmr edib düz Şirzadın üstünə gəlirlər.

Sizə kimdən xəbər verim, Şirzaddan. Elə ki Şirzad Gülgəz xanımın imarətinə gəldi, oturub Gülgəz xanımı gözlədi ki, ona su gətirəcək, çünki Gülgəz xanım Şirzada dedi ki, sən burada gözlə, gedim sənə su gətirim. Şirzad heç bir şey başa düşmədən oturub Gülgəz xanımın yolunu gözlədi. Şirzad dözə bilməyib eşiyə çıxmaq istəyəndə gördü ki, qapı bağlıdı. Tələyə düşdüyünü dərhal anladı, aynadan özünü eşiyə tulladı. Nə görsə yaxşıdır?

Gördü ki dörd tərəfi qoşun mühasirəyə alıb, tez qılınca əl atıb qoşunu çala-çala özünü ata çatdırdı. Başladılar qılınc çalmağa. Şirzad tək on beş min qoşunla bir gün, bir gecə qılınc çalıb, nəhayət, əldən düşüb yoruldu. Qara vəzirin qoşunu tökülüb Şirzadı diri-diri tutmaq istəyəndə əmisi Məhəmməd özünü yetirdi. Şirzad əmisini görcək çox şad oldu, qollarına yeni qüvvə gəldi. Məhəmməd qoşunu ilə bir tərəfdən, Şirzad da bir tərəfdən Qara vəzirin qoşununa bir hay verdilər ki, gəl görəsən. Qoşun qırılandan sonra başladılar İsvahan şəhərinə getməyə. Məhəmməd padşahın 2 oğlu var idi. Birinin adı Əhməd o birisinin adı Hümbət. Bunlar Şirzadın paxıllığını çəkirdilər. Odur ki, ataları oğlanlarını çağırıb dedi:

– Oğlanlarım, siz Şirzadın yerini verə bilməzsiniz. Şirzad çox qoçaq oğlandır. Mən Şirzadı ona görə çox istəyirəm.

Günlərin bir günü Əhməd atasından izn alıb uzaq bir

səfərə gedir. Gəlib bir meşəyə rast gəlir, çox axtarıb gəzəndən sonra bir ağacın altında oturub dincəlmək istəyir. Ağacın budaqlarına baxır ki, bura qızıl almalarla doludur. Əhməd ömründə bu qızıl almalardan heç birini də görməmişdi. Almalara valeh olur, öz-özünə fikirləşir ki, yaxşı oldu, bunlardan yığıb atama hədiyə apararam. Atam görər ki, Şirzad qoçaq oğlandı, ya mən. Əhməd almalardan xurcunun iki gözünü doldurub atasının yanına qayıdır. Atası Əhmədin gəlməyinə çox şad olur. Əhməd almaları atasına göstərib deyir ki, ata bunlardan heç harada yoxdur, bu qızıl almaları sənə hədiyyə gətirmişəm. Atası heç bir söz deməyib Əhmədə bir dəstə açar verib deyir:

– Get, otuz doqquzuncu qapını aç.

Əhmədə gəlib otuz doqquzuncu qapını açanda görür ki, otaq bu qızıl adamlarla doludu. Çox bikef olur. İkinci dəfə Hümmət atasından izn alıb gedir. Hümmət çox gəzib, dolanır. Gəlib bir çınqıllığa rast gəlir. Xurcunu daş-qaşla doldurub atasını yanına gəlir. Bu gətirdiyi şeyləri atasına görsədir. Atası heç bir söz deməyib yenə Hümmətə bir dəst açar verir və deyir get qırxıncı otağın qapısını aç. Hümmət gəlib qırxıncı otağın qapısını açanda görür ki, doğrudan da bura daş–qaşla doludur. Heç bir söz deməyib çox bikef olur. Üçüncü dəfə Şirzad əmisindən izn istəyib uzaq bir səfərə getməsini bildirir.

Məhəmməd Şirzadı gözündən kənara qoymaq istəmədi. Şirzad çox yalvardıqdan sonra əmisi ona izn verdi. Şirzad atını mindi, qılıncını götürdü, yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəlib bir düzənliyə çatdı. Atdan yerə düşüb bir az dincəlmək üçün bir daşın üstündə oturdu. Bir də baxdı ki, yerdə bir paslı lampa var. Tez onu götürüb o tərəf bu tərəfinə diqqətlə baxdı. Bu vaxt gözü lampanın böyründə bir yazıya sataşdı. Burada yazılmışdı "ey məni tapan, mən dünyada iki dənəyəm, mənim tapmısan, o birisini tap" Şirzad bunu oxuyub heç bir şey başa düşmədi. Bir istədi əmisinin yanına qayıtsın. Lakin geri qayıtmayıb başladı yol getməyə. Az getdi, üz getdi,

dərə-təpə düz getdi. Gəlib bir qarının mənzilinə çatdı. Qarı Şirzadı çox mehribanlıqla qarşıladı, Şirzadı evində qonaq saxladı. Axşam oldu, qaranlıq düşdü. Qarı gətirib lampanı yandırdı. Şirzad baxıdı kı, həmin tapdığı lampadan qarının evində də var. Şirzad qarıya yalvarıb dedi:

– Qarı nənə, neçiyə verirsən ver o lampanı mənə ver.

Qarı deyir ki, mən lampanı bir şərtlə sənə verərəm. Get, bu yaxınlıqda ağ divin mənzilində sənə layiq bir qız yatır. O, qırx günlük yuxuya gedib, get onu gətir. Lampanı da verirəm, qızı da götür, get. Şirzad durub yola düzəldi. Az getdi, üz getdi, gəlib bir meşəyə çatdı. Bir ağacın altında oturub, fikirləşdi ki, indi mən hara gedim? Bu vaxt göyərçin gəlib Şirzad oturan ağacın budağına qondu, Şirzadı səsləməyə başladı. «Ey Şirzad, eşit, bil, agah ol, qarı səni gedər-gəlməz yola göndərir. Qızı da aparsan, sənə verməz. Şirzad get o qara dağın dibində Ağ divin mənzili yerləşir. İçəri girən kimi qızı görəcəksən. Qız qırx hörüyü ilə dirəyə bağlanıb, özü də yuxuya gedib. Sən çatan kimi bir qılıncla onu biləkdən ayır. Əgər iki qılınc çalsan o yuxudan ayılar, səni divlərin əlinə verər. Sən qızı birinci dəfə yerdən götürdün-götürdün, götürməsən olacaq daş. Şirzad yoluna düzəlib düz qız olan ağ divin sarayına gəldi. Saraya girəndə gördü ki, qız yuxuya gedib, ancaq qırx hörüyü dirəyə bağlıdır. Ancaq qız, nə qız yemə, içmə, xətti-xalına, gülcamalına tamaşa elə. Şirzad bircə qılıncla qızın hörüyününün qırxını da dirəkdən ayırdı, tez var qüvvəsilə onu yerdən götürdü. Atına minib yola düşdü. Həmin quş gözə görsənib dedi:

– Şirzad, durma, tez özünü o uzaqda görünən ağacın altına çatdır, qızı ağaca bağla, özün isə ağacdan bir az aralı bir xəndək var, ora gir, gizlən.

Qız bir vaxt yuxudan ayılıb sənə çox yalvaracaq, ancaq nəbada çıxasan. Sən qızı anasının südünə and içirt ki, sənə bir xata yetirməyəcək. Qız anasının südünə and içəndən sonra çıxarsan.

Şirzad göyərçinin dediyi kimi etdi. Qızı həmin ağaca

bağladı, özü isə xəndəkdə gizləndi. Qız yuxudan qalxıb elə qışqırdı ki, xəndəkdə Şirzadın qulaqları tutuldu. Şirzadı səsliyib dedi:

– Oğlan, and olsun anamın südünə, sənə heç bir şey etməyəcəyəm, quyudan çıx.

Şirzad quyudan çıxdı. Onlar başladılar yol getməyə. Yolda bir qarıya rast gəldilər. Qarı dedi:

– Şirzad mən bilirəm sən haradan gəlib, hara gedirsən. Qarı div cildini dəyişib qarı libasına girib, qızı səndən alacaq, səni öldürtdürüb, lampanı da əlindən alacaq. Mən bu qızın cildinə girirəm, sən məni aparıb qarıya (divə) verərsən. Qızı da, bir gün lampanı da götürüb gedərsən.

Şirzad qız cildinə girmiş qızı aparıb lampa olan qarıya (divə) verir. Lampanı da alıb başlayırlar yol getməyə.

Onlar az gedir, üz gedir, dərə-təpə düz gedirlər. İsvahan şəhərinin qırağına çatırlar. Bunlar burada qalsın, sizə Məhəmməddən xəbər verim. Elə ki, Şirzad uzaq səfərə gedəndən bəri Məhmmədin günü ağlamaqla keçirdi. Bir nəfər Şirzadı tanıyıb Məhəmmədə xəbər çatır ki, bə deməzsənmi Şirzad bir gözəl qızla gəlir. Məhəmməd çox şad oldu. Şirzadın qabağına on beş min qoşun çıxdı, ayağının altında çoxlu qurbanlar kəsildi. Şirzad gətirdiyi sehirli lampaları əmisinə göstərdi. Məhəmməd qırx gün, qırx gecə toy edib Pərixanı Şirzada verdi. Məhəmməd oğlanlarını çağırıb dedi:

– Oğlanlarım, görün ki, Şirzad çox qoçaq oğlandı. Mən Şirzadı ona görə çox istəyirəm. Qarı toy gecəsi hazır olub dedi:

– Mənim yerimi Şirzadla Pəri xanımın yatdığı otağın qapısı ağzında salın. Elə də etdilər. Səhərisi Şirzad əmisinə dedi, əmi, bu qarını öldür. Bizi səhərə qədər qoymayıb yatmağa. Qarı Şirzadın sözündən çox pis olub dedi:

– Şirzad, mən sənə pislik etmişəm ki, sən məni öldürtdürürsən? Mən olmasaydım səni həmin qarı libasına girmiş div öldürərdi, bunu deyib üstündə yatdığı kilimi götürdü. Bir yoğun ilan Pəri xanımın üstünə atıldı. Pəri xanım

elə qışqırdı ki, orada olanların qulaqları tutuldu. Qarı dedi:

– Qız bu ilan sənin nəyindi?

Pəri xanım dedi:

– Bu ilan mənim nişanlımdı.

Qarı dedi:

– Mən bu gecə burada qalmasaydım bu ilan Şirzadla səni tas-tas eləyərdi. Qarı sözünü deyib, cildini dəyişib, on beş yaşında gözəl bir qız olur. Qız Şirzada deyir:

– Şirzad mən əhd eləmişdim ki, bir bəni-insana kömək edim. İndi əhdim yerinə yetdi. Mən indi dönüb daş olacam. Əgər məni yenidən diriltmək istəsən, sənin bir oğlun olacaq, onun başını mənim sinəmin üstündə kəssən, mən yenidən dirilib adam olaram.

Bunu deyib qız daş oldu. 9 ay, 9 saat, 9 dəqiqə, 9 saniyə keçəndən sonra Pəri xanımın bir oğlu olur. Şirzad tez bu uşağın başını daş olmuş qızın sinəsi üstündə kəsir. Qız o dəqiqə qalxıb adam olur. Şirzadla bu qız bacı– qardaş olurlar. Onlar yedi yerə keçdi, siz də yeyin, mətləbə keçin.

Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri nağıl söyləyənin.

ŞAHIN TƏNBƏL QIZI

Şahın tənbəl qızı vardı. Hər gün onun paltarını geyindirir, əl-üzünü yuyur, əllə yemək verirdilər. Qız həddi-buluğa çatmış, ər vaxtı keçmişdi, tənbəl olduğu üçün adamların içinə də çıxmır, gecə də, gündüz də yatırdı.

Bir gün bir nəfər dəllək qıza elçi gəldi. Şaha xəbər verdilər, gülüb dedi ki, o bədbəxtə qızın vəziyətini deyin, çıxıb getsin. Elçiyə qızın vəziyətini dedilər, heç də təəccüblənmədi. Padşahla görüşdülər, padşah razılıq verdi. Toy edib tənbəl qızı gəlin apardılar. Xeyli vaxt keçmişdi, padşahın arvadı ərinə dedi ki, gedək qızı yoxlayaq, razılaşdılar.

Padşahla arvadı qızın görüşünə getdilər, dəlləyin evinə çatarkən gördülər ki, qız həyətdə işləyir, paltar yuyur, sərir, həyəti süpürür və s. Padşahla arvadı gözlərinə inanmadılar. Nəhayət, həyətə çatdılar, qızlarını gördülər, yenə də inanmadılar. Qız qoçaqlaşmış, tez-tez hərəkət edir, evi sahmana salır, çay-çörək hazırlayır, su gətirir, hər işə baş vururdu.

Axşam ev sahibi, qayınatası, qayınanası gəlib padşahla xeyli söhbət etdilər, çay-çörək yedilər, padşah yenə də gördüklərinə inanmırdı, qız haqqında söhbət saldılar, heç bir şikayət, pis söz eşitmədilər.

Səhər açıldı. Baxdılar ki, qız gecədən durub, evin işlərini görüb, çay-çörək hazırlayıb, süfrəyə düzüb. Padşah və xanımı çay-çörək yeyib həyətə çıxdılar, dincəldilər. Qız bunların yanına gəlib soruşdu ki, bu gün siz nə iş görəcəksiniz?

Padşah arvadının üzünə baxıb gülümsündü və dedi ki, qızım, biz qonağıq, qohumuq, bu gün istirahət edəcəyik, nə iş görməliyik ki?

Qız cavab verdi:

– Ata, bura elə xarabadır ki, işləməyənə çörək vermirlər, bəs sizə axşam çörək lazım deyil?

Padşah başını silkələyib dedi:

– Mən padşah da olsam, bu dəllək qədər intizam yarada bilməmişəm, mənim tənbəlimi gör nə cür tərbiyə edib!

İKİ QARDAŞ

İki qardaş varmış. Çox varrıymışdar. Bir gün kiçih qardaş görür ki, arvadı pis yola gedir. Bir gün belə, beş gün belə, kiçih qardaş görür ki, arvadın öhdəsinnən gələmmiyəcəh. Deyir ki, yaxşısı bıdı, hər şeyi atım, çıxım gedim böyüh qardaşımın yanına. Elə də eliyir. Var-dövlətini arvada qoyub çıxıb gedir qardaşının yanına. Qardaşı bının gəlişinnən çox şad olur, ancax görür ki, kiçih qardaşı nəysə çox fikirridi. Soruşur ki, qardaş, niyə belə bikefsən? Qardaşı başına gələn qəziyyəni danışır. Deyir ki, qardaş, arvaddarın hamısı bir toxumdandı, heş birinə eytibar yoxdu. Böyüh qardaşı bından inciyir. Qardaşı ta bir söz deməyip durur. Sora çörəhdən-zaddan yeyip yatıllar. Kiçih qardaş gecənin bir yarısı hənirə ayılıp yorğanın qulağını azca qaldırıp görür ki, qardaşının arvadı yavaşca qapıdan çıxdı. Tez-tələsih paltarını geyinip bının dalınca çıxır. Başdıyır qardaşı arvadını izdəməyə. Görür ki, qardaşı arvadı gəldi, durdu havızın yanında, daşı çəhdi, havızın suyunu tamam boşaltdı. Sora havızın içinə girdi. Daş vardı, qaldırdı, pilləkənnən yendi havızın altına. Kiçih qardaş bir az gözdüyüp həmən pilləkənnən yenir havızın dibinə. Görür ki, bir otaxdı, qapının arasından işıx gəlir. İşıx gələn yerdən baxıp görür ki, otaxda bir vırçatdasındı, gəl görəsən. Qardaşı arvadı da bir bığıburma kişinin qucağında lümlütdü, mazaxlaşıllar. O birilərinin də hərəsinin yanında bir arvad kefə baxıllar. Kiçih qardaş tez piləkənnən çıxır yuxarı, gəlip qardaşını oyadır. Deyir: "Dalımca gəl". Bir yerdə gəlip həmən piləkənnən yenillər aşağı. Böyüh qardaş işi belə görəndə əl atır xəncərə, isdiyir girə içəri. Kiçih qardaş tez onun qolunnan yapışır, çəkir yuxarı. Zorrama çıxardır çölə, çəkə-çəkə havızdan uzaxlaşdırır. Sora deyir ki, gördün, mən deyəndi, arvaddarın hamısı bir zibildi. Çox fikirləşirrər, bir yol tapammillər. Axırda böyüh qardaş deyir ki, çıxah gedəh bu vilayətdən. Elə yerə gedəh ki, orda arvad cınsı olmasın. İki qardaş baş götürüp gedillər. Az gedil-

lər, çox gedillər, elə bir yerə çatırlar ki, adamdan başqa hər şey varmış. Böyüh qardaş deyir ki, gə bı ağacın altında bir az dincələh! Elə təzəcə oturubbuşdar ki, bir də görüllər ki, bıdı, uzaxda səhranın ortasında bir nəhəng qara şey peyda oldu. Qardaşdarın qorxudan az qalır bağırrarı çatdasın. Görüllər ki, bu qara şey onnara sarı gəlir. O yana baxıllar, bu yana baxıllar, gizdənməyə bir yer tapammillər. Əlacsızlıxdan çıxıllar ağacın başına. Sən demə, bu bir deviymiş. Dev gəlir ağacın altına, əlində bir sandıx varıymış, onu qoyur yerə. Qırx yerdən kilidi varıymış bı sandığın. Dev başdıyır bu kilidləri bir–bir aşmağa. Axırda sandığın içinnən bir qız çıxardır. Qız o xətərən gözəliymiş ki, az qalır, qardaşdarın ikisi də huşunu itirib yıxılsın yerə. Dev sora başını qoyur qızın dizinə, yatır. Ağacın altında bir bulax varıymış. Qardaşdarın şəkli düşürmüş suya. Qız bunnarı görür. Başını qaldırır yuxarı, işarə eliyir ki, düşün aşağı. Ancax qardaşlar qorxudan düşmək istəmillər. Onda qız işarə eliyir ki, əyən düşməsəz, devi oyadacam sizi öldürsün. Qardaşdar məcbur olup ağaşdan düşüllər. Qız bınnara deyir ki, gərəh hər ikiniz mənnən olasız. Qardaşdar razı olullar. Sora qız deyir ki, barmağızdakı üzühdəri çıxarın. Qız bir dəsmal çıxardıb açır, arasında üş yüz, dörd yüz üzüh varıymış. Qardaşdara deyir ki, üzühdəri atın bu dəsmalın içinə. Qardaşdar elə də eliyillər. Sora qız onnara deyir:

– Bı dev məni qırx kiliddi sandığın içində saxlıyır ki, mən kişi üzü görməyim. Ancax bı üzühləri görürsüz, bınnarın hamısı sizin kimi gözəl-göyçəh oğlannarındı. Mən onnarın hamısıynan olmuşam. İndi elə çıxıb gedin ki, heç iziiz-tozuuz da qalmasın bıralarda. Qardaşdar tez-tələsih bıralardan uzaxlaşıllar. Çox gedənnən sora kiçih qardaş deyir:

– Qardaş, gördün ki, arvaddarın hamısı bieytibardı.

KƏMSƏRİN NAĞILI

Bir qoca kişi olur, arvadı da qoca olur. Bınnarın uşaxları olmurmuş. Arvad hamilə olur. Bınnar cütə gedirmişdər. Arvad çıxır çardaxda yatır. Yuxuda görür ki, çardaxda bının bir oğlu oldu, dayısı bına bir alma verdi, alma yumalanıb çardaxdan yerə düşdü, uşax da almaan dalısıcan yıxılıp öldü. Kişi gəlir, yuxusun danışır. Kişi deyir:

– Kəmsərsən, dur xurcuna bir-iki cad qoy, çıxıp gedirəm.

Arvad deyir:

– Hara gedirsən?

Deyir:

– Sənin əlinnən çıxıp gedirəm. Sənin kimi bir kəmsərə rast olunca çıxıp gedəcəm.

Gedir bir kəndin qırağına çıxır. Görür bir kadın suyun üstündə paltar yuyur. Arvad deyir:

– Əmi, hardan gəlip hara gedirsən?

Kişi bına cavab verir ki, mən cənnətdəydim, çıxıp gedirəm cəhənnəmə, genə qayıdacem cənnətə.

Arvad deyir:

– Ə kişi, sənnən bir söz göndərim, orda məən dədəmnən nənəmə irast olsan, gələndə maa bir xəbər gətirərsən.

Kişi deyir:

– Addarı nədi?

Arvad deyir:

– Dədəmin adı Mıstafadı, nənəmin adı Elmicahan.

Arvad deyir ki, saa bir az qızıl versəm, apararsaan dədəmnən nənəmə?

Deyir:

– Niyə aparmıram. Gedirəm, qayıdanda aparıp cənnətdə verərəm. Yazıxları gördüm, acınnan qırılırdılar.

Arvad bir xurcun qızıl gətirir, əriin atın da yəhərriyir, deyir:

– Apar ver dədəmə gələndə minsin, bı qızılı da

xəşdəsinnər.

Kişi atı minir, Allahına şükür eliyir, gedir. Bir müddətdən sora arvadın əri gəlir evə. Arvad deyir:

– Bəs qızılları göndərdim dədəmə. Cənnətdən gələn vardı, verdim apardı. Atı da göndərdim dədəmnən nənəm piyada qalmasın.

Kişi qonşudan bir at alıp düşür qızılı aparaan dalınca. Qoca kişi görür, ədə, dalısıcan bir duman qopup. Başa düşür ki, arvadın əridi. Qabaxda bir dəərman varımış. Qoca kişi tez girir dəyirmana, dəyirmançıya deyir:

– Tez ol gizdən. Odu eyy, o gələn bozatdı padşahın adamıdı. Padşahın qızı naxoşduyup, dəyirmançı başını dərman deyiplər. Gəl paltarımızı dəyişəh, sən gir donuzduğa gizdən.

Tez üst-başın una bılıyır. Atdı gəlip düşür, girir dəyirmana. Deyir:

– Hanı o adam?

Qoca kişi barmağıynan donuzduğu görsədir. Gəlip deyir:

– Çıx ordan.

Nəkqədərə eliyir, dəyirmançı çıxmır donuzduxdan. Dəyirmançı görür, qanın qurtarmmiyəcəh, başın vırır daşa, deyir:

– Qoy sənnən də olsun, mənnən də.

Dəyirmançının başı partdıyır, ölür. Bı yannan da qoca kişi atı minir, o biri atı da yedəhliyir, düşür yola. Kişi çıxır, görür, iş-işdən keçip, bı biri at da getdi.

Qızılı aparan kişi qaydıp öz arvadının yanına. Deyir:

– Sənnən də kəmsər varmış. Sən hələ yaxşısısanmış.

O yannan da o biri kişi qayıdır pay-piyada geri. Soruşullar ki, bəs qonşunun atın neynədin? Deyir:

– Qaynatam arvadımın göndərdiyi ata minip gələceydi, qonşuun atın da mən göndərdim ki, qaynanam da piyada qalmasın.

Bını deyip, arvadı salır təpiyin altına, sora da boşuyur.

İndi o qədər kəmsər arvad var ki.

ÇOBANIN DUASI

Biri varıymış, biri yoxuymuş, bir çoban varıymış. Çoban çox kasıbıymış. Bının arvadı səhəng dalında suya gedir. Orda iki arvad da suya gəlmişmiş. Bınnar molla arvaddarıymış. Bu molla arvaddarı çobanın arvadına deyir ki, sən çoban arvadısan. Əvvəl biz doldurax, sora sən. Onnar dolduruf gedillər.

Çobanın arvadı evə gəlib ərinə deyir ki, mən sənnən çıxacam.

Kişi deyir ki, saa noolub? Bınnarın beş uşağı da olur. Arvad deyir ki, beş uşağı da saa atacam, gərəh sən molla olasan.

Kişi deyir ki, mən çoban adamam. Aynan beyi qanmıram. Mən nətər molla olacam? Arvad deyir ki, yaxşı olarsan.

Arvad gedir dükannan molla kitabını, bir dənə şarf, bir də əməmə papağı, bir dənə baldon alıb gətirir. Kişini geydirir. Deyir ki, a kişi, səni burda tanıyıllar, get ayrı bir ölkiyə. Kişi gedir ayrı bir ölkiyə. Getdiyi yerdə bütün mollaları çağırır yanına. Hamısı əsə-əsə gəlir ki, görəsən, nə xəbər olacax, sual verəcək. Kişi gəldi taxtın üstünə çıxdı. Deyir ki, kim öyrənmiyif getsin öyrənsin gəlsin. Bıllar sevinillər. Dəvələri yühlüyüllər, düz mollanın qəpisinə aparıllar. Sora çobanın arvadı deyir ki, a kişi, kənddilər bilsə ki, biz varranmışıx, deyəcəhlər ki, bu sizdə hardandı?

Deyir ki, a kişi, gəl köçəh getdiyin yerə. Gecə köçək ki, kəndlilər görməsin. Köçüllər, gedillər. Orda qalıllar. Kişiyə müşteyit deyillər. Bala, müşteyit bilikli deməhdi. Yerin altın da, üstün də bilirmiş. Həmən vilayətin padşahının xəzinəsini 40 quldurrar gəlib aparıblar. Pədşaha deyillər ki, burda bir dənə müşteyit var. Yerin altın da, üstün də bilir.

Padşah da əmr eliyir ki, kişi gəlsin yanıma.

Kişi arvadına deyir ki, ağız, qoymadın ki, mən naxırçılığımı eliyim. Mən aynan beyi qanmıram, gedim nə deyim?

Arvad deyir ki, a kişi, Allaha pənah, get. Kişi gedir. Padşah deyir ki, 40 quldur mənim xəzinəmi aparıb. Əyər tapmasan, boynuu vuracam. Kor-peşman evə qayıdır. Arvadına deyir ki, bəs mən neynim? Hardan bilirəm? Arvad deyir ki, getginən padşaha denə 40 dənə qaz versin. 40 gün də möhlət al. Kişi qazdarı evə gətirir. Sora 40 quldur eşidir ki, bı yerin altın, üstün bilir. Bir quldur gəlib mollanın damının üstünə çıxır ki, görsün, molla nə deyir? Kişi arvadına deyir ki, get qazdarın birini gətir kəsək yeyəh. Arvad gedir qazı gətirir. Kişi deyir ki, ay arvad, bu qırxların biri. Həylə dəəndə o quldur elə bilir ki, ona deyir. Gedir yoldaşdarına xəbər verir.

Sora o biri axşam ikinci quldur gəlib dama çıxır. Kişi deyir ki, get qazı yenə gətir. Arvad gətirir. Kişi yenə deyir ki, ay arvad, bu qırxlardan ikincisi.

Hə, sonra onlar yenə qaçıb yoldaşlarına deyir ki, kişi yaman bilir. Genə də üç nəfər gəlir dama çıxır, qulax asır. Kişi yenə də deyir ki, ay arvad, o qazı gətir. Bu 40-dan üçü. Quldurrar eşidib qaçıb gedillər. Sabah tezdənnən quldurrar gəlir qəpiyə. Deyillər ki, bəs Molla, sən özün yaxşı bilirsən biz nəyə gəlmişih. Amanın bir günüdü bizi padşahın əlinə vermə. Xəzinəni odey, qəbirstanlıxda basdırmışıx. Gəl, özün apar. Bizi padşaha demə. Molla deyir ki, gedin 37 gün qaravıl çəkin orda. 37–ci günü mənə təhvil verərsiz. Sora qazı gətirib, gündə birini yeyillər. 37 gün tamam olandan sora kişi gedir qəbirstanlıxda onnardan təhvil alır. Deyir ki, çıxın gedin sizi pədşaha vermərəm. Kişi pədşaha xəbər göndərir ki, adamlarını göndərsin. Xəzinəni tapmışam. Odey, qəbirstanlıxda. Gəlin aparın. Gəlib aparıllar. Sora padşah kişini çağırır. Xəzinənin yarısını verir molluya, deyir ki, halal olsun saa. Sən yerin altın da bilirsən, üstün də. Xan–bəy kimi dolanıllar. Arvad deyir ki, gördün, a kişi, səni necə molla elədim.

QARA ÇƏYİRTKƏ

Biri varıydı, biri yoxuydu, bir kişi varıydı. Bu kişi o qədər qara, arıx idi ki, kənd camaatı ona Qara Çəyirtkə deyərdilər. Bu kişi kəndin naxırına gedərmiş. Onun gözəl arvadı varıydı. Bunnar çox mehriban, bir-birinə sədaqətli oluplar. Arvadı çox gözəl olduğuna görə padşah onu özünə almax istiyir. Lakin arvad razılıx vermir. Məsələni ərinə danışır. Qərara gəlillər ki, gecəynən çıxıp başqa bir vilayətə getsinlər. Özlərinə koma düzəldip yığışıllar içinə. Kişi bir gecə qapıya çıxan vaxtı görür ki, padşahın xəzinəsini quldurlar daşıyıp aparıllar. Kişi bunnarı izdiyir. Gördü ki, aparıp dağın arxasında torpağa basdırıllar. Sora hoy düşür ki, padşahın xəzinəsini aparıllar. Padşah bütün görücü, biliciləri yığır ki, xəzinəni aparanları tapsınnar. Əmr verir ki, kim tapsa, ona çoxlu mal-dövlət verəcəm, ancax heç kəs tapa bilmir. Kişi bunu eşidir. Əvvəlcə ürəh eləmir ki, gedip padşaha desin. Sora fikirrəşir ki, deməliyəm. Baxıcı kimi gedip padşaha xəbər verim. Kişi bir dənə keçə parçası tapır. Onu iki qat eliyir. Arasına bir neçə kağız parası qoyur. Kömürnən bir-neçə yazı yazır. Gəlib padşahın elçi daşının üstündə oturur. Padşahın adamları onu saraya aparıllar. Kişi deyir ki, mən sənin xəzinənin yerini deyəcəm. Padşah deyir ki, onda mən də səni dünya malınnan qane eliyəcəm. Kişi deyir:

– Padşah sağ olsun, sənin xəzinəni quldurlar Dəli dağın altında torpağa basdırıplar.

Padşah əmr edir. Ora adamlarını göndərir. Görüllər həqiqətən xəzinə burdadı. Xəzinəni dəvəyə yükləyip saraya gətirillər.

Padşah verdiyi vədə əməl eliyib kişiyə qızıl-gümüş verir, ev tikdirir və öz yanında bir görücü kimi saxlıyır.

Dünya padşahlarına xəbər çatır ki, filan padşahın belə bir görücüsü var. Bir gün bu padşahı bir padşah dostu görücüsüylə birlihdə evinə qonax çağırır. Qonax gedillər. Kişi hey elə fikirrəşir ki, bunnan elə bir şey soruşalar, bilməz, padşah da onun boynun vurar. Bu zalım padşahın vəziri gəlib görücüyə

yaxınnaşır. Deyir ki, görücü, padşahın qızının qızıl üzüyü itipdi. Üzüh məndədi. Birdən sənnən soruşsalar üzüyü tap, elə elə ki, mənim adım olmasın. Yoxsa padşah mənim boynumu vurdurar. Kişi elə bil yuxudan ayılır. Deyir ki, vəzir sağ olsun, padşahın qapısında qazı var, özü də nişanalı? Vəzir də deyir ki, alaboğaz bir qaz var. Kişi deyir ki, apar üzüyü xəmirə bük, ver, qaz udsun. Vəzir də kişinin dediyi kimi edir.

Axşam oturup söhbət etdihləri vaxtı padşahın dostu deyir ki, mənim qızımın qızıl üzüyü itipdi. Görücü bu üzüyü tapsın. Kişi başdıyır baxmağa. Varaxlarını oyana-buyana eləyib baxannan sora deyir ki, padşah sağ olsun, üzüh alaboğaz qazın qarnındadı. Padşah əmr edir ki, qazı kəsin. Kəsirlər. Görürlər, həqiqətən üzüh burdadı. Kişiyə çoxlu qızıl-gümüş verir.

Bir gün yenə bunlar qonaxlıxda olan vaxtı yeməkdən sonra axşam oturub söhbət edirmişlər. Bir də görüllər ki, qara çəyirtkə tullandı düşdü bunnarın qabağına. Padşah tez əlini çəyirtkənin üstünə qoyur ki, görücü görməsin. Deyir ki, görücü biləcəh ki, əlimin altındakı nədi? Kişi bir dəyqə fikirrəşir. Öz-özünə deyir ki, qazının sünnət toyudu. Axırım gəldi çatdı. Hərrənə, fırrana axırım çatdı bu diyarda, ay Qara Çəyirtkə!

Belə deyəndə padşah əlin götürür. Hamı əl çalır, kişini alqışlıyır. Genə də qızıl-gümüş pay verillər. Padşah kişini götürüp öz diyarlarına qayıdır. Kişi bir at gücü qızıl-gümüş evinə gətirir. Arvadı sevinir. Amma kişi qorxudan bilmir ki, neyləsin.

Bir gün oturup arvadnan məsləhətdəşir. Deyir ki, ay arvad, bəs nətəhər eliyək. Padşah bilsə, bizi də öldürəcəh. Qərara gəlillər ki, kişi özünü vursun xəstəliyə. Gecələr çıxsın qışqırsın. Ağzına gələni danışsın. Arvad da hay salsın ki, kişi başını itirif. Heç bir şey bilmir. Beləynən bu kişi bayıra çıxır. Padşahın sarayının qabağında dayanıp başdıyır qışqırmağa. Qışqırır ki, ay padşah, ev uçdu, qaç, ev uçdu, qaç. Padşah şirin yuxudan oyanıp arvad-uşağını götürüp, saraydan çıxıp qaçıllar. Qaçan kimi evin bir tərəfi üçüb tökülür. Səhərisi padşah onu yanına götürüb özünə vəzir eliyir. Başdıyır sarayda yaşamağa.

DANAY BEHLUL VƏ ŞAH ABBAS

Biri vardı, biri yuxdu, bir kişinin bir xatunı vardı. Günnərin bir günündə bu xatunun kişisi ülür. O, çux güzəl bir arvad idi: qarasaç, qaragüz, incəbel, elə bil un beş-un altı yaşdı qızdı.

Bu güzəl arvadı almax isdiyənnər çux idi, həmən bu adamların içində tükançı da olur. Bir axşam tükançı gəlir həmən bu arvadın yanına, xeyli sühbət etdikdən sunra tükançı una bildirir ki, çuxdan onu sevir və almax isdəyir. Bu xatun razılaşır, amma yüz tümən pul istəyir. O zamannı pul ilə yüz tümən pula ev almax ulardı, lakin tükançı qurxmadı, razı uldu.

O, yavaş-yavaş pul hazırramağda ulsun, sənə kimnən deyim, dul arvaddan. Heç demə, arvad yuxuda gürübmüş ki, həmən bu tükançı unun yanında yatıb. Sabahı gün o tükançını çağırıb deyir:

– Sən mənim yanıma dünən gecə yatmısan, ver yüz tümənimi.

Tükançı məhtəl qalır, and içir ki, dünən oların evi gürünən tərəfə də gəlməyib. Necə ki onun yanında yatub?

Bular çux hücət çəkillər, axırda Şah Abbasun yanına get-məli olullar. Onnar gelib Şah Abbasın evinə çatıllar. Arvad deyir:

– Ay qürbanun olduğum ədalətli şah, dünən gecə həmən bu sizin qabağınızda duran tükançı kişi yuxuda mənim yanımda yatıb. Bizim ilrarumuz var idi ki, o məni alsa, yüz tümən qızıl pul verməli idi. O, məni yuxuda alıb, indi pulu vermir.

Tükançı nə qədər yalvardı, yaxardısa da, şah una inammadı və əmr etdi:

– Üç günnən sunra bu arvada yüz tümən verməsən, buy-nuvu vurduracağam.

Tükançı başını aşağı salıb dərdli-qəmli evinə getdi. Nə çara etməlü, bu qədər pulu üç gündə bu haradan yığsun? Kim

bu yazığı baladan xilas edər?!

Bu tükançının bir ağsakqal qunşusu var idi. Tükançı unun yanına getdi və una öz əhvalatını danışdı.

Quca ona belə dedi:

– Balam, sənə ancax bir adam kümək edə bilər, o da Danay Behluldu. İndi o dağlardadı, ora get, nicat kürpün undadı.

Tükançı ata minib düz Danay Behlul ov ovlayan dağlara gedir, urda çux gəzdikdən sunra unu tapır, öz dərdini una deyir. Danay Behlul qardaşı Şah Abbasın düz iş gürməməsini tez annadı və tükançıya dedi:

– Get, sən azadsan. Ancax pulu tapıb ver, mən sənə bu pulu qaytarıb verdirəcağam.

Tükançı şad uldu, evinə qayıtdı. Quhum-qunşulardan pul borc aldı, yüz tümən düzəltdi və dul arvada verdi.

Bu burda qalsın, sənə kimnən deyim, Danay Behluldan.

Danay Behlul düz gelir qardaşı Şah Abbasun qalasına, çuxlu adam gütürüb onnara bel, kürək verib başladır qalanın küncünü dağıtmağa. Bu xəbər Şah Abbasa çatdı. Şah Abbas düz gelir qardaşının yanına və deyir:

– Danay Behlul, bu nə diməkdi, niyə qalanı sükdürürsən? Danay Behlul şaha yaxın gelir və una belə deyir:

– Ay qardaş, bu gecə yuxuda atamızı gürmüşəm. O mənə dedi ki, qalanın altında iki küp salmışam. Olardan biri sənindi, evləri ha almırsan, qızıl payını barı al. İndi mən də öz qızılımı burdan çıxartmax isdəyirəm.

– Bu şeytan işidir, – deyə Şah Abbas qışqırır, – yuxuya inammax olmaz.

Danay Behlula da elə bu lazım idi. Tükançını allatan dul arvadın yuxusu bəs niyə şeytan işi degildi? – deyib Danay Behlul qardaşınnan suruşdı. Şah Abbas öz səhvini başa düşür, tükançını və dul arvadı yanına çağırır. Tükançının pullarını arvaddan alıb tükançıya qaytarıb verir. Olar uyana getdi, mən bu yana geldim.

PADŞAHLA RƏSSAM

Bir vilayətdə bir şah yaşayırdı. Onun büyük dövləti vardı. Ancax bu şahun sul güzü yux idi. O əmr edir ki, xabar yaysınnar bütün əhaliyə: "Onun şəkili elə çəkülsün ki, heç kəs şəkilə baxub bilməsün ki, şah kurdu".

Çux addu-sannu rəssamlar gelir, ancax birisi də şah dediyi kimi unun şeklini çəkə bilmir. Bir güni şah pencərədən gürür ki, nükərrər bir adamı dügə-dügə bayırdan quvmax isdəyillər. Şah onun səsini eşidir, buyurur ki buraxsınnar fəğiri içəri. Şahun utağına bir cındır paltar, arux, üzi tük basmış bir adam daxil ulur. Şah suruşur:

– De gürüm, sənə nə lazımdü ki, gelmisən yanuma?

Fəqir deyir:

– Şah sağ ulsun, mən gelmişəm ki, sənün şəklüvi çəkim.

Şah şərti ona dedi:

– Əgər mən isdəyən kimi çəkməsən, başuvı cəmdəgündən qupardaracağam. Əgər ki bacardun, unda de, nə isdəyəsən məndən al apar.

Özünü rəssam addandıran başdadı şahun şəkilini çəkmağa. Şah çox uturdu, yerinnən tərpəmmədü. Davam gətürə bilməyub durmağ isdədi. Rəssam bir az da uturmağı xahiş etdi. Bir az vaxtdan sunra rəssam şəkili çəküb qurtardı və dedi:

– Buyurun, şah surətün hazurdu, her şey öz yerindədi.

Şah durub tez şəkilə baxdı və mat-məhtəl halda yerinnnən terpənə bilmədi. Şəkildə meşe, meşədə də şah əlində yay və ox ilə ceyranı nişan alıb vurmağ isdeyirdi. Şah sul güzünü də yumub ceyranı nişan alan halda rəssam bu şəkili çəhmişdi. Şah çux razı qaldı və dedi:

– Al, rəssam, apar isdəyən qədər düvlət, qızıl, mal. Sən menim arzumu yerinə yetirdün. Mən sənə burcduyam.

Rəssam qələmləri yığıb şaha cavab verdi:

– Şah sağ ulsun. Mənə bir şey lazım degül, ancax ulsa, bir çəllək çaxır gətirmağa əmr elə.

Şah çuxlu çaxır getirmağa əmr etdi. Yimağa yaxşı xürəklərdən də buyurdu. Ancax rəssam xürəklərə degmədi. İçüb çaxırı getdikcə, şaha belə süylədi:

– Rəssam təməhkar ulsa, eli açux olmasa, onun qələminnən bir şey çıxmaz.

Bunu deyib rəssam yula düşdü.

FATMA XANIM

Olutdu, olmayutdu, bir xatun, da bir kişi. Buların bir qızı vardı – Fatma xanım. O qızın anası ülür. Bir az vaxdan sunra qızın atası başqa xatun alır, xatunun dalıynan də bir keçəl qız da gelir. Fatma xanumun işi bu idi: dananı yedirsin, cəhrə əgirsin. Bir gün Fatma xanım zənbildə piltələri aparır. Piltələr düşür. Xəlbiri quyub, Fatma xanım piltələrin dalınca gedir. O, danaçıya rast olur.

– Danaçı qardaş, mənim piltələrimi gürmədin?

– Gürdüm, Fatma xanım, sənin piltələrin acdahanın deşiginə girdi. Oraya getmə, mən sənə bir quyun da verəcəyəm.

– Yox, mən gedecəyəm. Dala qayıtanda quyunu verərsən.

Danaçı ona belə dedi:

– Dana da verərəm.

Qız una qulax asmayıb getdi. Sunra nəhirçini gürdü və onnan suruşdu:

– Nəhirçi qardaş, mənim piltəmi gürmədinmi?

Nəhirçi də danaçı deyəni dedi:

– Ora getmə, Fatma xanım, mən sənə bir inək də verəcəyəm.

– Dala qayıtanda verərsən, – deyib Fatma xanım yuluna davam etdi.

Xeyli yul gedir, atçıya rasd gelir.

– Atçi dayı, mənim piltəmi gürmədin?

– Gürdüm, acdahanın deşiginə girdi. Qayıt, mən sənə at da verərəm.

– Bu yana gələndə atı verərsən, – deyib getdi.

Sonra qızıl xırmanına çatır. Qızılülçən una deyir:

– Bir **görək*** də verərəm, getmə, acdaha səni yiyər!

---

*görək – teşt, qab.

Fatma xanım una dedi:

– Bu yana gələndə verərsən, indi mən öz piltəmin dalınca gedirəm.

Az gedir, düz gedir, acdahanın yanına gelib çıxır.

– Gəl başıma bax, – deyir acdaha.

Fatma xanım unun başına baxır. Orada ilannar var idi.

– Lap bizim babanın başına uxşayır.

– Helə deməsəydin, ətivi bir tikə, sümüğüvü bir tikə edərdim.

Dur mallara ut-ələf tük.

– Lap bizim atanın öküzdəri kimidü, – deyir qız.

– Helə deməsəydin, ətivi bir tikə, qanıvı bir qaşıq edərdim.

Sunra acdaha una deyir:

– Al baltanı, ucağı qala.

Fatma ocağı qalayır. Acdahanın yeddi evi var idi. Hər evində də qızıl, ləl-cəvahir var idi.

– Keç evlərə gir – acdaha qıza deyir.

Qız oradan heç nə almır. Burada iki su ulur, yuyunur, güzəl ulur. Piltəsini alıb gedəndə, acdaha deyir:

– Dayan, sənə ata payı verim.

Dala qayıtanda Fatmaya qızıl, inək, at, quyun, verillər. O, öz cəhrəsini, danasını öz yerində tapır.

Şeyləri atasına verir. Məhlədə bir xatın xəbər verir ki, Fatma xanım mal gətirib. Xatun öz qızını da ura gündərir. O, ağ daşa çatanda onun piltəsini də külək aparır. Qız gedir, rasd gelir danaçiya.

– Küpək oğlu danaçı, mənim piltəmi gürmədimmi?

– Küpəgün qızı, mən sənin piltəyə garavul degiləm ki – deyib, una bir çumaq vurur.

Bir az getdikdən sunra keçəl qız qoyunçuyə rast gəlir.

– Dunuz oğlu quyunçu, mənim piltəmi gürmədinmi?

– Mürtəd qızı, mən sənin piltəvə qaravul çəkim, yuxsa, üz quyunnarıma, – deyib qıza bir çumax vurur.

Sonra keçəl qız naxirçiyə rast gəlir. Onu da süyur. Axırda gəlib gızıl xırmanına çatır və qışqırır:

– Küpək oğlanları, mənim piltəm hanı?

Burada da onu dügüllər.

Axırda gelib acdahanın mağarasına çatır. Gedib acdahanın evinə girir. Acdaha deyir:

– Al baltanı ağacı yıxıb tük.

Qız ağacı yıxıb tükür.

Sunra acdaha una ikinci qullux buyurur:

– Mallara ot-ələf tük.

– Mən onnardan qurxuram, divlər – acdahalardu, – deyir qız.

Acdaha onu evlərə salır. Qız urada ulan şeylərdən qızıllardan, mirvarilərdən, lal-cəvahirlərdən, ipək parçalardan qulun-qultuğlarını duldurur. Acdaha qıza belə deyir:

– İndi min həmcaflıya. Qız həmcaflıya minir, bunun balağlarınnan qızıllar, cəvahirlər, qiymətli daşdar tükülür. Keçəl qız uradan yıxılır. Acdaha una deyir:

– İndi bu sudan üzünə vur.

Qız birinci küpdən üzünə su vurur. Onun üzü qap-qara ulur.

– İndi isə bu qabdan üzünə su sürt.

Keçəl qız acdaha deyən kimi edir. Qızın qabağında ətdən buynuz bitir. Acdaha bərkdən gülür:

– Ha-ha-ha!!! Sənə ələ bu lazımdır. Al sənə bu qayçını, her gün o buynuzunnan kəsib ye.

Keçəl qız evinə qayıdıb gəlir. Yolda ona rast gələnlər, onu tanımır və heç bir şey vermir, onun danasını, çəhrəsini də oğurrayıllar.

Anası una deyir:

– Baxtlı gedər mal tapar,

Baxtsızdarı it qapar.

Ügey anası Fatma xanımı dəyirmana gündərir. Qız yalquz idi, onun yanına şeytanlar gelir, urada çalıb-uynayıllar.

Onnar Fatmaya deyillər:

– Oyna, cırtdan.

Siz geyinibsiz, mən isə yux, – deyə Fatma cavab verir.

Şeytannar Xilidən gəlinin paltarı gətirillər. Qız deyir:

– Mən bayıra gedirəm, ulmasa təmiz paltarlar batar.

Bayırda talvarın üsdündə qışqırır:

– Quq-qulu-qu!

Şeytanlar qaçıllar. Fatma paltarrarı da alıb evə gəlir.

Qunşu xatun genə unu çuğullayır. Sabahı anası üz qızını gündərir. Keçəl qızın da yanına şeytannar gəlir, unu uynadıllar, düğüllər və şələsini oğurrayırlar. Fatma xanım başmaxları geyib bulağa gəlir. Orada başmağını itirir, sunra nə qədər axtardısa, onu tapmır. Oraya padşahın atlıları gəlir. Başmağı padşahın oğlu tapır və başmağ yiyəsini axtarmağa başlayır, tapmır. Axırda evbəev gəzib Fatma xanımı tapıllar. Qızı padşahın oğluna diləyillər. Sunra Fatma xanımı aparmağa gəlillər. Bu zaman ügəy anası Fatma xanımın üzünə şey atıb təndirə salır. Ügey ana keçəl qızını arabaya mindirir.

Bu zaman Fatma xanımın xuruzu çığırır:

Quq-qulu-qu-u!
Fatma xanım təndirdə,
Başmağı bəylər cibi.
Keçəl qız araba içində.

Bu işi başa düşüllər. Şahzadənin qardaşı deyir ki, bu Fatma xanım deyil. O zaman xuruzun dediyinə qulax asıllar.

Keçəl qızı və anasını atın quyruğuna bağlayıllar. Fatma xanım öz muradına çatır.

MƏHƏMMƏDİN NAĞILI

İxtilat edillər ki, bir kənddə Məhəmməd adlı bir quca yaşayırdı. Quca gecə bir yuxu gürür.

Səhər tez durub salıb xurcuna bir tikə darı çüreyini düşür yula. Arvadı ne qeder suruşsa da, ona heç nə demir. Çux gedir, az gedir gəlib bir dağ başına çıxır. Dağda çuban bir büyük sürü quyun saxlayır. Məhəmməd salam verir çubana. Çuban Məhəmmədə özü ilə birgə nahar etməyi təklif edir. Quca razı ulur. Sühbət eyləyə-eyləyə çuban suruşur qucadan hara getdigini. Məhəmməd çubana bildirir ki, yuxu gürüb və onu axdarır. Çuban qucaya yuxunu satmağı xahiş edir və əvəzinə bütün sürünün verdiyini bildirir. Quca razı ulur və yuxunu una sühbət edir. Onnar adlarını da deyişir.

Çubanın adı Məhəmməd ulur, qucanın adı isə Əhməd. Quca Əhməd sürünü sürüb evinə qayıdır. Arvad isə bu işdən çux razı qalır. Məhəmməd yuxunu axdara-axdara yula düşür. Çux gedir, az gedir, axşam qarannığda çatır bir qəbiristannığa. Yurulmuş halda urda uturur. Amma eşit bu şəhərdə yaşayan əmi oğlunnan və əmi qızınnan. Günnərin bir günü əmiqızı əmioğluna deyir ki, axşam mən səni qəbiristannığda güzləyəcəm, ura gel qaçax. Qızın əmisi oğlunun adı Məhəmməd imiş. Qız əmisi oğlunnan qabağ qəbiristannığa gəlir və Məhəmmədi çağırır. Çuban Məhəmməd durub çağıran tərəfə gedir. Qarannıx zülmətdə qız onu əmisi oğlu hesab edib, Məhəmmədi alır tərkinə. Birbaş şəhərdən çıxıllar. Səhərə yaxın bir başqa şəhərə çatıllar. Səhər qız gürür ki, tərkində olan əmi oğlu deyil. Üreyində deyir ki: “Nə ulsun, bu çıxıbdır bəxtimə”.

Şəhərin bir qırağında qız atı saxlayıb bir qədər pul Məhəmmədə verir və deyir ki, get bizim üçün ev al, qulluxçu tut və özün üçün paltar al. Məhəmməd şəhərə girib yaxşı bir ev alır, qulluxçu tutur və özün üçün bir desd tacır paltarı alır. Gətirib qıza evi güstərir. Qız gürür ki, Məhəmməd güzəl bir uğlandır və özünün xuşuna gəlir. Onda sühbət edir ki, özü filan

şəhərin padşahının qızı Perixanım ulduğunu.

Perixanımla Məhəmməd xuşbəxt bir halda yaşayıllar. Bir gün Məhəmməd çağırır dəlləyi başını qırxtırmağa.

Delləyçi birdən gürür Perixanımın üzünü. O, az qalır ki, üzünü itirsin. Tez-tez Məhəmmədin başın qırxıb qaçır padşahın yanına və deyir:

– Ey zamanənin padşahı! Niyə yatmısan?

Padşax qalxır:

– Nə var, süylə gürüm!

Dəlləyçi elə ki Perixanımın güzəlliyinnən danışdı, padşah gürməyə-gürməyə Perixanıma aşiq uldu. Padşah tez vezirdən məsləhət isdeyir. Vezir deyir ki, gərək Məhəmmədi tərq edək. Deyir ki, çağır unu, gündər gedib getirsin cənnət almalarını. Məhəmmədi padşah hüzuruna çağırıllar. Padşah una deyir:

– Məhəmməd, mən azarlıyam, həkim cənnət almasi buyurub. Gerek gedib getiresen!

Məhəmməd cavabında:

– Padşah sağ ulsun! Mən hardan tapım o almaları?

– Gerek tapasan! Yuxsa başını vurduracağam – deyir qəzəblə padşah.

Kur-peşman Məhəmməd evə qayıdır. Perixanım unu bu halda gürüb səbəbini suruşur. Məhəmməd padşahın buyurduğunu sühbət edir. Perixanım padşahın hiyləsini başa düşür, Məhəmmədə deyir:

– Heç fikir çəkmə. Səhər yula düşərsən, qırx gün yul gedərsən, gelib çıxarsan divlər padşahlığına. Div padişahının arvadı mənim bacımdır. Ona bu məktubu verərsən. Onnar sənə kümək edər. Ancax sənlə bura arvad-şey getirmə.

Səhər tezdən Məhəmməd yula düşür. Qırx günnən sunra o, divlər padşahlığına çatır. Məktubu balduzuna verir. Divlər padişahı belə məsləhət gürür. "Səhər o dağın dibinə gedərsən. Orda çinar ağacının altında gizlənərsən. Səhər oraya üç peri gelib öz paltarlarını çıxarıb yanındakı bulağda çimeceklər. Sən

isə tez birinin paltarını alarsan. Paltarı vermezsən, qulluğunu bitirməsə". Məhəmməd səhər tezdən oranı tapıb gizdənir. Birdən üç peri gelir, çıxarıb partallarını, bulağda çimillər. Məhəmməd təz birinin paltarını özü tərəfə çekir. Qızdar çimib paltarlarını geyir, ancağ kiçik bacısı paltarını tapmır. Çux axtarır, paltarrar tapılmır. Axırda unnar deyillər:

– Əy, paltar oğurrayan! Qaytar bacımızın paltarını! Süleyman peyqəmbərin adiylə and içirik ki, sənin qulluğunu bitirerik.

Bu süzdəri eşidən Məhəmməd gizdəndiyi yerdən çıxır və qıza paltarrarını verir və öz qulluğunu deyir.

Büyük bacısı uçub üç dənə cənnət bağınnan alma getirir. Məhəmməd yuluna davam edir, gürür ki, paltarını aldığı qız unun dalınca gelir.

O deyir:

– Ey qız, sən hara gedirsən?

Peri deyir:

– Məhəmməd, mənə beni-insanın eli deyibdir, perilər vilayətinə məni daha quymazlar.

Məhəmməd deyir:

– Ne edek, gel mənimlə.

Qız bir dua uxuyub özünü güyerçin və Məhəmmədi bir çirpi edib uçub və gelib Məhəmmədin evində uturur. Genə bir dua oxuyur özü də, Məhəmməd də insan şeklinə gelib eve girillər. Perixanım onnarı gürüb deyir:

– Məhəmməd, dimədim ki, sənə üzünlə arvad getirmə?

Məhəmməd cavabında:

– Perixanım, mən unu getirməmişəm, özü gelibdir.

Perixanımun gülə-gülə:

– Ne ulsun, gelibdir, çux geşeng. Mənim yuldaşım ular, – deyir.

Bu qızın adı olur Hurixanum. Səhər tezdən Məhəmməd isdədi ki, almaları aparsın padşaha. Hurixanım onu saxlayıb deyir:

– Kimə aparırsan almaları? Bu almaları yeyən un beş illik cahıl ulur. Yux, padşaha başqalarını apar. Bunnarı quy bizə qalsın.

Bir dua oxuyub üç alma getirir. Aparıb onnarın birini padşaha, birini vəzirə və birini də vəkilə verir. Onnar almaları yeyən kimi kifir, oxşarsız, vehşi heyvanlara bənzər olullar. Hamı xalq tez-tez onnarı meşeye qavır. Düvlət quşu buraxıb padşah seçillər. Düvlət quşu Məhəmmədin başında oturur. Məhəmməd bir neçə illər padşahlıx edir. Xalq ondan çux razı qalır. Bir dəfə gec gelib evinə Məhəmməd gürür ki, arvadları yatıb. Onnarı incitməyərək Məhəmməd evin yerində yatır. Arvaddar oyanıb gürüllər ki, ərləri quru yerdə yatıb. Onnar gəlib biri sağ tərəfdə, biri sul tərəfdə oturullar. Balaca oğlannar isə atanın başı üsdündə durullar. Güzdərini açıb bunu gürən Məhəmməd ucadan qeh-qehə çekib gülür. Arvaddar bu işdə bir sirr melum edir, ne üçün güldüyünü suruşullar.

Məhəmməd deyir:

– Mən satın aldığım yuxunu indi tapdım, onun üçün gülürdüm. Mənə yuxunı satdığı quca belə yuxu gürmüşdü: sul yanınnan gün çıxır, sağ yanınnan ay, başının üsdündə də ulduzlar parıldayır. İndi sən Hurixanım gün, sən Perixanım ay, bizim oğlannar da ulduzlardır. Mənim adım Əhməddir, mən o qucanın adına deyişmişdim.

AĞIL VƏ BƏXT

Bir gün ağılnan bəxt gezmeye çıxıllar. Gürüllər bir ekinçini. Bəxt ağıla ekinçini kamala və düvlətə çatdırmağ üçün bu ekinçinin bədəninə girmağı teklif edir. Ağıl bu adamnan bir şey çıxmayacağını deyib razı olmur. Amma bəxt gelib ekinçinin bədəninə girir. Ekinçi ekib-biçərkən par-par işıldayan büyük bir daş tapır.

Onu elinə alıb bir qədər baxır, ağlı olmadığınnan adi daşdu diyə atır. Bu vaxt onun yanınnan bir atlı keçirmiş. O, hələ uzaxdan daşın parıltısını gürüb atınnan yere düşür. Yaxın gelib daşı yerdən alır, onun çux qiymətdi daş ulduğunu gürüb ekinçiye satmasını isteyir. Ekinçi cavab verir:

– Sənə xuş gelirsə, al. O daş mənə neyə lazımdır?

Atlı iri lel daşını alıb gedir. Bir padşahın xəznəsində o daşı deyişib, onun yerinə çux qızıl alır.

Bir gün özünü belə düvlətli edən atlı ekinçiyə yaxşılıx etməy isdeyir. Bir ikimertebəli güzəl ev tikdirir. Evin içerisini lazım olan bütün avadanlığla duldurur.

Ekinçini tapıb uraya getirir və öz qızını una vermağa razı ulduğunu una deyir. Ekinçi gelib baxır. Girib evin utağlarını bir-bir gezir. Xureg hazırlayan evdən keçerkən bir parça çürəklə bir tikə pendir gütürüb çuxanın altında gizlətir. Xəlvət yerdə yemək isdəyərək həyetə çıxır.

Qızın atası onu axdarmağa başlayır. Ekinçi ələ bilir ki, o pendir-çürək oğurradığınnan onu tapmax isteyillər. Buna gürə o, bərk hərəkətlə qaçır. Qurxusunnan özdərinin kendinə yux, başqa bir kenddə gedir.

Ekinçinin bu axmax işdərini gürən bəxt acığlanıb deyir:

– Düzdür, deyillər adamın gərək bəxti ulsun, amma mən nə qədər çalışsam da, ağılın küməyi ulmadan bir iş də eyləyə bilmədim.

Bələ iş gürəndə bəxt de ekinçini tərk edib gedir.

"QABAX QIZ"IN NAĞILI

Biri var idi, biri yux idi. Bir kişi var idi. Bu kişinin üvladı yox idi. Bir gün arvad hamilə oldu. Dukquz ay, dukquz gün dukquz saat, dukquz dəqiqə keçəndə, bu arvad bir **qabax*** duğdu. Arvad kişidən bu sirri gizlətmək isdədi, ancax qabax qız birdən qabağı yarıb içinnən çixdı, bunu gürən anası mat qaldı. Qız dedi:

– Anacan, bu sirri bir kəsə də deməzsən. Amma desən, mən yux olaram. Bunu bir sən, bir atam bilməlidir.

Ay keçdi, il dulandı.

Qabax qız gəlib un səkgiz yaşına çatdı. Adamlar gürəndə qabağın içinə girirdi, gizlində qabaxdan çixıb anasına kümək eləyərdi. Onun əlinnən hər iş gəlirdi. O, anasına çuxlu xalıxalça tuxumuşdu. Bir gecədə o, pərilərnən hüriləri də yığıb bir xalça qutarardı. O, qabaxdan çıxanda aləmə işıx saçardı. Elə güzəl idi, elə bil deyirdi:

– Gəl məni gür, dərdimnən ül. Ancax bir kimsə onu gürə bilmirdi. Adamı gürəndə o yux ulub qabağın içinə gürirdi. Bir gün qabax qız damda uturmuşdu, bir də gürdü ki, qunşu qızlar yığılıb sübürkəyə gedir, tez qabağa girib düşdü qızdarın dalıncan. "Ay qızdar, mən də siziynən sübürkəyə gedirəm". Qızlar dünüb geri baxıb gürdülər ki, dallarınca bir qabax yombalana-yombalana gəlir. Onnar unu danışan gürüb matməətəl qaldılar. Qızdar dedilər:

– Bəs sən kimsən?

Qabaq qız dedi:

– Mən də sizin kimi qızam, quyun mən də siziylə gəlim!

Qızlar qurxa-qurxa razı uldular. “Yaxşı, gəl” dedilər. Qızlar qabaxda, qabax qız dalda, az getdilər, çux getdilər, gəlib bir çəmənə çıxdılar. Qızdar qabax qızdan suruşdular:

– Sən necə sübürkə dərəcəksən?

---

*Qabax – boranı.

O dedi:

– Siz bir az içəri girin, mən dərərəm.

Qızdar düşdülər çəmən buyunca. Qabaq qız bir qədər onnardan uzağa düşüb, qabaxdan çıxıb tez sübürkəsini yığıb düzəltdi. Şələsini bir dəqiqədə tupladı. Uzaxdan qızdarın mahnı oxuyan səsi gəlirdi. Qabax qız bir az meşəyə sarı gəlib gördü ki, bir huvuz var, dam dulu suyux suyu. Qabax qız əynindəki ala-bəzəyi, ləli-cavahiri çıxarıb atıldı hovuza. Onu quyax çimməkdə, sizə xəbər verim padşahın oğlunnan. Bu gün bu oğlan da uva çıxmışdı. Ov gəzə-gəzə atıylə bu da həmin meşənin qırağına çatdı. Birdən bu oğlan uzaxda, huvuz tərəfdən bələ bərk iti işıx gəlməsini gürüb qurxdu, bu fikrə gəldi: "Bu nə ula?” Oğlan atdan düşüb huvuza tərəf getməyə başdadı, bir də o huvuzda çimən güzəl, gün kimi işıx saçan qızı gürdü. Az qaldı bağrı partlasın. Birdən qabax qız səsi eşidib başını qaldırdı, gürdü bir uğlandı, huvuza yaxınnaşıb tez sudan çıxıb paltarını geyinib qabağa girmək isdəyəndə barmğındakı üzük düşdü huvuza. Ancax oğlan yaxınnaşırdı. Üzüyünü ala bilməyib qabağa girdi, meşəyə girdi və gizdəndi ki, gürsün uğlan neynəyəcək. Bu sirri gürüb uğlanın huşu başınnan yıxıldı.

Bir qədər güzləyib qabax qız şələsini də gütürüb üz quydu evə duğru. Qız bu sirri anasına demədi ki, gürək, dalı necə ulacax? Qız qalsın evdə, sizə xəbər verim uğlannan. Bir qədərdən sunra oğlan üzünə gəlib qalxdı ayağa və huvuzun üsdə gəlib gürdü ki, bir üzük var. Bunun heç dünyada bərabəri ula bilməz. O, tez hovuza girib üzüyü çıxartdı. Barmağına taxıb atını da minib evlərinə yula düşdü. Az gəldi, çux gəldi, gəlib evinə çatdı. Yaman bərk azarradı. Padşahın da ulanulmazı bir oğlu var idi. O bilmirdi neynəsin, lap deli olurdu. Çux luğman, həkim gətirdi. Heç biri sağalda bilmədi ki, bilmədi. Bütün kənddərdən uğlana baxmağa gəlirdilər. Ancax heç kəs bunun dərdinə çarə edə bilmirdi. Bir gün qabax qızın anası da padşahın uğluna baxmağa getməli oldu. O səhərdən xürəklər bişirib hazırlıx etdi. Axşam yula düşəndə qabax qız

anasına dedi:

– Anacan, nə ular mən də u uğlana baxmağa gedirəm.

Anası isdədi razı ulmasın, axı qabağın içində səni necə aparım? Ancaq ana qızının da xətrinə dəymək isdəmirdi, dedi:

– Di gəl.

Anası bir büyük şələ eləyib qabağını turbaya salıb yula düşdü. Bir vaxt gəlib padşahın qapısına çatdı. Vəzirrər arvadı içəri saldı. Arvad uğlanın yanına girib gürdü ki, uğlan nə, uğlan. Elə uğlandı ki, aya, günə bənzər, zəifliyinnən bir az saralıb, nə yemir, nə içmir, nə danışmır, bir kəsi gürmək isdəmir. Bircə barmağındaki üzüyə baxıb ununla yavaş-yava danışır. Arvad qabağı da yanına quyub uturmuşdu. Birdən qabax qız harda ulduğunu unudub dilləndi:

– Anacan, budur üzüyüm. Bu, mənim üzüyümdü.

Bu güzəl, incə, zərif səs elə bil uğlanı həmişəlik yuxudan uyatdı. Uğlan tez qalxıb yerinnən dikəldi:

– Kimdi bunu süyləyən?

Uğlan az qaldı şaddığınnan özünü itirsin. Elə onun azarı bu imiş. Qabax qız irəli yeriyib dedi:

– Bu üzük mənim üzüyümdü, mən unu itirmişdim.

Uğlan üzüyü çıxarıb dedi:

– Al üzüyünü.

Şaha xəbər çatdı ki, uğlun sağalıb. Qabax qız qabaxdan çıxdı və evi gün kimi işıxlandırdı. Uğlan üzüyü qızın barmağına taxdı, onun nazik barmaqlarından üpdü və dedi ki, mən səni isdəyirəm, güzümün işığı. Bu gün tuy ulacax. Sabahısı gün, qabax qızı gətirdilər padşahın uğluna. 40 gün, 40 gecə tuy çalındı. Uğlanla qabax qız evləndilər. Uğlan axşam qabax qız qabaxdan çıxanda qabağı alıb uda atıb yandırdı. Qabax yanıb qurtaran kimi qiz da can verdi. Uğlan qızın yanına gəlib gürdü ki, sevgilisi bayaxdan can verib, gürdüyü işdən çux peşman uldu və 40 gün, 40 gecə yas saxladı. Unnar urda qaldı, mən qayıdıb gəldim. Güydən üç alma düşdi, biri sənə, biri mənə, biri də nağıl diyənə.

TEYMURNAN TƏRLAN

Biri varmış, biri yoxmuş, İsfahan şəhərində bir paccah varmış. Bu paccahın iki oğlu varmış. Oğlunun birinin adı Teymur, o birinin adı isə Tərlan imiş. Bu iki qardaş evlənmək isdiyillər. Günnərin bir günündə qardaşdar öz fikirrərini atalarına bildirillər. Paccah oğlannarına deyir ki, gedin qazanc gətirin, sora sizi evləndirim.

Qardaşdar evdən çıxıb gedillər. Bir kəndin kənarına çatanda daha taqətdəri olmur ki, yeriyə bilsinnər. Tərlan Teymura deyir:

– Qardaş, daha sən yeriyə də bilmirsən. Sən burada otur. Mən gedim uzaxda görünən şəhərdən bir az çörək tapım. Gətirim yeyək, yolumuza davam edək.

Teymur axşama qədər gözdüyür. Tərlan gedən şəhərin paccahı ölmüş imiş. Dövlət quşu uçurullarmış. Bu quş gəlib Tərlanın başına qonur. Quşu gəlib tutub aparıllar. Tərlanı isə bir uçux evə salıllar. Quşu təzədən uçurullar. Quş hərrənə-hərrənə təzədən gəlib Tərlanın başına qonur.

Tərlanı uçux evdən çıxarıb, təntənə ilə saraya aparıllar. Beləliynən, Tərlan paccah olur. Teymur Tərlanın yadınnan çıxır.

Teymur qardaşının gəlib-çıxmadığını görüb, yavaş-yavaş şəhərə getməyə başdıyır. Şəhərə çatıb bir qəssaba şagird olur. Teymur da bilmirdi ki, bu şəhərin paccahı qardaşıdı.

Tərlanın bir vəziri var imiş. Bu vəzirin yaxşı sir-sifəti yoxmuş. Vəzir bir gözəl qız isdiyir. Qız vəzirə getmir. Vəzir qəssab şagirdi Teymuru görənnən sora isdiyir ki, Teymuru qəssabdan alsın. Qəssabdan Teymuru alır. Aparıb qıza "səni bu oğlana alıram" deyir. Qız razılıx verir. Toya başdıyıllar.

Vəzir məsələni ört-basdır eləmək üçün oğlanı öldürmək isdiyir. Qəssaba əmr edir ki, bu gün oğlanı öldürüb köynəyini də qanına bulayıb gətirərsən. Qəssabın oğlana yazığı gəlir, məsələni ona açır və oğlanı dilə tutur ki, bu şəhərdən qaçıb

getsin. Özü isə oğlanın köynəyini qana bulayıb vəzirə gətirir.

Teymur qaçıb şəhərdən çıxanda qız öz imarətinnən Teymuru görür. Teymuru qaçırıb evə gətirir.

Vəzir gəlib görür ki, oğlan onun evindədir. Tez cəllad çağırır. Cəllad Teymurun boynunu vurmax isdiyəndə Teymur deyir:

– Mən paccah oğluyam. Qardaşım Tərlannan və atamnan nigaran gedirəm.

Cəlladdar məhəttəl qalıb deyillər ki, bizim də paccahın adı Tərlandı. Gəlin bu oğlanı paccahın yanına aparax. Teymuru paccahın yanına aparıllar. Bu iki qardaş bir-birini görən kimi qucaxlaşıb görüşüllər. Tərlan əhvalatı bilən kimi əmr edir, cəlladdar vəzirin boynunu vurullar. Teymura isə qırx gün, qırx gecə toy eliyir. Sora isə atalarının ölkəsinə getmək üçün hazırraşıllar.

XAYİN VƏZİR

Biri var idi, biri yox idi. Darın dünyasında bir padşah vardı. Bir gün padşah vəziri ilə birlikdə ova çıxır. Bir müddət getdikdən sonra bir ceyran balası ovlayaraq saraya dönərlər... Padşah sehirləməyi və bəzi tilsimləri bilirmiş. Bu öz qüdrətini vəzirinə göstərmək arzusuna düşür. Bir tilsim oxuyaraq yerə sərilmiş ceyran şəklinə girib sarayın bağçasında gəzməyə, otlamağa başlar. Bir müddət sonra əvvəlki şəklinə girər, öz gördüklərinə inanmayan vəzirin yanına dönər.

Vəzir tilsimi ona da öğrətməsini padşahdan təkrar-təkrar rica edir. Günlər keçdikcə vəzirin bu tilsimi öyrənmək arzusu daha da artır. Hər gün padşaha öz sədaqətindən söz açar, sirri öyrənmək istər. Padşah aralarındakı dostluğa inanaraq ona tilsimin sirrini açıqlar və sehri ona öğrədər.

Aradan həftələr, aylar keçir. Vəzir heç vaxt bu tilsimdən söhbət salmır. Demək olar ki, padşah da hər şeyi unudur.

Bir gün yenə də adətləri üzrə ova gedirlər. Padşah gözəl bir yaşılbaş sona vurur. Vəzir padşaha deyir: Dostum, o tilsimi oxuyub bu sona şəklinə girə bilsəniz, sizə afərin deyərəm.

Padşah tilsimi oxur və sona şəklinə girir. Həmin vəzir də tilsimi oxur və padşahın şəklinə girir. Padşah olmaq üçün onu öldürmək istəyir. Onu qovmağa başlayır. Sona şəklinə girmiş padşah qalın meşəyə qaçıb canını qurtarır. Bu vaxt yuvasında ölmüş bir göyərçin görür. Tilsimi oxuyur və göyərçin şəklinə düşüb, saraya uçaraq arvadının pəncərəsinə qonur.

Vəzir padşahın meşədə acından öldüyünü və ya abdal olduğunu düşünür və işindən məmnun olurdu. Saraya dönüb padşahın yerində oturdu. Və məmləkətin işlərini idarə etməyə başladı. Eyni zamanda padşahın arvadının könlünü çalmaq istədi. Qadın ağıllı və zəkalı idi. "Ərinin" hərəkətlərində bəzi dəyişiklikləri həmən duydu və ona göz qoydu. Onun muradına yetişməsinə imkan və fürsət vermədi.

Bir neçə gün sonra ərinin büthalını düşünərkən padşahın

arvadı pəncərədən ərinin səsini eşidər. Fatma pəncərəyə baxar. Ərinin səsiylə danışan gögərçini görər. Bayılar, özünə gəlincə gögərçin ona anladar.

– Mən Mahmudam. Vəzirə tilsimi öğrədmişdim. Mənə xəyanət etdi. Səltənətimə və sənə göz tikdi. Mən bu şəkildə qaldım. Fatma indi hər şey sənin əlindədir. Ağıl və fürsəti əldən vermə. Məni dinlə. Diqqətli ol. Bu axşam o namərdə gözəl bir süfrə aç. Bir də canlı bir xoruz tap. Yemək vaxtı ona əndişəni və qorxunu izah et. Bu sözlərlə şikayət və üzüntülərini bildir. "Şübhəsiz, sən tilsimləri bilirsən. İstəsən, qəlbimi sevgiylə, dostluğla doldura bilərsən. Sən əskidə heyvan və quş şəklinə girəndən sonra məhəbbətimiz aşıb-daşardı. Günlərlə səni qucmaq istərdim. İndi mənə nə isə olub. Allah xatirinə, istəyirsən səni əvvəlki məhəbbətlə sevim, gecələr səhərə kimi əzizləyim, bir anlığa xoruzun şəklinə gir. Mən də sənin məharətini təbrik edim, qollarımın arasına alım".

Axşam olur, Fatma ərinin dediyi kimi edir. Namərd vəzir padşahın libasında, onun şəklində gəlir. Süfrəni görür, sevinir. Fatma ona nəvaziş göstərir. Vəzir şərab içir. Özünü murada çatmış sayır. Bu arada Fatma ərinin dediklərini nəql edir.

Vəzir məmnuniyyətlə onun xahişini yerinə yetirmək üçün qalxar xoruzu kəsər. Sonra heç nəyə şübhə etmədən tilsimi oxuyar. Bu vaxt gögərçin əvvəlki kimi padşah libasında olar. Fatma qolları arasında sıxdığı xoruzu-vəziri məhv edər.

Beləliklə, xain vəzirin fitnə-fəsadından xilas olarlar. Əvvəlki kimi şad-xürrəm yaşarlar. Siz də şad olasız. Mənim bir nəsnəm yoxdu, mən şad olmam. Bəlkə, siz bir nəsnə verib məni şad edəsiz.

SAS TAVUĞUN TƏLƏNGİ

Var idi, yox idi, bir avçı vardı. Günnərin birində çəmdə av edərkən ruzgarların uçura-uçura gətirdigi bir quş tələnki tapdı. Tələng elə gözəldi, elə gözəldi, avçı ömründə belə qayət suslı bir gözəl nəsnə görməmişdi. Tələngi durmadan padşaha apardı. Padşah xəstə idi. Dedi, qoy qəlbi şad olsun. Padşah çox bəgəndi təlnəgi. Avçıya ənəm verdi. Loğmanlar bilirdilər ki, padşah həmin quşun ətindən yeyən kimi sağalacaq. Vəzir dedi: – Əsl avçı olduğunu göstər. Bu təlnəkin hansı quşa mənsub olduğunu və onun hansı məmləkətdə yaşadığını üç gündə bildirməlisən. Bildirməsən, boynun vurulacaqdır. Avçı qəmli halda evə dönər.

– Oğlum nədən qəmlisən – deyə anası sorunca vəzirin istəgini anladar.

– Oğlum, böyük babandan sor. Onun iki yüzə yaxın yaşı var. Bilməmiş olmaz.

Avçı bir neçə aylıq uşaq kimi pambığa bükülüb, zənbildə saxlanılan babasından təlnəyin hansı quş olduğunu sordu:

– Oğlum, qəm yemə, bu xəfif bir işdir. O gözəl təlnəg Sas tavuğundur. Tavuq gün çıxan padşahına məxsusdur.

Avçı sevinə-sevinə padşahın hüzuruna gidər və onu məsələdən agah edər.

Padşah məclis qurar və quşu necə əldə etmək barədə məsləhətləşər. Padşahın hər üç oğlu ayağa durub deyirlər: Padşah sağ olsun, biz gedib o quşu gətirrik.

Yol hazırlığı görülür. Şahzadələr yola düşürlər. Yel kimin dərə-təpə, düz bilmir, keçirlər. Az gedir, üz gedir, dərə-təpə duz gedir, gəlir iki yol ayrıcına olaşırlar. Bir yolda "gedər dönər", o biri yolda "gedər dönməz" yazılmışdı. Böyük qardaşlar "gedər dönər" yolunu seçirlər. Kiçik qardaş dərə-təpə düz keçər, qumsal çöllər, qayalıqlar keçər, yorğunluq, aclıqvə susuzluqdan əziyyət çəkər, amma geri dönmək istəməz. Nə də heyvanları, quşları ovlamaz, vəhşi heyvanlara

toxunmaz. Bir tülkünü tozuxdan xilas edər.

Su başında hegbəsində əl boyda qalmış əgməgi çıxarıb su ilə yemək istərkən həmin tülki qarşısında dayandı. Şahzadə ilə insan kimi qonuşdu. Ac olduğunu bildirdi. Şahzadə parça əgməgin yarısını tülküyə verdi. Tülkü şahzadənin hara gedəcəyini bildikdən sonra arxamca gə deyib, evinə qonaq apardı. Üç gün sonra tülki donuna girən pəri, şahzadəyə Gün çıxan padşahın yolunu göstərir və sıxıntıda yardım etmək üçün özünə tük verir, yandırarsa hazır olacağını da bildirir. Şahzadə gecə-gündüz yol gedir. Nəhayət, gün çıxan padşahın sarayına olaşır. Padşahı məsələdən agah etdi. Padşah gəncin atasının xəstə olduğuna təəssüflənsə də dedi:

– Əgər mənim üçün Kor Kosrın atını gətirsən, sas tavuğı verərəm sənə.

Şahzadə qəmgin halda sarayı tərk edir. Bir daha tülkinin yanına dönür. Tülki bir müddət şahzadəyə qalavuzlıq edir, sonra bu yolu tutarsınız, filan yerə olaşdıqda mağara ağzında bir at görəcəksiniz. Əgər ayaqları çalam-çarpaz olsa, mağaraya girərsiniz. Kor Kosrı divi yatmış görəcəksiniz. Onun ayaq və dizlərini övkələrsiniz, oyanacaq. Onda fikrinizi anladarsınız – deyir.

– Mənə möhtac olsan, tükümü yandır.

Şahzadə tülkinin dedigi kimi yapdı. Div oyandı, mırıldadı:

– Ax, nə edim, bəxtin onda gətirib ki, diz və ayaqlarımı övkələyibsən. Yoxsa səni yeyərdim. Neçin gəlibsən, söylə.

– Şahzadə başına gələni danışdı.

– Adaxlım Gülzarı düşmən divlər qaçırıblar, onu gətirsən, atımı sənə verərəm.

Şahzadə qəmgin halda mağaranı tərk edir. Naəlac qaldığından tükü yandırır, tükü yandırmasıynan tülki hazır olur. Tülkü onu anladır.

Şahzadə beş təpə arasında bulunan quyu üzərinə gəlir. Gülzar – deyə hazırlanınca Gülzar:

– Topuğuna qədər daş olasan deməklə şahzadə daş olur. Bir daha gəbəginə qədər daş olasan deməsilə daş olur. Yenə huvarlanır. Boynuna qədər və sonra tam daş olur.

Pəri tülkünün bacısı Şahzadəyi içəridən sevdigi üçün onu izləyirdi. Çapuq şahzadəyə olaşır, bir ovuc torpaq qaldırır, oxur daş olan şahzadənin üzərinə səpir. Şahzadə dönür olur əvvəlki kimi. Bir daha qonuşmazdan əvvəl: Çıxın, gömləginizi gətirmişəm de. Oğlan quyuya yaxınlaşır, Gülzar, çıx kömləgini gətirmişəm – deyir.

Gülzar:

– Quyuya at, deyər.

Şahzadə:

– Öncə siz boynunuzdakı gərdənliyi tişarı atın, taki sizə kömləgi atım Gülzar incili sehr anaxtarı olan gərdənliyi tişarı atar, kömləgi alar. Çirçılpaq olan Gülzar geyinir və tişarı çıxır. Şahzadə, Gülzarı görüncə bayılmaq dərəcəsinə gəlir. Gülzar hədsiz gözəldi.

Şahzadə göz ayırmır.

Tülkinin evinə gəlirlər.

Tülki:

– İndi gəlib Gülzarı Kor Kosraya verib atı ala bilərsiniz.

Gülzar kimi gözəl bir qızı qeyd edəcəyindən Şahzadə sıxılır. Acısını duyan tülki deyər – o bir parça ekmək gözümdə durmaqdadır. Mən sənlə gedərəm – deyir. Yürürlər. Kor Kosranın qəsrinə yaxınlaşarkən tülki özünü Gülzara bənzədir. İndi qəsrə girək. Məni Kor Kosraya, atın yartaxımını və cilovunu alana kimi vermə. Onları alınca məni ona ver və və atla evimizə dön. Şahzadə pərinin dedigi kimi yapdı və atla evə döndü. Gülzar donunda olan pəri ayaq yoluna getmək istər. Kor Kosra buraxmaz. Qorxar ki, Gülzarı bir daha divlər apararlar. Ayağına ip bağlar, bi ucunu tutar. Pəri orada ipi açar, ibriqə bağlar, sıçrar, qaçar. Kor Kosra yeddinci qat qəsr üzərində tülkiyi görüncə aldandığını anlar, tülkinin dalınca qaçar, fəzlə darıldığından gözü görməz, qəsrdən düşüb ölər.

Pəri evə döndükcə, indi atı Günçıxan padşahına apar və Sas tavuğını al-deyər. Şahzadə belə bir atı əldən çıxarmağına çıxılır. Tülki deyər: İndi birlikdə gedəlim – deyər.

Günçıxan padşahın qəsrinə yaxınlaşanda pəri özünü Kor Kosranın atına bənzədir. Şahzadə üzərinə minər. Qəsr önündə pəri əsl at kimi kişnər, atlanar-düşər, gördüklərini parçalar. Padşah inanar ki, illərlə istədiyi arzuya çatıb. Sas tavuğı şahzadəyə verib yola salar. O biri gün bir nəfər pəhləvanı ata mindirir, qoşmasına tamaşa edər. Bu anda at pəhləvanı bir ağaca çırpır, öldürür və evə dönür.

Şahzadə pəriyə necə təşəkkür etməgə söz tapmırdı. Pəri kiçik bacısını da şahzadəyə qoşur. Gülzar Kor Kosranın atı və Sas tavuğı da olmaqla şahzadənin olur. Günlərlə yol gedirlər. Gidişdə şahzadə görmüş olduğu "gedər dönər yol" ayrımına gəlincə bir karvanla rastlaşırlar. Şahzadə tanışlıq vermir. Padşahdan hal-əhval tutur. Tacir ağlayır – Belə səxavətli padşahın üç oğlunun yoldan dönməməsi, xəstəliyinin günü-gündən şiddətlənməsi halını sıxır deyir. Şahzadə qardaşlarından bir xəbər tutmaq üçün "gedər dönər" yoluna səpinir. Bir şəhərə gələr, orada qardaşlarının kababçı şagirdi işlədiklərini görər. Qardaşları onu tanımazlar. Onları yanında xizmətçi götürər və məmləkətinə dönər.

Dönüşdə bu iki qardaş ağalarının kiçik qardaşları olduğunu anlarlar. Qısqanclıq və çəkəməzlikdən bir fürsətdə dərin quyuya atıb, varını-yoxunu alır, babalarının sarayına gəlirlər. Kor Kosrın atı qaçıb şahzadə buraxılan quyunun üzərinə gəlir. Elə kişnəyir ki, hətta yer-göy bir olur. Bayılmış şahzadə ayılır. Səs edir, at ayağını yerə döyüb bir də kişnər. Şahzadə tülkinin tükünün yanında olduğunu xatırlar, yandırar özünü. Tülki hazır olub onu xilas edər. Şahzadə pəriyə dərindən təşəkkür edib Kor Kosrın atına minər və şəhərə girər. Düğün olduğunu və padşahın iki qəhrəman oğlunun Sas tavuğu gətirdiyini, padşah xəstəlikdən sağaldığını və padşahın oğlanlarının Gülzar və Pərinin kiçik bacısının evlənmək üçün

toy olduğunu eşidir. Çox darılır. Atını meydana sürür. Meydanda atların yarışı keçirilirdi. Kor Kosrın atı bir anda bir neçə at başı qopardır. Padşah onun kim olduğunu sorar. Buraya mənim iki qulum gəlib. Onları götürməyə gəlmişəm – deyər.

Padşah o qulların nişanı olub, olmadığını sorar.

Damğaları vardır. Şahzadə hamını yoxlar, hətta padşah duyuğ düşməsin. Özü bilir, kimi axtarır. Padşah deyər: Artıq kimsə qalmadı. Qəsrinizdə toyu olanlara baxmalıyam. Padşah darılsa da, oğullarını dəvət edir. Padşahın oğlanları öz kiçik qardaşlarını görən kimi ona yalvarmağa başlayırlar. Günahlarını boyunlarına alırlar. Padşah kiçik oğlunu tanır. Baba məsələdən agah olduğundan sonra onun zadəyə qırx gün, qırx gecə toy edir. Gülzar və kiçik Pərini ona arvad edir. Özündən sonra onun padşah olacağını elan edir. Onlar şadlıqla yaşarlar. Siz də şad olasız. Darı başıvuza. Toya mən də getmişdim. Başları qarışmışdı, ağzımı şirin edən olmadı. Bəlkə siz edəsiz.

ODUNÇU QIZI

Var idi, yox idi. Yalan gerçəkdən çox idi. Yalanı dolduralar çuvala, dayadılar duvara. Gerçəyi qoydular meydan başına. Hartdan-hurtdan, yaxası qarpuz qabuğı, düğməsi turpdan. Aman-zaman içində, xəlbir saman içində, dəvə bərbərliğ edir, əski hamam içində. Hamamın tası yox, peştəmalın ortası yox... Var idi, yox idi, Həsən adında bir odunçu var idi. Odunçu Həsən o qədər yoxsul idi ki, qarısını və qızını dolandıra bilmirdi. Hər gün çəmə gedər, odun qırar, bazara aparıb satar, yarı ac, yarı tox dolanardılar. Qızları Gülşən böyüdükcə bir tərəfdən sevinir, o biri tərəfdən pərişan olurdular. Gülşən çox gözəl idi. On yeddi yaşına çatmışdı. "Aya deyirdi sən bat, mən çıxım" – gözəl olmuşdu. Gülşənə paltar almağa Həsənin imkanı yoxdı. Baba və nəvə fikrə dalmışdılar. Fəqirlik onların belini bükmüşdü. Gülşəni özləri ilə çəmə odun yığmağa aparmaq eyib olsa da, imkanları yox idi. Altun saçları, qara qaşlı, xumar gözlü Gülşəni elə bil görən yox idi. Bu, odunçu Həsəni haldan çıxarırdı.

Bir gün Gülşən yaxındakı meşəyə tərəf getdi. Heç vaxt görmədiyi bir bulağın üstünə gəldi. Mat qalmışdı. Bu yerlərdən dəfələrlə keçsə də, bu bulağı ilk dəfə görürdü. Bulağın ətrafında çoxlu quru odun vardı. Odunlardan bir şəltə düzəldib bazara yollanmaq istədi. Bu vaxt arxadan mələhətli səslə bir gənc onu səslədi:

– Sən nə gözəlsən, Gülşən. Sən xoşbəxtsən. Gülşən çevrilib ənsəsinə baxdı, kimsə yoxdu. Qorxudan dizinin bağı qopsa da, evə tərəf qaçdı. O gecə yata bilmədi. Görəsən, o mələhətli səsin sahibi kim idi? Bəs onu niyə görə bilmədi?

Səhəri gün ayaqları Gülşəni həmin bulağın üstünə apardı. Kimsə yox idi. Gülşən bir şəltə odun yığıb ənsəsinə atdı. Bu vaxt həmin səs yenə eşidildi.

– Gözəl Gülşən, mənim yarım olsan, səni dünyanın ən xoşbəxti edərəm. Baba və nənən də xoşbəxt olurlar.

Gülşən yenə də heç kəsi görmədi. Evə döndü. Başına gələni baba-nənəsinə qonuşdu. Babası dedi:

– Qızım, get gör kimdi, qorxma, özüynən qonuş. Bəkə, bizim xoşbəxtliyimiz onun əlindədir. Sonra gəl, bizə annat.

Gülşən yenə bulağın başına getdi. Yenə haman mələhətli səsi eşitdi:

– Gözəl Gülşən, sən mənim yarım olmaq istərsənmi?

Gülşən bütün cəsarətini toplayaraq cavab verdi:

– Mən qarışmam. Babam kimə versə, ona varram.

– Elə isə babana söylə bura gəlsin, özüynən qonuşum. Mən onu razı edərəm.

Gülşən evə gəldi. İntizarla onu gözləyən baba və nənəsini məsələdən halı etdi.

Odunçu Həsən bu işə mat qalmışdı. Çaşdığından bilmədi nə etsin. – Qızım, bəkə röya görübsən?

– Yox, baba. Səs bulağın içinnən gəliri.

Həsən baltasını da götürüb, qızı və qarısı ilə bulağa yollandı. Bulağın başında baltasını havaya qaldıraraq bağırdı.

– İştə gəldim, kimsən? Nə istəyirsən?

Bulağın içindən həmin mələhətli səs eşidiləndə balta Həsənin ayağının altına düşdü.

– Həsən ağa, sən yoxsul bir adamsan. Əgər dərin bir məhəbbətlə sevdigim Gülşəni mənə versən, sizi xoşbəxt edərəm. Hər istəyinizi yerinə yetirrəm.

– Qızım özü bilər, mən bir söz deməm:

– Ama sən kimsən? Üzünü bizə göstər. Kimsən, inmisən, cinmisən, hardasan?

– Mən insanam. Əgər Gülşən məni dərin məhəbbətlə sevsə, mənim üzümü görərsiniz.

Gəncin səsi odunçu Həsəni də məftun etmişdi. Qeyri-iradi dedi:

– Qızımı sənə verdim. Razı oldum. Ama necə evlənəcəksiniz?

– Gələcək həftə çərşənbə günü bura gəlin, nişan

mərasiminə.

Nişan gününün bu qədər yaxın olması onnarı pərişan etdi. Çünki Gülşən heç olmazsa bir qat paltar almalı idi. Lakin paraları yoxdı. Lakin iki gündən sonra qapılarının ağzında yüz səbət vardı. Görünməz əllər tərəfindən gətirilən bu səbətlərdə hər növ yemək-içmək, meyvə, paltar vardı.

Çərşənbə günü deyilən vaxt bulaq başına getdilər. Heç kimsə yoxdu. Çaş qalmışdılar:

– Qızımı kiminlə evləndirəcəyəm? Nişanlanacaq adam ortada yoxdu.

Elə bu vaxt həmin məlahətli səs eşidildli:

– Mən burdayam. Al, bu üzüyü Gülşənin barmağına keçir. Hər şey qaydasında olacaq. Bu sırada odunçu Həsənin ayağının altına bir altun üzük düşdü. Həsən üzüyü yerdən götürüb qızının barmağına keçirdi. Ənsəyə baxanda gözəl bir çadır, yeməklərlə dolu bir süfrə gördü. Xizmətçilər hazır durmuşlar. Yedilər, içdilər, yaradana dua oxudular. Məlahətli səs yenidən eşidildi. Mənim adamlarım Gülşəni mənim sarayıma aparacaqlar, halallaşın. Evə gələndə gözlərinə inanmadılar. Köhnə komanın yerində gözəl bir imarət vardı. Xizmətçilər əmr gözləyirdilər. O gündən odunçu Həsən və qarısının zəngin və gözəl həyatından aləm qonuşmağa başladı.

Lakin Gülşəni bir daha görməmələri onlara ağır gəlirdi. Gün sırasında Gülşəni ehtişamlı bir saraya apardılar. Sarayda gənc bir adam Gülşəni qarşıladı.

O, qonuşan kimi Gülşən bayıldı. Bulaqdakı məlahətli səsin sahibi çox gözəldi. O, gözəl bir şahzadə idi. Beləcə Gülşən xoşbəxt oldu. Şahzadə hər gün erkəndən saraydan çıxır, axşam hava qaralanda saraya dönürdü. O, Gülşənə bir çox hədiyyələr verdi. Gülşənə yalnız bir şey tapşırdı:

– Saraydan heç yana çıxma. İçəriyə də kənar adamı qəbul etmə. Onsuz da bəkçilər qoymazlar. Hər halda bil və agah ol.

Gülşən razılığını bildirdi. Lakin günlər keçdikcə tənhalıq

onu üzürdü. İntizarla kişinin yolunu gözləyirdi. Gülşən get-gedə onu sevməyə başlamışdı. Düyurdu ki, kişisi də onu çox sevir. Lakin Gülşənə heç nə demirdi, hətta öz adını da. Bir gün Gülşən qərara aldı ki, mütləq gecə onun adını öyrənsin.

Kişisi gəldi. Yedilər-içdilər, kefləri yeddi qatda oldu. Gülşən sordu:

– Məni çoxmu istəyirsən?

– Dünya qədər.

– Onda bir arzumu yerinə yetir.

– Mən sənin bütün arzularını yerinə yetirməyə hazıram.

– Onda de, adın nədir?

– Mənim adımı sorma. Ögrənmək istəmə. Fəqət Gülşən daha da maraqlandı.

– Adını söylə, bilmək istirəm.

– Əgər inad edib adımı sorsan, adımı deyərəm. Fəqət onda biz ayrı düşəciyik. Sən yenə də əski daxmaya gedib yoxsulluq və iztirab içində yaşarsan. Gülşən bir ara susdu. Günlər keçdi. Gülşənin marağı ona üstün gəldi. İnad etdi. Göz yaşı tökdü. Əgər adını deməsən, anlayacağam ki, məni sevmirsən.

– Kişisi çox kədərləndi. Düşündü, bir çıxış yolu tapmadı. Nəhayət dedi:

– Qoy istədigin kimi olsun. Arxamca gəl. Ayağa qalxdılar. Saraydan çıxıb böyük bir şəhərin kənarına gəldilər. Şahzadə dizinə qədər suya girib yalvarıcı nəzərlərlə Gülşənə baxdı.

– Sevgilim, sorma adımı – dedi. Gülşən yenə inad etdi.

– Gülşən, Gülşən, sevgilim, gözəlim, adımı sorma. Bu işdən vaz keç. Yalvarıram.

Qadın marağı güclü olur. Gülşən o qədər maraqlanmışdı ki, arzusundan vaz keçmədi.

– Şahzadə nehrin ortalarına çatmışdı. Su boğazına çıxırdı. Yenə döndü, kədərlə, məhəbbətlə Gülşənə baxdı. Yazıq bir səslə ondan bu inadından vaz keçməsini rica etdi.

İsmimi söylərsəm, başımıza fəlakət gələcək.

Ya qismət, bəlkə, on ildən sonra görüşdük. O da sənin əlində olacaq.

Gülşən dedi:

– Kim olduğunu, adını öyrənmək istirəm.

Şahzadə dalğaların arasından qışqırdı:

– Mənim adım Baznadandır.

Bu vaxt suların arasından qorxunc bir ilan peyda oldu. Gülşənə bir nəzər salıb Baznadanın üstünə atıldı və onu suların dibinə çəkdi.

Gülşən elə bil yuxudaydı. Özünü sevgilisinə kömək üçün suya atdı. Su sakit idi. Acı göz yaşları sel kimi axıb nəhrin sularına qarışdı. İndi anladı ki, Baznadanı nə qədər sevir. Sudan çıxıb saraya tərəf üz qoydu. Lakin sarayı yerində görmədi. Üşüyürdü, paltarının suyunu sıxmaq istədi. Əynində babası evində geydiyi paltarı gördü. Evlərinə üz tutdu. Göz yaşları tökə-tökə evə gəldi. Baba və nənəsi köhnə komada idilər. Ağır günlər, əvvəlkindən daha ağır günlər başlandı. Gülşən odun yığıb bazarda satar, baba və nənəsinə kömək edərdi. Çoxları Gülşəni almaq istədi. Fəqət, Gülşən razı olmadı. Sevgilisini itirdiyi gündən bir an da olsun onu yaddan çıxara bilmirdi. Ona olan məhəbbəti get-gedə artırdı. Baznadanın məhv olması onu yandırıb-yaxırdı. Onun ölümünə özünün səbəb olduğunu düşündükcə kədər boğur, gecələr yuxusu ərşə çəkilirdi. Günlər, aylar, illər bir-birini əvəz etsə də, şahzadəyə olan məhəbbəti alovlanırdı, onu gündən-günə daha fəzlə sevməyə başlayırdı. Bu gün əski bulağı görməyə getdi. Fəqət bulaq da yoxa çıxmışdı. Evə gəldi.

– Bulaq da yoxa çıxıb. Artıq hər şey məhv oldu – dedi.

Beləcə on il keçdi. Gülşənin göz yaşı qurumadı. Hər gün, hər gecə etdiyi müsibətə aciz olurdu. Axırda azarladı, xəstə oldu. Əgər inad etməsəydim, kişim düşmənin əlinə düşməz, məhv olmazdı.

Nəhayət, on il keçdi. Son gün gəldi. Gülşən o sabah

yuxudan qalxanda bir yüngüllük, bir sevinc duydu. Əcaba bu sevincin səbəbi nədir – deyə düşünərkən nənə və babası dedilər:

– Gülşən, bu gecə röyada bulağı gördük. Get ora. Bax, nə var orada. Gülşən qaça-qaça bulaq olan yerə gəldi. Bulaq yerində idi. Yanında da Baznadan. O, Gülşəni həmin məlahətli səslə çağırıb qollarını açdı.

Gülşən sevincdən ağlayaraq şahzadənin qolları arasına atıldı və bir daha onun sözündən çıxmayacağına and içdi.

Baznadan qucaqlayaraq Gülşəni öpdü və dedi:

– Sənin məhəbbətin, məni tilsimdən xilas etdi. Əgər on ildə bircə gün də mənim haqqımda düşünməsəydin, mən məhv olmalı idim. Mən sənə təşəkkür edirəm. Gedək sizə. Əyi yaşarıq. Mən bu yerlərdə harada altun, dəfinə olduğunu bilirəm. O saraydan da möhtəşəm saray tikdirrik. Odunçu Həsən və qarısı kürəkəni görüb sevincdən ağladılar. Onlar ömrlərinin axırına qədər xoşbəxt yaşadılar. Siz də xoşbəxt olun.

GÖGƏRÇİNİN OĞLUĞU /OTU/

Varıydı, yoxuydu, bir kişiynən bir arvat varıydı. Adamın bir ixtiyar babası, bir inəgi və bir gögərçini vırıydı. Babası çox ixtiyarıydı, yəni çox yaşlıydı. Arvat bu qəyinbabasına xizmət edərdi. İnəklərin sağardı. Sütünü həm içərdilər, həm də satardılar. Gögərçin də hər gün sübh bir neçə dəfə uçardı. Dimdigində ot gətirərdi. İnəgə verərdilər, inək yedigcə, sütü çoxalırdı.

Bir gün gögərçinləri bir çəngə ot gətirdi, inəgin yanına qoydu. İnək otdan yeyincə şişti, qarnı çatladı, öldü. Adam inəginin ölümünə çox qızdı, sıxıldı. Tutdu gögərçinin başını qopartdı, atdı, Arvat da qalan otu saxladı.

Bir gün adam yaxın bir göyə getməğ istədi. Dedi arvad: babama müğəyyət ol. Babama bir şey olsa, səni boşaram. Adam çıxdı getdi. Adam çıxannan sonra arvad getdi saxladığı otdan gətirdi, bir az dorğaladı, bir qazana qoydu, qaynatdı, şorba kimin etdi, qaşşıqdan adama içirtdi. Adam bu şorbadan içincə on dörd yaşında bir oğlan oldu.

– Arvad bu yapdığı işə çaş qaldı, dedi:

– Mən nə etdim. İxtiyar qəyinbabam on dörd yaşında bir gənc oğlan oturub.

Arvadın kişisi göydən dönəndə babasının yerində gənc gördü. Dedi:

– Babam hanı?

– Oğlan dedi:

– Mən səniy babayam!

Arvadını çağırdı, dedi: hanı babam?

Arvad dedi:

– İştə, bu səniy babaydır.

Adam arvadının sözünə qızdı, dedi:

– Mənim babam ixtiyar idi, necə belə gənc oldu?

Arvad qorxusundan bir cavab verə bilmədi. Adam istədi arvadını öldürsün, arvad qaçdı qonşuya getdi. Adam qapını

kiriklədi, gənc babasını evdə həbs etdi. Getdi arvadının qardaşlarına xəbər verdi. Arvadın qardaşları gəldi. Bacılarını gətirdilər, istillər bacılarını öldürsünlər.

Bacı dedi:

– Məni nişi öldürürsüz? Mən bu otdan qəyinbabama içirtdim, on dörd yaşında bir oğlan oldu. İstisiz gedin başqa bir ixtiyar gətirin, əgər o da gənc olmazsa, o zaman məni öldürün. Adamla arvadın qardaşları gətdilər tanıdıqları ixtiyar bir arvadı gətirdilər. Arvat da qaynatdığı otun şorbasın bu ixtiyar arvada içirtdi. İxtiyar arvad on dörd yaşında gənc bir qız oldu. Onda adam barmağını dişlədi, dedi:

– Gögərçin mənimçün bu otluğu gətirmişdi, inək otluqdan yəyincə çatladı, mən də gögərçinin başını qopartdım. İştə olan oldu, keçən keçdi.

Qondular bir yerə yığışdılar. Gənc adam ixtiyar adamçın gənc olan arvadı aldılar. Mən getdim, bir şey vermədilər.

İLAN ŞAHI

Varıydı, yoxuydu, yalan gerçəkdən çoxuydu. Bir padşahın bir oğlu variydi.

Padşah oğluna deyir:

– Oğlum, mən ölürəm. Sənə vəsiyyət edirəm: malıva məqəyyat ol, çox xərcləmə.

Padşah öldükdən sonra oğlan babasının bütün malını xərclədi. Oğlannan nənəsi ac qalırlar.

Oğlan bir gün nənəsinə diyər:

– Nənə, bir şey varsa, ver satım.

Nənənin də evdə qalan bir çırağı vardı.

– Al, oğlum, get bu çırağı sat, parasına əkmək al gəti.

Oğlan da çırağı satar, əkmək alı, qalan parçasına da bazardan bir sanduq alı, evə gəli. Nənəynən oğlan əkməki yeəllər, deəllər, yarın Allah kərimdi.

Gecə vaxtı sandıq dilə gəli, diyər:

– Açın məni, baxın içimdə nə var? Oğlan yerinnən tələsik qalxar sanduğu açar, baxar. Sanduğ içində böyük bir ilan yatıpdı. İlan dilə gəli deyər:

– Qorxma, mən sənə əziyyət vermərəm. Amma mənim dediğlərimi gərək yapasan.

Oğlan deyər:

– Sən bizə toxunma, nə istəsəv yaparam.

İlan deyər:

– Qax gəl mənimlə, mən səni aparım babamın məmləkətinə. Oğlan qalxar ilanı qucağına alı, belinə sarar, yola düşər.

Az getdilər, üz getdilər, dərə, təpə düz getdilər, bir neçə gün durmadan yeridilər.

Oğlan bu təppələrdən qorxar. İlan deyər:

– Qorxma, bulara mən baxsam qaçallar, bular həpsi böyük ilanlardı, məni axtarıllar, yeridilər, ilanın babasının məmləkətinə ulaşdılar.

Oğlan baxdı, bir adam oturub, yarısı adamdı, yarısı ilan...

Dedi:

– Bu nədi?

İlan dedi:

– Bu ilanların şahıdı, babamdı. Məni apar yanına, sənə hər nə versə istəmə, sən o boynundakı qutunu istərəm söylə.

Oğlan ilanı gətirdi ilan şahının yanına.

İlan şahı dedi:

– Bu ilan mənim qızımdı. Mən munu doqquz ildi axtarıram. Qızımı tapdığıvçın sənə nə istəsəv muştuluq verrəm.

Oğlan bir neçə gün buların yanında qaldı. İlan şahına dedi:

– Mən öz məmləkətimə dönmək istirəm. İlan şahı: Oğlançın qırx yük altun yükləvün – dedi.

Oğlan dedi:

– Mən altun istəmirəm, boynuvdakı qutunu istirəm.

İlan şahı naəlac qaldı, qutunu oğlana verdi. İlanlar oğlanı yola saldılar.

Oğlan az getdi, üz getdi, dərə, təpə düz getdi, bir yolun başında yoruldu, durdu öz-özünə dedi.

– Mən nə əqildən qırx yük altunu almadım, bu qutunu aldım. Acuqunnan qutunu çaldı yerə... Qutunun içində yeddi qərə adam çıxdı, dedilər:

– Əmr et, paşam!

Oğlan dedi:

– Acam...

Yeddi adam türlü-türlü yeməğ gətirdilər, oğlan doyunca yedi, tox oldu, adamlara əmr etdi:

– Girin qutuya.

Adamlar girdi qutuya. Oğlan qutunu qapattı qoydu cibinə, başladı yeriməğə, ulaşdı öz evinə, baxtı nənəsi xəstədi, acdı.

Ginə qutunu çaldı yerə, qutudan yeddi qərə adam çıxdı.

Dedilər:

– Əmr et, paşam!

Dedi: mənə gətirdığınız yeməğdən gətirin nənəm də yesin.

Yeməğlər gəldi. Oğlannan nənə yedilər. Tox oldular. Oğlan bir qutunu qapattı, qoydu cibinə.

Oğlan qutunun tilsimli, sehrli olduğunu annayınca nənəsinə dedi:

– Nənə, get mənimçi o qanşar şəhərdəki padşahın qızını adaxla.

Nənə getdi padşahın sarayı yanında durdu. Padşah arvadı görüncə dedi: bu fəğir arvada bir az para verin.

Arvad dedi:

– Mən fəqir dəgiləm, mən sənin qızıvı oğlumçun adaxlamağa gəlmişəm.

Padşah arvadın bu sözünə qızar, deyər:

– Sən kimsən, mənim qızımı oğluyçun istirsən?

Arvad diyər:

– Vaxtında mən də bir padşahın arvadıydım. Sən qızıvı oğluma versəv, hər nə istəsəv sənə verəriğ.

Padşah dedi:

– Mən oğlundan istərəm, mənim sarayımın qanşarında bir saray yapsın. Bu sarayın içinnən bir xalı da salsın, bir ucu mənim sarayımda, bir ucu da yanki yapıdan sarayın içində olsun. Bir də qızımın yoluyçun qırx yük altun istirəm.

Arvad padşahın istədiklərini gəldi oğluna dedi. Oğlan qutunu yerə çaldı. Yeddi qara adam birdən:

– Əmr et! – dedilər.

Oğlan padşahın istədiklərini deyincə əmri yerinə gəldi. Padşah yuxudan qalxdı, baxdı gün çıxıb. Dedi cəlladına:

– Çağır mənimçin mollanı, məni neyçün yuxudan oyatmadı?

Molla gəldi padşahın yanına diyər:

– Padşahım sağ olsun, gün bu taydan çıxar, yoxsa o

taydan? Sən gördüğün gün dəgi, altundu, parlırı. Molla padşahla qonuşurkən qapı çalındı. Qırx yük altunun gəldiğini xəbər verdilər. Padşah baxdı, sarayının qanşarında bir saray yapıblar. Sarayın daşları biri altundu, biri də gümüş.

Padşah o zaman bildi, oğlan şərtini qəbul edibti. İkinci gün padşahın qızını oğlana verdilər. Oğlan qızı aldı, öz sarayına apardı.

Padşahın yanında bir qurnaz tacir vardı. Öz-özünə deyər. "Belə bir sarayı yapdıqlarında bir sirr var. Mən bu sirri taparam".

Bu tacir satdığı əşyalardan alı, oğlanın sarayı ögündə durar. Oğlanın arvadı tacirdən ənlik-kirşan almaq istər. Çıxardı bir miqdar altun veri. Tacir altunu almaz, deyər:

– Kişivün sirrini söylə mənə, sənincün çin ipəginnən yapılmış kömnək gətirrəm. Qız da özünü yalan yerdə xəstə edər. Üzünə sarıkök sürtər. Oğlan evə gəli, baxar arvadı xəstədi, deyər:

– Hə arvad, nəyüvdi?

– Diyər:

– Mən düşünməğdən xəstə oldum. Mən bilməm, bu altunlar sənə hardan?

Oğlan deyər:

– Arvad, qoy bu sirr aramızda qalsın, nə varsa bu qutuda var, amma bu sirri heç bir kimsəyə demə.

İkinci gün tacir gəli, arvad, qutunu evdən çalar, tacirə veri, diyər:

– Bütün sirr bu qutudadı.

Tacir qutunu alı, yerə çalar, içinnən yeddi qərə adam çıxar, diyəllər: Əmr et, paşam!

Tacir diyər:

-Bu sarayı burdan qaldırın, yeddi dəryanın dibinə atın.

Sarayı qaldırıllar, yeddi dəryanın dibinə atıllar.

Oğlan gəli, baxar, nə saray var, nə də arvadı.

Padşah oğlanı çağırı, diyər:

– Sən qızımı istədiv, sarayıv harda qaldı?

Oğlan deyər:

– Padşahım sağ olsun, sən mənə qırx gün möhlət ver, qırx gün içində tapmadımsa, mənim başımı vur.

Padşah oğlana qırx gün möhlət veri.

Oğlanın bir pişiklə bir köpəgi vardı. Bular oğlana deyəllər:

– Sən qəhr etmə, biz səniv arvadıvı tapırığ?

Köpəklən pişik gedəllər, yeddi dəryanın dibinə enəllər. Baxallar saray içində tacirlə padşahın qızı yatıbdır. Pisik huskut-huskut qutunu çalar, köpəgə veri, oğlançın gətirəllər.

Oğlan qutunu yerə çalar, yeddi qərə adam çıxar, oğlan deyər:

– Sarayımı eyni yerinə gətirin.

Yeddi qərə adam sarayı eyni yerinə gətirillər. Tacirlə qızı tutallar. Padşahın əmri ilə ikisini də öldürüllər. Padşah qalxar o biri qızını oğlana veri, diyər:

– Oğlum, erkək olan öz sirrini satmaz, heç kimsəyə də deməz. Mən də getdim, mənə bir şey vermədilər.

PALANÇI QIZ

Varıydı, yoxuydu, məmləkətimizin birində bir palançı varıydı. Bu palançının üç qızı, bir dükanı, bir də bir evi varıydı. Bu palançı kərvənçilərçin yapdığı palanların əl haqqısıylə yaşamağını keçirirdi. Bu palançı edə bildi, işlədiği iştən yüz lirə yığsın. Yığdığı yüz lirəni yapdığı yengi bir palanın içinə qoydu. Günnərin bir günündə bir karvançı gəldi munnan bir yengi palan aldı. Palanı satannan sonra hiss etdi ki, yüz lirə qoyduğu palanı satıbtı. Munuçun çox qəhirləndi, heç bir kimsəyə də sirrini açmadı. Yalnız səbbəhtən axşama dəkin:

"Ketti də deməğ olmaz" diyərdi. İştə bu sözü gündə bir neçə kərə təkrar edən palançıdan munun mənasını soranda palançı: "deməğ olmaz"dan başqa heç bir cavab verməzdi.

Bir il keçdiğdən sora eyni palanı alan kərvənçi palanı gətirdi. Palan bir-iki yerdən yırtılıb sökülmüştü. Dedi:

– Ala, bu palanı, tik, doğurla.

Palançı palanı sevinə-sevinə aldı, dedi:

– Get, yarın gə, palanıy hazırdı. Karvançı gedəndən sora palançı palanı yırttı. İçinnən yüz lirəni çıxarttı. Bir məni kimin başladı deməğə:

Getti də deməğ olmaz,
İdti də deməğ olmaz.

Bir gün padşah palançının dükanı yannan keçirkən palançının mənisini eşitdi. İkinci gün genə keçti. Genə palançının dediği sözləri annamadı. Patşah palançıdan bu məninin mənasını sordu. Palançı "deməğ olmaz dedi". Patşah hər nağarta sorduysa, "deməğ olmaz" sözünnən başqa bir cavab almadı. Patşah daha fazla qızdı. Patşah palançıdan sordu, dedi:

– Neçə qazıy var?

Palançı dedi:

– Üç qızım var.

Patşah dedi:

– Yarın istərəm qızlarıy sarayım ögünnən keçsinnər.

Üçünü də ki cannı görüm.

Palançı patşaha dedi:

– Patşahım sağ olsun, olar qızdılar, necə olu iki cannı ossunlar?

Patşah dedi:

– Yarın oları iki cannı görməsəm, səniy boynuyu vurram.

Palançı qəhrli-qəhrli saraydan çıxdı, evinə getdi. Küçük qızı onu qəhrli görüncə dedi:

– Baba, nəçi qəhrlisən?

Baba dedi:

– Yarın patşah sizi ki cannı görməğ istiri.

Qız babasına dedi:

– Bu çox asanttı, sən üç paqranc vedrə al bizimçin, mən padşahı annadıram. Qızlər necə ikicannı olu.

Baba bazara getti, üç pağranc verdi, dedi özlərinə?

– Hər biriyiz kömnək altınnan qarnıiza bir paqranc bağlayın, sora bir yerdə patşahın qapısınnan keçəriğ. Patşah sorduysa neçə aydı ikicannısız böyük qıza işarət etti, dedi, sən sələ: üç aydı. Ortancı qıza işarət etti, dedi: sən sələ altı aydı. Mən də deyərəm doqquz aydı kicannıyam.

Hər biri qarınnarına bir paqranc bağladılar. Patşahın sarayı yanına gettilər. Böyük qız qabaqda, ortancıl qız ortada, küçük qız da arxada.

Qızlar saray ögünnən keçərkən patşah sordu:

– Palançı qızı, neçə aydın bəri ikicannısan?

Böyük qız dedi:

– Üç aydı.

Patşah dedi:

– Kövliy nə istiri?

Qız dedi:

– Xiyar turşusu

Patşah ortancı qızdan sordu, qız dedi:

– Altı aydan bəri. Kövlim də badımcan turşusu istiri.

Patşah kiçik qızdan sordu, qız dedi:

– Doquz aydan bəri. Kövlim də yeddi dənizin ortasında balığ qızartması istiri.

Patşah dedi:

– Yeddi dənizin ortasında necə balıq qızartması olu?

Küçük qız dedi:

- Patşahım sağ olsun, bə qız necə ikicannı olu?

Patşah üsküt oldu, qızlar də evlərinə döndülər.

Yarısı patşah yüz lirə bir kisəyə qoydu, bir elçiydən palançının evinə yolladı. Palançının küçük qızını istiri.

Elçi yüz lirədən iki lirə çaldıqdan sora qapını çaldı. Küçük qız qapıya çıxtı.

Elçi dedi:

– Nənəyi istirəm.

Qız dedi:

– Nənəm gedib biri gi etməğə.

– Böyük bacıyı istirəm.

– Böyük bacım qərəni bayaz etməğə gedip.

– Ortancı bacıyı istirəm.

– Otrancı bacım getti gül yığməğə.

Kişi dedi:

– Ala, bu kissəni patşah göndərdi.

Qız kissəni aldı, dedi:

– Padşaha sələ, adam adamçın qoç göndərsə, qoçu quyruğundan, yoxsa quyruğsuz göndəri?

Kişi qızın sözünnən bir şey annamadı. Döndü getdi patşaha bütün dinnədiğini dedi.

Padşah dedi:

– Biri iki etməğ, yəni əbəliğə gedib, pul qazanırıq.

Qərəni bəyaz etməğ, yəni üz almağa gedib. Gül yığməğə, yəni naqqış tikməğə gedib. Amma quyruğun kəsilsəsiysə, yəni lirələrdə əssigliğ var.

Bir neçə gün sora patşah palançının küçük qızını aldı. Amma qızla evlənmədi. Qız pərdədəykən bir neçə gün sora patşah gəldi. Qıza dedi:

– Mən "Çin" şəhərinə gedirəm. Döndüğüm zaman evlənniğ.

Padşah bir taxım əsgərlərini topladı, Çinə getdi. Padşah gedənnən sora qız da bir taxım əsgərlə və bir taxım arvad topladı. Padşahın arxasınca getti. Padşahın qonduğu yerin qarşığındakı çayın ətrafında çadırlarını qurdu. Əlbəbəsini dəgişti. Erkək əlbəbəsi girdi. Bir gün patşah munu şətrəng oynamağa çağırdı. Nə patşah munu tanırı, nə də padşaha kim olduğunu diyiri. Şətrənc oynadılar. Padşahı utdu, xəncərini aldı. İkinci oyunda padşah onu utdu, xəncərini geri almağ istədi. Arvad xəncəri vermədi, dedi:

– Mənim bir gürcü qızım var, mən munuydan evlənməmişəm. Yarın gecə səniyçin bu qızı göndərrəm.

Patşah onun dediğinə razı oldu. Arvad çadırına döndü, əlbəbəsini dəgişdi. Arvad əlbəbəsi girdi, bəzəndi, gecə patşahın yanına getti, padşahla yattı. Səbbəh olurkən çadırına gəldi. Bir neçə gün sora əsgərləriydən birliğdə öz məmləkətinə döndü. Patşahdan ikicannı oldu. Doqquz ay sora bir oğlu oldu. Adını qoydu Çin. Uşağı dayaya verdi. İki il sora patşah məmləkətə döndü. Bir neçə gün qaldıqdan sora genə gəzməğə çıxmağa qərar verdi. Pərdənin qapısında durdu, palançı qızına dedi:

– Mən Maçin şəhərinə gedirəm. Dönüştə evlənirig.

Patşah getdi. Getdiğdən sora arvad ta bir taxım əsgər topladı, "Maçın" şəhərinə doğru üzləşdi. Erkək əlbəbəsi girdi. Padşahın çadırı qanşarında çadırını qurdu. Bu dəfə də şətrənc oynadılar, patşahı utdu, təsbihini aldı. İkinci oyunda padşaha utuzdu. Padşah təsbihini geri döndərməğ istədi. Arvad vermədi, dedi:

– Bir gürcü qızıynən siğə etmişəm. Bəs bircə gecə onuydan yatmışam. O qızı səniyçin göndərrəm.

Padşah razı oldu. Arvat getti, əlbəbəsini girdi. Bəzəndi, gəldi patşahın yanına. O gecə padşahnan yattı. Səbbəh oldu, öz çadırına döndü. Əsgərlərini topladı, məmləkətinə getti.

Patşahdan ki cannı oldu. Doqquz ay sora bir oğlu oldu. Adını "Maçin" qoydu. Uşağı dayaya verdi. İki ildən sora padşah gəldi. Bir neçə gün qaldı, "Gül" şəhərinə gəzməğə qərar verdi, dedi:

– Mən "Gül" şəhərinə gedirəm, dönərkən evlənirig...

Bir neçə gün sora arvad eyni əvvəlki kimi etdiği işləri etti. Patşahı utarkən yağlığını aldı və eyni işləri yapdı. Öz məmləkətinə döndü. Doqquz ay sora bir qızı oldu. Adını Gül qoydu. Gülü dayaya verdi. Üç il sora padşah geri döndü. Pərdədə gözləyən gəlinini gördü. Onunla evlənmədi, əmisi qızı ilə evlənməğə qərar verdi. Palançı qızını aldattı.

Patşah toyun yapılmasını istədi. Davul, zurna çalındı. Hər kəs sevindi. Palançı qızı daha munnan fazla dayana bilmədi. Üç uşağını gətirdi. Böyügün əlinə xəncər verdi, ortancının əlinə təsbeh, qızın da əlinə yağlığ verdi, dedi:

– Padşah babayızın ögünnən keçin, nələyin:

– Çin, Maçin tutağın Gül bacımızın əlinnən, gedəğin bək babamızın toyuna.

Uşaqlar bir-birlərinin əlini tuttular, padşahın ögünnən keçtilər, bu sözləri deməğə başladılar.

Padşah bunları eşidincə, xəncərini, təsbehini, yaylığını da görüncə dedi:

– Hanı nənəyiz?

– Ordadı nənəmiz.

Padşah uşağları aldı, nənələrinin olduğu hücrəyə getti. İştə patşah o zaman bildi, özüydən şətrənc oynuyan, bu uzun müddətə özüydən üç kərə yatan palançı qızıydı. Padşah palançı qızına dedi:

Yeyib içənnən sora,
Qonub keçənnən sora.
Qəlyanı qoy gözlüyə,
Vəxti keçənnən sora.

Padşah toyu dağıtdı. Üç uşağı olduqdan sora palançı qızıydən evləndi.

QİSMƏT

Bir kişi kasıf olur, gecə-gündüz çalışır, güzəranı düzəlmir ki, düzəlmir. Axırda deyir ki, mən daha işə-zada gedən deyiləm, əgər mənim qismətim olsa, yatdığım yerdə gəlif məni tapar.

Kişi bir gün yatıf yuxuda görür kü, bir ağacın altında bir küp qızıl var. Duruf yuxusunu arvadına danışır. Arvad nə qədər kişini dannıyırsa, a kişi dur get qızılları çıxart gəti, kişi heş yerinnən tərpənmir. Deyir:

– Əgər qızıllar mənim qismətim olsa, özü gəlif məni evdə tapar.

Arvad çox hirsdənir və bu məsələni qonşusuna danışır. Qonşunun arvadı tez ərinə xəvər verir ki, bəs filan yerdə qızılla dolu küp var, çıxart gəti.

Qonşu eləməyif tənbəllik yüyürür ora, ağzı bağlı küpü çıxarıf evinə gətirir. Evdə küpün ağzını açıf nə görsə yaxşıdı. İçi dolu ilan-çayan. Tez ağzını bağlıyır. Qonşu deyir:

– Yaxşı, indi ki, onnar məni ölümə göndərmək istəyillər, bu küpü mən onnarın təpəsinə tökərəm.

Qonşu küpü götürüf çıxır, həmin küpü nişan verən qonşunun damına. Görür kişi yatıf. Deyir ki, sən öl, düz bunun təpəsinə tökəjəm.

Küpü boşaldır, düşüf qaçır. Kişi görür, budu yuxuda gördüyü qızıllar təpəsinə tökülür, arvadı çağırıf deyir:

– Hə, arvad, gördün qismət belə şeydi, Allah bizimkini yetirdi.

HÜSEYİN COŞKƏRİN NAĞILI

Biri vardı, biri yoxdu, Hindistanın Himayin vilayətində Əkbər Himayin addı bir şah yaşıyırdı. Şah bir gün vəzir-vəkilini çağırıf başına yığdı ki, bu xudapərəstlər bütün dünyanı tutuflar. Amma mənim bu qədər güclü ordum var, yenə də İslamın kökünü dünyadan kəsə bilmirəm. Şah diyir ki, bir xəritəyə baxın görəh almadığım hara qalıf. Vəzir-vəkil diyir ki, şah sağ olsun, bəs müsəlmannar yaşıyan Güney Azərbaycana, İsfahana, Xorasana, Təbrizə qoşun çəkməh lazımdı, horalarda da İslam dini çox güclü yayılıf. Şah didi:

– Mən bilmirəm, o yerlər də tezlihlə zəbt olunmalıdı. Vəzir-vəkil gördü ki, işlər şuluxdu. Şah yaman hirslənifdi. Didilər ki, "şah sağ olsun, dörd qardaş pəhləvan var. Hərəsini bir qoşunun başında qoy. Hər qoşunu bir şəhərə göndər tez alınsın". Bu pəhlivannardan birinin adı Bədiraslani Xətayi, obirinin Əştərxani Xətayi, digəri Kirimküşnən Qaraçıxan idi. Şahın əmri ilə pəhlivan qardaşdarı onun hüzuruna çağırdılar. Pah, pəhlivan, nə pəhlivan. Dördü də uca bir dağa bənziyirdi. Şah qardaşdara məqsədini bildirdi. Pəhlivanlar razılaşdılar. Axırı Kirimküşdən Qaraçıxanı Xorasana göndərdilər. Bədiraslani Xətayini Təbrizə, Əştərxani Xətayini İsfahana göndərdilər. Qoşun gəlif şəhərlərin ətrafını üzüh qaşı kimi mühasirəyə aldı. Bular burda qalsın, görax Təbriz vilayətinin şahı Abdulla şah nəqayırır. Abdulla şahın da bir güclü qoşun sərkərdəsi var idi. Honun adı pəhlivan Nəsih Düyməbənd idi. Təbrizə gələn şər-xətanın qarşısını ancax Nəsih Diyməbəndin gücü ilə xilas edirdilər. Abdulla şah pəhlivanını çağıtdırıf didi:

– Hə, hindi nə diyirsən. Budur bax, qoşun gəlif şəhəri üzüh qaşı kimi mühasirəyə alıfdı. Di görüm, sən bu şəhəri müdafiyə edə bilərsən, ya yox?

Pəhlivan didi:

– Şah sağ olsun, mən bu şəhərin sərkərdəsiyəm. Bu vilayətdə ən güjdü pəhlivan sayılıram. Mən ölərəm, amma

vətənimi düşmana vermərəm. Şah sağ olsun, biz müharibəni başlamışıx. Allah ya olara verər, ya da bizə. Razılaşırlar. Nəsih pəhlivan şaha müharibəni başlamax haqqında söz versə də, amma düşman haqqında məlumat almax üçün qəsdən gecihdirirdi. Nəsih şah bilirdi ki, Bədiraslani Xətayiyə gücü çatmıyacax, ona görə də müharibəni bir az yubadırdı. Bədiraslani Xətayi də gecələr öz adamları ilə gizlincə şəhərə girif yolu-izi, münasibətdəri öyrənirdi.

O vaxlar Təbriz şəhərinin 4 qapısı oluf. Camahat şəhərdən çıxanda da, şəhərə daxil olanda da o qapılardan girif çıxardılar. Qapılar axşam olanda bağlanardı. Müharibə başlanandan soram darvazaları möhkəm-möhkəm bağlıyıf gözətçilər qoydular ki, gedif-gələni yoxlasınlar. Beləlihlə, bir neçə ay iş davam elədi. Bədiraslani Xətayi xəvər göndərirdi ki, ya təslim olsun, ya da müharibəyə başlasın. Nəsih Düyməbənd yenə də müharibəni gecihdirdi. Bədiraslani Xətayi də öz növbəsində kəşfiyyatını davam edirdi. Gecələr kəmənd atarax şəhərə daxil olur, soyğunçulux edir, obyektləri öyrənir, gündüzlərsə libaslarını deyişif şəhərə girir, camahatla ünsiyət quruf fikirlərini öyrənirdilər. Şəhər əhli belə bir gərgin vəziyətdə qalmaxda olsun, sizə kimdən xəvər verim, Kövsər dağında yaşıyan bir iyiddən. Hasan xanın Kövsər dağında malqoyununa baxan bir çovanı var idi. Buna qara Hasan diyirdilər. Qara Hasanın 3 oğlu var idi. Arvadının adı qara Fatma idi. Bular ömürlərini-günnərini dağda-daşda qoyun-quzu, maldarlıxla məşğul olmaxla keçirmişdilər. Şəhər-məhər görməmişdilər. Vax-vaxdan Hasan xan, mal-qoyun saxladıxları üçün buların haqqını verirdi. Buların kiçih oğlanlarının adı Hüseyin idi. Hüseyin çox güjdü-qüvvətdi, yarlı-yaraşıxlı, 7 qoyun dərisindən tikilmiş papax başında iyid bir oğlan idi. Dünyada heş bir iyiddə görünmiyən qüvvətli bir bədəni olur. Diyirlər ki, çöldə-izdə qoyun-quzunu otaranda, hona sürünü qorumax üçün it-zad lazım deyilmiş. Sürüyə hücum edən canavarı tutuf başbaşa vuruf məhv edirmiş. Bir gün Həsən xan Qara Hasanın

üstünə adam göndərdi ki, bəs payız yaxınnaşır, ola bilsin müharibə də başlıya, qışlağa heyvannar göndərsin ki, ehtiyatımızı görax Qara Hasan çoxlu qışlıx heyvanlar seçif ayırır ki, göndərsin. Bi vaxtı Qara Hasanın kiçih oğlu Hüseyin ortaya çıxıf diyir ki:

– Ateyi-mehriban, yaman şəhər-şəhər diyirlər, mən heş bilmirəm o nə olan şeydi. İcazə ver, qoyunnarı mən aparım, həm də şəhəri görüm. Atası oğlunu çox istiyirdi. Buna görə çar-naçar oğluna izin verdi. Hüseyin Hasan xanın adamları ilə qoyunu sürüf gətirdilər. Şəhərin darvazasına çatanda Həsən xanın adamlarını buraxdılar. Hüseyini azman görüf elə bildilər ki, Bədiraslanı Xətayidi, ona görə buraxmadılar. Hasan xanın adamları nə qədər didilərsə, alınmadı. Hüseyin soruşdu ki, bu nə məsələdi, bunu başa saldılar ki, bəs məsələ filandı. Hüseyin yalvardı ki, mən Qara Hasanın oğlu, Hasan xanın da çovanıyam, gəlmişəm qışdığa, qoyun gətirmişəm ətdiyə. Hüseyin gördü ki, buları başa sala bilmiyir. Dala durdu, qavağa getdi, qapıya bir təpih ilişdirdi ki, darvazaların ikisidə kökündən çıxıf düşdü yanı üstə. Diyilənlərə görə, o vaxt darvazaları iki nəfər açıf, bağlıyırdı. Gözətçilər onun qabağını kəsməh istiyində Hüseyin hərəsinə bir təpih ilişdirdi ki, hərə bir yana düşüf, dərbədiyar oldular. Axır bir təhər onu gətirdilər Hasan xanın yanına, yol boyu azmanlığına güldülər. Hasan baxdı buna, düşündü ki, ya Rəbbi Allah, buna belə bir boy-buxun verifsən, güc verifsən, nolaydı bir də ağıl və dünyagörüş verəydin. Hasan xan baxdı ki, bu oğlan döyüş-zad görməsə də, yaxşı güclü-qüvvətdidi. Sadəcə fənd öyrətməh lazımdı. Tez Nəsih Düyməbəndi çağırdı, dedi ki:

– Nəsih, bu oğlana yaxşı fikir ver. Nəsih pəhlivan gördükü, pah, oğlan nə oğlan, zəhmi-heybətindən dünya titriyi. Başı buluddan, ayağı yerdən nəm çəkir. Nəsih pəhlivan Hasan xana diyir ki, Hasan xan, buna yaxşı fənd öyrədə bilsən, bundan çox gözəl pəhlivan olar. Mən bilirəm, mən ya öləcəm, ya da əsir gedəcəm. Hasan xan didi:

– Bəs onda neyniyəh.

Nəsih pəhlivan diyir ki:

– Honu yaxşısı budu göndərəh Hasani-piyandazın yanına. Hasani-piyandaz pəhlivannara təlim öyrədən məlim idi. Məsləhətləşif bunu Hasan Piyandazın yanına göndərdilər. Nəsih pəhlivan bunun o qədər xoşuna gəlmişdi ki, çatan kimi gördü ki, bu şəhərdə bir dənə mərd insan varsa da yoxsa da ki, o da Nəsih Düyməbəndi. Rəvayətə görə, Nəsih Düyməbənd həm camalca çox gözəl insan idi, həm də çox qoçax pəhlivan idi. Təəssüflər ki, Bədiraslani Xətayidən gücdü deyildi. Bu, şərt kəsdi ki, mən Hasani Piyandazın yanında gündüzdər olsam da, gecələr Nəsihin yatdığı otaxda yatmalıyam. Nəsih də buna çox şad oldu. Düşündü ki, oğlan bir az da məndən tərbiyələnər, məndən görər, götürər. Beləlihlə, bir ilə qədər vax keşdi. Bi günnəri Bədiraslani Xətayi şəhərə girmişdi. Günüz idi. Nəsih də çıxmışdı şəhəri gəzsin, şəhərin asayişinnən məşğul olsun, görsün nə var, nə yox. Gördü ki, orda 3 nəfər qəribə adam dayanıfdı. Gəlif buların yanına çatanda salam verdi Bular da onun salamını aldılar. Bədiraslani Xətayi hordaca bunun geyimindən, keşimindən hiss elədi ki, şəhərin pəhlivanı budu. Didi ki, "gözəl insan, sən Nəsih Düyməbənd deyilsən ki?" Didi:

– Bəli, Nəsih Düyməbəndəm. O vaxı pəhlivannarın birbirlərini sınamax üçün zordaşdarı olurdu. Metaldan düzələn pul kimi bir şey idi. Çıxartdı verdi Nəsihə. Nəsih başa düşdü ki, Bədiraslani Xətayidi bu. Nəsih aldı iki barmağının arasına, sıxdı, gördü bir şey eliyəmmədi. Utandığından yerə saldı. Bədiraslani Xətayi kinayənən, istehzanan dedi ki, gözəl pəhlivan, axı siz pəhlivannıx qanununu bilirsiz. Pəhlivan pəhlivanın zordaşını yerə salmaz. Gücün çatmadı, qaytar özümə ver. Didi:

– Çox üzr istiyirəm, mən bilmədim, əlimdən sürüşdü, yerə düşdü. Əyildi Nəsih zordaşını götürüf Bədiraslani Xətayiyə verdi. Və öz zor daşını çıxarıf ona verdi ki, o da

sınasın özünü. Bədiraslan Xətayi bunun zor daşını aldı iki barmağının arasına qoydu, əzdi, tozunu göyə sovurdu. Nəsih Düyməbənd baxdı gördü ki, yox, buna gücü çatası deyil. Amma məğlub da olmaq olmaz. Pəhlivan döyüş meydanında həlak olmalıdı. Artıx bular bir-birinin sözünü sınadı. Nəsih gəldi Hasan xanın yanına. Didi,

Hasan xan, artıx bundan sohra gecihdirməx mümkün döyül. Adamnan biz bir gün görüşdüh də, bir-birimizi sınadıx da. Müharibəni başdamalıyıx. O vaxdı meydannar vardı. Ona Payçırax diyirdilər. Payçırax o deməh idi ki, yəni şamlar yanardı, lampalar yanardı, hər yer işıxlanardı. O zamanın qanunnarına görə pəhlivannar havayı qan tökülməsin deyə, günahsız insanlar ölməsin deyə, pəhlivannar təkbətək qarşılaşmalı olardılar. Əgər hansı hansına qələbə çalırdısa, şəhər Rəsulu olardı. Təslim olmasa müharibə başdıyardı. Nəsih də çıxdı payçırağa. Şeypurları səsə saldılar, Bədiraslanı Xətayiyə elan verdilər ki, ey Bədiraslanı Xətayi, mənəm Nəsih Düyməbənd. Payçıraxda sənin qədəmlərini gözdüyürəm. Mən səni müharibəyə çağırıram. Əgər kişisənsə, qılıncına sarıl, sınaxdan keş, Allah ya sənə verər, ya mənə verər. Bədiraslanı Xətayinin adamları dağın damənində bir mağara yeri tapmışdılar. Şeypurrarın səsi bunun qulağına çatdı. Didi:

– Ya gözəgörünməz Allah, bu gün oddan qisas alan gündü, sən mənə qüvvət ver. Bu gün görüm necə eliyirəm mən. Gəlif mənzil başına yetişəndə gördü ki, 40 nəfərdi. Gördülər Payçırax yanır, Nəsih Düyməbənddə oturuf bir taxdın üstündə. O qədər gözəl, o qədər yaraşıxlı oğlan idi ki, o qədər şamlardansa bu daha çox işıx salırdı Payçırağa. Bu gəldi salam verdi. Nəsih bunun salamını aldı. Didi:

– Fürsət kimindi? Didi:

– Biz Xudapərəstik. Xudapərəstdərin ağası tapşırıf ki, fürsəndi birinci düşmənə verəh. Sora əgər fürsət qalarsa biz də öz işimizi görərih. Qalmazsa da, bizi yaradan bir Allah var, Allah kimə nə yazıfsa, o da olacax. Didi:

– Ya Nəsih, mənim sənnən çox xoşum gəldi. Sən çox iyid, cəsarətdi, qorxmaz bir oğlansan. Amma sənə heyfim gəlir. Sən gəl könüllü təslim ol. Səni aparım, Əkbər Himayin səni böyüh bir qoşunun sərkərdəsi qoysun. Sən mənim əlimdə zəbun olassan. Heyfim gəlir sənə. Didi:

– Mən döyüş meydanında həlak olmağa razı olaram, amma bütün dünyanın şahı olmağa belə razı olmaram, təslim olmaram.

Didi:

– Onda icazə ver, mən fürsəndi sənə verim. Bilirəm, sən mənim qılıncımdan can qurtaran deyilsən. Amma sənin bu cılız bədəninlə mən bilməh isdəyirəm ki, hansı gücnən sən bu böyük şəhərə sahiblih eliyirsən?

Fürsət birinci Nəsihə düşdü. Nəsih üç dəfə qılıncını endirdi Bədiraslanı Xətayinin qalxanına heş iz də eliyə bilmədi. Fürsənd gəldi Bədiraslanı Xətayiyə. Bədiraslani Xətayi ya Latimənat diyif, qılıncı Nəsihin kəlləsindən endirəndə bunun qalxanını iki yerə parçalandı. Əmudu başının dəbilqəsini kəsdi, dörd barmax bel sümüyünə işlədi qılınc. Və Nəsih yıxıldı. Amma xəlvətcə Nəsih döyüş meydanına gələndə öz yoldaşı Xətayə xanıma da tapşırmışdı. Hasani Piyandaza da tapşırmışdı ki, Hüseyn çox dəliqanlıdı, bildirmiyin ki, müharibəyə gedirəm. O məni çox isdiyir. O, mənim dalımnan gələr, döyüş qaydasını bilmir, qılınc oynatmağı da bilmir. Onu öldürərlər, şəhər yiyəsiz qalar. Amma Hüseyin oğurranıf gəlif qıraxdan buların bütün gedişatına qulax asırdı. Eşitdi ki, Nəsihi vurdular, Nəsih yıxıldı. Hüseyn də o qədər böyüh idi ki, buna paltar tapa bilməmişdilər. Birdən ortalıxdan kimsə çıxıf Nəsihi qoltuğuna vuruf aradan çıxdı. Hamı çaş-baş qaldı ki, bu nə idi, kim idi, gəldi bunu apardı. Hüseyn elə buraya gəlif Nesehi götürüf tezcə də qaçıf getmişdi. Bədiraslani Xətayi çox peşman oldu ki, mənim ovum bu dəfə yaralı qaşdı. Gələn dəfə sən mənim fürsəndimi əldən vermə. Aşdılar barıdan çıxıf getdilər özdə-

rinin dalınnan. Nəsihi yaralı gətirdilər. Həkim loğman töküldü bunun yarasını sarıdılar. Bu komada qaldı. Bir neçə günnən sora özünə gəldi. Və yavaş-yavaş danışmağa başdadı. Dünyanın ən yaxşı loğmanları düşmüşdülər bunun malicəsinnən məşğul olmağa. Hüseyində məşqə-zada getmiyif, böyründəcə dayanır bunun. Gecə-günüz yatmır. Nəsihə qarovul çəkir. Nəsih də yavaş-yavaş özünə gəldi ki, duruf gəzməyə başdadı. Hüseyin fikirrəşdi ki, o gecə gördühlərini gedif əmr elətdirif düzəltsinlər. Mənim ağamı bu günə salan adamı gərəh diri-diri parçalayam. Nəsih onu başa düşdü. Gördü, bunun fikri gəzir, Xətayə xanımı çağırdı. Didi ki, Hüsiyinin qırımınnan qanmışam ki, o gedəcəh. Bədiraslani Xətayini çağıracax, gedəcəh və heyif olacax. Get, adam tap. Hasani Piyandazi göndər mənim yanıma. Hasani Piyandaz gəldi. Didi:

– Nəsih, nə xəvər var?

Didi:

– Hüsiyinin qırımınnan qanmışam, qorxuram o gedə Bədiraslan Xətayini çağıra, ona da belə bir fürsət lazım idi. Bu məhv olar, heyifdi.

Didi:

– Onda bir qandal tap, gətir Hüsiyinin qoluna sığışsın. Adi insana vurulan qandal Hüsiyinin qoluna sığışmıyacax. Tez bir qandal düzəltdirdilər. Hüseyinin qolundan Nəsihin qoluna birləşdirif bağladılar. Hüseyin soruşdu:

– Ağa, bu nə üçündür?

Didi ki, "sən yatırsan, yuxuluyursan, heyfim gəlir, səni oyatmağa, həm də gücüm çatmır, səsim çatmır səni oyatmağa. Ona görə ki, bunu bağlamışam, qolumnan səni dartacam ki, xəvərin olsun.

Dedi:

– Mənə su lazımdır. Və yaxud başqa şey lazımdır, sən də verəsən.

Bu heş nə dimədi. Ürəyinnən keçirdi ki, baxma, ağlıkamalı olan oğlandır. Başa düşdü ki, bunnar bunun qırımınnan

gedəcəyini duyuflar. Ona görə də qolunnan bağlıyıflar ki, qaçıf gedə bilməsin. Ürəyində didi ki, nə istəsənız edin. Amma mən öz istəyimə nail olasıyam. Beləcə uzanıf bunun böyründə yatdı. Bir neçə gün beləcə keşdi. Nağıl dili yüyrəh olar diyirlər. Bir günnəri gördü ki, Nəsih elə yatıf, elə yatıf, yuxu onu lap əməli-başdı huşa aparıfdı. Yavaşca barmağının ucundakı düyünü açıf dəmiri əydi. Güc verif onu burdu və beləcə aradan çıxdı. Bəli, əzizlərim, Hüseyin Nəsihi yuxuya verif qandalı qolundan çıxarıf, getdi Payçırağa. Payçıraxlılar gördülər ki, bir əcayib şey gəldi, didilər, görəsən, bu kimdi? Didilər:

– Nəsihi götürüf qaçandı. Bu kimsə, bəni-adəmdir. Hamı təccüf etdi, yəni bu odu, dedilər. Biri didi ki, o gecə neyləmişdilərsə, Nəsihi yaraladılar. Hər ağızdan bir avaz gəlird. Mən bilmirəm, neyləməh lazımdı. Onun hamısın deyin, eləyim. Didi, bəs kimi çağırax? Didi, o gecə mənim ağamı yaralıyan adamı çağırın, gəlsin bura. Mən ağamın qisasını alacağam. Didilər, a kişi, etmə, eləmə. Hüseyin hirslə didi, mən sizə nə diyirəm, honu da eləyin. Yoxsa bu Payçırağı kökünnən qazasıyam. Gördülər bunun öhdəsinnən gəlməh mümkün döyül. Payçırağı qoşdular, şeypurrarı işə çaldılar.

Ey Bədiraslani Xətayi, mənəm Hüseyin Goşkər. Keçən dəfə nəsihi yaralamağına baxmayarax səni döyüş meydanında gözdüyirəm. Əgər oğulsansa, sarıl qılınca, gəl meydana. Arvadsansa, get arvadının yaylığını bağla başına, otur evində. Bədiraslani-Xətayi bunu eşitdi. Hüseyin didi:

– Ya şahi-mərdan, sən mənə köməh ol. Sən mənə qüvvət ver, ya şahi-mərdan.

Bədiraslani Xətayi qırx yoldaşıynan barıdan aşıf, kəmənd atıf gəldilər, gördülər ki, bir əcayif şey oturuf orda. Didi, kimdi burda bizi çağıran. Didilər, bax bu oğlandır sizi çağıran. Didi:

– Oğlan, bədənnən-başdan zəyif bir şeysən. Görürəm heş pəhlivan geyimin-keçimin də yoxdur. Sən mənnən necə

vuruşacaxsan?

Didi:

– Əvvəla, qanacağın-mərifətin olsun. Adam adama salam verər gələndə"

Bədiraslani-Xətayi ədəbaz-ədəbaz didi ki, axşamın xeyir, qüvvətnən de. Kimin qüvvəsi çox olsa, onun axşamı xeyir olacax. Sən cavansan, gözəl insansan, amma baxıram ki, vəhşinin birissən. Sən burada məhv olacan. Gəl səni aparım Əkbəri-Himayinin yanına. O sənə təlim keçər, savad öyrədər, dünyagörüşün artar. Onnan pəhləvanlığın qaydalarını öyrənərsən. Əvəzində də böyük bir şəhər bağışlayar sənə. Gəl burda özünü məhv eləmə. Öz istəyinlə mənə təslim ol, gedax.

Didi:

– Kişinin dilinə dəng vermə, kişisənsə əlinə dəng elə.

Didi:

– Yaxşı, fürsət kimindi? Hansımız başlayacağıx birinci.

Didi:

– Mən Nəsih deyiləm ki, cücə kimi sənin qabağında sınam. Sən də qılıncı mənim başımdan yendirəsən. Sən qılıncını sıyır ordan gəl, mən də burdan. Kimin ağası qoçax olsa, birinci o vuruşacaxdı. Bədiraslani-Xətayi didi, ə, bu heş döyüş qaydasını bilmir ki? elə bir qılıncnan bunu məhv eləcəyəm ki, məcbur oluf çıxıf gedəcəh. Hərə bir tərəfdən qılıncını sıyırdı, meydanın başından bir-birlərinə hücum çəhdilər. Bədiraslani-Xətayi qılıncı göydən endirənə kimi Hüseyin Çöşkər qılıncı ortasınnan çaldar-çaraltı kimi onun ortasınnan iki yerə ayırdı. Yarısı bu yana düşdü, yarısı başqa bir qırağa. Hüseyin Çöşkər çox keşmədi bütün qoşunu qırğı kimi qırdı qutardı. Yerdə qalan bir-iki nəfərə didi ki, “gedin şahınıza diyin, hazır olsun gəlirəm. Nəsihin başınnan bir tük əskik olsa, torpağında bir daş da qoymaram”. Sora da gəldi, Nəsihi versin. Gördü ki, Nəsih bi yatıf, bi yatıf, istədi qılıncı onun yanına qoysun, amma nədənsə tərsinə qoydu. Qılınc da onun qınına girdi. Çox keşmədi, bi də gördü ki, camahat bir-

birinə göz aydınlığı verir. Hüseyin öncədən tapşırmışdı ki, qələbə Xətayə çalsa belə Nəsihin adına bağlansın. Nağıl dili yüyrəh olur, diyirlər. Hamı danışırdı ki, bəs Nəsih Bədiraslani-Xətayini qırx qulduru ilə birgə məhv edif. Bi vaxı Xətayə xanım gəldi gördü ki, Nəsihlə Hüseyin yatıflar. Tez Nəsihi durquzuf didi ki, bu nə olan işdi. Necə oldu qalib gəldi.

Nəsih didi:

– Mən Allahıma, bi də gücümə inanırdım. Bu dəfə də Allahım mana verdi. Xətayə xanım buna nə oluf belə, kimdi bu, – diyə Hüseyini göstərdi. Nəsih baxdı gördü ki, Hüseyin qan içində yanındaca uzanıfdı. Didi ki, Xətayə xanım bu çox güjdü adamdı, sakit danış. Durar hirsdənif qanımızı qəltan eliyər. Əsas odur ki, bəladan canımızı qutarıf. Çox keşmədi, şah vəzir-vəkili ilə gəldi. Hüseyin ona kimi özünü toxdadıf başına papağını qoyuf ayağa durdu. Ay Nəsih, bu nə olan şeydi belə. Baxın bu oğlanın sayəsində xilas olmuşux. Hüseyin də özünü eşitməməzdiyə vurdu. Beləcə aradan bir qədir vaxt keşdi. Hasani-Piyandaz Hüseyin Çöşkərə dərs keşdi. Hüsiyinə yavaş-yavaş təlim keçə-keçə pəhləvanlığın sirlərini öyrədir, məqam düşduxca onu yaxşı gücdü pəhləvannarla güləşdirirdi. Bi vaxı İsfahan şahı Təbriz şahına məytuf göndərdi ki, bəs, Həştərxani-Xətayi elində bi başıpapaxlı da olsun qoymayıfdı Nəsih gəlsin bizə köməh eləsin. Nəsih düşündü ki, ə, Bədiraslani-Xətayidən Həştərxani-Xətayi qat-qat güjdüdü. Mən ona heş nə eliyə bilmədim, bəs buna neyniyəciyəm. Amma düşündü ki, bu məytuvu cavabsız qoymax olmaz. Yığdı camahatı başına didi ki, məni İsfahan şahı köməyə çağırıf, getməliyəm. Meydannan qaçmax olmaz. Mən bilirəm, bu mənim axırıncı gedişimdi. Arxaya yol yoxdu. Xətayi xanım didi ki, Nəsih nə qədər ki, sağdı, o, mənim otağımda yatsın, onun xətrinə dəymə. Nə qədər yeməh istiyir verin yesin. Nə badə onun yiməyini kəsəsiz. Onda hirslənəceh. Onu incitmə, çünkü bu şəhərin sahibi o olacax. Hüsiyinə diyir ki, Hüsiyin, mən səni oğulluğa götürmüşəm. Bu günnən sən mənim

oğlumsan. Bu şəhəri də sənə etibar edif gedirəm. Xətayə xanımı da bir ana kimi sənə tapşırıram. Söz ver ki, onları qoruyacaxsan. Hüseyin buna bərh-bərh söz verdi ki, sənin vəsiyyətdərini mən qulağımda həmişə sırğa edəcəm. Amma sənin başınnan bir tük əskik olsa, sənə and içirəm ki, başının bir tükünə min nəfəri öldürəcəm. Axır vidalaşdılar, halallaşdılar, Nəsih atdan giyinif üstdən qıfıllandı, üstdən giyinif altdan qıfıllandı və beləcə yola düzəldi. Nağıl dili yüyrəh olar, diyirrər. Bi neçə vaxdan xəvər gəldi ki, bəs Nəsih əsir götürülüfdü. Hüseyin möhkəm hirsdəndi. Yola düzəlməh istiyəndə bunu buraxmadılar. Çünki döyüşə tam hazır deyildi. Amma buna baxmayarax, Hüseyinə göyçəh paltar tikilmiş at, yarax-yasax da hazırlanmışdı. Bir neçə vax ərzində Hüseyin yaxşıca təlim-tərbiyə keşdi. Bular burda qalsın, sizə kimnən xəvər verim, Hüseyinin atası Qara Həsənnən. Qara Həsən oğlannarını başına yığıf diyir ki, bəs eşitmişəm ki, Hüsiyin gedif Həsən xanın vilayətində ad çıxarıf, pəhləvannıx edir. Bizi isə burda qoyufdu, qoyunumuzu-quzumuzu canavar yiyif axırına çıxır. Ya gedin qardaşınıza deyin ki, gəlif çovanlığını eləsin, ya da Hasan xana diyin ki, var-dövlətini bizə tapşırıf, it-bat olsa, ona cavaf verəsi deyilih. Axır qardaşdar tədarük görüf atasının tapşırığı ilə yola düzəldilər. Dərə-təpə yol keşdilər, dağ aşdılar, axırı gəlif həmən Təbriz darvazasının yanına çatdılar. Amma nə elədilərsə gözətçilər onları içəri buraxmadılar. Sən dimə bu vaxı Nəsih pəhlivan əvvəllər şəhəri gəzən kimi Hüseyində bu qaydada şəhərə çıxmışdı. Camahat isə onun pişvazına durmuşdular. Elə ki, Hüseyin şəhəri gəzə-gəzə gəlif çıxdı darvazanın ağzına, baxıf gördü ki, qardaşdarı burda acsusuz qalıflar. Öncə qardaşdarı bunu tanımadılar. Gözətçilərdən soruşdu ki, bu nə olan işdi. Buları niyə buraxmırsız. Oğlannar Hüseyinə baxıf didilər ki, bəs biz Çöşkər dağınnan gəlmişih qardaşımız Hüseyinin yanına. Hüseyin qardaşdarına didi:

– Siz məni tanımadınız, mən sizin qardaşınız

Hüseyinəm. Qardaşdar öpüşüf-görüşdülər. Gözətçilər qapını onnarın üzünə aşdı. Qardaşdarın biri Hüseyinin sağında, biri solunda şəhərə gəldilər. Hüseyin şəhərə ilk gələndə lağa qoyulduğu kimi hindi də camahat onun qardaşdarını lağa qoydular. Hüseyin hamıya acıxlandı ki, bəs bular mənim qardaşdarımdı, nolufdu sizə. Birinə bir barmağı ilə balaca bir sillə vurdu, birinə bir qapaz qoydu, hərə bir yana dərbədiyar oldu. O, Xətayi xanıma xəvər göndərdi ki, aşbazlara xəbər ver, yeməh hazırlasınlar. Aşpazlar aş hazırladılar. Qardaşdar süfrəyə oturdular. Qardaşdar ömründə aş yimədihləri üçün öncə təəccüf etdilər. Elə bildilər ki, qavaxlarına qoyduxları qurddu. Xətayə xanım gördü bular yimax yimir, məsələni anladı. Onnara yiməy haqqında məlumat verdi. Axırı hərəsi bir tərəfdən yiməyə girişdilər. Hüseyin həmişə olduğu kimi məcməyini götürüf ağzına sirkələdi. Beləcə hərəsinə yeddi qazan yedilər. Bir neçə gün bular burda qaldı. Bir gün Hüseyin gəldi Hasan xanın yanına ki, şah sağ olsun, mən ayləmi şəhərə gətirmax istiyirəm. Yaxşı olar ki, siz, qoyun-quzuya çobanlıx eləmağa adam tapasız. Razılaşıllar. Tez adam göndərif bunun külünkülfətini yığıf gətirillər. Gözəl bir imarət də verillər. Axırı Hüseyinin səsi-sorağı hər yerə yayılır. Bir gün İsfahan şahına xəvər gəlir ki, bəs düşmən burnumuzun ucuna çatıf. Nəsih əsir alınıf onun əvəzinə sən gəl bizi xilas et. Amandı, daddı, bəs yaman günümüzdü, durma gəl. Hüseyin yerinə pəhləvannardan birini qoydu. Yola hazırlığa başdadı. Bunun başına yol ərəfəsində çoxlu adam yığışdı. Xətayə xanım aşbazlara yimaxlar hazırlatdı. Amma nədənsə bu dəfə yiməh Hüseyinin xoşuna gəlmədi. Düz gəldi hərəmxanaya hirsinnən Xətayə xanıma bir sillə vurdu, onun başı dəydi divara, elə yerindəcə qaldı. Tez Hüseyinin qarşısına aldılar, didilər ki, belə şey olmaz. Nəsih Xətayə xanımı sənə tapşırıf, o sənin anan hesab olunur. Bəs etmə, eləmə. Tez Xətayə xanımın yarılmış başını sarıdılar. Hüseyin də hikkəsindən heş kimnən görüşmədən yola düzəldi. Bəli, dağ-dərə aşdı, axırı çatdı İsfahana. Həştərxani-Xətayiyə

xəvər çatdı ki, Hüseyin gəlir. Hüseyin Həştərxani-Xətayinin adını eşitmişdi. Amma onu o qədər də şücayətli, bacarıxlı olduğuna inanmırdı. Hüseyin gəlif şəhərə daxil oldu, hamı onun pişvazına çıxdı. Birbaşa şahın hüzuruna apardılar. Hüseyin şaha ədəblə salam verib didi:

– Şah sağ olsun, hüzurunuzda hazıram.

Şah didi:

– Xoş gəlif, səfa gətirifsən. Amma görürəm tək gəlifsən. Bəs sən tək bu boyda düşmənə nə çarə edəcəhsən. Hüseyin diyir ki, şah sağ olsun, ağıllı sərkərdə nə ordusunu, nə də xalqını qırdırmaz. Arxasınnan sizin nə işiniz var, çağırfsız, mən də gəlmişəm. Yerdə qalanı mənim boynuma. Şah razılaşır. Axırı iki pəhlivan meydanda qarşılaşırlar. Həştərxani-Xətayi Hüseyinlə salamlaşır. Hüseyin ona diyir:

– Sizin də axşamınız xeyir. Bilirsən ki, axşamın xeyir niyyətə bağlıdır. Kimin niyyəti xeyirdirsə, qoy onun axşamı xeyir olsun.

Didi: yaxşı, fürsənd kimindi?

Hüseyin diyir: Mən fürsənd-mürsənd bilmirəm. Sən meydanın bu başınnan, mənsə o biri başınnan gələcəyəm. Bacarırsansa, vuruş. Bacarmırsansa, təslim ol.

Bunlar əvvəlcə, qol daşı ilə güclərini sınadılar. Hüseyin bir barmağında qol daşını alıf tulladı qırağa. Həştərxani Xətayi gördü ki, bu başqa aləmdi. Növbə Həştərxani Xətayiyə çatdı. Hüseyin öz əli ilə qol daşını Həştərxani Xətayiyə verdi. Bu daşı götürə bilmədi. Boynuna da aldı ki, mən bu qol daşını götürə bilmərəm.

Hüseyin didi:

– Yaxşı, bəs onda təslim olursan?

Əştərxani-Xətayi didi:

– Yox, olmuram.

O, gizlincə arxadan qılıncını qaldırıf Hüseyin Çöşkərin başına endirməh istədi. Hüseyin nə təhər qılıncı uzun əlləri ilə göydə qamarlıyıf onun başına endirdisə Həştərxani-Xətayinin

dəbilqəsi, qalxanı bədəninnən ayrılıf iki para oluf yerə düşdü. Həştərxani-Xətayini də iki yerə ayırıf kənara tulladı. Vəziyyəti belə görən qırx quldur qaçmağa üz qoydular. Hüseyin əlinə keçəni birinin qolunu, birinin qıçını şil-küt elədi. Quldurlara didi ki, gedin şahınıza diyin ki, mən Hüseyin Çöşkər Nəsihin başının bir tükünə min nəfər pəhləvanını öldürəcyəm, hazır olsun. Hüseyin qələbəsinnən bir qədir İsfahanda qaldı. Bi vaxı Xorasan şahı eşitdi ki, Hüseyin Təbrizi də İsfahanı da azad eliyif, Nəsihi isə əsir götürüf. Hüseyinə sorax göndərdi ki, amandı-daddı, durma gəl, Xorasan əldən gedir. Hüseyin bu xəvəri eşidənnən yerinnən ildırım kimi qalxır. Yaraxlanıf-yasaxlanıf, atına minif birbaşa Xorasana çatır. Şah vəzir-vəkili ilə birgə Hüseyini bəh-bəhnən yola salır. Diyir ki, istəyirəm sənə pəhləvannıx verim, köməhçilər verim, Hüseyin razı olmur. Diyir ki, yox, mənə heş nə lazım deyil, ancax özüm gedəcəm. Hüseyin Xorasana gəlif gördü ki, bura əməlli-başdı yerlə-yeksan olufdu, camahat hərəsi bir tərəfə səpələnifdi, lap hirsdəndi. Gördü ki, ordakı karvansara da dərbədiyar oluf. Axır gəlif çıxdı bir hamama. Gördü ki, burda iki nəfər ər-arvad aclıxdan ölüllər. Didi ki, "sizi kim bu günə qoyufdu". Onnar didi ki, Qaraçı xannan Kirimkiş xan. Düzü, bular Hüsiyinin azmanlığınnan öncə vəlvələyə düşdülər. Hüseyin bunu duyuf didi:

– Qorxma, Allaha and olsun ki, sizin əmin-amanlığınızı bərpa etməyə gəlmişəm. Büdpərəstləri öz dininə qaytaracam.

Bu zaman inandılar ki, Hüseyin Xudapərəstdi. Büdpərəslərin axırına çıxmağa gəlif. Bunnara isə toxunmuyacax. Bir neçə gün Hüseyin burda qalmalı oldu. Gecələr paltarını deyişif şəhəri gəzdi. Qaraçı xanla Kilimkişün ərzax anbarını dağıdır, çalıf-çapıf hamamçıynan arvadını dolandırırdı. Özü də yiyirdi. Diyilənlərə görə Kilimküşün o qədər yekə qulaxları var idi ki, o yatanda qulağının birini alta, birini də üstə salıf yatırdı. Bir gün cəsuslar Qaraçı xannan Kilimküşə xəvər gətirdilər ki, durmayın, fürsənddi, bəs Hüseyin hamamda çimir. Pəhlivan

qardaşdar fikirləşdilər ki, Bədiraslani-Xətayidən Həştərxani-Xətayinin gücü heş buna çatmıyıf. Bəs bizim gücümüz necə çatacax. Müharibə də etsax xeyri yoxdu. Yaxşısı duda bunu, adamlar gətirif bütün hamamın fundamentini qazdırax, yıxdırax, qalsın daşın altında, əzilif ölsün. Keşdilər işə. Başdadılar hamamın dörd tərəfini qazmağa. Hamaçıynan arvadı qaçıf Hüsiyinə xəvər verdilər ki, ay oğul, əynini giyin, bəs dörd tərəfdən mühasirəyə alıflar hamamı. Bu sahat üstümüzə uçurdacaxlar. Hüseyin diyir, xəvər verdiyiniz üçün sağ olun. Əynimi giymağıma giyinirəm, sizsə gedin özünüzə sığınacax tapın, sora hamamın altda qalarsız ha. Hüseyin tez elə bir yerdən yapışır ki, hamam uşsa, həmən yer salamat qalsın. Axırı hamamı dağıdırlar. Hüseyin yavaşca axşam düşən kimi sıyrılıf dağılmış yerdən üzə çıxdı, gördü ki, gecə düşüfdü. Ulduzlar göydə pıçıldaşır. Axırı gəlif hamaçıynan arvadını tapdı. Bular Hüsiyini görcəh öpdülər, qucaxladılar, bağırlarına basdılar. Didilər, ay oğul, nə yaxşı iş oldu. Hüseyin hamamçıya didi, sən Kirimkişdən Qaraçının evini tanıyırsanmı? Didilər, hə, tanıyırıx. Onda aparın mənə onun imarətini göstərin. Arxasınnan işiniz olmasın. Hüsiyini düz gətirif buların biyabanda çadırların qabağına çatdırdılar. Hüseyin elə bir Allahu-Əkbər didi ki, yer-göy səsindən titrədi. Pəhlivan qardaşdar yuxudan hövlnax qalxdılar. Didilər ki, bu nə idi, belə. Yoxsa yer-göymü dağıldı. Bu anda nökərlər xəvər gətirdilər ki, bəs tez olun, durmuyun hamamın altında qalan pəhlivan dirilif gəlifdi. Qaraçı xandan Kilimküş gördülər ki, Hüseyin nə Hüseyindi. Bədheybət bi şeydi. Səhmi-səlamətinnən yer-göy titrəyir. Hüseyin buları görüf didi ki, ay namərddər, kişi kişinin qabağına mərdanə çıxar. Mənim atam sizin bir yarınız boyda yoxuydu. Amma qabağınıza kişi kimi çıxıf əsir getdi. İndi siz çıxın meydana. Qaraçı xanla qolunu Kilimküş nə qədər didilər xeyri olmadı. Hərə bir tonqal qalayıf dünyanı işıxlandırdı. Hüseyin Qaraçı xanın bir qolunnan bir əlinnən tutuf bir nərə ilə iki ayırıf kənara tulladı. Kilimküşün də qulaxlarınnan

çəhdi, elə dartdı ki, iki qopuf kənara tullandı. Sən dimə bu dörd pəhlivan hara getmişdilərsə büdpərəstliyi zorla qəbul elətdirirlərmiş. Hindi Hüseyin didi ki, kim İslamı qəbul edirsə, öz xoşunnan etsin, kim də etmirsə, zor deyil. Qayıdıf öz dağılmışına getsin. Kimisi qəbul elədi, kimisi eləmədi. Hərə bir tərəfə dağılıf getdi. Bir gün Hüseyin oturuf Həsən xana bir məhtuf yazdı. Didi ki, bəs mən Hüseyin Çöşkərəm. İsfahanı azad etdin. İndi Xorasanın bərpası ilə məşğulam. Xudapərəstdərin işini yoluna qoydum. Camahatı belə xarabalıxda qoyuf, bir yana gedə bilmərəm. İşdərini qurtaran kim mən Nəsihin dalınca gedəcəm. Məni gözləməyin. Camahatı yığıf başına Kirimküşdən Qaraçıxanın gətirdiyi nə qədər ərzax varsa, hamısını payladı. Soram Hüseyin getdi İmamrzanın qəbri üstünə ziyarətə. Başını daşın üstünə qoyuf xeyli dua etdi. O beləcə beş gün burada dua etdi. Düz beşinci gün bitəndə İmamrzanın qəbrindən bir səda gəldi. Səda didi ki, ya Hüseyin, Kərbələdan özünü bizim yolumuzda fəda verən İmam Hüseyinin adını daşıyırsan. Ona görə Allah sənə bundan böyüh güc-qüvvə verdi. Yeddi nərin qüvvəsini bəxş etdi, başın fəlakətdər çəkəcəh. Amma uğur həmişə sənnən olacax. Get, böyüh Tanrı sənə yar olsun. Bunnan sora Hüseyin buranı, ziyarətgahı tərk etdi. Gəlif hamamçıynan, onun arvadıynan halallaşıf, azuqəsini də götürüf yola düşdü. Beləcə az getdi, çox getdi. Çox dərə aşdı, təpə dolaşdı, gəlif bir dəryanın qırağına çatdı. Gördü ki, budur bir gəmi yola düzəlifdi. Hüseyinin səsi-sorağı bütün aləmə yayılmışdı. Camahat biləndə ki, bu, Hüseyindi, ona gəmidə ən yaxşı yeri verdilər, gözəl qullux elədilər. Diyilənnərə görə, Hind okeanı sahilində çoxlu adalar var idi. O adaların birində Heydərabad adında şəhər var idi. Gəmi altı ay yol getdi, Heydərabad şəhərinə az qalmış Hüseyini nətəri dənizin havası tutursa, möhkəm xəstələnir. Gəmidəkilər gecə-gündüz namaz qılıf Allaha yalvardılar ki, Xudapərəstlərin xilaskarını qorusun. Şəhərə çatan kimi pəhləvanı çıxardılar çölə. Yaxşı bir yer düzətdilər, atıynan qalxanını isə bir kənara

qoydular. Bular burda qalsınnar, sizə kimnən diyəh burada yaxınlıxdakı dağda yaşayan həramilərdən. Sən dimə, onnar pusquda duruf gəmini qarət etməyi gözdəyirdilər. Elə ki, hücum çəkməh istədilər, bunu görən gəminin avar çəkəni, camahatı xəvərlədi ki, bəs həramilər gəlillər, qaçın. Elə bu camahata mahna oldu. Pəhləvanı qoyuf hamı doluşdu gəmiyə. Tezcə dənizə yön aldılar. Həramilər gəlif gördülər ki, gəmi əldən çıxıf. Yerdə isə bir pəhlivan uzanıfdı. Atı, yarı-yasağı da yanında. Həramilər düşündülər ki, bu da qənimətdi. İyidin qalxan və atı bir orduya dəyər. Həramilər Hüseyinin palpaltarını, atını, yarax-yasağını soyundurdular. Quldurbaşı didi ki, ə, Dəməşq poladınnan təzə bir qılınc düzəltdirmişəm. Vallah, bunu bu nəhəngin boynunnan vuruf qopara bilsəm, ustanın haqqını verəcəm, yoxsa yox. Qoy yoxluyum görəh, bir necə olur. Həramilərdən biri insaflı çıxıf didi ki, ay kişi, etmə, eləmə, sən cəngavərsən, harda görünüf cəngavər ölüyə qılınc çəkə. Həramilər Hüseyini ölü zənn etmişdilər. Həramilərdən biri didi ki, Heydər hərami, nə badə belə şey etmə, tarixdə adın pis qalar. Yaxşısı budur, qılıncını başqa yerdə sınayasan. Bu iyid sağ olsaydı, heş bunun bircə barmağına da dəyə bilməzdi. Razılaşıf getdilər. Hüseyin qaldı burda tək və çılpax. Bir neçə gün beləcə qaldı. Günnərin bir günü bir balıxçı həmişə olduğu kimi dənizə tor atırdı. Gördü ki, bir meyid uzanıf sahildə. Yaxına gəlif nəbzinə əl qoydu, anladı ki, sağdı. Tez gəlif bu şəhərin padşahı Abdulla Gülgün şaha xəvər verdi. Ayaxlarına döşəndi ki, bəs, şah sağ olsun. Fılan yerdə bir pəhlivan halsız uzanıf qalıfdı. Həramilər onu soyuf lüt qoyuflar. Amandı, daddı, mənə bir köməh verin gedif gətirəh, bəlkə sağalda bil dih, sizin də gərəyiniz olar. Sən dimə Heydərabad şəhərini də Həştərxani-Xətayinin dəstəsi pis günə qoymuş camahatın yarısını zorla bütpərəst etmişdi. Bu camhaatın əksəri ürəyində Allahu-əkbər desələr də üzdə özdərini büdpərəst kimi göstərməh məcburiyyətində qalmışdılar. Balıxçı bir dəstə ilə gəlif. Hüseyin Çöşkəri bir xərəyə uzandırıf rahat bir yerə

gətirdilər. Ona yaxşıca qullux elədilər. Bir neçə günə Hüseyin özünə gəldi. Balıxçı Hüseyini doyuzdura bilmirdi ki, bilmirdi. 20-30 nəfərin yiməyini bir oturumda yiyirdi. Hüseyin gördü ki, balıxçının azuqəsi qutarıf. Didi ki, sənnən bir xahişim var. mən lüt halda bayıra çıxa bilmərəm. Sənin də pulun yoxdu ki, məni geyindirəsən. Yaxşısı budu ki, gedif mənə borc pul tapasan. Bir 60-70 metr də ağ tap. Dərzini də özünnən gətir ki, boyumu ölçüf paltar tiksin. Balıxçı Allahını sevən biri idi. Getdi Abdulla Gülgün şahın yanına. Hüsiyinin arzusunu ona bildirdi. Şah ədalətdi olduğu üçün tez bütün tacirlərə tapşırdı ki, bəs irəhli parça gətirsinnər. Dərzi tutuf ona xəzinədən xüsusi pul ayırsınlar. Çox keşmir, Hüsiyinin paltarı hazır olur. Gətirif onu geydirillər. Beləcə Hüseyin şəhərə çıxır. Gəlif bir çayxanaya çıxır. O gəlif çayxananın böyüyünün yanına diyir ki, məni burda işdəməyimə razı olarsınızmı?

Didi:

– Sən nə qədər yiyirsən?

Hüseyin Çöşkər didi:

– Bax bu qədər yeyirəm. Qarın dolusu mənə gündə üç dəfə yiməh ver, dala qalanınnan sənin nə işin var, bütün işdərini mən görərəm.

Didi:

– Sən mənə su daşıya bilərsənmi? Hüseyin didi, niyə bilmirəm? Bəs di görüm necə daşıya bilərsən? Nə qədər cannı olsan, güclü olsan da iki vedrə su götürərsən də, hondan artıx götürə bilməzsən ki.

Hüseyin Çöşkər soruşdu, a kişi, sən suyu daşıyıf hara tökürsən? O didi ki, bax orda iki dənə böyüh çələh var, hərəsi yarım ton su tutur. O çəlləhlərə tökürəm. Didi, "bəs suyunuz hardan gəlir?"

O didi:

– Bəs böyüh bir şələləli çay var idi. Həmin çaydan gətiririh.

Hüseyin didi:

– Mənə bir məftildən tapa bilərsinizmi. O çəlləhlərə qulp qoymax istiyirəm.

Hüseyin nə didisə, hamısına əməl etdilər. Hüseyin beləcə ağır çəlləhləri çaya basıf suyla dolduruf gətirif yerinə qoydu. Hamı bunun gücünə mat-məhətal qaldı. Baxdılar gördülər ki, ə, bu lap dəhşətdi ki, qırx nəfər axşamacan su daşıyıf bu çəlləyi doldura bilmir. Amma bu bir nəfəsə doldurdu. Nə iş tapşırdılarsa, yerinə yetirdi. Bəli, əzizlərim, onlar meşədən gedirdilər, kəlləri, öküzləri qoşurdular, əlli-budaxlı ağaşdarı qırıf gətirif çayxananın qabağına düzürdülər, sora baltaynan doğrayırdılar. Hüseyin isə bunun budaxlarını əliynən hamısını qırıf dizinə salırdı. Beləcə aradan bir qədir vax keşdi. Hüseyin burda işdəməhdə olsun, aylar-illər isə keçif getməhdə. Hüseyin beləcə çox əzaf-əziyyət çəkirdi. Düşünürdü ki, mən nə qədər belə boğazıma işdiyəcəm. Xalqım mənnən ümid gözdüyür. Amma bular bilmirlər ki, mən kiməm. Günnərin bi günü Hüseyin işini tezdən qutarıf balıxçının yanına gəlir. Diyir ki, ateyi-mehriban, sən məni hansı şəraitdə, hansı yerdə tapıfsansa, aparıf o yeri göstərməyini istiyirəm. Balıxçı didi, mənim gözüm üstə, oğul. Elə mən torumu da götürüm, gedəh həmin dəryaya. Tor atax bəlkə bir neçə balıx çıxa. Həm də sənin tapdığın yeri göstərim. Elə də edirlər. Balıxçı torunu götürdü, heybəsinə çörəh qoydu, yola düşdülər. Hər ikisi pay-piyada gəlif dənizin qırağına həmən yerə çatdılar. Limana gəlif buraları axtarmağa başdadılar. Balıxçı gəlif oğlana göstədi ki, oğlum, bax səni bu yerdə çılpax və ağır vəziyyətdə tapmışdım. Hüseyin dərin fikrə getdi. Didi ki, hə, mənim atımın, yəhərimin, hərbi sursatımın qiyməti çoxdur. Yəqin ona görə də gəminin kapitanı buna tamah salıf xəstəliyimnən istifadə eliyif məni dənizin kənarında qoyuf gediflər. Ataların gözəl sözü var: diyir, mal bir yana gedər, iman hər yana. Bunun imanında şübhə yarandı ki, yəni məni bu günə qoyan gəminin kapitanı oluf, gəmidə işliyən insanlar oluf! Şübhə ilə, təəssüflə qayıdıf getdilər. Beləlihlə, gün keçir,

ay dolaşır. Bir gün yenə Hüseyin Çöşkərin fikrinə bir şey gəldi. Düşündü ki, hindi mən nə təhər eliyim ki, vəziyyətdən çıxış yolu tapım. Bu şəhərdə mənə təzədənnən at tapmax, giyim düzətməh bular üçün çox çətin olar. Şəhər işğaldadı. Əkbər Himayin qoşunnarı isə bulara nəzarət eliyir. Bir halda ki, əliyalındı. Düşmənə nə etməh olar? Çox fikirrəşdi, çox düşündü, axırda Abdulla Gülgül şahın yanına gəlif ehtiram göstərdi. Abdulla Gülgül şahın yaxşı və ağıllı bir vəziri var idi. Bunun adına Mirzə İsəncəlan diyərdilər. Mirzə İsəncəlan da Allah-Tala elə bir qüvvət, bacarıx vermişdi ki, o, istənilən vaxtı özünü 12 cür sehrə sala bilirdi. İsdiyəndə quş cildinə, isdiyəndə ilan cildinə girə bilirdi. 72 dil bilirdi. Abdulla Gülgünə didi ki, sən mənə təkcə Mirzə İsəncəlanı ver, mən gedim dəryanın kənarında bir az onunla gəzim. Abdulla Gülgül nə qədər soruşdu ki, sənə nə oluf, nə baş verif ki, Mirzəni mənnən istiyirsən. Hüseyin Çöşkər dimədi ki, dimədi. Yerdə qalanını sora sizə gəlif danışaram, didi Hüseyin Çöşkər. Düşündü ki, bəli, mənə bu sirri açmax hələ tezdi. Ta ki, məqsədimə nail olmayınca bu sirri heş kimə açmıyacam. Abdulla Gülgül şah işğalda olan bir ölkənin başçısı idi, özü də Əkbər Hümayinə tabe idi. Onun əmirlərini yerinə yetirirdi. Ürəyi çox yuxa adam idi. Bu ölkədə İslam əldən getmişdi. Xudapərəstləri büdpərəstlərə zorla çevirmişdilər. O bundan çox əziyyət çəkirdi. Ancax Əkbər Himayinə gücü çatmırdı. Buna görə bu işə icazə verdi. Mirzə İsəncəlanı çağırtdırıf didi ki, Mirzə, gəl, bizim bu qərib qonax nə diyirsə, onu elə. Artıx onun sərəncamındasan. Qoy hara istəyirsə, aparsın səni. Hüseyin Çöşkər Mirzə ilə gəldilər dənizin kənarında gəzməyə başdadılar. Ancax iş burasındadır ki, bu ağ bir ipəhnən gəzirdi. Bular burda qalsın, sizə xəvər verəh Qeyfəs Həraminin gözətçilərinnən. Onnar dağın üstündə duruf böyük bir mağarada yurd salmışdılar. Pusquda duruf limana gələnnərə göz qoyurdular. Baxdılar gördülər ki, iki nəfər gəlif, özü də gözəl bir atnan. Qara atın üstündəki Hüseyin Çöşkərin geyiminə gözdəri

düşdü. Düşündülər ki, belə geyimdə insanın xurcununda da yəqin yaxşı bir şey olar. Tez quldurbaşına xəvər verdilər. Quldurbaşı qırx hərami yoldaşıynan onnarın qarşısını aldı. Gəldilər gördülər ki, elə bir insandı ki, elə bir bədən, elə bir yönyöndəmi var ki, duruşunnan və görünüşünnən dünya titrəyir. Ayax yerdən, baş buluddan nəm çəkir. Baxdı, baxdı, didi, ə, əgər bunda bir şur olsa, bir yaxşı başçı olsa, bunu geyindirif keçindirsə, elə gözəl bir pəhləvan olar ki. Təsüf ki, Tanrı buna yaraşığı ilə yanaşı ağıl-kamal, bilih, bacarıx, dünyagörüşü vermiyif. Bunu fikrindən keçirirdi ki, qılıncını sivirif Mirzə İsəncalana əmr elədi ki, düş atdan. Mirzə atdan düşdü. Həramibaşı dedi, soyun paltarını. O da səssiz-səmirsiz paltarını soyundu. Quldurbaşı didi ki, hindi buların ikisini də qətlə yetirin. Atdarını da, yəhərini də nəyi varsa, götürün gedəh. Hüseyin buların qabağına gəldi. Amma buların dilini bilmirdi. Ona görə də Hüseyin Mirzə İsəncəlana didi ki, onnarı başa salsın ki, iyidə davasız-şavasız, zəhmətsiz qazanc əldə eləməh haramdı. İyid zəhmət çəksin gəlsin vuruşax. Əgər qələbə çalarsa istədihlərini aparıf getsin. Biznən işi olmasın. İsəncəlan Hüseyin Çöşkərin didıxlarını hərambaşına çatdırdı. Hərambaşı gülüf didi ki, bu boşbaş mənə neyliyəcəh ki, əli də yalındı. Mirzə İsəncəlanın sözdərini birəbir hamısını hərambaşına tərcümə etdi. Quldurbaşı didi ki, sənin nəyin var ki, belə ürəhlə vuruşmağı dəvət edirsən. Əgər qorxmursansa, buyur mübahisəyə başlayax. Hərə bir tərəfdən qılıncını sıyırıf vuruşa başdadılar. Hüseyin Çöşkər hərəmilərin qollarını bir-bir elə atın üstündəcə buruf bir kənara atdı. Quldurbaşının əlini elə sıxdı ki, barmaxlarının ucundan qan sızmağa başdadı. Atdan salıf ayağının altına qoydu. Didi ki, mətləbimə çatmax üçün nə istədin elədin. Hindi isə çəkil yolumnan. Beləcə hər kəs öz yoluna getdi. Mirzə İsəncəlanda öncə hərəmibaşına köməh çıxsa da yenidən Hüseyin Çöşkərin tərəfinə çıxdı. Quldurbaşı Hüseyini dilə tutmağa başdadı ki, gəl bizə yaxın olax, səni dünya malına qane edəcəm. Hüseyin öncə oların şirin dilinə

aldandı. Mirzə İsəncəlan nə qədər başa saldı ki, bular quldurlardı. Yüz dona girif səni aldadarlar, Hüseyin sözə baxmadı ki, baxmadı. Didi, iyid meydannan qaçmaz. Madam ki, bu məni öz süfrəsinə, öz evinə dost kimi dəvət eliyir. Mənim bundan imtina etməyə haqqım yoxdur. İşdi, sənin xoşun gəlirsə, gəl mənnən gedəh. Gəlmirsə, get öz işinin dalısıycan. Mirzə İsəncalanın Hüseyin Çöşkərə acığı tutdu, qılıncsız, yəhərsiz, atsız pay-piyada şəhərə yola düşdü. Hüseyin isə bularnan mağaraya gəldi. Onnarın mağarası dağın kəlləsində çox yüksəh bir yerdə yerləşir. Hüseyin gəldi gördü ki, mağaranın ağzında keşihçilər var, ədəblə salamnan sora içəri keşdilər. Hamı süfrə başına oturdu. Bu vaxtı Qeyfəs Hərami göz vurdu öz xidmətçilərinə ki, Hüseyin Çöşkərin yeməyinə bihuşdarı qatsınlar. Bu yimax-içmaxdan sora Hüseyin Çöşkər yıxıldı yerə. Onnar kəndirlə bunun bədənini o qədər sarıdılar ki, Hüseyin istəsə də yerindən tərpənə bilmədi. Düşündülər ki, bu bədheybət ayıldıxdan sora onu min bir işgəncə ilə öldürsünnər. Bular burda yiyif-içməhdə olsun, sizə Mirzə İsəncalannan deyəh. Mirzə İsəncəlan xeyli yol gedənnən sora düşündü ki, ayə, bu Hüseyin Çöşkərdi. Təmiz qəlbli, sadəlövh bir iyiddi. Hər kəsin sözünə inanır. Bəs mən nə ağılnan bunu tək buraxdım. Bu hiyləgər onun başına yüz oyun açacax. Çox fikirrəşdi, az düşündü, Mirzə İsəncəlan geri qayıtmağın binasını qoydu. Çox gəzdi, axır gəlif həmin mağaranı tapdı. Gördü ki, qapıda bir keşihçi duruf. Ona elə hirs gəlmişdi ki, keşihçinin boğazınnan boğuf bi kənara tulladı. Tez keşihçinin paltarını soyunduruf öz əyninə keçirdi. Və beləcə içəri daxil oldu. Gördü ki, Hüseyini kəndirnən sarıyıf bir kənara atırlar, həramilər isə öz keflərində yiyif-işdilər. Mirzə fikirrəşdi ki, yox, mən tək bunnara heş nə eliyə bilmiyəcəm. O dəqiqə Mirzə anladı ki, buna bihuşdarı veriflər. Mirzə tezcə oxuyuf üfürdü. Özünü saldı gözəl bir xanım cildinə. Oldu nazəndə bir sənəm. Elə bir sənəm ki, quldurların ağlı bir anlıx başından çıxdı. O bu cilddə ağlaya-ağlaya, yaş tökə-tökə gəldi quldur-

başının yanına. Bular dağda-daşda qadın az gördühlərindən bunu görən kimi gözdəri beş oldu. Hərə bir tərəfdən buna cummax istiyəndə Qeyfəs Hərami əllərini bığlarına çəhdi. Bulara əmr elədi ki, bu mənim üçün gəlif səs eləmə. Baxax görəh nə istiyi. Didi:

– Xanım nə oluf sənə, niyə ağlıyırsan. Mirzə bütün hamısını topladı. Mirzə bununla elə bir axtarış eləmağa başdadı ki, hamını mat qoydu. Didi ki, bu yaxınnarda bir nəfərdən eşitdim ki, mənim düz yeddi il bundan qabax bir qardaşımı günahsız yerə öldürən vəhşini siz tutufsuz. Gəlmişəm ki, bu vəhşini görüm. Və onun qanını öz ovuclarımda içim. Və bu canı bu yolda qardaşımın qanını almax üçün qatili qətlə yetirdiyinə görə sənə hədiyyə gətirmişəm. Qeyfəs hərami bunun gözyaşları ilə didığı sözə inandı. O qıza didi ki, bax sənin qardaşının qatili budur. nişanələrindən danışdılar belə bəlli oldu ki, elə bu özüdür. Didi: – Bəs hindi neyliyəh. Didi, hələ yatır. Ona bihuşdarı vermişih. Qoy oyansın, qardaşının qatili kimi ona nə lazımdı deyərsən. Sora mən sənə hansı silahı desən verəcəm. Onu işgəncələrnən qətlə yetirif qardaşının qanını almış olarsan. Hindi isə gəlin yiyəh-içəh, kefimizi pozmayax. Bular yidilər-işdilər, bi vaxtı qadın cildinə girmiş Mirzə qalxdı bular üçün gözəl rəqs elədi, mahnılar oxudu, xörəh payladı, mey payladı. Xəlvətcə hamısının meylərinin içinə bihuşdarı qatdı. Beləcə qırxının da huşu itif yerə yıxıldı. Buların otuz-qırx ildə soyuf, çapıf-talayıf gətirdıxları qırqızıla, ləl-cəvahirə baxdı. Gördü ki, iyirmi paçşahın xəzinəsi cəm olub burda. Mirzə İsəncalan hələ qadın cildinnən çıxmamış kəndir və möhkəm iplər tapdı. Bular necə Hüseyin Çöşkəri sayıf bi kənara atmışdılarsa, Mirzə də quldurbaşıları əl-ayağını bağlıyıf yan-yana yığdı. Yenidən oxuyuf, üfürüf öz cildinə girdi. Və gördü ki, Hüseyin də artıx özünə gəlif. Mirzə ona bir-iki çubux vurdu ki, özünə gəlsin. Özünə gələn kimi yaxşıca danladı. Quldurlara etibar etdiyi üçün ona xeyli öyüd-nəsihət verdi. Ona and verdirdi ki, bir də sözünnən çıxmasın.

Atalar diyif ki, iyidin anası ağlamaz. Didi, neynəh, bağışla məni Mirzə. Bir də sənin sözünnən çıxmaram. Hüseyin ayağa duruf həramilərin yanına gəlir. Gördü ki, qırxı da yan-yana uzanıflar. Didi: – Mirzə sən bura necə girə bildin. Mirzə başına gələni ona danışdı. Hüseyin didi: – Mirzə sən məni bəladan qurtardın. Bir ömür sənə borcduyam, sağ ol. Axırı axtarıf quldurların xəzinəsini tapdılar. Gördülər ki, xəzinə nə xəzinə. Dünyanın bütün inciləri burda cəm olmuşdu. Xəzinədən nə ki bacarırlar xurcunnarına yığdılar. Sonra atların yanına gəldilər. Atdar nə atdar. Hüseyin yavaş-yavaş atdarın birinə yaxınnaşdı. At Hüseyini görcəh kişnədi. Hüseyin gördü ki, quldurrar çox adamların malını talıyıf, mülkünü də əlinnən alıf özdərini öldürüf bir kənara atıflar. Didi, Xudaya, mənim fikrimin qaralmağına görə bağışda. Sən dimə, boynuma böyüh günah götürmüşəm. Hüseyin gördü ki, o vaxı bunnan oğurlanan at, dəbilqə, yarax-yasax hamısı burdadı. O öz paltarını giyinif, yarax-yasağını da götürdü. Oldu yenə əsil pəhlivan görkəmində. Mirzə İsəncəlan qayıdanda bunu tanımadı. Gördü, ə, burda bir pəhlivan oturuf min göz istiyir tamaşa eləsin. Hüseyin didi: – Mirzə, qorxma mənəm, Hüseyin Çöşkər. Axır ki, paltarlarımı burdan tapdım. Bi vaxı bular burda qalsın. Quldurlar ayılıf əl-ayağını bağlı gördülər. Hüseyin onnarın yanına gəlif didi, etdihlərinizə görə peşmansınızmı quldurlar ona yalvarmağa başdadılar ki, bəs bir işdi oldu. Biz səni sınaxdan keçirməh istiyirdih. Keş günahımızdan, səni özümüzə qardaş eliyəh. Mirzə didi: – Hüseyin bunnarın şirin dilinə aldanma. Sənin başını pişirillər. Neçə ildi ki, buların əlinnən heş bir gəmi şəhərə salamat gələ bilmir. Heş bir tacir burada iş görə bilmir. Çalış buların hamısının axırına çıxasan. Hüseyin didi: – Mirzə buları sənin ixtiyarına buraxıram. Nə istəyirsən elə. Mirzə qılınc götürüf buların hamısının başını üzüf tulladı. Axırı Hüseyin öz atına Mirzə də öz atına minif yola düzəldilər. Az getdilər, çox getdilər axır gəlif şəhərə çatdılar. Camahat baxıf gördü ki,

şəhərə bir pəhlivan gəlir bir pəhlivan gəlir göyü çiyinlərində saxlamağa hazırdı. Mirzə gördü ki, camahat Hüseyindən qorxur qavağa duruf didi ki, camahat qorxmuyın bu şəhəri quldurlardan xilas edən Hüseyin Çöşkərdi. Camahat başdadı Hüsiyini alqışlamağa. Əşrəf Himayinin qoşunnarınnan da burda yaraxlı-yasaxlı adamlar var idi. Bular Hüseyinin qabağını almağa çalışdılar. Hüseyin buların hərəsinin qol-qıçını şil-küt eliyif hərəsini bir tərəfə atdı. Birinin əlinə isə namə yazıf göndərdi ki, mən Hüseyin Çöşkərəm. Xudavəndi-Aləmin köməyiylə öz həyatıma yenidən qayıtdım. Ona diyin hazır olsun. Başının ortasında od qalıyacam. Bu şəhəri də işğallardan azad eliyəcəm. Hüseyin Çöşkər öz didığını yerinə yetirdi. Şəhərin camahatı hamısı bütdəri boğazdarınnan açıf tulladılar. Yenidən xudapərəstdiyə qayıtdılar. Xəzinəni isə Abdulla Gülgünün köməyilə daşıtdırdılar və bütün yoxsullar arasında böldülər. Sahildə isə bir böyüh lövhə yazdırıf qoydular ki, kim istəsə şəhərə rahat girif çıxa bilər. Daha heş bir təhlükə yoxdur. Ticarətə kim gedir getsin, rahat öz işini görə bilər. Hüseyin beləcə şəhərin əmin-amanlığı ilə məşğul olurdu. Bular burda qalsınnar, sizə kimnən deyim, Abdulla Gülgülün qızı Rüxsarədən. Rüxsarə həddi-buluğa çatan gözəl-göyçəh bir qız idi. Hüseyin qızı görən kimi bir könüldən min könülə aşiq olur. Bir gün Mirzə İsəncəlana öz ürəyini açıf diyir ki, mən Rüxsarəyə aşiq olmuşam, amma işdərimin yarımçıx olması ona sevgimi aşmağa imkan vermir. Mirzə İsəncəlan didi ki, Abdulla Gülgün şah bilsə ki sən onun qızına vurul-musan, papağını göyə tullayar ki, səni kimi oğlana qız verif. Hüseyin tapşırdı ki, bu sirr olarax aramızda qalsın, hələ qız bilməsin. Mən yol üstəyəm. Ya qayıdam, ya da qayıtmayam. Beləcə buların arasında sirr qaldı. Günnərin bir günü Abdulla şahla məsləhətləşdilər. Hüseyin didi:

– Şah sağ olsun, mən indi bura qalmağa gəlməmişəm ki, indi gərəh burdan gedəm İsfanabada ki, oranı da büdpərəst-lərdən azad edəm. Onnarı öz dinlərinə qaytaracam. Əgər həyat

vəfa edərsə, Nəsihin dalınca Himayin vilayətinə gedəcəm.

Razılaşdılar. Şah didi:

– Gəl sənə qoşun verim.

Hüseyin didi:

– Mənə heş nə lazım deyil. Təkcə Mirzə İsəncəlanı öz razılığı ilə mənə ver, bəsimdir. Hindistan vilayətinə gedəcəm. Onnarın dilinə bələd deyiləm.

Axır Mirzə İsəncəlan razılaşıf və birgə yola düzəldilər. Yolda bütün camahat onnarı böyüh təntənə və alqışlarla yola saldı. Burda Mirzə İsəncalan əğyarlıx vəzifəsi yerinə yetirirdi. Çox getdilər, az getdilər, axır gəlif mənzil başına çatdılar. Bular burda qalsınnar, cəsuslar bunu bilif Əkbər Himayinə xəvər çatdırdılar ki, bəs Hüseyin Çöşkər Heydərabadı azad elədi. Ordakı qoşunnarı tar-mar elədi. İndi isə İslamabada doğru gəlir. O hamımızı qıracax. Əkbər Himayin çox fikirrəşdi ki, indi mən bu boyda nəhəng pəhlivanın qabağına necə çıxa bilərəm. Sən dimə, Əkbər Himayinin ehtiyatlı bir pəhlivanı var idi. Adı da Əfqan idi. Əmr etdi ki, Əfqanı hüzuruna çağırsınlar. Çox keşmədi Əfqan gəldi. Ədəblə salam verif didi ki, mən səni oğulluğa götürmüşdüm. Amma bunu elan eləməmişdim. İstiyirdim ki, mənnən sora taxt-tac sənə qalsın. İndi neynəh. Hüseyin Çöşkər kimi güclü pəhlivan gəlif qabağına sənnən başqa çıxası heş kəs yoxdu. O, mənim 4 güclü təlim görmüş pəhlivanımı öldürdü. Hindi ümidim bir tək sənə qalıf. Amandı, elimiz, obamız, dinimiz əldən gedir. Biz xudapərəstlərə çox zülm eləmişih. Olar mütləh bizdən qisası alacaxlar.

Əfqan didi:

– Şah sağ olsun. Sən məni oğulluğa götürmüsən, mən də sənə oğul olmax istəyirəm. Amma bir şərtim var.

Şah didi:

– Nədi şərtini de.

Əfqan didi:

– Bi vaxtı böyüh bir məclisdə sərkərdələri başına yığıf

dimişdin ki, bir yerdə yazılıf ki, iki sevgini bir-birinə birləşdirənin cənnətin ən gözəl guşəsində yeri var.

Şah soruşdu:

– Sənin bu cənnət məsələsinə inamın varmı?

Didi:

– Əlbəttə ki, var. Amma buların hamısının yaradıcısı bir tək Allaha daha çox inanıram.

Şah didi:

– Oğul, hindi sənin məramını daha yaxşı anladım.

Didi:

– Oğul, sən hansısa bir qıza yamanca vurulmusan. Di görüm, kimdi o qız.

Didi:

– Sizin qızınız.

Şah didi:

– Oğul, bəs mən səni elə-belə oğulluğa götürməmişdim ki, elə-belə yerdən deməmişdim ki, bu sözü. Əgər sən Hüseyinə qalib gəlsən qızımı sənə verəcəm.

Şah didi:

– Qoşun verim. Əfqan razılaşmadı.

Didi ki, mənə qoşun lazım deyil. bir tək əğyarımı ver, yetər. Axırı Hüseyin Çöşkərlə Əfqan qarşılaşırlar. Hüseyin diyir, görürəm qoçax oğlana oxşayırsan, gəl boşuna milləti qırdırma. Sənin Allahın, mənim mati-mələtım olsun. Allah hansımıza köməh olarsa, o da qalib gələr. Hüseyin Əfqanın bacarığına mat-məhəttəl qalır. Hüseyin kimi Əfqan da çox gözəl təlim-tərbiyə keşmişdi. Büdpərəst olmağına baxmayarax çox yaxşı bir iyid idi. Şərtdəşdilər ki, öncə qılınc oynadax sora, əmuddan, axırda gücümüzdən istifadə edərih. Kim yıxıldısa yıxanın əğyarı yıxılanın başını kəsməlidir. O vaxtın qanunlarına görə yıxmax pəhləvanın borcu idi, kəsməh isə əğyarın. Pəhləvannar üç gün, üç gecə beləcə qılınc çaldılar. Axırı hər ikisi qurşax tutmağa başdadılar. Bir neçə gün beləcə möhkəm savaşdılar. Günnərin bi günü Hüseyinin yadına düşdü ki, ə,

mən qırx gün Mirzənin ziyarətinə baş qoyuf, orda ibadətlə məşğul oldum. Allah-Taladan mənə bir səda gəlmişdi ki, sənin bu müsəlmançılığına, Allaha bu qədər qəlbən yaxın olmağına görə yeddi nərin qüvvəsini vermişdi. Mənə bəxş olunan o nərin qüvvəsindən istifadə etsəm, ona qalib gələrəm. Çox düşünüf, birdən huşuna gəldi. Birinci Allahu-Əkbər nərəsini çəkif Əfqanı dizinə çəhdi. İkinci Allahu-Əkbər nərəsində qurşağına, üçüncü Allahu-Əkbər naləsində isə başını vurdu yerə. Onu elə yerə çırpdı ki, torpağın üstündə Əfqanın özü boyda naxışı açıldı. Elə bu zaman Əfqanın əğyarı Mirzə İsəncəlan qılıncı ilə Əfqanın başının üstünü kəsdi. Əfqan didi ki, Hüseyin, son söz dimağa icazə verirsənmi? Didi: – Bəli niyə vermirəm ki. Didi:

– Sizin Allahınız sizə necə buyuruf, peyğəmbəriniz nə buyuruf, ölümnən qabax hansı kəlməni deyirsiniz?

Didi:

– Biz ölümdən öncə kəlmeyi-şəhadət gətiririh.

Didi:

– O necə olur ki? Mən diyim, qulax as: "Əşhədu-ənla la ilahə illəllah Əşhədu ənna Muhəmmədən Rəsul Allah".

Əfqan didi:

– Mən də onu deyərəh ölməh istəyirəm.

Hüseyin didi:

– Niyə bu qərara gəldin.

Əfqansa cavabında belə didi, gördüm ki, sən çox güclü pəhləvansan. Dodaxaltı pıçıldayanda bildim ki, Allahu-Əkbər diyif, nərə çəkəndə arzuların necə həyata keçir. Sən Allaha çox yaxınsan. Buna görə də o, sənin qüvvənin üstünə bir az da qüvvət verdi, ona görə də mənə qələbə çaldın. Diməli, sənin Allahın mənim şahənşahımnan qüvvətdidi. Ona görə də icazə ver, mən də həmin kəlmeyi-şəhadəti dilimə gətirim və xudapərəst kimi bu dünyanı tərk edim. Hüseyin Çöşkər didi, bu sözlərini hiyləlihlə diyirsən ki, canın xilas olsun. Əfqan yox didi:

– Ürəhdən diyirəm, mən Allahı qəbul edif, onun himayəsi altında ölməh istiyirəm. Hüseyin onun səmimiyyətinə inandı. Kəlmeyi-şəhadəti bir-bir didi, Əfqansa onu təkrar elədi. Hüseyin Əfqanın əlinnən tutdu, onu yerdən qaldırdı. Qucaxlaşdılar, öpüşdülər və dost oldular. Hüseyin didi: – Qurani-Kərimdə yazılıf ki, bir müsəlman bütün müsəlmanların pacşahıdır. Ona görə bu günnən biz sənnən qardaş oldux. Bu günnən sən də mənim kimi Xudapərəstsən. İslama qullux eliyirsən. Hindi biz bu günnən yumrux kimi birləşməliyih. Hindi qayıdaxmı – diyə Hüseyin sual verdi. Əfqan didi: – Mənim bir şərtim var, mən sənnlə döyüşə gələndə Əkbər Himayinnən müqavilə bağlamışdım. Onun qızına vurulmuşam. Hindi biz sənnən qayıdsax, onu mütləh öldürməliyih. Əkbər Himayin ölənnən sora onun qızını ala biləcəm. Yoxsa yüz il qala ala bilmərəm. Hüseyin didi: – Bəs bu necə olacax. Əfqan didi ki, qızın özünnən soruşax. Əgər qız səni qəbul eliyərsə, onu alarsan. Yox, qəbul eləməsə, büdpərəstnən xudapərəstinki tutmaz. İşdi niyyətimiz baş tutsa, qələbə çalarıxsa, şəhəri ələ keçirərih, bununla əhali azad olar. Kim istəsə könüllü şəkildə İslamı qəbul eləsin. Eləmiyən isə vətəni tərk etsin. Tək xudapərəstlərin mənnən işdəri olmasın. Razılaşdılar. Əfqan didi ki, mən gördüm ki, Allah məhəbbəti qıza olan məhəbbətdən üstündür. Əgər Allahın məhəbbəti, mənim qəlbimə dolarsa, onu heş bir qeyri-məhəbbət üstünlüyə bilməz. Beləcə, 4 nəfər birləşif təzədənnən qayıtdılar Himayinin vilayətinə doğru. Cəsuslar buları görcəh, Əkbər-Himayinə xəvər göndərdilər ki, Əfqan da xudapərəstə çevrildi. Sənin üstünə gəlillər. Əkbər Himayin fikirrəşdi ki, Əfqanla Hüseyin birləşsə, daha buların qarşısında heş bir qüvvə davam gətirə bilməz. O, əvvəlcədən özünə gizlənməh üçün yer hazırlamışdı. Vəziri-vəkili, əyanları başına yığdı, didi ki, nə qədər mümkündür, siz şəhərin müdafiəsində məşğul olun. Mənim gedən yerim var. Beləcə vəzir-vəkilin başını aldadıf, aradan çıxdı. Əfqanla Hüseyin şəhərə varid olan vaxi

gördülər ki, buların qarşısına heş kim çıxmır. Hamı ağ bayrax götürüf təslim olur. Kim Hüseyini istiyirdisə, ona hörmət bəsliyirdisə özü könüllü Quranı qəbul eliyif, kimi qorxusunnan qəbul eliyif, kimi isə yaltaxlığınnan, kimi isə heş qəbul eləmiyif. Bulara isə məcburiyət yoxdu. Beləlihlə, vəziri ələ keçirə bildilər. Nə qədər vəzirnən soruşdularsa, Əkbər-Himayinin yerini bizə de, səni öldürmiyəcəyih, xeyri olmadı ki, olmadı. Axırda məcbur oldular, bunun boğazına bir zincir salıdılar. Yedəyini də bi nəfərə verif, qabaxlarına salıf gəzdirdilər. Rəvayətə görə isə o vəziri şəhərdə yeddi il beləcə gəzdiriflər. Əkbər Himayinin yerini dimiyif ki, dimiyif. Çox işgəncələrdən sora vəzir əldən düşdü. Vəziyyəti pisləşdi. Axır məcbur oluf didi, Əkbər Himayin qaçıf hardasa, özünü gizdədif, özü də kef çəkir. Mən bunnan ötəri nə qədər əziyyət çəkirəm, o isə mənə əhəmiyyət vermədi. Deməh, hər kəsə öz canı şirindi. Vəzir hiyləyə əl atdı, didi ki, onda şəhərdən filan qədər aralı bir cəznə var. Məni ora aparın, mən sizə Əkbər Himayinin yerini deyəcəyəm. Vəzirin sözü ilə həmin yerə apardılar. O, həmin yerdə bir quyu göstərif, didi, baxın, Əkbər Himayin burda gizlənif. Düşün quyuya tutuf gətirin. Mənnən sizə onun yerini deməhdi. Hüseyin quyunun ağzının daşını götürüf kənara atdı. Baxdı gördü ki, aşağıya doğru pillələr gedir. İstədi düşüf getsin, Əfqan onun qolunnan yapışdı. Didi:

– Ədə, sən neynirsən. Sən bu sarsağın sözünnən özünü fəlakətə atırsan. Mən bunu yaxşı tanıyıram. Çox hiyləgər və qəddar vəzir olufdu. O, elə-belə quyunun altında gedif gizlənməz.

Bunun sözü Hüseyinin ağlına batdı, didi:

– Bəs neyliyəh, didi ki, öncə gərəh vəziri sallıyax. Birinci vəzir getsin, arxasınca da biz gedəh.

Belə də elədilər. Əfqan qılıncı vəzirin kürəyinə dirədi ki, oyan bu yan eləyən kimi ilişdirsin. Beləcə bir neçə piləkan aşağı endilər. Bir az da düşəndə gördülər ki, hər tərəfdən nizələr, almazlar, ox-yaylar açılıf buların üstünə gəlir.

Qabaxda vəzir getdiyinnən atılan oxlar onun bədənini tikə-tikə elədi.

Əfqan didi:

– Hüseyin, gördünmü, mən sənə dedim ki, burda hiylə var.

Əfqan didi, "sağ ol, sənə bir ömür də borcluyam, diməh. Bu günədəh sənnən ehtiyat edirdim. Amma bu günnən sən özünün mərddiyini sübut etdin. Bu gün sözün həqiqi mənasında sənə inandım. Didilər, bəs indi neyniyəh, bütün ağsaqqalları, münəccimləri bura yığıf bu işi kim tərəfindən qurulduğunu soruşdular. Düşündülər ki, Əkbər Himayin elə bir insan idi ki, ona bu qurğunu quran adamlar həyatda qala bilməz. Didilər ki, bunun təqribən burda 500-600 adamı var. Onnar ərzağı yəqin bir neçə çıxışnan daşıyırlar. Yaxşısı odu, bunun bünövrəsini qazıf, o gizli yolu tapax. Beləcə külüng vurmağa başdadılar. Bünövrəni qazıf axıra çıxdılar. Həmən gizli yolu tapdılar. Yavaş-yavaş bu yerdən gəlif böyüh bir şəhərə çatdılar. Bura əməlli-başdı şəhər idi. Sən dimə, Əkbər Himayin bu şəhərdə kefnən yaşayırdı. Beləcə vuruşma başdadı. Ölən öldü, qalan qaldı, təslim olan oldu. Axırı Əkbər-Himayini ələ keçirdilər. Soruşdular ki, sən Nəsih Düyməbəndi mənə verəcəhsən, ya yox. Nə qədər üstünə düşdülər, işgəncələr verdilərsə, Əkbər Himayin boynuna almır ki, almır. Axırı Əfqan didi ki, sən söz vermişdin ki, qızını mənə verəcəhsən, düzdümü? Didi, bəli. Mən sənə söz vermişdim, ancax sən əhdinə vəfa etmədin. Sözünün üstündə dayanmadın. Buna görə də mən qızımı öz ixtiyarıma buraxıram. İstiyirsə sənə getsin, istəməsə getməsin. Onsuz da mən əsarətdəyəm. Əkbər Himayinin qızını çağırıllar buların yanına. Əkbər soruşur, qızım, bizə xəyanət eliyən iyidə gedərsənmi? Mən də səni buna verməyə söz vermişdim. Hindi özün bil, getməh istiyirsən, ya yox, bir cavab ver. Qız didi:

– Ata, əgər onnar səni bağışdasalar, sənin həyatının xətrinə mən Əfqana da gedərəm. Bir şərtnən ki, səni

öldürməsinnər.

Əkbər Himayin Əfqana üzünü çevirif didi:

– Oğlum, eşitdin qızımın sözünü.

Didi:

– Bəli, eşitdim. Və üzünü Hüseyin Çöşkərə tutuf didi, mən sənə tabeyəm, qardaş, necə məsləhətdi, elə də edəh.

Hüseyin çox düşündü və belə cavap verdi. Mən onu bir şərtlə öldürmürəm ki, Nəsihi tapıf mənə göstərsin. Ancax bunnan sora mən onu əfv eliyəcəm. Yoxsa əfv eləməh yoxdu. Razılaşdılar. Vəzirin boğazına zincir salan kimi bunun da qolarını, ayaxlarını qandalladılar, qabaxlarına qatıf apardılar. Nəsih dustax saxlanan yerə. Böyüh bir mağaranın yanında durdular. Nəsih Düymənbəndin burda qalmasından 15-16 ildən artıx vax keşmişdi. Burada qəfəsdə saxlanılan Nəsih fikirdən-zikirdən vaxtınnan tez qocalmışdı. Onu saç-saqqal basmış, tanınmaz bir görünüşə düşmüşdü. Hüseyin Çöşkər onu görcəh öpüf bağrına basdı. Mən Hüseyin Çöşkərəm, sənin yanına gəlmişəm, didi. Nəsihin gözdəri yaşardı. Didi:

– Oğlum, bir gün sənin dönüf gələcəyinə inanırdım. Ömür boyu bu ümidnən yaşadım. Əzrayıla can vermədim ki, bircə dəfə də olsun sənin səsini eşidim. Allah-Təala şükür ki, mənə bu günü də göstərdi. Daha mənim yaşamağımın mənası yoxdu. Ancax sənnən bircə xahişim var, Hüseyin. Xətayə xanımnan mənə bircə kəlmə söz denən. Di görüm, sağdımı?

Hüseyin didi:

– Narahat olma Xətayə xanım sağdı, öz sarayında yaşıyır. O yerlərdə əmin-amanlıxdı. Yenə də Həsən xan öz hakimiyyətindədi. Mən orda gözəl əmin-amanlıx qoyuf gəlmişəm. Ölümnən danışma. Allaha şükür et ki, sağsan. Bunun əl-qolundakı zincirləri qırdılar. Nökərlər onu yaxşı hamamda çimizdirdilər. Üst-başını qaydaya salandan sora, yeməh-içməh verif işığa çıxartdılar. İşığa çıxmazdan qabax onun gözdərini bağladılar ki, gözlərinə zərər toxunmasın. Sora isə aşdılar.

Nəsih gözlərini açan kimi Hüsiyinin üzünə baxdı. Didi:

– Oğul, Ulu Tanrı səni bizim millət üçün, İslam dinimiz üçün göndərif. Mən sənə ömrüm boyu cismimlə, ruhumla minnətdaram ki, təkcə mən yox, bizim İslam dünyasını, xudapərəstləri də Əkbər Himayinin zülmünnən azad elədin. Biz işıxlı dünyaya çatdıx. Söz yox ki, bunun birinci səbəbkarı Allah, köməhçisi isə sən oldun. Böyüh bir məclis quruldu. Yeddi gün, yeddi gecə yiyif-içif kef elədilər. Qırx gün, qırx gecə Əkbər Himayinin qızı ilə Əfqana toy elədilər və Əfqanı bu yerlərin şahı elan elədilər. Bunnan sora Hüseyin sözünün üstə durarax Əkbər Himayini də bağışdadı. Onun qızından soruşdular ki, hindi sən dinə, atana nə cəza verəh. Qız didi ki, mən sizə demişdim ki, mən öz atama cəza verməh istəmirəm. Mənim atam o qədər zülm eliyif, o qədər qanlar töküf ki, o qədər qızların gözünü yaşlı qoyuf ki, körpə uşaxları yetim qoyuf ki, ona görə də mən heş nə diyə bilmərəm. O dünyanın dövlətinnən doymadığına görə mən özüm atamın edamını elan eliyəcəm. Qız didi, bir kasa qızılı əridif tökün bunun boğazına, bununla da qurtarsın, getsin. Bilirəm, atam nə qədər bu dünyada yaşayacax, insanların əmin-amanlığına da xələl gələcəh. Bədəməl insan dünyadan köşsə yaxşıdı. Qızın sözü ilə onun bu əmrini icra elədilər. Əkbər Himayinin yerində Əfqan Himayin oturdu. Hüseyin Çöşkər Mirzə İsəncəlanla birgə onlarla görüşüf halallaşıf Heydərabada qayıtdılar. Hamı onnarı böyühı sevinclə, hörmətlə qarşıladılar. Bir gün Hüseyin Çöşkər Mirzə İsəncəlana didi ki, yadındadımı sənə bir şey demişdim. Mən bir qıza vurulmuşdum. O qız artıx həddi-buluğa çatıf. Əgər Abdulla Gülgün şah izn verərsə, atam Nəsihin xeyir-duası ilə mənim də toyumu burda edəh getsin. Razılaşdılar. Mirzə İsəncəlan Abdulla Gülgün şahın yanına elçiliyə getdi. Abdulla Gülgün şah bu xəvərdən şad oldu. Qızı çağırtdırıf soruşdu. Didi, gözümün ağı-qarası qızım, Hüseyin Çöşkərə ərə getməyə razısan? Sən dimə, qızın Hüseyində çoxdan gözü var idi, amma utandığınnan heş nə diyə bilmədi. Axır Hüseyin Çöşkər qıza yaxınlaşıf onunla kəlmə kəsənnən sora qızın razılığını aldı. Bular burda yeddi

gün, yeddi gecə toy etdilər, şənlih düzətdilər, axır ki, diləhlərinə yetişdilər. Bir gün Hüseyin Çöşkər didi ki, artıx xudahafizləşməyin vaxı çatıfdı. Abdulla Gülgün şah nə qədər dil tökdüsə, yalvardısa, oğul, qal burda, taxt-taca sahib ol, didisə də xeyri olmadı ki, olmadı. Axır şah didi:

– Oğul, özün bilərsən. Mənim gözümün ağı-qarası bircə qızım var idi, onu da sən aparmax istiyirsən. Mən istiyirdim ki, sən bu ölkəyə yiyəlih edəsən. Mərkəz bura olsun, yerdə qalan əyalətdər – Təbriz, Xorasan isə sənin valin təyin edilsin. Bu yurd-yuvaya sən sahib çıxasan. Hüseyin didi, diqqətinə görə çox sağ ol, şahım, mən öz vətənimdən, elimdən-obamdan taxt-taca görə dönə bilmərəm. Biləsən ki, mənim vətənim Təbrizdi. Hər səhər Çöşkər dağının zirvəsindəki qara baxmasam, təskinlih tapa bilmərəm. Mən Nəsihi öz əlimnən aparıf öz yurdun, öz sarayın, öz xanımına təhvil verməliyəm. Bu mənim hər şeydən öncə bir insanlıx borcumdu. İstiyirsən burda özün bilən ağıllı bir sərkərdəni tapıf yerimə təyin et. Mənim mərkəzim Təbriz olar. Buraları isə vilayətimə çevirərəm. Mən Nəsihin yerini tutmax istiyirəm, çünki onun yeganə varisi sayılıram. Çox çək-çevirdən sora razılaşdılar. Hüseyinə böyüh təntənə ilə yol tədarükü göründü. Mirzə İsəncəlan didi ki, mən də sənnən Təbrizə gedirəm. Yaşımın ahıl çağı olmağına baxmayarax hələ də subay qalmışam. Bəlkə oralarda bir gözəl qız tapıf evləndim. Ayrıca da Hüseyin, mən həmişə sənin böyründə olmax istəyirəm. Çünki biz can dostuyux. Axır ki, Mirzə İsəncəlan da bulara qoşuldu. Bular bir yerdə hamınan görüşüf, halallaşıf yola düşdülər. Az getdilər, çox getdilər, axır gəlif Təbrizə yetişdilər. Təbriz camahatı Hüseyini görüf bayram etdi. Hər yerdə onun gəlişi şərəfinə şaddıx məclisləri quruldu. Elə o məclislərin birindəcə Mirzə İsəncəlan bir göyçəh qız tapıf evləndi. Qırx gün, qırx gecə bulara toy elədilər. Hamı yedi, işdi, dövrə keşdi, mənim əzizlərim, siz də yeyin-için dövrə keşin. Axırı göydən üç alma düşdü, almalardan biri nağıl söyləyənin, birisi mən qoca kişinin, üçüncüsü yenə bu Valeh dayının olsun.

ŞAH ABBASIN EVLƏNMƏSİ

Şah Abbas evlənmək isdəyirdi. O, Danabəyliyə müraciət etdi:

– Dul bir qadınla evlənmək isdəyirəm.

– Özün bilərsən – Danabəyli dedi.

İki günnən sonra şah yenidən Danabəyliyə üz tutdu:

– Hansısa kənddə kasıb, amma çux güzəl bir qadın yaşayır, get onu mənə gətir. “Onu mən bilərəm” deyib, Danabəyli yula düşdü. Yulda o bir qucaya rast gəldi. Onu salamlayıb dedi:

– Gəlin meşəyə gedib ayaxlarımızı otla sarıyax ki, sürüşək olmasın.

Bir qədər getdikdən sunra qabaxlarına çay çıxır. Danabəyli deyir:

– Gəl çayın üsdündə kürpü tikək ki, ayaxlarımız batmasın.

Quca cavab verdi:

– Kürpü nə üçündür? Çayı elə belə də keçərəm.

Danabəyli qucanı belinə almax isdədi, amma quca buna etiraz etdi. Axşamüstünə bir kənddə gəlib çatdılar. Danabəyli dedi:

– Burdakıların kimin ki, evi var, evinə tələsir, evi olmayannar hara gedəcəklər?

Quca cavab verdi:

– Güy məscidə getsin.

Şah Abbasın dediyi həmin qız da sən demə, bu kənddə yaşayırmış və həmin qucanın qızı imiş.

Quca evinə gəldi. Qızı unnan suruşdu:

– Yulda kimi gürdün?

Quca cavab verdi:

– Səfeh birini.

Və başına gələnnəri qızına danışdı.

Qız dedi:

– Ata, səfeh o deyil, sənsən. Bəs o hara getdi?

Quca dedi:

– Məscidə.

Qız on iki dənə quğal bişirib, dukquz yumurta qaynatdı, bir balaca uşax çağırıb bunnarı məscidə, Danabəyliyə çatdırmağı tapşırdı.

Yulda uğlan quğallardan və yumurtanın birini yedi. Danabəyli bağlamanı aldı və uşağa dedi:

– Sizin yerlərdə qadınnar səkkiz aylıq duğur, il isə, deyəsən, on bir aydan ibarətdir.

Oğlan qayıtdı və bütün bunnarı qıza danışdı. Qız başa düşdü ki, uşax quğalın və yumurtanın birini yeyib.

Səhər qızın anası bir evə duğuş qəbul etməyə getdi. Atası isə qunşuya burc pul almağa getdi. Qız başını yumağa başdadı. Bu vaxt qapı açıldı və asdanada bir kişi güründü.

– Lənətə gələsən, ata, iki qulaxlını qapıda saxlamadığınçün – deyə qız dilləndi.

– Bəs bu ikiqulaxlı dediyin nədir? – gələn suruşdu.

Qız dedi:

– İki qulaxlı məxlux itdir. Əgər itimiz ulsaydı, sən indi mənim başımı gürməzdin.

– Anan haradadır?

– Gedib bir dənədən iki eləməyə.

– Bəs atan hanı?

– Getdi ki, dusdan düşmən qazansın.

– Deyəsən, sizin bacanız əyridir axı?

– Hər halda tüsdümüz düz çıxır.

– Bəs bu bir dənədən iki eləmək nə deməkdir?

– Bu duğuş qəbul eləmək deməkdir. Dusdan düşmən qazanmaq isə burclu qalmax deməkdir.

– Dünyada ən güclü nədir?

– At.

– Necə bildin?

– Bizim evimiz yul kənarındadır. Yuldan atdar keçəndə evimiz titrəyir.

– Bəs həyatda ən şirin nədir?

– Ərlə arvad.

– Bəs bunu haradan bilirsən?

– Balaca ulanda atamla anamın urtasında yatardım. Atam anama tərəf çəkiləndə mənim qulumu əzdi. O vaxdan hələ də izi qalıb.

– Sən elə mənə lazım olan adamsan – kişi dedi. Mən Şah Abbasın adamıyam. O mənə beş manat pul verib deyib ki, mən həmin beşdiklə ona bir quyun, at üçün xalı və bir şiş də kabab alım.

Qız bu beşdiyə bir quyun alır, unun yununu qırxıb xalı tuxuyur. Bir sapand gütürüb sürü olan tərəfə daş atmağa başlayır. Çubannar suruşullar:

– Ay qız, o əlində tutduğun nədir?

Qız cavab verdi:

– Bununla canavarları qorxutmax olar.

– Bunu neçəyə satarsan?

– Beş manata.

Çobannar qıza beş manat verib yula salıllar. Qız quyunu axdalayıb onnan bir şiş kabab hazırradı və bütün bunnarı Danabəyliyə verib dedi:

– Quy sənin dustun özü belə bir xalı toxuyub, künçünə də mənim adımı qeyd etsin. Danabəyli qayıdıb bunnarı Şah Abbasa deyir:

Şah Abbasın qızın dediklərinə tabe ulmaxdan başqa əlacı qalmır. O, belə bir xalı tuxudub qıza gündərdi. Şah qızla nişannanıb bir müddətdən sunra tuy çaldırdı. Onunla bir neçə il yaşayannan sunra bir gün una deyir:

– Mən yeddi illik uva çıxıram. Sən bu müddətə mənə bir uğlan duğ. Sənnən uşax, madyannan qulan, itdən isə küçük isdəyirəm. Qız cavab verdi:

– Yaxşı yul, get.

Qız ərinə yul tədarükü gürdü.

Şah Abbas yula çıxan kimi arvadı da kişi paltarı geyib onnarın ardınca getməyə başdadı. O, vəziri şahın yanına göndərdi:

– Şaha de ki, axşamı ununla kart uynamağa gələcəm. Amma nəbadə, məni satasan.

Axşam o, şahla kart uynamağa gəldi. Uzun müddət uynadılar. Şah öz arvadını tanımadı. Qız uradan həyətə çıxdı. Öz madyanını şahın atı ilə, itini isə onunkuilə bir yerdə quydu. Özü isə bilavasitə paltarını dəyişib şahı yuldan çıxartmağa başdadı. Şah Abbas əlbətdə öz arvadını tanımadı.

Xülasə, bir müddət sunra qız şaha bir uğlan duğdu. Həmin müddətə madıyan da, it də bala verdi. Yeddi il keçdi.

Cavan xanım bu müddətdə öz ərini güzləyərək yaşayırdı. Bir dəfə onun yanına bir çapar gəlib ərinin kəmərini una verdi. Xanım başa düşdü ki, əri təhlükədədir. Çapar una bir namə də verdi. Xanım naməni oxudu: "Mən təhlükədəyəm, bir dərin dərədə oturmuşam".

Şahı tura onun bir əleyhdarı qunax çağırarax salmışdı.

Xanım yenə kişi libası geyinib, ərinə küməyə gəldi. Şah Abbası tura salannarı tapdı. Şahın arvadına insan əti yedirtmək isdədilər, amma o yeməyə əlini də vurmadı. Onu da dərəyə atmax isdədilər, amma o, hamını üldürüb, ərini xilas etdi.

Şah Abbas evinə qayıtdı. Gürdü ki, evində hər şey onun isdədiyi kimdir. Həm bir uğlu, həm də atı və iti duğulub.

Şah onun üç arzusunun da necə yerinə yetdiyini yuxlamax qərarına gəldi. Arvadı hər şeyi danışmağa başladı:

– O igid ki var idi, sənlə kart uynamağa gəlmişdi, o mən idim. Sunra da əynimi dəyişib sənlə geçələdim. O, madyan da, it də sənkilərlə qalmışdılar.

Şah çux razı qaldı və arvadını tərifledi.

Bir neçə günnən sunra Şah Abbas yenə uva çıxdı. Bu

müddət ərzində unun arvadı xəsdələnir. Heç kim şaha bu xəbəri çatdırmağa cürət etmir. Şah səyahətqabağı demişdi ki, kim onun arvadının xəsdə və ya ülüm xəbərini una desə, unun buynunu vurduracağam. Bu xəbəri yalnız onun qardaşı Danabəyli una çatdırmağa getdi. Şah Abbası gürüb uxumağa başladı:

– Bir qəfəsdə bir canlı zəifləyir. Kəfəni nədən tikək? Qəbir üçün lüvhəni nədən edək?

Şah Abbas dedi:

– Kəfəni ən qiymətli parçadan tikmək, lüvhəni isə ən bərk ağacdan düzəltmək lazımdır.

Beləliklə də Şah Abbasın ağıllı və quçax arvadını heç cür xilas edə bilməlidər. Şah uzun müddət yas tutdu və evlənmədi.

RÜSTƏMZAL

Həyat yoldaşı ölmüşdü, üç oğlu, bir qızı qalmışdı. Qızı bir dənə oğlanı şəhərdə görəndə utanırdı, başını aşağı dikirdi. Bunu buna yaxdılar ki, bunun bunnan əlaqəsi var, ona görə bunu görəndə başını aşağı dikir. Bu yaxma qızın atasına da gəlib çatdı. Didi: "Öldürəjəm, gənə adım tarixdə qalajax ki, qızı pis yolun yolçusu oldu, qızını öldürdü". Ölçdü-biçdi, diyir, bir həkim çağırdı yanına. Didi: "Elə bir dərman varmı ki, atam, sifətim dəyişilə, məni tanıyan olmaya, amma güjüm özümdə qala?" Didi: "Var". - "Sora elə bir dərman da varmı ki, atam, güjüm də qala, sifətim də özümə gələ?" Didi: "Var. Hər şeyə mümkün var". Bu, diyir, dərmanı atdı, gejəliknən öydən çıxdı qaçdı, şahlığını da buraxdı ki, öldürəjəm, ləkə qalajax boynumda ki, pis yolun yolçusu idi, öldürdü qızını. Öldürmüjəm, ləkədi da, xəcalət çəkir. Bu söz dedi-qodu kimi şəhərdə danışılır ki, Rüstəmzalın qızı uje bir dənə oğlanla əlaqədədi.

Getdi bir ölkəyə çıxdı, bir gəlinin öyünə. Dedi: "Gündəlik pulunu verəjəm, get bazarrıx elə, gətir, bişir, sən də ye, mən də yeyim da". Bir gün bu gəlin ah çəkir. Ah çəkəndə diyir: "Noluf?" Didi ki, bizim suyun başında bir əjdaha oturuf, ona ayda bir dənə qul, bir də aş verilir. O qulnan aşı yeyəndə bir müddət su buraxılır bizə, su götürürük. Bu gün padşahın yeganə bir qızı var, o gedir ora. Camaat üzə dirənif ki, bizdə uşax qalmadı axı, amma sən vermirsən uşax. Padşah, diyir, qızını göndərirdi. Rüstəmzal çaparax durdu düşdü yola. Gördü ki, ağlıya-ağlıya bir qız gəlir, yeməyi gətirir. Dedi: "Ay qızım, gət bəri". Dedi: "Əjdaha sənsən?" Dedi: "Yox, əjdaha özü ajıb gələjəh bəri. Gət bəri". Aşı yidi, diyir. Qoja kişi idi da, diyir. Başını qoydu qızın dizinin üsdünə, didi: "Əjdaha ajanda duruf gələjəh, onda məni çağırarsan". Qız dedi ki, gələn var. Oyandı gördü əjdahadı. Tutaşıllar, diyir, əjdahaynan. Əjdahaya didi ki, yer üzündə kimnən qorxursan? Dedi: "Rüstəmzaldan". Dedi: "Qarşındayı o döylü ki?" Dedi: "Yox, sən sapsarı, kirə udmuş

adama oxşuyursan". Əjdahanı da öldürdü. Qıza dedi ki, yer get, amma heş kimə deməginən ki, əjdahanı öldürdülər. Danışma ha. Dedi: "Danışmaram". Gənə ayrıldı getdi o gəlinin öyünə. Bir arvadın öyündə olurdu, arvad bişirirdi, bu yiyirdi. Atı da yava idi, buraxmışdı kolluğa, otduyurdu at orda. Qız gəldi atasına didi ki, əjdaha dedi yer get, səni yemirəm, sən padşah qızısan. Atasına belə deyir ha. Su da gəlir. Padşah qızını çağırtdırır deyir ki, ya boynuu vurdurajam, ya da deməlisən bu nə sirrdi. Dedi: "Ata, bir dənə kişi idi, əjdahanı öldürdü. Öldürəndə də belə bir söz işdətdi ki, yer üzündə sən kimdən qorxursan? Əjdaha da didi ki, Rüstəmzaldan qorxuram. Mən döyüləm ki? Didi, yox, sən kirə yimiş adama oxşuyursan". Dəyişilmişdi da rəngi. Dedi: "Mənim ölkəmdən olan camaatın hamısı mənim qızımın gözünün qabağınnan keçsin. Bu döylü, bu döylü, axırda dedilər ki, filan qoja arvadın bağında at otduyur, bəlkə o atın sahibidi. Dedi: "Elə o olar, gedin götürün gəlin". Gələn kimi qız dedi ki, budu. Padşah bunu saxladı. Dedi ki, sənə nə lazımdı? Dedi: "Mənə bir otax ayırajaxsan, atıma bir mehtər ayırajaxsan, bir də bir adam ayırajaxsan mənim biş-düşümü elijəh". Dedi: "Bu şeylər olajax hazır. Sən mənim oldun pəhlivanım. Harda çətinliyim olsa, kimsə mənim üsdümə müharibəyə gəlsə, onun qarşısına çıxarsan". Rüstəmzal dedi: "Oldu, çıxaram". Bir dəfə də getdi müharibəyə, qələbə çaldı gəldi. Qutarıf gələnnən sora gejə, diyir, ayləsi yadına düşdü, uşaxlar yadına düşdü. Gələsi oldu. Didi: "Mən adres verəjəm, hər nə olsa, xəbər verərsən, mən sənin dadına çataram. Mən öyə getməh isdiyirəm, mənim ayləm var, uşaxlarım var". Buna bir dəsdə adam, pul-para verif yola salır. Gəldi gördü ki, qırx dənə çadır bir qurulufdu, camaat qaynaşır burda, amma bir çadır da tək qurulufdu, aralıdı. Diyir ki, bu tək çadırın üsdünə getsəm dijəhlər ki, bu nə özünnən deyən adamdı tək çadırın üsdünə gedir məlumat almağa. Qoy bu çox çadırın üsdünə gedim. Gəldi didi ki, bu nə sirrdi? Didi ki, bizim padşahımız Rüstəmzalın qızını isdiyir, - Rüstəmzal da

bunun özüdü ha! Sifəti dəyişilif axı, tanımırlar, - razılıx vermillər. Qardaşdar deyir nə vaxt bizim və bacımızın arxası yerə basılar, onda qız sizin olar. Sabahlarım meydan qurulajax burda, pəhlivannar onun oğlannarının və qızının arxasıın yerə verəjəh, onnan sora qız razılıx verəjəh. Onunçün yığılıf camaat bura. Didi ki, gedin padşahınıza deyin ki, Rüstəmzalın üç oğlunun və bir qızının arxasını yerə vursam mənə nə verər? Diyir: "Nə isdəsən verər. Xəzinəni sənə açıx elan edər". Diyir: "Yenəjəm oları mən". Buna çadır qurdular, atına mehtər, biş-düş üçün ayrı bir adam ayırdılar. Səhər birinci oğluynan çıxdı, diyir. Günorta vurdu oğlunun arxasını yerə, əlini bağladı, gətdi özü olduğu çadıra. İkinci gün çıxdı, diyir, ikindi vaxtı, gün batabatda oğlunun arxasını yerə verdi, bunu da gətirdi çadıra. Üçüncü gün üçüncü oğlunun arxasını verdi yerə, bunu lap axşam verdi yerə. Dördüncü günü qızıynan güləşə çıxdı. Axşama kimi qızın arxasını yerə verəmmədi. Beşinci günü günorta qızın arxasını yerə verdi. Verəndə qız ağladı, diyir. Ağlamaz axı, pəhlivan ağlamamalıdı basılanda. Deyir: "Mən ona görə ağlıyıram ki, Rüstəmzalın nəsli batdı". Belə diyəndə didi ki, batmaz, inşallah. Qızın da əl-qolunu bağlıyıf aparmışdı oğlannarın yanına. Gejə, diyir, dərmanı atdı, sifəti özünə gəldi. Getdi böyük oğlunu belə tərpətdi. Oğlu didi: "Ata gəlifdi". Rüstəmzal didi: "Səssiz olun". Oğlannarını, qızını da durğuz-du. Deməli, dar ayaxda ata gəlif çatdı da. - "Səhər uyuşarsız qoşunun canına". Qız dedi: "Padşahın üsdünə özüm cumajam". Gənə Rüstəmzalı taxta qaldırdılar. Buların öyləri ayrı idi axı. Qız atası olmuyanda bir xalı toxumuşdu. Qız dedi ki, atam başının dəsdəsiynən qonağımız olsun, bizə gəlsin. Yüz adam-nan gəlmişdi atası. Yidilər, işdilər, gedəndə qız dedi: "Ata, sən çöldə olanda bir xalı toxumuşam. Bu camaata icazə ver xalının üsdündə otursun hamısı. Yüz adam oturdu diyir. Qız xalının bu ucunnan tutuf dartdı. Dartanda bir oğlanın altındakı xalı cırıldı, qalanı çıxıf gəldi. Doxsan dokquz adam töküldü ayna-bayna, o oğlanın altındakı xalı isə cırıldı, altında qaldı. Çöyrüldü dedi:

"Qızım, bu nə olan şeydi?" Dedi ki, ata, mən o oğlanın güjünü bilirəm, o oğlan öz güjünü bilmir. Mən onnan həmişə həya eləmişəm ki, mənim atamı yeri gələndə basar. Onun üçün həmişə başımı aşağı eləmişəm ki, mən sənə tabeyəm. Mənim atamı sən basarsan. Görürsən, palaz onun altında cırıldı qaldı". Onnan sora didi: "Qızım, səni o oğlana verirəm. Oğlan, nə diyirsən?" - "Mən razı". Qız dedi: "Yox, kim mənim arxamı yerə versə, ona gedəjəm". Oğlan dedi: "Başqa qadın nikahsız başqa oğlana naməhrəmdi. Nikahım yoxsa mən sənə əl vurammaram". Belə deyəndə: "Qızım, sən nə deyirsən?" - "Onun fikrinnən mən də razıyam, müsəlmançılıxda başqa qa-dına nikahsız əl vurulmamalıdı". Onnan sora qızı ona verdilər.

AXSAXCA CEYRAN

Biri vardı, biri yoxdu, bir dənə kətçi oluf da. Kətçinin də gəlif arvadının iki uşağı oluf: biri oğlan, biri qız. Qızın adı Bibilcan oluf, oğlanın adı daa bilmirəm, Məhəmməd oluf deyəsən, Məhəmməd. Nəysə, buların anaları ölüf. Uşaxlar yekəliflər. Analları ölənnən sonra kişi gedif öylənif da, arvad alıfdı. Arvad alıf, bu arvad da bu uşaxlara Allahın gününü vermiyif da, ögey anadı, Şəhla (Gəlnini nəzərdə tutur – top.) mənə vermiyən kimi. Neysə, görüf yox. Bu uşaxları bu arvad tələf eliyəjəhdi. Qız diyif ki, qağa, gəl qaçax. Öydən çıxıf qaçax. Qaçıf geeflər ey, nə bilim, çölün düzünə-zada çıxıflar. Qardaşı diyif ki, ay bajı, sussamışam, sussundan yanıram. Diif ki, işmə, it irizidi, it olarsan. Bir az geeflər, gənə rast gəliflər. Diif ki, işmə, at irizidi, at olarsan. Nə başı ağrıdım, geef çıxıflar bir dənə ceyran irizinə. Diif: "Qardaş, işməginən, ceyran irizidi, axsax ceyran, sən axsax ceyran oljaxsan". Diif: "Yanıram, işməliyəm". Bəli, bu içif oluf bir dənə ceyran, axsax ceyran. Gediflər, bir dənə dərəyə irast gəliflər. Bu dərənin də qırağında bir dənə ağac oluf. Qız çıxıf ağacın başında oturuf qorxusunnan da. Amma bu ceyran geef otduyurmuş, gəlif bu ağacın divində yatırmış.

Bir günnəri şah oğlu Şah Abbas vəzirləri ilə atı götürüf gedir sulasın. Geef sulamax isdiyəndə görüf suyun üzünə şögə düşüf, at da suyu işmir. Nəkqədər eliyirsə su işmir ki, burda şögə var. – "Ay Allah, bu şögə hardan düşüfdü?" Ayna baxarlar, bayna baxarlar, nə qədər eliyərsə görməzdər. Birdən vəzirin biri diyər ki, padşah sağ olsun, ağajda elə bil nəsə görükür ey. Baxıf görüflər ağaşda bir qız oturuf, günə deyir sən çıxma, mən çıxım, aya deyir sən çıxma, mən çıxım. Şah oğlu Şah Abbas diyif ki, düş aşağı. Diyif: "Düşmərəm". Diyif: "Səə diyirəm düş aşağı, görüm sən kimsən, nəçisən, bu ağaca niyə çıxmısan?" Diyif: "Vallah, biz bir bajı, bir qardaşıx, – elə orda

danışıf da, – bəs bizim ögey anamız bizə Allahın gününü vermiyif, onunçün şey eləmişih, öydən qaşmışıx, gəlmişih. Yolda gələndə qardaşım sussuyufdu, axsax ceyranın irizinnən su içifdi, olufdu bir dənə axsaxca ceyran". Diyif: "Zərəl yoxdu, qəbulumdu, düş aşağı". Düşüfdü. Diyif ki, sənnən evlənəjəm da, aparıf evlənəjəm. Geefdi. Aparıf evlənif. Ceyran da gündüz otduyuf, gejə burda yatırmış da. Neysə. Gəlib gəlinin boyuna uşax düşüfdü. Qonşuda da bir keçal qız var idi, heş demə bu isdiyirmiş bu şah oğlu Şah Abbası. Bir günnəri bunu toladar ki, gedəh dənizdə çiməh. Gedillər, çimməh isdiyəndə bir az ayana getmiş bunu gumbulumgup itəliyir ki, çıxsın getsin. Bu da gedən kimi, heş dimə naxa balıx var imiş orda, naxa balıx bunu udur. Hə. Ha bir gün belə, ha iki gün belə, keçal qız da başını-gözünü sarıtdıyıf gəlir. – "Ay aman ölürəm, ay aman ölürəm". – "A bala, noldu səə öləsi oldun?" Diyif: "Gərəh mən axsaxca ceyranın ətini yeyəm. Onu kəsəsən yeyəm". İndi qızı itəliyifdi, isdiyir qardaşının da dalınnan dəysin da. Neysə, beləcənə. Bu da diyir ki, aaz, kiriginən, adam da qardaşının ətiin yiyərmi? Diyir: "Yox, mən isdiyirəm". Diyif: "Helə?" Diyif: "Hə". Diyif: "Yaxşı, da nağarax, kəsəh, kəsəh". Kəsməh isdiyəndə ceyran diyir: "Şah oğlu Şah Abbas sağ olsun, ikicə kəlmə sözüm var. Məən ora aparın, dənizin qırağına, ikicə kəlmə sözümü deyim, onnan sora kəsin". Gediflər. Bular da bununla gedifdi. Qız ətcəməçəndi da, öydən pal-paltar götürüflər. Götürmüyüflər hələ. Gediflər. Ordan ağzını diriyif suya, diyif: "Bibilcan!" Diyif: "Can Bibilcan!" Diyif: "Keçal qız axsaxca ceyranın ətinə yerikliyir axı". Diyif: A qardaş,

Naxa məni udufdu,
Qarğı saçım burufdu.
Bəy oğlu bəy Məhəmməd
Dizim üsdə yatıfdı.

Ora gedən kimi uşağı oluf, adını da Məhəmməd qoyuf. – "Ə, bir də di". Üş dəfə diyif heylə. Sora diyiflər, torçu gəlsin, çıxardax da bunu. Torçu gəlif, çıxardıflar. Naxanı yarıf çıxardıflar arvadı qarnınnan. Götürüf gəliflər öyə. Qırx gün, qırx gecə təzdənnən bu gəlinə toy eliyiflər, qucağında da uşağı var da. Onnan sora, diyir, keçal qızın da başını qatıxlayıflar, mindiriflər eşşəyə, dalı eşşəyin ağzına tərəf, üzü götünə tərəf, diyif: "Get, sənə yaxşı yol". Eşşəyi də çıxardıflar qapıdan, o getməhnən gedif. Olar da burda firavan yaşasın, biz də burda firavan yaşıyax.

Böyüh cijim danışıf, cijimin cijisi.

ANDIN GÜCÜ

Ərəbistannan bir nöyüt satan gəlir bir kəndə, şəhərə. Orda, diyir, bu, nöyütünü satıb öyə qayıdan vaxdı yol bağlanır, quldur olur yolda. Bu özü-özünə fikirrəşir ki, mənim bir az pulum var, öydə də balalarım var, bunu hara eytibarrı yerə qoyum ki, qayıdıf gəlim onu götürüm. Nəsə. Fikrinə gəlir ki, bir eytibarrı mollaya verim. – "Bu kəntdə molla kimdi?" Diyirlər: "Filankəsdi". Gəlir mollanın yanına. – "Salammə-leyki". – "Əleykimət salam". Oturur. Diyir, yiyir-içillər. Diyir: "Molla əmi, belə-belədi". Diyir: "Ayıb döyülmü, de bax, sandıx". Açır sandığı, diyir: "Gət qoy bura, hansı vaxt istəsən gəlif götürərsən". Qoyur sandığa, gedir sabahdannan öylərinə.

Gedir beş aydanmı, on aydanmı, quldur-zad olmur, əmin-amannıx olur, qayıdır gəlir. Gəlir bir az neft gətirir, satır eliyir. Axşamı gənə həmin mollaya qonax olur ki, sabahdan gedəjəhdi öyünə, pul aparsın. Yiyillər, içillər, diyir: "Qardaş, mən, Allah qoysa, səhər tezdən gedəjəm, elə amanatdan ötəri gəlmişəm, istiyirəm amanatı da aparam". Diyir: "Nə amanatdı u?" Diyir: "Bura qoyduğum pulu". Diyir: "Yanılmısan sən". Diyir: "A kişi, səən adın Vaqif, özün də molla, bu öydə bunnan ikinci dəfədi sənnən çörəh yiyirəm. Burda belə-belə söhbət oldu, sən də didin qoy sandığa, bax bu sandıx, bu da sən. Qoydum sandığa, çıxdım getdim. İndi gəlmişəm". Diyir: "Yox, mən döyüləm". Danır bunu.

Hindi bizdə məhkəmə var da, müstəntiq, məhkəmə, vəkil, o vaxtı qazı idi. Buların işi qazıya düşür. Gedillər qazıya. Bu qazı da o vaxdı and içmə var idi. Mən and içərdim ki, bu çaydan məən xəbərim yoxdu, səni əmin eliyərdim. Yox əgər xəbərim varsa, and içə bilməzdim qorxudan. Qazı bulara and verməli olur. Həmən ərəbdi, görür ki, molla and işməh isdiyir. Bu əlini qaldırır. Qazı diyir: "Buyur". Diyir: "Qazı əmi, mən görürəm ki, molla and işməh isdiyir. Mən etiraz eləmirəm. O

and işsin ki, yüz ildən sora, min ildən sora gələn müsəlmanın dininnən olsun mənim dinim". Qazı çox fikirrəşir ki, ə, bu nətəri and işməhdi. Diyir ki, min ildən sora, yüz ildən sora gələn müsəlmanın dininnən olsun mənim dinim. Diyir: "Ərəb qardaş, bizə üş gün vaxt ver". Diyir: "Lap bir həftə vaxt verirəm". Diyir: "Səə onda yaxşı yol". Diyir: "Molla". Diyir: "Bəli". Diyir: "Sən gördün o nəyə and verdi səə?" Diyir: "Vallah, eşitdim". Diyir: "İndi sabahları bu yolu gedərsən, nə görsən gəlib məə söylüyərsən". Diyir: "Baş üstə".

Çıxır şəhərdən bu yolu gedir. Görür bir it yatıfdı, qancıx it, yolun qırağında, hart eyləmir. Ağzını açmır, amma it səsi kəndi götürübdü, dünyanı. Çox gözdədi, heç bir şey görmür, gəzir, qayıdır gəlir qazının yanına. Diyir ki, hal-qəziyyə belə-belə. Diyir: "Bu bir. Sabannarı bu dərə yuxarı get, nə görsən gəlif məə diyərsən". Diyir: "Baş üstə" .

Gedir, diyir, bu, dərə yuxarı. Gedəndə görür ki, bu – ala qarğa diyirik, – bu düşür bir iylənmiş cəmdək var, onun üs-dündə yiyir, çıxır Yasini-şərif oxuyur. Axı bu dinə düz gəlmir, şəriyətə düz gəlmir. Qayıdır gəlir, bunu da qazıya danışır. Diyir: "Yaxşı, sabahları bu tərəfə get". Gedir görür düzəngah yerdi, yaxşı bostandı, yemişdik, sapsarı. Elə bil cənnətdi. İysinnən adam diyir heç gəlməh istəmir. Ürəyi isdiyir, bu yemişin birini kəsir. Görür bütöv yaradı içi. Çürüyüfdü, yoxdu. Belə-belə on dənə, iyirmi dənə yemiş kəsir, bir şey yeyə bilmir. Qayıdır gəlir. Bunu da, diyir, qazıya söylüyür. Diyir: "Molla". Diyir: "Bəli". Diyir: "İndi qulax as, bunnan sonrasını özün bilərsən. Bu birinci günü ki, didin ha, it yatmışdı, hürmədi, amma it səsi dünyanı götürmüşdü. Böyüh duran yer-də balaca özünü öldürəjəhdi. Helənçih dünya əmələ gələjəhdi qarşıdan. Demək, böyüyün sözünə baxan olmujax. U küçüklər itin qarnında hürən kimi, bax uşaxlar elə olajaxdı. İkinci, u ki Yasini-şərif didin ha, molla olmuyajaxdı, üzr isdəyirəm, lotulux eliyəjəhdi, qumarbazdıx eliyəjəhdi, nə pis yollara

gedəjəhdi, elə ki yaşdaşdı "mən mollayam", bir-iki dənə hərif bilir, kitab oxuya bilir, "mollayam". Bax unun kimi mollalıx eliyəjəhdi. Üçüncü də, u yemiş didin haa, mən səə dost diyirəm, qardaş diyirəm, gediş-gəlişimiz var, ürəyim sənnən ötrü ölür, amma bayannan ayağının altını qazıram ki, dərin olsun, tez yıxılsın, elə orda da ölsün da, yuxarı qalxmasın. Bu da bu, indi sən özün bil. İsdiyirsən pulu ver, isdiyirsən ulardan ol". Diyir: "Qazı əmi, sən allah, o kişiyə de, gəlif aparsın getsin, pul öydədi".

Səhərdən ərəb gəlir, diyir ki, bəs belə-belə, get götür. Gəlir, diyir, pulunu götürür, çıxır gedir.

İndi həmin zamanadı. Mən özüm-özümə təfsir eliyirəm ha. Babamın sözünü saxlamışam. İndi unu təfsir eliyirəm, görrəm ki, babamın sözdəri düz gəlir.

İSGƏNDƏRİN BUYNUZU

Diyir bir dənə paccah var imiş, o paccahın da buynuzu var imiş. Amma bunun sifətini heş kəs görmür. Ancax onun yanına girif çıxan qulluxçusu görüfdü. Bir dənə də dəllək var imiş. O görürmüş, bir də özünün yoldaşı, yanına girif çıxannar. Diyifmiş ki, bircə kəlmə ağzıızdan eşitsəm onnan sora boynuzu vurajam. Heylə də eliyirmiş ha. "ünnərin bir günündə bunun üzünü qırxan dəllək ajalı yetif ölür. Onnan sorasına gedillər neçə dənə dəlləh gətirirsə, üzünü qırxan kimi boynunu vurdurur da ki, mənim sirrimi çıxarmasın. Bilif ki, nətəər olsa, danışajax. Axırı dünyada dəlləh qalmıyıfdı. Bircə dənə dəlləh qalıfmış. Diyib ki, bəs nağarax, nətəər eliyəh. Bu dəlləyi gətirsəh, öldürsən, daa dəlləh yoxdu. Diyir: "Gətirginən, ona bir tapşırıx verərəm". Deməli, dəlləh də çoban imiş. Dağda qoyun güdürmüş. "ətiriflər bu dəlləyi, başdıyıfdı üzünü qırxıfdı. Qorxuf eləmiyifdi. Diyifdi ki, səni yeri qazıf yerin altına girsən boynuu vurajayıx əyəmnəri bu sirri bir kəsə desən. Paccah buna tapşırıfdı. Diyif ki, yaxşı, danışmaram. Gəlifdi, paccahı görüfdü heylə, ürəyi partdıyır. Nağarsın? Bunu nətəər danışmasın? Diyifdi: "Nənə, ay nənə. Məən ürəyim partdıyır ey. Mən öləjəm". Cavan oğlan imiş. Qoyun güdürmüş. "edə bilmiyif qoyun-zad güdməyə də. Diyif: "Noluf ay oğul, səə. Dərdin nədi?" - nənəsi diyif. Diyif ki, ay nənə, səə disəm, heş kimə diməzsən ki? Mənim bir dərdim var, ürəyimi partladır. Məə "Quran"a and verifdi paccah, ona görə də mən onu danışammaram. İxtiyarım yoxdu, səə də danışammaram. Diyif: "Oğul, indi ki, məə dimirsən, getginən bir quyuya danışginən. Bir quyu qaz, ona danışginən. Danışannan sora üsdünü torpaxlaginən". Heylə də eliyir. "edir dağın döşündə quyu qazır. Quyuya diyir ki, neçəsini öldürüfdü paccah. Mən getdim paccahın üzünü qırxmağa. Paccahın buynuzdarı var. Zülqəreynənin buynuzu var. Eşşək qulaxları kimi də qulaxları var imiş. Eşşək qulaxları var. Danışıf, üsdünü

də torpaxlıyıf. Möhkəm torpaxlıyıf, daa burdan səs çıxmaz. Çıxıf gəlif, arxayın oluf da. Paccah hər gedəndə buna xələt verif, o yan-bu yan, qızıl-gümüş verif da. Yaxşı oldu ki, danışmadı mənim sirrimi.

Bir günnəri başqa bir çoban - bu, daa heş çobannıx eləmir - qoyun güdürmüş dağda. "örüf ki, yaxşı bir qarğıdımı, qamışdımı var. Başdıyır, diyir, bunnan yontalıyıf tütək qayırmağa. Çaldıxca görür ki, İsfəhan paccahının eşşək qulaxları var, Zülqəreynənin eşşək qulaxları var, buynuzu var, tütək elə bil oxuyur. Heylə danışır. Vay, bütöv yayılır səs hər yerə ki, tütəkdə bir şey diyillər. O nə sözdü? Çağırtdırır həmən dəlləyi yanına. Diyir: "Gedin tütək çalan çobanı bəri çağırın". Çağırıllar çobanı. Diyir ki, səə bunu kim diyif, kim danışıfdı? Diyir: "Paccah sağ olsun...". Demək, başını-zadını bürüyür, heç harası görünmür, bircə sifəti, üzünə də şey salırmış, sifətini göstərmirmiş. Pərdənin dalında danışırmış. "Quran"a and içəjəhsən ki, görək səə kim diyifdi. Diyif: "Paccax sağ olsun, "Quran"a and iç diyirsən, and içim. Boynumu vurdurursan, vur. Dağda qoyun güdürdüm, gördüm qarğı var orda. Qarğıdan kəsdim, tütək qayırdım, çaldım, belə oldu". - "Bəs bu nətəəri oluf?" Diyif: "Paccah sağ olsun, ürəyim partdıyırdı, ölürdüm. "edif mən onu dağın döşündə quyu qazıf quyuya danışmışdım ki, burdan səs çıxmaz, heş kim eşitməz. And içirəm, genə də and içirəm ki, heş kimə danışmamışam". O oğlan da diyir ki, mən onu görməmişəm, tanımıram da. Heş nə də dimiyif. Onnan sora paccah diyif ki, doğrudan da, sirr batmır. Nolur olsun, sirr batmırmış. Elin, camaatın ağzınnan yığmax olmurmuş. Paccah olmuyuf nə olsan da, yenə sirr batmırmış. Oları da azad eliyir, boynunu-zadını vurmur. Diyif: "Da qojalmışam. Kim nə bilirsə, bilsin".

BƏRƏKƏT SURFASI

Diyir ki, arvada, mənə çörəh bişir, su qoy, mən yol gedirəm Allah-taladan bərəkət surfamı alajam. Okqədər gejə-gündüz yol gedif, çörək qutarıf, su qutarıf. Qurban olduğum Cənabi Əli bir bulax vardı, bulağın da üsdündə söyüd ağacı. Qəmbərnən oturar onun dibində. Görər bu kişi çox həlak oluf susunnan, acınnan gedir. Yolluyur Qəmbəri ki, Qəmbər də bununla gəzəndi, Qəmbər, get o kişini götür, gəl bura. Gəlib: "Salam əleyki". "Əleykimət salam". - "Əmi, hara gedirsən?" Diyir: "A bala, vallah, sən mənim dərdimə qalan deyilsən. Niyirsən, gedirəm". Diyif: "Yox, de görüm". Diyif: "Allah-taladan bərəkət surfası almağa gedirəm". Diyif: "Gəl gedəh oturax orda bulax var, yi, iç, sərinnəşəh". Diyif: "Yox". Gedif. Gənə çox gedib, az gedib, həlak oluf. Gənə qurban olduğum Cənabi Əli göndərib bunu. Get, barmaxlarını belə elə, görəjəh məni. Gəlif, yenə salam verif, salam alıf. Diyif: "Əmi, gedək bərəkət surfanı mən alıf verim". Diyir: "Yox, sən kimsən ki mənim bərəkət surfamı alıf verəsən?" Diyif: "Əlimin arxasınnan bax, nə görürsən?" Baxıfdı. Diyif: "Bulaxdı, bulağın başında bir şəxs oturuf". Diyif: "O qurban olduğum Cənabi Əlidi, səni çağırır". Ordan kişi qumnan çəkmələrini dolduruf dizin-dizin gedif. Diyif: "Ya Əli, qəza oluf, bağışda". Diyif: "Allah bağışdasın". Burda yeyif-içif, diyif ki, əmi, bilirsən nə var? Diyir: "Xeyir. Diyərsən, bilərəm". Diyif: "Gedəh bir şəhər var, orda məni qul adıyla satginən. Həmin şəhər əhlini müsürman elijəm". Diyib: "Ya Əli, mən kor olaram səni qul adıyla satsam". Diyif: "Səə diyirəm ki, məni qul adıyla sat, səən bərəkət surfanı mən verəjəm". Diyib: "Ay qul alan, ay qul alan". Yəhudi çıxıf ki, mən alıram. Neçəyə? Diyif: "Qızılnan bərabər". Bunun xəzinəsini bir gözünə qoyuf, qurban olduğumu bir gözünə. Gənə bəs eləmiyif. Qurban olduğumun özünün barmaxçılı var idi. Çıxardıf atıf ora onnan

sora barabar oluf. Diyif: "Əmi, isdiyirsən qal, isdiyirsən get". O qədər xəzinəni götürüf gedif kəndə, özünə öy alıf. Diyif: "Qulum, bilirsən nə var?" Diyif: "Diyərsən, bilərəm". Diyif: "Yaxın dur, diyim". Diyif: "Birinci, Çığırğan Əlinin başını məə gətirərsən". Diyif: "Allah səə nəhlət eləsin. O sorakı işdi". Çığırğan Əli Cənabi Əliyə diyir da. İkinci meşədə, yox nəhlət şeytana. Dağda əjdaha yatıfmış suyun qabağında. Gündə bir boşqab aşla bir qız gedirmiş, udurmuş, bir damcı su buraxırmış. İkinci u əjdahanı öldürürsən. Üçüncü, meşə var, meşədə bir dənə putax qoymursan, qırıf mənim qapıma tökürsən. Diyir indi meşəyə gedəndə heyvannar yiyəjəh bunu. Qılıncı götürüf birinci gedif suyun boğazına. Görüf bir dənə qız getdi, bunu əjdaha uddu. Bu əjdahaya çatanda qılıncı başdan qoyuf çıxır ayaxdan. Suyun üzünü qan aldı, su bütün şəhəri götürüf. Əmr eliyif ki, quluma diyin suyu qərələ qoysun. Belə əlini göyüs gəlif, su barmağının arasınnan keçif, qajdara ayrılıf.

Deef ki, birincini etdin, indi ikinci. İkincini gənə gedif meşəyə nə qədər vəşi heyvannar var, ilannan, qurbağadan, tısbağadan tutmuş vəşi heyvannarı çağırıf. Odunnar qırılıf. Heyvannar uj-uja bağlanıf. Hamısı şələ oluf, bu heyvannarın belinə yüklənif. Deyif: "Heyvannar, gedin, padşah hara disə, ora qoyarsız". Bir dənə putax var. Bu putax da bütün oduna barabardı, diyir. Bunu da mən götürüf gəlirəm. Yəhudi baxıfdı pəncərədən, görüf meşədə nə odun qalıf, nə vəşi heyvan. Diyif ki, filan yerə boşaldın. Qurban olduğum da gəlifdi. Diyif ki, paccah, hara tulluyum odunu? Diyif: "Özün hara bilirsən ora". Bunun darvazasını da uçurduf oturuf. Diyif: "Birinci vəsini yerinə yetirdin, ikincini də yerinə yetirdin. İndi üçüncünü - Çığırğan Əlinin başını gətirərsən". Diyir: "Allah səə nəhlət eləsin. Birinci əjdahanı öldürdüm, başa düşmədin. İkinci meşədə nə qədər odun var, vəşi heyvan var, gəldi, başa düşmədin. Çığırğan Əli mənəm. Cənab Əli mənəm. Bu şər, bu meydan". Diyib: "Onda get məə üş gün vaxd ver. - Yəhudi

diyib ha. - Get sən də qoşunu götür gəl. Üş gün dimirsən, beş gün verirəm". O qurban olduğum gəlincə qırx metrə enində, qırx metrə dərinində quyunu qazar, içinə suyu doldurar, üstünə də saman vurar ki, qoşunu gələndə düşcəh bura, qırılcax. Düldülü minər, Qəmbərnən ikisi nətəər tullanarsa, bu qırx metrə eni quyudan qırx metrə də o yana gedər. Qılıncı sıyrar düşər bu qoşuna. O qədər qırar, diyər: "Qəmbər". Diyər: "Can Qəmbər". Diyər: "Canın bibəla. Hər Qəmbər sənə qurban olaydı". Diyir: "At yerə qılıncı, bunu biz yaratmamışıx, Allah-tala yaradıf. Müsürman eləməh lazımdı". Qılıncı qoyuf diyif ki, kim müsürmannığı qəbul eliyir, kəlmeyi-şəhadəti qəbul eliyir, gəlsin qılıncımın altınnan keçsin. Qılışdan dönmüşüh da. Qəbul eliyənin hamısı keçir. Bu nəhlət eləmiş də nəhqədər diyir, diyir: "Bu söyüddən sandal iyi gəlsə, mənnən müsurman iyi gələr". Diyif: "Vurun ə, onu". Vuranda qışqırıf. Diyif: "Noluf?" Diyif: "Dilim saşdı, alnım...". Diyif: "Alnın möhür görmüyüf, dilin kəlmeyi-şəhadət gətirmiyif. Vurun ə, onu". Cəhənnəmə vasil oluf. Bax Əlinin hökmü belədi. İnanmıyan inanmır. Diyir o, pəhlivandı. Əli imamdı, Məhəmməd peyğəmbər. Dünyadan qurban olduğum Məhəmməd əleyhsalam köçəndə onu yerinə qoyuf gedibdi. Hamısı meçitdə imiş da ağsakqalların. Diyif: "Ya Əli, mən gedirəm, filan vaxtı dünyamı dəyişəjəm. Məni özün kəfən-dəfən eliyərsən". Ordan ağsakqalar diyif ki, əlini diyir. Göstərif diyif: "Əmim oğlu Əlini diyirəm, əlimi dimirəm". Diyif ki, hamma məni kəfən-dəfən eliyənnən sora ağsakqallar gələjəh mənim qəbrimi qazıf meyidimi çıxardajax, təzədən kəfən-dəfən eliyəjəhlər. Onda qorxun olmasın, qəbrimi at kimi min. Özdəri qorxuf qaçajaxlar. Bəli, bular meçitdə, bu vəfat eliyif. Diyif ki, amma məni aparanda cənazəmi arxadan sən göt, qənşərdən özü gedəjəh. Harda başını qoysa yerə orda məni kəfən-dəfən elə. Gələr görər vəfat eliyif. Bunu kəfən-dəfən eliyər. Daldan cənazəni götürər, qənşərdən cənazə özü gedə. Harda başını

qoyarsa, orda qəbir qaza, kəfən-dəfən eliyə. Bu hələtdə ağsakqallar diyər ki, peyğəmbərin vəfat eliyən vaxtıdı, durun gedəyin. Gəlif görüllər aparıf kəfən-dəfən eliyif. Bular dəsdə tuta, güdər ki, nətəər ola bir dəsdə uşax kəfən-dəfən eləsin, ağsakqal yox. Görər ki, bular gəlir. Gedər qəbri at kimi minər, gözdər qızara, tüklər biz-biz dura. Qırx metrə ayna qılış çala, qırx metrə bayna qılış çala. Yanı ki, qırmağa. Olar dalın-dalın dua eliyif qayıdallar dala, ağsakqallar. Əlinin hökmü çoxdu, bala. Allah-talanın yanıda birinci Məhəmməd peyğəmbərdi, Allahın məsəli əla Məhəmməd, ikinci Cənab Əmir, üçüncü İmam Həsən, İmam Hüseyn.

ƏLİNİN ŞÜCAƏTİ

Kişi, diyir, namaza gəlir. Bir gün gəldi dayandı, gördü ki, gözlərinnən yaş gəlir. Peyğəmbər baxdı, diyir, buna didi ki, niyə ağlıyırsan, sənin gözlərinnən niyə yaş gəlir? Didi ki, səə qurban olum, yuxarıda Allaha, aşağıda səə, mənim didi qooşum xaşpərəstdi, onnan didi yüz tümən pul almışam ki, bir ildən sora yavaş-yavaş düzəldif verərəm. İl də tamam oluf, o birisi il də uje tamam olmağa haxlıyıfdı, pul yiyəsi də, didi, məni öldürür ki, pulumu ver, saa verdiyim pulu məə ver. Məən də ona güjüm çatmır. Xayiş eliyirəm sən məə bir köməhlik eliyəsən. Köməhlik elə diyəndə çörükdü camaata didi ki, ay camaat, hamınız köməhlik eliyin una. Qırx min adamdı, diyir, meçitdə, o bunun üzünə baxdı, bu onun üzünə baxdı, yoxdu axı, bir belə pul yoxdu, yüz tümən pul. Əli, diyir, cavan oğlanıydı, Allahın pəhlivanı. Bu durdu ayağa, didi ki, mən onun pulunu verərəm. Amma peyğəmbər də bilir ki, bunda nol köpük yoxdu. Çöyrüldü didi ki, verə bilərsən? Didi: "Hə". İkinci bir də çöyrüldü didi ki, verə bilərsən? Didi: "Hə". Üçüncü bir də çöyrülüf didi: "Verə bilərsən?" Didi: "Hə". Didi: "Get u kişinin pulunu ver". Didi: "Gəl, ay kişi". Götdü, gəldi, diyir, atı yəhərrədi, dal tərkinə döşəhçəni qoydu, didi: "Min". Mindirdi, özü də mindi ata. Didi: "Yum gözünü. Mən, – didi, – aş diyəndə açarsan". Atı mindi, buraxdı başını, aş diyəndə aşdı, gördü, ayrı bir şəhərdi, tarix boyu görmədiyi bir şəhərdi, şəhərin qırağındadı. Didi: "Bilirsən nə var?" Didi: "Yox". Didi: "Məni – didi, – min tümən pula diyərsən, bir köpüh aşağı satma. Satarsan məni qul əvəzi. Xəbər alanda deyərsən, min adamın bu bir adam işini görür. Sən məni min tümənə satcasan. Daa dimə ha, bu filankəsdi. Pulunu al, min atı, get. Borcunu da ver, özəə də saxla, qalanını da ver peyğəmbərə, orda pulu, parası olmuyan adamlara köməhlik eləsin". Didi: "Oldu". Gəldi, diyir, o didi, qulu neçəyə diyirsən, bu didi, neçəyə diyirsən. Gördü buna yaxın durmax olmur. Belə-belə

çatdı oranın şahına xəbər. Şah vəziri götdü gəldi ki, ə, gəl gedək, görək, o nətəər quldu ki, min tümən diyir. Min tümənə qul olar? Qulun biri yüz tümləndi. Bir adam didi min adamın işini görər? Gəldi, diyir, çatdı, didi: "Neçəyə diyirsən?" Didi: "Min tümənə". Didi: "Ə, bu bir adamdı e, min adam döylü". Didi: "Bilirəm bir adamdı, min adamın işini görür". Xəbər aldı quldan ki, görə bilərsənmi? Didi: "Hə, mən – didi, – min adamın işini görürəm". Didi: "Heylədi?" Didi: "Hə". Çıxartdı şah pulunu verdi bunun. Atı mindi, qayıtdı dala.

Şah bunu götdü, çıxdı getdi. Bir üş-dört gün saxlıyannan sora, diyir, bu şəhər tarix boyu su görmürdü. Nə qədər camaat əlləşirdi, su çıxardammırdı. İki dağın arasınnan dərinnən su keçirdi. Bunu, diyir, əlləşirdilər, çayın qabağını kəsə bilmirdilər. Didi: "Görəh, min adamın işini bu nətəər görəjəh?" Şah da, vəzir də toplaşdı, didi: "Bizim məmləkət, – didi, – sussunnan neçə illərdi qırılıf batır. Biz çayın qabağını kəsməliyih, sənin hünərini görməh istiyirih". Didi: "Görərsiz". Getdilər baxdılar, didi: "Bax, bu suyun qabağını kəsməliyih. İki dağın arasınnan gedən suyun qabağını kəsəjəyih". Didi: "Elə budu?" Didi: "Hə". Bu, diyir, bir az uzaxlaşdı dal tərəfə yüyürdü, ayaxlarını cütdəşdirdi, diyir, hoppandı ankı üzə. Hardasa iyirmi metrə, iyirmi beş metrə enində yerdi, hoppandı, diyir, o yana. Keşdi, diyir, bir az getdi, diyir, dal tərəfi dərə idi, dərəyə düşdü, diyir, çiynini verdi dağa, basa-basa gətdi, dirədi, diyir, çayın içinə. Su ordan, diyir, addadı keşdi. Bayannan basdı, ağız-ağıza verdi, su qayıtdı, diyir, düzəldi şəhərə. Didi: "Bu səən suyun". Heş buna, diyir, fəhlə lazım olmadı. Şah, diyir, söyündüyünnən bilmədi nağarsın. – "Yaxşı, – diyir, – pul verib bunu almışam. Qul döyül ey?"

Nəysə götdü gəldi öyə. Qayıtdılar öyə. Su, diyir, götdü şəhəri başına. Camaat, diyir, başdadı sahə-zad sulamağa. Bir qədərdən sora vəzir didi ki, bilirsən şah, nə var? Didi: "Yox". Didi: "O boyda çayın qabağını bir adam kəsib, heç səən xəbərin var dünyadan?" Didi: "Nədi ki?" Didi: "Sabah çöyrülüf səni –

didi, – qolunnan atası olsa, bilirsən sən neçə kilometr yol gedəjəhsən? Qul olmaxnan döyül didi. Ajığını tutdursan, – didi, – elə bir məmləkətdə adam yoxdu, bu paytaxda”. Didi: “Bəs nağayrax?” Didi ki, on iki yolun ayrıcı var, orda bir əjdaha var, göndərəh didi ora, əjdaha onu yisin. Didi: “Göndərəh”. Çağırdılar bunu, didi: “Get filan yerdə, on iki yolun ayrıcında əjdaha var, onun başını gətirərsən. Eləyə bilərsənmi?”. Didi: “Baş üstə”. Düzəldi yola atı minib. Getdi, diyir. Getdi gördü ki, həqqi də, nataraz bir şeydi. Çatdı, diyir, qulaxladı, diyir, başını kəsdi, diyir, qoydu atın qucağına, gətdi, diyir, goppadan tulladı şahın qabağına. Didi: “Ala, bu da səən əjdahan”. Yollar indi açıxdı, bayaxdan yolu bağlamışdı əjdaha. Şah, diyir, daha da qorxmağa başdadı. Didi: “Ə, bunu müqəssir eləmək lazımdı”. Nəysə, diyir, bunu, müqəssir elədilər, çəkdilər dar ağacının qabağına boynunu vurmağa. Didi: “İndi nə sözün varsa bu camaata diyə bilərsən”. Didi: “Mənim bir dənə sözüm var, icazə verin bu camaatın içində diyim”. Didi: “Di”. Didi: “Şah sağ olsun, anan dururmu?” Didi: “Durur”. Didi: “Sənin anan lazımdı məə”. Didi: “Niynirsən ki, mənim anamı?” Didi: “Anan gələndə u sözü mən səə dijəm”. Getdilər, diyir, bunun anasını götdülər, gəldilər. Didi: “Bu da mənim anam. Qoja arvaddı”. Didi: “Lap yaxşı”. Dedi ki, şah sağ olsun, bir şah ki, özgənin sözünə baxıf, özgənin sözüynən özgənin boynunu vururs a, o, didi şah oğlu döylü, rəiyyət oğludu. Diyəndə didi ki, yalan diyirsən. Şah buna qəzəbləndi. Didi: “Yox, yalan döylü”. Dedi: “Onun yaxşısını kim bilər?” – “Ana. Anannan xəbər al”. Arvada didi ki, ana, düzünü danışginən, bu sənin oğlun, həqiqi oğlundu, ya yox? Bunu bilməh isdiyirəm. Anası gördü ki, ora-bura diyən söz döyül. Didi ki, mən həmlimi yerə qoyan vaxdı bir naxırçımız vardı, onun didi oğlu oldu, mənim qızım. Qızı, didi, ona veriflər, oğlu, didi, məə veriflər. Həmən bax budu. Didi: “Şah sağ olsun, düş ordan. Gedin, – dedi, – naxırçının qızını tapın gətirin”. Gətdilər qoydular ora. Şahın, diyir, boynunu vurullar. Ordan o şəhəri tərk etdi, qayıtdı gəldi, diyir. Rəvayətdə belə şeylər çoxdu.

KƏSİK BAŞ

Tamam başına kimi yiyir unu. Baş qaçıf çıxıf gedir. Qurban olduğum meçitdə oturmuşdu, diyir. Bir də görür baş qapını açdı, yumbalana-yumbalana gəldi durdu buların yanında. Didi: "Ya rəsulallah, mən filankəsəm". "ördülər, doğrudan da, çox böyüh şəxsdi bu. Diyif: "Nə olub?" Diyir: "Bəs filan dağdan gələndə divlər, pərilər, cinnər qabağımı kəsib bax boğazıma kimi yedilər. Qaçıf sizin üsdüüzə gəlmişəm". Nə qədər eliyir... Həzrət Əli isdiyir ki, qujağına götürsün bu başı, dizə kimi girir yerə, güjü çatmır. Diyir: "Dayan, sən məni götürəmməzsən". Qurban olduğumdan icazə alıf ki, mən gedim bunun dalınca. Bunun ayləsini, uşağını - hamısını tutuf aparıflar, salıflar harasa quyuya. Həzrət Əli icazə alıf gedir. Düldülü var idi da, onun atı. Nəkqədər bərk sürürsə, başa çata bilmir. Baş yumalana-yumalana çıxır gedir. "edillər, yorulanda bu başı saxlıyır. Alır belə, dəsmalnanzadnan üzünü-gözünü silir, eliyir. "enə oturullar. Bu bir loxma çörəh yiyir. Duruf gənə düzəlir. Bir xeylaxdan sora gedif çatıllar ora. Diyir: "Bax, bu daşın altında onun mağarası var, dağın dibində". Düldülü bağlıyır qırağa, uzun kəndiri var imiş, götürüf bunu bağlıyır belinə. Daşı alıf tulluyur, özünü salır quyuya. "edir quyunun dibinə, görür kəndir qurtarır, qalır asmacada. Xançalını çıxarıf ipi kəsir. Yeddi sutka gejə-gündüz yol gedir. Başı-götü ora-bura dəyə-dəyə gedif çatır. Nəysə, düşür yerə. Düşən kimi görür səs gəldi. - "Ya Əli, xoş gəldin". - "Hə, kim bilir mənim bura gəldiyimi?" - "Dart, açılsın, - diyir, - qapı bağlıdı". Qapını dartıf açır, görür bura işıxlıdı. Bir qadın xeylağı zəncirrənif oturuf. Diyir: "Həmən kəllənin külfətiyəm mən". Diyir: "Bəs div?" Diyir: "İçəridədi, yatıfdı". Keçir içəri, görür ə, nə qədər mömün bəndələr hamısı başı ayağına bağlanıfdı. Buların üş-dördünün başını açır, diyir: "Buları aç burax". Keçir görür, ə, kopoğlu div nə boydadı, yatıf da. Bunun nəfəsi dağın bir tərəfini qap-qara qaraldıf. Ağzınnan

od çıxır. Nərə vuruf, çığırır möhkəm, div vejinə də almır, ayılmır. Vuran kimi gözünü açır, açan kimi, deyir, yanında bir daş var imiş. "ötürür Həzrət Əliyə hancarı ilişdirirsə, Həzrət Əli qalxanı verir qabağına, qalxan, diyir, oxam-oxam olur. Çağırır, diyir: "Ya Allah". Diyir: "Mən səə Zülfəri kimi qılınc vermişəm. Sən niyə qalxanı verirsən qabağa?" Onnan sora qılıncı verir. Nə verirsə, qılınc kəsif tulluyur hamısını. Nəysə, tutaşıllar çox möhkəm. Yıxır, bunun burda başını kəsir. Nə qədər eliyir ki, töybə, əstəfirlah eylə, kəlmə-şəhadət kəs, müsürman ol, başıı kəsmiyim, diyir: "Yox, mənim nəslim müsürman olmuyuf, mən də olmuyajam". Deyir, başını kəsir. Unnan sora neçə gün, neçə gejə yerin altında divlərnən dava eliyir, tamam oların kökünü kəsir Həzrət Əli. Unnan sora daa div hak-hesabı olmur.

ÜÇ MANATIN MİSALI

Bir kişinin, diir, bir kişiyə üş maat pul borcu vardı. Nəysə, diir, bir il idi bu kişini axtarırdı, bu boşdu olan adamı, tuta bilmirdi. Eşidirdi Şəmsa kəndindədi, bu boşdu olduğu adam gəlirdi Xosro kəndinə. Eşidəndə ki, Xosro kəndindədi, qaçırdı Şəmsabada ki, məni, obşim, görməsin. Belə-belə bir il bunu tutammırdı.

Bu qurban olduğum Həzrət Əlinin də ayləsi öydə çörəh-siz idi. Tam aj idilər. Deməli, üş maat pulu var idi. Ayləsi bunu yuxudan durğuzdu gejəykən, didi ki, uşax indi durajax, bizə çarə var, uşax durub çörəh isdijəh. Əli, dur gör nağarırsan. Əlinin cibində üş maatı var idi. Didi: "Gedim da, bu üş maata nə düşür, o uşağa bir loxma çörəh alım". Bu məqsədnən durdu düşdü yolun ağına, üz qoymuşdu bazara getməyə. Baxdı gördü ki, iki nəfər dalaşır. Tez tutdu buları. Didi ki, a qardaş, noluf sizə? Sabah-sabah bir-birinizin qanını korramıyın. Şeytana nəhlət eliyin. Bu boşdu olan dillənmədi, boş verən didi ki, əşi, nə şeytana nəhlət elijəm. Qaş bayna görüm. Bu kopoğlu, düz bir ildi məə borcu var, tuta bilmirəm bunu. Tutmuşam bir ilin tamamında. Ya bu gün bu öləjəh, ya pulumu verəjəh. Əli, diir, qaldı məəttəl. Diir, dedi ki, a qardaş, belə inadkarrıx eləməginən. Nə qədər borcu var unun səə? Diir dedi ki, üş maat. Əli, diir, fikrə getdi ki, ayə, mənim də cibimdə üş maat pul var. Özüm də uşağa çörəh almağa gedirəm. Didi: "Əşi, Allah kərimdi". Çıxartdı bu üş maatı verdi borc verənə, didi: "Bax, bunun əvəzinnən mən verirəm. Burax onun yaxasını, özün də çıx get, şeytana nəhlət eləginən. Aldı, diir, pulu qoydu cibinə, didi: "Hə, indi şeytana Allah nəhlət eləsin diyə billəm. Didim də". Artdaşdılar, getdilər.

Əli gənə başdadı bazara tərəf getməyə. Bir qədər get-mişdi, bazara az qalmışdı, birdən yadına düşdü ki, mən hara gedirəm. Üş maatım var idi, onu da verdim. Gedif bazara nağarajam? Elə-belə fikrə getmişdi, baxdı gördü yanında bir

dənə qəşənh bir dəvə, yedəyində bir kişi gəldi çatdı buna, didi: "Bala, salam məleyki". - "Əleykimət salam". Didi: "Oğul, hara gedirsən?" Didi: "Bazara". Didi: "Can oğul, nolar, bu dəvəni mənnən alginən, qoja kişiyəm, daa nəfəsim batıf, gedəm-mirəm, apar bazarda sat". Didi: "Vallah, mən nə dəvə alanam, nə də dəvə satanam. Mən ömrümdə heylə iş görməmişəm". Didi: "Ə kişi, neçəyə isdəsən verəjəm". Didi: "Ə kişi, vallah, Allahdan gizdi döyül, sənnən nə gizdiyim, bir köpüyüm də yoxdu". Didi: "Nisyə verirəm. Bax, bu dəvənin qiyməti bilirəm ki, bazarda on maata gedəjəhdi. Al, beş maata verirəm. Apar sat, beş maat da xeyrin olsun. Olsun ki, mən burdan qayıdım". Əli fikirrəşdi, didi: "Məə ver ipi". İpi vermişdi buna, kişi yox oldu. Beş-altı addım getmişdi, didi: "Mən xəbər alma-dım ki, sənin adın nədi, haralısan? Çörüküm çaarım kişini". Çaardı, çaardı, gördü heç kim yoxdu yolda-irizdə. Götdü dəvə-ni, getdi. Məlul-müşkül gedirdi, diyir. Didi: "Axı mən bilmə-dim ki, bu haralıdı, adı nədi, bunun pulunu kimə verəjəm? Allah, bu nə işdi?" Qəmgin getdi bazara. Baxdı gördü ki, bazar dolu dəvədi. Didi: "Kişi bilirdi bazarda dəvə çoxdu, alan olmujax, bunu mənim başıma bəla elədi. Bu satılmasa, mənim toolam yox, bir şeyim yox, bunu hara eliyəjəm?" Ellik bazar yığıldı dəvənin başına. Sənnən xəbər aldı yedəyində dəvə var, dəvəni neçəyə diyirsən? Didi ki, yüz maata. O birinnən xəbər aldı, səksən maata. Bunnan xəbər aldı, didi altmış maata. Baxdı gördü ki, bu dəvələr hamısı bunun dəvəsinnən iridi. Gəldilər, diir, Əlinin yanına. - "Bala, bu dəvəni neçəyə diyir-sən?" Qorxa-qorxa didi ki, həştad maata. Diir, kişi çıxartdı yüz altmış maat verdi. Didi: "A dayı, mən həştad maat didim ey, burda həştaddan artıxdı". Didi: "Bala, sən bilmirsən qiymətini, bunun qiyməti yüz həştaddı, al pulu". Aldı pulu. Kişi çıxdı getdi. Burda fikirrəşdi ki, hə, burda həştad maat mənə qalır, bunu xaşdıya bilərəm. İndi kişinin sorağını eliyərəm, Allah kərimdi, tapıf verərəm pulunu.

Dəvəən pulunu ayrı qoydu, bu qazandığını götürdü getdi,

bazardan bir fayton bazarrıx elədi, göndərdi öyə. Ayləsi baxdı, gördü ki, budaha, bir fayton bazarrıx göndərifdi. - "Allah, bu nə işdi, bu, hardan aldı? Axı bu diyirdi pulum yoxdu".

Nəysə, boşaltdı ayın-oyunu, faytonçu, diyir, yığdı öylərinə. Baxdı gördü yaxşı kalan düyü, yağ, kişmiş, qaysı - hər bir şey alınıf. Diir didi ki, nə vaxddı aş bişirmirəm. Gətirif aş bişirəjəm, atamı da çağırajam. Bəli, aşı dəmlədi. Diir, qur-ban olduğum Əleyhsalama aydın idi hər şey. Durdu gəldi. Durdu gəldi, diir, yavaş-yavaş, gəzə-gəzə. Gördü Əli gəlir. Elə qəmgin gəlir ki, elə bil ölüsü ölüf. Gəldi çatdı, diir. Bu da dayanıf Əlini gözdüyürdü. Salam verdi, əleykimət salam elədi. Didi: "Əli, noluf, bala, çox qəmginsən?" Didi: "Ay ata, keçəh içəri, dijəm". Keşdilər içəri, didi ki, məəm başıma belə bir qəza gəlif. Başdadı bu üş maat verməyinnən, bazara getməy-innən, yolda dəvə buna verilməyinnən söhbət elədi qutardı. Didi ki, Əli, darıxma. A qızım, xörəyin hazırdımı? Diir: "Hə, hazırdı, çəkmişəm, gətirirəm". Çörəh gəldi ortalığa. Gördü Əlinin gözü elə bunun üzündədi. Yiməh isdəmir. Didi: "Əli, al çörəyii ürəkli yi". Didi: "Əşi, vallah - indi mən vallah diyirəm, hər halda olar and içif söhbət eləməz, - boğazımdan keçmir heç". Didi: "Bala, al xörəyi yi. Nə sənə dəvə satan var, nə sənnən dəvə alan. Sənin cibində üş maat olub. Üş maat uşağın çörəh pulunu verif u kişini qannan qutarmısan. U boşdu olan adamı boş verən öldürməli idi. Sən Allahın yolunda o üş maatı verif qanı yumusan. Qoymamısan qan olmağa. Allah-tala da sənə unu qaybınnan yetirif, uruzqudu. Birə min verən Allahdı, Əli. İndi səə də birə min verif. Bu səən öz halal Allah tərəfinnən verilmiş uruzqundu. Çörəyii yi rahat, ürəyəə şübhə gəlməsin. O vaxtdan qalıf ki, əl tutmax Əlidən qalıf. Bax, üş maatın misalıdı.

KİŞİLƏRİN BEL AĞRISI

"Ya Allah, bütün ağrıların-ajıların hamısını bizə vermisən. Ərə gedirih, ərdə boynumuza uşax düşür, dokquz ay uşax saxlıyırıx, dokquz aydan sora uşağı dünyaya gətiririh, hətda içərimizdə elələri olur, uşağı gətirə bilmir, həyatını dəyişir. Elə adam da olur onun üsdündə neçə-neçə xəsdəliyə düşür. Amma kişilərə heş bir ağırrıx, ziyannıx verməmisən. Bütün bu çığırtılar, bağırtılar biznəndi" - diyəndə Allah-tala didi: "Çox şikayət eliyirsiz siz. Sizin o doğum vaxdında olan ağrınızı, u bel sınmasını verəjəm kişilərə".

Bir günnəri belə olur ki, kimsə, məsələn, mənim yoldaşımın bu gejə uşağı olajax, mən u gejəni çığırmalıyam, belim sınmalıdı, qarnımı qujaxlamalıyam ki, mənim arvadım uşax gətirəjəh. Beləliklə, bu formu bütün kişilərə bu ağrılar gəlif.

Bir günnəri yaxşı bir kişi... Keşmişin dövründə də belə oluf, mən də belə eşitmişəm ki, deyillərdi ki, papağı atginən qıza, o qız yıxılmasa, onu alıf, özaa arvad eliyə bilərsən. Dokquz, on iki, on üç, on dörd yaşına qədər helə qızdarı alıllardı, özdərinə arvad eliyillərdi. Bir günnəri qırx yaşında bir kişi götürüf cavan bir qız alır. On üç-on dörd yaşında bir qız alır. Onnan ikinci arvadı olur. Üç uşağı olur. Üç uşaxdan sora kişinin olur əlli yaşı, qadının olur iyirmi yaşı. Belə də eşitmişəm ki, on səkkiz, iyirmi iki yaşına qədər qadın xeylağının gözü ukqədər qaynar olur ki, hətda kimə ərə getdiyini də bilmir. İyirmi beş yaşınnan sora bilir ki, bəli, mən özümə tay adama getməmişəm. Bunu soradan başa düşür. Nəsə, qız görür ki, kişi əldən-ayaxdan düşüf, qonşu bir oğlanla ünsiyyət bağlıyır. Qonşu bir oğlanla ünsiyyət bağlıyanda, uşax dünyaya gələn vaxdında kişi diyir ki, gənə mən düşəjəm qarın ağrısına. Arvad doğuşa gəlif. "özdüyüf, gözdüyüf, kişinin qarnı ağrımıyıf, çığırtısı olmuyuf. Qonşuda cavan oğlanın çığırtısı oluf. Nəsə, uşax dünyaya gəlif. İkinci gün haman kişi götürüf

arvadını, üç uşağı özünkü, bir də haman gətirdiyini, çıxardır hayatdan, diyir: ""et peyğəmbərə. Peyğəmbər səni qəbul eləsə, qayıdıf gələrsən mənim yanıma, mən səni qəbul eliyərəm". "edir peyğəmbərin hayatına, buraxmıllar. Durur darvazaan ağzında. Qarolçular da diyillər ki, bir kadın, yanında üş uşax, qujağında da bir qundax gəlif darvazaan ağzında duruf. Peyğəmbərə əyan oluf. Gözətçiyə deyir ki, get o qundağı al, götür gəlginən. Yanındakı üş uşaxnan kadına denən ki, getsin hayatına. Yanındakı uşağı alıllar, heylə eliyillər, kadın qayıdıf gəlir. O vaxkı peyğəmbərrih döyrünnən qalıf bizdəki yetimlər öyü, detdom diyirih. Peyğəmbər götürür həmin uşağı verir meçidi süpürən süpürgəçi qadına ki, bunu öldürməzsən, baxarsan, böyüdərsən.

Heylə o formu eliyənnən sora qayıdır gəlir. Üş uşaxnan gəlir. Kişi gətirir, götürür qoyur öyə. Diyir, bunu yaxşıca döyür. "üjü çatdıxca arvadı döyür. Bir il yorğan-döşəhdə qalır. Onun ətini elə yandırır ki, bir il yarasına işdiyir. İkinci ilində u kişi arvadını elə isdiyir, elə isdiyir ki, hətta birinci gejəsində ki u qızı gətirmişdi, onnan da artıx isdiyir. Bir günnəri arvad kişidən sual eliyir, diyir: "Səə bir sual verəjəm, məə düzünü deginən". Deer ki, nədi? Diyir: "Bu uşax olanda məni göndərdin peyğəmbərə. Uşağı aldı, bu üç uşaxnan gəldim, məni öyəə qəbul elədin. Sora məni döydün bu şəklə saldın. İndi də məni elə isdiyirsən ki, elə bil birinci qız düşmüşəm ələə". Diyir: "Bilirsən nə var?" Diyir: "Yox". Diyir: "Mən peyğəmbərdən artıx biləmmərəm. Səni göndərdim ki, gör peyğəmbər nə diyəjəhsə, qayıdıf gələrsən məə. Sənin qujağındakı haram idi, peyğəmbər onu aldı, üş dənə olan uşaxlar halaldı, onnarı qaytardı mənə. Dedi ki, halalın içərisinə haram qatmax olmaz. Səni mən döydüm ki, bir il mənnən ayrı cavan oğlanla kef eləmişdin. Səni bir il heylə yorğan-döşəyə saldım ki, onun ayvazı olsun. İndi səni o dərəcə isdiyirəm ki, öyün var, uşaxların var, mən gedəjəyəm, olara qismət olsun, səə də. Onunçün səni isdiyirəm ki, məni gələcəhdə

fikirrəşəsən".

O devirdən qalmışdı ki, gedir görür kişi... Bir dəvə yanında iki köşəh ot yeyir. Haman Xıdır Nəbi görür bunu. Xıdır Nəbi görəndə diyir ki, mən gedirəm, altı aydan sora qayıdajam. Əgər gəlif görsəm sənin balannan bu bala sınıxdı, sənin balanı da öldürəjəm, səə göz dağı verəjəm, gör yetimlih nə olan şeydi.

Xıdır Nəbi gedənnən sora çox fikirrəşir bu dəvə: "Neyniyim ki? Bu yetim balaya nətəər baxım?" İki dənə döşü olur dəvənin. Döşünün birini u yetimə verir, birini də özünkünə. Çox əmizdirənnən sora özünkünü ayağınnan oyana eliyir ki, yetim əmsin. Sora otun yaxşısını yetimə verir, kölgənin yaxşısını yetimə verir, suyun yaxşısını ona. Hamma yetim yetimdi da. Yetim yetimliyində görür yatanda özünün balası gedir bunun boğazının altında yatır, bu ayrı yatır. Belə baxır, köksünü ötürür, diyir ki, mənim də anam olsaydı, mən də onun qarnının altında yatardım. Yetim elə o yetimlihdəndi.

Xıdır Nəbi də gəlir görür ki, belədi. Diyir ki, niyə sən sınıxsan?" - "Düzdü, yeməyin yaxşısın məə verif, südün çoxunu məə verif, suyun yaxşısını məə verif, bircə bir şey mənim ürəyimdə qalıf ki, o ana-bala yatanda orda fikirrəşirəm ki, mənim də anam olsaydı, gedif qoltuğunun altında yatardım". İndi Allah-tala heş kəsi yetim eləməsin. Hamı yaxşı böyüsün, atalı-analı. Yetimin vəziyyəti çox ağır olan şeydi.

FİRONUN CƏNNƏT TİKDİRMƏSİ

İnsan dünyaya gəlməmişdən qabax Allah-tala kimi çağırıfsa ki, get insanın torpağını mağrubdan, maşruxdan gətir, heç kəs getmiyif. Azreyil diyif: "Mən gedərəm". Azreyil gedif gətirif. İlahi, diir, xamırını bunnan yoğurur insanın. Diyir: "Bir belə əziyyət çəkdim, mənə nə verdin?" Diir: "İnsanın canını almağı sənə həvalə etdim". Diir: "Əşi, mən oların günahını götürəm-mərəm". Diir: "Elə elijəm canı ağzınnan çıxanda sən orda hazır olajaxsan". Heş Allah-taaladan görən yoxdu. Hamı diir ki, Azreyil gəldi, filankəsin canını aldı. Da dimir əmr Allahın əmridi.

Bir dənə qadın olur, sahibi yox idi. Yoldaşı ölmüşdü qadın hamilə olanda. Üş gün idi uşağı olduğu. Allah-tala Azreyili göndərir ki, get onun canını al. Gəlir görür ki, seyvanda oturuf uşağı əmizdirir. Qayıdır Allahın hüzuruna. Diir: "Almadım canını". - "Əşi, hancarı almadım?" - "Getdim gördüm ki, seyvanda oturuf uşağı əmizdirir". Diyir: "Get, indi alajaxsan".

Gəlir görür ki, uşağı əmizdirif qoyuf seyvana, üş-dörd ayax nərdiyanı var, söyküyüf nəsə yığır. Nərdiyanı çəkir, çəkən kimi yıxılır. Yıxılan kimi çökür boğazına. Kəndə haray düşür ki, Həsənin arvadı nədiyannan yıxıldı öldü.

Gedir Allahın hüzuruna Azreyil. Diir: "Aldın canını?" Diir: "Aldım". Diir: "Vallah, üş günnüh uşağı qaldı, öləjəh o. Amma sahibi yoxdu, basdıran". Qardaşı Cəbrayılı göndərir ki, get o qadını basdır gəl, kəfən-dəfən elə. Gəldi Cəbrayıl qadını basdırdı getdi. Hər ikisi getdi Allahın hüzuruna. Didi: "Üş günnüh oğlan uşağı öləjəh öydə". Dedi: "Ölmüjəh". Deyilənə görə, qadının qəbri üstündə Allah-tala bir süd bulağı xəlq eylədi. Apardılar bu uşağı, bu süddən işdi, götdülər gəldilər. Bu, elə indinin raykomu olan kimi bir firon oldu. Bu, cənnət tihdirdi, cənnət qapısı tapmadı ki, ona vurdursun. Gündə getdi-gəldi, getdi-gəldi bazara. Usta didi ki, ə, tihdirmisən, qapısını da tap, qurax, çıxax gedəh.

Qurban olduğum çağırdı Həzrət Cəbrayılı, didi: "Belə adam gələjəh, deyəjəh "a dayı, bunu neçəyə satırsan", dinən pula satmıram, tihdirdiyin cənnətin yarısını ver, qapını verim. Diyir:

"Dayı, verdim". Çıxartdı kağız yazdı, peçatını üsdünə vurdu. Dedi: "Dayı, hansı günü gəlsən cənnətin yarısı səə hazırdı". Dedilər: "Ə, səən ağlın qaçıf, bir tay qapıya cənnətin yarısını vemisən, ə?" Dedi: "Ə, mən fironam, mənim döşümə Allah düşmür, bu məə nağarajax?" Heylə qüvvətli idi. Qaldı bir tay. Usda gənə didi: "A kişi, get bir tay da tap gət". Gəldi bazara. Allah-talaya deyilənə görə ayan idi. Çağırdı Həzrət Cəbrayılı ki, get u bir tayı da apar. Həmin adam gəlsə, disə dayı, bunu neçəyə satırsan, dinən satmıram, qalan cənnətin də yarısını ver, qapını verim. Diir: "Verdim". Yazdı dəftər-qələmini, peçatını da qoydu üsdünə. Didi: "Dayı, hansı günü gəlsən sənə cənnət hazırdı". Hə, gəldi qurdurdu. Didi: "Allah qoysa, sabah köçürəm cənnətə".

Allah-tala axşamdan Həzrət Cəbrayılı da, Azreyili da - ikisini də çağırdı. Cəbrayıla dedi ki, gedif tutursan qapının qıfılınnan, fironun bir dənə də dıbırını içəri qoymursan. Azreyilə isə dedi ki, qapıdan üç addım dala durursan, firon ora çatanda dinən gət kəlmeyi-şəhadəti, fərzin tamamdı.

Fironun nədən xəbəri var? Karvanı saldı yola, malı, dövləti, qoyunu-quzunu, özü də dalıynan. Çoban-çolux getdi dirəndi qapıya, didi: "Ə kişi, çəkil ordan, cənnət fironundu". Dedi: "Yox, cənnət mənimdi". Firona didilər ki, əşi, bir potala papax kişi yapışıf qapıdan ki, cənnət mənimdi. - "Qaş - dedi, - ona bir qapaz vurajam yeddi yerdən işiyəjəh". Qapıya üç addım qalmış, diir, Azreyil çökdü sinəsinə, didi: "Gət kəlmə-şəhadəti, fərzin tamamdı". - "Azreyil, aman ver, cənnətə gedirəm". Didi: "Fərzin burda tamamdı". Azreyil aldı canını. Kimi qabağında mal, qoyun, hərə bir dəsdə götdü getdi. Yanı, o kişidi bura gətirən, burdan ayna aparan. Gəldi ikisi də Allahın hüzuruna. Didi: "Qurban olduğum, sənin əmrini yerinə yetirdik". Didi: "Tanıdız onu?" Didi: "Yox". Didi: "Üş günnüh uşax qalmışdı ha". Didi: "Hə". Didi: "Ona qüvvə verdih, firon oldu. Cənnət tihdirdi. İçinə girsəydi onunla heş kəs bacarmazdı". Didi: "Hə".

Didi: "Onun fərzini orda tamam elədim".

İBRAHİMXƏLİL PEYĞƏMBƏR

Allah-tala buna okqədər var-döylət verib ki? Demək, bu qonağı ayaxda qoyarmış, özü həmişə başda oturarmış. Bir gün, diyir, bunun çobanının yanına üş dənə canavar gəlir, diyir ki, bu qoyunun birini versənə yiyəh. Diyif ki, bu qoyun mənim döylü. Bu qoyunun xozeyni var, yiyəsi var. Diyif ki, get icazə al, gəl ver. Diyif: “Bəs mən qoyunu kimə tapşırım?” Diyif ki, bu qoyunu sən tapşır bizə. Diyif ki, canavara qoyun tapşırallar, ə? Nə danışırsan sən? Diyif: “Səə and içəjəyih biz”. Diyif: “Nətər and içəjəhsiz?” Diyif: “Biz o adamdan olax ki, qonağı ayaxda qoyuf başda oturan adamdan olax səən qoyunaa dəysək”. İnanıf, çobandı da, ayannan bəri gəlif. Gəlif peyğəmbərə diyir ki, ya peyğəmbər, üç canavar məndən qoyun istiyif, verim, vermiyim? Diyif: “Ə, sən qoyunu kimə tapşırmısan?” Diyif: “Canavara”. Diyif ki, ə, Allah öyüü tihsin, canavar qoyun saxlıyar səə? Diyir: “Ağa, olar and işdi məə”. – “Nətər and işdi?” Didi: “Biz o adamdan olax ki, qonağı ayaxda qoyuf başda oturannan olax səən qoyunaa dəysəh”. – “Dur ayağa, gedəh, görəh”. Getdi gördü üş dənə göyərçin, biri qoyunun o tərəfində, biri bu tərəfində otduyur. Buları görən kimi göyərçinnər uşdu getdi, mələhlər imiş. Bayax canavar donunda, indi oldu göyərçin donunda. Allahın məsəli diyirəm, bu İbraamxəlil peyğəmbər fikirrəşir, diyir: “Hə, qonağı ayaxda qoyuf başda oturmax günah imiş”.

Onnan sora qonax olmasa əppəh yimirmiş. Gərəh hər öynəni qonaxla yiyə. Bir gün bunun üş gün qonağı olmur, əppəh yimir. Özü-özünə qürrələnir ki, əyə, mən gör nə qədər qonaxpərvər adamam ki, üş gün qonağım yoxdu diyə əppəh yimirəm. Nəsə, buna vəhy gəlir, ağlına gəlir ki, dur çıx bu dağlara. Çıxıf gedəndə görür ki, bir kişi bir arçının dibində kölgədə ibadət eliyir. Diyir: “Salam əleykü”. – “Əşi, nə yaxşı oldu, sən gəldin? Allah səni hardan yetirdi. On gündü mən

əppəh yimirəm qonağım yoxdu diyənə”. Əppəyi-zadı yiyir, diyir: “Sənnən başqa adam var bu dağlarda ibadət eliyənnər?” Diyir: “O qədər”. Gedir, gördü biri də ibadət eliyir: “Ə, nə yaxşı oldu, əppəh yemirəm qonax yoxdu diyənə”.

Nəsə, əppəyi yiyənnən sonra diyər ki, qonax, diyəllər ki, qonağın duası qəbul olar. Bir dənə dua eliyəh, görəh mənim bu diləyim hasil olarmı? Eliyif, amin, fatihə, diyif ki, nə idi sənin diləyin? Diyif: “Mən qırx ildi burda ibadət eliyirəm, deyirdim ya rəbbi, ya rəsulallah, İbraamxəlil peyğəmbəri gözümnən görəydim”. Diyif: “Ə, İbraamxəlil peyğəmbər mənəm, dur gör məni”. Vəssalam.

MUSA İLƏ XIDIRIN YOLÇULUĞU

Allah-talaynan kəlmələşif. Bular kəlmələşəndə bir nəfər gəlif bulara salam verif addıyıf. Həzrət Musaya salam verif ha. Addıyır. Addıyannan sora, ya rəbbi, ya rəsulallah, mənnən də yaxşı yaratdığın bəndən varmı? Diyif: "Var". Diyif: "Kimdi?" Diyif: "U sənin yanınnan keçən". Diyir: "Kim idi o?" Diyif: "Xıdır peyğəmbər". Diyif ki, mən onunla görüşməh isdiyirəm. Diyif ki, sən onunla görüşə bilməzsən. O altı aydı piyada uje sənnən uzaxlaşdı. Diyif: "Yox, mən onnan mütləq görüşməliyəm". Allah-tala diyif ki, bir quru balığı qoy xurcuna, at çiyninə. O quru balıxnan get, gəzin, harda su görsəəz, o suyun qırağında əlizi-üzüzü yuyun, bir az oturun dincəlin, sora gedin. Nə qədər ki, Xıdır peyğəmbəri tapmamısan, gəz. Bular da düşüllər harda su varsa, orda əllərini-üzlərini yuyullar, bir az oturullar, dincəlillər, durub gedillər. Çox gəzmişlərdi, diyir, yorulmuşlardı, nəysə, bir axmazın qırağına çatanda oturullar. Bu yorulmuşdu, oturan kimi uzanır, gözünə yuxu gedir Həzrət Musanın. Bu yoldaşı oturuf. Yoldaşı suda əlini-üzünü yuyuf, bir az da tökür balığın üsdünə. Belə tapşırıx vermişdilər ki, əlizi-üzüzü yuyanda sudan bir az tökün balığın üsdünə. U quru balıx harda dirilsə, Xıdır Nəbi ordadı.

Hə. Həzrət Musa yatır. Yoldaşı əl-üzünü yuyur, sudan bir az da tökür balığın üsdünə. Balıx sıçrıyır. Bir az da gözdüyür burda. Nəsə, aradan xeylax keçənnən sora oyanır, əlini-üzünü yuyur. - "Gedəhmi?" Diyir: "Gedəh". Bu balığın dirildiyini dimir buna, yadına düşmür. Durullar ayağa, gedillər. Bir xeylax gedillər, bir suyun qırağına çatıllar. Çatan kimi orda yadına düşür ki, burda balıx dirilmişdi. Diyir ki, sən orda yatanda balığın üsdünə su tökdüm, balıx dirildi. - "Bəs niyə demədin məə?" Diyir: "Yadımdan çıxıf". Qayıdıllar ora. Qayıdıllar ora, yaxınnaşanda görüllər uzaxdan bir adam gəlir. Çatanda didi ki, sən Xıdır peyğəmbərsən? Didi: "Xıdır peyğəmbərəm". Diyif: "Mən sənnən gəzmək isdiyirəm". Diyif: "Sən mənlə gəzə bilməzsən". Hə. Diyif: "Niyə gəzə

bilmirəm?" Diyif ki, əşi, mənim tutduğum işdən sən razı qalmıyajaxsan. Diyif: "Yox". - "Yaxşı, gedəh".

Yoldaşına diyir ki, sən qayıt. Yoldaşı qayıdır gedir, bular ikisi düşür yola. Gedillər bir dəryanın qırağına çatıllar. Dəryanın qırağında görüllər ağacdan yonulmuş gəmilərdi, bir çəkəni var, sürəni var, oyza-buyza adam keçirillər, hak alıllar, aylələrini dolandırıllar. Çağırır bir nəfəri. - "Gəl bizi keçir". Gəlif qırağa çatanda Həzrət Musa diyif ki, bizim pulumuz yoxdu ha, pulsuz keçirəssən. Didi: "Yox, mən pulsuz keçirən döyüləm". Deyəndə təzə gəmidə bir uşax var idi. Bu uşax çəkdi gəmini gəldi, didi: "Oturun, mən keçirərəm". Gəlif oturullar. Həzrət Musa gəminin başında oturuf, bu çəkən də başda oturuf. Bu da üzü bu çəkən adama oturuf, arxası başqa tərəfə. Xıdır peyğəmbər də gəminin baş tərəfində oturuf. Bir xeylax çəkmiş əlini atıf gəminin başınnan kan deyirik biz, gəminin kanı olur, bunu belə basır, qırır. Xıdır peyğəmbər eliyir bunu. Qıranda uşax bunu görür, amma Həzrət Musanın arxası Xıdır Nəbiyədi, o görmür, ağzı buyzadı. Görür uşağın burasınnan yaş axır. Diyir: "A bala, niyə ağlıyırsan?" Diyir: "Görmürsən gəmini qırır". Hə. Çöyrülür görür gəminin baş tərəfinnən qırıf, elə-belə yapışdırıf yamax kimi, yararsız oluf. Diyir ki, çək, a bala. Çəkdi, qırağa çıxıllar. Diyir ki, sağ ol, a bala. Uşax gedir kor-peşman gəzir oralarda. Bu bilmir ki, bunun sorası nədir. Nəsə, gedillər. Bir kəndə çatanda orada xırman kimi bir yer var idi, plaşadka kimi. Uşaxlar burda oynuyurdular. Bir nəfər də uşax böyürdə oturuf bulara baxırdı. Xıdır peyğəmbər yaxınnaşır bunun qulağının dibinə yumrux vurur. Vuran kimi uşax yıxılır. Yıxılan kimi canı çıxır. Həzrət Musa başdıyır: "Ə, səə nağarmışdı uşax, oturmuşdu orda?" Didi: "Əşi, sənə mən didim ki, sən mənlə gəzə bilmijəhsən. Görürsən, gəzə bilmirsən. Ayrılax burdan". - "Yox, daa dinmijəm, daa dinmijəm".

Gəzillər, gəzillər, axşamçağı bir kəndə çatıllar. Burda qalası olullar. Hası məhləyə gedillərsə, buları qonax saxlıyan olmur. Axırı gəzə-gəzə gedillər, kəndin ayağında bir öy var idi, üsdü yox idi, bir barı var idi. Hə. Öyün barısıdı. Girillər içəri. Külək aynan

əsəndə bayna qısılıllar, baynan əsəndə ayna qısılıllar. Sabahı açdılar burda. Sabah açılan kimi didi ki, dəmirdən-zaddan bir şey tapa bilirsənmi bir az palçıx qatax burda. Diyir: "Palçığı niynirsən?" Diyir: "Görürsən, barının burası uçasıdı, oranı düzəldəjəm". Nəsə, dəmir tapıllar, taxta parçası tapıllar, su gətirillər, palçıx qatıllar, Xıdır peyğəmbər çıxır yuxarı, diyir ki, palçıxdan ver. Bu da palçıxdan verir, başdıyır bu burda suvamağa. Oyzünü, buyzünü bərkidir, düşür aşağı. Düşənnən sora əllərini, üzdərini yuyullar, təmizdənillər. Təmizdənəndə diyir ki, üş dənə möcüzəmiz oldu. Buları səə diyim, ayrılax. Hə. Diyir: "Di da". Diyir: "Gəldih dəryanın qırağına buyza keçəsi oldux. Gəmiyə dedik bizi oyza keçir, özü də pulumuz yoxdu. Gəlmədi. O uşax gəldi keçirtdi, yaxşılıx elədi da bizə. Diyir: "İki padşahın arasında müharibə olajax yaxın vaxtda, suda. Bu yerin padşahı da əmr eliyifdi, nə qədər təzə gəmi varsa, hamısı yığılsın. O uşağın gəmisi də təzə gəmidi. O uşağın gəmisini alajaxdı əlinnən. Mən onu yaraladım ki, padşah o gəmini uşağın əlinnən almasın. Ayləsini-zadını dolandırsın da. Pis iş görmüşəm?" Diyir: "Yox, yaxşıdı". - "U uşax oturmuşdu orda, vurdum öldü. U uşağın atası, anası uzun müddət uşaxları olmuyuf, soradan əllərinə bir uşax keçif u uşax, möhkəm ibadət əhli oluflar. U uşax əllərinə keçənnən sora meylini salıflar ona. İbadətdən uzaxlaşıflar. Buların ibadəti zay olmasın deyənə mən o uşağı öldürdüm, aralaşmasınnar". Diyif: "Hə, yaxşıdı, bu da yaxşıdı". Diyir: "Görürsən, bu barını burdan suvadıx. Bu barının içində qızıl var. Bunun yiyəsi ölüf, üş dənə oğlu var. Bir nəfər müsürman adama tapşırıfdı ki, qızılı mənim uşaxlarım iriləşəndə olara ver, dolansınnar. İndi o kişi burda yoxdu. Səfərə gedifdi, yoldadı. Yağış-zad yağsa, o uçulajax, qızıl da keçəjək başqa adamın əlinə. Onu mən suvadım ki, o kişi gəlincə barı uşmasın. Həm də gəlif görəjəh barı suvanıf, diyəjəh: "Hə, kimsə, nəsə bilir". O qızılı ordan alıf uşaxlara verəjəh. Pis iş görmüşəm?" Diyif: "Yox, yaxşı iş görmüsən". Diyif: "Yaxşı, bu şeyləri götür ayna qoy" - deyəndə elə ayna çöyrülən kimi Xıdır peyğəmbər uşdu getdi.

Belə möcüzələr oluf.

QİSMƏTDƏN QAÇMAQ OLMAZ

Musa peyğəmbər Allahnan kəlmələşəndə diyif: "Ya rəbbi, sənin qədərinnən qaçmax olmaz. Amma qismət diyirsənsə, yiməsəm yimərəm. Diyif ki, yiyərsən. Diyif: "Yimərəm". Diyif: "Sabah günorta vaxdı yayma yijəhsən". Diyif: "Yimijəm". Çıxıf gəlif öyə. Səhər fikirrəşif, diyif: "Ə, gəlif üzdən-gözdən salallar, gedif yiyərəm. Gedəjəm Surxay bulağı kimi uzaxda bir bulax var, onun yanına.

Bir az bulağın başında oturmuşdu, diyir, fikirrəşdi ki, adam-zad gələr bu suya, məni görəllər. Çıxıf bax o ağajda oturajam, sussayanda düşərəm, içərəm. Ağajda otmuşdu ki, gördü kəhər atın belində bir kişi gəlif düşdü. Əlini-üzünü yuyuf sudan işdi. Atını minif gedəndə xurcun açıldı qaldı burda. Dalıynan bir eşşəhçi gəldi, diyir, su işdi. Ayna baxdı, bayna baxdı, gördü bir xurcun var. Xurcunu aşırdı eşşəyin belinə, düşdü üstdən aşağı. Bu yolnan çıxdı gedə belə... Sora dalıynan, diyir, bir çoban gəldi bir sürü qoyunnan. Əlini-üzünü yuyuf, papağını başının altına qoyuf yatdı bulağın başında. Həzrət Musa bir də gördü ki, ya rəbbi, bu atdı elə gəlir, nə bilim, nətəəri. Gəldi didi: "Salam mələykü". - "Əleykimət salam". Didi: "Çoban, kim var idi burda?" Didi: "Heş kəs". Didi: "Burda mənim xurcunum qalıf, ver". Didi: "Əyə, bu... Mən görməmişəm". Musa isdədi diyə ki, ə, u aparmıyıf ey. Hə eliyif diyincə unun başını vuruf saldı yerə, bu kişi - atdı. Didi: "Ə, aşağı düş". Düşdü, diyir, bunu qatdı atın qabağına gətdi düz bu gedəsi olduğu yerə. Heş demə bunun dosdu atasına qırx verirmiş, qırxda da yayma verirmiş. Apardı otdu. Yayma gəldi ortalığa. İsdədi yimiyə, bu xeyratda diyir axı, yi, yi. Bir təpik də vurdular buna, yidi.

Bir dəfə də kəlmələşəndə didi: "Ya Musa, yidin, yayma yidin?" Didi: "Ya rəbbi, bir təpik dəyənnən sora yidim lap". Didi: "Bəs ya rəbbi, ya rəsulallah, səndə də ədalətsizlih, haxsızlıx var axı". Didi: "Nədi?" Didi: "Xurcun düşdü qaldı

bulağın başında, eşşəhçi götdü getdi. Xurcunu düşən kişi qayıtdı gəldi, çobanın boynunu vurdu, çıxdı getdi. Bəs belə ədalətsizliyi sən niyə eliyirsən?" Didi: "Ya Musa, u kişinin xurcunundakı qızıl idi. U qızılı u kişinin babası eşşəhçinin babasının xəzinəsinnən oğurramışdı. Eşşəhçi çatdı haqqına". Didi: "Bəs çoban qoyun güdürdü axı?" Didi: "Vaxdiynən çobanın babası u atdı gedənin babasını öldürmüşdü. O da çatdı hakqına, atdı da çatdı hakqına. Sən - didi, - mənim işimə qarışma". Onnan sora Musa qayıtdı gəldi kor-peşman. Doğrudan hər nə iş olsa Allahdandı. Atalardan belə bir misal var. Diyir, mərd Allahda görə taxsırı, namərd yoldaşda.

DİRİNİN SORĞU-SUAL EDİLMƏSİ

U alimin üş dənə oğlu olur. Nəysə, bu kişi xəsdələnir. Xəsdələnəndə görür ki, daa bunda yaşamağa imkan olmujax, üçüün də çağırır yanına. Üçü də, diyir, öydəydi. Yaxşı pulluparalı adam idi. Didi: "Oğul". Didi: "Hə". Didi: "Sizin üçünüzə bir vəsim var". Didi: "Nədi, ay ata?" Didi: "Mən bu yataxdan durmujam, özü də pulunuz var xirtdəyə kimi. Heç nəyə ehtiyacıız yoxdu ki?" Didi: "Yox". Didi: "Mən bu yataxdan durmujam, sizdən bir dənə xayişim var". Didi: "Nədi?" Didi: "Mən öləndə basdırdız buyün üş gün, bir-bir üçünüz də hər gejə bircə gün qarool durun, ikinci gejə yox", - oğlannarına didi bunu. Didi: "Baş üstə, elə budu?" Didi: "Hə". Didi: "Ə, adama bircə gün düşür, nolajax".

Kişi dünyasını dəyişdi, apardılar bunu basdırdılar. Axşam oldu, qardaşdar didi böyüh qardaşa ki, bu axşam sənin oçiredindi, sən get. Didi: "Baş üstə". "edəndə bunun qaynanası bir ildi kişiynən dalaşıf, ajıx eliyif gəlif göyünün yanında olurdu, həmin göyünün yanında. Dedi: ""öyümə dəyən güllə məə dəysin. Beyjə ataan yanında mən gedif qarool olajam, sən getmə, yat məən qızımın yanında". Nə qədər elədi, arvad didi, yox, qoja arvadam, mən gedəjəm. Apardı, diyir, arvadı qoydu ora. Arvad, diyir, bir az ayna gəzdi, bir az bayna, yazıx, yayın günüydü diyə, yuxu basdı. "əldi baş ağacının dibində, baş daşının dibində bu oturuf mürgülədi. İki ağsakqal kişi, diyir, söhbət eliyə-eliyə gəldi. Tərpətdi, gördü arvad xeylağıdı baş daşının qabağında. Didi ki, sorğu-sualı ölüdən alax, diridən? Didi: "Birinci dirini danışdırax, sora ölünü danışdırarıx". Tərpətdilər bunu, didi: "Ay qarı, ay qarı". Didi: "Hə". Ayıldı, didi: "Nolub?" "ördü ki, iki ağsakqal kişidi. Didi: "Burda niyə otmusan?" Didi: "Bu mənim göyümün atasıdı, bu vəsiyyət eliyifdi ki, hərəəz bir gejə məə qarool durun. U göyümü mən çox isdədiyimə görə onun əvəzinə mən gəlif durmuşam". Didi: "Bəs səən ərin varmı?" Didi ki, üş-dörd uşağım var, ərim

də var. Bir ildi ərimdən ajıx eliyif, dalaşıf, gəlif, didi, göyümün yanında oluram. İndi, didi, göyümün yanında oluram. Didi: "Bəs günahın nə oluf?" Bu bir-iki söz diyəndə bunun sağ çiynindəki, sol çiynindəki qabları çəkdilər, baxdılar... - "Deməli, bir ildi sən ərinnən ajıx eləmisən, eləmi?" Didi: "Hə". O biri kişi xəbər aldı ki, buna nağayrax? Didi ki, buna əlli dənə zopa çək, ağıllansın, getsin kişisinin yanına. Bu arvada, diyir, əlli dənə zopa çəkdilər, arvadı qoydular orda, çıxdılar getdilər.

"ün qalxmış arvad ayıldı. Durdu, diyir, yüyürə-yüyürə göyünün öyünə getmədən düz kişinin öyünə getdi. Kişi də səhər-səhər idi, şornan-zadnan oturmuşdu seyvanın qırağında əppəh yiyirdi uşaxlarnan. "ördü arvad gəlir. Didi: "Bu nə sözdü, ə, bir ildi mənnən ayrılıf". Bir az yaxınnaşdı, gördü, həkqi də, arvaddı. Didi: ""əlmə". Başdadı, diyir, əlini yerə qoydu, iməkləməyə. "ördü gəlir. Didi: "Məni qəbul elə". Didi: "Bilirsən nə var?" Didi: "Yox". Didi: "Bir il məə zulum vermisən. Bu bir il zuluma görə mən sənin canın ağzınnan çıxsa da, qəbul eləmijəm. Əlinnən gələni doxsan yerə qoy, qəbul eləmijəm". Didi: "Məə öl desən, yıxıl yerə başını kəsim, razıyam. Məni qəbul elə". Didi: "Eləmijəm". Tərpəndi, diyir, meçidə, nə qədər adamın içində ağladı, diyir, bütün meçitdə olan əhali hamı gəldi. Bu arvadın dalıynan gəldilər, xayiş elədilər kişidən, diyir, nəysə, kişi bunu qəbul eliyənnən sora molla nikahını kəsdi. Kişi bunu buyurdu. Buyuranda, diyir, bayaxdan buna söz diyəmmirdi, hoppanırdı başına. Kəlmə ağzınnan çıxanda yek kəlmə yoxdu. Bir dəfə, iki dəfə, bir gün buna didi ki, məə de görüm nətəər oluf, bu bir ildən sora ağıllanmısan? Didi: "Hər şeyi mənnən xəbər al, unu alma". Didi: "Yox, di görüm". Didi: "Hal-qəziyyə belə-belə. Məən başıma oyun gəldi. Hələ mən tez düşmüşəm, bir az gejihsəydim, mənim didi işim cana idi. İnnən sora məni ölümə buyursan mən səən üzəə ağ olan deyiləm".

Qaldı bunun ikinci oğlu. İkinci oğlu getdi, didi ki,

eşşəhnən odun daşıyan var, gündə bir eşşəh yükü odun aparır, satıf pul alır, onu da verib çörəyə gətirir. Ona, didi, dədəmin puludu, bir dənə manat verəjəm aparıf qoyajam, didi, dədəmə qarool çəksin. Çağırdı, diyir, eşşəhçini: "A qoşu, qoşu". "əldi. Didi: "U eşşəhdə apardığın odunnan nə qədər pul alırsan?" Didi: "Bir abbası". Didi: "Səə bir dənə, - didi, - manat verəjəm, mənim beyjə atama qarool çəkərsən". Didi: "Cannan-başnan, u nə sözdü, beş günün çörəyidi". Apardı, diyir, qaş qaralanda qoydu ora. O da, diyir, gəzdi bir az aşağı-yuxarı, bir cübbəsi vardı, tulladı cübbəni baş daşının dalına, uzandı. Bir qədər, diyir, gejə yarıdan keşmişdi, gənə həmin ağsakqal iki dənə adam gəldi. Söhbət eliyə-eliyə gəldi, gördü ki, bir adam da uzanıf. Didi: "Ölüdən alax hak-hesabı, diridən?" Didi: "Diridən, burda sirr var".

Hə. Nəysə, tərpətdilər bunu, durdu ayağa. Didi: "Ə, kimsən sən, nəçisən?" Başına gələni söhbət elədi. Didi: "Bir eşşəyim var, onnan bir eşşəh yükü odun aparıram bazara, bir abbası alıram, çörəyə verif qayıdıf gəlirəm. Onnan da bir sutka dolanıram, yiyirəm, səhər gənə gedirəm". Didi: "Bəs bu kimdi?" Didi: "Qonşumdu, dünyasını dəyişif. Onun oğlu məə bir maat verdi, gördüm beş günün çörəyidi, didi mənim atama qarool çək. Mən də gəldim qarool çəkdim". Didi: "Dəftəri çıxart". Çıxartdı. Dedi: "O eşşəyi yükləmisən, səhər gedəndə də minif getmisən, eləmi?" Didi: "Hə". Didi: ""ələndə də yükləmisən?" Didi: "Hə". Didi: "Şəhərdən gələndə də minif gəlmisən, gappagap döyə-döyə, çırpmısanmı?" Didi: "Hə, yük ağır olurdu, yatırdı". Didi: "Gələndə quru ağaca bağlamısan, düzdümü?" Didi: "Hə". Didi: "Bəs u cannı döylü?" Didi ki, əlli ağac da buna cəkmək lazımdı. Əlli dənə də zopa buna çəkdilər.

Səhər durdu, alaqarannıxdan yüyürdü məhləyə. "ördü ki, eşşəyi axşamdan bağlıyıf quru ağaca. "örürsən ki, həqqi də, heylədi. Bu eşşəh tayfasını quru ağaca bağlıyırsan onu gəmirir, ordan qidalanır. Allah-tala demək insan zülm elədiyinə görə o

heyvana quru ağacdan qida verir ki, onnan dolansın. Bu şəriyətimizdə var. Bəli. - "Qoşu" Didi: "Hə". Didi: "Eşşəyi satıram". Didi: "Neçəyə diyirsən?" Ucuz qiymətə didi. Didi: "Ə, başın xarab olmasın, baha diyirsən". Elə bildi bununla zarafat eliyir. Bir az da düşdü aşağı. Didi: "Yenə də baha diyirsən". Bir az da düşdü. Didi: "Ə, elə-belə də olsa, bir maat ver, eşşəyi verim səə". Heç neçəyə, diyir, eşşəyi verdi. Didi: "Allah səə şükür, bunun günahınnan qutardım". Onnan sora kəndiri aldı, baltanı aldı əlinə, dalında daşıdı. Didi: "Onun günahınnan kutarammaram, hələ bu yüngülvarıdı".

Üçüncü oğlu getdi, keşih çəkəndə onnan da xəbər aldı. "əldi, diyir, didi: "Nağarmısan bu dünyada, burda niyə durmusan?" Didi: "Mənim atamdı, vəsiyyət eliyif". Didi: "Bəs sən nağarmısan bu dünyada?" Didi: "Mən atamın çörəyini yimişəm, halal çörəh yimişəm. Hələ mən, didi, bir kəsin bir köpüyünə xəyanət eləməmişəm. Atamın, didi, vəsini yerinə yetirirəm". Didi: "Dəftəri aç, baxax". Baxdılar, didi: "Qonşudan filan vaxtı bir girvənkə yağ almısan, filan saatda, filan tarixdə. Əməlli fikirrəş". Didi: "Hə". Didi: "Bəs onun pulunu niyə verməmisən?" Didi: "Yaddan çıxıf, icazə verin burdan gedənnən sora on qat onun pulunu verməyə mənim qüvvəm çatır. U mənim, - didi, - yadımdan çıxıf". Unnan, diyir, razılaşdı. "ələn kimi unun hakqını verdi.

İndi rəvayətdə belə şeylər çoxdu, Allahın hökmü çoxdu.

SÜLEYMAN VƏ ZÜMRÜD QUŞU

Süleyman peyğəmbər Zümrüd quşuna diyir ki, bütün quşdarı yığ mənim taxtımın yanına. Taxtımın yanında qənədlərini belə qənəd-qənədə söykəsinnər, mənim üsdümə gün düşməsin. Zümrüd quşu da bunu bütün quşdara əmr eliyir, quşdar gəlir. Görüllər ki, bir balaca yerdən peyğəmbərin üsdünə gün düşür. Başdıyıllar axtarmağa ki, bu hansı quşdu gəlmiyif, onun yerinnən gün düşüf. Baxıf görüllər ki, bülbül. Gedir Zümrüd quşu bir baxçada görür ki, bülbül bir gülün içində cəh-cəh vurur, oxuyur. Diyir ki, bəs sən Süleyman peyğəmbərin əmrini yerinə yetirməmisən. Səə demişih gəl peyğəmbərin taxtının yanına. Diyir: "Bu məə Allah-tala tərəfinnən yazıdı, mən bu gün bu qızıl gülün üsdündə oxumalıyam, cəh-cəh vurmalıyam". Diyir: "Yox, u nə yazıdı, gəl sənin boynun vurulajax". Götürür gəlir peyğəmbərin taxtının yanına. Bülbül olduğu kimi deyir ki, bu Allah-tala tərəfinnən məə yazıdı, mən oxumalıyam bu gün, cəh-cəh vurmalıyam. Bunnan qaçmax olmaz. Zümrüd quşu diyir ki, yox, nətəəri, pozmax olar bu yazını. Süleyman peyğəmbər diyir ki, pozmax olar? Diyir: "Olar". Vaxd qoyur Süleyman peyğəmbər, diyir: "Poza bildin, pozdun, pozammadın cinayət daşıyırsan bu işdə". Vaxd qoyur buna, diyir ki, məğrubda bir qız anadan oluf, məşruqda bir oğlan anadan oluf. Bunnarın evlənmə yaşdarı gələndə bular aylə qurajax, həyat qurajax. Allah-tala buları bir-birinə yazıf. Əgər sən buların evlənməsini poza bilsən, deməli, Allah-talanın yazısını poza bilərsən. Poza bilməsən, deməli, poza bilməzsən. Diyir: "Oldu". Buların, demək, evlənmə müddətdəri çatana kimi Zümrüd quşu bunu pozmalıdı, buna kimi də vaxd qoyur. Zümrüd quşu gedir hərrənir, görür qız beşikdə həyətdədi, ana da həyəti süpürür. Zümrüd quşu çox vəşi, cannı bir quş idi. Şığıyır, beşiyi alır caynağına, gətirir dörd bir tərəfi su olan adada bir ağacın başına qoyur beşiyi. Bunu gündəlih gətirir orda yeməhnən təmin eliyir, yedizdirir, saxlıyır

orda. Oğlan gəlir yaşdaşır, on yeddi-on səkkiz yaşı olanda diyir ki, mən burda yaşamıram, gedif başqa yerdə yaşıyıram. Baş götürüf gedir. Gedir ayrı yerdə yaşamağa. Bu gəlməhnən gəlir çıxır həmin u adanın yanına. Ağaşdan özünə adaya keşməhdən ötrü şey düzəldir. Ağajnan adaya keçir. Keçir adaya, adada belə getdiyi yerdə qız görür ki, ağaşdan, yerdə kimsə gedir, bunun nəslinnəndi. Çağırır ağaşdan: "Ey insan, sən kimsən? Sən mənim nəslimdənsən, mənim anam vəşi bir quşdu, səni parçalıyar görsə". Oğlanı çıxardır yanına. Oğlana danışır ki, bəs mənim anam vəşi bir quşdu, anam səni görsə yiyər. Diyir: "Bə mən nağarım?" Diyir: "Ancax gizdənməh". Anası demək gündə üş dəfə buna çörəh gətirirmiş - qıza, üçündə də oğlanı gizdədirmiş aşağıda qəfəsdərdə. Quş gedənnən sora oğlan çıxırmış yanına, bir yerdə yiyillərmiş. Gəlir buların evlənməh məqamlarında, yaşdarı çatanda Süleyman peyğəmdər Zümrüd quşuna diyir ki, hazırsanmı, pozmusanmı? Diyir: "Hə, pozmuşam". Diyir: "Sabannarı gətir mənim taxt-tacımın yanına. Görəh nətəər pozufsan?" Çörəh gətirəndə qıza diyir ki, bəs səhər Süleyman peyğəmbərin taxtının yanına gedəjəyih. Diyir: "Onda sən məə bir dəst qadın paltarı, bir dəst də kişi paltarı gətirəjən". Diyir: "Oldu". Zümrüd quşu bilmir axı oğlanın burda olduğunu. Zümrüd quşu gətirir qadın paltarı, kişi paltarı. Oğlannan məsləhətdəşir bu qız, ağacdan göstərir ki, get yerdəki u qəfəsəyə gir sən, mən gəlif sənin yanına girəjəm. Amma diyəjəm sənin caynağın itidi, məni parçalıyar. Qəfəsə girim, qəfəsi götür. Diyir, gedir girir qəfəsə, Zümrüd quşu şığıyır qəfəsi götürür, aparır qoyur Süleyman peyğəmbərin taxtı-tacının yanına. Peyğəmbər diyir ki, hazırsanmı? Diyir: "Hə". Diyir: "Dinən gəlsin". Əvvəlcə qız çıxır qəfəsdən, dalıynan da oğlan, gəlillər taxtı-tacın yanına. Sülyeyman peyğəmbər diyir ki, bəs sən pozmuşdun? Axı bular ikisi bir yerdədi, nətəər pozmuşdun bunu? O vaxdan, diyir, Zümrüd quşu Qaf dağı var, Qaf dağının dalında utandığınnan, xəcalətinnən dimdiyini diriyif yerə, duruf.

BAĞIŞLANMAZ GÜNAH

Bir az bir tərəfi də biədəb gəlir söhbətin, amma yaxşı söhbətdi. Biri, deer, olur. O qədər pozulur, o qədər düşür çöllərə, ayıb da olsa, gəlif bunun boynuna uşax düşür. Diyir: "Allah, mən qohumdan-aqrabadan, öydən bu uşağı hara eliyim, hara tulluyum bunu?" Uşax gəlif olur. Uşağı aparıf çaxır boşkasına tulluyur. Keşmişdə oluf çaxır boşkası. Uşax o çaxır boşkasında əriyif axır, bütün el-aləm o çaxır boşkasınnan aparıf içir. Vaxd gəlif arvad qojalıf əldən düşüf. "edif oturuf bir yolun üsdündə, başdıyıf ağlamağa. "ejə-gündüz başdıyıf ağlıyıf, Allaha da dua eliyif. - "Ya rəbbi, sən mənim günahımdan keş. Mən böyük günah tutmuşam". Allah-tala məleykələrə əmr eliyir: "Ay məleykələr, gedin görün u arvad niyə ağlıyır? Unun səsi mənim qulağımı dəng elədi?" Məleykələr gəlir insan donunda, diyir: "Ay qarı nənə, niyə ağlıyırsan, nolufdu?" Diyir: "Mənim dərdim böyükdü. Mənim dərdim sizə diyiləsi dərd döyül". Nəsə, nəkqədər eliyillər, bunnan bir söz öyrənə bilmillər. "ənə qayıdıf gəlillər. "ənə arvad başdıyıf ağlamağa. "ənə başdıyıf Allah-tala: "Məleykələr, gedin, axı onnan bir xəbər alın. Məni burda qoymur durmağa". Nəysə, gənə məleykələr gəlir, gənə arvad buna heş nə demir. Arvad yıxılır, özünü torpağa, daşa-zada, ora-bura sürtür. Ağlıyır, elə əldən gedir. Allah-tala məleykələrə əmr eliyir ki, gedin onu nəyin bahasına olursa olsun, gətirin bura, mənim hüzuruma. "örüm o arvad nə günah iş tutufdu. Çünki qurban olduğuma əyandı. Diyir: "Axı o məni burda qoymur. "ejə-gündüz yalvarır keş mənim günahımdan, keş". Məleykələr gəlir, deer: "Qarı nənə, sən niyə ağlıyırsan, səsin ərşə çıxıfdı?" Diyir: "A bala, mənim dərdim o qədərdi ki, mənim dərdimi nə yer tutmaz, nə göy. Mən çox böyüh səyf iş tutmuşam". Diyir: "Niyə?" Diyir: "Nə bilim". Diyir: ""özüü yum görəh". Bu gözünü yuman kimi qənədin üstünə bunu alıf qalxızır göyə. Diyir: "Biz deyəndə gözüü açarsan". Bilmir ha məleykələr qarını apardığını. Çıxır

ərşə, qurban olduğumun hüzuruna. Deer: "İndi aş gözüü". Açır gözünü, görür Allah-talanın hüzurundadı. Diyir: "Payho, mən nə qədər günah iş tutmuşam, Allah-talanın da hüzuruna çıxartdılar məni bu günahın qabağında". Allah-tala deef ki, de görüm nağarmısan. Diyif: "Mən vaxd vardı azışdım, yolumdan çıxdım. Səə qurban olum, ya Allah-tala, taxsırımdan keş. Mənim bijdən bir uşağım oldu. Mən u uşağı heş bir yerə qoya bilmədim ki, el görməsin, camaat görməsin. "ətdim, apardım bunu çaxır boşkasına tulladım. U boşkada əridi, axdı, çürüdü, onu bütün maxlux işdi. İndi mənim bu günahımı nə yer tutmur, nə göy tutmur". Deer: "Sən ki, töybə eliyif yola qayıtmısan, sənin bu günahınnan keçirəm. Amma bir ikindi namazının günahınnan keçmijəm".

ÖLÜMDƏN QAÇAN GƏNC

Oğlu olur cavan da, bizim yaşda diyəh. Bir günü bu səfərə gedəsi olur. Bu səfərə çıxanda atası diyir ki, oğul, yola çıxırsan ha, yola çıxanda yol yoldaşı olduğun adama fikir verərsən, mən diyən əməllər onda olmasa, onnan səə yoldaş olmujax. Didi: "Nədi u?" Didi: "Əgər sən gedirsənsə, yolda düşüf yana keçəndə u dayanıf səni gözdəsə, bilginən ki, onnan səə yoldaş olajax, yoxsa yox". Diyir: "Baş üstə" - deyif çıxır. Bu düşür meşəən içiynən gedir səfərə. Arxadan bir dənə atdı gəlir, ağ atdı, at qan-tər içindədi. Bu atın cilosuun çəkir ki, yavaşdasın, qoy arxadakı çatsın. Çatır, bəli. - "Salam məleyki". - "Əleykimət salam". Bular, diyir, bir xeyli yol gedənnən sora bu oğlan, diyir, bunu sınıyır. Atın cilosunu çəkir, kişi də saxlıyır atı. Didi: "Bağışdaginən, bayna keşməh isdiyirəm". "edir, indi yalan-gerçəh, gəlir görür ki, kişi hələ də gözdüyür. Hələ özü bir az gej gəlir. "ənə oturullar atın belinə, bir müddət gedillər, bular nahar eliyəsi olullar. Oturanda oğlan görür ki, çayın qırağıdı. Atdı gedir dəsdəmazını alır, namazını qılır, oğlan da həmçinin. Oğlan görür ki, bu kişi əlini çaya salıf balıxları tulluyur qırağa, əlini salır, tulluyur qırağa. Bu oğlan bir az təəccüblənir. Bu oğlan özü də Allah tərəfin adamı oluf. Diyir: "Səni, burda sirr var". Balığı ordan götürür, qarnını cırır, qoyur tavaya. "əlir, əlinin suyu bir damcı tavaya düşən kimi balıxlar tavadan partdıyıf çıxır, qızardılmış balıx, çaya düşür, yarsı qalır. Oğlan daha da təəccüblənir. Diyir: "Əşi, sən nağardın, burda nə qaldı?" Didi: "Qalana bərəkət".

Nəsə, bular bir müddət gedillər, uje qabağı axşama tərəf gedir, qaş qaralır, dar majal vaxtı, mal naxırdan gələn vaxd olur. Atın cilosuun çəkir, diyir: "Oğul". Diyir: "Hə". Diyir: "Bu atı səə tapşırıram, amma atım vurağandı, atı minmə, xəta yetirər səə. "özdüyürsən gözdə, gözdəmirsən, çıx get". Diyir: "Yox, u nə söhbətdi". Atın cilosuun ağaca keçirif, diyir: "Aşağıda kət var, ora dəyif gəlirəm bir iyirmi dəyqəyə". Diyir:

"Oldu". Oğlan saata baxıf, bir on dəyqə, on beş dəyqə keçənnən sora diyir: "Səni, bu kişi məə didi ki, ata minmə. Burda nəsə bir sirr var, minəjəm". Nəsə, kişi uzaxlaşan kimi düşür atın belinnən, qalxır bunun atının belinə. Qalxan kimi görür ə, yer kürəsi xəlbir kimidi, qızıl qan içindədi. Baxır görür, həmən bu kişi kətdən kənarda bir ferma var, bu fermaya tərəf gedir. Diyir: "Buna oturuf fikir verəjəm, görüm bu nağarır". "edəndə guya xanın xanımı fermaya mallara baxmağa gəlir. Xanım mallara baxmağa girəndə bu kişi də bayannan girir. Malın hissiyatı var axı, mal hiss eliyir. Deməli, bu bayannan girən kimi kəniz də bayannan, mallar kişini görən kimi başdıyır böyrüşməyə. Böyrüşəndə bu diməli, yüyürüf özünü çatdırır xanıma. "uya ki, bu mallar böyrüşməhdə xanımın ürəyi gedir. Bu oğlan görür ki, xanımın ürəyi getmir, bu kişi bunun canını aldı. Bu camaat da elə bilir ki, bu malların böyürtüsünə xanımın ürəyi getdi. "örür ki, fermanın ağzında bir it yatıf. Çıxanda əlinin qanını sürtür itin üsdünə, təmizdiyə-təmizdiyə gəlir. Oğlan görür bu kişi yaxınnaşır, düşür atdan, minir öz atına. Yenə salam məleyki, əleykimət salam. Diyir: "Oğul". Diyir: "Hə". Diyir: "Mənim atımı minməmisən?" Diyir: "A kişi, yox". Diyir: "Düzünü de". Diyir: "Yox". Diyir: "Nolar, bu saat soruşaram". Atdan soruşur ki, ay heyvan, bu kişi sənin belinə mindimi? Didi: "Hə". Didi: "Axı biz yol yoldaşı idik, niyə yalan danışırsan?" Didi: "Vallah, qorxdum". Diyir: "Zərəl yoxdu, indi bildin mən kiməm?" Didi: "Hə". Diyir: "Qayıt get öyəə". Axşam şam yiməyini yiyillər. Obşim, bular ayrılası olullar. Oğlan diyir ki, bəs Əzrayıl sağ olsun, sizdən bir dənə xayişim var, amma məə düzünü de. Diyir: "Mənə diyin görüm, mənim canımı nə vaxt alajaxsız?" Çox fikirrəşir, diyir: "Vallah, ürəyəə xal salmax isdəmirəm, amma çörəh kəsmişih, çörəhdən keçə bilmərəm". Diyir: "Nə vaxd?" Diyir: "Sənin canını toy axşamı alajam". Diyir: "Oldu". Diməli, bular ayrılıllar. Halal-hümmət bular səfərdən ayrılıllar.

Oğlan səfərdən gəlir. Atası buna toy eliyir, axşamdı uje, baş qarışan vaxtı. Bəli. "əlin özüynən gələndə gətdiyi xonça yoxdu? Baxır görür ki, bir dənə kişi cəhd göstərir ki, u xonçanı alsın. Arvadın biri əlinnən alıf ora qoyur. "əlin diyir ki, əlinnən niyə alırsız xonçanı? Mən gətməmişəm u xonçanı, verin kişiyə. Kişi xonçanı alır podnuslu-zadlı, çıxır gedir. Bular yatır, durur səhər. Axı qırx gün Allah-talanın hüzuruna gedə bilməz ki? Qırx gün günah saxlıyır. Qırx gün tamam olur, qırx birinci gün görür oğlan Allah-talanın hüzurundadı, Allah-talaya səcdə edir. Obşim, peyğəmbəri çağırır: "Bu nə əhvalatdı? Mən Əzrayılı göndərmişəm bu kişinin canını alsın, uje qırx birinci gündü, bu gəlir məə səcdə edir". Süleyman peyğəmbər gülür. Didi: "Bəs, Allah-tala sağ olsun, sənin Əzrayılın balışın altında gürzə şəklində yatmışdı. Mən girdim qızın xonçasını aldım, bəs u xonçadakı çörəhdən keşmədim. Həmən ilana yuxu vermişəm, daa gejdi". - "Sən get u heyvanın başına vur, ayılsın, çıxsın getsin". Bəli. İndi Allah-talanın qismətidi. Demək, u qız u xonçanı buna verməsəydi, unun da fərzi tamam olurdu. Allah-talaya qurban olum.

İndi u kişi çıxanda əlini itin üsdünə niyə sürtdü, bunun da mənası var. Bular mənasız ola bilməz. Yəni bu xanım it adama irast gəlifdi. Ona görə də Allah-tala unun ömrünü aldı. Qanını unun üstünə sildi ki, yəni it adamdan sənin qanını aldım. Bunu diməh isdiyirdi.

Meçitdə imam xeyratı verilində eşidib.

ƏBƏDİ HƏYAT AXTARAN GƏNC

Bir qadın olur, bunun uşağı olur. Uşax da körpə olur. U çıxır küçəyə oynuyur. Axşam olanda u uşax yüürürmüş ki, atam gəldi, bu uşax yüürürmüş ki, atam gəldi. Bu uşax qalırmış tək. Uşaxlar dağılışırmış. Bu uşağın da atası olmurmuş. Bu uşax uje getdihcə başdıyır qanmağa da. Bir gün diyir: "Ay ana". Diyir: "Hə". Diyir: "Axşam olanda uşaxlar yüürür ki, atam gəldi, atam gəldi. Bu ata nə olan şeydi?" Diyir: "Oğul, səən atan rəhmətə gedifdi sən körpə olanda". Diyir: "Rəhmətə getməh nədi?" Diyir: "Dünyasını dəyişir, yanı ölür". Diyir ki, ölüm nə olan şeydi? Uşaxdı da, qanmır, qandırmır. Başdıyır uşağa bunu təkmilləşdirməyə ki, ölüm budu, həyat budu, budu.

Uşax böyüyür, həddi-buluğa çatır. On altı, on yeddi yaşına çatır. Diyir: "Ay ana". Diyir: "Hə". Diyir: "Yadındadı o vaxtı mən bir sual vermişdim ki, ölüm nə olan şeydi, filan? İndi mən özümə belə bir fikir seşmişəm ki, mən gedif elə bir dünyada yaşıjam ki, orda ölüm olmasın". Başdıyır arvad buna gülməyə. Diyir: "A oğul, səən başa hava gəlib. Elə bir yer yoxdu ki, orda ölüm olmasın". Diyir: "Yox, can ana, məə icazə ver, mən gedif axtarım". Ana baxır, diyir: "Tək uşaxdı, bir oğlum var, mən bunu hara göndərim? Ömrü-günü yolda-irizdə keşcəh bunun. Mən də ölsəm götürən olmujaxdı". Nəsə, görür ki, yox ey, uşağı ipə-ilmağa gətirə bilmir. Uşax bunnan halallıx isdiyir ki, mən gedirəm. Bir gün lap dirənir. Diyir: "Yaxşı". Uşağın qırx günnüh azuqəsini yığır bir çantaya. Bəli, uşax halal-hümmət eliyir, düzəlir yola. Hası vilayətə gedirsə, diyirlər: "Nə axtarırsan?" Diyir: "Belə-belə". Buna gülüllər. Diyirlər: "Yanı elə bir yer var?" Gülüllər da. İnamsız bir şey olur. Nəsə, uşax elə fərz elə ki, dünyanın doxsan faizini gəzir. Elə bir yer tapmır ki, ölüm olmasın. Bu minvalnan gəlir dirənir bir dağa. Çıxır dağın belinə, görür ki, ilahi-pərvərdigara, dağda bir maral otduyur, buynuzdarı az qala göyə dirənir. Gəlir bunun yanına çatanda maral dilə gəlir. Diyir: "Ay uşax, sən nə

axtarırsan bu dağda?" Diyir ki, bəs belə-belə. Allaha qurban olum, bəs mən çıxmışam ki, ölüm olmuyan yerə gedim. Uşax marala ətraflı danışır da atası haqqında. Maral diyir ki, bilirsən nə var? Diyir: "Yox". Diyir: "Mənim buynuzumu görürsən?" Diyir: "Hə". Diyif: "Mən buynuzlarım göyə dirənəndə öləjəm. İsdiyirsənsə gəl qal mənnən". Uşax bir göyə baxır, bir buynuza baxır. Buynuz hədinnən artıx uzun olur. Uşağa o ömür qısa gəlir. Diyir: "Yox". Diyir: "Unda get tap. Bir az gedir, görür ki, bir dənə dağ kəli sıldırım qayaan başında otduyur. Bunun yanına çatanda kəl dilə gəlir. Diyir: "Ay uşax, bəs hara?" Diyir, belə-belə. Diyir: "Əyil qayaya bax, aşağı". Uşax qayaya baxır, gözdəri qaralır. Diyir: "Bu qayanı mən qığnan doldurunca ömrüm var. Gəl qal mənnən". Uşax bir sıldırım qayaya baxır, bir kələ baxır, diyir: "Yox". Uşağa az gəlir bu ömür. Diyir: "Yox". Diyir: "Unda get". Oğlan okqədər gəzir. Bir axşamçağı gün əyilən vaxtı gəlir bir dənizin sahilinə çıxır. Dənizin sahilinə çıxanda görür ilahi, dənizin kənarında yerdə nəsə parıldıyır. Günün şoğu düşüf, bunun gözünü aparır. Uşax yaxınnaşır, qumu ayna-bayna eliyir, görür yox, bura nəsə böyüh bir yerdi. Obşim, eşir ora-buranı, burda bir qapı tapır. İçəri girən kimi qapı bağlanır. Girir içəri, görür ə, bura cənnətin yedinci qatıdı. Gül gülü çağırır, bülbül bülbülü, çiçəhlih. Bir az oturur, görür bülbüllər danışır bir-biriynən, gülnən. Bir vaxd oturanda görür ki, bir on beş, on altı yaşında bir qız uşağı gəldi bunun yanına. Bəs salam, salam. Obşim, hak-hesabı oturur bu qıza başdıyır nağıl eləməyə, başına gələnnəri. Diyir ki, buralar nətəərdi, xoşaa gəlirmi? Qız soruşur. Diyir: "Hə". Obşim, bu qıza bu oğlanın gözü düşür. Diyir: "Mən sənnən o vaxtı razılaşa bilərəm ki, həyat yoldaşım olmax üçün, sən burdan heç vaxd çıxmıyasan. Elə nə qədər ömrümüz var, burda qalax, mənim yanımda". Qız o qədər gözəl olur ki, oğlanın ağlı başınnan çıxır, razılıx verir. Oğlan da hər gün güzgüyə baxır, görür elə həmən adamdı. Bir gün oğlana darıxma gəlir. Qız görür ki, oğlan nəsə sıxılır. Diyir:

"Noluf, niyə sıxıntılı keçirirsən ürəyii?" Diyir, bəs hal-əhvalat belə. Anam yadıma düşüfdü. Anam deyən kimi qız başdıyıf buna gülməyə. Diyif: "Noluf?" Diyir: "Sən bilsən ki, burda nə qədər yaşıyırsan, sən heç onun adını çəkməzsən". Diyir: "U nə diyən sözdü?" Oğlan elə bilir ki, üç ildi, dörd ildi da bura düşdüyü. Belə gəlif buna. Diyif: "Yox ey, sən məni aldadırsan. Mənim bura gəldiyim iki-üç il olar uzağı. Mən gedif anamı görməliyəm ki, baxım görüm anam nətəər yaşıyır". Diyir: "Mən etiraz eləmirəm. Bu saat nəinki sənin anan, bəlkə u yaşadığın yer-yurd tamam dəyişilifdi. Sən oranı tanımadın heç". Diyif: "Nə qədər keçifdi?" Diyir: "Düz min il keçifdi". Oğlan inanmıyıf, gülüf buna. - "Nətəər min il?" Nağayrıf oğlanı saxlıyammıyıf. Diyif: "Gedirsən?" Diyif: "Hə". Diyif: "Ala bu bir dənə almadı, qoyarsan cibəə. Bura qayıtmax isdəsən almadan yimə, yox, qayıtmax isdəməsən yiyərsən". Diyir: "Oldu". Oğlan oradan çıxıf gəlir. Görür ki, dağ kəli sıldırım qayanı dolduruf, təzəcəlihnən ölüfdü. Əlini vurur, görür ki, bədəni isdidi hələ. Ordan gəlif maralın yanına. Görüf ki, maralın da buynuzu dirənif göyə, təzəcəlihnən dünyasını dəyişifdi. Diyir: "Hə, min il keçifdi". Diyir uje artıx gejdi. Mən çıxmışam burdan. Mən getməliyəm öz yurduma. Gəlif görür ki, nə yurd, nə filan. Lap yaşlılardan soruşur ki, bəs hal-əhvalat belə-belə. Baxıflar ki, ə, on altı, on yeddi yaşında oğlan uşağıdı, bu min ilin söhbətini eliyir. Nəsə, qojalar yığılır ki, babamın babasının ulu babasınnan eşitmişəm ki, burda belə-belə bir qadın yaşıyıf kimlərdənsə. Bu oğlanın u saat halı dəyişilir. Diyif: "Artıx gejdi mənim ora qayıtmağım. Həqiqətən də, insan dünyaya gəlifdi, bir dəfə də köşməlidi" - diyif həmin almanı çıxardıf bir dişdəm alan kimi beli bükülüf, sakqalı ağappax düşüf göbəyinə. Baxıflar, görüflər oğlan bir saniyənin içində dəyişdi tamam. Tez bunu camaat götürüflər əllərinə, aparıf bir yaxşı yerə. Bir az danışdırannan sora bir dişdəm də götürüf. Bir dişdəm də götürən kimi dünyasını dəyişifdi.

PUL İNSANI DƏYİŞDİRİR

Demək, bir dənə oğlan olur, bunun ata-anası olmur. Körpə olarkən ata-anası vəfat edir. Bu oğlan qalır qonşunun ümüdünə. Demək, bu oğlan gündə meşəyə gedirmiş, bir şələ odunu neçə şahıya satarmış, gündəlik çörək pulunu çıxararmış. Nəsə, bu qonşunun arvadı bir gün kişisinə gileylənir: Diyir: "A kişi". Diyir: "Noluf, arvad". Diyir: "Bayaxdan bu uşax uşax idi, indi həddi-buluğa çatıf. Bunun alt paltarını yumax uyğun gəlməz mənə. Oğlan uşağıdı, qız uşağı olsaydı zərəl yoxdu". Kişi deyir ki, nə məsləhət görürsən? Arvad diyir ki, gəl, buna bir havadar tapax". Bular fikirrəşillər ki, buna kimi alax, kimi almıyax. Kişi diyir ki, kəndin başında bir naxırçı var, doqquz dənə də qızı var. Birini alax gətirəh onnardan yiyənnərdən biri azalsın, həm də paltarını yuyar. Bu minvalnan bunu evləndirillər. Bayaxdan bir özü idisə, indi yoldaşı da artıf. Oğlan bayaxdan bir işdiyirdisə, indi iki şələ aparır. Bir gün yornux gəlir meşədən bu yatır. Yoldaşı da gözəl insan olur ha, belə əzab görmüş, çətinlih görmüş. Evə girən kimi bunun əl-ayağını yuyurmuş ki, yorğunluğu çıxsın. Atalar misalı var, kimin əvvəli, kimin axırı. Bu həqiqətdi. Gəlir oğlan yatır, yatanda Allah-taladan nida gəlir bunun hüzuruna. Diyir: "Ay uşax". Diyir: "Hə". Diyir ki, insanın bir əvvəli, bir axırı. İndi gəlmişəm onu sənnən soruşmağa. Görürəm çox əziyyət çəkirsən. Sənə var-dövləti bəri başdan verim, yoxsa sora?" Belə deyəndə bu diksinif ayılır. Yoldaşı diir: "Noldu?" Diir ki, ay arvad, hal-qəziyyə belə-belə. Mən ona nə cavab verim, diyif üç günnən sora gələjəm. Diyir: "Gələndə diginən nə verirsə bəri başdan versin". Üç günün tamamında həmən bu kişi gəlir girir bunun yuxusuna. Diir: "Saa qurban olum, mən bəri başdan isdiyirəm". - "Get innən belə sənin var-dövlətin başınnan aşacax. Əlli il də sənə ömür verirəm. Amma əlii heç kimnən qısırqalamaginən. Kim üsdəə nə təmənnaya gəlsə, boş qaytarmaginən".

Vaxd gəlir, bu oğlan elə varranır ki, camaat bunun yadınnan çıxır. Hərrənir, fırranır bu əlli il gəlir keçir. Əlli ilin tamamında bu kişi gəlir durur bunun yanında. Diyir ki, ay bəndə, narazılığın yoxdu ki? Diyir: "Yox". Diyir: "Amma bir səhvin var". Diyir: "Nədi?" Diyir: "Axı mən sənə demişdim ki, üsdünə kim gəlsə qısırqalanma". Diyir: "Allah-tala sağ olsun, var-döylətə başım o qədər qarışdı ki, başımı itirmişəm". Diyir: "Bilirsən nə var? Fərqi yoxdu sən elədin, sənin arvadın elədi. Sənin başın qarışıx oluf, amma sənin arvadın sənin qazandığın pulların yüzə altmış faizini paylayıf. Get, sən ömürrük varrı olajaxsan, ömrün sonuna qədər yaşıjaxsan o arvadının sayəsində". İndi Allah-talaya qurban olum, rəvayətdərə baxanda görürsən ki, uyğun gəlir. İndi onun yarısı yalan olsa da, elə qanıram ki, otuz faizi, otuz beş faizi həqiqətdi.

İVRAAMIN NAĞILI

Bir dənə şah olar, bunun arvadı ölər. Arvad öləndə diyəllər ki, ay kişi, gəl filan ölkədə şah var, özü ölüf, arvadı qalıf, gedəh onu sənə alax. Diyər: "Yaxşı". "edəllər, bunun arvadını alıf gətirəndə bunun iki dənə oğlu qalar. Birinin adı İvraam olar, balacasının, böyüyünün adı Asdan olar. Bular görər ki, gəcavəynən atalarına arvad gəlir. "əcavənin qabağına çıxıllar. Qadın gəcavədən baxır ki, iki dənə oğlan gəlir, bir-birinnən gözəl. Diyir: "Bunun ikisinnən biri, hara getsə, mənim yoldaşımdı". Bəli. Axşam gəlir, yiyif-içif yatanda görür sakqalı döşündə bir dənə şah. Üsdünü vurmur. Şahın da qırx mərtəbə otağı var imiş. Səhər açılır, deyir: "Şah sağ olsun, ha bu oğlannarın birini ver, bu qırx mərtəbə otağı açım baxım, qıfıllıyım. U aşsın, mən baxım". Daa bilmirəm uşaxların hansını verir, İvraamı verir, yoxsa Asdanı verir, verir birini, gedir. Axırıncı qapını açanda oğlannan yapışır ki, hara gedirsən, mən sənnən yaşamax isdiyirəm. - "Aaz, sən mənim anam". Diyir: "Yox". Pencəyinin ətəyini kəsir, çıxır uşax əlinnən. Uşaxdan qabax gəlir kişinin yanına, şahın yanına. - "Sənin oğlun məni ələ salmax isdiyir". Şah çağırır vəzir-vəkili, deyir ki, aparın İvraamın da, Asdanın da boynunu vurun, qanlı köynəyini mənə gətirin. Şahdı, nə ixtiyarı var? Aparıllar uşaxları. Diyillər ki, paltarınızı çıxarın, verin aparax bir heyvan qanına buluyax, çıxın gedin başqa yerdə yaşıyın. Verir, gedillər. Az gedillər, çox gedillər, bir künbəzdə axşamlıyıllar bular. Balaca qardaşı İvraam olur. Asdan diyir ki, a qardaş, sən yat künbəzdə, gedim Əmirmahmud kəndinnən bir tikə çörəh tapıf gətirim. "əlir, görür ki, iclasdı. Keşmişdə şahı qızıl quşnan seçəllərmiş. Bu, diyir, oturajam burda, görüm bular nağarır. Oturur burda camaat kimi. Qızılquşu buraxıllar. Hərrənir, fırranır, gəlir qonur bu Asdanın çiyninə. Bunun təpəsinə bir qapaz. - "Ə, buna bax, bu yetimə, hardan gəldi çıxdı. Yönnü adamın başına düşdü?" Bir də buraxıllar, gənə

gəlir. Üçüncüdə bunu aparıf bir damkaya salıllar, quşu buraxıllar. Üş dəfə hansı adamın çiyninə düşərsə qızılquş, unu şah təyin eliyillər. Quş döyr eliyir, görür yox, gedir buxovdan girir, düşür Asdanın çiyninə. Diyillər: "Bunu şah qoyax". Bu Asdanı burda camaat şah dikəldir. Balaca qardaş qalır künbəzdə. Bir qırx haramıbaşı Ziyad vardı. "edif çöldə heyvan ovluyuf gətirif onunla dolanırdılar. Bir günü ovdan qayıdanda künbəzdən yolu düşər, ovları olmaz. Uşağı tapallar, deyəllər: "Səni, axşama yeməyimiz var, aparağın bunu kəsəyin, yiyəyin". Bu haramıbaşı Ziyad diyir: "Ə, bir qara inəyim var, onu verim sizə, bunu aparım özümə oğulluğa". Keçəlin biri diyər ki, yox, bunun ayağı səbəb olajax, çörəh tapajam. Nəsə, inəyi bağlayıf başını verir bulara. Aparıf kəsif bölüşüllər. Ziyad bularnan haramılığa getmir. Bu oğluynan gedir, ovluyur, quşluyur, gətirir. Bular qalıllar avara. Topalanır beş-on dənəsi, diyir: "Ə, gəlin adama beş-beş yığağın, nə çox ananı baladan, balanı anadan ayıran imansız qarı. Bu İvraamı bunnan eyləsin, onda biznən haramılığa gedər". Adama beş-beş yığıllar, bir imansız qarıya verillər. Qarı bu Ziyadın öyünün qabağınnan keçirdi. Ziyadın arvadı diyir: "Ay xala, sən nə bərk gedirsən gündə?" - "A köpək qızı, sən beləsən". - "Nətəəri?" - "Bəs İvraam diyir ki, Ziyadın arvadı gündüzdər Ziyadındı, gejələr mənim". - "Aaz, bəsdi". Diyir: "Vallah, bax kətdə sur düdüyü çalınır". Diyir: "Dayansın kopoğlu, axşam gələr bura. Səni, onun boynunu vurdurajam. Mənim indiyətən ad-sanım, mənim indi adım çıxsın, biyabır olum?" Ziyad axşam ovdan gəlir. İvraamnan küçənin başında dayanıllar. Diyir: "Bala, apar ver Zəni xala bunu bişirsin". "əlir: "Ay xala, ala bunu...". - "Kəs kopoğlu". Söyür uşağı, biyabır eliyir. "əlir diyir: "A Ziyad dayı, verdim, vallah, arvad məni söydü biyabır elədi". "əlir. - "Ay arvad, niyə söyürsən?" Diyir: "Ə, gedif adam tapıf gətirmisən, məni biyabır eliyifdi. Filan qarı bu gün mənim abrımı töküfdü". Diyir: "Yox, aparıf qannı köynəyini mənə gətirməsən səndə bir saat da oturmujam". - "Nəhlət səə

şeytan". Diyir: "Yaxşı". Uşağı gətirir künbəzə, diyir: "Ay oğul, səni bu künbəzdən aparmışdım?" Diyir: "Hə". Diyir: "Köynəyi çıxart ver, aparım heyvan qanına boyayım, verim arvada, səsini kəssin. Özün burdan belə hara gedirsən get". Uşağın köynəyini alır dəyişdirir, uşax qalır künbəzdə, köynəyini gətirir verir arvada, arvad səsini kəsir.

İvraam künbəzdə yatanda gejə bunun yuxusuna qız girir. Deyilənə görə, yasdığı dəyişəndə bu səfər bu gedir qızın yuxusuna girir. Durur, nəysə, diyir: "Səni, gedib bu qızı tapajam". "edir şəhərdə görür bir halva satan Musa var, halva satır. Durur Musanın dükanının ağzında. Musa kişi baxır, görür, ə, bu nə halva alır, nə də çıxıf gedir. Axşama kimi sonuduf duruf burda. Deer: "Ay oğul, sən kimsən axşama kimi durmusan burda, nə halva almırsan, nə alver eləmirsən, elə durmusan". Deer: "Vallah, ay dayı, belə bir qızın eşqinə gəlmişəm". Diyir: "A bala, vallah, ona qırx gündü toydu. - Keşmişdə qırx gün toy eliyirdilər. - Səni gəl mən oğulluğa götürüm, işdiyəh". Diyir: "Nə diyirəm". Bu halvaçı Musa bu oğlanı - İvraamı oğulluğa götürür. Bayaxdan bir teşt halva satırdısa, indi İvraamın eşqinə üş teşt, dörd teşt satır. Bu qız da çıxır şəhərə ki, görüm bu yuxuda gördüyüm oğlanı görə bilərəmmi? "əlir görür, ə, səni, qızdar elə topalanıf bu Musanın dükanının ağzına. Diyir: "Ə, gedim". "əlir görür, səni, həmən yuxuda gördüyü oğlan burdadı. Yanaşır oğlana, diyir: "Sənin məskənin hardadı?" Diyir: "Bu Musa kişinin öyüdü". Hə. "əlir atasına diyir ki, ata, indiyədək olan toy kodan döylü, təzdən qırx gejə toy çaldır. - "Ay qızım, Allaha...". Diyir: "Yox. Çaldırmasan, ərə getmərəm". Kişi vadar olur toy çaldırmağa. Qız başdıyır öz işinə. Bütün yeraltı yol qazan cuhud adamları çağırır. Bir cuhud gəlir, on beş günə, hansı gəlirsə bir aya, ay yarıma. Cuhud gəlir, diyir: "Ləmpəni sən tutsan, torpağını qızdar daşısa, səə on beş günə Musa kişinin öyünün altınnan yol çıxardaram". Qız da, diyir, hökümlü qız idi, şah qızı idi. Diyir: "Oldu. Hakqıı da verəjəm

artıxlamasıynan". Qız başdıyır halvaçı Musanın öyünə on beş günün tamamında yolu salır, oğlannan get-gəl eliyir.

Bu burda olmaxda olsun, səə kimdən söylüyüm, qardaşı Asdannan. Asdan şah keçən kimi bütün şəhər əhlini yığır, deyir: "Ey şəhər əhli, belə bir qardaş itirmişəm, adı İvraamdı. Onu kim tapıf gətirsə, bu şəhərin naloğunu, töycüsünü yığsın, olsun onun". Bu şahın da bir dənə paşası varmış, gəmiynən başqa ölkəyə mal aparırmış. O deyir yaxşı, bu deyir yaxşı.

Bu halvaçı Musa halvasını satmaxda ola, bir Şəmin Qara cuhud olur. Tilsim imiş. Torpağı püflüyürmüş, olurmuş qızıl. "edir bir şahın qızına gözü düşür. Şah diyir: "Ə, sən nəsən, get oğluu gətir, verərəm qızımı. Sən cuhud adamsan, sakqalı döşünnən, nolsun pulun, qızılın var". Düşür: "Ə, burda mənim, orda sənin, kimi mən aparım tilsimə salım". "əlir bu oğlanı tapır, İvraamı. İvraam da çox gözəl bir oğlan imiş. Nəsə, yaxınnaşır, səən kimi oğlana diyir: "Bu halvaçının adı nədi?" Diyir: "Musa. - "Atasının adı?" - "Filankəs". Yaxınnaşır: "A qardaş, xoş-beş". Diyir: "Sən mənnən hardan qardaş oldun?" Diyir: "Ə, mən balaca uşax idim. Çıxdım getdim, indi gəlmi-şəm, məə də burdan bir balaca dükan düzəldəh, qızıldan-mızıldan satım başımı dolandırım". Diyir: "Nə diyirəm". Bu Musa kişinin böyründə bu da bir - nə bilir fırıldağı nədi, - bir butka düzəldir. U da torpağı pülüyüf qızıl satırmış. Beş gün-üş gün satannan sora bir gün gəlir ki, a qardaş, qızılı satmışam, pulunu hesablıya bilmirəm, bu İvraamı ver hesablasın, gənə gələr. "ətirir kağızı-kuğuzu tökür qabağına, okqədər uşax çort-mort, yuxu tutur bunu. Bunu Dağıstana aparajax, Dağıstandadı bunun isdədiyi qız. Tez eninə-uzununa ip tutur, səhər durğuzur, diyir: "Ay bala, qalanını da sabah gəlif hesablıyarsan". Aparır zərgərə verir ipi, diyir: "Ala, nə qədər pul, qızıl isdiyirsən verim, məə poladdan bir dənə sandıx qayırarsan, eni-uzunu bu". "ətirir sandığı xəlvəti qoyur öyünə. "ənə axşam kəsir halvaçının qapısını. Diyir: "Ay qardaş, İvraamı ver, qalanını da hesablasın, gənə gətirrəm, ötürrəm".

Diyir: "Ay bala, dur get". Durur gedir. "ənə kağız-kuğuzu tökür, çort ayana-çort bayana, gejədən xeyli keçir, yuxu tutan kimi əlini-ayağını bağlıyır sandığa basıf, ya Allah, getdih Dağıstana. İki ay on bir gün Dağıstana yol gedir polad sandığın içində. Orda açır, diyir: ""əl düş qabağıma". "edir Dağıstana, aparır şahın hüzuruna, diyir: "Şah, gətirmişəm, bu da mənim oğlum". Diyir: "Hə, bax indi oğlaa verirəm". Nəysə, İvraama verir qızı. Cuhud deyir: "Kopoğlu, adı sənindi, amma mənim arvadımdı. Səni, gözüü dinc qoymasan, gözüü basıf çıxardaram". Qadının indi eytibarrığına bax. Qadın deyir: "Zərəl yox, İvraam, nə bilir eləsin cuhud". Alır qızı şahdan İvraamın adına. Həmən şahın gəmisi gedif çıxır "əldan paşanın torpağına. Paşa diyir: "Sənə nə qədər isdəsən qızıl verəjəm, gümüş verəjəm, qıznan məni qabax gəmiyə qoy, İvraamı dal gəmiyə qoy. Dəryanın ortasında kəndiri kəs, qoy batsın, qərq olsun. Qızı mən aparım keyf eliyim". Qız diyir: "Zərəl yoxdu, nə bilirsən elə, cuhud". İvraamı qoyullar dal gəmiyə, qıznan cuhud qabax gəmidə. Dəryanın ortasında cuhud əmr eliyir, kəs! İvraamın kəndirini kəsir dəryanın ortasında. İvraam qalır. "əmiçi "əldan qıznan cuhudu çıxardır qırağa. Qız əmr eliyir cuhuda ki, dəryanın ortasında bir dənə otax tikdirirsən, urzası içində, pilləkənsiz. Ancax kəməndnən qalxajax, kəməndnən düşəjəyih. Cuhuda nə vardı, pulu, qızılı, tikdirdi.

Bular burda tikdirif yaşamaxda olsun, İvraamın gəmisini su ləpələndirə-ləpələndirə çıxardır dəryanın qırağına. Qız baxdı gördü ki, qırx mərtəbə otaxdan, balkonnan, İvraam çıxıfdı, dəryanın qırağında gedir. - "Ə, ey, bəri qayıt". Qayıtdı, kəndiri saldı, dartdı qoydu oğlanı yanına. Hə. Dartdı qoydu yanına. Cuhud şəhərdədi. Şəhərdən qayıtdı, gəldi gördü, səni, həmən oğlan qızın yanındadı. Cuhud təzədən qayıtdı getdi başı yalolu şahın hüzuruna. - "Şah sağ olsun, bir Allah bəlası mənim halal arvadımı alıb əlimdən". Amma bilmirdi İvraamın qardaşıdı bu Asdan. Hə. Şah çağırdı vəzir-vəkili, didi: ""edin oğlanı gətirin bura, görüm nətəər oğlandı, niyə bu cuhudun

arvadını alıb?" Vəzir-vəkil gəldi, altdan yuxarı piləkəni yoxuydu öyün. Dedi: "Ay qız, oğlanı ver, şah çağırır". Dedi: "Dilizdən iltizam verin, müqəssir də olsa gətirif səə verəjəyih, sora şah boynunu vursun". Didi: "Oldu". Bağladı kəndiri arxasına, salladı. Didi: ""et, İvraam". Hə, iclas quruldu ki, görək, buna şah nağarajax. "ətirdilər milisonerin qabağında dustax gələn kimi. Amma Asdan tanımışdı qardaşını. Amma İvraam tanımamışdı. Əl-ayağı bağlı gətirdilər şahın hüzuruna. Camaat baxırdı bunnan onatan. Şahın bir dənə qapıçısı vardı, bir oturuma da qırx dənə yuxa yeyirdi, doymurdu. Qapının ağzında qoydu ki, içəri gələni qoy gəlsin, amma çölə çıxanı qoyma. Bəlkə müqəssiri var bu adamın burda. Hə. Durğuzdular İvraamı ayağa, didi ki, şah sağ olsun, saz verin, saznan diyəjəm. "ətdilər, diyir, İvraama saz da verdilər. Siftə bunun kəndirini kəsən "əldan paşaya qoşdu. Dedi:

Qurban olum sənin kimi ağaya,
Ağa olan qulun verməz ayağa.
Gəmiçi "əldan paşa kəndirimi kəsdi, qərq elədi dəryaya,
Dilbilməz əlinə düşdüm, neynəyim.
- "O biri kəlməni də de". Dedi:
Qurban olum sənin kimi Astana,
Əyri qılınc dar gərdəndə pasdana.
İki ay on bir gün polad sandıxda getdim Dağıstana,
Dilbilməz əlinə düşdüm, neynəyim.

Şah özünnən getdi: - "Ayə, səni bu mənim qardaşım İvraamdı. Yoxsa bu hardan bildi adımın Asdan olmağını". Ayılannan sora görüşdülər, xoş-beş, on beş, didi: "Ə, sən mənim qardaşım İvraamsan? Mən səni göydə axtarırdım, yerdə əlimə düşmüsən". Didi: "Sənin kəndirii bu "əldan paşa kəsdi?" Didi: "Hə. Dəryanın ortasında kəsdi, qaldım orda, su ləpələndirə-ləpələndirə çıxartdı qırağa". Dedi: "Ə, "əldan paşa, bu boyda dəryanın gəliri səni doyuzdurmadı, elə mənim qardaşımın kəndirini kəsməh sənin qarnını doyuzdurajax". Açdı xəzinəni, diyir, bir pud qızıl, bir pud gümüş... çağırdı

zərgəri, didi: "Ərit tök gəmiçi "əldan paşanın xirtdəyinə, qoy ölsün. Bir belə dəryada bu kopoğlu doymuyuf, mənim qardaşımın kəndirini kəsməknən...". Qaldı qarı. U imansız qarı var ey, unu Ziyaddan eyləmişdi. Qarı isdədi qaça, qarıya dedi ki, sən idin mənim qardaşımın boynunu vurduran. "edin, dedi, ilxıdan bir dənə ürkən qatır tutun gətirin, özü öz kölgəsinnən qorxan, qarını bağlıyın quyruğuna, buraxın. Qarı bilər, qatır bilər". Hə. Həmən oğlanı - İvraamı təzədən o qıza qardaşı Asdan toy elədir. Bunnan da qutardı. İndi ona görə diyirəm ki, arvad yıxmayan öy illərnən tikili qalır. Arvad gör atadan övladı hancarı ayırdı.

ŞAH VƏ QƏSSAB

Şəhərdə gəzirdi vəzirnən ikisi, ət dükanının qabağınnan keçəndə gördü ki, bir dükanda uçret uçretin dalındadı. Qalan adam ağzını ayırıf baxır, amma alan yoxdu. Amma bu bir dənə dükan basa-basdı, əti kəsdirif çatdırammır. Yaxınnaşdı, vəzirə didi ki, burda nəsə var, bura baxmax lazımdı. Yaxınnaşdı gördü ki, bir dənə adamdı, ikinci adam döylü ət verən, özü də uçretnəndi. Nə qədər isdiyirsən? Diyir: "Bir kilo". Bircə dənə qiyməkeşnən vurur, qoyur ora. Bismillahi-rəhmani-rəhim eliyif bir qiyməkeş vurur, götürür qoyur tərəziyə, bir kilo. Çıxardıf pulunu verir. Daa una baxmır bir manatdı, bir köpükdü, tulluyur ora - daxıla, onunçün camaat bura gəlir. Diyir: "Vəzir, bilirsən nə var?" Didi: "Yox". Didi: "Bunnan ət alax, gör, dedi, bu qəssabın anasını mən nətəər ağladajam". - "Nə diyirəm, didi, şah sağ olsun". Yaxınnaşdı, uçred çatdı, didi: "Ordan iki kilo ət ver məə". Verdi. Bismillah eliyif qiyməkeşi bircə kərə vurdu, qoydu tərəziyə, iki kilo gəldi. Didi: "Ala". Didi: "Bağışda məni, mənim pulum yoxdu, ala bu barmaxcılı, sabah pulu gətirəndə barmaxcılı alajam sənnən". Didi: "Yaxşı". Bismillah eliyif aldı, didi, tulladı daxıla.

Nəysə, diyir, baş qarışan vaxtı bu ordan çıxıf işəməyəmi gedən vaxtı bu pusurdu, barmaxcılı qaldı orda. Vəzirə didi ki, oğurramax lazımdı. Oğurratdı. Yolun bayankı tərəfinnən bir arx gedirdi. Bir balaca burğana kimi yer varıydı. Didi: "Bura tullasax, bura manşırrıdı, sora taparıx". Barmaxcılı tulladı, diyir, ora, çıxdı getdi. "etdi, diyir, nəysə, bir adama qonax oldular, yidilər, işdilər, yatdılar. Qəssab səhər tezdən dükanı açanda gördü uşax əlində bir balıx bərdən arı gedir. Dedi: "Oğul, satırsanmı?" Dedi: "Hə". Dedi: "Ala pulu, ver məə". Verəndə gördü içində üzük. Üzüyü aldı, diyir, dükanın içində yardı, tulladı daxıla. Üzüh də bu kişinindi, şahındı. Tulladı, diyir, daxıla. Nəysə, bir qədərdən sora didi: "Qəssab sağ olsun, ala hakqını, üzüyü ver məə". Bismillah eliyif pulu aldı, daxılı

çəkdi, didi: "Ala üzüyü". Şah, didi, məhətdəl qaldı. Didi: "Bu nə görəcəhdi? Bunu mən, didi, vəzir, sənin yanında tullamadım ora?" Didi: "Hə". Didi: "Bəs bunu hardan aldı bu?" Didi: "Nə bilim?" Didi: "Axşam buna qonax olax". Bağlıyıf gedəndə didi: "Bizi də mehman eliyərsənmi?" Didi: "Allahın qonağına da qurban olum, özünə də, o nə sözdü, gedək". "etdilər. Otdular, yidilər, işdilər. Didi: "Bir dənə şeyə - didi, - məhəttələm". Didi: "Nəyə?" Didi: "Barmağımdakı üzüyü görürsənmi?" Didi: "Hə". Didi: "Məə di görüm bu sənin daxılında yox idi, hardan gəldi ora". Fikirrəşdi, fikirrəşdi, didi: "Səhər-səhər... Bax, u yidiyin balığı görürsənmi?" Didi: "Hə". Didi: "Bu balığın qarnınnan bir dənə üzük tapıb daxıla tullamışam. Qoy gedif baxım". "etdi baxdı, gördü yoxdu. Didi: "Həmən üzükdü ki, balığın qarnında gəlif". Şah çox zalım idi, didi: "Bilirsən?" Didi: "Yox". Didi: "Zalımlıx bir şey döylü. "ərəh, didi, bu zalımlığı mən də tulluyam bu günnən". Qayıtdı, didi, taxta çıxanda qanustusiyanı dəyişdi, zalımlığı. Şah daa, diyir, yumşaldı. Əhalini buraxdı başına. Hə. Bu, diyir, Allah vermiş bir adam olur.

Hə, bax, rəvayətdə bu da var.

ŞAH ABBASIN SINAĞI

Hər ildə bir dəfə səyahətə çıxırmış, öz ölkəsini gəzirmiş. Bunnan xəbərsiz milçəh uşsa, bu bilməliymiş. Gedir bir meşənin kənarıynan. Keçəndə görür ki, meşənin ortasınnan tüsdü gəlir. - "Əyə, bu nejə tüsdüdü? Bu nə olan şeydi mən bilmirəm bunu?" Ordan-burdan hərrənir, yaxınnaşır tüstüyə. Görür ki, burda əməlli başlı həyat quruluf belə bizimki kimi. Ortada daxma da düzəlif. Burda bir oğlan, bir qız girilər içəri, çıxıllar, nağarıllar. Gedir bu başdıyır çağırır: "Ay öy yiyəsi". Gəlillər. Oğlan gəlir. - "Allah qonağı isdiyirsənmi?" Diyir: "İsdiyirəm, niyə isdəmirəm". Gətirir bunu öyə. Görür ki, komadı, komanın içində iki dənə qıravat qoyuluf. Qıravatın biri qapının ağzındadı, biri də belə qoyuluf. Hə. Padşah olduğun nə bilillər bular. Padşah bunnan şübhələnir ki, gorəsən bular ər-arvaddı, yoxsa bajı-qardaşdı. Buları da, qovallar hardansa, gəlif daldalanallar bura. Heş bunun üsdünü vurmur. Buna yaxşı yeməh-işməh təklif eliyillər. Yiyir-içir, çəngəl-pıçax, o vaxtı olmuyan şeylər qoyullar bunun üsdünə, paccah tanımıyan şeyləri. Paccah yiyir-içir. Bu qız ayın-oyunu yığışdırıf çıxanda, oğlan da nəysə çıxan kimi... Yox, bulardan soruşur ki, siz məə diyin görüm, burda ər-arvad yaşıyırsız, yoxsa bajı-qardaşsız? Diyirlər ki, biz bajı-qardaşıx. - "Nətəər oluf gəlmisiz?" Diyir: "Nə bilim, elə belə çıxıf gəlmişih, burda yaşıyırıx". Hə, buların başını qarışdırır padşah, çəngəl-pıçağın bir dəsdini götürüf qapının ağzındakı qıravatın altına tulluyur, gəlir oturur. Sora sağ olun, sağ olun. Gedəndə bulara adres verir. Diyir: "Alın bu adresi, lazım gəlsə, məə yazarsız. Sizə nə köməhlik isdəsəz eliyərəm". Bunun gənə də bilmiyiflər padşah olduğunu. Bu gedənnən sora yığışdıranda görüllər ki, çəngəl-pıçax yoxdu. Əyə, bunu, oğlan ölmüş, harasında apardı. Bunda heş nə yox idi, filan. Götürüf yazıllar buna ki, sən gəldin bizim yiməyimizi də yidin, çörəyimizi də yidin,

çayımızı da işdin. Gedəndə bizim çəngəl-pıçağımızı oğurruyuf aparmısan. Bu götürüf bulara yazır ki, siz orda ər-arvad ola-ola mənnən dandıız ki, biz ər-arvad döyülüh, bajı-qardaşıx. Çəngəl sizin qapının ağzındayı çarpayının altındadı. Baxıf görüflər çəngəl orda. Bu kişi buları sınıyırmış.

- Dayı, hardan bildi ki, bular ər-arvaddı?

- Əyər qıravatdar ikisi də açılsa, çəngəl-pıçağı görərdi da. Gör nə usda adamlar oluf keşmişdə. Gör nə bilikli adamlar oluf keşmişdə. Kimin ağlına gələrdi o. Heylə ağıllı olmasa, onnan padşah olar? Olmaz.

ƏSLİ HU

Şah oğlu Şah Abbas bir gün tərki-vətən oluf çıxıf məmləkəti gəzir, dolanır, qayıdıf gəlir. Şah oğlu Şah Abbas da həmişə dərvişlibas oluf gejə-gündüz şəhərini, kəndlərini gəzərmiş, özünü o libasa qoyarmış ki, şah oğlu Şah Abbası tanıyan olmasın. Gəlir sarayda oturur. Bunun sarayda gəzənlərinnən biri gəlir diir ki, şah sağ olsun, şəhərdə iki dənə dərviş var, gəzillər. Diyir ki, gedin görün hara gedillər, kimnən söhbət edillər, harda yatıllar, yerini öyrənin. Gedif gördülər ki, gəzdilər, elədilər, axşam oldu, bir xarabalıx var, küllük, girdilər ora, yalanqo qayırıf otdular orda. Başladılar baş-başa qoyuf burunlarını verdilər közə, başdadılar danışmağa. Gəldi didilər.

Şah oğlu Şah Abbas dərvişlibas oluf gejə bir vaxtı getdi buların yanına. Gedəndə gördü ki, bular söhbət eliyir. Bir az durdu qulax asdı. Didi ki, ə, bir adam tapmadıx ki, bir yönnü adam, oların birinnən örgənərdih ki, bu şəhərin yiyəsi kimdi, bu şəhərdə var-dövlət hardadı. Gedəh oranı açax, ordan bir az yığax, yığışdırax, götürəh gedəh. Diyir ki, şah oğlu Şah Abbas gəlir bu halatda bulara yaxınnaşır, diyir ki, əssalami məleyküm və rəhmətullah. Böyüh dərviş diyir ki, əssəlami məleyküm və rəhmətullah və bərəkatü. Xoş gəldin. Balaca dərviş diyir ki, keç əyləş. Diyir ki, məni də yoldaş eliyərsizsə, əyləşim da, yoxsa yox. Diyir: “Eliyərih. İki qardaşıx, sən də ol, üç qardaş olax”. Didi: “Mən də dərvişəm”. Didi: “Oldu, üç dərviş olax”. Didi: “Çox gözəl”.

Otdular, didi, söhbət, ixtilat eliyif qutarannan sora didilər ki, bular, a dərviş, burda bir saray-zad yeri bilmirsən ki? Didi: “Niyə bilmirəm ki? Bura şah oğlu Şah Abbasın məkanıdı, onun ölkəsidi bura. Şah oğlu Şah Abbasın sarayı da burdadı, əmlakı, əndazəsi də burdadı”. Didi: “Harda?” Didi: “Burda”. Didi: “Apara bilərsənmi bizi?” Didi: “Apararam”. Böyüh dərvişə didi ki, sənin peşən nədi? Didi: “Mənim peşəm, ismi-əzəmi

bilirəm, oxuyuf üfürəjəm, qırx hərəmxananın qıfılı çırıx-çırıx açılajax". Didi: "Çox gözəl". Balaca dərvişə də dedi ki, a dərviş, sənin peşən nədi? Didi: "Mənim də peşəm insin-cinsin dilini bilirəm. İt hürəndə bilirəm ki, it nə diyir, çaqqal uluyanda niyə uluyur, hamısını bilirəm. İnsanı da bilirəm, hamısını". Didi: "Bu da sənin peşən". İndi böyüh dərviş şah oğlu Şah Abbasdan soruşdu: "Bəs sənin peşən nədi?" Bu dimədi mən şah oğlu Şah Abbasam. Bu didi ki, mən bir kərə bığımı belə tərpətsəm, didiyim söz sözdü, xilas olarıx. Didi: "Oldu".

Bir az otdular, qızışdılar. Didi: "Sən indi şah oğlu Şah Abbasın sarayını tanıyırsan?" Didi: "Hə". Didi: "İndi ora gedə bilərik?" Didi: "Gedərih". Şah oğlu Şah Abbas düşdü qabağa, bular da düşdü bunun dalıynan, getdilər çatdılar. Bular məhləyə girəndə ənihlər vəngildəşdi. Ənih bilirsən nəyə diyilir? Balaca küçühlər ki, var ey, hələ it həddinə çatmamış, bir ili dolmuyanda hürüşüllər ənihlər. İt üç qılçası üstündə durub bu qılçasını qaldırıb ağaca işiyir. Görmüsənmi? O işiyəndə ili tamam oluf, ilinnən keçif. O it sayılır. İli tamam olmuyan ayax üstə dördü də belə, siyif işiyir ey, olara ənih deyilir. Qara köpəh də, diyir, orda yatmışdı. Bu ənihlər başdadı vəngildəşməyə, hürüşməyə. Ordan qara köpəh didi ki... – Eşidirsənmi? (Söyləyicinin gözləri görmür. Toplayıcının diqqətinin onda olub-olmadığını yoxlamax üçün tez-tez ona belə suallar yönəldir – top.) – Burnuzu quyruğuzun dibinə qoyun, yəni götüzün qırağına. Soyuxda it həmişə burnu üşüyən şeydi. Soyuxda burnunu götünə qoyur. Ordan hava çıxır. İstidi da, yumuşaxdı, isti saxlıyır. Bunu bilmirdin ki? Hə, bax bunu bil, səə lazım olar filan yerdə. Səə sual verəllər, cavab verə bilməzsən. Hə. Ənih belə diyəndə qara köpək didi ki, burnuzu qoyun quyruğuzun dibinə, götüzün ağzına, yatın. Şah oğlu Şah Abbasdı, iki dərvişi də salıf yanına, öz əmlakına oğurruğa gəlif. Bunu dərviş eşitdi ki, şah oğlu Şah Abbas özüdü bu. İtin dilini bilir axı. Qara köpəh hürəndə heylə dedi ənihlərə.

Ənihlər yatdılar, diyir. Bular, diyir, açıldı qapılar, girdilər, getdilər, saraya, hərəmxanaya, hərəsi bir heybə doldurdu qızıldan. Atdılar çiyinlərinə, çıxdılar çölə. Gənə ismi-əzəmi oxudu, üfürdü, qıfıllar bağlandı, çırıqqaçırıx. Gəldilər, çıxdılar, getdilər. Gənə gedib küllükdə otdular səhər açılana kimi. Səhər açılana yaxın şah oğlu Şah Abbas didi ki, indi siz məə icazə verin, mən gedim da öyümə. Bax u ordan gətdiyimiz qızıl da, mənim payım da sizin olsun. Mənim ehtiyacım yoxdu. Onu da bulara verdi. Durdu getdi. Getdi, diyir, çıxdı taxta, cəlladları çağırdı. Camaatı yığdı, dar ağacı quruldu. Didi: "Filan yerdə iki dərviş var, bu gejə sarayı dağıdıflar, qızılları aparıflar, üç heyvə qızıl var. Gedin qızılları da, oları da götürün gəlin". Gəlif götürüf gəldilər.

Şah oğlu Şah Abbas da qırmızı geyinif çıxıf taxta. Əmr elədi dərvişə: "Dərviş, gəl. Sarayı siz yarmısız?" Didi: "Bəli, biz yarmışıx, bax bu da qızıldı, əmlakdı, gətmişih". Didi: "İndi sən nə istiyirsən camaatdan?" Didi: "Bir taxsırdı da olufdu, eləmişih. Bizdən keç". Vəzir Allahverdi xana Şah Abbas dedi ki, şahın sarayını belə dağıdıf aparan adamın cəzası nədi? Didi ki, bilirsən nə var? Didi: "Yox". Didi: "Çarmıxa çəkilif mıxlanmalıdı sarayın qabağına". Dərviş didi ki, mərhəba, mərhəba. Üç kərə mərhaba didi. O biri vəzirə didi ki, sənin fikrin nədi, nağarmax lazımdı? Didi: "Tən ortadan şaqqalanmalıdı. Yarısı bu hərəmxananın sol tərəfinə, yarısı sağ tərəfinə mıxlanmalıdı. Qoy gələn-gedən görsün". O birsi dərvişə dedi ki, dərviş, sən nə isdiyirsən camaatdan, mənnən? Didi ki, şah sağ olsun, bir taxsırdı eləmişih, sən bizi xilas elə, gedəh. Heş bir şey istəmirih, bir qələtdi eləmişih. Didi ki, gənə bunlara, bunun cəzası nədi? Didi ki, u dəstiri gənə hərəmxanaan ağzına mıxlanmax, unu da şakqalanıf asılmax. Hansını deersən onu eliyəh. Didi: "İndi siz u qayda edam olunajaxsız". Didi: "Şah sağ olsun, nə diyirəm".

Buları edama aparanda əlini qalxızdı balaca dərviş didi: "Şah sağ olsun, səə bir kəlmə sözüm var, icazə versən

diyərəm”. Didi ki, icazədi, buyur di. Didi: “Şah sağ olsun, həya eliyirəm, bu sözü camaatın yanında diməyə, özümə alçaxlıx hesab edirəm”. Didi: “Niyə?” Didi: “Heylə”. Didi: “Şah sağ olsun, əgər mümkünsə, icazə ver, qulağa diyim”. Didi: “Nolar, gəl qulağıma di”. Didi ki, a oğraş, sən kimi oğraşın felinə düşüf gedif sənin sarayı dağıtmışıx, sən bir bığı tərpət, biz xilas olax. Şah oğlu Şah Abbas didi ki, ay camaat, sizdən xayişim odu ki, bunu camaatın başına çöyürəh, bu əmlakı da bulara bağışlayax, götsünnər, getsinnər. Camaat didi ki, şah sağ olsun, şah nə diyir, şah diyəndi. Bağışladılar, getdilər. Hə, bu belə.

Dərviş dedi ki, mərhəba. Şah onnan soruşdu ki, sən niyə mərhəba dedin. Dedi: “O keçəçi oğludu, onun keçə toxumağının iyi hələ burnundadı. O məni keçə hesab eliyir ki, – keçəni çarmıxda toxuyullar, – onu çarmıxa çəkək. O da qəssab oğludu, qəssablıx elyib onun dədəsi, babası şakka vuruf həmişə qoyunu. İndi məni də qoyun hesab eliyir şakkalıyır: bir tayı oyannan, bir tayı buyannan. Şah, bulardan sənə vəzir olmaz”. Şah oğlu Şah Abbas, oların ikisini də azad elədi, birini baş vəzir, o birini də kiçik vəzir qoydu. Birini keçəçi oğlunun yerinə işə qoydu, o birini də qəssab oğlunun.

ŞAH ABBAS VƏ ÜÇ DİLƏNÇİ

Bir günnərim öz vəzirinə didi ki, gəl çıxax görüm əhali nə danışır pisimə və yaxud yaxşıma. Duruf çıxdılar, diyir, gəzillərdi. Ohqədər öz ölkəsini o dərəcədə şirin saxlıyırdı ki, bollux içərisində. Nə isdiyirsən o əhalidə vardı. Belə gəzə-gəzə, gəzə-gəzə gedillərdi. "etdilər gördülər yolayrıcında üş nəfər oğlan durufdu. Padşah da dilənçi şəklində yolçu bir adamdı, diyir. "əldi diyir ki, biz də oturax bu yoldaşdarın yanında. "örəh bu yoldaşdar hara gedir, biz də yolçu adamıx, gedəh. İki də bular olanda olullar beş nəfər. Bir-biriynən dərdəşənnən sora deyir ki, biz ayrı yerin adamlarıyıx, siz bu yerin adamlarısız, sizin padşahız necə adamdı. Deyəndə biri deyir ki, mən nişannıyam, cavan oğlanam. Şah oğlu Şah Abbas məə yüz maat verə, mən gedəm, diyir, nişannımı görəm. İkinciyə deyir ki, bəs sən necə? Deyir ki, şah oğlu Şah Abbas məə yüz manat verə, külfətim yaman ağırdı, gedəm onu dolandıram. Üçüncüyə diyəndə, diyir: "Ə, mən şah oğlu Şah Abbası neynirəm. Məə Allah versin". Bunu şah oğlu Şah Abbasnan vəziri eşitdi. Qayıdıf gəldilər öz yerlərinə. Yerinə gələn kimi, şah oğlu Şah Abbas soyundu bu libasdan, başının tacını qoyuf oturdu. Oturdu, dedi ki, çağırın o üş nəfəri bura. Üş nəfəri çağırıflar bura. Diyif: "Nə yığılıf durmuşduz üş nəfər orda, nə isdiyirdiz?" Didi: "Nə isdiyirdim? Bircə şah oğlu Şah Abbas yüz maat versin, gedim nişannımı görüm". Vəzirə diyir: "Ə, ona yüz maat ver". O birinə deyir: "Sən nə isdiyirdin?" - "Mən diyirdim külfətim ağırdı, mənə yüz maat versin". Didi: "Ə, una yüz maat ver". Didi: "Bala, sən nə isdiyirdin?" Didi: "Mən də isdiyirdim, şah oğlu Şah Abbas məə nə verəjəh, məə Allah versin". Diyir: ""et onda səə Allah versin".

Hərəsi bir diyar olullar bular. Aradan bir iki ay keçənnən sora Allah-tala elə eliyir ki... Bu nişannı oğlana deyir: "Mən sənə qızı verirəm, amma bu şərtnən ki, mənim ölkəmdə olmayasan, çıx". Qızı verir şah oğlu Şah Abbas, yola salır.

Çıxır gedir bir at yükü qızılnan, gümüşnən. O, Allahdan isdiyən adam beş-altı ay idi gəzirdi ki, Allah hardasa, məə pay verəjəh. "əldi gördü, ə, nəysə, uzaxda yolun üsdündə bir atdı, yanında da bir qadın gedir. Yaxınnaşıllar: "Salam". - "Salam". - "Ə, sən filankəs döyülsən?" Diyir: "Bəs, sən də filankəs". Bir-birinnən görüşüllər, öpüşüllər burda. Diyir: "Ay qardaş, hara?" Diyir: "Bilirsən, nə var?" Diyir: "Yox". Diyir: "Padşah qızını mənə verdi". - "Ə, nətəəri?" Didi: "Həə, belə. Amma bir şərtnən ki, didi mənim ölkəmdən çıx. İndi mən çıxıram bu ölkədən, gedirəm başqa bir ölkədə olajam".

Yol başdıyıf gedəndə, qız aparan oğlanı ağrı tutur. Ağrı tutanda, elə burdaca oğlan ölür. Deyir ki, ə, neyniyək? Oyza-buyza, qıza deyir ki, onda atın belinə qoyax bu cənazəni, sən qayıt dala, apar ataa yanına. Diyir: "Mən qayıda bilmərəm bu boyda yolu. Elə bu oğlanı burda dəfn eliyəh, mən səə gedəjəm". Burda oğlanı dəfn eliyillər, qızı götürüf bu oğlan - Allahdan isdiyən oğlan gəlir. "əlif gedillər, bir yerdə məskən salıf öy tikdirillər, yaxşı yaşıyıllar. Bular yeddi il yaşıyıllar. Yeddi ildə üş dənə uşaxları olur. Padşah qızıydı bu. Deer, ohqədər gözəl idi, həddinnən artıx. Padşah verdiyi var-dövlətin hamısını yedilər, xaşdadılar, əldən çıxdı, düşdülər kasıbçılığa. Kasıbçılığa düşdü, bir az getdi o şəhərdə işdədi, bir az getdi bu şəhərdə işdədi. Bəli, bir rayonu aşdı, oğlan getdi başqa rayona, bir çörəhçinin yanında işdədi. "ündə bir araba odun gətirirdi, hakkını alırdı. Bu çörəhçiyə dedi ki, güzaranım yaxşıdı, qoy gedim külfətimi gətirim bura, dolanışığımız burda olsun. Didi: ""et, gət". "etdi, götdü, gətdi. "ətirənnən sora baxdı gördü ki, bu kişinin çox gözəl arvadı var. Didi: "Bu arvadı ələ keçirim, bu kişini məhv eliyim". Dedi: "Odunu məə hardan gətmişdin?" Didi: "Həmişəki gətirdiyim meşədən". Didi: "O meşədən gətirmə, get o biri meşədən gətir". O meşədə də vəşi heyvannar çox idi. Bu o biri meşəyə gedəndə tökülüllər üsdünə vəşi heyvannar, isdiyillər ki, bunu parçalıyallar. Heş biri parçalamır. İçərisinnən bir nəfər gəlir, Allah-tala dil-ağız verir vəşi

heyvannarın birinə, diyir ki, orda qırx küp qızıl var, gəl o qızıla sahib ol. Oğlan gəlif qızılı burda görənnən sora gedir külfətini götürür gəlir. Gəlir külfətini burda oturdur, burda böyüh bir məskən salır, yaxşı böyüh öylər tikdirir, arvadını bura gətirir.

Bir gün şah oğlu Şah Abbas öz vəzirinə dedi ki, gedəh bu ölkəni gəzəh, görəh mənnən varrısı kim var? "əzillər, gəzillər, gəlillər bir meşənin qırağında dayanıllar. "örür ki, yaxşı uzun bir bina var. Diyir: ""əl gedəh bura da". Bu özünü bir dilənçi şəklinə qoyur, pencərənin qabağında durur. Deyir ki, Allah yolunda pay ver. Burdan bir xışma qızıl verir, ikinci pencərədən bir xışma, helə-helə, bir ovuc, bir ovuc, qırx pencərənin qırxına qədər buna, deməli, qırx ovuc qızıl verir. Diyir: "Balam, bu mənnən varrıdı ki, belə eliyir. Beyjə qalax burda, örgənəh". Öy sahibi tanamışdı. Hamma öz yoldaşını görsətmir ki, o da atasını tanıyar. Deyir ki, Allah qonağı eliyərsən? Diyir: "Eliyərəm". Çağırdı, gətdi, saldı öyə. Oturdular öydə, arvada dedi ki, plov bişir. Azərbaycanın ən ləzzətli xörəyi, deməh, plovdu. Onu bişirillər, gətirir. Arvada diyir ki, iki qabda xörəh çək. İki qabda çəkir. Diyir: "Arvad, mən balaca dilənçiynən çörəh yiyəjəm, sən böyüh dilənçiynən ot, çörəh yi". Bular oturullar, çörəyi yiyillər. Yer salıf, yatmağa gələndə deyir: "Arvad, bilirsən nə var? Öyün birində mənnən balaca dilənçiyə yer sal, öyün birində sən o böyüh dilənçiynən ikiniz yatın". Bu şah oğlu Şah Abbasın pisinə gəlir ki, bu kişi arvadını mənnən bir öydə yatmağa məcbur eliyir. Buna ajıxlanır. Bunu vurmax isdiyir. Diyir: "Məni niyə vurursan? Öz qızındı da bu". Diyir: "Nə qızımdı?" Deyir ki, belə-belə. Bax, bu sənin qızındı. Qızı çağırır, gətirir, baxır, deyir ki, Şah Abbasın qızı, sənin nə nişanən var? Deyir ki, qolumda bilərziyim vardı. Bilərziyini çıxarır, görsədənnən sora diyir ki, həə, mənim qızımdı. Ata-bala burda görüşüllər. Diyir: "Hancarı belə oldu?" Diyir: "Səə didimmi, mən Allahdan isdiyirəm, mən bəndədən isdəmirəm. Məə Allah versə, verəjəh". İndi şah oğlu Şah Abbasın da belə möcüzələri də var. Bunu mən o keşmiş kişilər - Miriş kişi var idi, o danışımışdı.

LƏL-CƏVAHİRATA DÖNMÜŞ SÜNBÜL

Bir gün, diyir, bir paccahın dövründə bir ilan gəlif paccahın darvazasında oturuf. Vəzir görüf ilan var burda. Bu ilanın dilini bilmir, bir şey eləmir. Heyvan içəri girməh isdiyif, qoymuyuf. İlana öz diliylə diyif ki, a heyvan, gedim şaha deyim, icazə versə, gələrsən, verməzsə, gəlməzsən. Diyir: "Ya şah sağ olsun, çöldə bir ilan var, içəri girməh isdiyir. Mən öz dilimdə didim ki, gedim şahdan icazə alım, sora səni içəri buraxım, yoxsa buraxammaram. Qapını örtdüm, çöldə darvazanın ağzında dayanıfdı". Diyif ki, onun kim dilini bilər? Diyər ki, Süleyman peyğəmbərin bir vəziri olufdu, o vəzir quşdarın dilini bilir. Heyvanatdarın dilini o bilir, bəlkə o tapa. Şah diyir ki, gedin -Süleyman peyğəmbər dünyasını dəyişmişdi, - gedin həmin şəxsi tapın gətirin. Görəh bu ilan bizdən nə isdiyir. Vəzir-vəkil düşür dağa, gedillər bu şəxsin xəbərini alıllar. Gedillər diyirlər ki, Süleyman peyğəmbərin vəziri olufdu. Diyir ki, o bir ay bunnan qabax ölüfdü. Amma diyir u vəzirin yanında köməkçisi vardı. U durur. Quşdarın, heyvannarın, ilannarın dilini örgədif una da. Bəlkə u bilə. Gedillər bunu tapıllar. Diyirlər: "Hə, Qəsil kəndində olur". Gedillər buna diyirlər ki, bəs vəziyyət belədi. Belə bir ilan var padşahın qapısında. İçəri girməh isdiyir, buraxmamışıx. Onunçan onun dilini bilən bir adam lazımdı. Sən o ilanın dilini bilirsənmi? Didi: "Bilirəm". Bu adamı götdü gəldi. Gəldi, diyir, şaha didi ki, şah sağ olsun, adamı gətirmişih. Didi: "İlanı da buraxın gəlsin". İlanı buraxdı, gəldi, diyir. Şah didi: "Allahın heyvanı, səə nolub, nə köməh lazımdı?" Başdadı ilan didi ki, bizim şahımız ceyran udufdu, onun buynuzdarı cənginə ilişifdi. Orda ölüm halındadı. Nə çıxarda bilmirih, nə uda bilmir. Ölüm halındadı. Onu xilas eləməh lazımdı. Şah diyir: "Bunnan mişar götürüf getsin bir şəxs". İlana diyir ki, bu adam gedəjəh sənnən, onu xilas edəjəh, bu adamı vurmuyun. Gətirin

ötürün. O da diyir ki, məəçün, baş üstə, aparajam, qaytarıf gətirif ötürəjəm. Aparır bunu ilannarın şahının yanına. Görür ki, ölüm ayağındadı. Başdıyır bunun buynuzdarının ikisini də dibinnən mişarnan kəsir. Mişarnan kəsən kimi bu cüyürü udur. Udur gedir. İlannar buların devrəsindədi. Nə qədər ilan var, hamısı burdadı. Hə. Gedir deşiyə girir. Ordan üş dənə sünbül gətirir. Qoyur yerə, diyir: "Götür". Götürüf bunu gəlir. Gələndə şah diyir: "Noldu?" Diyir: "Getdim gördüm ceyranı udmuşdu. Buynuzdarı ilişmişdi. Onu da mən xilas elədim. Kəsdim". Didi: "Amma məə üş dənə sünbül verdi". Padşah aldı sünbülü, diyir, içini belə pıçaladı, gördü ləl-cəvahirdi. Dedi: "Ə, bu nədi?" Didi: "Gedin bu adamı tapın gətirin, Süleyman peyğəmbərin vəzirinin vəzirini. Onnan xəbər alax nətəər işdi, yiyiləsi buğda ləli-cəvahirdi". Bu adam qayıdır gəlir bura - Süleyman peyğəmbərin vəzirinin köməhçisi. Gəlir. Diyir ki, bu möcüzə nədi? Bu sünbülün içində ləl-cəvahir oluf. Diyir: "Sənin babanın ulu babasının devrində bir şəxs, diyir, bir şəxsə torpağını verifdi ki, ək-biç, sənin olsun. Hakkı nəsə onu verərsən. Bu şəxs bunu əkəndə, bunu sürdürəndə burdan üş küp qızıl çıxır. Kotan ilişir, zincirinə ilişən kimi çıxardır unu ordan. Görür üş küp qızıldı. Gedir bu torpax yiyəsinə diyir ki, burdan üş küp qızıl çıxdı. Bu sənin payın, sənin qızılındı. Ala bunu, mən oranı əkim. Diyir: "Yox, mən götürəmmərəm". Diyir: "Niyə, a kişi, səən...". Diyir: "Neçə illər mən oranı əkirdim. Çıxsaydı mənim xışımın qabağına çıxardı. Demək, bu sənin qismətindi. Mən bunu götürmürəm, səə verirəm". Gedillər şahın yanına, şəri kəsdirillər. Diyir: "A kişi, bu kişinin torpağını almışam mən. Burdan da üş küp qızıl çıxıf. Nə illah eliyirəm, götürmür. Diyir ki, sənin qimətindi, mən səə verirəm unu, isdəmirəm". Kişiyə diyir ki, a kişi, götür". Diyir: "Götürmürəm. Mən Allahdan qorxuram. Məslahat olsaydı, Allah məə verərdi. Mən götürmürəm". Kişiyə diyir ki, a kişi, götürmür də, sənin malındı ki, səə verir. U ili, diyir, u

camaatın, u millətin əkinnəri hamısı ləl-cəvahir dolu sünbül gətirir. Camaat da biçif onu döyməh isdiyəndə görüf ləl-cəvahirdi. Allah tərəfinnən padşaha yuxuda diyilif ki, sənin məmləkətində o qədər halallıx, düzlük var, Allah-tala ona görə o irizqilərin hamısını ləl-cəvahir eliyif ki, camaat gələcəh nəslə yığsın öyə qoysun, onnan satıf dolansın. Bu düzgünnühdən olan şeydi.

YENGİVAR ŞAH

Yengivar adında bir şah olar. Bir gün, diyir, dərviş libasında bular şəhərdə gəzməyə çıxdı, üç ay, dörd ay dərviş kimi gejə onda-bunda qalıb gəzirmiş. Ciblərində pulu var da. Bular gəzən zamanı nəysə u kənddə, bu kənddə, bu kənddə, u kənddə belə-belə gəzillərmiş. Bir günü, diyir, bu kənddən ankı kəndə, bir ucqar kənd vardı, diyir, gedəndə meşə yolu idi, söhbət edə-edə gedirdilər. Yengivarın da bir xasiyyəti var idi, diyir, çox sərt adam idi. Gedəndə, diyir, görür ki, meşənin içində bir yol gedir, bir öy var. Tola kimi bir öy var. Bu didi: "Ə, bura qonax olax. Uzağa yox, bulara qonax olax". Vəzir də yanında. Buruldular gəldilər dokkaza, çağırdılar, kişi də alverə getcəydi diyir. Çovdar adamlarla danışıb üç aylıx alverə gedir dəvə karvanıyla. Bu hazırrıx görür, dəvələri yüklüyüllər. Didi: "Bizi qonax...". Didi: "Allaha da qurban olum, sizə də, gəlin". Gəldi, diyir, otuzdurdu buları. Didi: "Sussamışam". Şah didi ki, sussamışam, bizə su ver işməyə. Keşdi, diyir, kasanı götdü, diyir, iki dənə kasanı götdü bağ tərəfə getdi. Bu da elə bildi ki, su gətirməyə gedir. Keşdi, diyir, o vaxdı gülöşə narın təzə yetişən vaxdıydı, iki dənə nar sıxdı, iki kasa doldu. Suyu gətdi, diyir, birini şahın qabağına qoydu, birini vəzirin. Bilmir vəzirdi, şahdı bu. Dilənçi kimi gəzir, qaraçı kimi. Şah işdi, didi ki, ə, səni, nə işməli sudu bu. Vəzir işdi, didi: "Ə, bu nə işməli sudu?" Vəzir dedi: "Şah sağ olsun, sən bir belə şahlıx eləmisən, bizdə belə bir işməli su olmuyuf. Bilirsənmi unu?" Didi: "Hə". Didi: "Diyək birini də gətsin". O saat şah fikirrəşdi ki, bu kopoğlunun əlinnən bu suyu alajam. Hə. Gəldi, diyir, kasanı götdü, getdi bağa. Bir kasaya əlli dənə nar sıxdı, doldurammadı. Bayaxdan, diyir, ikisini sıxdı, iki kasa oldu. Çox gej gəldi. Gej gələndə didi: "Sən niyə gej gəldin bu iki kasa sudan ötəri?" Didi: "Meyvələr şahın qəzəbinə gəldi". Meyvələr diyən kimi şah barmağını dişdədi. Didi: "Sən demə bu meyvə suyu imiş". Olar da bilmir nar suyu nədi. Bu da

qəzəblənif axı, bu su məndə yoxdu, bunda niyə olsun. Heş nə dimədi. Gejə qaldılar burda, buna yaxşı aş bişirdi, taam. Aşın adı taam idi. Yidi, işdi, öydə oturmuşdu. Bular danışır söz-sovdan, puldan-paradan danışanda keşmiş vaxdı çuallar oluf, dalını da söyküyüf çuala. Puldan-paradan söhbət eliyəndə bu kişi ağzınnan qaçırtdı, didi ki, dalını söykədiyin puldu. Nolar mən meşədə oturanda, meşədə oturan çörək yimir, pul qazanmır? Didi: "U dalı söykədiyin çuallar hamısı puldu". Şah, diyir, məhəttəl qaldı. Amma ertədən gəlib, hələ bilmir ki, bunun arvadı neçə dənədi. Axşam mal gələn vaxdı, diyir, gördü ə, naxır gəlir. Həyətə gəldi, diyir, ağıl kimi yer vardı, hamısı toplaşdı ora. Gördü, diyir, bir dənə arvad xeylağı qabları götdü, getdi, diyir, yaxın yerə qoydu, dinməz-söyləməz hamısını sağdı, tökdü ora. Baxır, diyir, da bular pəncərədən baxır. Qutardı gətdi, diyir, ayan-bayanı da qoydu içəri bişirməyə. Onnan sora bulara yiməh hazırradı. Şah məhəttəl qaldı. Vəzir didi ki, şah sağ olsun, sənin üç arvadın var, biri inək sağammır, biri səə bir istəkan çay vermir. Sən görürsənmi ki, bir heylə malı bu meşənin içində, bu qədər rasxodu bir qadın eliyir. Gör bu nə Allah vermiş adamdı. Didi: "Ə, unun anasını gör mən nətəər ağlatcam". Dinmədi.

Üzü açıldı səhərə, çörəyini-zadını yidilər, durdu ayağa getdilər. Didi: "Vəzir". Didi: "Hə". Didi: "Buranı əməlli bələddə". Yazdı, diyir, buranı, öyü bu, irizi bu, yolu bu. Didi: "Buranı görürsən?" Didi: "Hə". Bəli. Raşot aldı buranı, didi: "Düz paytaxta da – divanxanaya, dayanmax yoxdu". Qayıtdılar, gəldilər, didi: "Get cəlladı çağır, əlavə iki dənə də at götürərsən, oları atın belinə qoyuf, ər-arvadı, gətirərsən. Arvad didi qalsın orda, kişini götürüf gətirərsən". Bəli. Çıxdılar bular getdilər. Üş gün keçmədi, gördü bular dokkazı kəsdiriflər. – "Şah çağırır səni". Didi: "Hə, qanım getdi". Götdülər apardılar bunu düz şahın yanına. Gördü ə, axşam gördüyü kişilər, bularda çörəh yiyən. Didi: "Şah sağ olsun, nolub?" Didi: "Heş nə olmuyuf, otur". Otdu, diyir, şahnan

çörəh yidi, gördü yox buun öldürməhnən-zadnan işi yoxdu. Didi: "Səə bir söz dijəm". Didi: "Di". Didi ki, mənim üş dənə arvadım var. Bu üş arvadı səə verəjəm. Sən u bir arvadı məə verəjən. Nə deyə bilər? Didi: "Oldu, verirəm". Çağırdı vəziri, didi: "Gedin unun arvadın qoyun ata, götürün gəlin". Gəldilər, diyir, qoydular, düz götdülər apardılar kişinin yanına. Didi: "Sənin arvadındımı bu?" Didi: "Hə". Didi: "İndi bunu mənə verərsən". Didi: "Çağırın arvaddarı gəlsin". Üçünü də çağırdı. Didi: "Görürsənmi buları?" Didi: "Hə". Didi: "Sənin arvadınnan gözəldimi?" Didi: "Hə". Didi: "Buların üçünü də səə verirəm, sən bu bir arvadı məə ver". Didi: "Yaxşı". Arvaddara didi ki, gedin bu xəzinə, u siz, nəqədər götürürsə, götürün özüüz gücü çatanı, sizi mən boşadım". Boşadı, didi, nigahdan çıxartdı. Didi: "Sən də boşa". Boşadı. Vəzirə didi: "Kəs bunun nigahını, bunun arvadının da nigahını məə kəs". Didi: "Sən sağ, mən salamat". Didi: "Səə at verim?" Didi: "At-zad istəmirəm, mən piyada gedəjəm, heş nə istəmirəm". Hərəsinin əlində bir bağlança, üç arvaddı bular, buları nə danışdırmır, nə söylətmir. Bular da dinməz-söyləməz bunun yanında gəlir. Bir qədər, diyir, şəhərdən aralanmışdı, didi: "Az, bilirsən nə var?" Didi: "Yox". Didi: "Mənim bir arvadım var idi, nətəər oldu ki, şah mənim əlimdən aldı bir arvadı, siz üç arvadı verdi məə. Di görüm, sizin dərdiniz nədi?" Didi: "Allah hakkı, mənim bir dərdim yoxdu, mən – didi, – ağızdan yavayam, çox yavayam". O birsinə didi: "Sənin dərdin nədi?" Didi: "Mən bir azca ayaxdan sürünçəyəm, şah arvadı olmağıma baxma". Didi: "Aaz, sənin dərdin nədi?" Didi: "Mən oğruyam. Həmişə şahdan oğurruyuf ayna-bayna paylıyıram". Didi: "Elə budu?" Didi: "Hə". Didi: "Zərəl yoxdu, gəlin". Yolun, diyir, elə bir yeri var idi, lodkəynən keçirdi. Bu, diyir, da piyada yolnan gəlmədi, u lodkəynən kəsə yolnan gəldi, diyir. Çıxartdı lodkəyə pul verdi ki, bizi keçirt. Keçirdəndə ağızdan yava olan qadını bir başından tutuf bir qılçasınnan gurultuynan tulladı, didi: "Sənin yerin buradı". Bu

ikisi qaldı. İksini keçirtdi, götdü getdi. Buların yanında elədi bunu. Götdü apardı. Didi: “Bu öyü görürsüz?” Didi: “Hə”. Didi: “Bu öy mənimdi”. Didi: “Bu meşə də mənimdi”. Bir az oldu mallar da gəldi, didi: “Bu malları görürsüz?” Didi: “Hə”. Didi: “Bu mallar da mənimdi. Bu sizin üstünüzdədi”. Getdi, diyir, şəhərdən iki dənə usta gətdi. Bir dənə də, diyir, tərəzi aldı. Dal tərəfdən bir qapı açdı. Didi: “Bilirsən nə var?” Didi: “Yox”. Didi ki, lotu gələndə bu qapıdan gəlsin, u qapıdan çıxsın bağ tərəfə, doqqaz tərəfə çıxmasın, qulağında qaldı? Didi: “Hə”. Didi: “Bu tərəzini görürsən?” Didi: “Hə”. Didi: “Oğurradığın malı burda çək, çəkiynən payla, təxmiyana paylama”. Didi: “Bu da sənin qulağında qaldı?” Didi: “Hə”. Didi: “Mən sabah axşam çıxıram, bu plan sizin yadızdan çıxmasın ha”. Didi: “Yaxşı”.

Danakı gün bu kişi çıxdı getdi, bular ikisi otdu öydə, fikirrəşdilər. Didi: “Ay qız”. Didi: “Hə”. Didi: “Aaz, biz şah arvadı idik, indi meşə arvadıyıx. Gələndə üç idik, indi iki qalmışıx. Biz, didi, elə bir iş görək ki, bu köhnə peşələri tulluyax. Sən öl, didi, bu üçümüzdən birimizi tulladı ey gölə, gələr, didi, ajığı tutar ikimizin də başını kəsər”. Didi: “Nağayrax?” Didi: “Bir adam burdan keçəndə diyək şəhərdən usta gəlsin, qapıın ordan bağlasın, tərəzini də tulluyax zir-zəmiyə. Sən oğurruğu tərgit, mən də didi gəzməyi, hər tərəfli tərgidək”. Didi: “Oldu”. Qapını da bağladılar, tərəzini tulladılar qorxusunnan.

Nəysə, kişi gəldi üç aydan sora, gördü qapı bağlıdı, tərəzi də yoxdu. Didi: “Hə, düzəlib”. Deməli, oğruynan da dolanmax olur, əyriynən də dolanmax olur, dil yavasıynan dolanmax olmaz, bunu yadda saxlıyın. Kişinin arvadı dilli qadın olanda bilginən o kişi ömrü başa vurammıjax. Əlli-altmış yaşında çezəjək, başı da ağarajax, gözü də, özü də qocalajax, özü də çox yaşamıjax.

İBRAHİMİN NAĞILI

Diyirlər ki, iki dənə tacir ticarətə gedillər. Biri Yəmənnən, biri də Azərbaycannan olur. Birinin adın Əhməd, birinin adı Məmməd olur. Buların heş birinin uşaxları olmuyufdu. Bir dərviş gəlifdi bir alma verif, Qızıləhmədi alması verifdi bulara. Diyifdi ki, bunu tən bölün yiyin. Sizə Allah-tala züryət verəjəhdi. Bular ikisi dosd oluflar. Biri-birinə gediş-gəlişi oluf. Azərbaycana ticarətə gələndə Əhmədin öyündə oluflar, Yəmənə gedəndə Məmmədin öyündə oluflar. Dosddux eliyiflər belə. Birinin gəlif qızı oluf, birinin oğlu. Hələ olmamışdan belə diyiflər: "Sənin qızın olsa, mənim oğlumundu, mənim qızım olsa, sənin oğlunundu". Bu, diyir, dünyasını dəyişir. Oğlanın adı İbrahim oluf, qızın adı İbrahimədi, nədi. Yadımda qalanı budu ha. Sora, diyir, uşax yetişifdi. Bu Əhmədin oğlu - Azərbaycanlı tacirin oğlu yetişifdi. Yetişənnən sora diyif ki, atamın vəzifəsi nə oluf, ana? Diyif ki, tacir idi. - "Hara gedirdi? Malı hara aparırdı?" Yetişənnən sora ha. Diyif yükü bu olardı, Yəmən şəhərinin filan küçəsində Məhəmməd adında bir tacir vardı, unun öyündə qalardı. U da bizə gələndə bizdə qalardı. Bu, diyir, yük tutdu, getdi ora. Getdi, diyir, ora, qızı gördü. O öyü tapdı. O da dünyasını dəyişif ha. Amma qız durur, diyir. Tapdı, diyir. Olar bir-birinə aşiq olur. Evləndilər. Nikah elədilər. Arvad belə didi, anası: "Qızın hayası ər öyündə tökülər. Gedərsən öyünə, orda hayan tökülər. Amma səni qızım, indi tilsimə salıram. Oğlan səə yaxın düşsə, tilsimə düşcəhdi. Elə elə ki, oğlan səə yaxın düşməsin". Yolda gəlillərdi, yoldaşını da gətirirdi. Ər-arvad gəlillərdi. Amma əlini vurmuyuf da buna. Bu gəlif burda olcaxdı toyu. Yolda gələndə, diyir, buna ayrı çadır quruf. Bu da, diyir, heyvannarı gözdüyür, yırtıcı heyvannarı. Gejə isdiyif ki, yanına girsin. Yanına girəndə, diyir, düşüf tilsimə. Tilsim belədi ki, diyif: "İbrahim, mən getdim, İbrahim, mən getdim". Getdim diyən tilsim imiş. İbrahim də düşüf onun dalına ki,

getmə, getmə, getmə. Dedif dağda dönüf daşa. Yarıdan aşağı daş oluf. Qız oyanıf səhər, görüf İbrahim yoxdu. Çağırıf, çağırıf, yoxdu. Duruf İbrahimin paltarını geyif, kişi paltarını geyif, karvanı çəkir Azərbaycana. - "İbrahim gəldi, İbrahim gəldi". Camaat qabağına çıxıfdı. Eyni oxşuyur. Bir almadandı axı ikisi də. Eyni İbrahimdi. Amma oğlan paltarındadı da. Gəldi, didi: "Ay ana, bəs nətəərsən, hal-əhval". Didi: "Allaha şükür, ay oğul. Allaha şükür". Diyir ki, atam bunnan qabağa... Qız diyir ha bunu. Atam bunnan qabağa ticarətə gedif gələndə padşaha bir pay aparırdı? Diyir: "Aparırdı". - "Nə aparırdı, ay ana". Diyif ki, gətirdiyin şeylərdən. Hərəsinnən bir xonça düzəldif apardılar paccaha. Paccaha aparan kimi paccahın qızı vuruldu buna. Oğlan bilif vuruldu ha. Vurulannan sora didi ki, Əhmədin oğluyam. İlk dəfə ticarətə getmişəm. Gələnnən sora səə pay gətmişəm. - "Yaxşı, payın əziz olsun. Amma qız səə vurulufdu. Sənin toyuu özüm elijəm". Elədilər, diyir. Amma bu qıznan yaşıya bilməz axı. Axşam, diyir, qılış qoyurmuş araya. Xançalını birinci qoyuf yatırmış, diyir. Axırı, diyir, məlumat verdi ata tərəfinə ki, oğlan gəlmişəmsə, oğlanam, qız gəlmişəmsə, qızam. Bu məni istəmirmiş. Çağırır, diyir, dannıyır padşah. Amma bu sirri açmah isdəmir, bilməsinnər da qızam, bu sirr açılmasın. Bir neçə dəfə padşah çağırtdırır ki, qızımı sevmirsən? Diyir: "Niyə sevmirəm ki?" Diyir: "Niyə bəs belə sözdər eşidirəm. Qız belə diyir ki, oğlan gəlmişəmsə, oğlanam, qız gəlmişəmsə, qızam". Çağrılıf dannanıfdı. Üçüncüdə qıza diyifdi ki, bir sirr açacağam səə. Aşmazsan ki? Diyir: "Yox, aşmaram". Söz verirsənmi? Diyif: "Söz verirəm saa, aşmaram". Diyir: "Mən qadınam, İbrahim döyüləm. Anası elə bilir ki, İbrahim mənəm. İbrahimi mən itirmişəm. Olsun ki, bir vaxd olajax o gəlcəhdi, səni də ona nikahlıyaram. Olarıx ikimiz".

İndi səə söylüyüm mən İbrahimnən. İbrahim də, diyir, burdan aşağı daş olufdu. Tilsimə düşüf da. Ovçu Pirim ova çıxanda görüfdü burdan daşdı, yuxarı insandı. Götürüf gətirir.

Ovçu Pirimin bir qızı varmış, yeddi metrə uzunu, yeddi metrə də eni varmış. Öydə qarıyıf qalıfmış. Eşitmisən bunu?

- Yox, eşitməmişəm.

- Çatan kimi diyir: "Bu əziyyətin qabağında mənim qızımı almalısan. Səni u daşdan mən xilas eləmişəm". Bunu da aldı, diyir. - "İndi icazə versəz, - Ovçu Pirimə diyir, - mən ayləmi götürüf öyümə gedirəm. Öyüm-eşiyim var mənim da". Gəldi. - "Vay, İbrahim gəldi". Ana didi: "İbrahim öydədi axı". U da dəvəynən, atnan gəlirdi. İndi qıza cehiz verif da atası, Ovçu Pirim. Gəldilər diyir. - "A bala, öydəki İbrahim döyüldü ki?" Onnan sora sirr açıldı. Didi: "Ana, mən tilsimə düşmüşəm. Unu anası eləmişdi ki, qızın yanına gəlsən tilsimə düşcəhsən. Qızın həyası ər öyündə tökülər. Hər yerdə həyası tökülməz". Onnan sora, diyir, üçünü də nikahladılar - Ovçu Pirimin qızını İbrahimə, paccahın da qızını, bir də özünün. Olar orda yaşasın, biz də burda.

İKİ MÜNƏCCİM

İki münəccim olur İsfəhan şəhərində, İranda İsfəhan şəhəri oluf. Çarxı-zəbvar oluf vaxtiylə. İndi bilmirəm var, yoxdu. Bu rəvayətdi, mən belə eşitmişəm. Üç yüz altmış altı, üç yüz altmış beş gündü bir il. Demək, bir ilin müddətində çərxi-zəvvar dayanır. Ordan guya yer ayrılır, qapı kimi açılır, içəri camahat girir. Salamat çıxa bilən çıxır. Çıxanda o adamı tanımax olmur. O adam gərəh burda teksmatordan keçsin. Üç yüz altmış beş, üç yüz altmış altı xurmaynan bir il dolanmalıdı. Gündə bir xurmaynan. Bir sutka birini yeyib dözməli, ikinci sutka o birini yeməlidi. Üç yüz altmış beş, üç yüz altmış altı xurma götürüf ordan içəri girillər, çərxi-zəvvara. İsfəhan şəhərində olur bu. Hə. Girir bir ilin müddətində o çarx dayanır. Çarx dayananda torpax aralanır, ordan çıxıllar. Ordan qapıdan çıxır. Nətər işdisə, onu daa mən bilmirəm, qapı taxtadandı, yoxsa Allah hökmüdü, ora girən həmən insannar ki var, münəccim elmini ordan götürüflər örgənənlər. U hakk dərvişləri var ey... Eşidirsən? U dərvişlər hamısı ordan çıxmadı. Gedir girir ora, orda çərxi-zəvvar dayananda çıxır. Bir sutka dayanmalıdı. O bir sutkanın müddətində də çıxmalıdı. Bular içəri girəndə də bu dərəmumu yastılıyıflar, döşdərinə, başdarına, ətlərinə vuruf giriflər içəri. U çərxi-zəvvarın içi, u divarlar hamısı yazıdı, ayətdi hamısı. Bu mumu basıllar ora, bu qayda hər yerə, hansı düşüf, düşüfdü. Nəkqədər mum var, dərəmum, onu basıf yığıllar üst-üstə, çıxanda çıxardıllar. Sağ qalıfsa ordan çıxır, sağ qalmayıfsa orda ölür, orda da qalır. Da u qutardı, getdi. Ordan çıxanda üç yüz altmış altı gün bunun nə başı qırxılmayıf, nə də üzü. Yəni tük bura düşüf da. Heylə döylü? Saçın tükü də arvad kimi bura düşüf. Da bilən yoxdu bu kimdi, bu kim döylü.

İki dərviş ordan çıxır, münəccim elmini bilənlər. Günlərin bir günü diyillər ki, gedəh filan məmləkətə, gedəh görəh nə var, nə yox. Bular gedillər, məsələn, o məmləkətə

gedəndə görüllər ki, əyə, çax, çax, çax, çax eliyir. Bir yerdə dəyirman səsi gəlir. Çörüküllər, baxıllar, görüllər ki, qıraxda bir həngamə var, camaat ora yığılıf. Gedillər ora. Gedif görüllər ki, su dəyirmanıdı bura. Buları camaat görür, durullar ayağa, buları qarşılıyıllar, oturullar. Günün altında da bir qara köpəh yatıf, it yatıfdı. Bular söz-söhbət, oyan-bayan... Şiddətli bir gündü. – "Sən nəsən, nə döyülsən, hardan gəlirsən?" – bular sual verillər. Diyir: "Biz iki dərvişik, münəccimlik eliyirik". Bu dərvişdər də münəccimlik elmini kamil bilirdi. Diyir: "Nə olajax, nə olmujax?" Diyir ki, nə olajax ki, sağlıx-səlamətçilih. Bu havaxda qara köpək durur. – Eşidirsənmi? – Günün altınnan durur, gedir arabanın altında yatır. Bu münəccim elmini oxuyannara deyillər ki, ey dərviş, dünyada nə olajax, nə bilirsiz dünyadan? Diyir: "Nə olajax ki?" – "Bax bu saat gündü, görürsən ki, adamı yandırır. Nə olajax, yağış-zad var, yoxdu?" Diyir: "Heş bir şey yoxdu". Diyir ki, ay dərvişdər, xəbəriz var? Diyir: "Yox". Diyir: "Sizin oxuyuf tamam eliyif gəlməyinizin... Mənim qara köpəyim çağı siz qanmırsız". – "Niyə?" Diyir: "Durun rahatdanın, girin içəri. Köpəh durdu günün altınnan, bu saat şaqqıldayıf bir leysan gələjəh olmazın. Hamınız isdanajax, girin arabaan altına". Köpəh girdi arabaan altına, bular da özdərini soxdular, diyir. Göy şaqqıldadı, diyir, bir leysan gəldi, diyir, bular cücəbalaya döndü. Dərvişdər diyir: "Hə, biz üç yüz altmış altı gün orda əziyyət çəkmişih, bir dəqiqəyə dəymədi. Dəyirmançının qara köpəyi bilən çağı da biz qanmadıx". İndi başa düşdünmü? Qara köpək yağışın, leysanın gəlməyini bulara didi. Faytonçu Məməkişi dayı var idi, tarixçi idi o. O söylüyürdü.

AĞANƏZƏR

Biri var imiş, biri yox imiş, bir tənbəl var imiş, bir dənə də anası. Okqədər tənbəl imiş ki, öydən çölə çıxmırmış da. Anası bir gün una-buna məsləhət eliyir ki, mən nağayrım buna, öydən çölə heş çıxardammıram, nağayrammıram. Deyillər ki, ona bir həftə əppəh vermə. Onnan sora get bir kilo alma al, gətir belə düz da. Ha ağlıyır, nağayrır, anası diyir: "Yoxdu çörəh". Bir də bir həftədən sora bir kilo alma alıf gətirir. Düzür birini ora, birini bura, düz məhləyətən. "əlif bu yanındayını alıf yeyir. Yalvarıf: "Ana, məə də ver". Diyif: ""et özün al". Heylə-heylə məhləyə düşüf, anası qapını bağlıyır. Diyir: "Əppəyim yoxdu. Özümə baxammıram, sənə nağayrım". Ha fikirrəşir, girir padval kimi yer variymiş, ora. Atasının qılıncı variymiş. Bu qılıncı götürür. Qulaş diyillərdi da, qırx qulaş kəndiri var imiş. Bu kəndiri götürür, sarıtdıyır belinə. Baxır ora-bura, bir dənə də yumurta tapır. Yumurtanı da qoyur cibinə, düşür yola.

Çox gedir, az gedir, yoruluf oturur. Ajdı da, nağarsın. "örür ki, yolun ortasında qarışqalar yuva tikir, belə çıxıf, doludu buralar. Qılıncı alır düşür buların üsdünə. Belə kəsir, nağayrır, sayır, görür ki, qırx dənə qarışqa öldürüf. U qarışqanın yanına qılıncın ucuynan yazır: "Ağanəzərəm, belə gəzərəm, bir qılınca qırxın əzərəm". Belə bir söz də yazır bura. Durur, çıxır, gedir. Bu arı gedənnən sora, bura divlərin məskəni imiş, indi yəqin divlər də oxumax-zad nəsə bilirmiş, yoxsa əfsanədi bilmirəm, bu divlər də gəlir. Sən ölmüyəsən, bura bir şey yazılıf. Bular da insanın iyini bilirmiş. "əzir uyza-buyza, qarannıxdı, bu çıxıf ağacın başına, yatıf. Kəndirnən sarıyıf ki, yıxılmasın. Ağacın başında yatıf. Çağırır: "Ağanəzər, Ağanəzər, Ağanəzər". Bu, deer, oyanıf ki, görəsən kimdi məni çağıran, adımı bilən? "örür bir biheybət divdi. - "Sənnən güləşəjəm". Bunun ürəyinə qopmaca düşür. Deyir:

"Sənnən şərt kəsəjəm. Əyər u şərtdəri yerinə yetirsən, sənnən güləşmijəm, yetirə bilməsən güləşəjəm". Deyir: "Yaxşı. Düş aşağı". Deer: ""et iki dənə bu boyda daş gətir". İki dənə daş gətir. Diyir: "Bu daşı sıxajayıx. Kim bu daşdan ağlı-sarılı su çıxartsa, o qalib gələjəh". Divin gözünü oğurruyuf yumurtanı qoyur daşın üsdünə. Bunu sıxıf suyunu tökür. Div ha əlləşir, ha vuruşur, heş nə eliyəmmir. Devə deer ki, səni yeyəjəm. Divin ürəyinə düşür qopmaca. Diyir: ""əl qardaş olax. Sən nə isdəsən onu yerinə yetirəjəm". Deer: "Yox. Bir şərtimiz də var". Deer: "De". Deer: "Kim qolunun altınnan qırx qulaş kəndir hörüf çıxarsa, o qalif gələjək. Əyər sən elədin, mən səni belimdə gəzdirəjəm hara getsən, mən elədim, sən məni belində gəzdirəjən həmişə". Deer: "Yaxşı". Bu divlər onsuz da tüklüdü. Bu div kəndir hörməyi nə bilir, nağarmağı nə bilir. Bu da açır, çəkir tökür, çəkir tökür kəndiri. Div da ölür qorxusunnan.

Minir divin belinə, kəndiri götürür, qılıncı da bağlıyır belinə. Div deyir: "Qılıncaa baxım". Deer: "Bu qılınc sirridi. Sən una əli vursan, səni doğram-doğram eliyər". Div aşağı baxır, yuxarı baxır. Deer: "O üz-bu üz elədinsə ha, bax, bu qılışnan kəsəjəm başıı". Deyir: "Yaxşı".

Bu devin də ayrı bir mağarası var. Deməli, devlər olan yerdən hamı köçüf gedif harasa. Bu oluf nə bilim zəif, bularnan yollaşa bilmiyif, qayıdıfdı, gəlifdi. Oturuf bu mağarada, dolanıf, əmələ gəlifdi. Diyif: ""et od tap, gətir". Ağacın bir budağını dartanda parası qopuf gəlir. Od-ojax qalıyıllar. Bu gedif, dartıf, daşıyıf gətirir, bu yiyir, kökəlir, əmələ gəlir. Keflənir, divə diyir ki, mən arvad almax isdiyirəm. Dev diyir: "Kimin qızını isdiyirsən, gedim onu səə götürüm gətirim". Deyir: "Padşahın qızını". Bular olan ölkədə padşah var imiş, aman-zaman bir dənə qızı var imiş. Okqədər qızı isdiyən var imiş, getmirmiş. Qız getmirmiş ha. Fikirrəşifdi, diyir: ""edəjəm bu padşahın yanına, bu söhbəti

una açajam. Dijəm hal-qəziyyə belə-belə". Deməli bu div tək olduğunnan padşah əmr eliyifmiş ki, una dəyməyin. Qoyun qalsın, yaşasın.

Bir gün padşah görür ki, bu div gəlir. - "Xoş gəlmisən". - "Sağ ol". Buna yer-zad görkəzir. Diyir: "Mənim bir ağam var, sənin qızıı isdiyir". Diyir: "Ə, kopoğlu, sənin ağan kimdi?". Div başına gələni danışır. Bəs belə pəhləvandı, belədi, filandı. Bu devin də ağlına gəlif bircə dəfə soruşmuyuf "sənin atan var, anan var, kimin oğlusan". Belə şüursuzdu da. Diyir ki, mənim qızımın şərti var, o şərti də yerinə yetirən yoxdu. Ağana de, gəlsin, axşam qonaxlarımız olajax. Mənim qızımın şərtini yerinə yetirə bildi, mənim qızım da, pəhlivan da, kasıf da olsa, dəli də olsa, qızın aşiqidi də, ona gedəjək. Yerinə yetirmədi, bax u qılınc, u cəllad. Boynunu vurdurajam. Bu da özünü sındırmayıf diyir: "Hə, cəllada bax, padşaha bax. "edərəm də, yerinə yetirrəm də. "et mənə kastyum, ayakqabı, filan-beşməkan tap. Padşaha layiq olan paltar tap, gətir". Div gedir, tapır gətirir, axşam gedillər padşahın hüzuruna. Qız da baxır, Allah, bir oğlandı boylu-buxunnu. - "Xoş gəlmisən". - "Çox sağ ol". "örür məhlənin dört tərəfi güllühdü, ortada stuldu. Belə oturuf, qonaxlar yavaş-yavaş yığılır, amma başda bir qəşənh stuldu, qızın stuludu. Bir də görür, ay allah, qız gəlir. Ləmpə kimi yanır. Qız gəlir oturur: "Xoş gəlmisiz, mənim əzizlərim". Yeyillər-içillər, hələ bir söhbət yoxdu. Bu qız savaha yaxın, hava açılmasına iki-üş saat qalmış, diyir: "Mən indi gül olajam, bu ağajdarın birinnən asılajam. Hər kəs məni tapıf üzsə, mən onunam. Şərtim belədi. Əməlli fikirrəşin. Kimin boynunun vurulmax vaxtı çatıfsa, boynu vurulajax, mənim qismətimsə, mənim olajax".

Belə danışdıxları yerdə yox oluf. O duruf baxır, bu duruf baxır, o üzünə keçir, bu güllərin başına hər kəs dolanır, tapa bilmir. Bu oturuf. Nöybə çatıf buna, bu duruf o gülə əlini vurur, bu gülə əlini vurur, bir dənə şeh düşmüş gülü üzür. Bu

olur qız. Ay allah, ay dad, qız özü də görüf ki, doğrudan da, buna layiq oğlandı, bunun xəbəri yoxdu. Deellər ki, bəs qızın qisməti çıxıfdı. Belə oturuflar, qız deer ki, düzünü de. Bir dənə şərt kəsəjəm. Düzünü dedin, evlənəjəyih, düzünü demədinsə, boynun vurulajax. Deer: "Baş üstə". - "Sən nə bildin ki, mən o güləm". Diyir: "Ona görə bildim ki, mən güllərin hamısına əlimi vurdum, gördüm heş birinə şeh düşmüyüf. Şeh düşən gül sən idin. Ona görə də səni üzdüm". Deməh, şeh düşüf səhərə yaxın, bu da düşüf bu gülün üsdünə.

Padşah da, diyir, oturufdu orda. Çağırır oğlanı. Bu düşür padşahın ayağına, isdiyir ayağını-zadını öpə, qujaxlıya, padşah qoymuyuf. - "Dur ayağa, burda olmaz". Deyir: "Sənin anan, atan, oğlun, kimin var?" Deyir: "Heş kəsim yoxdu. Bir dənə anam var". Deyif: "Anaa qoyuf buralarda nə gəzirsən?" Dedi: "Anam məni öydən qovladı. Dedi get özə arvad tap, filan eylə, peşməkan eylə. Dədən yox, qardaşın yox, havaxatan oturajaxsan öydə. Diyir anama söz verdim ki, gedirəm, havax öylənəjəm, yodaşımı da götürüf gələjəm. Padşah dizinə-gözünə döyür ki, bu da belə gedəjəh. Diyir: "Olmaz. Gərəh gedif götürüf gələsən". Diyir: "Yox, anam gəlməz, eləməz. Anamın bir öyü var, bir padvalı var atamdan qalıf. Anam, atam zəhmətkeş oluflar. Özdəri üçün bir koma tikiflər. O koma da mənə sənin sarayınnan əzizdi". Deer ki, padşah, anana denən padşahın qızını almışam, toy eliyirih, padşah səni toya çağırır. Buna bir at da verir. Diyir: "Yox. Anam məni görsə manşırı tutajax, gəlmijəh". Yoldaşına öyü görsədir. - ""öt qırx nəfər, məktub göndər anama, bəlkə gəldi". Məktub yazır verir. Bu oğlana bir at da verir. Diyir, hansı atın belinə çıxır, atın beli qırılır düşür. Ay aman! Bu hak-hesabnan yeddi dənə atın beli qırılır. "əlir mehtəri diyir: "Padşah sağ olsun, buna at dözər? Yeddi dənə atın beli qırıldı, qaldı orda". Axırda bu diyir ki, mən özüm gedərəm. Bu düşür qabağa, diyir, buna at çatmır. Bu getdihcə bu kişi atı çapır. Arvad görür ki, bir atdı dayanıf. -

"Xoş gəlmisən, a qardaş". Ananın saşdarı ağarıf, gözü zəif görür. Kasıf məhlədi. Nə qədər olsa baladı da. - "Ay ana, Ağanəzərin nənəsı sənsən?" - "Bəli mənəm". - "Hardadı oğlun?" Diyir: "A bala, başını götürüf gedifdi". Diyir: "Sənin oğlun belə yaxşı oğlandı, belə pəhlivandı. Padşah qızını ona verif. Padşah səni toya çağırır". Arvad diyir: "A bala, mən hara, padşah hara? Əynim yox, başım yox. Oğluma de ki, anan diyir evlənsin, yoldaşını da götsün gəlsin". Bu da gəlif padşaha diyif. Padşah diyir: "Ağıllı arvaddı. Burda nə sirr varsa, var". Padşah libasını dəyişir, iki dənə at götürüf vəziriynən gəlir.

Soruşullar, bu atdı yoluun-irizini verir, eliyir. Gedillər, qarannıx düşür, arvadın qapısıın döyüllər. Arvad gəlir: "Xoş gəlmisiz". - "Sağ ol, ay xala. Bu gejə bizi qonax eliyərsən?" Arvad başını dikir aşağı. - "Ay bala, mənim nəyim var? Oğlum yox, qardaşım yox, mən tək sizə nətəər qullux eliyim?" Padşah diyir: "Ay xala, zərər yox. Sən öydə yatarsan, biz seyvanda oturarıx". Deer ki, yaxşı. Gəlir oturur. Arvadın da qara arpadan çörəyi var idi. Təzəcə bişirmişdi. Bir də qatığımı, nəyimi. Gətirir bulara süfrə qoyur, qara çörəyi qoyur, qatıx qoyur, çay qoyur. Daa olanınnan. - "Can qardaş, - diyir, - kasıbın olanınnan, olanım budu". Padşah deer əppəyi elə iştahnan yeyir ki? Vəzirə deyir: "A vəzir, mən belə daddı çörəh yeməmişəm. Ay xala, gəl yığışdır, sağ ol". Arvad sufranı yığışdırır. Diyir: "Ay xala, otur da görəh". Biz də səən qardaşın, atan, balan. Niyə təksən? Diyif: "A bala, mənim bir oğlum var idi. Yoldaşım öldü, atam, anam, qardaşım, hamımız qırılıf batmışıx. Ana-bala nə zülmnən ona baxmışam, böyütmüşəm. Bu da oldu belə tənbəl. - Daa dimir ki, bunu belə elədim, filan elədim. Öydən çıxartdım. - Axırı didim ay oğul, pulum yox, çörəyim yox. Mən səni nəynən öyləndirim, nətəər eliyim. Get başı çarəsiin qıl. Get öylən, get pullan gəl. Ölərəm burda oturarsan, qalaram, mən də sizi görərəm". Padşah diyir: "Vallah, bu haxlı arvaddı. Diyir, ay xala, sənin oğlun çox

qəhrəman oğlandı, çox iyid oğlandı. Padşah qızını sənin oğluna verif. Bizi də göndərif ki, səni sabah ora toya aparax". Diyir: "Ay bala, sən nə danışırsan? Mənim oğlum hara, padşah hara". Diyir: "A xala, padşahın qızının şərti var. U şərti də sənin oğlun yerinə yetirif. Ona görə padşah qızını sənin oğluna verir". Deyir: "Yox, a bala, mən bu üsd-başnan padşahın qapısına gedəmmərəm. Deyər bəyin anasına bax. Padşahın qızıın alan bir oğlanın anasına bax". Deyir: "Sabah səə qırx dənə qulluxcu göndərəcəm, padşaha layiq libas göndərəcəm. Sabah oğlunun toyuna gəlirsən". Arvad elə bilir bunu araya qoyullar. Deer: "Yaxşı, gedin. Göndərərsizsə gələrəm". Bular durullar, elə gejəynən sağollaşıf qayıdır. Padşah qırx dənə qız, qızıl, gümüş... Da arvadı elə bəziyir ki, bu Ağanəzərə layiq olsun. Arvad bir də görür qırx dənə atlı gəlir qapıya. Arvadı qucaxlayıllar, öpüllər: "Ay xala, sənin bəxtin gətirif. Sən niyə belə eliyirsən? "əl, padşah göndərif". Arvad at minməyi nə bilir? Deer: "A bala, mən minəmmərəm". Deer: "Yox, minərsən, qorxma". Arvadı bəziyif, ata mindirif, götürüf gedillər. Məclis də quruluf, deer. Ağanəzərin ürəyi gedir. Qız tez qışqırır. Qalxızıllar, gül suyu səpillər, nağayrır, ayılır, iməkləyə-iməkləyə, diyir, gəlir anasının qabağına. Görüşüllər, ağlıyıllar, kirişillər. Anaya yaxşı yer görkəzillər, oturur. Yeyillər, içillər. Padşahın qızını alır. Div də hərrənir buların böyür-başında. Arvad da baxıf qorxur. Diyir: "A bala, bu padşahın həyəti, bu div burda nə gəzir? Bu buların kəndində olan divdi".

Yeddi gün, yeddi gecə toy olur. Nəsə, ana diyir: "Padşah sağ olsun, gəlnimi ver, oğlumu ver, mən götürüm gedim". Deer: "Ana, heylə şey yoxdu. Sən orda öy-eşik isdiyirsən, yoxsa burda?" Arvad ağlıyır. Diyir: "Noldu ay ana, niyə ağlıyırsan?" Deer: "Mənim yoldaşım çox yaxşı adam oluf. "özəl, çox da tənbəl oluf bizim Ağanəzər kimi. Nə zülmlə yuva salmışıx, bir-birimizə söz vermişih, hansımız ölsəh, bu

komaan içində, bu torpaxda ölməliyih". Padşah diyir: "Məni isdiyən xələt versin bu arvada". Kimi qızıl, xələt, kimin nəyə gücü çatır tökküllər üsdünə. Padşah diyir: "Xala, bir on gün qalajaxsan burda. Onnan sora sizi salajam yola".

Bular burda qalmaxda olsun, padşah da orda qızına saray tikdirməhdə olsun. Padşah dəbdəbəli saray, öy-eşih tikdirir. Vəzir-vəkil yığılır, götürüf gəlillər bura. Bir-iki gün də burda kət camaatına yiməh-işməh. Padşah yığılıf gedir öylərinə. Div də burda bularnan qalır. Diyir: "Ana, sənin öyün-eşiyin u divin sığınajağıdı, bu da sənin öyün. U div də həmişə bizə köməh elijəhdi". Ular yola düşür gedir, bular qalır öylərində, mehriban yaşıyıllar.

İNSANIN ŞEYTANI

Şeytan yolnan gedirdi, yağış yağır bunu isdadır. Keçal oturmuşdu qıraxda, diyir. Görür yağış yağmax isdiyir, soyunur paltarını, daşın altına qoyur, oturur üstündə. Şeytan gəlif buna çatır, diyir: "Keçəl, bu yağışda harda olmusan?" Diyir: "Burda". Diyir: "Nətəər burda olmusan, heş isdanmamısan axı? Mənim tükümdən su damır". Diyir: "Onu bilməyə nə var ki?" Diyir: "Onu məə öyrət da". Diyir: "Sən bildiyi məə öyrət, mən də bildiyimi səə öyrədim". Şeytan nəsə, bildiyi sözdəri buna öyrədir. Keçal diyir: "Onu bilməyə nə var? Gördün hava qaraldı, yağır, soyun paltarı, qoy daşın altına, üsdündə ot. Yağış kəsildi, geyin əyinə qupquru, çıx get". Diyir: "Bir nəfər var, onu yoldan çıxarda bilmirəm. Sən qüvvətdi olarsan u işdə, yoxsa mən". Diyir: "Mən". Diyir: "Baxax da, prop eliyək". Diyir: "Davay, gedək prop eliyək". Bular gedəndə diyir, görür ki, iki nəfər qoja kişi. Biri kordu, biri sağdı. Bular olur dosd. Siftəsinnən, uşaxlığınnan dostdux eliyillər. İndi gəlif qocalıflar, bu dosdunun kor oluf gözdəri. Bu da insafı gəlif bunun yanında qalır. Buna yeməyini verir, yiyməyini alıf gətirir, obşim, yerini salır. Bax belə yaşıyıllar. Şeytan gedir bunun yanına. Diyir ki, indi oların arasını mən vurajam. Bax mən gedirəm. Ordayı davaya bax. Diyir: "Nağarajan?" Diyir: "Bax da". Gedir bunun yanında. Bu da söhbət eliyir bularnan. Bu kişi diyir, belə-belə, bu da diyir: "Lap yaxşı diyirsən. Mənim də xoşuma gəldi. Onda ala bu bir qızıl sənin, bu bir qızıl da korun payı". Bu adama verir guya. Vermir ha, yalannan diyir. Qayıdır. Bular pusullar da. Bir vaxtı şeytan görür ki, kor sıxışdırıfdı gözü sağ olanı ki, mənim qızılımı ver. Diyir: "Ə, vermiyifdi ey, aldadırdı". Diyir: "Niyə ə? Mənim qulağım kardı? Gözüm görmür, görmür, qulağım da kardı ki? U didi ki, ala bu bir qızıl sənin, bir qızıl da korun. Noldu, qəpik olanda verirsən, qızılı vermirsən? Mənim qızılımı ver". Başdıyır burda bunun üsdündə bular dalaşır, bir-birini qızıl qana

döndərillər. Şeytan diyir ki, Allahın nəhləti səə gəlsin ay keçal. Sən mənnən qüvvətdisənmiş.

Diyir gənə söhbət eliyillərdi bular. Diyir ki, indi bu axşam nağara bilərsən? Diyir: "Sən nağara bilərsən?" Diyir: "Mən bildiyimi eliyərəm". Diyib: "Prob eliyək?" Diyir: "Eliyək". Kənddə, diyir, bir qız vardı, nişannıydı. Şeytan, diyir, bu qızın qəlbinə dolur axşam yatanda. Oyanır anasına diyir ki, mən nişannımı isdəmirəm. - "Niyə, oğlana nolufdu?" Diyir: "Yox, o qırx razmer geyinir, mən də qırx razmer geyinirəm. U mənim ayakqabımı geyinif gedəjək, dəyişih düşəjəh, onun üsdündə dalaşajayıx". Arvad, diyir, anası, nə qədər eliyir, diyir: "Yox ey, isdəmirəm". Şeytan bir adamı yoldan çıxartdı. Bunu eliyir. Bu keçal nağayır? Keçal gedəndə görür bulağın başında gözəl qız, qadın su doldurur. Bu da, diyir, əmisi oğluna ərə getmişdi, diyir. Bu burda bir əzan çəkir, bir mərsiyə diyir, qızın özünün xoşuna gəlir. Diyir: "Əmi, sən kimsən?" Diyir: "Mən seyidəm". Diyir: "Oğul, bu klonda ərinin şəklidimi?" Diyir: "Hə". Diyir: "Bax, görürsən, unun üzündə xal var. U xalda üş dənə tük çıxıf. U tük bir-birinə dəyif zamkaniya eliyir. Ərin səni öldürəjəhdi. Bax gecə sən yatan kimi ağ ülgücü alajaxdı, sən yuxluyan kimi sənin başıı kəsəjəhdi". Diyir: "Molla əmi, heylə şey ola bilərmi? O mənim əmim oğludu, biz mehribanıx". Diyir: "Mən sənə deyirəm, inanmırsan, pus. Axşam gözünün altınnan bax. Görcəhsən ki, ərin əlində ağ ülgüc gəlir sənin başını kəsməyə". Diyir: "Yaxşı". Bunu belə başa salır. Axı bu klonda oğlanın şəklini görmüşdü. Gəlir bayana, dimgədə görür camaat söhbət eliyir, həmən oğlan da burdadı. Onu çəkir qırağa, diyir ki, arvadın beyjə, səni, baltaynan başıı kəsəjəhdi. Diyir: "Əşi, u nə diyən sözdü?" - "Bax, mən indi ordan gəlirəm, oların dəsdəsinin içinnən. Anasıynan, atasıynan, qohum-əqrabasıynan danışıf, sənin baltaynan başıı kəsəjəhdi". Nəysə, bunu da belə toladır. Axşam, diyir, gəlir. Tövbə. Arvada diyir ki, baltaynan vur, oğlana diyir ki, ülgüşnən kəs da. Nəsə, axşam,

diyir, oğlan yatanda gözünün altınnan baxır. Görür arvadı əlində ağ ulgüc, budaha, gəlir guya bunun başını kəsməyə. Kişi də başına döndüyüm, eləmə tənbəllih, baltanı al, vur bunun təpəsinə. Heylə qızıl qan olur. Oğlan tərəf u tərəfdən, qız tərəf bu tərəfdən düşür qan, böyüh ölüm olur. Səhər açılır, diyir, şeytanla keçal gənə rastdaşıllar. Diyir: "Keçal". Diyir: "Hə". - "Nağardın?" Diyir: "Sən nağardın?" Diyir: "Mən bəs beyjə bir dənə qızın nişanını qaytardım". Diyir: "Ə, gəl gedəh mənim fəaliyyətimə bax, gör nağarmışam". Şeytan, diyir, gedif baxıf görür ki, on dənə samasfalt lazımdı meyidi daşımağa. Diyir: "Allahın nəhləti səə gəlsin, keçal. Demək, Allahın şeytanınnan insanın şeytanı qüvvəlidi. Mən sənnən bajarmadım. Sən sağ, mən salamat. Mən getdim".

QAZI PADŞAH

Biri vardı, biri yoxdu, bir Qazı padşahı olur. Bu qazı padşah çox belə əzazil olur. Bir nəfər olur, üş-dörd baş külfət olur. Arvad baxır ki, kişi hara gedir əliboş gəlir, dolana bilmillər. Çox ağır günnər keçirillər. Məcbur olur bir gün kişiyə diyir ki, kişi, bilirsən nə var? Diyir: "Yox". Diyir: "Məə qonşudan bilmirəm, hardan bilmirəm, bir dəst libas tapginən". Diyir: "Niirsən?" Diyir: "Gəzməyə gedəjəm".

Gedir özü kimi qonşusuna sirr verir, diyir ki, vallah, sənnən nə danım, qonşuyux, mənim ayləmin libası yoxdu. Aylənə diginən libasınnan bir dəst ona versin. Bilmirəm, diyir gəzməyə gedəjəm indi. Hara gedəjəh, hara getmijəh onu deyəmmərəm. Nəysə, diyir, irazılaşır. Bir dəst arvad qəşəng libas verir, gətirir, qonşudu da, geyinir, eliyir. Sağ olun, sağ olun. – "Arvad, yerii bəs mən hardan bilim, hara gedirsən, nə məqsədnən gedirsən?" – "Qayıdanda bilərsən".

Gedir bu qadın yaxşı daram geyinif altdan-üstdən, duruf padşahın qapısının ağzında. Şikayətini eliyən eliyir, dərdini diyən diyir, bu dəvərmir. Axşam olur, padşah idarədən düşüf öyünə getməh isdiyəndə baxır görür bir qadın oturufdu, qəşənh də bir qadındı. Bu qadına aşıq olur. Diyir: "A qız, sən niyə gəlmisən, burda nə gəzirsən, nə axtarırsan. Dəridini diyən didi, dimiyən demədi. Sən də səhərdən gəlif oturmusan burda". Diyir ki, mənim dərdim ayrıdı. – "Nədi?" Diyir ki, məəm ərim Haca gedif, Hacdan gələndə gəmi batıf, ölüfdü. Qalmışam başsız, dolanammıram. – "Harda olursan?" – "Filan nömrəli öydə". Diyir: "Get, axşam sizə gələjəm". "Diyir: "Bizə gəlif məni yeyəjən, yoxsa barıları yeyəjən? Yeməh yoxdu". Çıxardır bir sıxma qızıl verir, diyir: "Get, nə lazımdı al rahla, axşam sənin qonağınam". Gedir, yaxşı bazarrıx eliyir, ömründə xörək bişirmiyən adamdı, kasıf adamdı. Gəlir. Kişi baxıf görür ki, ə, arvad zırıltı bazarrıxnan gəldi. Kişi bir az bu işdən təşvişə düşür, şübhələnir. Amma biruzə vermir ki, bunun

axırını gözdüyəjəm, görəh bu nə diyən sözdü. Ömrümdə məəm öyümdə pilov bişmiyifdi. Dünyanı alıf gətirifdi bu öyə. Yaxşı gətirir, sağlığa yaxşı bir aş bişirir. Diyir: "Kişi, bilirsən nə var?" Diyir: "Yox". Diyir: "Padşah axşam bizə qonax gələjəh". – "Əş, sən nə danışırsan?" Diyir: "Hə, məə aşıx olufdu, bizə qonax gələjəh. Mən aşı dəmə vurajam, yi, qarnıı doyuzdur, bir tərəfdə gizlən. Padşah gələndə mən ona təklif eliyəjəm ki, soyun, əli-ayağı yu, elə, otur. Kəfkiri bir vurajam, iki vurajam, üçüncü kəfkiri mən vuranda sən boğazını arıtdıyıf qapını döyərsən.

Kişi yaxşı yiyir-içir, gizdənir, həyətidi da, bir tərəfdə. Baxır ki, həqiqətən, padşah gəlir. Padşah gəlir çıxır öyə. Ustul çəkif oturanda arvad diyir ki, sən nə təhər oturuş otururs an? Diyir: "Nəyə görə?" Diyir: "Görmüşdüh kişi xeylağı içəri girəndə paltarını soyunar, əlini-ayağını yuyar, onnan sora gəlif oturar". Padşah eləmir tənbəllik, kastumunu-zadını soyunur, asır bir tərəfdən. Əlini-üzünü yuyur, oturur bir tərəfdən. Deyir ki, mən hazır. Diyir: "Sən hazırsan, mən ajam. Bir çörəh yiyəh, onnan sora". Kəfkiri bir vurur, iki vurur, birdən kişi gəlir qapısına, başdıyır qapısını döyməyə. Diyir: "Bu kim olar?" Diyir: "Bəlkə də Allah tərəfi düşüf, ayağın yüngül oluf, ərimdi. Nə bilim? Ərimdən savayı mənim qapımı döyə bilən olmaz". – "Bəs mən nağayrım? Məəm başıma nə oyun aşdın? Mən biyabır olajam". Diyir: "Bir şey olmaz. Gəl bura. Gedəndə bizim inəyimiz boğaz idi, gəl bura pərdə çəkim, pərdənin dalına, sənin başaa bir az qatıx sürtüf bağlıyajam, dur burda. Xəbər alsa, dijəm inəyin balasıdı".

Nəysə, padşahı bağlıyır boğazınnan öyün bir küncünə. Başına da bir az qatıx sürtür, guya təpəldi. Kişi girir içəri, bular öpüşməh, görüşməh, ay aman, ay dad, bəs indi mən gözümün suyunu tökürəm, məə xəbər çatıf ki, gəmi batıf, həccə gedənnər qərq olufdu. Diyir: "Ay arvad, hamı öldü, üş nəfər, iki nəfər qaldı. Bir zülümnən çıxdıx qırağa. Gəlməyə yol pulumuz olmadı, ona görə gejihdik, piyada gəlmişih". Uzun

söhbətdən sora padşah da qulax asır, padşahın ağlı kəsdi, didi: "Dəəsən həqiqidi". – "Əşi, əli-üzü yu, elə, sənin naxışınnan xörəh bişirmişəm. Sən gedənnən hələ qazan ojağa qoymamışdım". Kişi əlini-üzünü yuyur, gəlir oturur. Çörəh yiməyə başdıyanda diyir: "Ay arvad, çörəyə də başdadıx, çörəyin üstünnən durmazdar, günahdı. O küşdəyi nədi, o pərdə-zad nədi öyün içində?" Didi: "Niyə? Sən gedəndə inəyimiz boğaz döyüldü? İnəyimiz balalıyıf, onun balasını qorxuram yerdə qoymamışam ki, oğurruyallar, bağlamışam öyün içinə". Diyir: "Ay arvad, öyün içində heyvan olarmı, sən nə iş görürsən? Uşax işi görürsən". Diyir: "Nə bilim". Diyir: "Yox, durum mən unu aparım anasının yanına bağlıyım, yoxsa çörəh mənim canıma yatmaz". Nəysə, arvad buna zornan çörəyini yidizdirir. Diyir: "Çörəyi yi, sora". Yiyillər, içillər, diyir ki, bunu mən aparım bağlıyım. Diyir: "Get, siftə anasının yanına ağajdan-zaddan vur, elə, onnan sora dananı apar bağla. Nəyə bağlıyajan, orda heş nə yoxdu".

Kişi çıxır çölə. Kişi çıxır, çəkilir bir qarannığa, himləşiflər axı qabaxcadan. Arvad padşaha deyir ki, dur başıı açım, görüm çıxa bilərsənmi? Durur palı-paltarı da burda, alt tuman-köynəhnən, padşah asta qaçana imam qənim olsun, qaçır. Qaçır gedir. Diyir: "Kişi, neçə ildi əynəə təzə kastyum dəyməmişdi. Bax bu da sənin təzə paltarın". Baxır görür ki, bir üş-dörd illik buların azuqəsinə yetdik qızıl, ayan-bayan var. Diyir: "Bu da bizim xaşdıx. Nətərdi?" Diyir: "Arvad, bu işin dalı pis olajaxdı". Diyir: "Heş bir şey olmaz, qorxun olmasın".

Sabaası gün başqa bir qonşudan bir dəst libas alır, gedif bunun baş vəzirinin qapısında durur. Baş vəzir səhərdən axşamatan şikayətə baxır, ora-bura. Nəysə. Elə girib-çıxdıxca da görür bir kadın oturur, qəşənh də bir kadındı. Amma heş bir söz-söhbət dimir. Nəhayət öyünə gedəndə diyir: "Ay qız, burda niyə oturmusan, məə tayallıx sözün-söhbətin?" Diyir: "Bura kimin qapısıdı? Sənin qapındı, səə də tayallıx sözüm var". – "Bəs, niyə dimədin?" Diyir: "Nə dijəm? Burda diyə

billəm?" Diyir: "Buyur, eşidirəm. Sən kimin ayləsisən?" Diyir: "Ayləsi idim". – "Nolufdu?" Diyir: "Ərim hacca getmişdi, hacdan gələndə gəmi qərq olub, ölüb. Başsızam, aj-susuz qalmışam, bir kəsim yoxdu". Vəzir baxır, görür ki, bu simpatişni kadındı da. Diyir ki, yox, axşam gəlirəm sizə. Evin nömrəsi? – "Filan nömrəli öydü". Diyir: "Get, axşam sizə gələjəm, dərdini öydə arxeyin danışarsan". Diyir: "Nə yijən, nə içəjən bizə gəlib? Mənim üş gündü dilimə çörəh dəymir". Çıxardır pul verir xeylax, diyir: "Get nə lazmdı al, xörəh bişir, gələjəm. Gəlir öyə. Yaxşı bazarrıh-zad eliyir, gətirir, diyir: "Kişi, gəl otur ye. Xörəh bişirim, qarnını doyuzdur". Xörəyi bişirir, kişinin qarnını doyuzdurur, diyir: "İndi gənə çəkil gizdən, vəzir gələnnən sonra gəlib qapını adi qayda üzrə döyərsən. Elə eliyərsən şübhəli düşməsin".

Bir qədər vaxtdan sonra baxır ki, hə, həqiqətən gəldi vəzir. Vəzir gəlir çıxır, gənə arvad təklif eliyir, paltarını soyun, əlini-ayağını yu, bir layaxnan otu. Vəzir yazıx da nə bilsin nə kələhdi. Soyunur palını-paltarını, əlini-ayağını yuyur, gəlir oturur. Diyir: "Çox bərk ajmışam, yiməyin hazırdımı?" Diyir: "Hazırdı". Yiməyi gətirir ortalığa, qazanın dibinə bir kəfkir, iki kəfkir, üçüncüdə kişi qapını döyür, başdıyır boğazını arıtdamağa. Vəzir diyir: "Bu kim olar?" Diyir: "Bəlkə ayağın yüngül olufdu, ayləm gəlir. Mənim ayləmdən savayı heş kəs mənim qapımı döyə bilməz". – "Ay aman, ay dad, bəs mən hara gedim, mənim başıma nə oyun aşdın? Mən biyabır olajam, padşahın qəzəbinə gələjəm". Diyir: "Ə, qorxma, sənin də dərdi çəkərih". Deer: "Gəl uzan beşiyə, səni beşiyə bəliyim, üzəə bir ağ çəkim. O gedəndə mən hamilə idim, dijəm ki, uşağımızdı. Görəh bir fürsət tapıf səni buraxajam, çıxıf gedərsən".

Əlacı kəsilir, uzanır uşax beşiyinə, arvad bunu möhkəm-möhkəm sarıyır bura. Dəbərəmməz ki? Yox. Sarıyır, üzünə bir ağ çəkir, qoyur öyün bir qırağına. Qapını açır, kişi girir içəri. Başdıyıllar bir-birini duz kimi yalamağa. – "Ayə, bəs sən

hardeydın? Bir ildi gözüm yolda qalıb. Belə xəbər gəldi ki, ölmüsən". Diyir: "Hə, belə bir şey oldu. Bir-iki nəfər qaldı, çox əzaflar çəkdih, zulumnan birtəri ayaxnan gəlif çıxmışıx. Arvad, mən ajınnan ölürəm, bəlkə yiməyin olar?" – "Sənin naxışınnan sən gedənnən ojağa qazan qoymamışdım. Bu axşam yiməh düzüf qoşmuşam". Oturullar ər-arvad çörəh yiyəndə diyir: "Bıy, ay arvad, xəbər almıram, bu nə beşihdi, bu nə ağdı?" Diyir: "Niyə? Sən gedəndə hamilə döyüldüm mən?" – "Nəyimiz oluf?" Diyir: "Oğlumuz". Diyir: "Lap yaxşı. Arvad, nəkqədər uzundu bunun ayaxları, bu boyda da uşax olarmı?" Deer: "Da indi Allah verdiyi qılçadı da, uzundu". Diyir: "Yox, mən çörəh yiyif qutarana qədər pardıyıf ölərəm, bunun qılçalarını gödəltməh lazımdı". – "Əşi, nətəəri gödəltməh, sən nə nağıl söylüyürsən?" Diyir: "Yox, yox, mən rahat olmaram. Əl mişarı hardadı? Məə gətir, mən bunun qılçalarını kəsif gödəldəjəm". – "A kişi, uşağın da qılçası kəsilərmi?" Didi: "Yox, mən kəsəjəm". Diyir: "Bilmirəm, özün hara qoymusan, get tap, götür gəl, töləyə-zada, hara qoymusansa...". İndi bu burdan çıxmaq isdiyir ki, bu dursun, çıxsın getsin da. Düşür guya tolaya gedir ki, əl mişarı gətirməyə. Vəzir çığırır ki, köpəh qızı, mənim başıma nə oyun aşdın, mən nağarım? Diyir: "Bilmirəm, canaa dərd qayır, dur gör nağayra bilirsən? Düş irədd ol". Durur vəzir beşih də dalında götürülür. Gedir, nəysə, bir kənarda beşiyi özünnən xilas eliyir, gedir öyünə.

Səhər açılır, diyir: "Kişi, gör gənə bir dəst hardan, qonşulardan bir paltar tapırsanmı?" Gedir gənə kişi yazıx bir dəst paltar tapır qonşudan, gətirir. Arvad gənə geyinir, gecinir, gedir bu dəfə vəkilin qapısına. Vəkilin qapısında da adi qayda üzrə dayanır o ki var, axşam olur, vəkil düşüb gedəndə diyir: "Ay qız, mənnih işin var?" Diyir: "Bura sənin qapındı, hər halda sənnih işim var, burda oturmuşam". Diyir: "Bəs səhərdən gəlmisən, niyə dimirsən sözüü?" Diyir: "Sözüm mənim nə olajaydı? Dolana bilmirəm, ayləm mənim hacca

gedif, gələndə gəmi qərq olub gedif, batıf dəryada ölüf. Qalmışam başsız. Baxanım yoxdu, şikayətə gəlmişəm". – "Harda yaşıyırsan?" – "Filan nömrəli öydə". Diyir: "Get, axşam gəlləm, arxeyin danışarıx". Diyir: "Gəlif, yiməh yox, işməh yox, nə yiyif, nə içif, nə danışmax olar?" Çıxardır bir qədər pul verir, diyir: "Get, nə lazımdı al bişir, axşam gələjəm sizə". Gəlir gənə bir yaxşı qazan aşdı bişirir, aş ehtiyatı eliyir. Kişini yedizdirir, içizdirir, deer: "Kişi, gənə adi qayda üzrə gizdənirsən, bu axşam da vəkil olajax qonağımız. Vaxt çatanda, mən aşın kəfkirin vuranda gələrsən". Deer: "Yaxşı".

Gözdüyür kişi, baxır ki, vəkil gəldi, girdi öyə. Evə girənnən sonra, bir xeylax fasilə verir, fasilə verənnən sonra ərli... Vəkil daa uje əlini-ayağını yuyuf arxeyinnəşərmi? Hə. Baxır ki, arvad kəfkiri bir vurur, iki vurur, üçüncüdə kişi qapını döyür. Vəkil diyir: "Bu kimdi?" Diyir: "Ola bilsin, ayağın yüngül olub, ərimdi. Ərimdən savayı kim döyə bilər mənim qapımı". – "Nə oyun aşdın mənim başıma. Mən biyabır olajam, padşahın qəzəbinə gələjəm". Diyir: "Heş bir şey olmaz". – "Məə çarə". Diyir: "Sənin çarən odu ki, gir bu çualın içinə, gedəndə məə tapşırmışdı ki, peçin külünü tullama, səni görən olar. Peçin külünü yığ bir qaba, gələndə özüm tulluyaram. Gir bu çuala, ağzını bağlıyım, xəbər alsa, diyəjəm, o ojağın külüdü. Daa özün tapşırmışdın, çölə çıxma, külü çölə tullama, görən olar səni. Hindi mən də yığmışam da çuala". Əlacı kəsilif vəkilin, girif çuala. Möhkəm-möhkəm bunun ağzını bağlıyır, sürüyür öyün bir küncünə qoyur. Kişi girir içəri, gənə öpüşməh, görüşməh. – "A kişi, sən harda qalmısan bir ildi?" Oluru kimi söhbət eliyillər. Diyir: "Arvad, məni çox sorğu-suala tutma, ajınnan ölürəm, yol adamıyam, yoldan gəlmişəm, yiməyə nəyin var?" Diyir: "Sən gedəndən ojağa qazan qoymamışdım, naxışınnan bu gejə yiməh bişirmişəm". Oturuf yiməh yiməyə başdıyanda kişi diyir ki, u nə çualdı öyün ortasında qoymusan? Diyir: "Niyə, gedəndə tapşırmamışdım ki, külü çölə tullama, səni görən olar. Küldü da, ojağın külü,

yığmışam ora". Diyir: "Dur, ay arvad, bunu dalıma qaldır, aparım tulluyum, yoxsa mənim canıma bu çörəh yatmıjax". – "A kişi, çörəyi yi, qutar, sora zad eliyərsən". Diyir: "Yox, bunu qaldır mənim dalıma". Buların da öyü iki mərtəbəli olur, üst mərtəbədə sürahının üstünə, biz sürahı deyirih, qoyur çualı, diyir: "Ə, aşağıda adam-zad varsa, qaçsın ayna, kül tökürəm, gözünə dolar". Çualın ağzını açır, vəkili təpəsi üstə tulluyur çölə. Vəkil durur birtəri ölüm-zülüm çıxır aradan. Diməli, bunun hayatı da çox möhkəm hayat olur. Buların üçü də, – hayata su keçən keşkal olur barının altınnan, – u keşkaldan keçiflər üçü də. Qeyri yerdən imkan yoxdu girib-çıxmağa.

Bəli. Vəkil də belə ad çıxardır, gedir. Vəkil gedənnən sora səhər açılır, arvad diyir ki, kişi, indi mənə bir dəst başqa libas tap. Çünki daimi libasda getməyə qorxur ki, tanınar. Bir dəst gənə libas tapır. Diyir: "Kişi, buyünnəri axırıncı gündü, da heş hara getmirəm, buları izdəməh lazımdı. Bular hər halda bizi öldürməh üçün bir töhdü tökəjəhlər. Görəh nə məsləhat eliyəjəhlər". Gedir vəkilin qapısına, baxır, görür bağlıdı, yoxdu. Vəzirin qapısına baxır, görür bağlıdı, yoxdu. Diyir: "Bular yığılıfdı məsləhətə". Gedif padşahın qapısına baxanda görür ki, üçü də içəridədi. Vəkil başdıyır, guya bular ikisi sağdı, buna oluf nə olufsa. Nə xəbəri var ki, bunnan qabax bular tora düşüf. Diyir ki, padşah sağ olsun, mən patrdıyıf ölürəm, mənim başıma beyjə bir qəza gəlif. – "Nə qəzadı u heylə?" Diyir ki, hal-hekayət belə. Bir qadın məni aldadıf aparıf, paltarımı, pulumu da əlimdən alıf, məni çox pis vəziyyətdə qooluyuf öyünnən, qaşmışam. Qaşmışam, başımı kutarmışam. İndi gəlmişəm sizin yanıza məsləhat almağa. Buna nə eləməh lazımdı? Vəzir diyir: "Padşah sağ olsun, mən utanırdım diməyə, həmən kadın mənim də başıma belə bir oyun açıfdı", – deyəndə padşah gülür. Diyir ki, ədə, sizdən qabax mənim başıma açıfdı oyunu kadın. – "Ə, heylə şey olmaz". Diyif: "Hə". Diyif: "Bəs buna nağarax?" Vəzir deer ki, kopoğlunun qapısına girməyə yer də yoxdu. Bir su

dəməyinnən çıxmışam – keşkaldan, barının altınnan, ölüm-zulum. Vəkil diyir: "Mən də elə ordan çıxmışam", – diyəndə padşah diyir: "Mən bir az oranı genəltmişəm, birinci mən çıxmışam. Mən çıxanda lap dar idi, əlimnən yeri eşib çıxmışam, bir zulumnan". – "Nağayrax?" Padşah diyir: "Nağayrajayıx? Elə həmin yerdən də girərih. Girif buların ikisini də öldürməh lazımdı. Qeyri bulara cəza düşmür. Çünki nə cəza versəh bu sirr açıla bilər. İkisini də içəridə öldürsəh bu sirr bata bilər. Yoxsa qadın hulqumudu, hardasa danışar, bizə nə lazımdı? Heş nə".

Bəli, bu qərara gəlillərmi? Hə. Arvad asta qaçana göy imam qənim olsun, gəlir öyə. Deer: "Kişi!" Diyir: "Hə". – "Səə üş dəst kostyum yox yerdən tapıb qoşdum?" Diyir: "Hə". Diyir: "Bir iyirmi-otuz illik azuqəmiz – xaşdığımız var?" Diyir: "Hə". Diyir: "İndi bu axşam növbə sənindi. Bu axşamkı əziyyəti də sən çəkərsən". – "Nətəri?" Diyir: "Saat on ikidə olar gəlcəh üçü də bizi öldürməyə. Xoşbaxtlıxdan hayata girməyə yer olmadığına görə üçü də su keşkalınnan keçməli olajaxlar. Ülgücü yaxşı itiliyif durursan su keşkalının içəri tərəfində. Keçəndə birinin burnunu kəsirsən, birinin qulağını kəsirsən, obşim, şikəst eliyirsən oları ki, sirri açа bilməsin, nə də bizə ikinci toxuna bilməsin. Bu iş də səən boynaa düşür, eliyə bilərsənmi?" Diyir: "Hə, lap canını da alaram".

Kişi yiyir, içir, arxeyin, saat on ikinin yarısında gedir durur su keşkalının içəri tərəfində, içində oturur. Baxır ki, gəldilər. Saat on ikidi, gəldilər. Deer ki, vəkil, icazə verin birinci mən girim. Vəzir diyir: "Yox, mən girəjəm". Padşah diyir: "Yox, qoy vəkil girsin". Vəkil başını belə soxuf elə keşkaldan oyzə keçirdəndə bunun burnunu dibdən üzür ülgücnən. Da bilmir burnunu kəsdi. Çıxır, diyir: "Püf, ə, burda nəcis var, nə var, yaman pis iy gəlir burdan". Vəzir diyir: "Ə, qaş bayna, irədd olginən. Pis iy gəlir? Gəlir, başı yanpörtü elə keç". Başını yanpörtu eliyif keşməh isdiyəndə bunun da qulağını dibinnən kəsir. Diyir: "Ə, burda nağara-zurna çalıllar

ki? Bu nə işdi, ə?" Padşah diyir: "Ə, bayna irədd olun görüm, nağara-zurna, unnan sora iy gəlir. Başıızı soxmuyun, qılçazı soxun". Bu qılçalarını soxuf keşməh isdiyir. Bunun şəriətini dibdən sıyırıf tulluyur. Diyir: "Ə, kopoğlu, deyin qazının sünnət toyudu da, niyə bu qədər əzab-əziyyət çəkirsiz?"

Üçünü də şikəst eliyir, salır yola. Bular vəzifə yiyəsidi, bular bunu açа bilməz, ağarda bilməz. Nəhayət aradan bir aya kimi keçənnən sonra arvad gənə gedir. Adi öz libasında, cındır libasda bunun qapısına. İcazə alır, girir içəri. Diyir: "Padşah, nə qədər ömrün var, bura adam göndərəndə boş qayıtsa mənim ehtiyacım ödənməmiş, özünnən küs. Bütün sirrii açajam camaata. Nə qədər ehtiyacım ödənib, elə bilginən ki, bu sirrin bir arşın quyunun dibindədi. Heş kəs bilən döylü". Obşim, ömürlərinin axırına qədər arvad padşahın hesabına bu öyü padşahın öyü kimi dolandırır. Bular da dolanma yolunu bu formu tapıb dolanıllar.

ALDADILMIŞ AYI

Bir günü, diyir, biri dənə ayı okqədər azğınnaşır ki, imkan vermir bir heyvanı ov ovluyuf yiməyə. Hamısı ajınnan poran düşür. Bir gün şir, pələng hamısı çığırır, heyvannarı yığır başına, nə qədər vəşi var. Diyir: "Çarə tapın, u bir dənə ayı bizim imkanımızı kəsifdi. Qızışıf qoymur birimizi ov eliyək, çörək tapax. Buna bir tədbir". Bütün heyvannar diyir: "Ona nə tədbir? O qızmış şey, biz də ajınnan ölürük. Onun tədbiri Allahın əlindədi". Bir qojalmış tülkü varmış. Yüyürüf da doşannan-zaddan tuta bilmirmiş. Qojalıf əldən düşüfdü, ajınnan ölür. Deer ki, indi elliyiz də yox sözünnən barışdız, heyləmi? Diyillər: "Hə". Diyir: "Onda gəlin belə bir iş eliyin. Nə qədər ömrüm qalıfsa, mənim gündə üç öynəlih yiməyimi verin, u ayının tədbirini mən çəkim". Diyəndə şirnən pələng çox möhkəm qəhqəhə çəkir, bu qoja tülküyə gülür. Diyir: "Ə, ayağa dura bilirsən, ölürsən sən. Biz ayıya bir tədbir çəkə bilmirih. Deməli, sən bizdən qüvvəli çıxdın?" Diyir: "İndi söhbət qüvvədə döylü ki, hiylədədi". – "Hə". – "Siz boyun olun azuqəmə, sizə nə boşdu? Onsuz da mən ölürəm. Ya özümü öldürtdürəjəm, ya ayını öldürəjəm. Sizin başızdan rədd elijəm". Fikirrəşillər, diyirlər ki, da onu onsuz da elə düz deyir, bu ölür ajınnan. Ov ovluyammır, bir şey eliyəmmir. Diyək, razı olax. Bəlkə bir iş elijəh. Razı olullar. Diyirlər: "Gündə üç öynə yox, lap beş öynə yisən sənin yiməyini qabağınnan qalınca verəjəyih, tədbir gör".

Tülkü durur soxulur bir kəndə. Gedir girir bir qadının darağını oğurruyur, bir qadının güzgüsünü oğurruyur, götürülür meşəyə. Bilirdi ki, ayı hansı meşədə yaşıyır. Bir yekə palıd ağacının dibində yaşıyırmış ayı, mağarası orda idi. Canını dişinə tutuf gedir ayının mağarasının yanına. Səs eliyə-eliyə gedir ki, beyqəfl çıxıf məni paralıyar. Görür ayı yoxdu mağarada. Darağı, güzgünü bir otduxda gizdiyir, özü də uzanır düz ayının mağarasının ağzında. Ayı gəlir nərildəyə-

nərildəyə: “Sənin neçə ürəyin var mənim mağaramın ağzında durmusan? Səni ajal gətirif bura”. Diyir: “Ajal gətirif, öldür. Səə mənim güjüm çatmaz, bir şey eliyəmməz. Ancax mən bura gəlmişəm səə yaxşılıx eləməyə”. Ayı da gedif meşədə bal tapıf, baldan okqədər yiyif ki, gözdər pırtdıyıf çıxır yerinnən. Qıpqırızı qızarıf. Harın ayıdı da. Nəysə, diyir: “Ə, sən özün nəsən məə yaxşılıx eliyəsən? Bu nə söhbətdi?” Diyir: “Ə, sən elə bir gündəsən ki, üş gün ömrün qalıf sənin”. – “Üş günnən sora nolajax?” Diyir: “Üş günnən sora öləjəhsən”. – “Sən nə danışırsan? Səni bu saat para-para eliyəjəm”. Diyir: “Elə, mən onsuz da bura gələndə bilmişəm ki, sən məni başa büşməsən məni öldürə bilərsən. Ancax özə elijəhsən”. Diyir: “Axı məə nolufdu?” Diyir: “Hələ məə de görüm öz yağızdan varızdı?” Diyir: “Var”. Diyir: “Hə, lap yaxşı. Get o yağızdan gətir məə”. – “Niyirsən öz yağımızı?” Diyir: “A kişi, get gət da. Sənin yağı yimijəm, eləmijəm. Get gətir, diyəjəm sözümü”. Gedir gətirir ayı yağı, öz yağlarınnan. Diyir: “Uzan bu çəmənliyə”. Diyir: “Tülkü, mənim dərdimi məə di, görüm sən mənim başıma nə oyun açırsan?” Diyir: “Onda bircə dəyqə dayan”. Gedir gizdədiyi yerdən güzgünü də gətirir, darağı da. Diyir: “Bu nədi?” Güzgünü tutur ayının sifətinə, diyir: “Gözdərə bax gör nə gündəsən sən. Səni soyux elə alıf ki, üş günə də bəlkə qalmıyasan”. Ayı baxır güzgüyə, görür gözdəri elə bil, doğrudan da, çıxajax yerinnən. – “Mənim çarəm nədi, tez ol eləginən”. Diyir: “Mən də ona görə gəlmişəm da. Sənnən hak istəmirəm, muz istəmirəm. Sənə bu yaxşılığı elijəm, sən də məə icazə ver, dovşannan-zaddan tutum, əyər yüyürüf çata bilsəm, qarnımı doyurum”. – “Müalicə elə, səə icazə verirəm”. Diyir: “Lap yaxşı”. Uzanır ayı, başdıyır ayının öz yağınnan ayını möhkəm yağlıyır. Elə yağlıyır ki, elə bil suya girif. Unnan sora daraxnan yavaş-yavaş darıyır ayını ki, xoşallansın yuxuya getsin. Ayı xoşallanır, yuxuya getdimi? Hə. Bunun burasını ötürdüm. Ayı bunnan xəbər alır ki, ay tülkü qardaş, hamımızın ləqəbi var. Bilirik ki,

sən tülküsən. Ləqəbin nədi? Diyir: “Özüm”. Diyir: “Hə, yaxşı ləqəbdi”. Nəysə, ayı yuxuya gedən kimi yerbəyerdən kirpiti çəkir ayıya. Yağlı bədən od alır. Ayı özün ora çırpır, bura çırpır, əlac olmur, başı karıxır çıxır palıdın başına, başdıyır çığırmağa. Yanır da, alışıf yanır. Ağacın başında böyürür, bütün meşəyə səs yayılır. Pələng, şir söyünür, diyir: “Deyəsən, tülkü bir iş görə bilifdi”. Yığılır gəlir vəşi heyvannar. Buna canı yanıf yox, söyünə-söyünə gəlillər. – “Ə, ayı qardaş, səə nolufdu? Səni kim elədi belə?” Diyir: “Özüm”. Kim xəbər alırsa səni kim elədi belə, diyir: “Özüm”. Diyir: “Özün elədin, elədin da, cəhənnəmə elə, gora elə. Lap yaxşı olufdu. Yan indi orda”. Nəysə. Ayı yanıb həlak olur, buların başınnan irədd olur. Onnan sora gündə iyirmi dəfə yisə, u tülküyə qeyri heyvannar ov ovluyuf gətirir verir ki, halaldı səə, yi. Doğrudan da, adın da tülküdü, özün də tülküsənmiş. Bu da bu.

LOĞMANIN NAĞILI

Deməli aman-zaman iki qardaş olullar. Atası ölində vəsi eləmişdi ki, buyünnən sora mən dünyamı dəyişirəm, atalığı qalır sənin boynunda. Bu uşağa qardaş kimi yox, ata kimi bax. İki qardaşsız. Diyir: "Baş üstə". Gəlir bu kiçih qardaş, nəysə, xəsdə düşür. Elə bir xəstə düşür ki, zır xəsdə. Hara aparır, neyliyir çarəsi olmur. Da o yerə dirənir ki, on günnərlə, on beş günnərlə suyu birtəri bunun boğazınnan keçirdillər. Heç bir şey yimir. Bir gün bir nəfər vasitə olur, səbəbkar, gəlir diyir: "Gəl sənin u qardaşını bir yerdə alim yeri öyrənmişəm, aparax onun yanına. Həm alimdi, həm həkim". Aparıllar. Baxıf görüllər ki, göbəyinin üsdünnən sakqalı qoja bir kişidi. Diyir ki, noluf? Diyir ki, bu neçə illərdi xəsdədi, dərdi nəsə bilən yoxdu. Nə də biz bilmirih. Qalmışıx belə. Baxır diyir ki, mənnən kiçih qardaşım var, söz misalı, Şəmsa kəndində. Gedin ora. Gedillər Şəmsa kəndinə, baxıf görüllər ə, bu axı kiçih qardaşım var dimişdi, bu kişi bunnan da qojadı. Hə. Buna diyillər xəsdənin dərdini, diyir: "Mənnən kiçih qardaşım var, Tofiqi kəndindədi, aparın onun yanına. Onun xəsdəsidi, mənim döylü". Aparıllar Tofiqi kəndinə, söz gəlişi soraxlaşıf tapıllar kişinin öyünü. Kişiyə dərdini diyillər. Xəsdəyə baxır, diyir ki, ayləsinə, dur. Arxın qırağında qoz ağacı var imiş. Diyir: "Aparın arxın qırağında qoz ağacının dibində çarpayı qurun". Aparıf qoz ağacının dibində arxın başında çarpayı qurullar. Diyir: "Aparın, gedin xəsdəni yatızdırın orda". Aparıf xəsdəni yatızdırıllar orda. Qardaşı eşidifmiş ki, qoz ağacının kölgəsi ziyannıdı, zərərlidi. Qəlbinnən keçirdir ki, ə, qoz ağacının kölgəsini mən belə eşitmişəm, burda niyə yatızdırır. Diyir: "Naraxat olma. Mən bilməsəm orda yatızdırmaram. Bunu bura diriltməyə gətirmisən, öldürməyə?" Diyir: "Diriltməyə". Diyir: "Mən də, inşallah, mümkün olana dirildəjəm bunu. Bu nə yiyir?" Diyir: "Əşi, nə yiməkdi u? Suyu güjnən boğazınnan keçirdirih. Yiməh yiyəmmir". Diyir: "Yiyər". Arvada diyir: "Get bir boşqab süddü

aş bişizdir". Bir boşqab süddü aş bişizdirir, gətizdirir xəsdənin yanına. Bir yaxşı şuppa çubuğu alır, xəsdəni dikəldir. Diyir: "Ya u aşı yiyif yaşıjaxsan, ya da səni çubuxnan döyə-döyə öldürəjəm". - "Ay aman, ay dad". Diyir: "A kişi, nə ay aman, ay dad. Bunu yanıma gətmisən, irəd ol get o biri tərəfə. Bunu mən ya sağaltmalıyam, ya öldürməliyəm. Mən adımı batırammaram". Nəysə. Nə zulum-əzabnan yidizdirillər aşı kişiyə. Bir boşqab aşı yidizdirir kişiyə. Yidizdirir, nökərə diyir: "Get bir şortağ1 at gət". Gedir bir şortağ yeriyən atı tutur gətirir, yəhərriyir. Diyir: "İndi bunu möhkəm-möhkəm sarıyın atın belinə". Otuzdurullar bunu, ayağını-qolunu möhkəm sarıyıllar ki, yıxılmasın diyə. Nökərə diyir: "İndi bir yorğa at min, bu atı qat qabağa. Sür Ağdaşa, Ağdaşdan da qaytar bura". Şortağ at, xəsdə adam. Bəli. Qatır qabağına, atı döyə-döyə, kişi də çığıra-çığıra aparır Ağdaşa, Ağdaşdan gətirir kişinin qapısına. Əlinin-ayağının kəndirini açıllar. Bu il ölmüsən, bildir ölmüsən. Qardaşı-zadı başdıyır ağlamağa ki, ölmüyəsi isə, öldürdüh. Diyir: "Ölməz, qorxmuyun". Sizə didim ki, bunu ya öldürməliyəm, ya diriltməliyəm. Mən öz adımı güdürəm, bunun xəsdəliyini yox. Qorxmuyun, heç bir şey olmaz. Yarım saat yaşasa, onnan sora yaşıjax. Bir on dəyqə, on beş dəyqə keçir, başdıyır bu laxta-laxta qan qusur. Üş laxta qan gəlir. Qanları kişi götürür qoyur bir boşqabın içinə. Birincini doğruyur, görür heş nə yoxdu. İkincini doğruyur, görür heş nə yoxdu. Üçüncü laxtanı doğruyanda görür ki, bir dənə arvad başının tükü. Diyir: "Hə, indi muştuluğumu verin. Bax, bu tük idi bunu bu günə qoyan. Bu tük gedif dolanıf cavan vaxtiykən ürəyə. Böyüdühcə, ürək genişləndihcən bu tük ürəyi kəsif ürəyin içinə yol eləmişdi. İndi ujey tük açılıf çıxıf, yara da tədricən sağalıf gedəjəh. Onnan qorxu yoxdu". Bəli. Bir üş gün saxlıyır, üş günnən sora xəsdə özü dillənir: "Məə yiməh-içməh verin". Yeyir-içir bir neçə gün kişinin öyündə. Diyir: "İndi götürün gedin. Mümkünüz varsa, yaxşı yağlı yiməh yidizdirin ki, u yara tez sağalsın". U kişi unu u formu sağaldır verir bulara. Götürür gəlir. Bu da belə.

ARZUOLUNMAZ KÜRƏKƏN

Bu nağılı mən tam yiyif-içəndə, kefimiz kökələndə danışıram. Orda məclisdə çəkilirik bir qırağa, orda xayiş eliyillər da gülək, bir güləmli söhbət.. Heylə yerdə belələri var, danışıram.

Bir kişi köçəri olur, tərəkəmə deyirik biz. Elə bil ki, bu rayonun köçərisiylə, o biri rayonun köçərisi hamısı gedillər dağa. Gedif gəlir, yolda tanışlaşıllar, dağda tanışlaşıllar. Sən hansı rayondansan, bərdəliyəm, mən hansı rayondanam, yevlaxlıyam. Bu tanışlıxla əlaqədar olarax, bərdəlinin qızını yevlaxlı alır oğluna. Nişan qoyullar. Nişan qoyulannan bir müddət keçir, dağdan enif gəlillər. İndi toy elijəhlər. Bərk də, diyir, şehləmişdi, qəşənh, göy otduğ idi, çəmənnik idi. Boş düz idi, əkin-zad yox idi. Bir-birisinə yaxın düşmüşdülər, araları elə bil, bir kilometr olardı. Alaçıxlar tikilif, səhərdi. Axşam kişi fikirrəşir, ailəsinə diyir ki, o ailə bizə tay gələn deyil, səhvə yol vermişik. Bu qohumluğu pozmalıyıx. Elə eləmək lazımdır ki, taxsır bizdə olmasın, taxsır onnarda olsun. Onnar tərəfdən pozulsun, biz tərəfdən yox.

Səhər-səhər idi, diyir, sac asmışdı arvad, qızın anası, çörəh bişirəjəydi. Nişannı oğlan gedir bunnara, şehləmişdi diyir. Arvad görür ki, gələcək kürəkəni gəlir. Keçir evə ki, döşəh gətirif salsın onun altına. O gəlincə bu sajın yanına çatıf şehli, göy otun üsdündə oturur. Arvad əlində döşəh gəlir. - "Ay bala, ay bala, dur ayağa". - "Nədir?" Deyir ki, ay bala, döşəh qoyum yer şehdi, qarnın ağrıyar. Deyir: "Ay rəhmətdiyin qızı, götümdə döşəhdən qalın qıl var". Arvad hirslənir: "Ə, bu mənnən qohum olmax isdiyir, bu belə biədəb danışır. Bu nə mərifətsiz adamdı, bunnan qohum olmax olmaz". Uje burda bünövrəsin qoydu, nə mərifətsiz adamdı, bunnan qohum olmax olmaz. - "Ə, bunun böyüyü var, kiçiyi var, bu nə qanmaz adammış". Arvad dilxor olur, bu yandan da peşman olur ki, qızı niyə buna verdik. Bu hələ evlənmiyif ağzına gələni danışır

mənim yanımda. Gedim böyüyünə deyim ağzına bir qapaz vursun da.

Gəlir, diyir, böyük qardaşı qoyunu yaymışdı, özü isə ağaca söykənif durmuşdu. Görür ki, arvad hirsdi-hirsdi, saj da ocağın üstündə, tüsdü götürüf oranı, qoyuf gəlir. Çatır: "A bajı, noluf səhər-səhər, xeyirdimi?" Deyir: "Ə, siz nə murdar adamlarsız, sizinlə mən gəlif qohum oluram. Nə mərifətsiz, qanacaxsız adamlarsız, ə!" Deyir: "Ay xala, əməlli danış, u nə sözdü, bizi niyə təhqir eliyirsən?" Deyir: "Təhqir olunmalı adamlarsız". Deyir: "Nolub, ey?" Deyir: "Ay bala, bu qanmazınızı qandırın". - "Ay bajı, qanmazımız nağarıf?" - "Nağarajax ki? Gəlir, yer göm-göy ot, şeh-su, gedirəm döşəh gətirəm altına qoymağa, döşəyi qəbul eləmir ki, neynirəm döşəyi, götümdə döşəhdən qalın qıl var. Belə söz olar? Biz hələ qohum olmamışıx. Belə olsa, bizim qohumluğumuz tutmuyajax". Deyir: "Aaz, nə danışırsan sən, pox yeyir. Dünən onun götünü s..mişəm, onun götündə qıl nə gəzir". Arvad hirsdənir ki, bunun böyüyü gör nə danışdı. Əli üzülür hər şeydən, diyir: "Gedim atasına diyim, bulara heç olmasa mərifət, qanacax versin".

Diyir, kişi at ilxısının böyründə duruf baxır. Arvad tumanıın balağıın alır əlinə, qaçır kişinin yanına. Kişi diyir ki, a bajı, özüü nə həlak edirsən, nədi, niyə gəlmisən? Diyir: "Ə, bajın ölsün sənin, mərifətsiz köpəkuşağı". - "A bajı, əməlli danış, bizi niyə biabır eliyirsən? Dərdin nədi?" Diyir: "Dərdim nə olajax, ə? Oğlun gəlif, döşəh qoyuram, diyir götümdə döşəhdən qalın qıl var, döşəyi götürmur". Gəlif böyüyünə deyirəm, böyüyü deyir, onun götündə qıl nə gəzir, onu belə-belə eləmişəm. Nətəər uşaxlardı bular? Bulara öyüd ver, nəsiyyət ver". Deyir: "A bajı, Allah uların layağıın versin. Dağda dana s..irdim, hürkütdülər, dana s..imi qırmışdı" - deyəndə arvadın təpəsindən tüsdü çıxır. Ürəyində qəti qərar verir ki, qız vermək yoxdu da. Bular insan döyül.

Baxıf görür ki, alaçığın qabağında qızının gələcək

qayınanası saj asır. Bular çölçülərdi da, gündəlik yuxa bişirillər. Arvad da baxırdı, diyir: "Görəsən noluf?" Taa əlacı hər şeydən kəsilir, tərpənir arvada şikayət eləməyə. Çatır arvada. Arvad diyir: "A başaa dönüm, noluf, nə vurhavurdu, ora yürürsən, bura yürürsən? Nə dərdin var?" Deyir: "Aaz, bajın ölsün sənin, siz nə murdar adamlarsız, siz nə mərifətsiz adamlarsız. Aaz, siz heş salam verməli adamlar da döyülsüz. Siz insan döyülsüz ey. Bajı, bir də mənim qapımı açmayın, mənim qapıma gəlməyin. Mənim sizə veriləsi qızım yoxdu, qurtardım sizinlə". - "Aaz, niyə biz insan döyülük, əməlli danış, dərdini de". - "Aaz, nə dərdimi deyəjəm. Balaca oğlun gəlir, belə deyirəm, mənə belə cavab verir. Gəlirəm böyük qardaşına diyirəm, belə cavab verir. Atasına diyirəm, atası belə cavab verir. Siz nətəər murdar millətsiniz"- deyəndə arvad oxloyu əlində tutmuşdu. Oxloyu hərriyir, ujun soxur götünə, çıxardır, uzadır bunun burnuna. Deyir: "İylə, onların dərdini çəkməhdən içim iylənif". Qayıdır öyə, qəti qərar verir ki, daa qızı bulara vermək yoxdu. Daa bunnan da bunnarın qohumluğu pozulur.

FƏRASƏTLİ QARDAŞLAR

Bir kişinin üç oğlu olur, ailəsi, bir də özü olur. Kişi ovçuluxnan məşğul olurdu. Ovda da helə bir gəlir yox idi. Dərinin birini yetmiş köpüyə alırdılar. Ovdan gələndə bu çox korruxlanır, çox gəzir piyada, ailəni çətin dolandırır. Oğlannarı da iriləşifdilər, oğlannarı da gedir ova. Bular heç ov ovlamağın girəvəsini* bilmillər: harda durmax lazımdı, harda ovlamax lazımdı. Ailədə ehtiyac çoxdu. Fikirrəşir ki, ailənin xətrinə əyri yola düşsün. Deyir bir gün patcahın imarətinin yanınnan keçəndə görür ki, xəzinənin abuşkası açıxdı. Fikirrəşir ki, yəqin yaddan çıxıb qalıb ey açıx. Qarannıx düşmüşdü. Abuşkanın açıx qalması cəlb edir bunu. Deməli, abuşka açıxdı, oğurruğa gəlmək olar. Abuşkanın açıx olmasının mənası bu idi ki, oğrunu tutmax. Abuşkanın içərisinnən patcah dərin bir quyu qazdırmışdı, insanın qurşağına qədər, içini də qırnan doldurmuşdu ki, oğru gəlib abuşkadan özünü atanda düşsün bura. Bunu yazıx kişi bilmirdi. Gəlir öyə oğlannarını yığır belə, deyir: "Mən yaşamasam da olar, sizin yaşamağınız üçün patcahın xəzinəsinin abuşkası açıxdı, gedəjəm oğurruğa, bir az qızıldan-zaddan gətirim, siz yaxşı yaşıyın. Amma ola bilər ki, məni tutallar, saat birəcən gəlməsəm mənim dalımca gəlin. Demək, ya tutulmuşam, ya da yüküm ağırraşıb". Kişi durur, o vaxd patava olub, patavasının qatmasını bərkidir, birdən-ikidən oğurruğa getməmiş adam, abuşkanı açıx görür, içəridə qızıllar hamısı işıx salır. Təntimiş adam, abuşkadan özünü atır. Atan kimi düşür quyuya, bircə çiyinnəri qalır çöldə bunun.

Oğlannarı gözdüyür gəlmir, durub gedillər. Görür kölgə düşür, deyir: "Oğlannarım, sizsiniz, gəldiniz?" Deyir: "Hə, gəldik". Deyir: "Ehtiyatdı olun, mənnən təxminən yarım metr buyza qurudu. Mən elə vəziyyətə düşmüşəm ki, daa burdan çıxası deyiləm. Ya ölüb çıxajam, ya da qaldım burda". Böyük oğluna diyir ki, sən ayağıı qoy çiynimə keç xəzinəyə". Böyük oğlu ayağını qoyur kişinin çiyninə addıyır xəzinəyə. Ortancıla

deyir: "Sən də keç". Kiçiyə deyir: "Sən də keç". Üçü də keçir. Deyir: "Yığın, nə qədər yığırsız yığın". Nə qədər gücü çatır yığıllar. Qayıdanda böyük oğluna diyir: "Oğul, burda məni tutajaxlar, sizin hamınızı gülləliyəjəhlər. Gedirsən başımı kəs, götür, get, bilən olmasın ki, mən kiməm". Deyir: "Ata, onu mən eliyə bilmərəm". Deyir: "Onda keç". Ayağını qoyur kişinin çiyninə çıxır çölə. Ortancıl gəlir, ortancıla deyir: "Oğul, sabahları məni burda tutajaxlar, biləjəhdilər sizin atanızam, sizi çox incidəjəhlər. Başımı kəs, götür, get, cəsədimi tanıyan olmasın". Deyir: "Yox, ata, mən onu eliyə bilmərəm". Bu da addıyır çölə çıxır. İndi kiçik gəlir. Kiçiyə deyir: "Olar cəsarət etmədilər, sizin üçünüzü də asdırajax şah darvazanın bir tayınnan. Başımı kəs götür get, tanıyan olmasın, apardığınızı dinc yeyin-için da". Deyir: "Yox, ata, mən onu edə bilmərəm". Deyir: "Yaxşı, keç". Bu da keçir, deyir: "Getmiyin, dayanın". Dayanıllar. - "Sabahları patcah məni burdan çıxartdırajax, parça-parça doğratdırıb aparıb düzə tullatdırajax ki, quşdar yesin, həmi də mənim sahibim gəlsin ağlasın. Ağlıyanda bilsinnər ki, kimdi mənim yiyəm. Anana tapşır, birdən ora gələr ha! Heş biriniz gəlmiyin. Neçə gün cəsədim o çöldə qalsa, quzğunnar tikə-tikə eliyib aparsa gəlmiyin". Vəsiyyətin eliyir, diyir: "Çıxın gedin". Oğlannarı gedir.

Sabah açılır, Allah hamının sabahını xeyirə açsın. Xəzinədar gəlir, hər gün yoxluyurdu, görür ki, qırın içində bir adam var. Patcaha xəbər göndərir ki, patcah sağ olsun, bir nəfər gəlibdi oğurruğa, xəzinənin yarısını da aparıblar, düşüb qalıb qırın içində. Diyir: "Çıxartdırın gətirin". Çıxardıllar bunu burdan. Bunun başını kəsdirib, başı da üsdündə tullatdırır imarətindən bir qədər aralı. Görüllər bunu, arvad da görür, uşaxları da görür ki, kişini öldürüb atıblar ora. Heş birisi getmir. Burda söhbət cırraşır, danışmax məqsədəuyğun deyil.

- Eybi yoxdu dayı, necə eşitmisiz danışın.

Patcah biliciləri çağırır, diyir ki, sınaxdan keçirin bildiyinizi. Xəzinəni kim yarıb tapın. Tapa bilmillər.

Ağsakqalları çağırır, qarasakqalları çağırır, əmələ gəlmir. Əl atır ipək qarılara, köpək qarılara, burdan da bir şey çıxmır. Bunun deyir üş qızı vardı. Qızdar deyir: "Ata, niyə narahat olursan, biz o oğruları taparıx". Ortancıl qız gəlir qabağa, deyir: "Ata, car vur, meşədə böyük bir tala var, u talada mən əlli dəvə yükü qızılnan gejəliyəjəm. Heş kəs saat on ikidən sora çölə çıxmasın. Pusquda adam qoyarsan oğrular gələndə tutallar". Hətda, diyir, hasar da çəkilmişdi, hasarın qapısı da var idi. Qapıçı qapını bağlıyır, əlli dəvə yükü qızılı çəkir, tam yiyəsizdik idi. Bu talada bu axşamlıyası olur. Qoşun talanı mühasirəyə alır padşahın qoşunu ki, oğru gələndə tutsun. Sərvan - dəvənin yedəyini çəkən oturmuşdu dəvənin üsdündə, yuxluyurdu. Tez-tez dəvənin ipini çəkirdi ki, görsün dəvə burdadı. Dəvə getsə o biri dəvələr də getcəh, qız da. Qız dəvədən gejədən xeylağ keçənnən sora düşür, ta yuxluyurdu. Deyir: "Mən düşürəm". Düşüllər, yer salıllar, yatır. Arxası üsdə yatmışdı, ayın işığını qaytarırdı, o qədər gözəl idi. Gecədən bir qədər keçənnən sora qoşun gedir yuxuya. Bular hasardan keçillər içəri, camaata qoşulullar, bularla deyib-danışıllar. Kiçik qardaş böyüyə deyir ki, gedib o qızı öpəjəm. Deyir: "Ə, qırdırarsan bizi, qoy görək". Qız oyax idi, oğlan yaxınnaşır, bir əlini bu üzdən qoyur, bir əlini o üzdən, toxunmasın deyə, üzünnən öpəndə qızın əlində qaçı vardı, qaçıynan bunun bığının yarısını kəsir. Bu heş duymur. Qayıdır gəlir, diyir: "Öpdüm, heş bilmədi". Diyir: "Nə bilmədi, ə, səni damğalıyıb ey, sənin xəbərin yoxdu". Nağarax, nağarax, qaçını götürüb nə qədər bığlı adam var bığının yarısını bunki fason kəsillər. Qızı ehmalca götürüb aşırdıllar dəvənin belinə, dəvənin kəndirini kəsib bir daşa bağlıyıllar. Dəvənin yedəyini çəkir, qalan dəvələr də dalınca ehmalca qapıdan çıxıllar. Dəvələr də çıxır, qız da, götürüb gedillər. Sabah açılır, xəbər gedir paccaha ki, dəvələr də gedib, qız da gedib, amma oğruya nişanə vurublar. Qapını açıllar, diyillər: "Kimin bığı bütöydü çıxsın, kimin bığı paradı qalsın". Görüllər ki, hamının bığının

parası kəsikdi. Patcah daha da hiddətlənir. Patcah nə qədər qoşun başçısı vardı, nə qədər əyannar, nə qədər ipək qarı, köpək qarı hamısını yığır. Deyir: "Yox ey, olar tapılmalıdı".

Bular axtarışda olsun, oğlannar qızı da götürüb gəlillər öyə. Dəvələr tutular deyə doğruyullar hamısını. İndi beş dəvə, üş dəvə olur, mən əlliyə yaxın dəvə demişəm. Söhbətdə də əlliyə yaxın dəvə deyilib, bəlkə də şişirdillər nağılda. Görünür bəlkə də əlli dəvə olub, amma əlli dəvəni kim kəsə. Yığıllar pəyəyə ki, dəvələr çıxıb eliyər, görən olar. Qızı da kəbin eliyillər böyük qardaşa, ailə qurur bunnan. Özdəri ovlarınnan məşğul olullar, analarına tapşırıllar ki, qapını açmırsan, öyə adam buraxmırsan, çaaranda öydə heş kəs yoxdu sözünnən başqa bir kəlmə demirsən. Həyətə heş kəsi buraxmırsan.

Deyir, ova gedirdilər öz qaydaları üzrə. Gələndə də dəvələrin ətinnən bişirirdilər, yeyirdilər. Yeraltı dam var idi, damın tirlərinnən asmışdılar dəvələrin ətini ki, xarab olmasın. Bir gün nəpək qarılardan biri patcaha deyir ki, mən taparam o oğruları. Deyir: "Sən oğruları taparsansa, tərəzinin bir gözünə sən özün qoyulacaxasan, bir gözünə də qızıl-gümüş qoyulacax. Bu qədər hakqın var, tapsan. Qarı tumanının balağını sancır. - Balağ sancardılar, indi olmasın. Tumanının ətəyini yığışdırardı qıvrax olsun deyə. - Sancır tumanı düşür yola. Dəsmal çəkir hönkürüb ağlıya-ağlıya kənddəri başdıyır gəzməyə. Kim bunnan soruşur nolub, deyir: "On səkkiz yaşında oğlum var, xəsdədi, ölür. Həkim ona dəvə əti buyurub. Bircə tikə dəvə əti olsa o sağalar. Dolana-dolana gəlib çıxır bu oğruların həyətinə. Ana görür darvazanın dalında bir kadın ucadan ah-vay çəkib ağlıyır. Ürəyi yuxa idi ananın, dayana bilmir, yaxınnaşır qapıya, qapını açır, görür ki, bir qoja qarıdı. - "Ay ana, nolub?" Deyir ki, bəs bir oğlum var, on səkkiz yaşında, gözümün ağı-qarasıdı, ölür. Ona həkim dəvə əti buyurub, birjə tikə olsa ölməz". Ürəyinin yumuşaxlığınnan yoxdu deyə bilmir, deyir: "Gəl içəri". Gəlir içəri qarı, uje görür ki, burda işıx uju var. Pəyələr bizdə yeraltı olub. Uzun pəyə idi, iyirmi metr

uzunnuğu. Bunu salır pəyəyə. Qarı içəri girəndə qarıya bu səhnə lazım idi, görür ki, dəvələri şakqalıyıb asıbdılar. Diyir ki, a bajı, bu nədi? Diyir: "Aaz, heç kimə demə, patcahın qızı da, dəvələri də bizdədi, böyük oğluma kəbin eləmişih, ailə qurublar. Bax, heş kimə demə ha! Nə qədər isdiyirsən sənə dəvə əti verim. Bir bud götür apar". Deyir: "Neynirəm aaz, mənə bir tikə lazımdı". Yox aaz, bir az da, bir az da, arvad tikə-tikə ətdən kəsir, canıyanannıx eliyir. Oğlannarın ovdan gələn vaxdı idi. Ovdan gələndə həmişə dokqazdarına baxırdılar ki, görək bir hadisə olmayıb ki. Qarı, diyir, çox tələsiyirdi tez burdan getsin. Görüllər ki, qapı açıldı, içəridən kadın çıxdı iti sürətlə. Binokulla baxırdılar, elə-belə görünməzdi, aralı idi. Böyük qardaş diyir: "İçəridən kimsə çıxdı bərk getdi". Bu, deyir, atın başın boşduyur. Atın başın keşmişdə kişilər saxlıyırdılar ki, at toxdax olsun. Atın başın buraxdı ki, at sərbəsd getsin. Heş deyir bir dəyqə çəkmədi arvadın başının üsdünü kəsdilər. Təxminən arvad bir on metr aralanmışdı öydən. Dedi: "Ay ana, hardan gəlirsən, hayana gedirsən, kimsən, nəçisən?" Deyir: "Allah bajıma kömək olsun, oğlum ölür, məni ləngitmə oğul, dəvə əti arzulayır. Bu öyün yiyəsi verif ki, aparım verim dirilsin". Deyir: "Ay ana, ver, baxım görüm nə verib?" Deyir: "Budu". Deyir: "A qanmır o, axmax arvaddı, bir elə ətdən verdiyi ətə bax. Qayıt götür". Arvad getmək isdəyir, bu qoymur. - "Ay oğul, bəsdi, başına dönüm". Deyir: "Aaz, adam qızısan, qayıt". Qaytarır, elə içəri girən kimi qılışnan vurur. Qarı da getdi, gəlmədi.

Paccahın əlacı kəsilir, götürüf elan vurdurur. Elan verir ki, mən oğruları tapmıram, oğrular öz ayağıynan gəlib çıxsa mən oları bağışdıyaram. Elanı oxuyub oğlannar gəlillər. Üçü də gəlib deyillər: "Dəvələri də biz aparmışıx, qız da bizdədi, xəzinəni yaran da bizih, orda qalan cəsəd atamızındı, qızıllar bizdədi filan.

Patcahlar patcahı İranda otururmuş. Bu diyir ki, baş patcahdan məktub gətirin ki, həqiqi oğrular sizsiz. Öyrənillər

ki, patcah yatanda bu imarətdə yatır. Pusquda durullar ki, o nə cür gəlir, neçə nəfərnən gəlir. Görüllər ki, gejədən xeyli keçənnən sora bir nəfər pəhlivan bunu gətirdi. Qapının böyründə düymə var, düyməni basan kimi qapı açıldı. Keşdilər içəri, qapı örtüldü. Təxminən saat yarım çəkdi, ondan sora bu gələn şəxs çıxdı çölə qapının düyməsini basdı, qapı bağlandı. Gejədən xeyli keçənnən sora bular da yaxınnaşıllar qapıya, qapının düyməsini basıllar, qapı açılır. Keçillər içəri. Beləcə otuz dokquz qapı açıllar, qırxıncı qapıda görüllər paccah burdadı, yatıb. Bular, diyir, zınqırov, tısbağa çanağı, şeytan çanağı, cındır-cundur paltarda böyük qardaşı bəziyillər. Böyük qardaş girir içəri, patcahın yatağının başında ayağını bərk vurur yerə, bu çanaxlar bir-birinə dəyib səs eliyir. Eybəcər bir gurultu əmələ gələndə patcah gözüün açır, görür başının üsdündə adama oxşamayan bir şəxs var. -"Bismillah, bismillah," - deyir. Deyir ki, bismillah demə, o dünyadan gəlmişəm mən. Səni o dünyaya paccahların patcahı seçiblər onçün gəlmişəm". Deyir ki, axı mənim vəzifəm var, taxtayam, yerimi bir adama verməliyəm. Deyir ki, onda sabah saat on ikiyədək səə vaxd veririk. Vəzifəni təhvil verərsən, gələrsən filan meşəyə. Səni tabuta qoyallar, eşşəyin belinə sarıyallar, sən öz xoduna gələjəhsən o dünyaya. Oratan gətirib qoysunnar getsinnər, sən qeybinnən gələssən". Belə təpiyin vurub yerə, qozaların silkələdir, çıxır çölə.

Sabah açılır, patcah qəzəb donunu geyinir çıxır taxta. Demək bilillər ki, nəysə bir dəyişiklik var. Paccah qəzəb donunu geyinib, yəqin kiməsə ajığı tutub. Çağırır bütün əyannarını, başqa ölkələrin paccahlarını, deyir: "Məni o dünyada patcahlar paccahı seçiblər, getməsəm olmaz". Bir nəfər qohumlarınnan öz yerinə seçir. Demək bu tabut düzəldir, hal-xoş eliyir, halallıx eliyir, yerini təhvil verir, uzanır tabuta, deyir: "Məni filan yerə qoyarsız, mən qeybimdən gedəjəm". İki nəfər tabutun ağzını mismarlıyır, eşşəyin üsdünə möhkəm sarıyıb qatıllar qabağına, oğrular deyən yerə qoyub qayıdıllar.

Oğrular ulağı qatırlar qabağına gətirillər. Eşşəh getdikcə tabut yellənirdi. İçində əsniyir, diyir: "Bəh-bəh-bəh, bu dünyanın yolları da yüürühdü, yolları da yüürühdü", - deyə-deyə gəlir. Gətirirlər tabutu, paccahın taxtının qabağında tabutu qoyurlar. Patcah diyir: "Bu nədi, belə?" - " Sən demişdin kağız gətir, biz özünü gətirmişih". Qapağı açanda paccah içəridən deyir: "Burda heş kim hökm eliyə bilməz, buranın patcahlar paccahı mənəm" - deyəndə baxır görür ki, bu ölkənin patcahı burdadı, tanıyırdı. Gəldiyi ölkənin paccahı deyir: "Səni oğrular gətirib, ay zalım. Həqiqətən oğru olduxlarını isbata keçirmək üçün səni oğurruyub gətiriblər".

Bu ölkənin patcahı oğlannardan birini vəzir qoyur, birini qoşun başçısı götürür, birini də vəkil götürür. Bu minvalla yaşıyırlar. Yaşıyannarı yaşasın, ölənnərə Allah rəhmət eləsin. Bunnan da nağıl bitir.

DİLİMİ YAXŞILIĞA ÖYRƏDİRƏM

Bir oğlan uşağı oduna getmişdi meşəyə. Tamax eliyir, çox doğruyur odunu, ulağa çox yüklüyür. Yağış da, deyir, yağmışdı, surunçax idi. Gələndə, deyir, ulax... Yer çala-çökür idi, görünür orda xəndək də oluf. Bu yerlərdə qəndək deyillər, bizlərdə xəndək. Demək, bu xəndəkdən keçəndə ulağın ayağı sürüşüf yıxılıf. Uşax indi güjü çatası döylü bu ulağı qalxıza. Bu dəmdə padşah da vəziriynən çıxmışdı gəzməyə. Gəzməhdən qayıdanda, gəlif burdan keçəndə görüllər ki, bir odun yüklü ulax yıxılıf yerə, uşax da boynun qucaxlıyıf yalvarır: "Dədəm sənə qurban, dur, nənəm sənə qurban, dur, başına dönüm, dur". Padşah çönür vəzirə baxır: -"A vəzir, bu nə deməkdi, yalvarmaxnan heyvan qalxar?" Deyir: "Padşah sağ olsun, özünnən soruşax". Deyir: "Soruş". Deyir: "Ay oğlan, yalvarmaxnan o ulax durandı o yükün altınnan?" Deyir: "Əmi, bilirəm ey durmaz, amma mən dilimi mehribançılığa öyrədirəm". Dilimi mehribançılığa öyrədirəm sözünü eşidəndə bu padşaha böyük dərs olur ki, bu uşax dilini mehribançılığa öyrədir, mən də kəsməhdən, öldürməhdən, asmaxdan danışıram. Vəzirə deyir: "Düş, vəzir, atdan". Düşür. Ulağın yükün açıf qoyullar yerə, ulax qalxır, odunu yüklüyüllər. Uşağa diir ki, o sözü hər gün gəlib mənə deyərsən, mənnən bir qızıl onnux alarsan. Yəni unutmuyum da o sözü, dilimi mehribançılığa mən də öyrədə bilim.

Uşax gəlir, odunu boşaldır, eliyir, anasına deyir ki, bu günnən mən oduna getmiyəjəm. - "Ay oğul, noldu?" Deyir: "Mən bu günnən padşahın qonağı olajam, hər gün padşahın otağında oturajam, onun əyannarının söhbətinə qulax asajam, gündə mənə onnux qızıl verəjəh, dolanajayıx". Bu sözü eşidəndə - paxıllığa gəlir bu söz - ağsakqal bir qonşu yatmışdı deyir, aman-zaman bircə dənə qoja inəkləri vardı. Arvad girir içəri, bunu bərk silkəliyir. "Qalx," - deyir. Diyir: "Nədi?" Uşax deyəndə eşidir də bu. Deyir: "Qalx, sən də get, dilimi mehribançılığa öyrədirəm de, sən də gündə bir onnux qızıl al". Bu da qalxır, evdə tir-dirək qalmır, hamısını yüklüyür ulağa, qatır qabağına. Padşahın imarətinin qabağınnan keçəndə ağacı ilişdirir ulağın qıçına, ulax yıxılır. Başını qucaxlıyır yalvarır. Deyır, padşah baxıf görür, ə, qoya bir kişi ulağı yüklü gedirdi, ağacı ilişdirif yıxdı, indi uzanıf böyründə. Qulluxçunun birini göndərir ki, gör orda nə oluf, bir xəbər gətir. Gedir, gəlir deyir: "Padşah sağ olsun, qoja kişidi, yüklü olduğunnan ulağı yıxılıfdı, o da yanında uzanıf ağlayır, yalvarır". Deyir: "Get, gətir onu bura!" Gəlif aparıflar. Deyir: "Nağarırsan orda, ay qoja?" Deyir ki, ulağa yalvarıram dursun. Deyir: "Ə, yalvarmaxnan ulax durar?" Deyir: "Bilirəm ey durmaz, dilimi mehribançılığa öyrədirəm". Ordan cəlladı çağırır, deyir: "Yüz dənə çubux kəsin". Cəza tədbiri imiş ey bu. Yüz dənə çubuğu kəsif gətirir, qandalağı salır ayağına. Deyir ki, sən bu yaşında dilini indi öyrədirsən mehribançılığa? O qədər döyüllər, döyüllər, sürüyüf aparıllar atıllar küçəyə. Yiyəsi gəlif sürüyüf aparır. Paxılın goru cəhənnəmə sözü burdan çıxır.

Uşax, diyir, gündə gəlir padşahın qulağına bu sözü deyif gündə bir qızıl alırdı. Padşahın ən tərifli vəziri heç gündə bir qızıl almırdı. Özü də tərs kimi də vəzirə göstəriş verir ki, sən verərsən bunun hakqını. Vəzir indi gündə bir qızıl buna hak verir. Bir gün uşax gələndə vəzir çıxır qabağına, deyir: "Gəlmə. Gəlif padşahın qulağına söz demə". Deyir: "Niyə?" Deyir: "Padşah deyir ki, o bir də gəlif mənim qulağıma söz desə onun boynunu vurdurajam. O mənim qulağıma söz deyəndə tənəffüsündən pis iy gəlir. Uşax səhərisi gəlmir. Gözdüyür, gözdüyür, gəlmir. Vəzirdən soruşur: "Bu uşax niyə gəlmir?" Deyir: "O uşağı mən gördüm küçədə, deyir padşahın qulağınnan pis iy gəlir, ona söz deyəndə mən iyrənirəm. Padşah qəzəblənir: "Uşağı gətirin". Uşağı tapıllar, gətirillər. Deyir: "Niyə gəlmirdin iki gün?" Deyir ki, padşahı-aləm sağ olsun, mən gələndə vəzir mənə dedi ki, səən tənəffüsünnən... O gün də mən sarımsax yemişdim, bəlkə də tənəffüsümdən

gəlirdi o iy, ona görə gəlmədim. Vəzir mənə demişdi ki, guya sən mənim tənəffüsümdən iyrənirsən. Padşah görür ki, vəzir həmin sözü də gəlif ona deyif. Vəziri çağırır deyir ki, bu günnən bunun hakqını artırdım. Sən verəcəksən, gündə iki onnux qızıl verəcəksən. Vəzirin, deyir, pulu yox idi. Most bankda pulu vardı. Bir gün pulu olmur verməyə, götürür qəbz yazır Most banka ki, Most bank adıyla cəllada yazır ki, bu uşax ora çatan kimi boynunu vur. Uşax, deyir, tələsih əlində kağız gedirdi. Amma bu, vəzirin oğlu ilə dosdlux edirdi. Vəzirin oğlu çıxır bunun qabağına, deyir: "Hara gedirsən?" Deyir: "Bu gün pulumu ala bilməmişəm, kağız veriflər, gedib verib pulumu alıf gəlirəm bu saat". Dartıf zornan bu kağızı bunun əlinnən alır, deyir: "Ə, sən dayan, mən gedim alım gətirim". İndi vəzirin oğlu götürür kağızı gedir. Oxuyan kimi boynunu vururlar.

Vəzir görür ki, sən öləsən, budey, uşax gəlir. - "A bala, noldu, dünən hara getdin?" Didi ki, əmi, dünən mənə kağız yazıf verdiniz ey, gedirdim onu almağa, sənin oğlun çıxdı mənim qabağıma, o kağızı zornan mənnən alıf özü çıxdı getdi. İndi onnan gəlif çıxmayıf, pulumu da gətirmədi. Vəzir duyux düşür ki, hə, uşağının boynun vuruflar. Onunçün deyillər, dərin qaz, gen qaz, özün düşərsən. Bunnan da söhbət bitir.

KEÇƏLLƏ KOSANIN NAĞILI

Bir gün keçəlnən kosa səfərə çıxası olullar. Səfərə çıxanda yol azuqəsi götürüllərmiş. Yol nə qədər uzax olursa, buların azuqəsi qutarır. Yemək qutarır, yaxınnaşıllar kənddə bir öyə. Görüllər ki, dokqazda uşaxlar oynuyur. Kosa diyir ki, ay uşaxlar, bu öyün uşaxlarından var sizin aranızda? Tanımır axı. Bir uşax yüürə-yüürə gəlir. Deyir ki, əmi, mən bu öyün uşağıyam, nədi? Diyir: "Ataa adı nədi?" Diyir: "Həsənqulu". - "Anaa adı nədi?" - "Xanımca". - "Bajıı adı nədi?" - "Sevil". - "Qardaşıı adı nədi?" - "Həsən". Bütün ailənin adını öyrənir, uşağa diyir: - "Dur get, daa lazım döyülsən". Qapını belə açır, açanda görür arvad təndirdə çörəh bişirir. Diyir: "A Xanımca bajı, Həsənqulu dayı evdədi?" - deyəndə arvad təəccüblənir. Bulara gəlif-gedən qonaxları tanıyırdı, bu təsadüf gələn qonaxları tanımır. Həm də belə dəqiq danışdığı üçün deyir yəqin kişinin dosdlarındandı. Diyir: "Gələr indi. Qapıda niyə durursuz, gəlin içəri, Həsənqulu dayı gələr indi". Deyir: "Xanımca bayı, bizə Həsənqulu dayı lazımdı". Deyir: "Gəlin da, gələjəh. Gəlin, gəlin". Arvad çörəyin ikisini bişirif qoymuşdu, təndir çörəknən dolu idi. Qonax gəldi, əl-ayağa düşür ki, tez bişsin. Qonaxlar keçir içəri, bu qonaxların altına döşəh qoymaxdan ötəri gəlir öyə, iki dənə də çörəyi götürüf gəlir. Çörəhləri sərir, buların altına mitəkkə qoyur, yastıx qoyur. Keşmiş vaxdı yerdən oturallarmış dirsəklənif, söykənəllərmiş, söhbət eliyəllərmiş. İndi bular arvad bişirif gəlincə hərəsi çörəyin birisini yeyir, ajmışdılar. Keşmiş vaxdı rəvayətə görə, qonax gələndə fətir bişirəllərmiş, bir də çolpa kəsəllərmiş. Arvad tez-tələsih bir çolpa tutur, qonşuya kəsdirir, bunu burda hazırrıyır, soyutma eliyir. Dədə-baba fətiri təndirin közünü qırağa kürüyüf sora fətiri yaxıf alta, sora közü yaxallarmış, fətir öz xoduna bişərmiş. Fətiri teyxa süddən, şəkərdən yoğurallarmış. Fətiri həmişə bişirməzdərmiş ey. Fətiri ən əziz qonax gələndə bişirəllərmiş. Bu fətirin hamısını hazır eliyir,

aparıf təndirə yaxır, gəlif çolpanı qoyuf pörtdədir. İndi bular fikirrəşillər ki, kişi gələjəh, buları tanımıyajax axı. Arvad da tez-tez baxır: - "A bala, mən sizi tanımıram. Evladlarım, siz kimsiniz?" Diyir: "Həsənqulu dayının dosdunun uşaxlarıyıx". Həsənqulunu heş bular görsələr tanımazdar, Həsənqulu da buları tanımır. İndi fikirrəşillər ki, kişi gələndə biz özümüzü nətər tanışlıx verək. İndi keçəl kosaya diyir ki, bilirsən nə var? Diyir: "Nədi?" Diyir: "Həsənqulu dayı gələndə dalaşax, heç yadına düşməsin bizdən kim olduğumuzu soruşmax. Dalaşax, elə bizi aralaşdırmağın hayına qalsın. Bizi çölə çıxarmax istiyəjəhlər ki, dalaşmayax bir-birimizlə. Hansımız çölə çıxsax içəridə qalan o çolpanı da, fətiri də götürüf çıxsın qaçax gedək. Baxırdılar, gördülər arvad fətiri bişirif gətirif mitilin arasına qoydu. Qayda idi, mitilin arasına qoyurdular ki, isti qalsın, o isti hava fətirin içində çiylik qoymasın. Çolpanı da bişirif gətirdi qoydu yükaltının altına. Mıxça çalardılar, ağac qoyardılardı ağzına, üsdünə pərdə düzürdülər, yük yığırdılar. Mitili, fərməci, sandığı, kimin nəyi vardısa yığırdılar üsdünə, altı qalırdı boş. Şor-pendiri, yavannığı onun altına yığırdılar.

Axşam düşür, arvad diir: "Həə, Həsənqulu dayınız gəldi". Həsənqulu artırmaya çıxanda diyir: "Arvad, deyəsən qonağın var". Diyir: "Yox, mənim qonağım döylü, sənin qonağındı". Baxır, tanımır. Diyir: "Aaz, bular kimdi?" Diir: "Dosdlarının uşaxlarıdı". Kişi gəlir girir, nə qədər baxır, tanımır buları. Artıx qarannıx düşmüşdü. Kişi əl-ayağın yuyur, gəlir oturur. Bular da çörəhdən-zaddan yiyif, artıx yeməyə ehtiyac yoxdu. İndi bular yeməyi götürüf qaçmax isdiyillər. Kişi ayannan-bayannan söhbət eliyir, hərrənir söhbət gəlir soruşmağa ki, a bala, mən sizi tanımıram, hansı dosdlarımın uşaxlarısız deyən kimi keçəl kosanın sağ tərəfində oturmuşdu, sağ əliynən kosanın başına bir qapaz vurur. - "Kopoğlu mən dədəmin dosdunun evidi, gəlmişəm, sən niyə gəlmisən?" Kosa da diyir: "Kopoğlu özünsən, mən də sənnən gəlmişəm". Dartma yaxam cırıldı, tutaşıllar. Arvad da baxır, kişi də. Diyir:

"Ay arvad, bular kimdilər, bular hardan gəldi çıxdılar bu evə? Qonum-qonşunun yanında bizi biabır eliyəhlər ki, sizin evinizə qonax gəlir, qonax evinizdə dalaşır. Belə biabırçılıx olar? İndi birin arvad tutur, birin də kişi. O ordan hücum eliyir - cavan adamlardı, bular yaşdı, acizdirlər buların əlində. Kosa yavaş-yavaş dala durur ki, qapıdan bunu itələyif çölə çıxarsınnar. Çölə çıxan kimi keçəl qapının cəftəsinnən dartır ki, aşsın, arvad qoymur. Kişi də çöldə tutuf kosanı. Qəfildən arvad qapını açıf çıxır çölə. Qapını bərk tutur, buraxmır. Qalıf indi keçəl içəridə. Kosa çöldən deyir: "Tez ol, kopoğlu, tez ol çıx!" Yəni yığışdır çıx ey, çolpanı, fətiri göt, çıx. İndi keçəl yekə fətirdi, fətiri harasına qoyur, sığmır. İçəridən deyir ki, yekəbaş, başı heç hara sığmayan kopoğlu. Yəni, fətir yekədi. Parolu deyir ki, hara qoyuram görükür da. İndi yadına düşmür qırıxlamax. Kosa çöldən deyir ki, para-pırtıx, qarnı yırtıx kopoğlu, tez ol çıx. Yəni qırıxla, qoynaa-qoltuğaa doldur ey, diyir. Yadına düşür ki, ə, bunu qırıxlamax. Kəsir bunu qırıx-qırıx eliyir, doldurur cibinə, qoynuna, qoltuğuna. Çolpanı götürür. Qapını necə çəkirsə, arvad gəlir durur evin ortasında. Çöldən tutmuşdu arvad, dəstəkdən. Çıxan kimi bu da kişinin sinəsinə bir yumrux, kişi bunu buraxır. Kosa qaçır, keçəl də onu qovalıyır. Kişi dallarıncan bir az gedir: "A bala, a bala". Görür getdilər, qayıdır gəlir, diyir: "Ay arvad, bu nə bəla idi gəldi bizi tapdı?" Diyir: "A kişi, nə bilim, çörəh bişirdiyim yerdə hər ikisi də gəldi, sənin adını çəkdilər, mənim adımı çəkdilər, uşaxların adını çəkdilər, didim yəqin tanıyıllar". Diyir: "Aaz, hardan tanıyıram, yaxşı oldu getdilər. Qoy bizdən aralı getsinnər, qırsınnar orda bir-birini. Aaz, bəri gətir görüm". - "A kişi, nəyi gətirim, ey? Allah onnarın axırına çıxsın, yaxşı fətir bişirmişdim, çolpa soyutması eləmişəm, çıxdı getdilər, yemədilər". - "Aaz, cəhənnəmə yeməsinnər, gətir yeyək". Arvad əlini atır, fətir yoxdu, əlini atır qazana, çolpa yoxdu. - "A kişi, vallah, möcüzədi! Vermədim yeyələr, amma yoxdu, tapmıram". Diyir: "Aaz, səs eləmə, qoy bəla

uzaxlaşsın, elə bu dava fətirnən çolpanın davası imiş.

Keçəlnən kosa fətirnən çolpanı götürüf bir qədər yol gedillər. Başqa bir şinniyə çatanda buların gənə, diyir, çörəyi qutarmışdı. Görüllər ölkənin paccahı yazıf yapışdırıf ki, mənə iki nökər lazımdı. Diyillər ki, gedək bir-iki gün də nökərçilik eliyək, özümüzü düzəldək, sora yolumuza davam eliyək. Görüllər ölkənin paccahı yazıf-yapışdırıf ki, mənə iki nökər lazımdı. Elanı oxuyullar görüllər ki, yazılıf ki, bir nəfər lazımdı bir inəyi otarajax, bir nəfər də təkcə paccaha çay verəjəh, ayda onnux qızıl alajax. Fikirrəşillər ki, bunnan asan iş olar? Bir inəkdi da, quyruğunnan tut qabağa qat, otdasın, axşam da gətir. Bu birisi də fikirrəşir ki, paccahdı da, apar çayın ver, otur yanında, içəndə gəl birin də apar. Bu asan işdi. Gəlillər, diyillər ki, biz nökər ola bilərik. Paccahın qulluxçuları var idi. Mala baxan ayrıdı, çay gətirən ayrıdı, imarətin içinə baxan ayrıdı. Şərtdəşillər, keçəl inəyə gedəsi olur, kosa çay verəsi olur. Bijdih işdədir ki, inək ayna-bayna gedə bilər, amma paccah nağarajax, oturuf orda, aparıf bir stəkan çayını verəjəh. Səhər xəzinədar keçəli çağırır ki, inəyin qapısını açıram, apar otar. İnəyin ordan çıxdığını keçəl görmür, o cür iti sürətlə çıxır. Bu minvalla bütün günü paccahın u teritoriyasını, sahəsini bu inək gəzir. Paccah inəyidi, yediyi xurma, kişmiş, otu neynir. Gəzir, bu da bunun dalınca bütün günü yüürür. Paccah oturduğu otağa qalxmax üçün kosa qırx piləkən çıxırdı.

Bu burda inəyi otarmaxda olsun görək kosa nağrır. Bir stəkan - Səlyan stəkanında çay götürür qırx pilləkən çıxır, aparıf paccahın qabağına qoyanda bir qonax gəlir. Paccah diyir: "Çay gətir". Bir stəkan da dolduruf gətirir, bütün günü qırx piləkəni çıxıf-düşür, çıxıf-düşür, çörəh yeməyə də imkanı olmur. Keçəl də bütün günü yüyürür. İndi ikisinin işi bu fasondu. İndi axşam keçəl fikirrəşir ki, ə, sənə nə var, bir stəkan çaydı da, qoy paccahın qabağına özün də otur onun yanında. Bu da diyir ki, nə var, bir dənə inəkdi da, tut

quyruğunnan otar. Niyə getmədim mən? İndi işlərini dəyişməh isdiyillər. Kosa diyir: "Keçal, işin nətəərdi?" Diyir: "Ə, nətəər olajax, apardım inəyi sahəyə, tarlaya buraxdım, inək axşamacan quyruğun atıf belinə yiyif yatıf, mən də uzanmışam. Pis elədim". Didi: "Niyə?" Didi: "Ə, gərək bir taburetka da götürərdim, kitab da götürərdim, oxuyardım, bekar orda qəribsəmişəm. Sənin işin nətəədi?" Deyir: "Elə mənim işim də rahatdı. Bu gün axşamatan elə başımı qoyuf yatmışam. Nə var, paccahdı, qabağına çay qoyuf yıxılıf yatmışam da" - deyəndə keçəl diyir: "Kosa, gəlsənə işimizi dəyişəh". Deyir: "Dəyişəh deyirsən, dəyişəh da". Dəyişillər. Keçalan indi bijdiyinə bax ey, kosaya bir taburetka, bir kitab şəlliyif. Kosa getdi inəyə. Keçal da duruə gəlir. Axşamatan 40 piləkən aşağı-yuxarı çay daşıyır. İkisi bir gəlmir ey adamın. Birinin qabağına çay qoyur, elə başını qaldıranda biri gəlir.

İndi axşam düşüf, hər ikisi işdən halıdır. Görüllər ki, çətin işdi, işdəmək mümkün döylü. Asan iş olsaydı bu qullux yiyəsiz qalarmı? İndi diyir ki, gəl qaçax, kosa keçələ diyir. Deyir: "Bunun bircə yolu var, şərt kəsmişik axı, bizi öldürəllər, qaçax". İndi qaçmağa başlıyanda diyir ki, ə, bilirsən nə var? Diyir: "Yox!" Deyir: "Səni, o inək maa dağ çəkif" - kosa deyir. Kosa fikirrəşir ki, keçəli inəyin yanında qoysun getsin, səhər bunu öldürsün paccah. Diyir: "Nədi?" Deyir ki, inəyi kəsəh, ətinnən götürəh yolda yiməyə. Nə yiyəjəyih yolda? Pəyənin üsdündə baja var idi. Kosa keçələ diir ki, sən gir. Uzun bir kəndir götürüflər. Kosa diir, sən gir, keçəl diir, sən gir. O buna diyir, bu ona diyir. Keçəli endirəsi olur. Keçəl deyir ki, nəysə əməl var burda, bunu qoyuf gedəjək. Kəndiri bağlıyır ortasına, bunu sallıyır aşağı. Keçəl orda inəyi yıxır, qanrıf kəsir, dərisin soyur tələsih. Buddarını bardon var idi, bardona yığır. Deyir ki, kəsdin? Deyir: "Hə". Deyir: "Ətinnən qoy çuala çəkim çölə, qıçalıyım, sora səni çəkim, gedək. İsdiyir əti götürüf gedə, bu orda qala. İndi bu nağarır? Budun birin də kəsir, əti yığır çualın içinə, budu çörür üsdünə, deyir:

"Hə, di çək". - "Oldu". Hıqhahıq kosa bunu çəkir, içində də keçəl, üsdündə də ət, çıxardır. Çıxardan kimi kəndiri açıf tulluyur əynə, çualın ağzını belə eşif burmacdıyır ki, əlinə yaxşı yatsın. Atır dalına, diir: "Keçəl, di qal orda". İsdiyir ki, hava işıxlanınca bu ölkədən keşsin o biri ölkəyə ki, bunu tutmasınnar. O qədər gedir ki, gejəynən, hava işıxlananda gün təzə çıxmışdı yerinə, keçir o biri paccahın torpağına. Keçəndə çuvalı qoyur yerə, alnın tərin silir, diyir ki, ay yazıx keçəl, bu gün sənin toyundu. Əti keçəl üstünnən aşırır diir: "Nə toydu, ə, toy eliyillər maa". Baxıf görür ki, keçəl də gəlif.

Keçəlnən kosa həmişə söhbətlərində bir-birinə heylə dav gəlillər. Söhbət burda qutarır. Ordan aynası hara gedir, nələr olur, məlumatım yoxdu.

KEÇƏLLƏ KOSA ŞƏRİKLİ KÖMBƏ BİŞİRİR

Kişi, diyir, ölürdü, aman zaman bir oğlu var idi. Oğlunu çağırır, vəsiyyət eliyir. Deyir: "Oğul, dəyirmana gedəndə heç bir kosanın dəyirmanında dən üyütmə". Kişi bir gün ömrünü tapşırır gedir. Oğlu bir gün dəyirmana gedəsi olur. Gedir dəyirmana, görür dörd kosadı, yəni dörd tükü var. Diyir: "Hə, atam demişdi axı kosanın dəyirmanında dən üyütmə, gedim o biri dəyirmanda üyüdüm". Gəlir ikinci dəyirmana, görür üç kosadı, üç tükü var. Gəlir o biri dəyirmana, görür iki kosadı, o birinə gəlir, görür bir kosadı. Diyir: "Olmadı". Keçir axırıncıya, görür zividi* kosadı. Diyir: "Gənə nisbətən gedim u dörd kosanın dəyirmanında üyüdüm da, daa dəyirman yoxdu".

Gəlir dörd kosanın dəyirmanına, dəni üyüdür. Dağarı var idi, dağarda aparmışdı. Dağar mal dərisinnən hazırlanmış qab idi. O vaxdlar meşoğ olmuyuf, mal dərisinnən tikif içində aparıllarmış. Bu da dağarda aparmışdı. Meşoğu əvəz eliyirdi. Dağar da yarım pud - səkkiz kilo tutardı. İndi dən orda üyünür, bular oturuflar, ortada ojax yanırdı. Su dəyirmannarının ortasında ojax olardı. İndi daşın birinin üsdündə keçəl oturuf, birində dəyirmançı kosa oturuf. Kosa deyir: "Keçəl, gəl bir dənə tapmaca deyək, kim tapmasa..." Kömbə bişirillər. Görürsən, kömbə yadıma düşmür, soradan yadıma düşür. Qayıtdım dala. İndi axşam düşüf, kosa başdıyır ki, keçəl, gəlsənə kömbə bişirək? Ojağın közün qırağa sivirif kömbə yaparmışdar. Sora külnən üsdünü örtüf köz yığallarmış, kömbə bişərmiş. Diyir: "Nolar". Deyir: "Onda unu sənnən, urvası mənnən" - kosa deyir keçələ. Deyir ki, bir dağar unum var, onu da xamır yoğurmuşam. Urvası mənnən unu sənnən. Diir: "Nolar, onda o dəyirmanın dalınnan iki ovuc un gətir". Keçəl gətirif iki ovuc un qoyur. İndi keçəl yoğurur, kosa suyun o qədər tökür ki, xamır duru olur, un yığışmır bir yerə. Deyir: "Yaxşı, indi urva lazımdı. Keçəl, urva gətir". Keçəl gedir öz ununnan urva gətirir. Bu urva gətirdihcə kosa sudan əlavə edir,

olur duru. Nəhayət, un qurtarır, axırda dağarı gətirir. Dağarın gerisinnən belə tıqqıldadır, təmiz içini çırpır ki, daha mənim unum qalmadı. Diir: "Gənə durudu, onda ordan sən maa iki qısma un gətir, sən maa iki abbası boşdu qalarsan". Hələ xamır yoğurullar ey, borc başdadı. Keçəl ordan iki qısma un gətirir, fətiri bişirillər. Fətiri bişirir, diyir, söykəyillər kötüklərə. Ojağı yekə kötüklərdən qalayırdılar. Qıpqırmızı qızarıf, deyir, fətir. İndi heç birinin ixtiyarı yoxdu fətirdən kəsə, yiyə. Kosa deyir: "Keçəl, püşk atax, görək fətir kimə düşür". Deyir: "Atax". Deyir: "Keçəl, de". Deyir: "Yox, sən de". Kosa deyir indi. Deyir ki, getmişdim bağa. Bağda uşaxları mən qoydum qayıtdım gəldim arana, həyətin meyvəsini yığmağa. Qozu çırpdım. Qozu çırpannan sora qayıtdım belə baxdım, gördüm qozun təpəsində bir qara qoz var. Yağmışdı, diir, yer palçıx idi. Palçıx kəsəyini götürüf atdım, getdi yapışdı qozun təpəsinə. Orda böyük bir sahə əmələ gəldi, mən çıxdım oranı şumladım, taxıl səpdim. Nəhayət, yaxşı taxıl bitdi. Çıxdım biçməyə. Elə çini götürüf biçməyə başlıyanda bir tülkü çıxdı. Çini atdım tülküyə, çin ilişdi tülkünün quyruğuna. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Bax keçəl, gətirdiyin un var ey, bax o un həmin taxıldandı. İndi sən de. Deyir: "Mən də getdim bostana. Bostanda gəzirdim. Gördüm böyük bir qarpız var. Əlimdə qəmə var, uzun bıçax. Bıçağı uzatdım ki, görüm yetişif, yoxsa yox. Bıçax getdi qarpıza. Əyildim bıçağı çıxartmağa, başım da girdi". Deyir ki, ona nə var, bağlamasın açır. Deyir ki, gəlirsən evə, görürsən qapı bağlıdı, haçarı götürüf salırsan qıfıl yerinə, açırsan, qapını itəliyən kimi qapı gedir, sən də girirsən içəri. Bu aşdı, amma kosankı bağlı qaldı. Fətir də qaldı kosaya.

Keçəl durur sallana-sallana gəlir öyə. Anası gözdüyürdü ki, un gətirəjəh, çörəh bişirəjəh da. Öydə çörəh yox idi. Arvad görür ki, yazıx belə söylənə-söylənə dağar çiynində boş gəlir öyə. - "Ay oğul, unun hanı?" Deyir: "Köpək qızı, iki abbası hələ boşdu qalmışam".

Sabannarı tezdənnən kosa qapını kəsir. - "A bajı, keçəl hanı?" Diyir: "Öydədi". - "Deynən çıxsın". Deyir ki, səhər gəl. Səhər-səhər, on gün-on gün uzadır, iki abbası tapmır buna verə. Nəhayət, bir gün deyir: "Ana." Deyir: "Hə". Deyir: "Bu kopoğlu məndən əl çəkmijək, bəlkə belə əl çəkə. Mən özümü vurajam ölülüyə, gələndə ağla, üzünü-gözünü, saçını yolginən ki, keçəl ölüfdü. Qoy kopoğlu çıxsın getsin". Bu uzanır, anası bunun üzünü ölü kimi örtür, guya ölüfdü. Kosa gəlir keçəli çağırır. Diyir: "Ay bala, başın sağ olsun, keçəl öldü beyjə. Yer getginən daa, keçəl ölüf. - "Hara gedirəm, ay ana! Bizim şərtimiz var". Deyir: "Nədi?" Deyir: "Şərtimiz belədi ki, o ölləndə mən onu yuyum, aparım basdırım, mən ölləndə o yusun, aparsın basdırsın. İndi o ölüf, mən onu yuyuf aparıf basdırmalıyam. Hara gedirəm?" Kosa böyük qazan qoyur, qazanı suynan doldurur, ojax qalıyır. Oyağın üsdünə qazanı qoyur, su, deyir, indi pakqapax qaynıyır. Keçəl atdan-atdan baxır, görür ki, su qaynıyır. Anası gəlir, kosanın eşitməyəcəyi səsnən deyir ki, a bala, dur, kosa səni bişirəjəh". Diyir: "Ay ana, hardan alım iki abbasını verim, qoy nağarır qayırsın, dözərəm". Kosa bunu lüt soyundurur, aparır yuqat taxtının üsdünə. Ayaxdan başdıyır şakqaşak qaynayan suyu düz başınacan tökür. Yuyur bunu, qəbirstanlıxda kümbəz varmış, aparır bunu qoyur kümbəzin içinə. Başdıyır buna qaroul çəkməyə. İnanmır da ölüfb. Qaroul çəkəndə qırx nəfər qaçax gəlir. Hansı padşahınsa xəinəsini talan eləmişdilər, kalan qızıl gətirmişdilər. Dolullar kümbəzə. Kosa da qıraxdan pusurdu, keçəli də uzadıf kümbəzin ortasına. Bular gətirdikləri qızılı töküllər, belə bir əmbiz əmələ gəlir. Bir dənə də əyri qılınc gətirmişdilər, qılıncı da qoyullar böyrünə. Qaçaxların başçısı başdıyır bölməyə. Bölür diyir, bu sənin, o sənin. Qırx yerə bölür, birinə, deyir, bir qızıl çatışmır. Çatışmayanda bu qılıncı götürür əlinə deyir ki, bu qılıncı verəjəm o bir qızılın əvəzinə, bu şərtnən ki, kim bu meyidin ortasından vuruf kəssə, qılınc onunkudu. Keçal bilirdi ki, kosa bunu pusur. Elə qılıncı qaldırıf endirmək isdiyəndə

keçəl qəfildən çığırır: "Kosa, qapını kəs". Kosa qapını kəsdirəndə bu qaçaxlar gətdikləri sursatı da qoyuf qaçıllar. Qaçıf gedillər. Kosa girir içəri, indi ikisi bölür. Qaçaxların biri çox özünnən deyən imiş. Deyir: "Qayıdım görüm bu nə hak-hesabdı". Gəlir indi pusa-pusa. Görür iki nəfərdi, qızılı bölüllər. Qutarannan sonra kosa deyir: "Keçəl". Deyir: "Hə". Deyir: "Keçəl, iki abbasını ver". Qaçağın biri əyilif qapıdan belə baxırdı ki, görsün bular nə cür adamdı - keçəlin gözü bunu almışdı - qəfildən əlin çalır bunun papağını başınnan alır, tulluyur kosaya. Deyir: "Ala, bu da sənin iki abbasın". Bu adam qaça-qaça gəlib o birilərin yanına, diyir ki, ə, qəbirstannıx əhli nətəər dirilifsə, birinə iki abbası çatmamışdı, papağımı da aldılar verdilər ona, qaçın. Sabah açılır hər ikisi duruf qızılların, varların yığışdırıf gəlillər öylərinə.

MOLLAYLA KEÇƏLİN NAĞILI

Keçəl camaatın malına gedirdi. Bir gün keçəl gətirib malı çayın qırağında arxaca qoymuşdu. Arvadlar paltar yuyurdu. Kənddə qonum-qonşu paltar yuyub gətirib suya çəkirdilər. Keçəl oturuf qıraxdan baxır, arvadlar çırmanıf buratan - dizdən yuxarı. Mollanın arvadının bədəni keçəlin xoşuna gəlir. İşdəməmiş molla arvadı idi da! Nağarırdı ki? Bədəni dümağ, qəşənh, gözəl. Sabah keçəl getmədi naxıra. Malı da, adətən, arvadlar qoşardılar naxıra. İndi arvadlar gətirif malı qoşanda görüllər keçəl getmir. Keçəlin gəlif anasın çağırıllar: "Keçəl hanı, niyə getmir mala?" Diyir:"Keçəl diyir getmiyəjəm mən". - "Aaz niyə?" Diyir ki, keçəl diyir mollanın arvadı bir öpüş versin gedim. Mollanın arvadına diyillər: "Aaz, nə biləjəh molla, bir öpüşdü, ver, getsin, qalmışıx malın əlində". Diyir: "Aaz, molla məni öldürər, sən nə danışırsan! Verə bilmərəm, bajı". İki gün, üş gün, beş gün, keçəl mala getmir. Bu arvadlar yığışıllar mollanın arvadının başına. - "Aaz, bir topuğunnan-zadınnan bir öpüş ver, bu kopoğlu çıxsın getsin mala. Bir yer tap, orda ver, öpsün. Diyir: "Yaxşı, deyirsiz, deyirsiz, onun üzü qara olsun, axşam deyin gəlsin girsin o toyuğun hininə, gedərəm qıçımdan, topuğumdan, bir yerimdən-zadımdan öpsün, təki getsin mala".

Deyir, keçəl gəlifdi erkənnən girif toyux hininə, gizdənif orda, arvadı gözdüyür ki, arvad gəlsin, öpsün. Mollaların hamısı arvadı gürgəliyəndilər*, yəni tam sərbəst buraxmıllar. Molla axşam gördü, səni, arvad yaman əl-ayağa düşüf. İndi arvad tələm-tələsih düzəldir mollanın çörəyin, surfasın, çayın-zadın ki, tez getsin keçəli yola salsın dana. Birdən poxun üsdü açılar, molla gedif toyuğa baxar, nağarar. Mollanın yanına tez surfa salır, çörəh qoyur, çayın gətirir, nə lazımdı qoyur. Molla görür, səni, həmişə bir saata surfa açılmırdı, indi arvad beş dəyqəyə surfa açdı. Molla görür ki, arvad getdi, düşür arvadın dalınca. Görür arvad toyux hininə tərəf gedir, molla da gedir.

Arvad çörüküb görür ki, molla gəlir, daa yaxınnaşa bilmir. Molla çatır: "Arvad, burda nağarırsan?" Diyir: "Heş nə, toyuğumuza baxırdım da!" Toyuğa baxıram deyəndə keçəl gizdənə bilmir. Molla baxır, görür keçəl toyuğun içində. Keçəl də görür molla gəlir - bir saz xoruz varmış - xoruzu tutur basır qoltuğuna. Molla gəlir: "Ə, keçəl, burda nağarırsan?" - "A molla, niyə ajığın tutur, xoruzumuz yad gəlif, onu tutuf aparıram". - "Ə, xoruzunuzun qabağında dura bilmirsən? Göt xoruzuu da, rədd ol". Mollaan bir xoruzuun da vurub qoltuğuna götürüf gəlir.

İki gün belə keçir, indi deyillər ki, aaz, noldu, sən bir yer tapıb bir öpüş verə bilmədin bu gedə mala? Diir: "Aaz, öy tikdirmişih istifadəyə verilməyif, indi-indi taxta döşətdirmişih, ora girmirih heç. Gəlsin girsin ora, yaxındı, elə bu öydən keçim o öyə, bir yerimdən öpsün, cəhənnəm olsun getsin mala".

Keçəl gəlir girir öyə, arvad da bilir keçəlin gəldiyini. Tez mollanın çay-çörəyini verif keçir öyə. Arvad keçən kimi molla da bunun dalınca keçir ki, görüm arvad niyə belə eliyir. Keçəl görür ki, molla gəlir. Keçəl başdıyır öyün bu başınnan addımlamağa: "Bir, iki, üç"- addımlıya-addımlıya gedir o başa, qayıdır gəlir bu başa. Molla baxır, görür keçəl heş dayanmır, elə bir, iki, üç ölçə-ölçə gedir o başa, qayıdır gəlir. - "A keçəl, nağarırsan?" - "A molla, ajığın niyə tutur, ev tikdirəjəm, deyirəm görüm neçə metrdi". - "A kopoğlu, gərək mənim öyümün üsdündə tikdirəsən?" - "A molla baba, ajığın niyə tutur, sənin öyünün üsdündə tikdirmə deyirsən, tikdirmərəm". Gənə baş tutmur.

Gənə beş-altı gün keçir, mala gedən yoxdu. Arvadı təmiz əldən salıllar, arvad axırda deyir: "Aaz, mümkün döyül ey, bu kopoğlu imkan vermir. Gəlsin evə, girsin yükün dalına. Yükün qabağına da pərdə salardılar ki, yük görsənməsin. Ora sandıx qoyardılar, fərməc qoyardılar, mitil yığardılar, qabağına da pərdə tutardılar ki, bu əlamətdər görükməsin. Un çuvalı

qoyardılar, hətta yükaltı olardı təxminən 40 santı yerdən hündür, mıxça çalardılar, üstünə ağac düzərdilər. Gözdüyür burda. Camış da təzə doğub balasın gətirif bağlayıfdılar yükün qabağına ki, kəlçə üşüməsin. Arvad girəvə axtarır ki, keçəli yola salsın. Molla yerinnən durmuyuf hələ. Molla çığırır ki, ağız, peçi tez qala, üşüyürəm, dururam geyinəm. - "Yaxşı, yaxşı". Qalamır. İndi girəvə axtarır ki, molla yorğanı başına bürüsün, nağarsın, bu işini görsün. Molla hirslənif: "Donuz qızı, sənə dimədim peçi qala?" Qalxır arvad, diyir, odunu gətirif qoymuşdu, amma peçə yığmamışdı hələ. Odunun birini götürür atır arvada. Salva dəyir kəlçənin təpəsinə. Təpəsinə dəyən kimi kəlçə partdıyır. Molla görür, ə, kəlçə ölür, tez pıçağı çıxardıb boğazın kəsir, qoymur murdar olmağa. Keçəl görür, paho, iş uzandı, molla kəlçəni kəsdi, camaat yığışajax bura, ət almağa gələjək, bu burda nağarsın? Keçəl qəşənh durur, teşti götürür, teştin ağzını unnan doldurur çıxır qırağa, durur mollanın böyründə. Molla kəlçəni soyurdu, görür nəsə böyründə ayax var. Başını qaldırıf görür keçəl duruf başının üstündə, əlində də teşt. -"Ə, keçəl, burda nağarırsan?" Diyir ki, molla baba sağ olsun, gördüm kəlçəni kəsirsən, pulumuz yox idi, un götürüf gəlmişəm ət almağa". - "Ə, mən indicə kəsmişəm. Ə, nə bilirsən kəsmişəm, un götürüf gəlmisən? Sənin unun gözə girsin, sənə ət-zad satmıram, unu götür irədd ol!" - "Molla baba, ajığın niyə tutur, satmırsan satma, unumu da götürüf çıxıf gedərəm". Bir teşt də un burdan götürüf gəlir.

Camaat tökülüb nəhayət tənbeh eliyif keçəli göndərir mala.

ÜZLÜ QONAQ

Qış idi, dağ zonalarında qış aylarında iş olmur. Bununla əlaqədar olaraq dağ zonasınnan bir nəfər aran zonasında olan dosdunun öyünə qonax gəlir. Fikirrəşir ki, yayda bu taxılın bişdirəjəhdi, biçinci axtarajaxdı, elə mən qalım orda biçim. Sentiyabrdan gəlib oturub taxıl biçinini gözdüyür ey. Belə qonaxlardan danış. Gəlir, nəysə. - "Salam məleyki". - "Əleykimət salam". Xoş-beş, filan. Qonaxdı gəlib, qonağa demək olmaz ki, niyə gəlmisən. Bir ay sərasər qalır burda. Bu gələn günü kişi dəyirmannan gəlir. Kəli qoşurlar arabaya, bir çual həşdat kilo buğda tutardı, unu kişi dəyirmannan gətirir. Demək, qonax gələn axşamı arabanın dalın verir seyvana, düşürür qoyur taxtın üsdünə. - "Qonax, xoş gəlmisən, beş gəlmisən". Görüşüllər bunnar. İndi bu həştad kilo nə qədər gedir, on beş gün gedir, bir ay gedir diyə bilmirəm. Bir axşam söhbət eliyirlər, söhbət azalmışdı da. Bir söz deyəndə inamsızdıx yaranmışdı, keşmişdilər yalana. Ev yiyəsinin qonağa münasibəti bir az soyuxlamışdı, qonağın da həmçinin. Nəysə, bu minvalnan axşam olur, arvad daxil olur içəri, deyir: "A kişi, sabah dəyirmana getməh lazımdı ey, unumuz qurtarıb". Qonax indi iki ay qalıb, üç ay qalıb... Həşdat kilo un qurtarıb deyəndə kişi diyir ki, yaxşı, arvad. Yadına düşür, mən o bir çual unu gətirib düşürəndə bizim qonax gəlib? Deyir: "Düşür". - "Nətəər oldu, bəs, qutardı? - Yəni un qutardı, bizim qonax getmədi. - Hazırra, yəni taxılı xəlbirdən keçir təmizdə, səhər aparıb bir çual da üyüdərəm, eybi yoxdu". Arvad gedir.

İndi söhbət eliyillər. Söhbət qutarıb yalan-gerçək, danışılanın çoxu inamsızdıxdan gəlir irəli. Ev yiyəsi diyir: "Qonax, sabah getdiyin o yol hakqı, filan iş filandı". Sabah getdiyin yol hakqı, yəni çıx get sən də, mənası budu. Qutarannan sonra qonax deyir: "Xozeyn, bax indi dəyirmana gedəssən ey, səhər". - "Hə". - "Unu yığıb gətirəssən ey, bir

çual". - "Hə". - "Bax, onun axır kökəsi hakqı filan iş filandı". Yəni onun axır kökəsinətən burdayam. İndi bu əlamətdərə keçiblər. Kişi daa bu qərara gəlib ki, qonax öydən çıxsın, qapını bassın bağlasın ey, içəri buraxmasın. Qonax da duyub bunu, çıxmır.

Yaz açılıb da, taxıl bitib göyərib, taxıl başdıyıb baş aşmağa. İndi fikirrəşir ki, nağarım qonax çıxsın. Diyir: "Hə, hoppanax". Özü qərar verir ki, hoppandırım qonağı, qapıın ağzına tərəf hoppansın, qapıdan itəliyim çıxardım çölə. Oturmuşdular. Deyir: "Qonax". Deyir: "Hə". Dinməzcə oturublar, söhbət qutarıb. Diyir: "Qonax, gəlsənə hoppanax?" Diyir: "Əşi, qonax öy yiyəsinə tabedi. Sən nə deyirsən onu eliyəh, mən nə deyirəm saa". Deyir ki, qonax, dur, ölçü vahidi qoy, hoppanax". Diyir: "Vallah, qonax öy yiyəsinin nökəridi, nə desə eləməlidi. Nə deyirsən onu eliyim, amma ölçü vahidini özün qoy". İndi öy sahibi durur öyün ayax tərəfinnən başdıyır addımlaya-addımlaya düz gedib çıxır öyün o biri başına, olur altı addım. Diyir: "Altı addım oldu?" Ordan üç addım sayıb gəlir mərkəzə. -"Üç addım o tərəfə, üç addım da bu tərəfə, ortadımı bura?" Diyir: "Hə". Diyir: "Dur gəl". Gəlir. Diyir: "Di hoppan". Qapı tərəfi gösdərir. Diyir: "Ay ağa, sən nə danışırsan, sən dura-dura mən hoppanarammı? Ev yiyəsi sənsən, böyük sənsən, sən hoppan". Bu yazıx da mənim kimi hoppana bilmirmiş heç. Canıın dişinə tutur, ayağıın ikisini də vurub yerə hoppanır, qapıdan xeylağ bəri düşür. Ayağıın bir addım qabağa atır ki, oranı ölçü təyin eləsin. Amma bərki ayağının üsdünə düşmüşdü. Bir addım qabağa atır ki, mən bura. Ayağı yerə düşən kimi, qabaxkı ayağıın üsdünə qalxır. Gənə qapıya tam çatmır, qapıdan bəri düşür. Fikirrəşir ki, qonax bunu ötmək üçün bir az irəli düşər. Qapıya yaxın olar, itəliyif çıxardar. Qonax da belə baxırdı, diyir: "Sən ora". Diyir: "Hə". Diyir: "Nolar". Qonax da ayağın cüt vurub yerə, sıçrıyır öyün o başına. - "Yox, yox, yox, olmadı, olmadı, bu tərəfə". -

"Ay rəhmətdiyin oğlu, ölçünü sən ölçmədin?" - "Mən ölçdüm". Diyir: "Bölmədin?" Diyir: "Böldüm". - "Orta döyül bura? Sən oyza hoppanmısan, mən buyza."

Yaz gəlir, bu diyir ki, ay ağa, gedib biçinçi tutmuyajaxsan? Bu qış mən də sizdə olmuşam da. Nə fərqi, taxılı mən biçərəm. Biçin də bilmir ey, bədbaxt oğlu. Heç taxıl biçməyi də bilmirmiş. - "Taxılı mən biçərəm, amma gedim uşağı da gətirim. - Oğlu varmış dağda. - Gedim, götürüm gəlim, ikimiz biçəh da". Uşağı gətirir ki, bəlkə uşax bajarır, uşaxdan bir şey öyrənsin. Bu da fikirrəşir ki, yaxşı oldu, gedib biçinci axtarmıjam. Bütün qışı çörəyimi yiyif, hakqın da verəjəm, bir də gedif ikinci adam niyə gəzim? Bunun dilini-zadını başa düşürəm". Diyir: "Nolar, get gət". Gedir oğlunu da götürür gəlir. Bayaxdan bir nəfər idi, indi oldu iki.

Bir gün taxıl yetişif, çıxırlar sahəni gəzməyə. Ev yiyəsi sahəni bulara tanıdır. Bu dərə mənimdi, o dərə mənimdi, yerləri gösdərir. - "Biçərsinizmi?" - "Əşi, nə var, arı biçən kimi biçəjəyik". İndi sabah biçinə gedirlər. Deyir: "Xozeyn, bilirsən nə var?" Deyir: "Nədi?" Deyir: "Bizə bir balta lazımdı, bir də bir sijim". Uzun çatıya sijim deyirlər, beş metrdən az olmur uzunnuğu. Bu da iş adamıdı, baltanı gətirir, sijimi də, amma bilmir bunu neynir bu. fikirrəşir ki, yəqin lazımdı, isdiyir da. Gedəyə diyir: "Götür sijimi də, baltanı da". Götürürlər, kişi aparır buları. -"Hə, buranı biçin, mən də gedim yemək tədarükü görüm, gətirim burda yeyin-için". Kişi gəlir yimək-zad hazırladır. Gəlir görür bu kəmənd atır, sijimin ujunu düzəldib bu atır, düşür bir sünbülün boğazına, gedə sünbülün kökünnən bir balta. Bunu görən xozeyin hirslənir. - "Ə, bu nə biçim taxıl biçməhdi, bu kəməndlə nə vaxda biçər?" Görür ki, xozeyin gəlir, tez-tez atır: - "Ə, aşağıdan vur!" Yəni aşağıdan vur bir balta, iki balta. Kişi çatır: "Ə, bir əliizi saxlıyın, nağarırsız?" Diyir: "Nağarasıyıx, taxıl biçirih da!" - "Ə, heylə taxıl biçəllər?" Diyir: "Oğul, bilirsən nə var? Xozeynin ajığı

tutur, sünbülü iki-iki tut, bir-bir gej olur da". Kəməndi elə atginən iki-iki düşsün kəməndə sünbül. Ağanın ajığı tutur". Ağa görür səni bular biçinçi döyüllər, avara bir şeydilər. Deyir: "İsdəmirəm sizin biçini". Kakraz yaz açılıb, buna lazımdı gedib öz təsərrüfatı ilə məşğul ola. Diyir: "Neynəyək, ajığın tutur, tutsun da. Bişmə diyirsən, bişmərih". Helə çıxıb gedirlər.

CƏNNƏT XİDMƏTÇİSİ

Gedirmiş namaz qılmağa meçidə. Görüfdü bir dənə şir, qapını belə daraxlıyıf duruf. Buna deyifdi: "Ay Allahın heyvanı, niyə camaatı qoymursan meçidə girsin günorta namazına?" Şir deyir: "Mən gəlmişəm məni öyləndirəsiz". Peyğəmbər, deyir, iclas çağırır. Üş dəfə təklif eliyir: "Kim qızını bu şirə verir?" Heş kəs dillənmir. Qoja kişi görür peyğəmbərin sözü yerə düşür: "Mən - deyir, - verərəm. Yeganə bir qızım var". Qızın verir. Peyğəmbər kəbini kəsir, qızın əlin verir şirin əlinə, çıxır gedir.

Bir günnən sora kişi gedir: "Ya peyğəmbər, aman-zaman bircə dənə qızım var idi, aldın əlimdən verdin şirə. Barı yerin de, gedim görüm bunun taleyi nətəərdi?" Deyir: "A kişi, ala bu kağızı - kağız yazıb verir əlinə, - kağız uçacağ, sən də dalınca get. Kağız hansı darvazaan yanında düşsə, qızın ordadı". Xeylax gedir, az gedir, çox gedir, görür ki, bu düşdü bir dənə darvazaan ağzında. Qapını döyür, qız gəlir. Görür, vallah, qızı ağappaq belə ağarıf, qızıllı, geyimli-gejimli. Qujağında da bir oğlan uşağı, oturuf yeyir-içir. Diyir: "Qızım, şir hanı?" Deyir: "Ay ata, o şir deyil axı, o şir donunda məleykədi. Cənnətdə xidmətçidi. Gedif, gələjəh indi". Bir azdan sora gördü nətəər bir oğlan gəldi... Amma peyğəmbər deyif ki, kişiyə, yolda nə görsən gəl mənə de. Bunun payına çox qalır, az qalır bilmirəm, bunun payını-pürüşünü tutullar, bu qayıdır. Qayıdanda görür bir dəvə can verir, bir sürü qarğa gəlir bunu dimdihləyir, qalxır uca çinar başında "Quran" oxuyur. Kişi götürüf bir daş atır: "Qoyun bu heyvan ölsün, sora dimdihləyin da". Bir də yiyif qayıdıllar, çıxıllar "Quran" oxuyullar.

Qayıdır Süleyman peyğəmbərin yanına. De?ir: "Nə gördün, razı oldunmu?" Deyir: "Qızımdan da, göyümdən də, sənnən də razı oldum". Deyir: "Bəs axı mən səə bir söz demişdim, yolda nə gördün?" Deyir: "Ya peyğəmbər, bir dənə

dəvə idi, can verirdi. Bir sürü qarğa gəldi qondu, dimdihlədi, ağzı qannı çıxdılar ora, "Quran" oxudular". Diyir: "A kişi, qumarbaz da "Quran" oxujax, piyanıska da "Quran" oxujax, nəşəxor da "Quran" oxujax".

Bax indi, həmin zamanamız, oğul, gəlif çatıfdı. Belə. Bu da bu qədər.

ÇÖRƏYİN SAVABI

Diyir ki, keşmiş əyyamlarda, İbraamxəlil döyründə bir kasıf kişi olur. Həmən kasıf kişi dolana bilmir. Bir gün eşidir ki, İbraamxəlil peyğəmbərin çoxlu dəvəsi-zadı var. Diyir ki, gedim bir dəvədən alım, gətirim odunnan-zaddan daşıyım, uşağı saxlıyım. Yol başdıyır getməyə. Amma çörəyi-zadı olmur. Aj olur bu uzun müddət. Bu gedir çatır İbraamxəlil peyğəmbər olan iqamətgaha. Orda görür ki, İbrahimxəlil peyğəmbər bir dərədə bir qotur dəvəni yuyur. Belə ki, heş kəs yumaz bunu. Öz-özünə fikirrəşir ki, bu qotur dəvəni yuyan adam mənə dəvə verməz. Dəvəsi çox olan adam bunu tulluyar, bir küşdə ölər.

İbraamxəlil peyğəmbər görür ki, bu kişi qayıdıf getməh isdiyir heş nə demədən. Diyir: "A kişi, nəyə gəlmişdin? Nə diləyin varsa de, eliyim". Diyir: "Vallah, mən gəlmişdim sənnən dəvə alam, uşaxları dolandırmax üçün odunnan-zaddan daşıyım. İndi görürəm sən bu qotur dəvəni yuyursan, heş sənnən dəvə isdəməh isdəmirəm". Diyir: "Sən mənim bu qotur dəvəni yumağıma baxma, bu mənim malımdı, mən bunu yumalıyam. Bu mənim borcumdu. Allahın qabağında mən onu təmizdəməliyəm, yumalıyam". Nökərinə diyir: "Get buna bir dənə dəvə gət". Gedir bir dənə dəvə gətirir. Bunu verəndə diyir: "Allah dəvələrinə bərəkət versin". Diyir: "Get birini də gət". Gedir birini də gətirir. Gənə diyir: "Allah dəvələrinə bərəkət versin". Diyir: "Get birini də gət". Gedir birini də gətirir. Gənə diyir: "Allah dəvələrinə bərəkət versin". Dördüncüdə... əstafrillah, demir. Üçüncü dəvədə demir ki, Allah bərəkət versin. İbraamxəlil peyğəmbər bilir ki, da bu isdəmir.

Üş dənə dəvəni götürür, başdıyır yol getməyə. Qonşuda bir dənə kişi cüt əkirdi. Bu kişidən çörəh isdiyir. Kişi deyir ki, iki çörəyim var, gəl birini sənə verim, biri mənə qalsın. Gətirir iki çörəyin birini verir. Kişi fikirrəşir ki, mənim öyüm yaxındı,

gedif öydə yiyərəm, qoy bunu da verim, yol adamıdı. Həmin çörəyin birini də verir. Çörəyi yeyənnən sora "Allah səən çörəyə bərəkət versin" diyif gedir.

İbraamxəlil peyğəmbər gejə yatanda yuxusunda görür ki, u üş dənə dəvə tərəzinin bir gözündədi, iki dənə çörəh bir gözündə. İki dənə çörəh ağır gəlir, dəvələr yüngül gəlir. Hiss eliyir ki, bu dəvə aparan kişi aj oluf mən ona çörəh verməmişəm. Tezdən gəlir həmən kişiyə deyir ki, burdan adam gedəndə gördün? Diyir: "Gördüm". Diyir ki, ona nə vermisən? Diyir: "İki çörəh vermişəm". Diyir: "O iki çörəyin savabını ver mana, mən də üş dənə dəvənin savabını verim sana". Həmən adam buna cavab verir ki, sən gördüyün əhvalatı yuxuda mən də görmüşəm. Mən çörəyimin savabını dəvəynən dəyişmirəm. Elə də oluf.

ŞAHZADƏ BƏNDALI

Biri var idi, biri yox idi. Bir padşah var idi. Bu padşahın altı oğlu var idi. Oğlanlar böyüyüb boya-başa çatmışdılar, amma hələ heç biri evlənməmişdi.

Günlərin bir günündə padşahın oğlanları ova çıxırlar. Ov zamanı ortancıl oğlan deyir ki, bəs atamız bizi niyə evləndirmir? Böyük oğlan Bəndalı deyir:

– Mən atama deyərəm.

Sonra qardaşlar gəlir evlərinə. Bir gün Bəndalı atasının hüzuruna gedib onunla xeyli söhbət edir. Məqam düşəndə belə deyir:

– Atayi-mehriban, bəs sənin heç bizi evləndirmək fikrin yoxdurmu?

Padşah xeyli duruxur. Sonra oğluna deyir:

– Hə oğlum, düz deyirsən, daha ev-eşik, oğul-uşaq sahibi olmalı vaxtınızdı. Sən hamıdan böyüksən, elə səndən başlasaq yaxşı olar.

Bəndalı deyir:

-Yox, atacan, bizim altımız da bir vaxtda evlənəcəyik. Özümüz də altı bacını alacağıq.

Padşahı fikir götürdü. Dedi:

- Ay oğul, bəs biz hardan tapaq altı bacını?

Bəndalı gördü atası çox fikirləşir. Dedi:

– Gərək ona razılıq verəsən, onda biz altı qardaş, altı bacını alacağıq. Özü də altı bacının altısı da padşah qızıdı.

Padşah dedi:

– Oğlum, indi sən o yolu göstər. Mən də baxım görüm razılıq vermək olar, yoxsa yox.

Bəndalı deyir:

– Ata, bu vilayətdən çıxıb gedərsən, qabağına bir ev çıxacaq. Evin iki mərtəbəsi olacaq, hər mərtəbədə də qırx otaq. Sən ikinci mərtəbəyə qalxarsan. Sonra orda gecələyib səhər açılan kimi üz qoyarsan səhraya. Çox gedəndən sonra

çatacaqsan bir məmləkətə. Bu məmləkətin padşahının altı qızı var. Onları versə alıb gətirərsən. Gələndə yenə çalışarsan ikinci mərtəbədə qalasan. Əgər birinci mərtəbədə qalsan onda mən sənin əlindən çıxacağam.

Padşah bir neçə gündən sonra tədarük gördürüb yola düşür. Az gedir, üz gedir, dərə-təpə düz gedir, çatır bir binaya. Padşah görür gecə düşür. İkinci mərtəbəyə qalxıb otaqların birində gecələyir. Elə ki, səhər açılır, padşah durub yenə yolu əlinə alır. Bir xeyli gedəndən sonra çatır bir şəhərə.

Padşah düz gedir məmləkət padşahının qapısındakı elçi daşının üstündə oturur. Bir azdan gəlib onu aparırlar saraya. Məmləkətin padşahı səfərdə oduğuna görə elçini onun arvadının hüzuruna aparırlar. Arvad padşahdan soruşur:

– Nə üçün gəlmisən?

Padşah deyir:

– Mənim altı oğlum var. Eşitdiyimə görə bu məmləkətin padşahının da altı qızı var. Razılıq versəniz mən sizin qızlarınızı öz oğlanlarıma alardım.

Yerli padşahın arvadı çox sevindi. O gedib bu hadisəni qızlarına xəbər verdi. Qızlar sevinib şad oldular. Arvad qayıdıb kişinin yanına gəldi. Dedi:

– Ay qardaş, sən bizdə qonaq qalıb gözləməlisən. Padşah gəlsin, nə məsləhət görsə o da olacaq.

Kişi bir neçə gün burda qonaq qaldı. Axırı padşah gəlib çıxdı. Arvad padşahla qonağı tanış edib hadisəni ərinə danışdı. Padşah razılıq verdi. Hazırlıq görüldü. Qızların altısı da faytona mindi. Padşah əlavə adamlar da qoşdu bunlara. Bəndalının atası altı bacını götürüb yola düzəldi. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gedib həminki binaya çatdılar. Kişi oğlunun sözlərini xatırladı. Odur ki, atları bir az yeyin sürməyi tapşırdı. Padşah özü arxadan gəlirdi. Binaya çatanda nə görsə

yaxşıdı? Gördü gəlinləri birinci mərtəbədə yerləşiblər. Kişi daha bir söz deyəmmədi, bildi ki, iş-işdən keçibdi. Gecəni yatdılar. Elə ki, səhər açıldı, hazırlaşdılar getməyə. Durdular evdən çıxsınlar. Baxdılar qapıda bir böyük əjdaha dayanıb. Kişi bildi ki, oğlu dediyi bu idi. Əjdaha dil açıb dedi:

– Ey padşah, əgər oğlun Bəndalını mənə verməsən, hamınızı qıracağam.

Padşahı fikir götürdü. Öz-özünə dedi ki, əgər mən Bəndalını verməsəm, bütün bu camaat qırılacaq. Yaxşısı budu, Bəndalını ona verim, bəlkə yaxamızdan əl çəkdi.

Padşah əjdahaya dedi:

– Ey əjdaha, oğlum Bəndalını verirəm sənə.

Əjdaha dedi:

– Onda adam göndər Bəndalını gətirsinlər.

Padşah adam göndərdi. Bəndalını gətirdilər. Atası Bəndalını görən kimi doluxsundu, bilmədi neyləsin.

Bəndalı dedi:

– Ata, bəs sənə söz demişdim, bəs niyə onu unudubsan?

Atası dedi:

– Oğlum, bacara bilmədim. Artıq iş-işdən keçib. Get, Allah sənə yar olsun.

Bəndalı dedi:

– Ata, mən gedirəm, üç il gözləyin. Gəlsəm heç, gəlməsəm, mənə gətirdiyin qızı qara geydirib atasıgilə qaytar.

Sonra Bəndalı əjdahaya qoşulub getdi. Padşah gəlinlərini də götürüb üz tutdu məmləkətinə.

Əjdaha da Bəndalını götürüb getdi. O, Bəndalını bir qayanın dibinə gətirib dedi:

– Ey Bəndalı, eşitmişəm sən padşahın oğlanlarından ən qoçağısan. Əgər mən dediyimi eləsən, onda sənə ənam verəcəyəm. Yox əgər yerinə yetirməsən, səni öldürəcəyəm.

Bəndalı dedi:

– Əmrini de.

Əjdaha dedi:

– Qədim bir şəhər var, gedərsən ora. Həmin şəhərin padşahının bir gözəl qızı var. Adına Gülgəz xanım deyərlər. Mən onu sevirəm. Onu alıb mənə gətirməlisən.

Bəndalı əjdahadan şəhərin yolunu-izini öyrənib üz tutdu Gülgəz xanımın arxasınca. Bir xeyli getmişdi, gördü üç div bir-biriynən savaşır. Divlər onu görən kimi dayanıb dedilər:

– Bax, ey bəni-adəm, sən bizim şərtimizi kəsməlisən. Əgər düz kəssən heç, düz kəsməsən, səni öldürəcəyik. Sonra divlər Bəndalıya bir uçan xalça, bir sirli süfrə, bir də bir sirli açar verib dedilər:

– Bu xalça elədi ki, üstünə minib "ey xalça, məni filan yerə apar" – desən ora aparar, bu süfrə elədi ki, onu yerə açıb "ey süfrə, mənə filan yeməyi ver" – desən verər, bu açarı hansı qıfıla göstərib "bu qapını aç" – desən qapı açılar. İndi bu üçünü bizim aramızda bölüşdür. Bəndalı xeyli fikirləşib dedi:

– Siz gedin, o görünən dağın başında bir qaya var, əlinizi ora vurub gəlin. Kim birinci gəlsə xalça onun, kim ikinci gəlsə süfrə onun, kim üçüncü gəlsə açar onundu.

Divlər üçü də birdən dağa doğru qaçmağa başladılar. Elə ki, onlar getdi, Bəndalı tez süfrəynən açarı götürüb xalçanın üstünə çıxdı. Dedi:

– Xalça məni Gülgəz xanımın məmləkətinə apar.

Xalça uçub uzaqlaşdı. Divlər gəlib gördülər ki, Bəndalı onları aldadıb. Kor-peşiman hərəsi öz yurduna yollandı.

Xalça gəlib bir şəhərin kənarında yerə endi. Bəndalı xalçanı yığışdırıb bir xeyli gedəndən sonra qabağına bir ağ ayı çıxdı. Oğlan tez süfrəni açıb dedi:

– Ey süfrə iki qoyun cəmdəyi ver. Bəndalı cəmdəkləri

ayının qabağına atdı.

Ayı cəmdəkləri yeyib dedi:

– Ey bəni-adəm, sən mənə çox yaxşılıq elədin. Bunun əvəzində de görüm məndən nə istəyirsən?

Bəndalı dedi:

– Mənim səndən heç bir istəyim yoxdu.

Ayı dedi:

– Al sənə bir tükümü verirəm. Nə vaxt işin müşkül olsa, tükümü yandırarsan, mən hazır olacağam.

Bəndalı ayının tükünü alıb yoluna davam elədi. Xeyli gedəndən sonra bir arxa rast gəldi. Gördü arxın o biri üzündən çoxlu qarışqa gedir. Qarışqalar arxın bu tayına keçməkdən ötrü xeyli dırmaşırlar, suyun nazikləşdiyi yerdə çox əziyyətlə bu taya keçirlər. Bəndalı tez bir saman çöpü götürüb körpü kimi arxın üstünə qoydu. Qarışqalar çöpün üstüylə asanca çayı adladılar. Bəndalı gördü ayağı çolaq bir qarışqa var. Tez əlini atdı, onu götürüb arxın bu biri tayına qoydu. İstədiyi yoluna davam eləsin. Çolaq qarışqa dil açıb dedi:

– Ey oğlan, sən mənə çox yaxşılıq elədin. Bunun əvəzinə sənə tük verirəm. Al, götür, nə vaxt dara düşsən yandır, sənə köməyim dəyər.

Bəndalı fikirləşdi ki, qarışqanın özü nədi ki, köməyi də nə ola. Ona görə almaq istəmədi. Qarışqa çox bərkidi. Axırda Bəndalı qarışqanın verdiyi tükü də alıb yola düşdü. Gəlib şahın yaşadığı yerə çatdı. Bir qarıya yaxınlaşıb dedi:

– Qarı nənə, məni qonaq saxla.

Qarı onu qonaq apardı. Oğlan qarıya yaxşı bir ev tikdi. Sonra arvada dedi:

- Get padşahın yanına. Denən qızını mənim oğlum Bəndalıya ver.

Qarı dedi:

– Ay oğul, padşah sənə qız verməz. Həm də o qızın şərtləri var. Hər kim o şərti yerinə yetirsə, o qız ona

gedəcək.

Bəndalı dedi:

– Ay nənə, sənin işin yoxdu. Get de, dalısıyla işin olmasın.

Qarı gedib padşahın elçi daşının üstündə əyləşdi. Onu padşahın yanına apardılar.

Qarı dedi:

– Qibleyi-aləm, mənim bir oğlum var, o sənin qızını almaq istəyir.

Padşah güldü:

– Axmaq qarı, oğlun bilmir, belə iş baş tutmaz. Padşah qızı hara, rəiyyət hara?

Qarı dedi:

– Ay padşah, nə bilim, deyir, nə şərti var desin, yerinə yetirim.

Padşah dedi:

– Get oğlunu bura gətir. Əgər şərtimə əməl eləsə, qız onundu, yox, əməl eləməsə boynunu vurduracağam.

Qarı gedib oğlunu gətirənə kimi padşah qızı Gülgəz xanımı çağırıb, əhvalatı ona danışdı. Bəndalı gəlib çıxdı.

Gülgəz dedi:

– Məni almaq istəyən dediyim şərtlərə əməl etməlidi.

Bəndalı dedi:

– Mən əmrə müntəzirəm.

Qız dedi:

– Bunu bir dama qatın, qapısını bağlayın, içəriyə dörd qazan aş qoyun. Bir gecəyə yeyə bilsə, birinci şərtimi yerinə yetirmiş olur.

Qız dediyi kimi də elədilər. Həm də dedilər ki, əgər yerinə yetirə bilməsə, boynu vurulacaq.

Bəndalı gecə fikirləşməyə başladı ki, bəs mən nə edim? Bu qədər xörəyi necə yeyim? Birdən ayının tükü yadına düşdü. Tez onu yandırdı, ayı qapıda hazır oldu. Oğlan açarı qapıya tutdu, qapı açıldı, ayı içəri girdi. Oğlan

əhvalatı ona danışdı. Ayı bütün xörəkləri yeyib qazanı da yaxşıca yalayıb getdi. Bəndalı uzanıb yatdı. Elə ki, səhər açıldı padşahın adamları gəlib gördülər qazanlar tərtəmizdi. Bəndalını şahın hüzuruna aparıb əhvalatı danışdılar. Şah da, qızı da mat qalıb oğlana baxırdı. Qız dedi:

– Bunu anbara qatın, qapını bağlayın, ordakı arpanı-buğdanı ayırıb hərəsin bir tərəfə yığsın. Zibili də bir tərəfə. Bu mənim ikinci şərtimdi.

Qız necə buyurmuşdusa elə də etdilər. Bəndalı qarışqanın verdiyi tükü yandırdı. Əhvalatı ona danışdı. Çolaq qarışqa gedib bütün qarışqaları gətirdi. Arpanı bir tərəfə, buğdanı da bir tərəfə ayırdılar. Bəndalı yenə rahatca uzanıb yatdı. Elə ki, səhər açıldı padşahla qızı yenə mat qaldılar. Qızın Bəndalıdan çox xoşu gəldi. Gözlədi, atası çıxan kimi Bəndalıya dedi:

– Ey igid, atam məni sənə vermək istəməz. İndi o, sənə üçüncü şərti deyəcək. O şərt ağır şərtdi, odur ki, mən özüm sənə kömək edəcəyəm. O, bir cam suyu uca sərv ağacına çıxaracaq. Gərək sən o suyu olduğu kimi də yerə endirəsən. Əgər sudan bir damcı düşsə, boynun vurulacaq. Al sənə bir üzük verim. Ağaca çıxanda həmin üzüyü suyun üstünə çək, su çevrilib buz olacaq. Ağacdan düşəndə yenə üzüyü suya çək. Dönüb su olsun.

Gülgəz xanım üzüyü Bəndalıya verib getdi. Bir azdan padşah Bəndalını çağırıb üçüncü şərti dedi. Sonra camaatı həyətdəki sərv ağacının altına yığdı. Bir dolu camı Bəndalıya verib dedi:

- Oğlan, elə çıx yenki, bu sudan bir damcı yerə düşməsin. Əgər düşsə boynun vurulacaq.

Bəndalı suyu alıb sərv ağacına dırmaşdı. Qız dediyi kimi də elədi. Ağacın lap başından hər yan görünürdü. Oğlan şəhərlərini gördü, kövrəldi, gözündən iki damla su düşdü. Padşah yerdəkilərə dedi:

- Yaxşı oldu, düşər düzün deyər, boynun vurarıq.

Bəndalı düşdü. Üzüyü xəlvətcə suyun üzünə çəkdi. Gətirib padşaha verdi. Padşah baxdı su heç tərpənməyib də. Oğlana dedi:

- Oğlan, bəs o yerə düşən su nə idi?

Bəndalı dedi:

- Qibleyi-alım, şəhərimizi gördüm, kövrəldim, gözümdən yaş axdı.

Padşah dedi:

- Bəs sən o qarının oğlu deyilsən?

Bəndalı dedi:

- Şah sağ olsun, mən bir padşah oğluyam. Sənin qızın Gülgəz xanımın gözəlliyini eşidib gəlmişəm.

Oğlanın padşah oğlu olması şahı sevindirdi. Gülgəz xanımı ona verib dedi:

- Oğlum, bizdə qız evi toy eləmir. Get Allah xeyir versin.

Bəndalı Gülgəz xanımı götürüb qarının yanına gəldi. Onunla halallaşdı, sirli açarla süfrəni götürüb, xalçaya mindi, bir baş əjdaha olan yerə gəldi. O, qıymırdı ki, Gülgəz xanımı əjdahaya versin. Amma əlacsız idi. Düz əjdahanın qayasının yanına gəldi. Birdən əjdaha eşiyə çıxdı. Gülgəz xanımı görüb yavaş-yavaş dəyişilib bir gözəl qız oldu.

Bəndalı çaş qalaraq soruşdu:

- Ey qız, məni bu sirdən agah elə.

Qız dedi:

– Ey qoçaq igid, məni tilsimə salmışdılar. Mən bir padşah qızıyam. Mənə demişdilər ki, nə vaxt padşah qızı Gülgəz xanımı görsən onda dönüb yenə qız olacaqsan. İndi bu tilsimi sən qırdın.

Bəndalı da, Gülgəz xanım da çox sevindilər. Bəndalı hər iki qızı götürüb üz tutdu evlərinə. Gəlib şəhərlərinin kənarına çatdı. Baxdı hər yanı qaraya bürüyüblər. Gördü

uzaqda bir çoban qoyun otarır. Çobanın yanına gəlib dedi:

- Ay çoban qardaş, bu şəhər niyə belə yas içindədi.

Çoban dedi:

- Qardaş, heç soruşma. Şəhərin padşahının böyük oğlunu əjdaha aparıb. Oğlan gedəndə üç il vaxt verib. Bu gün üç ilin tamamıdı. Oğlan gəlib çıxmayıb. Onunçün şəhər yasa batıb.

Bəndalı dedi:

- Çoban qardaş, həmin oğlan mənəm. Get padşaha muştuluq apar, sənə ənam versin.

Çoban birbaş saraya yollandı. bir azdan Bəndalı gördü bütün camaat ona sarı axışır. O camaatın dövrəsində, gətirdiyi qızlarla bərabər saraya getdi.

Padşah yeddi gün, yeddi gecə toy eləyib, oğlanlarını evləndirdi. Bəndalıya üç gəlin gətirdilər. Onlar yedi, içdi, dövrə keçdi, siz də yeyin-için, dövran sürün.

ANA ÖVLADINI ƏZRAYILDAN QAÇIRIR

Uşaxları olur, ölür, olur, ölür. Nəysə, diyir ki, ay Allah, mən nağarım? Mən başıma nə daş salım? Mənim balalarım olur, ölur. Nəysə, uşağı götürür, çıxır ayrı bir vilayətə gedir ki, Azreyil gəlif mənim oğlumu tapmasın. Nəysə, gedir, məsələn, bu kətdən gedir başqa kəndə qonax qalır. Bir uçux daxmaya irast gəlir. Bu uçux daxmada qonax qalır. Deer: "A bajı, Allah xətrinə, məni bu gejə qonax saxla". Diyir: "Allaha da qurban olum, qonağına da. Saxlıyaram səni Allah qonağı, gəl". Gəlir arvad, oturur. Diyir ki, səni nə vadar eliyir bu uşağı da götürüf düşmüsən çöllərə. Diyir ki, mənim balalarımın hamısı qırılır. Onunçən bunu götürüf Azreyilin əlinnən qaşmışam, bəlkə Azreyil mənim balamı tapmadı. Diyir: "A bala, xeyir gəlsin, bu Azreyilin öyüdü, mən Azreyilin anasıyam. Azreyil can almağa gedif, indi bax, bu saat gələjəh". Diyir: "Sən öyü dağılanın canı, bilirsən nə var?" Diyir: "Səə and verirəm sənnən kəsdiyim bu duz-çörəyə. - Duz-çörəh unçən müqəddəsdi ha. - Oğlun gələndə dinən unun canını almasın. Unu mənə bağışdasın". Diyir: "Yaxşı". Oğlu gəlir çöldən, görür ki, qonaxları var. Çağırır: "Ana, qonağımız kimdi?" Diyir: "Qonağımız belə, sənin əlinnən balasını götürüf qaçıfdı. Balası olduxca ölüfdü". Diyir: "Ana, buyünnəri unun vaxtı tamamdı. Unun canını almalıyam. İndi onun canını almağa gedəjəydim. Nağarım?" Diyir: "Bilirsən nə var?" Diyir: "Yox". Diyir: "O mənə duz-çörəyə and verifdi. Mən də səə bu döşümdən verdiyim südə and verirəm. Bu südümə and verirəm, uun canın alma, yazıxdı". Diyir: "Sabannarı gedirəm Allahnan kəlmələşməyə. "örüm Allah məə nə diyəjəh". "edir Allahnan kəlmələşir. Diyir: "Ya rəbbi, səə ayandı. Səə artıxdı mənim diməyim. Mənim əlimnən balasını götürüf qaçıf, gəlif mənim öyümdə qonax oluf. Anama duz-çörəyə and verif, anam da məə südünə and verdi. Deer, süd də müqəddəsdi, duz-çörəh də müqəddəsdi". - "Sən bilirsən nə var? Anana dinən ki,

sabannarı ona bir xamır yoğuruf versin, bir yuxa salsın. U uşağı elə eliyəjəm, uşax oda-yaloya dönəjəh. Çünki onun vaxdıdı, onun canı alınmalıdı. Onda, diyir, o uşağı özü öldürəjəh. Nə sənnən görmüjəh, nə mənnən". Deer: "Yaxşı". Sabannarı deer ki, arvada: "Məə bir az yuxa salarsanmı?" - Azreyilin anası deer. - "Niyə salmıram?" Xamırı yoğurur, verir əlinə. Uşağı Allah-tala elə eliyir uşax lap oda-yaloya dönür. Xamırı götürür ora tökür, xamırı götürür bura tökür. Axır bu təhnədə xamırdan qalmır yuxa salmağa. Arvad: "A bala, dəymə, a bala diş dur". Oxleyi elə vurur, oxley gedif düşür bax burdan (gicgahını göstərir - top.). Uşağın orda canı çıxır. Uşax ölür, arvad özünü vuruf öldürür orda. - "Ay öyü dağılanın canı, mən balamı Azreyilin əlinnən götdüm qaşdım, bura gəldim. Burda da özüm öz əlimnən öz balamı öldürdüm". Azreyil gedif Allahın yanına. Diyir: "Səə didimmi unu elə elijəm ki, nə sənnən görmüjəh, nə mənnən. Unun vaxdı tamamdı, ölməlidi u". Unnan sora arvad götürür uşağı, ağlıya-ağlıya gəlir öz öyünə. Buna diyillər: "Ay arvad, nağardın, noldu?" Didi: "Nə Allahın xəbəri yoxdu, nə də Azreyilin. Özüm öz əlimnən öz balamı öldürmüşəm". Bu da belə.

Atasından eşidib.

YAXŞILIĞA YAMANLIQ

Yolnan gedirdi. "edəndə görüf ki, ağajda bir dənə torba asılıf, içinnən səs gəlir. Diyir: "Ey insan, məni xilas eylə". Baxıf görür torbaan içində nəsə tərpənir. Torbanı ordan yerə qoyur. Düşən kimi bir dənə ilan çıxır içinnən. Bu həqiqətdi. Oluf belə bir şey, nağıl döylü. Bu ilan kəsif bunun qənşərini. Qalxıf ayağa, görüf yoğun bir gürzədi. Kimsə bunu torbaya salıf, bağlıyıf, asıf ordan. İnsana diyif ki, dayan. Diyif: "Navar?" Diyif: "Mən səni vurmalıyam". Diyir: "Niyə? Səni xilas eləmişəm ordan. Məni niyə vurursan?" Diyir: "Yox, vurmalıyam". - ""əl bəri gedək. Qənşərimizə kim çıxsa, onnan soruşax. Əgər o disə sən haxlısan, onda vurginən. Yox, disə ki, haxsız yerə niyə vurursan bunu, onda sən məni niyə vurursan ki?" Diyif: "Gedək, razıyam". "edillər. Bir az gedəndə gedif suyun üsdünə çıxır. Sudan soruşur. İnsan diyir: "Ya bu suyun mələkləri, özüzə əyandı, görürsüz. Mən bunu xilas eləmişəm. İndi bu məə diyir ki, səni vurmalıyam. Bu məni vurmalıdı?" Diyir: "Hə". Diyir: "Niyə axı? Mən bunu xilas eləmişəm". Diyir: "İnsan döyülsən?" Diyir: "Hə". - "Məndə, diyir, əlii-üzüü yuyursan, təmizdənirsən, ürəyii sərinnədirsən. Əlii-üzüü yuyanda qayıdıf bir də üzümə tupurüf gedirsən. Bəs vurulmalı deyilsən?" - su buna cavab verir. İlan diyir ki, indi nə deersən? Diyir ki, gedəh görəh indi qənşərimizə kim çıxar? Bir cannıdan soruşax. Bir az gedənnən sora bir tülkü çıxır. Diyir: "A tülkü, dayan". Dayanır. - "Bəs, hal-qəziyyə belə-belə". Diyir: "Bu ilan?" Diyir: "Hə". - "Harda idi?" Diyir: "Torbaan içində". Diyir: "Heç inanmıram o torbaan içinə girə. Nətəər girə bilər u torbaya" - diyəndə ilan diyir: "Düz deyir də. Torbadan çıxdım. Torbaya salmışdılar məni". Diyir: "Sən qayıdıf torbaya girə bilərsən?" Diyir: "Hə, niyə girə bilmirəm?" Torbanı qoyur. Diyir: "Qoy yerə, görəh nətəər girir o. Didiyi düzdümü". "irir, diyir, torbaya. Torbaya girən

kimi diyir: "Bağla ağzını, tez elə". Bağlıyır ağzını. Diyir: "Ağacı al ələə". Alır əlinə. Diyir: "Əz başını". Tülkü öldürtdürür bu ilanı. Diyir ki, hindi salamat ol, mən getdim. Tülkü bunu xilas eliyif. "edəndə bunun qənşərinə əli tüfəngli bir adam çıxıf. Diyif ki, nə axtarırsan? Diyir ki, nə bilim, ayınnan-bayınnan, çakqaldan, tülküdən. Diyir: "İncənə burdan bir tülkü getdi". Diyir: "Hardan?" Diyir: "Burdan". - "Beləsinə getsəm düz qənşərinə çıxaram?" Didi: "Hə". Belə fırranır kəsir tülkünün qənşərini. Kəsəndə görür tülkü gəlir. Tap, buna bir güllə. Tülkü yıxılıf ölür. Hindi o suyun bu insana didiyi söz haxlı çıxdı. O buna yaxşılıx elədi, bunu xilas elədi, bu görürsən onu öldürtdürdü.

PASLI QILINC

Bir nəfər insan yol gedirmiş bir qoca kişi. Bu yol çox uzun olur. Gedir, gedir, nəvəsiynən ikisi imiş. Bir yerdə, yaxşı sərin bir yerdə dayanır. Diyir ki, nəvəsinə, oturuf dəsdəmaz alax, sora gedərih. Səfərə çıxıllar. Hə. Bir vaxtı görüf ki, qarannıx qarışır. Daldan bir sürü gəlir. Tozdu-mozdu, buğanaxdımı, maldımı bilinmir. Ayannan bir sürü gəlir. Tez namazı qılıllar bular, yaraxlanıf gedillər. Getməhdə olsun, bir də görüllər ki, daldan bulara bir nəfəs çatır. İlannarın paccahıdı. Çatır, qojaya diyir ki, sən məni gizdə bir tərəfində - bu da atdı imiş, atnan gedirmiş, - u atın yalının altında bilmirəm, yəhərinin altında bilmirəm, qoynunda bilmirəm, hardasa məni gizdə. U daldan gələn sürü məni öldürjəhdi. Mənim olarla sporum düşüf. Diyir: "Mən səni haramda gizdiyim?" Qorxur qoja. Diyir: "Qorxmaginən, məni gizdə". Nəsə. Qalxızır ki, yəhərin altında otur, qalxızır torbasını, sumkasını, hara diyirsə, diyir: "Yox, tapajaxlar məni". - "Bəs mən səni haramda gizdiyim?" Diyir: "Aş ağzı, girim ağza". Diyir: "Bəs səən məə xatan dəyməz?" Diyir ki, dəyməz. Qoja açır ağzını, ilan gedir bunun qarnına. Hə. Diyir: "İsdədiyim vaxtı çıxajaxsanmı?" İlana sual eliyir girməmişdən qabax. Diyir: "Çıxajam". Gəlir sürü bunun qabağınnan keçir gedir. Burda da ilannarın böyühləri olur. Bunnan soruşullar ki, yolçu, burdan qanaddı, buynuzdu ilan keşdimi, gördünmü? Diyir ki, görməmişəm. Əstəfirlax, görməmişəm. Nəysə, ötüf gedillər. Bu sürü gözdən itə, görünməz olannan sora düşür nəvəsiynən çörəh yiməyə. Çörəh yiməzdən əvvəl diyir ki, ilan çıxsın qarnımdan, sora çörəh yiyəh da. Təklif eliyir heyvana, yalvarır ki, Allahın heyvanı, sən gəldin yanımdan keşdin, mən səə hörmət elədim, çıx, mən çörəh yiyəsiyəm. Diyir ki, çıxmaram. İlan ayna burulur qarnında, bayna burulur. Çıxmır bunun qarnınnan. Nəsə. Bu uşax dəsdəmaz alır yönü qibləyə.

Yalvarır Allaha ki, ya bizim rəbbimiz olan tək Allah, bunu babamın bədəninnən irağ eyləginən. Belə diyəndə görür ki, babası yoxdu burda, yanında yoxdu. Həm də bir qoja kişi gətdi buna passı bir qılış verdi. Passamış qılış verdi ki, bunu belə-belə eləginən (söyləyici qarnının üstündən çarpaz xətt çəkir - top.), çıxajax. Passı qılışı verən kimi bu adam qayb olur, yox olur. Görür ki, babası oturufdu, hələ də yalvarır ki, ay Allahın heyvanı, gəl çıx. Çıxmır. Hə. Oxuyur, passı qılışnan belə-belə eliyir, diyir: "İndi qus". Qusan kimi ilan xırda-xırda gəlir tökülür. Nə əti kəsilir, heç harası kəsilmir. Unnan sora ular çörəh yiyir, yola düşüllər.

XEYİRXAH HEYVANLAR

Biri ayləsiynən gedirdi. Baxdı gördü ki, bir canavardı, bir çakqaldı, bir tülküdü. Bular elə bir əlyandıdadı ki, gəl görəsən. Kişi dedi ki, ay arvad, bu nə diyən sözdü. Tülkü, canavar, çakqal, bu üçü bir yerdə ünsiyyət eliyən döylü, bu üçü də yırtıcıdı. Bu nə hak-hesabdı görəsən? Diyir: "Nə bilim?" Nə bilim deyəndə canavar çıxır buların yolunun qabağına. Yolu kəsir, durur. Arvad diyir ki, kişiyə, söz tapmadın da danışmağa. Eşitdi gəldi ey, bu. Bizi bəlkə də parçalıjax. Diyir: "Yox, arvad, bu sözdü adama oxşuyur". Diyir: "Adama yox, canavara". Diyir: "Əşi, canavar oldu, adam oldu, nə mənası var. Bir nəfəs ona verif Allah, bir nəfəs mənə. Bizim nəfəsimiz iki, onku bir döylü ki?" Diyir: "Allahın heyvanı, nə isdiyirsən? Sözüü deyə bilirsən, sözüü di görəh. Güjüm çatarsa, köməh eliyərəm". Gəlir tutur arvadın tumanınnan, başdıyır çəkməyə. Deyir: "Ə, yox. Bir zulumnan onu özümə almışam, səə almamışam ki? Arvadı hara aparırsan, məə verginən". Canavar nə qədər eliyir kişini başa sala bilmir. Bu səfər kişinin özünün qolunnan yapışır, çəkə-çəkə aparır. Aparır gedir, görür ki, tülkü balalamax isdiyir, balalıya bilmir. Əziyyət çəkir. Bular da buna kömək eləməh isdiyirmiş, eliyə bilmillər. Kişi çağırır: "A arvad, sən dədəə goru, gəl buların əlinnən məni xilas elə". Diyir ki, mən nağayrım olara? Tüfəyim var, atam öldürəm? Diyir: "Atmax yox. Burda tülkü var, balalamax isdiyir, balalıya bilmir. Bu da mənnən əl çəkmir, tülkünü gösdərir məə. Mənim də nə başım çıxır unnan". Gedir arvad, nəysə, tülkünü doğuzdurur, onnan sora çıxıf gedillər. Tülkü diyir ki, tez qardaşımı bura çağırın. Gedir çakqal bunun qardaşını tapır, götürür gəlir. Diyir: "Düş u adamların dalına. U adamları güd, axşam olar harda hansı öyə girəjəhsə, o öyün yeriin öyrənginən". Diyir: "Niyə?" Diyir: "Olara hörmət eləməliyəm mən". Nəysə. Kişiynən arvad nə bilsin. Gedillər bular başqa kənddə qohumları varmış, ora.

Gəzillər, axşam qayıdıllar öylərinə. Gənə həmən yolnan gəlməlidi da. Yolunu dəyişjəhdi? Tülkü də güdür buları. Gəlillər öylərinə. Bu həyətdimi? Hə. Gəlir bajısına diyir. - "Öyrəndim". Diyir: "Lap yaxşı".

Bir az balaları iriləşənnən sora canavar diyir ki, sənnən bir xayişim var. Deer: "Di". Diyir: "İnsannar arasında zahıya (söyləyici mamaça əvəzinə yanlışlıqla zahı işlədir - top.) xələt verillər. Onnarda sabın verillər, onnan sora pul verillər, darax verillər. Bizim də belə şeylərimiz yoxdu. Xayiş eliyirəm bir dənə yaxşı qoyun tap, məə verginən". Diyir: "Verərəm". Çakqala diyir: "Çakqal, bir cüt yaxşı hinduşka da sən tap". Diyir: "Taparam". Tapır buların hamısını. Özü də bir neçə çolpa tutur, homalıyır. Gejə diyir ki, məə köməhlik eliyin aparax buları o kişinin qapısına. Aparıf gedillər. Hinduşkanı, toyuğu, qoyunu homalıyır, başdıyıllar qapını cırmaxlamağa. Kişi çıxır görür ki, ə, bir topa hinduşka da var, toyux da var, qoyun da var. Həmən tulküdü, həmən canavardı, həmən çakqaldı. Diyir: "Arvad". Diyir: "Hə". Diyir: "Vallah, u köməhlik elədiyin tülkü, çakqal, canavar, üçü də qapıda durufdu, əl çəkmir qapıdan. Yannarında da bir qoyun var, iki hinduşka, bir neçə də çolpa". Diyir: "Hə, mənim hakkımdı, hakkımı gətiriflər". O günnən heyvan olmağına baxmıyarax olar başdıyır o adamlarla dostdux eləməyə. Nə adamlar olara dəymir, nə də olar o adamlara dəymir. O hak-hesaba o kəndə də ya özdəri sataşmır, nə də başqalarını sataşmağa qoymullar ki, burda bizim dosdumuz var. Onunçün deyillər ki, söhbət düşəndə ə, filankəs alçax adamdı, heyvan onnan yaxşı başa düşür həyatda hər şeyi. Bax, belə şey olur, misal da bunnan yaranır ki, ə, heyvan sənnən yaxşı qanır.

Bunu da qoja kişilərdən, qadınnardan söhbət arası düşəndə eşitmişəm.

MUSA PEYĞƏMBƏRLƏ XIDIR NƏBİ

Bir gün Musa peyğəmbər yatır, öz elminə çox qürrələnir. Qürrələnəndə Allah tərəfinnən vəhy gəlir ki, ya Musa, üş günnüh yol çörəyi götür, bir dənə də duzda bişmiş balıx, çıx səyahətə. Harda usdadıı görsən orda u balıx diriləjəh. O usdadınnan bir üş günnüh dərs al. Ustad da olur qurban olduğum Əleykətsalam peyğəmbər. Ayılır yuxudan, görür ki, yuxudu. Əl qaldırıf ibadət eliyir ki, bəs belə bir yuxu... Diyir: "Ya Musa, yuxu döyül, tapşırıxdı, əməl elə". Diyillər ey, filankəs bu işi gördü... Ə, şeytan qəlbinə doluf da, yazığı yolunnan azdırıf. Indi kimliyinnən asılı olmuyarax, şeytana Allah nəhlət eləsin. Şeytan qüvvəli oluf, yolunnan çıxarıf hamını, abidi yolunnan çıxarıf. Nəysə, şeytan girif qəlbinə, şəkk gətirif. Gedif balığı alıf, duzda bişmiş balığı, diif: "Ya qurban olduğum, nə bilim nə vaxt bişifdi duzda, bu nə vaxt dirilər ki, mən usdadımı tapam".

Gəlir, nəysə, arvada diyir: "Üş günnüh məə yol çörəyi qoy". Qoyur. - "Hara gedirsən". - "Özüm də bilmirəm. Səfərim var, üş günnüh səfərə çıxıram". Balığı da qoyur xurcuna gedir. Dəryanın qırağıynan gedirdi, qaynar qum idi. Günorta namazının da vaxdı çatıf. Gözü işdədikcə qabağa baxır, görür ki, bir daldalıx yoxdu. - "Ya rəbbi aləmin, mən nətəər eliyim, mənim namazımın vaxdı ötəjəh. Burda da bir daldalıx yox, bir çəmənnih yox, bir ağac kölgəsi yox, qumun üsdündə, qaynar qumun". Belə fikirnən deməli bir dəfə başını qaldırıf qarşıya baxıf. Bu fikri eliyif bir də başını qaldıranda görüf ki, özünnən bir on metr aralıda bir ağaj var, bir kəndin adamı yığılıf divində məclis eliyər. Heylə bir ağac var. Gedif ağacın yanına çatanda görür ki, ağacın dibində ağsakqal bir adam oturuf burda. - "Salam məleyki". - "Əleykimət salam". - "Qardaş, icazə olarmı mən də xurcunumu qoyuf bir hor burda namaz qılıf dincələm?" Diyir: "Buyur, niyə olmur ki? U nə söhbətdi?"

Deməli, bu gedir ki, suyun qırağına dəstəmaz alım,

yadına düşür ki, balıx sora dirilər, eliyər, bilmərəm. Qayıtmax isdiyəndə diyir ki, ya Musa, qayıtma, get dəsdəmazıı al, namazıı qıl. Narahat olma. Bilirəm nəyə görə narahatsan? Narahat olma, get". Gedir dəsdəmazını alır, namazını qılır, gəlir xurcunun yanına ki, balıx dirilər qaçar. Diyir: "Əşi, niyə narahat olursan, Allah sənə köməh olsun. O heyvan düşüfdü, bax irəddiynən get, - demək, qumu yara-yara gedifdi suya, - irəddiynən get, intaası suyun üsdündədi. Suyun üsdü də qaynardı, səni görsün çöksün, səni görməsə, aşağı çökmüjəh. Çöksün suyun sərin yerinə". Gedir baxır, görür ki, bu gətirdiyi balıxdı, həqiqətən, orda da fırranır. Kişini görən kimi cumur suyun dibinə. Bu qəlbində diyir ki, hə, usdadımı tapdım, daa dərs ala biləjəm.

Bəli, gəlir oturur, bir loxma çörəh, naharraşıllar. Diyir ki, ya Musa, bir gəmi gələjəh, burda bir kənd var, ora getməliyih. Diyir: "Baş üstə". Gəmi gəlir bulara çatanda yan alır, oturullar. Musa peyğəmbər baxır görür ki, bu gəmi elə bir gəmidir ki, elə bil məə, bir dənə ququladı. Heylə bəzəkli. Allah-taladan da qurban olduğuma tapşırıx idi ki, u gəminin sahibi on iki baş külfətdi. O gedir başqa bir vilayətə, o vilayətin də padşahı nəfsdən itidi. Gəmini onun əlinnən alajax. O gəmiyə otur, gəmini löyümnən sal, yazıxdı, unun əlinnən çıxmasın.

Bəli, oturdular, diyir. Musa peyğəmbər baxdı ki, qurban olduğum Əleykətsalam cibinnən qəmətli çıxardıf başdadı gəminin şəklini-zadını qazıyıf tökməyə, löyümnən salmağa. Oturanda da dimişdi ki, ya Musa, mən nə eləsəm mənim işimə qarışma ha! Qarışsan mənnən bir nəticə görmüjəhsən. Axırda hamısını səə söhbət elijəm.

Bəli, bu dözə bilmir, qəlbində diyir ki, ya rəbbim, ya aləmin, mənim məllimimə bax, kişinin bu cürə gəmisini nətəəri qıyıf bu günə qoyur bu. Mən bunnan nə dərs alajam. Diyir: "Ya Musa, səə didim axı, mənim işimə qarışmaynan. Qarışma mənim işimə". Görür ki, buna agah oldu. Nəysə, gedillər düşüllər bunun didiyi kəndə. Düşəndə Musa peyğəmbər

bilirdi ki, bu kənddə erməni yaşıyıf. Amma bilmirdi ki, erməni yaşıyannan qabax bu kənd nə kəndi oluf. Demə, kənd oluf vaxtiynən mömin müsəlman kəndi. Vəbadan hamısı qırılıf, beşikdə bir dənə uşax qalıf. Gəlif ermənilər basılıf bu kəndə, basılanda bu uşağı ermənininin axçığı görüf, diyir: "Hə, Allah elə bunu özü yetirif bizə, övladımız yox, bir şeyimiz yox. A kişi, bunu saxlıyax". Diyif: "Müsurman balasıdı, lazım döylü, götür tulla çölə". Diyif: "A kişi, bu beşihdədi, bələhlidi. Bu nə bilir müsurmandı, ermənidi, nədi? Bunu biz böyüdəjəyih, biz tərbiyə edəjəyih, gözünü də açıf bizi görəjəh". Nəysə, çox zad eliyillər, arvad əl çəkmir ki, bunu saxlıyajam. Arvad bu uşağı saxlamaxda olsun, bura da Əleykətsalam ona görə düşüf ki, həmin uşağın olduğu öyün küncünə atası bir qabda qızıl basdırıfdı ki, bu uşax on səkkiz yaşa çatanda u qızılı ordan öyü söküf çıxardajam, göydə əlçatmaz yerdə olsun, uşağıma ehtiyatda. Həmən yerdən qızıl aşağı çöküf, barı partdıyıf, küş barı partdıyıf. Qurban olduğum Əleykətsalama tapşırıf ki, ora əlii çəkginən. Orda u kişi mənə əmanət tapşırıf qoyufdu uşaxdan ötrü. O əmanət ora uşsa ələ keçər. U barıya əlini çək, barı birrəşsin. Gəlir qurban olduğum Əleykətsalam, u barıya əlini çəkir, barı birrəşir. Musa peyğəmbər yenə dözə bilmir. Qəlbinnən keçirir ki, ya qurban olduğum, bu nə işdi? Mənim məllimim gavurun öyünə əlini dayax verif. Gənə qurban olduğum Əleykətsalam diyir ki, ya Musa, didim axı, qarışma mənim işimə. Bu ikinci, ikisinə də qarışdın.

Demək, bir kənddə yolnan gedillərdi. Bir dənə qoja ağajın başına taxta vurub, taxtanı sinəsinə söyküyüf, ağacın ucunu irəli eliyir, ayaxlarını atır. U dərəcədə qojalıf, yeriməyə imkanı yoxdu. Baxır qurban olduğum Əlekətsalam: "Ya rəbbi, özəə ayandı, buna beş il də ömür ver". Musa peyğəmbər buna da təəccüb eliyir: "Bunun nəyinə ömür diliyir, bu ölüf da, iki qat yumaxdı". Bir dənə on dörd-on beş yaşında uşax gəlir, yaraşığınnan yol işıxlanıf bunun. Baxır qurban olduğum Əleykətsalam: "Ya rəbbi, özün bilən yaxşıdı, nə getməli

vaxtıdı". Diyəndə Musa peyğəmbər yapışır bunun yaxasınnan, diyir: "Səə qurban olum, burdan bayna bir addım da getmijəm, özüm də partdadım. Bu gördühlərimi məə agah elə, bəs elədi məə. Sən u yumağa beş il ömür isdiyirsən, bu cür yola işıx salan adama ölüm isdiyirsən. Bu nə sirdi?" Didi: "Ya Musa, u yumağın yüz iyirmi yaşı var, hələ savab dəftərinə əl dəymiyif. Necə savab dəftəri qoyuluf, heylə də durur. Günah dəftərində də yer yoxdu elədiyi günahı yazmağa. O müsürman xalqıdı, mən o dünyada ona əl uzadıf cəhənnəm odunnan xilas eləməliyəm. Mən ona nətəəri əlimi uzadım, axı onun savabı yoxdu. Ona Allah-tala beş il ömür verdi, savab dəftəri də bu günnən açıldı. Mən ona o dünyada əl uzada biləjəm. Qaldı bu cavan. U cavan da belələrinin bir milyardını cəhənnəm odunnan xilas etməyə mənə köməhçidi. Bəs məə köməhçi lazım döylü? Sən görmədin ki, o yeridihcə yola işıx salırdı. O bizim kimi üzü nurrudu. Ona görə Allahdan diləh dilədim, keşdi qəbula. İnanmırsan, dey, bax gətirillər cənazəni". Çörühdü gördü, həqiqətən, cənazəni gətirillər. Cənazəni gətirillər, fikri cənazədə, çörühdü gördü Əleykətsalam yoxdu. Ay aman, ay dad. Yüürdü bu səfər cinazənin yanına. - "Ə, bu kimdi, nəçidi?" Didilər: "Vallah, bir on dəyqə, on beş dəyqə bunnan qabax sağçillə küçədə gəzən uşax beyqəfildən yıxıldı, dəfn elədik". Diyir: "Hə". Qayıdır gəlir. Allah-talaynan kəlmələşəndə diyir: "Ya rəbbi, ya aləmin, mənim səyfimdən keç. Böyüh bir səyf eləmişəm, bilməmişəm".

İndi ay oğul, dünya yiyəsiz deyil. Gejəni gündüz eliyən varsa, deməli həyatda nə deyilir hamısı var, "Quran"da nə deyilir hamısı var.

BACI HƏSRƏTİ

Cənabi peyğəmbər meçitdə namaz qılırdı. Qılan vaxtı, diyir, hamı dağıldı, meçitdə bir kişi qaldı. Didi: "Sən niyə getmədin?" Didi: "Səə bir sualım var". Didi: "Nədi?" Didi: "Səə u sualım var ki, məə di görüm mənim qırx yaşım var, buyündən arı neçə il yaşıjam?" Didi: "Sən Allahın yanına gedif kəlmələşirsən?" Didi: "Hə". Didi: "Allah-taladan unu məə xəbər al, gəl unu məə di". Deyəndə didi ki, yaxşı, diyərəm.

Nəysə. Danası günü cumaya gedəndə gənə dayandı. Didi: "Xəbər aldın?" Peyğəmbər, diyir, demədi. Didi: "Yadımdan çıxıf". Didi: "Xəbər al". Didi: "Yaxşı".

Nəysə, danası gün gedəndə gördü gənə dayanıf. Didi: "Xəbər aldın?" Bunun müddəti az idi. Deyəndə dedi ki, hə, xəbər aldım. Didi: "Nədi?" Didi: "Səən bir il müddətin var, il tamam olanda dünyanı dəyişcəhsən". Ağzınnan, diyir, peyğəmbərin kəlmə çıxdığıynan kişinin başı-gözü ağarmağı sekunda oldu. Tamam ağardı, diyir, fərz elə oldu doxsan yaşında, qırx yaşında yox. Özünü birtəri öyə gətirdi çatdırdı. "əldi, diyir, oturdu öydə, nə çölə çıxmadı, nə namaza getmədi, nə də bir şeyə. "ejə-gündüz bunu fikirrəşdi ki, il tamam olsun. Ha bir gün, ha iki gün, bir gün deyir arvad bunnan xəbər aldı ki, dur gəl çölü-çörəni gəzginən, bəsdi səninki. Didi ki, yox, arvad. Didi: "Di görüm səə nolub, bu başı-gözü ağarmağın?" Didi: "Arvad, onu xəbər alma". Bu, diyir, körpə uşax olanda, fərz elə üş-dört yaşında bir bajısı oluf, qoşuluf qaşmışmış qeyraz bir kəndə. O qoşuluf qaçanda qırx yaşa kimi nə bajısının üzünü görüf, nə də bajısı bunun üzünü görüf. Bir birini tanımır. Nəysə, bir günü bu kişidən əl çəkmədi. Didi: "Bəs iki-üç ay qalıf mənim vaxtıma, mən dünyamı dəyişəjəm. Peğəmbərdən xəbər almışam, ona görə mənim başım belə ağarıf". Bu kəndə çıxanda arvadın da başı-gözü ağardı qorxusunnan. Didi: "Kişi, bilirsən nə var? İndi ki, bunu səə peyğəmbər deyifdi". Didi: "Hə". Didi: ""et bajınla

heş olmasa görüş. Sən dünyanı dəyişjəhsən, bajınnan görüş". Diyəndə dedi ki, bilmirəm axı hansı kənddədi. Dedi: "Filan kəntdə, get, adı da filankəsdi. "et bunu ordan örgən, unu tap, onnan görüş, daa ömrünün axır çağıdı".

Bu deyir yeməhdən-zaddan yedi, arvad, diyir, əlinə dəyənəh verdi, saldı yola. "əzə-gəzə getdi, diyir, kəndin ortasında bulax var, o bulağın başına çatanda gördü bir qadın bir güyümdə su dolduruf dayanıfdı, buna baxır. "əldi, diyir, yaxınnaşdı, çatdı, zəndnən, diyir, - öz bajısı oluf, - baxıf buna, görüf ki, öz qardaşıdı. Deef: "Ay bajı". Diyif: "Hə". Diyif: "Filankəsin öyünü axtarıram, ora qonax gəlmişəm". Diyəndə arvad didi ki, buna beyqəfil disəm ki, sənin bajınam, kişi öləjəh, dimədi, diyir. Didi: ""əl gedəh qardaş, mən səni aparım, gəl gedək". "ötdü, diyir, bunu apardı öylərinə. Otuzdurdu, diyir, yaxşı una çay-çörəh, başına keçməh, üzünnən öpməh, nə bilim nə, nə. Didi ki, ay bajı, axı mən filankəsi görməyə gəlmişəm, o mənim bajımdı, mən onu görməh isdiyirəm. Çox sözdən sora əri də gəldi. Ərinə dedi ki, hak-hesab budu. Əri, diyir, bunu başa saldı ki, ə, səən bajındı da bu. Təzdən duruf görüşdü, elədi, diyir. Bu bir az elə bil cavanlaşdı. Nəysə, bir həftə qaldı burda, bir həftədən sora gələndə didi: "Bajı, bilirsən nə var?" Didi: "Yox". Didi: "Üş günnən bir dəfə, iki günnən bir dəfə mümkünsə gəl mənnən görüşginən, mən gələmmirəm". Didi: "Yaxşı". Çıxdı getdi, diyir, öyə. İki günnən bir dəfə, üş günnən bir dəfə gəldi, diyir, bajısı bunnan görüşdü. İl tamam oldu, bu dünyasını dəyişən vaxtı ildən də bir ay artıx keşdi, bu dünyasını dəyişmədi. Durdu, diyir, ayağa, cuma günüydü, düz gəldi meçidə. Namazını qıldı, diyir, dayandı axıra. Didi ki, peyğəmbərə, saa qurban olum, axı sən məə dimişdin il tamam olanda dünyamı dəyişəjəm? Bir ay keçifdi, mən dünyamı dəyişməmişəm axı. Didi ki, iki yaşında, üş yaşında sənin bajının qoşuluf qaçmağını diyiflər səə? Didi: "Hə". Didi: "Onu tanıyırdın?" Didi: "Yox". Didi: "Bəs noldu?" Didi: "Ömrümün

axırına bir-iki ay qalmış gedif onnan görüşmüşəm". Didi: "Onnan görüşdüyə görə Allah-taala səə qırx il ömür bağışlayıf. Sən ölmüjəhsən, qırx il yaşıjaxsan, get didi yaşa, bajınnan da həmişə ünsiyyət elə". Kişi, diyir, unnan sora elə bil ki, cavannaşdı, çıxdı getdi. Rəvayətdə heylə şeylər də var.

GÖZ YAŞI

Allah-tala Məhəmməd peyğəmbərə diyir ki, ya Məhəmməd, səən ümməti mən sınıyajam, görüm səən ümmətin mən tərəfə nətəridi. Diyir: "Sına da!" Sınıyır. Bir kəndin qırağında, diyir, bir kişinin üş dənə oğlu olur. Həzrət Cəbrayılı vağiyə sifətində göndərir ki, sən get ona dinən ki, onun oğlannarının üçünü də əlinnən alajam. Gejə yatır, yuxuda görür ki, Həzrət Cəbrayıl gəldi didi ki, bəs Allahdan nidadı, özə əyandı, səən oğlannarı əlinnən alajaxdı. Diyər ki, verən də Allahdı, alan da Allahdı. Versə də Allahdı, verməsə də Allahdı. Məsləhət özünündü.

Aradan beş-altı gün keçənnən sonra bunun böyük oğlu dünyasını dəyişir. Böyük oğlu dünyasını dəyişir, diyir, məsləhət özünündü. Aparır, nəsə, bunu dəfn eliyir. Aradan bir üş gün keçənnən sora bunun ortancıl oğlu dünyasını dəyişir. Obşim, qırx gündə bunun üçünü də əlinnən alır. Üçünü əlinnən alanda, axırıncı oğlunu basdıranda, ata oğula ağlamamalıdı. Nə qədər ki atadı, o, oğula ağlamamalıdı. U, oğula ağlıyanda, kitabın diməsinə görə ha, rəvayətin diməsinə görə, ata oğula ağlıyanda zəhmətə düşən şeydi. Ona görə gərəh ağlamıya. Axırıncı oğlunu dəfn eliyəndə bunun gözü yaşarıb bir damcı bunun qəbrinin içinə düşüfdü. Nəsə, basdırıf bunu, dəfn eliyif gəlif.

Aradan bir müddət keçənnən sonra Həzrət Cəbrayılı göndərif qurban olduğum ki, get u kişiyə dinən ki, getsin böyük oğlunu çağırsın. Böyük oğlu didi una səs verəjəhdi. Gəlir, diyir, qəbrin başı üsdündə durur. Diyir: "Ay oğul, ay oğul!" Dərinnən səs gəlir. Qəbir yarılır, amma heç kim görünmür. -"Ay oğul, ay oğul, ay filankəs". Dərinnən, diyir, hay verir. Qəbir, diyir, yarılır, diyir, özünü görmür. Diyir: "Ay oğul, niyə gej gəlirsən belə, mən səni çağırmıram? Çaarığa niyə belə gej gəlirsən?" Diyir: "Ay ata, vallah, sən çağıranda birinci dəfə eşitdim. Səhər-səhər qəbirstannığın yanınnan

cavan oğlan keşdi. O, didi, burda bir "Əlhəm" surəsi oxudu, bizə bağışdadı, burda yatan ölülərə bağışdadı. Unu, didi, bölüşürdük, ona görə, didi, bir az ləng gəldim?" Atası buna didi ki, ay oğul, bir "Əlhəm" surəsi nədi ki, unnan səə pay düşə?" Didi: "Ay dədə, Allah qəbul eləsin. Mənim payıma Tur dağı boyda düşdü". İndi Tur dağı nə boydadısa, onu mən bilmirəm. Hə, qəbir yumulur, diyir, bu qayıdır gəlir. Aradan üş gün keçənnən sora diyir: "Get indi ikinci oğluu çağır". Gedir gənə. İkinci oğlunu çağıranda bu gej gəlir. Gej gələndə diyif: "A oğul, sən niyə belə gej gəlirsən?" Diyir: "Ay ata, didi, cənnət bağında su suluyuram, axşamdan, didi, cənnətə su qoymuşam, səhər-səhər cənnət əhli gələndə yola su çıxır, palçıx olur, gələ bilmirlər. O suyu kəsməyə getmişdim, ona görə gej oldu. Yolu sulamax günahdı, diyir. Nə vaxd ki, yolu suvarırsan o günahdı. Gərəh yola su buraxmıyasan. Ona görə, diyir, bir az gej gəldim". Diyir: "Hə, lap yaxşı". Diyir: "Yerin rahatdımı?" Diyir: "Hə". Diyir: "Yerin nurnan dolsun" - diyif çıxıf gəlir.

Aradan üş gün keçənnən sora, diyir, bu birisi oğlunu çağırır, balacanı. Balaca oğul, diyir, çox çətin gəlir. Gejdən gej gəlir. Hay verir. Diyir: "Ay oğul, niyə belə gej gəlirsən, səni çağırmıram?" Diyif: "Ay ata, yol-iriz yaman palçıxdı didi. - Gözünün bir damcı yaşıdı ha yolu-irizi palçıx eliyən. - Ona görə gəlif çıxammadım, didi. İki-üş yerdə batdım, diyir, üsdüm-başım batdax birtəri gəldim çıxdım". Gərək ata oğula ağlamasın. Oğul ataya nə qədər ağlıyır ağlasın.

NAĞILLARI SÖYLƏYƏNLƏR VƏ TOPLAYANLAR HAQQINDA MƏLUMAT

Qəşəm şahın nağılı. İlk dəfə "Şah Abbasın arvadı" nağıllar toplusunda çap olunub. B., 1996, s.38-52. Söyləyəni Məmmədov Saleh, Daşkəsən rayonu. Toplayan: Füzuli Bayat.

Səlimin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın III cildində (Göyçə folkloru) çap olunub. B., 2000, s.277-284. Söyləyəni Məcidov Nəsrəddin Mirələkbər oğlu, Göyçə mahalı, Ağqala kəndi, 70 yaşında. Toplayan: Hüseyn İsmayılov.

Məhəmmədin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın III cildində (Göyçə folkloru) çap olunub. B., 2000, s.323-331. Söyləyəni Zeynalov Balı Bayram oğlu, Göyçə mahalı, Ağbulaq kəndi, 70 yaşında.

Kor dəvə. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.170-172. Söyləyəni Salahova Reyhan Molla Cuma qızı. Toplayan: Ramazan Qafarlı

Naxırçı ilə padşah qızı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.297-308.

Vəfalı dostlar. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.189-198. Söyləyəni Vahabova Tutu Cabbar qızı, Şəki şəhəri, 1923-cü il təvəllüdlü. Toplayan: Oruc Əliyev.

Gülhüseyn pəhlivan. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.67-68.

Güllü ilə Səlimin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.239-241.

Peyğəmbərin nəsihəti. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın V cildində (Qarabağ folkloru) çap olunub. B.,

2000, s.244-247.

Vardan səxavət yaxşıdı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.247-249.

Padşahın dədəsinnən xəbər. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.184-185. Söyləyəni İslamova Rəhimə, Şəki şəhəri, II Biləcik kəndi, müəllimə.

Kömbə. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.185-187. Söyləyəni Musayev Əhmədiyyə Əziz oğlu, Şəki şəhəri, Cəfərabad kənd orta məktəbinin müəllimi, 60 yaşında.

Zülhəccə ilə ilan. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.187. Söyləyəni Vahabova Lütfəli Şirəli oğlu, Şəki şəhəri, təqaüdçü müəllim, 73 yaşında.

Hüdcü Musa. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.188-189. Söyləyəni Əli baba, Şəki şəhəri, Qaralar kəndi, 90 yaşında

Çoxbilmiş nəvə. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.189-190. Söyləyəni Əli baba, Şəki şəhəri, Qaralar kəndi, 90 yaşında

Qaraxan və Duraxan. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.211-216. Söyləyəni Məmmədov Əbdül, Qəmərli rayonu, Yamancalı kəndi, 60 yaşında.

Şeytanın nağılı. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.216-220. Söyləyəni Səfərova Fatma İbrahim qızı, Vedi rayonu, Qaralar kəndi, 82 yaşında.

Tülkünün oğurluğu. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004,

s.113-114. Söyləyəni Səfərov Yunis İbrahim oğlu, Vedi rayonu, Qaralar kəndi, 70 yaşında.

Tülküynən xoruz. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.114. Söyləyəni Ələkbərov Fərman Məhərrəm oğlu, Vedi rayonu, Qaralar kəndi, 74 yaşında.

Tacir oğlu ilə Səmərqəndin nağılı. Azərbaycan folkloru antologiyasının XI cildində (Şirvan folkloru) çap olunub. B., 2004, s.159-160. Toplayan: Seyfəddin Qəniyev.

Baxt. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın VIII cildində (Ağbaba folkloru) çap olunub. B., 2004, s.176-177. Söyləyəni Mədəd baba, Ağbaba bölgəsi, Göllü kəndi, 74 yaşında.

Evi kim tikər? İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.143-146

Tacirlə dərviş. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.150-154

Padşahla vəzirin səyahəti. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.155-156

Məhəmmədin kələyi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.230-232

Şirzadın nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.232-236

Şahın tənbəl qızı. İlk dəfə Ə.Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" kitabında çap olunub. B., 2003

Kəmsərin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.300-301. Söyləyəni Məhərrəmov Bayram İmamqulu oğlu, Qubadlı rayonu, Sarıyataq kəndi, ibtidai təhsil, 1935-ci il

təvəllüdlü. Toplayan: V.Nəbioğlu

Çobanın duası. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.301-303.

Qara çəyirtkə. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.303-305. Qafan rayonu, Gomuran kənd sakinindən qeydə alınıb. Toplayan: Sevinc Bağdadova.

Danay Behlul və Şah Abbas. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.149-151. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Padşahla rəssam. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.151-152. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Fatma xanım. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.152-155. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Məhəmmədin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.156-159. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Ağıl və bəxt. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.159-160. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

"Qabax qız"ın nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.160-163. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Teymurnan Tərlan. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.283-284. Söyləyəni Nağıyeva Nazlı İbrahim qızı, Dərələyəzin Qovuşuq kəndi.

Xayin vəzir. İlk dəfə "Azərbaycan folkloru antologi-

yası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.333-334.

Sas tavuğun tələngi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.335-338.

Odunçu qızı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.339-343.

Gögərçinin otluğu (otu). İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.348-349.

İlan şahı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.349-353.

Palançı qız. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın II cildində (İraq-Türkman folkloru) çap olunub. B., 1999, s.359-363.

Qismət. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın III cildində (Göyçə folkloru) çap olunub. B., 2000, s.53-54.

Hüseyn Coşkərin nağılı. Söyləyəni Həsənov Aşıq Valeh Rəhim oğlu, Zaqatala rayonu, 1937-ci il təvəllüdlü. Toplayan: Zümrüd İbrahim qızı.

Şah Abbasın evlənməsi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.163-167. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva.

Rüstəmzal. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.184-186. Söyləyəni Alışov Şəmil Baxış oğlu, Ağdaş rayonu, Şıxlı kəndi, II sinifi qutarıb, 1935-ci il təvəllüdlü, Toplayan: İlkin Rüstəmzadə.

Axsaxca ceyran. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.229-230. Söyləyəni Lətifova Çiçək Umar qızı, Ağdaş

rayonu, Şəmsabad kəndi, orta təhsilli, pensiyaçı, 1920-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Andın gücü. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.249-250. Söyləyəni Həsənov Vaqif Bədrəddin oğlu, Ağdaş rayonu, Hüşün kənd. Toplayan: İlkin Rüstəmzadə.

Peyğəmbərin axirət qonşusu. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.252-254. Söyləyəni Həsənov Vaqif Bədrəddin oğlu, Ağdaş rayonu, Hüşün kənd. Toplayan: İlkin Rüstəmzadə.

İsgəndərin buynuzu. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.257-259. Söyləyəni Yusifova Zülqayda Kərim qızı, Ağdaş rayonu, Şəmsabad kəndi, 1930-cu il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Bərəkət surfası. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.259-261. Söyləyəni Kərimova Bəstiqız Əhmədalı qızı, Ağdaş rayonu, Aral iki kəndi, 1932-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Əlinin şücaəti. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.261-263. Söyləyəni Məhərrəmov Məmmədsəid Əli oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1928-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Kəsik baş. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.264-265. Söyləyəni Yusifov Əhməd Abduləziz oğlu, Ağdaş rayonu, Ləki qəsəbəsi, 1928-ci il təvəllüdlü.

Üç manatın misalı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.269-271. Söyləyəni Əhmədov Əhmədiyyə Kərim oğlu, Ağdaş rayonu, Ərəb kəndi, 1927-ci il təvəllüdlü.

Toplayan: İlkin Rüstəmzadə.

Kişilərin bel ağrısı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s. 276-278. Söyləyəni Əliyev Əlağa Əli oğlu, Ağdaş rayonu, Pirəzə kəndi, 1927-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Fironun cənnət tikdirməsi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.279-281. Söyləyəni Kərimov Kərim oğlu İsaq oğlu, Ağdaş rayonu, Əmirmahmud kəndi, 1928-ci il təvəllüdlü, 7 illik təhsil. Toplayan: İlkin Rüstəmzadə.

İbrahimxəlil peyğəmbər. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.272-273. Söyləyəni Əhmədov Əhmədiyyə Kərim oğlu, Ağdaş rayonu, Ərəb kəndi, 1927-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Musa ilə Xıdırın yolçuluğu. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.285-288. Toplayan: İlkin Rüstəmzadə.

Qismətdən qaçmaq olmaz. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.293-294. Söyləyəni Əhmədov Əhmədiyyə Kərim oğlu, Ağdaş rayonu, Ərəb kəndi, 1927-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Dirinin sorğu-sual edilməsi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.298-300. Söyləyəni Məhərrəmov Məmmədsəid Əli oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1928-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Süleyman və Zümrüd quşu. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.309-310. Söyləyəni Abdullayev Məsim Qiyas oğlu, Ağdaş rayonu, Kükəl kəndi. Toplayan: İlkin Rüstəmzadə.

Bağışlanmaz günah. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.314-315. Söyləyəni Yusifova Zülqayda Kərim qızı, Ağdaş rayonu, Şəmsabad kəndi, 1930-cu il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Ölümdən qaçan gənc. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.316-318. Söyləyəni Məhərrəmov Feyruz Məmmədsəid oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1964-cü il təvəllüdlü, orta təhsilli. Toplayan: İlkin Rüstəmzadə.

Əbədi həyat axtaran gənc. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.323-325. Söyləyəni Məhərrəmov Feyruz Məmmədsəid oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1964-cü il təvəllüdlü, orta təhsilli. Toplayan: İlkin Rüstəmzadə.

Pul insanı dəyişdirir. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.326-327. Söyləyəni Məhərrəmov Feyruz Məmmədsəid oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1964-cü il təvəllüdlü, orta təhsilli. Toplayan: İlkin Rüstəmzadə.

İvraamın nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.351-356. Söyləyəni Kərimov Kərim oğlu İsaq oğlu, Ağdaş rayonu, Əmirmahmud kəndi, 1928-ci il təvəllüdlü, 7 illik təhsil. Toplayan: İlkin Rüstəmzadə.

Şah və qəssab. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.356-357. Söyləyəni Məhərrəmov Məmmədsəid Əli oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1928-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Şah Abbasın sınağı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.357-358. Söyləyəni Yusifov Yusif Abdulla oğlu, Ağdaş rayonu, Ərəbocağı kəndi, 1930-cu il təvəllüdlü.

Toplayan: İlkin Rüstəmzadə.

Əsli hu. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.360-363. Söyləyəni Dadaşov Knyaz Qardaşəli oğlu, Ağdaş rayonu, Padar kəndi, 1926-cı il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Şah Abbas və üç dilənçi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.363-365. Söyləyəni Əliyev Əlağa Əli oğlu, Ağdaş rayonu, Pirəzə kəndi, 1927-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Ləl-cəvahirata dönmüş sünbül. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.371-273. Söyləyəni Osmanov Dursun Əli oğlu, Ağdaş rayonu, Bulaqotağı kəndi, 1935-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Yengivar şah. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.373-376. Söyləyəni Məhərrəmov Məmmədsəid Əli oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1928-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

İbrahimin nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.383-385. Söyləyəni Alışov Şəmil Baxış oğlu, Ağdaş rayonu, Şıxlı kəndi, II sinifi qutarıb, 1935-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

İki münəccim. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.385-387. Söyləyəni Dadaşov Knyaz Qardaşəli oğlu, Ağdaş rayonu, Padar kəndi, 1926-cı il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Ağanəzər. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.389-393. Söyləyəni Qocayeva Kamilə Əlpaşa qızı, Ağdaş rayonu, Hüşün kəndi, 1934-cü il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

İnsanın şeytanı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.394-396. Söyləyəni Həsənov Vaqif Bədrəddin oğlu, Ağdaş rayonu, Hüşün kəndi. Toplayan: İlkin Rüstəmzadə.

Qazı padşah. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.416-422. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonu, Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayan: İlkin Rüstəmzadə.

Loğmanın nağılı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.369-371. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonu, Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayan: İlkin Rüstəmzadə

Fərasətli qardaşlar, Dilimi yaxşılığa öyrədirəm, Keçəllə kosanın nağılı, Keçəllə kosa şərikli kömbə bişirir, Mollaynan keçəlin nağılı, Üzlü qonaq. Söyləyəni Süleymanov Əli Rəmdar oğlu, Ağdam rayonu. Müvəqqəti olaraq Ağdaş rayonu, Qumlaq kəndində məskunlaşıb.

Cənnət xidmətçisi. Söyləyəni Əliyev Bayram Ağəli oğlu, Ağdam rayonu, 1922. Hal-hazırda Ağdaş rayonu, Hüşün kəndində məskunlaşıb.

Çörəyin savabı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.271-272. Söyləyəni Əhmədov Əhmədiyyə Kərim oğlu, Ağdaş rayonu, Ərəb kəndi, 1927-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Şahzadə Bəndalı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 1994, s.110-117. Söyləyəni Vəliyev İsmayıl, Şahbuz rayonu, Biçənək kəndi.

Aldadılmış ayı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.428-429. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş

rayonu, Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayan: İlkin Rüstəmzadə.

Ana övladını Əzrayıldan qaçırır. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.321-322. Söyləyəni Yusifova Zülqayda Kərim qızı, Ağdaş rayonu, Şəmsabad kəndi, 1930-cu il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Yaxşılığa yamanlıq. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.422-423. Söyləyəni Musayev Süleyman, Ağdaş rayonu, Xosrov kəndi. Toplayan: İlkin Rüstəmzadə.

Paslı qılınc. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.425-426. Söyləyəni Əfəndiyeva Solmaz İsmayıl qızı, Ağdaş rayonu, Xosrov kəndi. Toplayan: İlkin Rüstəmzadə.

Xeyirxah heyvanlar. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.437-439. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonu, Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayan: İlkin Rüstəmzadə.

Musa peyğəmbər və Xıdır Nəbi. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.290-293. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonu, Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayan: İlkin Rüstəmzadə.

Bacı həsrəti. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.311-312. Söyləyəni Məhərrəmov Məmmədsəid Əli oğlu, Ağdaş rayonu, Dəhnəxəlil kəndi, 1928-ci il təvəllüdlü. Toplayan: İlkin Rüstəmzadə.

Göz yaşı. İlk dəfə "Azərbaycan folkloru antologiyası"nın XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.312-314. Söyləyəni Adıgözəlov Həmdiyyə Məhəmməd oğlu, Ağdaş rayonu. Toplayan: İlkin Rüstəmzadə.

NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ

Göstərici Aarne-Andreyev və Şərqi slavyan xalqlarının müqayisəli süjet göstəriciləri (qısa adı SUS) əsasında tərtib olunmuşdur. Bəzi süjetlərin qarşılığını müəyyənləşdirərkən Aarne-Tompson və T.D.Kurdovanidzenin gürcü sehrli nağılları əsasında tərtib etdiyi göstəricilərə də istinad olunmuşdur. Aarne-Andreyev və SUS kataloqlarında eyni süjetə bəzən müxtəlif nömrələr altında təsadüf olunur. Belə halla qarşılaşdıqda bərabərlik işarəsi qoymaqla süjetin digər kataloqdakı nömrəsi verilmişdir. Süjet birləşmələrini göstərmək üçün + (üstəgəl) işarəsindən istifadə olunmuşdur.

Göstəricidə aşağıdakı şərti ixtisarlardan istifadə olunub.

AA - Andreyev N.P. Ukazatel skazoçnıx sujetov po sisteme Aarne, L.: 1929

AT - Thompson S. The types of the folktale. A classification and bibliography. Second revision, 1973.

K - Kurdovanidze T.D. Sujetı i motivı qruzinskix volşebnıx skazok (sistematiçeskiy ukazatel po Aarne-Tompsonu) / Literaturnıe vzaimosvyazi. Tom.VI, Tbilisi: Mesniereba, 1977 c.240-263

SUS - Sravnitelnıy ukazatel sujetov: Vostoçnoslavyanskaya skazka (sost.: M.Q.Baraq, İ.P.Berezovskiy, K.P.Kabaşnikov, N.V.Novikov) L.: Nauka, 1979

Qəşəm şahın nağılı. Qarşılığı yoxdur.
Səlimin nağılı. Qarşılığı yoxdur.
Məhəmmədin nağılı. AA 560
Kor dəvə. Qarşılığı yoxdur.
Naxırçı ilə padşah qızı. AA 465C + AA 554
Vəfalı dostlar. Qarşılığı yoxdur.
Gülhüseyn pəhlivan. Qarşılığı yoxdur.
Güllü ilə Səlimin nağılı. AA *449A,B = SUS 449
Peyğəmbərin nəsihəti. Qarşılığı yoxdur.

Vardan səxavət yaxşıdı. Qarşılığı yoxdur.
Padşahın dədəsinnən xəbər. Qarşılığı yoxdur.
Kömbə. Qarşılığı yoxdur.
Zülhəccə ilə ilan. AA 1164
Hüdcü Musa. AA 1535A = SUS 1535 + AA 1537
Çoxbilmiş nəvə. AA 925* = SUS 655 + AA *922 I = SUS 922A
Qaraxan və Duraxan. Qarşılığı yoxdur.
Şeytanın nağılı. AA 315 + AA 1000 + AA 1013 + AA 1029 + AA 1132 + AA 1120 + AA 1537
Tülkünün oğurluğu. Qarşılığı yoxdur.
Tülküynən xoruz. Qarşılığı yoxdur.
Tacir oğlu ilə Səmərqəndin nağılı. AT 861
Baxt. Qarşılığı yoxdur.
Evi kim tikər? Qarşılığı yoxdur.
Tacirlə dərviş. AA 1361 I = SUS 1360C + (970*) (qəhrəman abidin cinayətinin üstünü açır)
Padşahla vəzirin səyahəti. (951*) + (868*) (keçəl özünü Şah Abbasın oğlu kimi qələmə verir)
Məhəmmədin kələyi. AA 950 (qəhrəman padşahın xəzinəsini oğurlayır) + (1595*) (Padşah tabutda)
Şirzadın nağılı. AA 550 + AA 516
Şahın tənbəl qızı. SUS 1370A*
Kəmsərin nağılı. AA 1384 + AA 1540
Çobanın duası. AA 1641
Qara çəyirtkə. AA 1641
Danay Behlul və Şah Abbas. Qarşılığı yoxdur.
Padşahla rəssam. Qarşılığı yoxdur.
Fatma xanım. AA 480A = SUS 480* + AA 510A
Məhəmmədin nağılı. AA 465C
Ağıl və bəxt. AA 945
"Qabax qız"ın nağılı. Qarşılığı yoxdur.
Teymurnan Tərlan. Qarşılığı yoxdur.
Xayin vəzir. AT 678

Sas tavuğun tələngi. AA 550
Odunçu qızı. Qarşılığı yoxdur.
Gögərçinin otluğu (otu). Qarşılığı yoxdur.
İlan şahı. AA 560
Palançı qız. AA 875 I = SUS 875*
Qismət. AA 834A = SUS 8341
Hüseyn Coşkərin nağılı. Qarşılığı yoxdur.
Şah Abbasın evlənməsi. SUS 1415* (Qız beş manata qoyun, at üçün xalı və bir şiş də kabab almalıdır) + AA 875 I = SUS 875* (Ağıllı arvad) + SUS 875** (Yola nərdivan salaq) + SUS 888A* (Baftaçı Şah Abbas) + AA 925
Rüstəmzal. AA 300A (Suyun qabağını kəsmiş əjdaha)
Axsaxca ceyran. AA 450 + AA 510A
Andın gücü. Qarşılığı yoxdur.
Peyğəmbərin axirət qonşusu. Qarşılığı yoxdur.
İsgəndərin buynuzu. AA782
Bərəkət surfası. AA 650 + AA 300A
Əlinin şücaəti. AA 650 + AA 300A
Kəsik baş. AA 301A. Aarne-Andreyev göstəricisindəki variantdan fərqli olaraq bu süjet dini nağılların kompozisiya xüsusiyyətləri əsasında formalaşmışdır.
Üç manatın misalı. Qarşılığı yoxdur.
Kişilərin bel ağrısı. Qarşılığı yoxdur.
Fironun cənnət tikdirməsi. Qarşılığı yoxdur.
İbrahimxəlil peyğəmbər. Qarşılığı yoxdur.
Musa ilə Xıdırın yolçuluğu. SUS 795A
Qismətdən qaçmaq olmaz. AA 759
Dirinin sorğu-sual edilməsi. Qarşılığı yoxdur.
Süleyman və Zümrüd quşu. Qarşılığı yoxdur.
Bağışlanmaz günah. SUS 795*
Ölümdən qaçan gənc. Qarşılığı yoxdur.
Əbədi həyat axtaran gənc. K 742
Pul insanı dəyişdirir. AA 796 I = SUS 751C*
İvraamın nağılı. Qarşılığı yoxdur.

Şah və qəssab. Qarşılığı yoxdur.
Şah Abbasın sınağı. Qarşılığı yoxdur.
Əsli hu. Qarşılığı yoxdur.
Şah Abbas və üç dilənçi. Qarşılığı yoxdur.
Ləl-cəvahirata dönmüş sünbül. Qarşılığı yoxdur.
Yengivar şah. Qarşılığı yoxdur.
İbrahimin nağılı. Qarşılığı yoxdur.
İki münəccim. Qarşılığı yoxdur.
Ağanəzər. AA 1060 + AA 407
İnsanın şeytanı. SUS 1353
Qazı padşah. AA 1730
Loğmanın nağılı. Qarşılığı yoxdur.
Fərasətli qardaşlar. SUS 950
Dilimi yaxşılığa öyrədirəm. Qarşılığı yoxdur.
Keçəllə kosanın nağılı. Qarşılığı yoxdur.
Keçəllə kosa şərikli kömbə bişirir. Qarşılığı yoxdur.
Mollaynan keçəlin nağılı. Qarşılığı yoxdur.
Üzlü qonaq. Qarşılığı yoxdur.
Cənnət xidmətçisi. Qarşılığı yoxdur.
Şahzadə Bəndalı. SUS 327B** (Altı qardaş evlənmək üçün altı bacı axtarır) + AA 554 (Heyirxah heyvanlar)
Aldadılmış ayı. AA 1135. Ənənəvi variantdan fərqli olaraq bu süjet heyvanlar haqqında nağılların kompoziysiya xüsusiyyətləri əsasında formalaşıb.
Ana övladını Əzrayıldan qaçırır. Qarşılığı yoxdur.
Yaxşılığa yamanlıq. AA 155
Paslı qılınc. Qarşılığı yoxdur.
Xeyirxah heyvanlar. Qarşılığı yoxdur.
Musa peyğəmbər və Xıdır Nəbi. SUS 795A
Bacı həsrəti. Qarşılığı yoxdur.
Göz yaşı. SUS 755A*

Nağılların süjet göstəricisinin tərtibçisi
İlkin Rüstəmzadə

MÜNDƏRİCAT

Qəşəm şahın nağılı.....3
Səlimin nağılı.....20
Məhəmmədin nağılı.....30
Kor dəvə.....41
Naxırçı ilə padşah qızı.....44
Vəfalı dostlar.....54
Gülhüseyn pəhlivan.....66
Güllü ilə Səlimin nağılı.....69
Peyğəmbərin nəsihəti.....72
Vardan səxavət yaxşıdı.....74
Padşahin dədəsinnən xəbər.....76
Kömbə.....78
Zülhəccə ilə ilan.....80
Hüdçü Musa.....81
Çoxbilmiş nəvə.....83
Qaraxan və Duraxan.....85
Şeytanın nağılı.....91
Tülkünün oğurluğu.....96
Tülküynən xoruz.....97
Tacir oğlu ilə Səmərqəndin nağılı.....98
Baxt 100
Evi kim tikər?.....102
Tacirlə dərviş.....106
Padşahla vəzirin səyahəti.....112
Məhəmmədin kələyi.....115
Şirzadın nağılı.....118
Şahın tənbəl qızı.....124
İki qardaş.....125
Kəmsərin nağılı.....127
Çobanın duası.....129
Qara çəyirtkə.....131
Danay Behlul və Şah Abbas.....133

Padşahla rəssam.....135
Fatma xanım.....137
Məhəmmədin nağılı.....141
Ağıl və bəxt.....145
"Qabax qız"ın nağılı.....146
Teymurnan Tərlan.....149
Xayin vəzir.....151
Sas tavuğun tələngi.....153
Odunçu qızı.....158
Gögərçinin oğluğu /otu/.....164
İlan şahı.....166
Palançı qız.....171
Qismət.....176
Hüseyin Coşkərin nağılı.....177
Şah Abbasın evlənməsi.....211
Rüstəmzal.....216
Axsaxca Ceyran.....220
Andın gücü.....223
İsgəndərin buynuzu.....226
Bərəkət surfası.....228
Əlinin şücaəti.....232
Kəsik baş.....235
Üç manatın misalı.....237
Kişilərin bel ağrısı.....240
Fironun cənnət tikdirməsi.....243
İbrahimxəlil peyğəmbər.....245
Musa ilə Xıdırın yolçuluğu.....247
Qismətdən qaçmaq olmaz.....250
Dirinin sorğu-sual edilməsi.....252
Süleyman və Zümrüd quşu.....256
Bağışlanmaz günah.....258
Ölümdən qaçan gənc.....260
Əbədi həyat axtaran gənc.....263
Pul insanı dəyişdirir.....266

İvraamın nağılı.....268
Şah və qəssab.....275
Şah Abbasın sınağı.....277
Əsli hu.....279
Şah Abbas və üç dilənçi.....283
Ləl-cəvahirata dönmüş sünbül.....286
Yengivar şah.....289
İbrahimin nağılı.....293
İki münəccim.....296
Ağanəzər.....298
İnsanın şeytanı.....305
Qazı padşah.....308
Aldadılmış ayı.....317
Loğmanın nağılı.....320
Arzuolunmaz kürəkən.....322
Fərasətli qardaşlar.....325
Dilimi yaxşılığa öyrədirəm.....332
Keçəllə Kosanın nağılı.....335
Keçəllə Kosa şərikli kömbə bişirir.....341
Mollayla Keçəlin nağılı.....345
Üzlü qonaq.....348
Cənnət xidmətçisi.....352
Çörəyin savabı.....354
Şahzadə bəndalı.....356
Ana övladını Əzrayıldan qaçırır.....365
Yaxşılığa yamanlıq.....367
Paslı qılınc.....369
Xeyirxah heyvanlar.....371
Musa peyğəmbərlə Xıdır Nəbi.....373
Bacı həsrəti.....377
Göz yaşı.....380
Nağılları söyləyənlər və toplayanlar haqqında məlumat......382
Nağılların süjet göstəricisi.....393

Azərbaycan folkloru külliyyatı, VI cild,
Nağıllar (VI kitab),
Bakı, "Nurlan" nəşriyyatı, 2007.

Nəşriyyat direktoru:
Elşən Hətəmzadə

Kompüterdə yığdı:
Aytən Cəfərova
Ləman Qafarova

Korrektorları:
Ləman Süleymanova
Səbinə İsayeva

Kompüter tərtibçisi və
texniki redaktoru:
Baxşəli Süleymanov

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 25 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.

Az 2007/2379

191